ŞİRMƏMMƏD HÜSEYNOV

# MƏNƏVİ İRSİMİZ VƏ GERÇƏKLİK

*("Günay" səhifələrində)*

"Adiloğlu" nəşriyyatı
BAKI – 2004

4 612
H 98

REDAKTOR: Ülkər HÜSEYNOVA

**Şirməmməd Hüseynov.**
***"Mənəvi irsimiz və gerçəklik ("Günay" səhifələrində)".***
Bakı, 2004; 526 səh.

Kitaba müəllifin 2001-2004-cü illərdə "Günay" qəzetində dərc olunmuş 150-yə yaxın müxtəlif janrlı yazısı daxil edilmişdir. Müasir oxuculara təqdim olunan bu yazılar müəllifin yarım əsrdən artıq bir müddətdə apardığı araşdırmaların nəticəsidir. Mütəxəssis oxucular bu yazıların elmi dəyərini, tariximizin öyrənilməsi və anlaşılması baxımından faydalılığını nəzərə alaraq onların ayrıca kitab halında nəşr olunmasını arzu etdiklərini bildirmişlər. Müəllif və "Günay" qəzeti redaksiyası bu arzunu yerinə yetirir.

228957

H $\frac{4712132374}{121\text{-}2004}$ sifarişlə

© Ş.Hüseynov

## ÖN SÖZ

Azərbaycanın çox böyük istedad, qeyrət və qələm sahibi olan şəxsiyyətləri tərəfindən nəşr və idarəedilən mətbuat orqanları səhifələrində təkcə öz dövrü üçün deyil, bu günümüz və gələcəyimiz üçün də lazımlı və faydalı fikir xəzinəsi hifz edilməkdədir. Onları səbrlə, tarixi həqiqətə sədaqətlə araşdırmaq, yeni nəsillərin mühakiməsi və istifadəsinə vermək borcumuzdur. Bu sahədə az iş görülməyib, lakin görüləsi işlər də çoxdur. Məlumdur ki, "tarix" və "elm" birləşdikdə keçmişin həqiqət qapıları açılır. Klassik mənəvi irsimizin sovet dövründə öyrənilməsi və tədqiqi, təqdimatı sahəsindəki müsbət təcrübə ilə yanaşı, məlum ideoloji meyarlara uyğun təhrif və saxtakarlıqlar da az olmamışdır. Hələ 1995-ci ilin aprelində Rusiyanın nüfuzlu "Nezavisimaya qazeta"sı yazmışdı: "Son 70 ildə ölkənin tarixi ən azı 6-7 dəfə yenidən nəzərdən keçirilib yazılıb və hər dəfə də yuxarıların göstərdikləri istiqamətdə saxtalaşdırılıb". Bu üzdəniraq "təcrübə" sona yetməyib. Həm də bu təkcə Rusiya və onun yolunu təqib edənlərin işi olmayıb. Vaxtilə məşhur alman şairi Henrix Heyne yazırdı ki, "tarixi saxtalaşdıranları da qəlb pul kəsənlər kimi mühakimə etmək lazımdır". Lakin bizdə hələ ki, heç kəs belə mühakimənin şahidi olmayıb.

Müstəqillik dövrünün tələblərinə uyğun mənəvi irsimizin açılmamış səhifələrini açmaq, yeni nəslin istifadəsinə vermək sahəsində "Günay" qəzetinin "Tarixi yaddaş" səhifələri və bu mövzuda müntəzəm dərc etdiyi yazılar, materiallar diqqətəlayiqdir. 2001-ci ilin may günlərində məni də qəzetdə bu sahədə əməkdaşlığa dəvət etdilər. Əsas qayəm tarixi-elmi baxımdan günün və dövrün aktual problemlərinə öz munasibətimi bildirməkdən, son illərə qədər aşkarlanmamış, işıq üzü görməmiş, bəzən təhrif olunmuş və hətta saxtalaşdırılmış hadisə və şəxsiyyətlərə aid tarixi faktları, mətbu nümunələrini oxucuların nəzərinə çatdırmaq idi. Artıq 3 ildən çox bir müddət keçmişdir. Oxucuların da arzusunu nəzərə alaraq həmin müddətdə "Günay"da dərc olunmuş yazıları oxuculara təqdim edirəm.

"Mənəvi irsimiz və gerçəklik" adı ilə nəşr olunan kitabın işıq üzü görməsini "Günay" qəzeti redaksiyası öz öhdəsinə götürmüşdür. Təşəkkür edirəm.

**MÜƏLLİF**

# DÜZ ADAM. ELM FƏDAİSİ

Azərbaycan Dövlət Universitetində tələbəlik illərindən, universitetin Kolodeznaya küçəsindəki yataqxanasında birgə yaşadığımız vaxtlardan tanıyıram Şirməmməd müəllimi. Mən və mənim kimi orta məktəb skamyasından universitetə oxumağa gələnlər hələ məqalə yazmağın, nəyisə redaktə etməyin əlifbasını öyrənəndə Şirməmməd müəllim artıq universitet çoxtirajlı qəzetinin redaktor müavini idi. Tələbəlik xatirələrim yaşayır: Şirməmməd müəllim sözümü yerə salmadı. Diplom işimi redaktə etdi.

O, hələ tələbəlik illərindçə azad fikirli olması ilə fərqlənirdi. 1954-cü ildə namizədlik dissertasiyasını tamamlayıb müdafiə etmək üçün Moskva Dövlət Universitetinə bir illik elmi məzuniyyətə göndərildim. O zaman Şirməməd müəllim oranın aspiranturasının sonuncu kursunda oxuyurdu. Şən və zarafatcıl, şirin Şəki lətifələrinin mahir bilicisi və hekayətçisi idi. Tez-tez görüşüb söhbətləşərdik. Hiss olunurdu ki, o, artıq illyuziyalarla yaşamır, suveren şüur sahibidir. Tarixə, həyata baxışı büllurlaşıb. Sonralar onu azad, müstəqil Azərbaycan uğrunda hərəkat iştirakçıları sırasında görəndə təəccüblənmədim. O, bu hərəkata şəxsi maraq xatirinə, yaxud hansısa vəzifə ələ keçirib lüks həyat yaşamağa nail olmaq üçün qoşulmamışdı. Şirməmməd müəllimi hərəkata azadlıq ruhu, əqidəsi gətirmişdi.

Şirməmməd müəllim elm fədaisidir. Xüsusən milli məfkurəmizin - azərbaycançılığın banisi, milli istiqlalımızın "böyük mürşidi" "Məhəmməd Əmin Rəsulzadənin irsinin öyrənilib təbliğ edilməsində Şirməmməd müəllim misilsiz xidmət göstərir.

"Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışıdır... Bu xüsusda biz azərbaycanlılar hamıdan çox işıqlanmaq ehtiyacındayız" (M.Ə.Rəsulzadə). Sənədlər və digər tarixi mənbələr tarixin tədqiqinin təməl daşını təşkil edir. M.Ə.Rəsulzadənin əsərləri milli tariximizin bütöv bir dövrünü öyrənmək üçün qiymətli mənbədir, etibarlı bələdçidir. Neçə illərdir ki, Şirməmməd müəllim bu xəzinənin axtarışı, toplanması ilə məşğuldur. Artıq o, M.Ə.Rəsulzadənin əsərlərinin 1 və 2 cildlərini çap etmişdir. Mütəxəssislər yaxşı bilirlər, belə əsərlərin axtarışı, transliterasiyası, saysız-hesabsız anlaşılmayan sözlərin izahı nə qədər məşəqqətli və ağır işdir. Şirməmməd müəllim bu çətinliklərin öhdəsindən uğurla gəlmiş və təkcə Rəsulzadəşünaslıq üçün deyil, ümumiyyətlə, Azərbaycanşünaslıq üçün müstəsna əhəmiyyətli iş görmüşdür.

Şirməmməd müəllimin fikrinə görə, M.Ə.Rəsulzadənin əsərləri təxminən 12-15 cilddən ibarət ola bilər. Arzu edək ki, Şirməmməd müəllim

başladığı bu böyük və son dərəcə lazımlı işi başa çatdırsın və müvafiq təşkilatlar, qeyrətli insanlar ona yardımçı olsunlar.

Mən həftəlik "Günay" qəzetinin hər nömrəsinin çıxmasını səbirsizliklə gözləyirəm. Neçə illərdir bu qəzetin az qala hər nömrəsində Şirməmməd müəllim görkəmli şəxsiyyətlərimizdən kiminsə vaxtilə çıxmış və unudulmuş yazısını bizə təqdim edir. Kaş "Günay" (yaxud da başqa bir təşkilat) həmin materialları toplayıb kitab şəklində də buraxaydı!

Şirməmməd müəllim düz adamdır. Heç bir halda qəlbini, mövqeyini gizlətməyən, haqqı-nahaqqa dəyişməyən şəxsiyyətdir.

Yorulmayasan əziz dostum və həmkarım Şirməmməd müəllim! Yaşasın axtarıb tapmaq və yaratmaq eşqin!

**Tofiq KÖÇƏRLİ,**
*tarix elmləri doktoru, AMEA-nın akademiki.*
*6.11.04.*

## LƏYAQƏT MÜCƏSSƏMƏSİ

**Əzizim Şirməmməd müəllim!**

75 illik ömür yolunun 50 ildən çoxunu bir yerdə çiyin-çiyinə keçdik. Bu müddət ərzində sənin də, mənim də nə qədər dostumuz, həmkarımız, həmsöhbətimiz olub, amma ömrün döngələrində müxtləif səbəblərdən biz onları ya itirmiş, ya da ayrılmışıq. Mən sənin 75 yaşının tamam olduğu gün "525-ci qəzet"də keçmiş tələbən və bügünkü həmkarın, məqalələrini sevə-sevə oxuduğum Cahangir Məmmədlinin sənin haqqında yazdığı və sənin xarakterinin incəliklərini böyük məharətlə açan məqaləsini oxuyub öz-özümə düşündüm: Ömür yollarımızın 50 ildən çoxunu biz necə oldu ki, fasiləsiz, zədəsiz, bərabər keçə bildik? Bunun sirri nədədir? Çünki bizim ömür yolumuz adicə ömür yolu deyildi. Bu, əqidə, amal yoluydu. Bizim ömür yollarındakı birliyimiz də fikir, düşüncə və əqidə birliyi idi.

Səninlə bərabər universitetdə işlədiyim zaman müxtəlif bəhanələrlə məni müəllimlikdən uzaqlaşdırmaq üçün donoslar, imzalı-imzasız məktublar təşkil edirdilər, tez-tez mühakimə olunurdum. O zaman sən fakültə partiya təşkilatının katibi idin. Mənə verilən ittihamların əksəriyyətin-

də auditoriyada millətçilik təbliğatı ilə məşğul olmağım göstərilirdi. Sən dəmir məntiqin və kəskin ağlınla bu ittihamları rədd edir və mənim müdafiəmə qalxırdın. Sən o zamanlar məndən çox, mənimlə ortaq olduğun əqidəni müdafiə edirdin.

Burda təxminən 20-25 il əvvəl olmuş bir əhvalatı xatırlatmaq istəyirəm:

Bir gün böyük bir vəzifə sahibinin xahişi ilə onunla görüşdüm. Məlum oldu ki, bu adamın yaxın qohumlarından biri jurnalistika fakültəsində oxuyur. Bir çox nüfuzlu adamlar dəfələrlə müraciət etsə də, sən o tələbəyə qiymət verməmisən. Buna görə də vəzifə sahibi sənin ən yaxın dostun kimi indi də mənə müraciət edir ki, mən bu işi yoluna qoyum.

Mən gülüb dedim ki, sənin bu cidd-cəhdinin heç bir əhəmiyyəti yoxdur. Bunun yalnız bircə yolu var: Düzlük! O, heç bir xahişə, minnətə baxan adam deyil.

Həqiqətən də belə oldu. Sonralar eşitdim ki, həmin tələbə oxumağa məcbur olub və bundan sonra səndən qiymət ala bilib. Bax, budur müəllimlik borcuna sədaqət, namus, mənəvi təmizlik və dəyanət!

Əziz dostum, sən vətənpərvərlik, düzgünlük, haqqsevərlik, gözütoxluq kimi bir çox mənəvi xüsusiyyətlərinlə mənə həmişə XIX əsrin sonu, XX əsrin əvvəlində yaşamış böyük əqidəli ziyalılarımızı xatırlatmısan. H.Zərdabi milli mətbuatımızın təməl daşını qoydusa, sən bu böyük işin davamçısı kimi bir neçə jurnalist nəslinin müəllimi olmusan.

Anan səni sözün həqiqi mənasında müəllim doğub. Çünki sən yalnız auditoriyada yox, həyatda da müəllimsən, öyrədirsən. Buna görə də mən burda "müəllim" sözünü yalnız lüğəti mənasında deyil, daha geniş örnək, nümunəvilik mənasında işlədirəm. Sən öz əxlaqın, ləyaqətin, dönməzliyin, təmizliyin, bütövlüyün, mərdliyin və kişiliyinlə həm öz yaşıdlarına, həm də çağdaş gəncliyə nümunəsən, örnəksən.

Əziz qardaşım, əgər məndən "Şirməmməd kimdir?" - deyə soruşsalar, mən 2 misra ilə belə cavab verərdim:

**Şirməmməd - əxlaqın, haqqın öz səsi**
**Ləyaqət, dəyanət mücəssəməsi!**

**Bəxtiyar VAHABZADƏ**
*Xalq şairi, akademik*

**"525-ci qəzet", 22 dekabr 1999-cu il**

# TALİSMAN

İndiyəcən yüz-yüz yazı işləmişəm. Amma heç vaxt narahatlığı, məsuliyyət anını bu qədər ağır keçirməmişəm. Birdən ağlıma gəlir ki, ömrünün ən ağır, çətin günlərində sənə təsəlli olmuş bir insan, dünyanı və həyatı dərk etməyi, necə yaşamağı öyrədən bir MÜƏLLİM haqqında nəsə demək elə TANRI haqqında söz demək qədər məsuliyyətlidir. İnsanın bioqrafiyası onun uşaqlıq çağlarından başlayır. Ən çətini budur ki, Şirməmməd müəllimin uşaqlıq dövrü olmayıb. Və deməli, bu yazının ənənəviliyinə əsas yoxdur. Universitet auditoriyasında dərsə başlayanda onun otuz yaşı olub. Məncə onu otuz beş il əvvəl - qırx yaşında gördüyüm bu müəllimin, məncə, heç vaxt otuz yaşı, iyirmi yaşı, on yaşı, bir yaşı olmayıb. Auditoriya davranışı, elmə, tələbəyə münasibəti elə ilk gördüyüm cavan çağından klassik müəllim imicini xatırladır. Yalnız onun simasında Səhhət, Əbdürrəhimbəy, Çəmənzəminli... tipli klassik müəllim obrazları dururdu gözümüzün qabağında. Sərt və qayğılı. Sərt və içi tələbəyə məhəbbət dolu bir insan. Sərt və ədalətli. Sərt və təmiz. Sərt və elmi... həyatının bütün anlarında sərtlik onun fəaliyyətinin birinci komponenti olub. Dünyanı zarafat sayanlara bu zarafatın zarafat olmadığını anlatmaq sərtliyi. Bir də təmənnasızlıq. Bütün həyatını təmənnasız yaşadığı dərhal gözünün içindən bilinir. Və bir az da yaxından tanıdıqca təmənnasızlığın onun həyatında ən ciddi keyfiyyət olduğunu anlayırsan. İnsanı gözükölgəli olmağa, anlamağa və düşünməyə macal verməməyə, yaltaqlıq və yalan tərifə sürükləməyə ancaq təmənnanın gücü çatır. Bizim günlərimizdə müəllim təmənnasızlığı bəlkə ona görə qəhrəmanlıq sayılır ki, insanı ləyaqətə aparan bu keyfiyyətin qarşısında hər adam tab gətirə bilmir. Şirməmməd müəllimin təmənnasızlıq dərsləri bütöv bir kollektivin ictimai gözdə, ictimai rəydə təmizliyini təmin edib. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsi müəllimli-tələbəli həmişə təmiz bir ömür yaşamaqdadır. Bu təmizlik dünyasından duyduğumuz iftixar üçün hamımızın müəllimi - Şirməmməd Hüseynova borcluyuq. Hər şeydə çətini bünövrənin qoyuluşudur. Jurnalistika fakültəsinin haçansa qoyulan təmiz bünövrəsinə toxuna biləcək çirkli əlləri Şirməmməd müəllim ən ədalətli hakim sərtliyi ilə kəsib atmışdır.

Adam var ki, öz borcunu vəzifə pilləsinə görə tənzimləyir. Şirməmməd müəllim üçün bu fakültədə vəzifənin fərqi olmayıb. Lap adi müəl-

limdən tutmuş dekanlı günlərinədək bütün pillələrdə universitetin təmizlik ləyaqətini qoruyub.

Ləyaqətsiz, natəmiz adam ona dost ola bilməz. Adi müəllimdən tutmuş rektora qədər o, həmişə ancaq ləyaqətlilərlə ünsiyyət bağlayıb. Şirməmməd müəllim universitet ləyaqətini öz şərəfi sayan Mehdi Əliyevlə dost ola bilərdi. Şirməmməd müəllim Azərbaycan hüquqşünaslarının nadir təmizlik və ləyaqət simvolu olan Məmməd Xələfovla dostluq edə bilərdi...

Universitetdə tanıdığımız və tanımadığımız Şirməmmədlər çox olub. Ancaq universitet elminin, universitet pedaqogikasının və ən əsası, universitet təmizliyinin uzun müddət, həm də Şirməmməd müəllimin çiynində dayandığını heç kəs inkar edə bilməz. Öz tələbəsinə əyri gözlə baxan altmışıncı illərin universitet rektoru onun qəzəbinin hesabına isti kreslosunu tərk edib. Tələbəsindən təmənna uman neçə-neçə "müəllim" onun bircə işarəsi ilə universitetdən uzaqlaşıb. Nadir müəllimlərdəndir ki, heç vaxt ona tələbə "tapşırmaq" olmur. Həm də nadir müəllimlərdəndir ki, heç vaxt tələbəyə qeyri-obyektiv qiymət verməyib. Fakültədə saxlamaq üçün tələbələri içərisindən zaman-zaman müəllim seçib. Bu seçimində tələbəsinin təmizliyi, elmliyi əsas ölçü olub. F.Mehdini, Y.Əlizadəni, A.Rüstəmovu, N.Əhmədlini haçansa beləcə müştəri gözü ilə duyub və fakültədə qalmalarına şərait yaradıb. Təmiz dünyasının təmizliyindən yoğrulmuş bu adamların indi bəzən bir neçə yerdə işləməyə məcbur olmasına, başqaları kimi haçansa özünə "gün ağlamasına" işarə ilə bizi sınayırmış kimi bir dəfə: - Sizi bədbəxt eləmədim ki? - dedi. İçində çox-çox qəribə, bəlkə də zamana üsyan faktı daşıyan bu sual şəxsən mənə yönəlmişdi və mənim həmin anda nədənsə Mirzə Cəlilin bir zaman uşaqlarının soyuq otağını qızdırmaq üçün öz əlyazmalarını sobada yandırmağı yadıma düşdü...

Qəm eləmə, Şirməmməd müəllim! Bu dünyada hər şey ötəri, hər şey gəldi-gedərdi. Tarix bizə həşəmət sahiblərinin miskin sonucunu çox göstərib. Ömrünü bir quru həsir üzərində başa vuran H.Zərdabinin, əlyazmalarını soyuq otağın hərarətinə çevirən Mirzə Cəlilin, tiranların əlindən didərgin düşən Məhəmməd Əminin, Ceyhun Hacıbəylinin... qarşısında neft və milyonlar sahiblərinin izi də qalmadı.

H.Zərdabinin "bizə bu dünyada ancaq təmiz ad və ləyaqət qalacaq" kəlamının sərt gerçəkliyi qarşısında bər-bəzəkli avtomobillərin, möhtə-

şəm villaların, saxta tərif və saxta məhəbbətin mənasızlığını anlamamaq da nadanlıq olardı. "Vətən, vətən" deyib - ancaq arzularla yaşamaq hələ vətənə sevgi deyil. Şirməmməd müəllim pafoslu, poetik sözlərdən uzaqdır. Hər şeyi elmi məntiqlə, elmi proqnozla hesablayır. Bəlkə də ona görə ki, bu keyfiyyətin çox yaşadığı bir çağda - 1950-ci illərdə Moskvada aspiranturada oxuyub. Bu gün Azərbaycan jurnalistikasının elmi və praktik istiqamətində qəbul olunmuş Şirməmməd Hüseynov məktəbi eyni ilə Rusiyada Yasen Nikolayeviç Zasurski məktəbinə ekvivalentdir.

Moskva universiteti kimi nəhəng bir elm, tədris müəssisəsində cəmi dörd il aspirant olub yadda qalmaq zor işdir. Şirməmməd müəllim bu universitetin elmi əsərlərində, toplularında, simpozium və seminarlarında çıxışları ilə yadda qalır. Şirməmməd müəllimin Polşa, Bolqarıstan, Çexoslovakiya, Türkiyə səfərlərinin hamısı elmi əlaqələrə xidmət edib. Məhəmməd Əmin Rəsulzadənin Türkiyədə uyuyan qəbri önündə durmaq və fikrə getmək üçün bu ölkəyə səfər etdi. Məhəmməd Əmin Rəsulzadə də pafoslu sözlər sevmədi, ancaq vətəni sevdi, sevgisini, ağrılarını böyük işlə sübut etdi. H.Zərdabini, M.Ə.Rəsulzadəni, Ü.Hacıbəylini, C.Məmmədquluzadəni, Ö.Nemanzadəni tədris edə-edə müəllimimiz bu təmiz, təmənnasız, qayğılı-ağrılı ziyalıların ömrünü özünə örnək seçdi.

Heyranlıqdan uzaq olan Şirməmməd müəllim ancaq bu sıranın ömür yolundan, sözündən, işindən heyranlıqla danışır. Bu ziyalılara etinasızlıq faktına qarşı özünə xas sərtliyini, əsəbi publisist qələmini işə salır. M.Ə.Rəsulzadə idealları bu ahıl vaxtında sonadək qəbul etdiyi mübarizə faktıdır. Min bir çətinliklə, gecəli-gündüzlü arxiv zəhmətilə, Türkiyə, İran, Azərbaycan məkanlarının nəzərə alınması ilə böyük öndərin əsərlərini toplamış, tərtib etmiş, birinci cildi oxucuya vermişdir. İkinci cildi kitab kimi çap etməyin maddi mümkünsüzlüyü qarşısında "525-ci qəzet"ə - tələbələrinə müraciət etdi və tələbələri bu müraciətə müəllimlərinə məhəbbət timsalında cavab verdilər. Düz bir ildir ki, "525-ci qəzet"in oxucuları hər çərşənbəni M.Ə.Rəsulzadə publisistikası ilə qarşılayırlar.

Şirməmməd müəllim bu qədər gərgin pedaqoji, elmi işin qarşısında publisist qələmini də heç vaxt yerə qoymayıb. Neçə-neçə monoqrafiyanın, 200-dən çox elmi məqalənin müəllifi daim publisist işi də görüb. Yenidənqurmanın lap ilk illərində əlinə düşən girəvədən dərhal istifadə elədi və "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" fundamental sualı ilə publisist yazılarını ortaya qoydu. Bu kitaba elə o vaxt ön söz yazmış

B.Vahabzadədən yaxşı necə demək olar: "...Mən bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu xətt bunları yazan müəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən-məqaləyə dərinləşir. Və 50 ilə yaxın bir müddətə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyan çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa, bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır".

Bizim çox dərdimiz var. Saymaqla qurtaran deyil. Bizim təsəllilərimiz də çoxdur. Və o təsəllilər sırasında Şirməmməd müəllimin müasiri olmaq, onun dərslərinə qulaq asmaq, yanında işləmək, sözünü, söhbətini dinləmək kimi önəmli bir faktımız var.

Xoşbəxtliyimiz odur ki, bir iş görmək istəyəndə əvvəlcə qarşımıza sual qoyuruq: Görəsən, Şirməmməd müəllim nə deyər? Bu sual bizi şərdən və bəsit əməldən, pislikdən və səviyyəsizlikdən, ləyaqətsizlikdən və şübhəyə əl yerindən qoruyan talisman kimi və bəlkə də Tanrı haqqı kimi həmişə köməyimizə çatıb.

**Cahangir MƏMMƏDLİ**

***"525-ci qəzet" 17 dekabr 1999***

## ƏVƏZEDİLMƏZ FƏDAKARLIQ

Şirməmməd Hüseynovla keçən əsrin 60-cı illərinin əvvəlində Azərbaycan radiosunun son xəbərlər redaksiyasında çalışdığım zaman tanış olmuşam. O zamandan bu günə kimi onu vətənpərvər və prinsipial, istedadlı və orijinal jurnalist, alim və müəllim kimi tanıyıram.

O vaxt biz radioya nə isə bir yenilik, bir nəfəs gətirmək fikrinə düşmüşdük və heç kəsdən icazə almadan xəbərlərin içində beynəlxalq mövzuda şərhlər vermək qərarına gəldik. Bu sahədə mütəxəssis isə yox idi. Şirməmməd müəllimin "Son xəbərlər"də çalışan tələbələrinin məsləhəti ilə bu işə onu dəvət etdik və yanılmadıq.

O zamanlar belə işə başlamaq asan məsələ deyildi. Çünki beynəlxalq mövzu Moskavanın monopoliyasında idi. Biz isə təhlükəli bir işə girişmişdik. Nəticəsi pis olmadı. Şirməmməd müəllimin fəal iştirakı ilə "Dünya həftə ərzində" daimi proqram efirə getməyə başladı və bu sahədə fəaliyyətimiz genişləndi. Şirməmməd müəllim daimi əməkdaşımız oldu və onun beynəlxalq mövzuda şərhləri və xülasələri tez bir vaxtda radio dinləyicilərinin rəğbətini qazandı.

Şirməmməd Hüseynovun bir jurnalist və tədqiqatçı kimi ən böyük xidmətini Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdırmasında görürəm. O, heç bir yardım almadan bu cümhuriyyətin banisi M.Ə.Rəsulzadənin irsini böyük çətinliklərlə axtarıb tapmış və onun əsərlərini çap etməyə başlamışdır. Bu, əvəzolunmaz fədakarlıqdır.

**Hacı HACIYEV,**
*Azərbaycan Jurnalistlər Birliyinin sədri*

## MƏTBUAT TARİXİNİN ÇƏTİN YOLLARINDA

Əziz qardaşım, əgər məndən "Şirməmməd kimdir?" - deyə soruşsalar, mən 2 misra ilə belə cavab verərdim:

***- Şirməmməd - əxlaqın, haqqın öz səsi,***
***Ləyaqət, dəyanət mücəssəməsi!***
**Bəxtiyar Vahabzadə.**

Biz jurnalistika fakültəsində oxuyarkən ən cavan müəllimimiz Şirməmməd Hüseynov idi. Partiya mətbuatı tarixindən dərs deyərdi. Bütün Avropanın kommunist partiyası tarixini əhatə edirdi. Bu fənni çox oxuyardıq, çünki o, tələb edirdi. Heç kəsə güzəşt etməzdi. Amma mən həmişə əla qiymət alardım...

Şirməmməd müəllim 1924-cü il dekabrın 17-də anadan olmuş, Şəkinin havasını almış, bu havada böyümüşdür. Bizə dərs deyəndə hiss olunurdu ki, o texniki fənləri yaxşı bilir, xüsusən riyaziyyatı, fizikanı. Sonra

məlum oldu ki, o, iki illik Şəki şəhər müəllimlər institutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1944-1945-ci illərdə "Şəki fəhləsi" qəzetində çalışmış və jurnalistika şöbəsi yaradılan kimi 1945-ci ildə sənədlərini bu şöbəyə verərək jurnalist olmaq qərarına gəlmişdir. Həmin şöbəni əla qiymətlərlə bitirib fərqlənmə diplomu almış və dərhal Moskvaya jurnalistika fakültəsinin əyani aspiranturasına göndərilmişdir.

Moskva məktəbi onu daha da formalaşdırıb, yetişdirmiş və 1954-cü ildə burada dissertasiya müdafiə edib tarix elmləri namizədi olmuşdur. Çox qəribədir ki, ilk dəfə Rusiyanın məşhur jurnalistlərindən ibarət elmi şura yaradılarkən Şirməmməd Hüseynov burada "1917-1918-ci illərdə Azərbaycan mətbuatı" mövzusunda dissertasiyanısını müdafiə etdi. Həmin müdafiədə o zaman Moskvada olan jurnalistika kafedrasının müdiri Həsən Şahgəldiyev iştirak etmiş və nitq söyləmişdir. Şirməmməd müəllim Azərbaycana qayıtmış, həmin ildən indiyə kimi Bakı Dövlət Universitetinin, jurnalistika kafedrasının müəllimidir. Burada o, dosent, professor, dekan, kafedra müdiri səviyyəsinə qədər yüksəlmişdir.

Şirməmməd müəllim çox sanballı adamdır. Jurnalistika şöbəsi filologiya fakültəsindən ayrılıb ilk dəfə fakültəyə çevriləndə onun dekanı Şirməmməd Hüseynov oldu. O, 6 il fakültənin dekanı işlədi (1970-1976) və fakültəni çox genişləndirdi. Əvvəla tələbələrin qəbul sayını artırdı, rus sektorunu da əlavə elədi, fakültəni gözəl bir tədris ocağına çevirdi. O, əvvəlcə filologiya fakültəsində dekan müavini işləmişdir (1966-1969). Tədris məsələlərinin hamısını çox gözəl bilirdi.

Şirməmməd müəllim fizika-riyaziyyat fakültəsini bitirdiyi halda nə üçün jurnalistikaya gəlmişdir? Bu məsələ bir qədər mübahisəlidir. O, sənədlərini şərqşünaslıq şöbəsinə vermişdir. Məqsədi də bu idi ki, dildən daha çox əlifbanı öyrənsin. 1945-ci il idi. O, vaxt müharibə təzəcə qurtarmışdı, hamı sevinc içərisində idi. Tələbələri ciddi imtahandan keçirmirdilər. Bəzən söhbətlə kifayətlənirdilər. Müəllimlərdən biri təkid eləyir:

- Səni şərqşünaslığa yaza bilmərik. Mühakiməli oğlansan, səni yazarıq hüquq fakültəsinə.

Çox təkid edirlər, o razı olmur. Axırı onun "Şəki fəhləsi" qəzetində işlədiyini nəzərə alıb, təzəcə açılan jurnalistika şöbəsinə yazdırmağa razı edirlər.

Mən bu barədə sonralar Şirməmməd müəllimlə söhbət etdiyim vaxtlarda ondan soruşdum:

- Yaxşı, Şirməmməd müəllim, sizin çoxlu kitablarınız, külli miqdarda məqalələriniz var, lakin Sizin son dövr fəaliyyətiniz, tədqiqatlarınız ərəb əlifbasıyla bağlıdır. Şərqşünaslıq şöbəsində ərəb əlifbasını daha yaxşı öyrənmək istəyirdiniz, jurnalistika buna mane olmadı ki!

- Yox, sən bilirsən, jurnalistikada da ərəb əlifbasını öyrənirdik. Mənim dissertasiyamın mövzusu 1917-1918-ci illərdə Azərbaycan mətbuatı idi. Ərəb əlifbasını bilmədən bu dövrü öyrənmək mümkün deyildi. Ərəb əlifbasını da mən o zaman azdan-çoxdan bilirdim.

- Siz ən çox M.Ə.Rəsulzadə ilə məşğul olursunuz, amma mənim aləmimdə M.Ə..Rəsulzadə haqqında sizin elədiyinizi heç kəs eləməyib.

- Gərək olanını deyəsən, şişirtməyəsən, artırmayasan. Tarixi hadisəni danmaq olmaz. Bunlar hamısı bizim tariximizdir.

- Siz belə dar macalda, kitab nəşrinin çətin olduğu bir zamanda M.Ə.Rəsulzadənin iki cildliyini toplayıb nəşr elədiniz, çox sağ olun. Ona görə sağ olun ki, müasir oxucuların çox şeydən xəbəri yoxdur. Ərəb əlifbasını da oxuya bilmirlər. Bəzi adamlar hay-küy qaldırır, çığır-bağır salırlar, amma siz başınızı salıb M.Ə.Rəsulzadə irsinin toplanması və nəşri ilə məşğulsunuz. Sizin nəşrlərdən çox şey öyrənirik. Rəsulzadənin əsərlərini əsasən 1914-cü ilə qədər toplayıb nəşr edə bilmisiniz. Mən bunun nə demək olduğunu çox yaxşı bilirəm. Rəsulzadənin heç bir əsəri o illərdə kitab şəklində çap olunmamışdır. İndi onları toplamaq, tərtib etmək çox çətindir. Bu çətin işi siz gördünüz və bizi yeni bir aləmlə üzbə-üz gətirdiniz. Burada nə yoxdur? O dövrün ən məhsuldar publisistlərindən biri Rəsulzadədir. Onun həmin illərdə İrana gedib Səttarxanla görüşməyi, İran məktubları, erməni məsələsindəki prinsipiallığı, "Nagəhan bəla" səhnə əsəri, N.Nərimanovun, Ü.Hacıbəyovun əsərləri haqqında doğru fikirləri, İranda Avropa tipli qəzeti buraxması bizim üçün fəxrdir. Hələ N.Nərimanovun "Bahadur və Sona" romanı haqqında "İqbal" qəzetinin 4 nömrəsində dərc etdirdiyi gözəl məqaləsinə görə ona, hətta sizə də çox sağ ol demək lazımdır. O, həmin məqaləsində yazırdı: "Bu müvəffəqiyyətdən ötrü Nəriman qardaşımızı bütün səmimiyyətimizlə təbrik edirik". Bu sözlər nə qədər gözəl səslənir. Mən deyəndə ki, N.Nərimanov və M.Ə.Rəsulzadə "bir millətin iki gözü, bir millət ağacının iki budağıdır", onda bəzi ağzıgöyçəklər bunu bəyənmir, onları bir-birinə qarşı qoyur, adlarının bir yerdə çəkilməyini istəmirlər...

Budur professor Şirməmməd Hüseynovun meyarı, ölçüsü. O, düzü

düz, əyrini əyri deməkdən çəkinmir, qorxmur. O, belə yaşamış və belə öyrətmişdir. Onu ucaldan da, yaşadan da budur. Şirməmməd Hüseynova bir neçə şer həsr etmiş, onun ləyaqətini, dəyanətini, qeyrətini həmişə yüksək qiymətləndirmiş, öz uşaqlıq dostunun bu cəhətləri ilə fəxr etmiş hörmətli şairimiz Bəxtiyar Vahabzadə onun "Müstəqilliyin çətin yolu" kitabına yazdığı "Öz gözü ilə görüb öz ağlı ilə düşünmək" sərlövhəli müqəddimədə deyir:

"Jurnalistlərimizin ağsaqqalı Şirməmməd Hüseynov Azərbaycanda sovet rejimi qurulana qədərki dövri mətbuatı böyük səbr və həssaslıqla izləmiş, iynə ilə gör qaza-qaza M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Üzeyir bəy Hacıbəyli və bu kimi böyük qələm sahiblərinin bu gün bizim üçün lazım olan fikir və mülahizələrini üzə çıxarmış, bu kitabı ilə oxucuya təqdim etmişdir".

Şirməmməd müəllim BDU-da mətbuat tarixi kafedrasının professorudur, mətbuat tarixi ilə məşğul olanlara rəhbərlik edir, özü də durmadan, yorulmadan yazır, yaradır. Bu işdə ona uzun ömür, yaradıcılıq uğurları arzu edirəm. Onun yazdığı hər şey maraqlıdır, xoşdur və bizim xalqımızın tarixini öyrənmək üçün lazımdır.

**Şamil QURBANOV,**
*filologiya elmləri doktoru,*
*professor, millət vəkili*
**2003.**

## ÜRƏK QANI İLƏ YAZILMIŞ SƏTİRLƏR

"Əziz qardaşım, mənə "Həyat"ın hamisi demişsən. Gözəl, amma bu sözün təfsiri hacətlidir. "Həyat"ın hamiyi-həqiqisi millətdir. Mən yalnız onun "Tərcüman"ıyam. Millət sənə daim hami olur. Fəqət yeganə şərtini unutma - hər nə yazacaq isən, qələmi üç qəpiklik qara mürəkkəbə batırma, ürəyinə batırıb qanı ilə yazı yaz. Sözün ötər, vicdanlara yetər. Əks halda bisəmərə gələr, keçər, gedər. Qardaşım, sənə bu sözlərim həm rica, həm nəsihət, həm vəsiyyətimdir".

Bu müdrik, ibrətamiz, ürək qanı ilə yazılmış kəlamların müəllifi N.Nərimanovun "Millətin dəyanəti, qeyrətli hamisi" adlandırdığı türk dünyasının ilk milli mücahidlərindən olan İsmayıl bəy Qaspiralınındır.

1905-ci ilin ortalarında Bakıda nəşr olunan gündəlik "Həyat" qəzetinin baş redaktoru, qüdrətli qələm və fikir sahibi Əlibəy Hüseynzadə qəzetin 1905-ci ildə işıq üzü görmüş 131 nömrəsini xüsusi zövqlə cildlədib təqdimat məktubu ilə Baxçasaraya "Tərcüman" qəzetinin naşiri və baş redaktoru, tanınmış jurnalist və mədəniyyət xadimi İsmayıl bəy Qaspiralıya göndərmişdi. 1906-cı il martın 15-də "Tərcüman" qəzetinin 26-cı nömrəsində İsmayıl bəyin bu münasibətlə Əlibəy Hüseynzadəyə "Açıq məktub"u dərc olunmuşdur. Çox səmimi, böyük müdrikliklə yazılmış bu məktubu qiymətli tarixi sənəd adlandırmaq olar. Ümümiyyətlə, 1883-cü ildən Baxçasarayda İsmayıl bəyin nəşrinə başladığı "Tərcüman" qəzeti ilə Azərbaycan ziyalıları və qələm əhli arasında çox sıx əqidə və məslək yaxınlığına söykənən əlaqələr olmuşdur. H.Zərdabinin "Əkinçi"sindən sonra bu, Rusiyada müsəlman türklərinin nəşr etdikləri nüfuzlu, uzunömürlü mətbuat orqanlarından sayılır. Təsadüfi deyil ki, 1914-cü ilin sentyabrında İsmayıl bəyin vəfatı xəbəri də Bakıda çox böyük hüzn və kədərlə qarşılanmışdı. Dövrün qəzetlərində bu münasibətlə xeyli yazı dərc olunmuşdur. Məlumdur ki, bu il İsmayıl bəyin anadan olmasının 150 illiyi tamam olur. Bütün bu tarixi olayları nəzərə alaraq İsmayıl bəyin Əlibəy Hüseynzadəyə "Açıq məktub"unu və N.Nərimanovun İsmayıl bəyin vəfatı münasibətilə "Bəsirət" qəzetində 1914-cü il sentyabrın 20-sində dərc etdirdiyi "Baxçasarayda imtahan meydanı" sərlövhəli yazısını oxuculara təqdim edirəm. Bu yazının mədəniyyət tariximizin öyrənilməsi baxımından faydalı olacağına əminəm.

## İSMAYIL BƏY QASPİRALININ ƏLİBƏY HÜSEYNZADƏYƏ "AÇIQ MƏKTUB"U

Rəfiqi - möhtərəm "Həyat"!

"Həyat"ın bir sənəlik nüsxələrini məxsusi cəm edərək altun qızıl yazı ilə nami-acizanəmə cildlədib və bu da az olur kimi məxsusi bir beyt daha qoşub yenə qızıl altun boya ilə "Təqdimnamə" əlavə və dərc edib göndərmişsən. Çox yaşa, qardaşım, çox yaşa! Lakin mən bu qədər rəğbətə kəndimi (özümü) layiq görmədiyimdən böylə bir hədiyyə almaqda doğrusunu söyləyim, zərrə qədər ümidim yox idi. Kəsrəti-iş-




tiğalımdan (işin çoxluğundan) ötrü doğrudan-doğruya "Həyat" səhifələrinə beş-on sətir yazı verməK əlimdən gəlmədi isə də, 15-20 sənədən bəri Qafqasiyada İslami bir qəzetənin, bir "Həyat"ın zühuruna duaçı bulunduğum məstur (gizli) deyildir.

Fəqət quru duaçılıqdan irəliyə varmadığım həm məlumdur. Şükrxudaya, maşallah zəmanə! İyirmi sənəlik bir həsrətimə qarşı "Həyat" görüldü, "İrşad" eşidildi. Ümidvaram ki, "Həyat" "İrşad"a, İrşad" "Həyat"a xadim olub, məmati (ölümü) ta Qaf dağlarına qədər sürməyə cəhd və qeyrət edərlər.

Rəfiqi - möhtərəm! "Təqdirnameyi-qədirdanə"ni dəfə-dəfə oxudum. 25 sənədən bəri bir neçə yazılar yazıb məcmui ilə söylədiyim

"Bir söz" nə olduğunu anlamış olduğunu anladım. Bəncə bu pək böyük bir təsəllidir", "Nədən təsəllidir?" sualı gəlirsə, söyləyim: "İnsanları təfriq edən üç şey vardır: biri məsafə uzaqlığı, biri din başqalığı və biri dilsizlikdir. Bundan 25 sənə müqəddəm əhvali-milliyəmizi mülahizə edərək zəif başım ilə dərdlərimizə dərman izlədikdə gördüm ki, dinimiz həp bir isə də, məsafə ilə dilsizlik bizləri təfriq edir (ayırır). Səmərati-mədəniyyədən olan paraxodlar, dəmir yollar, teleqraflar sənəbəsənə məsafələrə qələbə etdikləri dəxi görülüb, səbəbi - təfriqəmizə ancaq "dilsizlik", yəni lisani-ədəbiyyəmiz olmadığı baş səbəb olduğu gün kimi aşkar oldu. Bu əsnada cümlə "obrazovannı" - "ziyalı" qardaşlarım kimi mən də türkcə islami yazmaya bilməz idim.

Lakin başımı daşa vurub, əlimə qələm alıb, ən ibtida yazıb nəşr etdiyim sətirləri vicdanına təqdim və ərz edirəm. 1298 səneyi-hicriyyəsinin cəmadiül axirinin 20-ci gününə təsadüf olan 1881 sənəsinin may səkkizinci günü əski türkcədə birinci oğul, birinci əsər mənasındakı "Tunğuc" nam pərakəndə vərəqəyi nəşr etmiş idim. Bunun başında yazdığım "birinci söz" bu sətirlərdən ibarətdir: (Eynənnəql) "Lisanitatariyyənin, yəni türkinin işlənməsinə və irəliləməsinə çalışmaq istərəm. Mən bir usta və qələm əhli deyil isəm də, vətənimin yetişib gələn gəncləri qələm və fünun ərbabı, əməl və qeyrət sahibləri olurlar. Hüsni-zənn ilə bu baltalama qaba qələmimizi yol və car açmaya məxsus elədim".

25 sənədən bəri dediyim, yazdığım, çalışdığım budur! Car (çarə) aramaq, yol açmaq! Başqa bir şey deyildir. Çünki qəvi, nəcib ömürlü, qəddəmli və cəsarətli olan türk millətinin pərakəndə düşüb Səddi-Çindən ağ dənizə qədər cayradığı halda nüfuzsuz, davuşsuz qaldığı lisansızlığından, yəni "lisani-ümumiyə" malik olmadığından irəli gəlmişdir. Bu etiqad ilə ömür etdim, bu etiqad ilə məzara girəcəyəm.

25 sənədən bəri bu məslək üçün arkadaş bəkliyor idim... bunun üçün "Həyat"ın vücudu mənə böyük təsəlli oldu.

Keçən sənə avqustda, bu sənə yanvarda Rusiya müsəlmanlarının ümumi ictimai və məclislərini görmək ilə müşərrəf və bəxtiyar oldum. Bu məclislərin lisani - halı bizlərə nə dərs verdi? "Ümum ittifaq və iş üçün ümumi lisani-ədəbiyyə lazımdır" - dedi.

Vaqeən bir ovuc qədər olan "Tərcüman"ı oxub gəlmiş qazanlı, krımlı, şirvanlı, bakılı, hacıtərxanlı, sibiriyalı, türküstanlı, buxaralı türklər bir-biri ilə bilazəhmət söyləşdikləri görüldü və bunun ilə bərabər məhəlli və yerli şivədən mandə (qalmış) türkiyyat görməmiş, oxumamış olanlar ilə bərabər rusca, fransızca, nemescə dilləri bilən ziyalı, abrazovannı qardaşlarımızın bir-birilə türkcə söhbət eləmədikləri nə-

zəri-ibrətlə müşahidə edildi. Məzkur məclislərimizdə pək mühüm, pək müfid əsaslar qonuldu. Fəqət təkrar edirəm, ən mühüm səmərəsi "lisani-ümumi"yə hacətimizin zahir olduğudur.

Əziz qardaşım, mənə "Həyat"ın hamisi demişsən. Gözəl, amma bu sözün təfsiri hacətlidir. "Həyat"ın hamiyi-həqiqisi millətdir. Mən yalnız onun tərcümanıyam. Millət sənə daim hami olur. Fəqət yeganə şərtimi unutma - hər nə yazacaq isən, qələmi üç qəpiklik qara mürəkkəbə batırma, ürəyinə batırıb qanı ilə yazı yaz. Sözün ötər, vicdanlara yetər, əks halda bisəmərə gələr, keçər, gedər. Qardaşım, sənə bu sözlərim həm rica, həm nəsihət, həm vəsiyyətdir.

Xatimə (son söz)

"Vəsiyyətdir" dediyimə tərs məna verilməsin. Mən şimdidən sonra daha ziyadə çalışacağam. Zaman və hal böylə iqtiza etdi. Lisan birliyini, lisani-ədəbi-ümumiyi daha ziyadə mühafizə etmək günləri gəldi. Şükürlər olsun xudaya, üç-beş aylar içində səkkiz-on ədəd qəzetələrimiz doğdu. Hər birinin niyyəti-xalisəsi maarif, mədəniyyət və tərəqqiyati-milliyə xidmət etməkdir. Amma bunun ilə bərabər hər biri başqa bir şivə, başqa bir imla, başqa bir üsuli-ifadə tutdu. Əgər böylə gedirsə, əhvali-millət ağırlaşacaqdır.

"Mətbuatımız yaponca tərəqqi ediyor" sözləri eşidildi. Hay, hay! Böylə olsa idi, nə xoş! Amma deyil. Çünki yapon adalarının hər birində birər şiveyi-məhəlliyə olduğu halda mühərrirləri və ədibləri ən ibtida "lisan birləşdirməkdən" işə başladılar və bu sayədə dil və lisan ilə bərabər millətin fikirlərini, niyyətlərini və işini birləşdirdilər. Çünki lisan və ədəbiyyat birliyi sair cümlə birliklərin əsası və nəkzidir.

**"Tərcüman", İsmayıl**

*("Tərcüman" qəzeti, 15 mart 1906, №26)*

# BAXÇASARAYDA İMTAHAN MEYDANI

"İsmayıl bəy öldü" - deməyə dilim gəlmir, öldü sözündə yoxluq var. İsmayıl bəy yoxdur - xəbəri məni dərin-dərin fikirlərə salır. Məni qorxudur, ürəyimi sıxır, gözlərimi torlandırır, əqlimi çaşdırır. Şiddətli müharibədə baş komandanın ölməyi qoşunu sərgərdan qoyan kimi İsmayıl bəyin vəfatı da bizi böylə hala saldı.

İsmayıl bəy öldü-deyirkən bir sual öz-özündən meydana gəlir.

İndi millətin dəyanətli, qeyrətli hamisi kimdir? Bu sualı öz-özümə verirəm və fikrə gedirəm. Qələm əlimdən ixtiyarsız düşür.

Millətin həyatına dair mühüm bir məsələ müzakirəsində doğru bir yol göstərən kim olacaq? Hanı gizli xəzinənin açarı? Hanı fikirləri birləşdirən əqil? Ürəkləri döyündürən nitq? Millətin hüququnu müdafiə edən qələm?

Millət bu suallara dürüst diqqət edərsə bədbəxtliyin nə payədə (mərtəbədə) böyük olduğunu düşünər.

Açıq söz: bu 32 ilin ərzində İsmayıl bəy millətinə etdiyi xidməti heç kim etməyibdir.

Fəqət millət üçün ümidsiz yaşamaq mümkünmü?

Şəksiz İsmayıl bəyin ruhu millət balalarından özü kimisini meydana çıxaracaqdır. Fəqət nə etmək? Nə tövr hərəkət etmək ki, İsmayıl bəy kimi qəhrəmanlar çoxalsın?

Əlbəttə tərbiyə! - deyəcəksiniz.

Əvət əfəndim: tərbiyə! Yəni "millət uğrunda bütün ömrünü sərf edən şəxsi millət unutmaz" - sözlərini balalarımıza nəinki düşündürmək və hətta onlara göstərmək lazımdır.

Böylə bir tərbiyə vermək üçün çox yollar vardır.

Fəqət mən burada iki yol göstərmək istərdim.

Əvvəlinci yol: İsmayıl bəyin millətə etdiyi xidməti mükəmməl surətdə açıq lisan ilə yazıb intişar etmək.

İkinci: Baxçasarayda İsmayıl bəyin qəbrinin üstə millət tərəfindən bir daş vəz edib, o daşda bu sözləri yazmaq: "Millət sənin kimi qəhrəmanı unudarsa, kəndi (öz) həyatını puç etməyə çalışar".

Əvvəlinci məsələ, yəni İsmayıl bəyin xidməti barəsində kitabçalar yazmaq mühərrirlərimizə, ədiblərimizə aid isə, ikinci məsələ ümummillətə dair bir məsələdir.

Açıq söyləyəlim: bu məsələ həqiqət milləti imtahan meydanına dəvət edib deyir: səndə milli hiss oyanıbsa, kəndi (öz) hüququnu düşünməsinə bismillah imtahan meydanı açıqdır.

Sənin yolunda bütün ömrünü sərf edən, sənin hüququnu mühafizət edən axır nəfəsinədək səni nicat yoluna dəvət edən şəxsin qəbri səndən ancaq bir daş gözləyir.

Fəqət bu daş ümummillət daşı olmalıdır. Bir adamın xərcilə qoyulan daşın mənası yoxdur. Gələcək balalarımıza böylə bir daşın təsiri olamaz.

Fəqət ümummillət parasına bu daş qoyularsa, gələcəkdə balalarımız bu daşı görüb də millətin millət xadiminə olan məhəbbətini düşünər, hiss edər.

Sabirimiz, Toqayevimiz ümummillətdən şu daşı almadılar. Sabiri Rusiya müsəlmanları, Toqayevi Qafqaz müsəlmanları ola bilsin ki, bilmədilər. Bəlkə bu səbəbdə bir şey meydana gəlmədi. İndi İsmayıl bəyə sözünüz nədir?!

İndi bu məsələdə də "boşboğazlıqdan" başqa meydana bir şey gəlməz isə əmin olunuz: Millətin baş daşı üstə yazılacaqdır:

"Millət İsmayıl bəy kimi qəhrəmanları unudarsa kəndi (öz) həyatını puç etməyə çalışar."

İştə imtahan meydanı açıqdır!...

**Doktor Nəriman,**
*"Bəsirət" qəzeti, 20 sentyabr 1914, N-22*

**"Günay" qəzeti, 13 may 2001, N-19**

## ƏSRLƏR KEÇİR, PROBLEMLƏR İSƏ QALIR, NİYƏ?

**1918-ci il dekabrın 26-da Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 5-ci iclasının gündəliyinə daxil edilən məsələlər sırasında "Əhməd bəy Ağayevin Zəngəzur uyezdi tərəfindən Məclisi-Məbusana nümayəndə intixab edilməsi" də var idi.**

**Qarabağın tacı olan Şuşada dünyaya göz açmış, Rusiya və Fransada mükəmməl təhsil görmüş, bütün varlığı ilə vətəni Azərbaycanın tərəqqi və təkamül yolu ilə irəliləməsinə çalışmış, doğma Qarabağına və əzəli torpaqlarımıza göz dikmiş düşmənlərlə mübarizəni həyatının əsas amal və məqsədinə çevirmiş tanınmış mütəfəkkir bir ziyalının parlamentə başıbəlalı, zəngəzurlular tərəfindən millət vəkili seçilməsi qanunauyğun bir hadisə idi.**

**Əhməd bəy millət vəkili kimi parlamentin cəmi iki iclasında iştirak və çıxış etmişdir. Dekabrın 26 və 30-da Milli Məclisin katibi Əhməd Cövdət Əhməd bəy Ağayevin son çıxışından sonra parlament üzvlərinə müraciətlə bildirdi ki, "Sabah Avropaya azim olacaq nümayəndələrimiz bizim salamımızı haman demokratiyaya yetirib söyləməlidir. İndi bir xırda millət öz istiqlaliyyətini öz əlinə almışdır".**

**Ə.M.Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Əhməd bəy Ağayev də vardı. Lakin İstanbulda onun qarşısını ermənilərin fitvası ilə müttəfiqlər kəsdilər, hətta həbs etdilər.**

**Tarixi əhəmiyyətini nəzərə alaraq istiqlalımızın ildönümü qarşısında böyük mütəfəkkir, dövlət və siyasət adamı Əhməd bəy Ağayevin parlamentimizdəki hər iki çıxışının mətnini oxuculara təqdim edirəm.**

### *ZƏNGƏZURDAN MİLLƏT VƏKİLİ ƏHMƏD BƏY AĞAYEVİN AZƏRBAYCAN PARLAMENTİNDƏKİ ÇIXIŞI*

*(26 və 30 dekabr 1918)*

Möhtərəm əfəndilər! Məndən əvvəlki natiq, möhtərəm rəfiqim hökumətin haqqında həssas pək sıcaq bir nitq irad etdi ki, möhtəviyyatına şərik oluram. Fəqət, onunla mənim aramızda bir fərq var ki, onun atəşi çox, mənim atəşim sönmüş, o gəncdir, mən ixtiyar, onun bir az göylərdə gəzməyə haqqı var, mən isə yeri görməyə məcburam. Hökumətin bəyannaməsində söylədiyi Azərbaycan istiqlalı bizim həpimizin əfzəl amalımızdır. Hər bir kəndi (öz) şərəfini, kəndi (öz)

amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır. (Alqışlar) Lakin bu əməlin ölməmiş və onu qövldən felə (sözdən işə) keçməsi üçün birinci amil-faktor var isə, o da hökumətin kəndisidir (özüdür). Bunu unutmamalıyıq ki, məmləkətimiz qayət böyük təhlükələr ilə əhatəlidir. Gecə-qara gələn fırtına oynayır. Biz də bir taxta para kibi bu fırtınalar içində yuvarlanırız. Bunu qurtaracaq yenə hökumətdir. Bunu qurtarmaq üçün də mən bir əzmkar hökumət istərəm. Fəqət, söylədiyim taxta para təkcə bizdən ibarət deyildir ki, onun üçün düşünmədən işə başlayalım. Bu taxta paranın özü də 3 milyonluq Azərbaycan, onun şərəfi qadın və cocuqları bulunur. Bunları xilas etməklə böyük bir vəzifə ifa etmiş oluruz. Rəisi-vükəla (baş nazir) bir qism bir vəzifeyi öhdəsinə götürdüyü xüsusunda bəyan etdiyi bütün fikrinə iştirak edirəm. Bununla bərabər hökumətin dəxi bir proqramı olmalıdır. O da bu taxta parayi aparmaq üçün sərməkan təşkil edəcəkdir. O sükan üzrə sağasola baxmayaraq, düz doğru amalına doğru kürəklərini çəkib o taxta parayi əzmkaranə bir sahili nicata çıxarmaqdır. Əcəba hökumətin sükanı və əlindəki kürəklər nədən ibarət ola bilər? Biri kəndi (özü) üçün yapdığı proqramdan, digəri o barədə "volya"dan ki, o da bəyannamədən məlum oldu. İstiqlalımızı xaricə qəbul etdirməzdən əvvəl hökumətimizi daxildən təsdiq etdirməliyiz. Ona görə hökumətimiz daxili və xarici düşmənləri məhv edəcək bir hökumət olmalıdır (Mərkəzdən: alqış).

Məəttəssüf, hökumət iradəsini göstərdiyi zamanı olmamışdır (Mərkəzdən: düzdür). Məəttəssüf, ələmlə deyəcəyəm ki, hökumət daxilində işlər lazım olmayan adamlar əlinə tapşırılmışdı. Binaən əleyh (o səbəbə görə) daxildə hökuməti düzəldəcək qəti tədbirlərə müraciəti lazım bilirəm. Ən layiq, ən müdəbbir (uzaq görən) adamların iş başına götürülməsini arzu edirəm. Yalnız, bu vasitələr ilədir ki, sui-istemala (pis niyyətə) xitam verilir və hökumət nahiyələrdə, hər yerdə varlığını ehsas (hiss) etdirir.

Bir də rəis tərəfindən bir ordunun təşkilinin lüzumu göstərildi. Onsuz da hökumət özünü heç kimsəyə ehsas etdirəməz. Onun üçün lazım bilirəm ki, heç bir sinif fərqi olmadan hər kəs əsgərə alınsın. Heç bir yuxarı, aşağı tərəhhüm (mərhəmət) edilməsin (Ümumi alqışlar). Nəzarətlərə (nazirliklər) sıxılmış, gizlənmişlərin kaffəsi (hamısı) alınmalı, bələlərinə şiddətli cəza verərək həp ordu içərisinə atmalıdır (Mərkəzdən və soldan alqışlar). Əks halda cütcünün (kəndlinin) cocuğu alınsa verməməyə haqqı vardır. Bu növ ilə hökumətdən əzm və səbat istərəm.

Xariciyyəyə gəldikdə yenə də keçmişdən şikayətə məcburam. Şimdiyə qədər lazım gələn xarici tədabir (tədbirlər) ittixaz edilmədi.

Qonşularımızdan Ermənistan ilə bizim yekdigərimizə mürəxxəs (səfir) göndərməmiz lazım idi. Halbuki, erməni-müsəlman münasibəti və bütün Zaqafqaziya millətlərini barışdırmaq bizim üçün ən böyük məsələ, ən birinci vəzifədir (Alqışlar). Burada hər iki tərəfdən nümayəndə olması ilə başa gələn bir iş deyildir. Ancaq biz istiqlalımızı Avropaya tanıtdırmalı idik. Azərbaycan bir coğrafi ism deyil, yer üzərində yaşayan bir millətin olduğunu onun qulağına yetişdirmək, Azərbaycan öz mövcudiyyətini Avropaya bu vaxtadəkin andırmamışdır...

Halbuki, iki vəzifə vardır. Məndən irəlidəki rəfiqim bir az idealist olaraq demokratlıqdan bəhs edərək böyük imkanda bulunur. Heyhat! Zənn edirəm ki, kəndisini (özlərini) bildirməyənlər üçün böylə bir nəticənin əldə edilməsi bənddir, məhaldır (çətindir). Kimin dostu, nüfuzu var o tanılar. Dostluqdan irəli qüvvətdi düşünülür. Binaət əleyh Avropada satqın propaqandalar vasitəsilə kəndimizə (özümüzə) nüfuz qazanılmağını bəyani təəssüf etməmək qabil deyildir.

Avropa ilə yolumuz bağlıdır. Orada nə olduğunu bilmiriz. Halbuki, Avropada vüqu olan hadisatdan müqəddəratımız asılıdr. Avropada nə olduğunu bilməli, ona münasib də siyasətimiz olmalıdır. Ona görə də Avropa ilə kuryerlər olmamasına təəssüf etməyə məcbur oluram. Burada beş il mahudlu masalar ətrafında kənardan xəbərsiz siyasət yürüdülməz. Bütün keçmişə aid bu xətaları söyləməkdə məqsədim atidə (gələcəkdə) bunların bir daha təkrar olmaması üçündür.

Ümid edirəm ki, hökumət öz deklarasiyasının həyata tətbiqində təmamən (hamılıqla) təzyiq etməklə əzmkar olmasını dilərik. Bitərəflər naminə etimad edirəm (Alqışlar).

***30 dekabr 1918. 6-cı iclas***

Ağaoğlu Əhməd bəy (növbədənxaric söz alaraq) Əfəndilər! Qəzetdə general Tomsonun son bəyannaməsini oxuduğunuz və əhəmiyyətini təqdir etdiniz. Bu bəyannamə həqiqətən şayani təqdirdir. Bunun bu gün bizim üçün nə qədər əhəmiyyəti olduğu məlumdur. Onun məzmunu millət və hökumətimiz üçün şayani·təbrik bir müvəffəqiyyətdir. Daha Ənzəlidə müttəfiq dövlətlərin nümayəndələri ilə müzakirə olunarkən Azərbaycan bəzi müşkülat çıxara bilərdi. Və öz paytaxtını müdafiəyə müqtədir bir halda idi. Fəqət Azərbaycan 3 böyük dövlət ilə qovğa etmək fikrini hələ ibtidaidən bərtərəf etmişdi. Çünki bu dövlətlər böyük müharibəyə girmədən əvvəl ufaq məmləkəilərin azadlığı, onların hüququnu müdafiə uğrunda müharibəyə girişdiklərini müta-

madiyən elan etməkdə idilər. Daha sonra məzkur hökumətlər Amerika Camahiri Müttəhidəsi (ABŞ) rəisi-cümhuri (prezidenti) cənab Vilsonun dünyaya atmış və bəşəriyyətə təbəşşür (şad xəbər) etmiş olduğu 14 maddəni kəndilərinə (özlərinə) şüar və bir bayraq edərək meydana çıxarmışdılar. Binaən əleyh İngiltərə, Fransa və Amerika nümayəndələri Ənzəlidə müzakiratda bulunan zaman biz bilirdik ki, gəldikləri yerlərdə yaşayan kiçik millətləri əzmək üçün deyil, o millətlərin haqq və mövcudiyyətlərini təmin edəcəklərdir. Biz buna əmin idik. Ona görədir ki, azərbaycanlılar hələ Ənzəlidə ikən qovğayi bərtərəf edərək müttəfiqlərin şərəf və namusuna inanıb da vətənimizin geniş bucaqlarını onların üzərinə açdılar. Onlar burada bulunurlar. Mən bunu qeyd etmək istəyirəm ki, müttəfiqlər qüvvəsinin rəisi general Tomson bu vaxtadək Ənzəlidə vermiş olduğu sözlərin heç birindən inhiraf etməmişdir. Rəisi-vükəla dediyi kimi sözə riayət etmişdir. Bizə verdiyi sözlərin heç birisinə əks iş görməmişdir. Bu yolda general Tomsonun son bəyannaməsi sözlərimin doğruluğunu isbat etdi. Tomson cənablarının bəyannaməsindən iki nöqtəyə parlament əzalarının diqqətini cəlb etməyə, bu iki mühüm nöqtənin bütün parlament və millət tərəfindən qeyd edilməsini təmənna edirəm. Tomson cənabları Azərbaycan dairəsində qanuni və məşru (şəriətcə icazə verilən) bir hökumət olmaq üzrə yalnız Azərbaycan hökumətini tanıyır. Və ona kömək, yardım, müavinətdə bulunacağı qeyd edilir.

Əfəndilər! Azərbaycanın milli mövcudiyyətini mühafizə yolunda bu birinci qədəmdir. İş bu qədəmi təbrik ediriz (Alqış). Haqq heç vaxt paymal olmaz. Müttəfiqlər nümayəndələri hələ Ənzəliyə gələrkən bizim barəmizdəki həqiqətlər böhtan və iftiralarla zəhərlənmiş və başqa bir fikirdə idilər. Amma yanımıza gələrkən bizi başqa bir şəkildə gördülər. Gəlib yaxından tanıdılar. Sülh və müsalimət tərəfdarı kimlər olduğunu anladılar, bizi tanıdılar. Şimdiki müvəffəqiyyət dəxi haman bunun nəticəsidir. Bizə qarşı çıxarılan süni xəbər və provakasiyaya biz cavab vermədik. Çünki haqlı olduğumuza əmin idik. Şimdi nəticəsini də görüyoruz. Azərbaycan istiqlaliyyəti yolunda köksümüzü gərərək daima eyni mətanət, eyni səbat, eyni əzmkarlığı göstərərək müstəqil yaşamağa layiq və müstəhəq olduğumuzu isbat edəcəyiz (Alqış).

***"Azərbaycan" qəzeti, N-76, 1 yanvar 1919***

**"Günay" qəzeti, N-20, 20 may 2001**

# İSTİQLAL DÖVRÜ, TƏQİB İLLƏRİ SEVİNCLİ-ƏZABLI GÜNLƏRİMİZ

**1919. Gənc nəslə.**

**Azərbaycan gənci! Bu gün sənin gənc cümhuriyyətinin bir yaşı bitir. Kim bilir, tarixi-ilahinin tovfiqi ilə qaç, bəlkə də yüzlərlə, minlərlə sənələr sən bu günki gündə bayrağını götürüb səmimi bir sevinc, həqiqi bir vüqar ilə istiqlal aldığın bu günü xatırlayacaqsan.**

**... Azərbaycan gənci! İftixar et, qardaş. Oğuz xan nəsli arasında birinci olaraq ən mədəni üsuli-idarəyə, cümhuriyyət üsuluna nail olan yenə sənsən.**

**....Azərbaycan gənci! Gəl, yoldaş. Bu məhsulullu əkinlər, sərin sulu yaylalar, həşəmətli ormanlar, qarlı dağlar, meyvəli bağlar, bağçalar, qara altun verən zəngin mədənlər həpsi sənindir...**

**"Azərbaycan" qəzeti,**
**28 mayıs, 1919-cu sənə.**

## *1.İSTİQLAL DÖVRÜ*

***Yaşadığımız yeni əsrin və minilliyin birinci ilində də fəxarət və kədərlə anacağımız günlərimiz az deyil. Millətimizin də daimi yaddaş təqvimində Azərbaycan tarixinin ən böyük günü olan 28 Mayın xüsusi yeri və mövqeyi var.***

***83 il bundan əvvəl məhz bu gün xalqın iradəsini ifadə edən Azərbaycan Milli Şurası yüz ildən artıq davam edən çar əsarətinə son qoyaraq Azərbaycan Xalq Cümhuriyyətinin istiqlalını bütün dunyaya elan etdi. O günlərin rəsmi müraciətlərindən birində deyildiyi kimi "qan dəryasında batıb-çıxan Azərbaycan türk milləti öz müqəddəratını öhdəsinə aldı, qəti mətanət və fədakarlıq əzmi ilə sərbəst dövlət həyatını yaşamağa üz qoydu ". Cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyəti dövləti nələrə nail oldu? İstiqlal fütuhatına başçılıq etmiş şəxsiyyətləri dinləyək.***

**M.Ə.RƏSULZADƏ**

*(MİLLİ ŞURANIN SƏDRİ, "MÜSAVAT" BAŞQANI):*



- Türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda, Azərbaycan Cümhuriyyəti müasir milli-mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim respublikamız ilk türk dövlətidir".

"İstiqlal elanı üzərində qurulan Milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü. Yüz ildən bəri əsgərlikdən kənar edilən Azərbaycanda bir ordu yaratdıq.

Çarlıq zamanında dövlət idarəsinə yaxın buraxılmayan azərbaycanlılardan zabit və əmniyyət qüvvələri vücuda gətirildi.

Sosial sahədə əsaslı islahata girişdik. Kəndlilərə torpaq vermək üçün qanunlar hazırladıq.

Fəhlələrin haqlarını qorumaq üçün tədbirlər aldıq.

Xalqı az zamanda oxutmağa başladıq.

Türkcəni dövlətin rəsmi dili elan etdik.

Orta və ali məktəblər açdıq.

Qərbi Avropa demokratiyaları tipində bir hökumət üsuli-idarəsi yaratdıq.

Hakimiyyət Millət Məclisinin əlində idi. Parlamentdən etimad almadıqca heç bir hökumət iş başında qala bilməzdi.

Məmləkətdə tam bir azadlıq vardı. O zaman... terror deyilən şeydən bir əsər yoxdu.

Şəxslər də, məskənlər (mülklər) də əmin və amanda idi.

Vətənin qapıları qapalı deyildi. Hər bir azərbaycanlı istədiyi zaman hara istərsə gedərdi.

Qonşu və Avropa dövlətlərilə dostluq münasibətləri təsis edilmişdi. Bütün millətlərlə alış-veriş vardı.

Bütün bunların nəticəsi idi ki, cümhuriyyətimizin istiqlalı Avropa dövlətləri ilə birgə Amerika tərəfindən də tanındı. Böyük bir çox dövlətlər dəxi istiqlalımızı tanıdılar.

Türkiyə ilə İran Azərbaycanla münasibətə gəldilər. Aralarında dostluq və qardaşlıq əhdnamələri imzalandı.

12 yanvar 1920-ci il cümhuriyyətin müttəfiq dövlətlər tərəfindən tanınması günü idi. Bu günü Azərbaycan xalqı bayram etməyə haqlı idi.

Bu, həqiqətən böyük bir bayramdı. Çünki bu gündən etibarən Azərbaycan davası Rusiyanın bir iç məsələsi olmaqdan çıxmış: millətlərarası bir məsələ olmuşdu.

Mədəniyyət tariximizin şanlı fikir adamları tərəfindən alqışlanan azadlıq və istiqlal fikri məmləkətimizdə yerləşdi və bu qabaqcıl dünya demokratiyası tərəfindən təqdir ilə qarşılandı. Yüz ildən bəri üstümüzə çökən istibdad və istila vahiməsi artıq bizdən uzaqlaşdı".

**N.YUSİFBƏYLİ**
*(BAŞ NAZİR):*



- "Bu az vaxt ərzində Azərbaycan türkləri özlərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini isbat etdilər. Bunun sayəsində isə indi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmadır. Dövlətin fəaliyyəti isə bir dəqiqə də olsa, təxir etməyib, haman hökumət işlərində davam etməkdədir.

İnqilabın bizə vermiş olduğu səmərəsi mühafizə edilmək ilə bərabər, indi Məclisi-Məbusan seçkiləri ərəfəsindəsiniz. Bu məclisdə Azərbaycan milləti öz fikir və rəyini aşkar edəcəkdir.

İstiqlaliyyəti müdafiə və mühafizə etmək ümum Azərbaycan xalqının müqəddəs vəzifəsidir...

Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir! Bu gündə bilafərq millət, hər kəs özünü bərabər hüquqlu Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümumcahan millətlərinin ədalət üzrə olan hüquq və ixtiyaratının təmin edilən günlərindən bir gündür!".

## FƏTƏLİXAN XOYLU
*(BAŞ NAZİR, XARİCİ İŞLƏR NAZİRİ):*



"Azərbaycan hökuməti o vaxt təşkil etdi ki, Gürcüstan Zaqafqaziyadan ayrılıb elani-istiqlal etmiş idi. O bir məqam idi ki, Türkiyə ilə hənuz hərb halında idik. Sülh əhdnamələri hənuz bağlanmamışdı? Batumda sülh müzakirəsi gedirdi. O vaxt Qafqaz Cəbhəsinin təsviyyəsi (ləğv edilməsi) və Türkiyə ilə mübahisəli məsələlərin həlli lazım idi. Xarici işlərimiz belə, daxili işlərimiz məlumdur. Bir vaxt idi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi, gecə yatanda sabaha çıxmaq ümidi yox idi. Heç kəsin irz və namusu əmniyyətdə deyil idi. Dəmir yollarında rus qoşunları qayıdarkən nə hallar oldu. Başımıza nə fəlakətlər gəldi: dəmir yolları tamamilə yatmışdı. Poçta, teleqraf yox idi. Bir kağız yollamaq mümkün deyil idi. O vaxt idi ki, maliyyatdan hökumət əlində heç bir şey yox idi. Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağıdılmışdı, xidmətçilər qaçmışdılar. İdarələrin adı vardısa, özü yox idi. Hərə başına 5-10 adam yığıb hökumət, bir qanun düzəltmişdi. Güclü olanlar özlərini ağa hesab edirlərdi. Daxili işlər böylə ikən Azərbaycan istiqlalı elan edilmiş isə də, heç bir hökumət tərəfindən tanınmamışdı. O zaman bütün Azərbaycan tərəfindən seçilmiş Milli Komitə bu hökuməti təyin edib idarə işlərini ona tapşırdı. Məni rəis seçərək idarəyə başladıq. Türkiyə ilə sülh əhdnaməsi tezliklə bağlandı. Bununla bərabər hökumət qayda və qanun barəsində aciz idi. Zira heç bir tədbir qüvvəmiz və silahımız yox idi... Sülh müzakirəsi vaxtı türklərdən bir qədər əsgər almaq iltizam (təəhhüd) edildi. Sülhnamədə bir fəsl var ki, Azərbaycan hər vaxt lazım görsə, müdafiə hüququ üçün Türkiyə bir qədər əsgər versin.

Hökumət bu çarəyi təvəssül (xahiş) etdi... Türkiyə öz borcunu yerinə yetirdi. Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də, bir fayda olmaz idi.

Türkiyə həmdinimiz, həmvətənimiz idi. Ona görə ondan kömək istədik... Siz görürsünüz ki, çox şeylər tazə təşkil olubdur... İndi Allaha

şükür olsun ki, Azərbaycanın hər yerində lazımi qədər olmasa da, xalqın malını, canını müdafiə edəcək təşkilatımız var... dəmir yolları düzəlib idarə olunur. Çox yerdə poçta və teleqraf açılmışdır, Bakı alındıqdan sonra Bakı bonu (pulu) buraxıldı... hökumət başqa yerlərə adam köndərib ki, Azərbaycanın öz pulu kəsilsin...

Bayrağında hürriyyət və üxüvvət (qardaşlıq) yazılmış firqələr Bakını əlimizdən almış idi, bizim paytaxtımız buraxılmış idi. Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətliam edilmiş idilər. Başbilənlər Dağıstan, İran və Turana dağılmışlardı. Şəhərdə bir kişi yox idi ki, bunları bir yerə toplasın, bir iş görsün. Türkiyəyə müraciətimizin əsl səbəbi də paytaxtımızı əlimizə qaytarması idi. Bu barədə çox əziyyətlər çəkildi, indi şükür olsun Allaha məqsədə çatdıq, Bakı əlimizə keçdi...

Hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: MİLLƏTİN HÜQUQU, İSTİQLALI, HÜRRİYYƏTİ!"

## HƏSƏNBƏY AĞAYEV

*(Parlamentin sədr müavini)*



- Türk xalqı azadlığı qanı ilə satın almışdır və onu heç vaxt əldən verməyəcəkdir. Azadlıq meyvəsini dadmış olan xalq bir daha zülmətli keçmişə qayıtmaz. Azad Azərbaycan ziyalıdan tutmuş fəhlə və kəndliyə qədər türk xalqının varlığına hopmuş bir idealdır...

Azərbaycan o respublikadır ki, tam birlik şəraitində işləyəcəkdir. Biz özümüzdə firavanlıq yaratmağa çalışarkən başa düşürük ki, bu firavanlıq qonşularımızın firavanlığı ilə qırılmaz tellərlə bağlıdır... Biz Azərbaycanın bütün vətəndaşlarını azad və tam hüquqlu vətəndaşlar kimi təsəvvür edirik. Bizdə ögey-doğmalıq yoxdur...

Rus xalqına qarşı heç bir düşmənçiliyimiz yoxdur. Mən ürəkdən arzulayıram ki, Rusiya onu boğan dəhşətdən daha tez xilas olsun. Bu bizə onunla ən mehriban qarşılıqlı münasibətlər yaratmaq imkanı verər.

**AXUND AĞA AĞAƏLİZADƏ**
*(AZƏRBAYCAN ŞEYXÜLİSLAMI):*

- Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar. Öz əqidəni və fikrini şövqlə söyləmək və öz bəşəri iradəni ifadə etmək yalnız müstəqil ölkədə mümkündür. Asılı olmayan tədris ocaqlarında - orta və ali məktəblərdə - ölkənin camaatının faydalana biləcəyi bütün biliklərə yiyələnmiş şüurlu adamlar yetişər. Allah-təalanın buyruqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində müvəffəqiyyətlə inkişaf etdirmək olar.

## *2. TƏQİB İLLƏRİ*

28 May və 27 aprel Azərbaycan tarixinə həkk olunmuş günlərdir. Biri qurtuluş və o biri Çar istibdadının yerini tutan ondan daha qanlı bolşevik istilası günü, qəddar və yalançı bir polis rejiminin başlandığı gün. Həmin gündən azadlıq və istiqlal qırmızı bolşevik rus ordusu tərəfindən üstün qüvvətlərlə, qanla və atəşlə basdırıldı. Faciələr və qəhrəmanlıqlarla dolu olan bu mücadilədə on minlərlə vətən övladı şəhid oldu. Həqiqi milliyyətçi və vətənpərvərlərə divan tutuldu. Bəs onları kimlər əvəz etdi?



**AKADEMİK ZİYA BÜNYADOV YAZIR:**

"Tarixən dəyirman daşını həmişə bizim başımızda fırladıblar. Əvvəl-əvvəl bizi çəkçevirə salıblar, siyasət ipini bizim boğazımıza keçiriblər. Sovet dövləti qurulmamışdan əvvəl, Azərbaycanın qurğusunu qurmuşdular, bölüb-bölüşdürmək nəqşəsini cızıb hazırlamışdılar.

Azərbaycan mərdləri ilə bolşevig kələkbazlarının, gizli qəsbkarlıq siyasəti yürüdənlərin fikri, amalı başqa-başqa idi. Müsavatçı ziyalılar meydana mərdanə girmişdilər, mədəni səviyyələri, siyasi əqidələri, dünyagörüşləri, imanları, məslәkləri uca idi, saf idi, insanlıq naminə idi.

"Ayır-buyur" siyasəti ilə, "necə olursa-olsun" hökmü ilə, aldatmaq-

la, oyunbazlıqla, yalanla, böhtanla, sıxma-boğma ilə, hədə-qorxu kəlməklə, qan-qada ilə Azərbaycanı ayaqlayanlar isə buqələmun kimi min dona girirdilər və indi də donlarını tez-tez dəyişirlər.

Biz doğrudan da böyük xalqıq. Bu qədər qırıb-töküblər, kəsib-biçiblər, əsir-yesir eləyiblər, çürüdüblər, çərlədiblər, yenə də məhv olmamışıq.

İlk sovet həbs düşərgələrinin də qurbanları bizim xalqın qeyrətli oğulları, azadlıq cəfakeşləri olublar".

* * *

1920-ci il mayın 17-də Azərbaycan K(b) Partiyasının siyasi bürosu Bakıda ölüm düşərgəsi (konslager) yaradılması haqqında qərar çıxardı. Kütləvi həbslər, qətllər başlandı. Bolşevik libası geymiş daşnaklar, rus şovinist fanatiklərlə və aldadılıb yolundan çıxarılmış milli gədalarla birləşib birinci növbədə ziyalı və düşünən başları, işğalçılara və yeni bolşevik hakimiyyətinə baş əyməyənləri kütləvi surətdə cəmiyyətdən təcrid və məhv etmək yoluna qədəm qoydular. Bu milli faciənin qanlı mənzərəsini təsəvvürə gətirmək üçün bu yaxınlarda Milli Təhlükəsizlik Nazirliyinin "Yaddaşın bərpası" ("Sərhəd" qəzetinin xüsusi buraxılışında (N-1) dərc olunmuş 1920-1941-ci illərdə qətlə yetirilmiş həmvətənlilərimizin siyahısını nəzərdən keçirmək də kifayətdir. Az.ÇK-nın kollegiya iclasının qərarı ilə güllələnənlər içərisində dünyanın yəqin ki, heç bir ölkəsində rast gəlinməsi mümkün olmayan hallara təsadüf edirik. 95 yaşlı Şirəlibəy Əlihəsən bəy oğlunu, 95 yaşlı Molla Hüseyn Molla Məmməd oğlunu, 90 yaşlı Şəkibəyov Əsgərağa Məşədi Sadıq oğlunu, 87 yaşlı Musayev Əsgər İmaməli oğlunu və bu kimi ixtiyar, günahsız qocaları güllələnməyə məhkum edənləri insan adlandırmaq olarmı? Mən siyahıda 70-80 yaşlarında məhv edilən yüzlərcə ada rast gəldim. Bu cinayəti 5-10 adam törətməmiş, buna rəvac verən partiyanı, sistemi mühakimə etmək lazım idi. Yüz minlərcə güllələnən, sürgünlərə göndərilən, vətəndən didərgin salınanların faciəsi barədə az yazılmış, təqsirkarların həqiqi siması tam açılmamışdır. Əgər bu iş görülsəydi, açılsaydı, bolşevik təqib və dəyənək maşınını yenidən başqa bir görkəmdə dirçəltməyə təşəbbüs və cürət edənlər də tapılmazdı.

Bolşeviklərin əsas təqib hədəfi istiqlalçılar 28 may idealını ruhunda, qanında, əməlində yaşadanlar idi. İşğalın ilk aylarında M.Ə.Rəsulzadə həbs edildi. Fətəlixan Xoylu Tiflisdə, Nəsibbəy Yusifbəyli Gürcüstanın Siqnaq rayonunda daşnaklar tərəfindən qətlə yetirildilər. Ə.M.Topçubaşov, C.Hacıbəyli və Paris sülh konfransına getmiş nümayəndələr Parisdə qaldılar. Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə Türkiyədən geri dönmədilər.

## 3. BU GÜNLƏR

28 May fütuhatını hazırlayan və həyata keçirənlərdən vətən torpağında uyuyanları demək olar ki, yoxdur. Bəlkə məhz buna görədir ki, ziyalılarımız sayca, əhalimiz miqdarca cümhuriyyət dövründən qat-qat çox, iqtisadi imkanlarımız müqayisə edilməz dərəcədə artıq olsa da, bizə miras qoyulmuş vətən torpaqlarını qoruya bilmirik. Mənəvi qüvvə, birlik və cəsarət, namus və qeyrət deyəsən çatışmır. 1919-cu il mayın 28-də Cümhuriyyətin bir yaşı tamam olan günlərdə "Azərbaycan" qəzeti xəbər verirdi ki, Şuşa daşnaqlardan təmizlənmiş, bütün Qarabağ azaddır. Yeri gəlmişkən, 83 illik bir dövr keçməsinə baxmayaraq, "Müsavat" Partiyası və Azərbaycan hökumətinin gəncliyə müraciəti indi də aktual səslənir. Budur, o tarixi müraciətdən sətirlər;

"Azərbaycan gənci! Bu gün sənin cümhuriyyətinin bir yaşı bitir. Kim bilir, tarixi-ilahinin tovfiqi (köməyi) ilə qaç, bəlkə də yüzlərlə, minlərlə sənələr sən bugünkü gündə bayrağını götürüb səmimi bir sevinc, həqiqi bir vüqar ilə istiqlal aldığın bu günü xatırlayacaqsan!..

Azərbaycan gənci! İftixar et, qardaş! Oğuz xan nəsli arasında birinci olaraq ən mədəni üsuli-idarəyə, cümhuriyyət üsuluna nail olan yenə sənsən!..

Azərbaycan gənci! Gəl qardaş! Bu məhsullu əkinlər, sərin sulu yaylalar, həşəmətli (əzəmətli) ormanlar, qarlı dağlar, meyvəli bağlar, qara altun verən zəngin mədənlər - hamısı sənindir!.."

1990-cı il mayın 25-də BDU-nun "Jurnalist" adlı tədris qəzetinin Cümhuriyyətin 72 illiyinə həsr edilmiş xüsusi nömrəsini hazırladıq. Yeni istiqlalçı nəsl adından tələbə gənclər üçrəngli Azərbaycan bayrağı altında bəyan edirdilər:

"Şükürlər olsun ki, nəhayət, (70 ildən sonra) bu sözləri dilimizə gətiririk, yadımıza salırıq - 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti adlanan milli hökumətimiz olub.

Gənc dost! Fəxr et və yadında saxla ki, o təcrübə yenə gərəyimiz ola bilər. Üçrəngli müqəddəs bayrağımız önündə baş əy!

Azadlıq, müstəqillik uğrunda mübarizədə Vətənin ümidi yalnız sənədir! Əllərini təmiz, ürəyini pak saxla! Çağdaş şüarın bu olmalıdır: "Ya bu gün, ya heç vaxt!"

Gəlin, bir də Məmmədəminlərin, Fətəlixanların, Nəsibbəylərin ölməz ruhu qarşısında baş əyək və and içək ki, onların başladığı işi davam etdirəcəyik!"

Azərbaycanı yenidən ikinci dəfə istiqlala qovuşduran nəslin şüarı bu idi.

Azərbaycan indi də sevincli-əzablı günlərini bu ümidlərlə yaşayır!

***"Günay" N-21, 27 may 2001***

# OXUYAQ, DÜŞÜNƏK, YAD EDƏK!

***Televiziya bizi yavaş-yavaş keçmişlə canlı və fərdi ünsiyyətdən ayırır. Əvvəllər arxivlərdə, arxiv kitabxanalarında işləmək üçün yer tapmaq çətin olurdu. İndi sakitlik, hətta çox vaxt kimsəsizlik olur. Mənə bəzən elə gəlir ki, mətbu irsimiz, mənəvi dayaqlarımız canlı ünsiyyət üçün quraqsayır. Məsələn, elə "Molla Nəsrəddin" jurnalının çox az və birtərəfli tədqiq olunmuş Təbriz və Sovet dövrü nüsxələrini götürək. Nə qədər maraqlı, ibrətamiz yazılar var, elə bil bizim günlər üçün yazılıb. Mən onlardan bir neçəsini oxucuların diqqətinə çatdırmaq istəyirəm.***

## *MÜBARƏK OLSUN!*

Adət eləmişik bayramda sevinmək, şad olmaq və bir-birimizi təbrik etmək. Uşaqlar da adət edib bayramda sevinmək, şad olmaq və bir-birini təbrik etmək.

Bəs təfavüt nədir? Uşaqlarla bizim təfavütümüz hardadır? Uşaqlar da şad olub, biz böyüklər də şad olmuşuq. Uşaqlar sevinib təzə paltar və qırmızı yumurtaya, biz böyüklər də elə haman şeyə sevinmişik. Amma lazımdır ki, biz böyüklərlə kiçiklərin təfavütü ola idi. Təfavüt də burada ola bilər ki, bayram günü biz təzə geyinmiş, cibləri dolu uşaqlarımıza baxanda sahibsiz, ac uşaqları da yada salaydıq ki, bayram günü bizim uşaqlarımız plov yeyəndə: yetim uşaqlar bəlkə yavan çörək də tapmayacaqlar.

Bir kəs ki, bu mətləbi düşünmədi, onun uşaqdan bir fərqi yoxdur, çünki uşaq tayfası belə hisslərdən uzaq olar.

Amma həqiqi bayram o kəslər üçündür ki, bayram günü onun cismindən savayı ruhu da şad ola; ruhun da şadlığı o surətlə ola bilər ki, insanlar insanlıq vəzifəsini yerinə yetirə.

Mübarək olsun eydi-səidi-novruz (xoşbəxt Novruz bayramı) o şəxslərə ki, bayram münasibətilə sahibsiz bir uşağı yada salıb onu şad edəcək. Mübarək olsun eydi-firuzi-Novruz (taleli Novruz bayramı) o qardaşlara ki, onun hümməti nəticəsində digər bir möhtac qardaşımız da bayram günü özü və uşağını tox görüb, uşağını bir qırmızı yumurta ilə sevindirə biləcəkdir.

**"Molla Nəsrəddin"**
*20 mart 1921, N 3 (Təbriz)*

## PODVOD

O gündən ki, qulağıma çatdı ki, hökumət rüşvət almağı tükətmək yolunda çox tədbirlər təkübdür, o gündən ki, eşitmişəm ki, hökumət bundan sonra rüşvət alanlara həddindən də artıq tənbeh elətdirəcək o gündən mənim beynimə bir söz düşüb və haman söz "podvod" sözüdür.

Podvod-rusca arabaya deyirlər. Öz-özlüyündə söz elə pis söz deyil, hələ bəlkə lazımlı bir şeydir; arabaya adam həm minə bilər, həm araba ilə yük daşıya bilər. Amma bizim kənd camaatının içində podvod çox heybətli bir şeydir, çox xətalı bir əhvaldır, böyük bir bədbəxtçilikdir. Və indi bu saat bizim Azərbaycanda balaca uşaqları hər gecə anaları xortdandan qorxudan kimi, kişilrin də hər gün və hər saat bağrı yarılmaqdadır ki "ay aman podvod istəyirlər".

Biz oturmuşuq Bakı şəhərində qulağımız da dincdir, çünki bilmirik podvod nədir.

Podvod ibarətdir ondan ki, bu saat Azərbaycan kəndlərində heç bir araba sahibi, at sahibi, öküz və kəl sahibi arxayın deyil ki, onların arabası ya atı, heyvanı bu gün onların əlindən çıxmayacaq.

- Həsənqulu, arabanı qoş.
- Hara qoşum?
- Gedəcək vağzala.
- Qulaməli, atını yəhərlə gətir.
- Hara?
- Gedəcək flan şəhərə, ya flan kəndə.

* * *

Kimdir bu podvodu istəyənlər? Əgər bir müəyyən məmur, ya müəyyən idarə olsa, heç eybi yoxdur, çünki, gah (bəzən) bir belə xidmətlər rəiyyət tərəfindən hökumət üçün təbiidir.

Amma hansı məmurun sözünə kəndli hörmət göstərsin? Kimin haqqı var podvod istəməyə? Hər bir kəsin: məsələn, podvodu bir gün ispolkom istəyir, bir gün milis naçalniki istəyir, bir gün voyenkom istəyir, bir gün abkom istəyir, bir gün polimbüro istəyir, bir gün zemkom istəyir, bir gün ərziq komissarı istəyir və bunlardan savayı və yadıma düşməyənlərdən savayı nə qədər ki, mahallarda milislər var, bunların hər biri bir yanda-yolda, qəsəbədə və kənddə araba və at gərsə ixtiyarı var həmin arabanı, ya atı sahibinin əlindən alsın və podvod adı ilə keyfi istədiyi yerə aparsın.

Burada kənd camaatının yaxasını qurtaran rüşvətdir, rüşvət ki, verdi - o, dəxi podvoddan azaddır, - vermədi, atından, arabasından əl çəkəsidir.

Pəs bu rüşvəti də ki, indi hökumət götürmək istəyir, onda pəs biçarə araba və at sahibləri podvodun qabağını nə ilə kəsəcək. Allah bilsin.

**Molla Nəsrəddin (Mirzə Cəlil)**
*"Molla Nəsrəddin", 13 yanvar, 1923, N9*

## Bakı nefti

Bakı nefti bir inəkdir, balalar, tez də doğar,
Nə təpiklər, nə də ürkər, onu hər kəs də sağar.

İnəyə yem verən az olsa da, çox sahibi var,
Baxan az, sağmaq üçün qab gətirənlər çox olar.

Yüyürür əmməyə daim paravozlar, gəmilər,
Balalar çuğlamış ətrafını bisəbr mələr.

Kimsənin yox nə otundan, nə suyundan xəbəri,
Bir dəri, bir də sümük qalmış inək, müxtəsəri.

İnəyə ot tapacaq yer bulamaz varsa çoban,
Süd üçün var isə heyfa, yox imiş qeydə qalan,

Asılıb "yeddi nəfər" bir inəyin əmcəyinə,
Danışıq üç sənədir varsa, inək acdı yenə.

İş belə getsə buna başqası bir çarə tapar,
Çobanı işdən atar, yem də bular, qeydə qalar!

**"Kasıb Demyan"**
*"Molla Nəsrəddin", 2 noyabr, 1922, N-1*

## QARANLIQDA

*"Şəki fəhləsi" qəzetəsinin 96-cı nömrəsində, axırıncı səhifədə oxuduq:*

*ƏMƏLƏ MÜXBİRİMİZDƏN, TƏƏCCÜB EDİLƏCƏK BİR HAL*

"Keçmişdə deyirlərdi ki, çəkməçinin çox vaxt ayağı yalın olur, eləcə də azərbaycanlı olub neftsizlikdən qaranlıqda qalmaq da təəccüb ediləcək iş deyildir. Bir aya çatar ki, qəzamızın fəhlə kəndliləri neft olmadığından gecələr qaranlıqda qalırlar. Bütün kəndçi fəhlələr günüzlər axşamatək əllərində neft qabları gəzirlər, bir girvənkə neft tapmırlar. Doğrudur, əlacsız qalıb girvənkəsinə üç-dörd yüz milyon verib xəlvət alanlar da olur".

* * *

Şəki qəzetəsi həmin neft məsələsini axırıncı səhifədə yazmağının səbəbi budur ki, Azərbaycan kəndlilərinin qaranlıqda qalmağından da vacib qeyri məsələlər var ki, o məsələləri qəzetə sahibi qəzetənin qabaqkı üç səhifəsində yazıbdır.

Bununla belə Molla Nəsrəddin öz tərəfindən qəzetəyə salam göndərir və bu neft məsələsini çap etməyi babətindən artıq razılıq edir. Yenə sağ olsun ki, yazıbdır.

İndi gələk kəndlilərin qaranlıqda qamaqlarına bais olanlara. Bunlar iki nəfər tacir cənablardır ki, hər ikisi Yevlaxda əyləşib özlərinə çox pullar qazanmaqdadırlar. Birinin adı Kərəm Hacıyev (Allah Kərəminə şükür), birinin adı deyəsən Hüseynov (səni də imam Hüseynə tapşırıram). Bunların qabaqkısı Qarabağ kəndlilərini qaranlıqda saxlamağı podarata götürüb. O birisi də Şəki mahalının kəndlilərini qaranlıqda saxlamağı icarə edib.

Bu iki nəfər tacir cənabları Bakıda hansı idarə ilə bu şərti kəsiblər ki, Bakıdan Yevlaxa bunlardan savayı bir nəfər adam da neft gətirsə, onu hökumət milisləri tutub yıxsınlar yerə, yumuşaq yerlərinə o qədər vursunlar ki, qırmızı olsun. Müxtəsər, monopoliya məsələsi. Bəli, görürsən ki, iki həftənin ərzində Ağdama, yainki, Nuxaya neft gəlmədi.

Həriflər Yevlaxdan səs buraxırlar ki, Bakıda neft talvarlarına od düşüb, neft yanıb qurtarıb.

Görürsən neft qalxdı qızıl qiymətinə. Adə yerit nefti, durma, fürsət vəqtidir: bir girvənkə neft iki pud buğdaya, üç pud arpaya.

Dəxi oxuculara nə lazım, artıqdır dərs verməq.

* * *

"Şəki fəhləsi" bu məsələni dördüncü səhifədə yazır, ondan ötrü ki, qəzetənin bu məsələdən vacib özgə məsələləri qabaq səhifələrdə yazılıb.

Amma Molla Nəsrəddin həmin qaranlıq məsələsini qabaq səhifəsində yazır, ondan ötrü ki, bu məsələdən vacib Mollanın özgə məsələsi yoxdur, o səbəbə ki, Molla Nəsrəddin kəndçilərin köhnə dostudur.

**Molla Nəsrəddin**
*"Molla Nəsrəddin", N-38, 24 noyabr 1923*

**"Günay", N 22, bazar, 3 iyun 2201**

## "XEYİR UZAQLARDA, ŞƏR QUCAQLARDA"

***Azərbaycan BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar nəzdində daimi nümayəndəsi, səfir İsfəndiyar Vahabzadənin parlamentimizdə "Diplomatik xidmət haqqında" Qanun layihəsinin müzakirəsilə əlaqədar spikerə ünvanladığı məktubu barədə qəzetlərdə verilmiş parçaları oxuduqda məşhur türk şairi Tofiq Fikrətin "Xeyir ayaqlarda, şər qucaqlarda" misrası yadıma düşdü. - "Söhbət çox ciddi və taleyüklü məsələdən gedir. Həm də bu yeni problem, yeni məsələ deyil, əsrlik nəsillikdir.***

### *Səfir Vahabzadənin yazdıqlarından:*

"Mən cəsarətlə deyə bilərəm ki, diplomatlarımızın əksəriyyəti, yəni 80-85 faizi rus təhsilli, öz doğma dilini bilməyən və yaxud çox bilən, milli hissdən tamamilə uzaq olan şəxslərdir. Səfirlərimizin çoxu isə heç Azərbaycan vətəndaşı deyil. Belə bir hadisənin analoqu bəlkə də, dünyanın heç bir yerində görünməyib.

Anaları erməni, rus (hələ mən respublikamızda yaşayan kiçik etnik xalqların nümayəndələrini demirəm) olan diplomatlarımızın heç biri xarici ölkələrdə Azərbaycana sədaqətlə xidmət edə bilməzlər. Xüsusilə anaları erməni olan diplomatlarımız xarici işlər nazirliyində işləyə bilməz".

Deyəsən şair və yazıçılardan sonra diplomatlar içərisindən də "oyananlar"ın səsi çıxmağa başlayır. Əsrlərin və nəsillərin təcrübəsi göstərir ki, bir hər yeni yüz ilin əvvəllərində qəflət yuxusundan oyanmağa başlayırıq. Niyə birdəfəlik oyanmaq, qəddimizi düzəldib əlbir, dilbir, qeyrət və cəsarətlə iş görmək, fədakarlıqla çalışmaq bizə qismət olmur? Axı, keyləşdirilən, diz çökdürülən millət əvvəl-axır quru yurdda qalır. Üzeyirbəy 1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyəti varlığının son günündə redaktoru olduğu "Azərbaycan" qəzetində bolşevik vədlərindən ağızdolusu danışanlara cavabında yazırdı: "Mən demirəm ki: Nikolay hökuməti ilə Lenin hökuməti arasında təfavüt yoxdur! Xeyr! Təfavüt vardır. Və özü də bundan ibarətdir ki, nikolaylar və generallar hökuməti bizə həmişə "svoloç" deyib atamıza söyərdilər, mujik və raboçi hökuməti məşhur rus söyüşü ilə anamıza söyəcəklər".

İki əsrə bir müddətdə atamıza və anamıza söyənlərin başımıza nə oyunlar açdıqları məlumdur. O da məlumdur ki, qeyrət və namusu olanlar hər cür məşəqqətə, cəfaya sinə gərərək vuruşmuşdular, milləti əbədi yuxuya getməyə qoymamışdılar, dilimizi, dinimizi, torpaqlarımızı, varlığımızı müdafiə etməmişdilər, hətta milli dövlətçiliyimizi, müvəqqəti də olsa bərpa etməyə nail olmuşdular. İndi 10 ildir ki, yenidən müstəqilliyimizi elan etmişik. Yenə ölüm-dirim imtahanı verməkdəyik. Əvvəllər atamıza anamıza söylənər, ilk baxışda belə görsənirdi ki, artıq yoxdular. Bəs onda ziyalılarımız indi görən niyə və nədən "yatırlar", yox əgər yatmırlarsa bəs nə üçün onların" oyandığını" rəsmən elan edirlər. Əlbəttə cəmiyyəti çox yüksəklərdən seyr edənlər hər şeyi yaxşı görürlər, yatdırmağın və oyatmağın sehirli çubuğu da onların əlindədir. Görəsən rəhmətlik Üzeyirbəy sağ olsaydı indi nə yazardı, axı atadan, anadan sonra özümüz gəlirik, var-yoxumuz gəlir... "Açıq söz" qəzeti də bu münasibətlə yazmışdır: "Bundan sonra olsun ayılaq... analarımızın yadların, səfehlərin ayaqları altına düşməsinə məhəl verməyək! Bacılarımızın bir loxma çörək üçün namuslarını satmağa razı olmayaq! Və razı olmayaq ki, gələcək nəslimiz millətimizin bu ağır günlərindəki, qansızlığımızı, həmiyyətsizliyimizi, imansızlığımızı, yalançılığımızı mühakimə edib bizə lənət oxuyalar!" Səfir İ.Vahabzadənin qaldırdığı məsələ tariximiz, bu günümüz və gələcəyimizlə bağlı məsələdir. Onu adicə "hissə qapılmaq" kimi səciyyələndirməe, qətiy-

yən məqbul sayıla bilməz. Mən bu problemin çox ciddi tarixə malik olduğunu nəzərə çatdırmaq istəyirəm. Qeyd edim ki, 1914-cü ilin elə beləcə yaz günlərində dövri mətbuatda bu mövzuda çox qiymətli yazılar işıq üzü görmüşdü. Doğrudur, onlar hakimiyyətdə olanlara sərf etmədiyi üçün üzə çıxarılmayıb, tədqiqatlardan kənarda qoyulub. Böyük vətənpərvər şairimiz Abbas Səhhətin ürəkyanğısı ilə 87 il bundan qabaq "Bəsirət" qəzetində dərc olunmuş "Bizdə millət uyğusu ölür" sərlövhəli məqaləsi də bu qəbildəndir. Görək onu da "hissə qapılmaqda" ittiham edəcəklər?!

## BİZDƏ MİLLƏT UYĞUSU ÖLÜR

Lisan (dil) və ədəbiyyat hər millətin mayəsi-nicatdır. Hər millətin yaşaması ədəbiyyatına bağlı olduğu bədihidir (aksiomadır). Burnumuzun dibində qonşu millətlərin buna nə qədər əhəmiyyət verdikləri gün kimi aşkardır. Milli məktəblərində ana dili və milli ədəbiyyat oxutmaqda nə qədər fəaliyyət ilə çalışırlar. Uşaqlıqdan balalarının ruhuna, qəlbinə, qanına millətçilik ruhu doldurmağa nə qədər səy ediyorlar.

Nə qədər təəssüb ilə (fədakarcasına) lisanlarına, adablarına (ədəblərinə), adətlərinə müraat (riayət) edirlər. Onların arasında bir nəfər də olsun öz dilinə, adətinə istiğna ilə (etinasız) baxan yoxdur.

Lakin biz əsla bunu müraat (riayət)etmiyoruq. Hər şeydə avropalılara təqlidən bütün varlığımızı unutmağa, hürriyyət-milliyyəmizə qeyb etməyə mailik. Məsum balalarımızı hələ göz açmamış xarici mürəbbiələrə (tərbiyəçilərə) təslim ediyoruq. Bədbəxt balalarımızı dünyanı bilməmişdən, ğanımamışdan ruhunu zəhərləyib öldürürük.

Doğrudur övladımız zahirdə ölüb qəbrə getmir, lakin həqiqətdə ruhu ölür, vücudu, canı bir məzar şəklini alır, çünki insanın həqiqi ruhu diyanət (imam) və milliyyətdir. O, zəhərləndikdən sonra, o məhv olduqdan sonra yerdə nə qalır?! Ruhsuz bir qəlb, cansız bir cəsəd! Biz bununla mədəniləşmirik, fəqət avropalılara bir nəfər də avropalı qazandırırıq.

Biz isə yox oluruq! Canım, bu qədər laqeydlik olarmı?! Kim ki, iki kəlmə "net" ilə "yest"i bildi, dırnaqlarını uzadıb, başına altı şahılıq şapka keçirdib daha islamiyyəti, milliyyəti tanımır. Əsla türkcə danışmağa, oxumağa rəğbət etmir. Bu yeni əmələ gələn "qospodinlər"dən nə qədərin tanıyıram ki, evlərində yüz cildlər ilə Avropa ədiblərinin əsərləri bulunduğu halda, bir vərəq də olsun türkcə yazı bulunmaz.

Rusca iki kəlmə doğru-düz danışmaq bilməyənlər də yenə yalan-yanlış evdə, bazarda uşaqları ilə, rast gəldiyi əhbabı (dostları) ilə rus-

ca danışır. Bunlardan başqa hələ bizim öylə müəllimlərimiz "narodnı uçitellərimiz" ciblərindən pul verib almaq dursun, məktəb məxaricinə buraxılmış pullardan iğlal edib bir-iki türkcə qəzetə almayırlar.

- Əfəndim! Məktəb üçün türkcə qəzetə nə üçün götürməyirsiniz? - deyə sorduqda,

- Bizim qəzetlərdə məlumat az olur, - deyə cavab verir.

- A canım! Əlbəttə son oxumayanda, o oxumayanda daha qəzetəçi o məlumatı əcinnələr üçün pərilər üçün yazmayacaqır ki... hər millətin tərəqqisi bağlıdır müştəriyə... Müştəri olmayanda məta nə ilə rəvac tapar?!

Hər şeydə Avropa adabını (ədəbini), əxlaqını təqlid edirik. Bəs millətpərvərliyi, vətənpərəstliyi nə üçün onlarda görüb-götürmürük?!

Görəlim sair qonşu millətlərin də oxumuşları böylədirmi? Xeyr. Erməni, gürcü ariflərinin öz ədəbiyyatlarına verdikləri rövnəqlərini görəndə ağıl heyran olur, öz mətbuatlarını nə qədər atəşin həvəslə sürmə eləyib gözlərinə çəkirlər.

Bəzi cənablar qəzetdə yazılan ibarələrin çətinliyini bəhanə edirlər. A canım! Tutalım sən deyəndir. Qəzetərimizin ibarələri sənin idrakından mafövqdürsə (yüksəkdədirsə) "Molla Nəsrəddin" jurnalının dili ki, lap asandır, kor da oxuya bilər, bəs naçizi nə üçün alıb oxumursunuz.

Keçəlim darülfünün qurtarmışlarımıza, onlar bunlardan da beş çömçə artıqdır. Türcə oxumağa əsla tənzil etməzlər, o bunlar üçün kəsr şandır (şənlərinə kəsir gətirəndir). Evlərində əcnəbi mürəbbiələri saxlamaq ədəb və adəti-milliyyəni unutmaq bunların zənnincə insaniyyətdən sayılır.

Ümumi təqdir etdiyi sevgili Sabirimizin kitabının təbi (çapı) üçün bir doktor, bir injener, öir advokat bir qəpik ianə etdimi? - Yox!

Axır bircə deyən yox - canım! Bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq, onu sevməmək olarmı? Bəs nə səbəbə yabançı nəzər ilə baxırıq. Ziyalılar, ürəfalar böylə olduğu halda bəs millətimiz nə ilə qaim (mövcud) olar? Onu istiqbala götürəcək, yaşadacaq kim qalır?

Milliyyəti kiçik görən insanlar yaşamağa deyil, ölməyə məhkumdurlar.

Heç yaşarmı böylə milliyyət, olarmı paydar millət əfradı tədricən edərkən intihar.

**Abbas Səhhət**

*"Bəsirət" 10 may, 1914, N-5*

**"Günay", 16 iyun, 2001**

# 19 İYUN FƏTƏLİ XAN XOYSKİNİN QƏTLƏ YETİRİLDİYİ GÜNDÜR

*Andranikin erməni hökumətilə heç bir əlaqəsi yoxdur, özü bir asidir. Erməni hökuməti özü də onun rədd edilməsini və üsyanın yatırılmasını istəyir. Fəqət, gücü yoxdur, iş görə bilmir. Sizə məlumdur ki, Andranik iyul ayında Zəngəzur mahalında böyük fənalıqlar yaparaq bir çox köylər dağıtdı, nəhayət, Şuşa qəzasına keçərək Əsgəran yolunu bağladı. O zaman böyük fəlakətlər çıxardı.*



81 il bundan əvvəl - 1920-ci il iyunun 19-da Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət başçısı Fətəli xan Xoyski Tiflisdə daşnak terrorçularının sui-qəsdinə məruz qaldı, xaincəsinə qətlə yetirildi. Nə üçün? Ərzurumlu iki terrorçunu - Aram Erkanyan və Misaq Qriqoryanı Tiflisə bu dəhşətli cinayəti törətməyə kimlər göndərmişdi? Fətəli xanın Tiflisə gəlişi xəbərini, onun yaşayış yerini, hərəkət marşrutunu kimlər müəyyənləşdirib terrorçulara bildirmişdi, arxalarında durmuşdu? Bakıda və Azərbaycanda hakimiyyəti silah gücünə zəbt etmiş bolşevik guruhunun bu rəzil sui-qəsddən xəbərləri varmıdı? Bu suallara bu vaxta qədər əməllibaşlı bir cavab verilməmişdir. Tarixi unutqanlıq bizə çox baha başa gəlib və indi də gəlməkdədir.

## *FƏTƏLİ XAN HAQQINDA QISACA ARAYIŞ:*

1875-ci il noyabrın 25-də Nuxada əsilli-nəsilli bir ailədə dunyaya göz açmış, Xoyskilər nəslindən görkəmli sərkərdələr, dövlət xadimləri və çoxlu ziyalı çıxmışdır. Fətəli xan klassik Gəncə gimnaziyasını, 1901-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Azərbaycanda barmaqla sayıla biləcək ali təhsilli hüquqşünaslardan biri idi. Yekatirinodar (Krasnodar) və Gəncədə prokurorluq və məhkəmə orqanlarında işləmiş, 1907-ci ildə Gəncədən II Dövlət Dumasına deputat seçilmişdi. 1913-cü ildə Bakıya köçmüş, Bakı dairə məhkəməsində andlı iclasçı kimi fəaliyyət göstərmişdir. Yuxarı və yerli çar hökumət orqanlarının himayədarlığı və əlbir işilə Bakıda öz iqtisadi və

siyasi-mənəvi dayaqlarını möhkəmlətmək istəyən erməni-daşnak dairələri Fətəli xan kimi azərbaycanlı ziyalı-hüquqşünası da gözləri götürmürdü. Bu gözügötürməməzlik istiqlaliyyət savaşı dövründə nifrətə çevrildi. Fətəli xan 1917-ci ildə Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü, 1918-ci il aprelin 22-də elan edilmiş müstəqil Zaqafqaziya Federativ respublikası hökumətində Ədliyyə naziri vəzifəsini tutdu. Nəhayət, mayın 28-də öz müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri təyin edildi.

Fətəli xan M.Ə.Rəsulzadənin və "Müsavat" partiyasının ətrafına topladığı istiqlal mücadiləsinin görkəmli başçılarından biri idi. O vətən və millət naminə bu böyük və məsuliyyətli yükü öz üzərinə götürmüşdü. Fətəli xan parlament tribunasından qətiyyətlə bildirirdi: "Mənim yoldaşlarım burada puldan ötərimi, yaxud yox olan ixtiyardan ötərimi əyləşməmişlərdir?..

Aya bizim tərəfimizdən böyük fədakarlıq, millətə böyük xidmət deyilmi ki, öz səlamətliyimizi, bu saat bazarlarda danışılan təmiz adımızı və rahatlığımızı millətə fəda edərək bu skamyalarda əyləşiriz...

"Azərbaycan İstiqlalı hər dəqiqə təhlükədədir... Azərbaycanın başına bir bəla gələrsə, onda biz nəyə gərəkik, çit və neft nəyə gərək olar?"

## *TƏHLÜKƏ, ERMƏNİ TƏCAVÜZÜ, QƏTİYYƏTLİ CAVABLAR*

**TİFLİS, 6 MAY 1918.** Seymin üzvü F.X.Xoyski növbədənkənar söz alaraq aşağıdakı bəyanatı verir: "Ответственные представители сеймовой фракции партии "Дашнакцутюн" заявляют, что они берут на себя ликвидацию Бакинского события на известных условиях, которые сводятся к тому, чтобы будущая власть в Баку было бы не чисто мусульманская, а было бы интернациональной и армянски части (речь идет об армянских вооруженных силах (Ш.Г.) оставались бы в Баку" Фатали хан называет его наглым предложением.

**23 AVQUST 1918.** F.X.Xoyski Gəncədən İstanbula Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadəyə xəbər verirdi: "Со стороны Карабаха двигаются армянские войска Андраника: которые заняли часть Зангезурского уезда и отрезали от нас Шушинский уезд..."

**20 DEKABR 1918.** Fətəli xanın Parlamentdəki çıxışlarından:

"Zəngəzur əhvalatı təzə bir şey deyil. Bu çoxdan başlamış bir işdir. Burada oturan məbuslara məlumdur ki, vaxtilə bir para ermənilər tərəfindən Qarabağ haqqında bir məsələ qaldırılmış idi. Hələ iyul ayın-

da Andranik başına bir dəstə çeteçi yığaraq İrəvan quberniyasından Gəncə quberniyasının hüduduna keçdi. Burasını deməliyəm ki, Andranik Türkiyə təbəəsidir. O vaxt Azərbaycan hökuməti Gəncədə ikən erməni hökumətinə müraciətlə isti cavab eşitmişdir ki, Andranik sizin tərəfinizdən iş görür, yoxsa bu hərəkətlər onun öz təşəbbüsüdürmü və onun qoşunları erməni hökumətinə tabedirmi, yoxsa onun hərəkətləri, şəxsi təşəbbüsləri adi üsyan kimidirmi? Erməni hökuməti cavab verdi ki, Adranikin erməni hökumətilə heç bir əlaqəsi yoxdur, özü bir asidir. Erməni hökuməti özü də onun rədd edilməsini və üsyanın yatırılmasını istəyir. Fəqət, gücü yoxdur, iş görə bilmir. Sizə məlumdur ki, Andranik iyul ayında Zənkəzur mahalında böyük fənalıqlar yaparaq bir çox köylər dağıtdı, nəhayət Şuşa qəzasına keçərək Əsgəran yolunu bağladı. O zaman böyük fəlakətlər çıxardı. Fəqət Azərbaycan hökumətinin əsgəri qüvvəsi o zaman yalnız Bakı məsələsinə münhəsir idi. Ona görə də ancaq Gəncədən iki dəfə erməni-müsəlman deleqasyonu göndərildi. Lakin bundan bir şey çıxmadı, Andranik öz işində davam edirdi. Sentyabr ayında Bakı alınandan sonra hökumət buraya köçdü və dərhal bu məsələyə diqqət verərək, özünə borc bildi ki, Andranik məsələsinə xitam versin. Ona görə də çeteçilər müqabilinə bir miqdar əsgəri dəstə göndərdi. Qoşunumuz müharibə nəticəsində Andraniki Əsgərandan çıxarıb, tamam Şuşa uyezdindən və Zəngəzur mahalının çox yerindən qovdu. Andranik qaçdı... "Andranikin başında olan dəstə çetə və quldur dəstəsindən ibarətdir. Bunların nə fikirdə olduqları və bu fikrin də müəyyən olduğu məlumdur. Bunların aşkar fikirləri budur ki, Zəngəzur və Şuşa uyezdlərini Azərbaycandan ayırıb, Ermənistana mülhəq etsinlər. Bacardıqları qədər bu yolda işləyiblər, bunların qarşısına qüvvə göndərdikdə bir müddət sakit olub, yenə fürsət tapdıqda öz fikirlərində sabit olub, əməllərinə nail olmaqdan ötəri işə başlayırlar. Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə bir məsələnin həlli üçün silaha sarılmaq lazım gəlmiş isə də, biz özümüz deyil, bizi məcbur etmişlər... Lazımi təqdirdə silaha sarılsaq, hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər".

"Biz var qüvvəmizlə Azərbaycanın hüququnu müdafiə edəcək və heç kəsə yol verməyəcəyik ki, kənardan gələnlər Azərbaycanın hüququna təcavüz etsinlər".

**26 DEKABR 1918.** "Əsgəri qüvvə təşkili üçün tədbirlər ittixaz edilmişdir (görülmüşdür)... Millət özü hökumətə kömək etməlidir... Bir məmləkətdə yaşayan millətlər özlərini o dövlətin övladı kimi görməlidirlər".

**18 FEVRAL 1919.** "Könüllü Ordu nümayəndələri... Bakıda və onun ətrafında qoşun yığıb silah paylayırlar, məşq edirlər, bir kəlmə, ciddi

surətdə qoşun hazırlanır. Digər tərəfdən erməni fəalları və əzan cümlə bütün sabiq fəaliyyəti Azərbaycanın müsəlman əhalisi ilə mübarizə və talandan ibarət olan Hamazaspın həmçinin silah daşımağa qadir olan ermənilərin siyahısını tutub toplayır, silah verir və qoşun qitəsi (hissəsi) təşkil edir... Hamazaspın özünün burda qalması dürüst deyildir. Bu barədə Tomsona yazdığım məktubda qeyd etmişəm ki, Hamazasp buradan çıxıb getsin".

"Ümidvaram ki, qoşunlarımız bu yaxınlarda Bakıya gələr, onda camaatın əhvalı başqa cür olar".

**14 YANVAR 1920.** "Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zamanda hökumət başında mən idim. Və indi də təsdiqini mən elan edirəm".

Söhbət Azərbaycan istiqlalının iri dünya dövlətləri tərəfindən rəsmən tanınmasından kedirdi.

"Böyük Ermənistan" iddiası ilə təcavüz və terrorçuluq yolunu seçmiş daşnak Güruhuna layiqli və qətiyyətli cavab vermək təcrübəsi bu gün üçün də yararlıdır. Daşnaklar Fətəli xan Xoyski və digər istiqlal mücahidlərini aradan götürməklə Azərbaycanı başsız qoymaq, onun müqavimət gücünü azaltmaq, zəifləmək məqsədi güdürdülər və indi də bu xətəli davam etdirirlər. Tarixi unutqanlığımız onların məkrli planlarına rəvac verir. Fətəli xanla birlikdə uzun illər çiyin-çiyinə istiqlal mübarizəsi aparmış, müstəqil, milli dövlətimizin möhkəmlənməsi və müdafiəsinə xeyli əmək sərf etmiş, milli hökumət kabinələrində ədliyyə və daxili işlər naziri olmuş Xəlil bəy Xasməmmədov da iyunun 19-da Tiflisdə erməni terrorçularının süi-qəsdinə məruz qalmışdı, yaralı halda cavab atəşilə terroristlərdən birini ağır yaralamışdı. X.Xasməmmədov Tiflisdən Türkiyəyə getmiş və bu qardaş ölkədə 1945-ci ildə dünyasını dəyişmişdir.

***"Şübhəsiz, bir gün gələcək, Azəri türkləri də milli cümhuriyyətin bu keçid dövründən qurtulmuş olacaqdır. İştə o zaman hürr məmləkətimizin minnətdar və həqarətli övladları, qürbət ellərin yiyəsiz məzarıstanında istirahət edən mərhum Fətəli xanın ağlar nəşini, onun qəlbimizdə yaşayan əziz ruhu ilə bərabər milli yurda, çox görmüş və keçirmiş zavallı ölkəmizə nəql edəcək və şairin dediyi kimi ona kimsənin irişəməyəcəyi iftixarlı bir abidə dikələcəkdir.***

***Bunu bizim həm vicdanımız və həm də milli qürurumuz tələb etməkdədir..."***

**Xəlil XASMƏMMƏDOV**
*"Azərbaycan yurt bilgisi", 1993, İstanbul*

**"Günay", N24, 17-23 iyun 2001**

# MƏTBUAT CƏMİYYƏTİN ÖVLADIDIR

*(Bəzi qeydlər)*

...Tez-tez soruşurlar ki, Mətbuat və İnformasiya Nazirliyinin ləğvi məsələsinə necə baxırsınız? Yəqin ki, bu sualı verərkən jurnalistlər və qeyri-jurnalistlər məndən mənfi münasibət gözləyirlər. Lakin bu məsələ ilə bağlı fikrim qətidir: sözügedən nazirliyin ləğv edilməsi faciə-zad deyil.

Gəlin, inkişaf etmiş ölkələrin siyasi quruluşlarına, dövlət strukturlarına nəzər salaq. Onların böyük əksəriyyətində mətbuatla bağlı ayrıca nazirlik tapmaq demək olar ki, mümkün deyildir. Almaniyada, İsveçdə, Hollandiyada, Avstraliyada, Braziliyada və bir çox ölkələrdə mətbuatla bağlı qurumlar heç vaxt müstəqil fəaliyyət göstərmir, onlar hansısa strukturun tərkib hissəsi olurlar.

Azərbaycanda keçid dövrü olduğundan mətbuatla bağlı məsələlərə daim qısqanclıq və ya partiyalı mövqedən yanaşılır. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində də ölkədə mətbuatla bağlı nazirlik olmayıb. Əvəzində isə mətbuatla bağlı məsələləri "Mətbuat haqqında Nizamnamə" adlı normativ sənəd tənzimləyib. Bu sənəd haqqında fikir söyləmək, onun əhəmiyyətini dəyərləndirmək üçün birinci bəndinə nəzər salmaq kifayətdir: "Mətbəələrin, litoqrafiyaların, metalloqrafiyaların təşkili üçün hökumət tərəfindən heç bir razılıq tələb olunmur". Həmin Nizamnamənin ikinci bəndi isə daha maraqlıdır: "Mətbuat məsuliyyətə ancaq cinayət törədilən hallarda cəlb oluna bilər". Mən belə hesab edirəm ki, mətbuatın azadlığını, müstəqilliyini məhz bu yolla təmin etmək mümkündür. Süni əngəllərlə mətbuatın qarşısına sipər çəkmək, onu addımbaşı təqib və təhqir etmək sivil cəmiyyət qanunları ilə bir araya sığmır.

Ümumiyyətlə isə mətbuatı da, cəmiyyəti də ayrı-ayrı qurumlar yox, qanunlar idarə etməlidir. Amma bir şərtlə ki, bu qanunlar mükəmməl olsun, cəmiyyətin, eləcə də mətbuatın tam şəkildə çiçəklənməsi üçün maksimum şərait yarada bilsin. Məsələn, 200-dən çox yaşı olan ABŞ Konstitusiyasına dəqiq desək, indiyədək cəmi 21 düzəliş əlavə edilmişdir. Böyük Britaniyada isə ümumiyyətlə, heç konstitusiya yoxdur. Orada konstitusiyanı qanunlar toplusu əvəz edir. Həmin topluya on üçüncü yüzillikdən başlayaraq, bizim günlərə qədər qəbul edilmiş və ləğv olunmamış ən mükəmməl qanunlar daxil edilmişdir.

Demək istəyirəm ki, hər hansı peşənin və ya sənətin yaşaması və şöhrətlənməsi üçün, heç də dəbdəbəli nazirlik yaratmaq lazım deyil-

dir. Mətbuatın hörmət qazanması üçün jurnalist etikasına əməl etmək kifayətdir. ABŞ Peşəkar Jurnalistlər Cəmiyyətinin etika kodeksində jurnalistin əsas vəzifələri kimi məsuliyyət, söz azadlığı, etika, dəqiqlik və obyektivlik, əməyə vicdanlı münasibət və qarşılıqlı etimad göstərilmişdir. Lakin 1993-cü ildə qəbul edilmiş bu kodeksdən çox-çox əvvəl Azərbaycanda sözügedən vəzifələr tam aydınlığı ilə göstərilmişdi. M.Ə.Rəsulzadə 1911-ci ildə İranda çıxan "İraninov" qəzetində yazırdı: "Mətbuat bir müəllim vəzifəsini yerinə yetirir. O, xalqın tərbiyəçisidir. O, mənəviyyatdan uzaq ola bilməz. O, təmiz, saf olmalı, əxlaqdan kənara çıxmamalıdır. Kənara çıxsa, öz mənafe məqsədinə xidmət edə bilməz. Aşağı səviyyəli yazı, söyüş və abır aparan yazı, fitnə-fəsad törədən yazı - bax, bu üç əxlaqdan kənara çıxan çıxışlar mətbuatı hörmətdən salar, əxlaqdan məhrum edər".

Bu gün Azərbaycanda qəzet reketi,. mətbuat reketinin nümunələri vardır. Kimin kimdən xoşu gəlmirsə, ağına-bozuna baxmadan öz qəzetində onu ən ağır küçə söyüşləri ilə söyüb biabır edə bilir. Bu ondan irəli gəlir ki, mətbuat həqiqi həyatdan uzaq düşüb. Jurnalistlərin arasında mövzu yeknəsəqliyi var. Mətbuat ictimaiyyətin görən gözü funksiyasını yerinə yetirə bilmir. Əli bəy Hüseynzadə vaxtilə çox gözəl demişdir: "Əkinçi" cəmiyyətin bir gözüdürsə, "Həyat" qəzeti onun ikinci gözüdür".

Azərbaycanın reallığı belədir ki, bizim günlərdə mətbuat əsasən partiya funksionerlərinə, təşkilatlanma işinə xidmət edir, başqa sözlə deyilsə, o, qlobal problemlərdən daha çox xırda, regional məsələlərə diqqət yetirir.

Bu bəlanın yaranmasının əsas səbəblərindən biri jurnalistikada təsadüfi adamların çoxluq təşkil etməsidir. Hazırda ölkəni bürüyən işsizlik və iqtisadi böhran yazıb-oxumağı bacaran bir çox istedadsız, qeyri-professional şəxsi çörək dalınca jurnalistikaya gəlməyə vadar edib. İndi bir çox jurnalistlər öyrənmək istədikləri məsələlərin mahiyyətinə varmadan, ilkin hazırlıq işləri aparmadan, çox nüfuzlu dövlət və özəl idarələrə soxulur, nəticədə jurnalistlər haqqında xoşagəlməz rəy yaradırlar.

Ümumiyyətlə, Azərbaycanda jurnalistlik ənənəsinə əməl olunmur, sovet dövrünün basmaqəlib qanun və mətbuat prinsiplərindən daha çox bəhrələnilir. Bu konsepsiyanın əsas mahiyyəti ondan ibarətdir ki, informasiya hökmən yuxarıdan aşağıya axmalıdır. 70 il adət etdiyimiz - "xəbər rəsmi dövlət orqanlarından gələr" arxayınçılığı jurnalistlərdə mütilik, qeyri-təşəbbüskarlıq və ələbaxımlıq yaratmışdır.

Hazırda dünyada kütləvi informasiya vasitələri anlayışını kütləvi

kommunikasiya vasitələri termini əvəz etməkdədir. Mətbuat informasiyadan daha çox oxucu ilə ünsiyyətə, başqa sözlə deyilsə, kommunikasiyaya can atmalıdır. Ünsiyyətin kökündə isə həqiqəti öyrənmək, həqiqətə nail olmaq cəhdi vardır. Mətbuat cəmiyyətdə qisas almaq alətinə çevrilməməlidir. Əksinə, insanları öz bayrağı altına toplamağı, onları tərbiyə etməyi bacarmalıdır. Dahi bəstəkar Ü.Hacıbəyov, onu patavalı kəndçi libasında çəkib ona lağ edən jurnalistlərə xitabən yazırdı: "Ləhvü-ləqəb aləti olmuş musiqimizi diriltmək və hər kəsin rəğbətinə məzhər etməyə çalışmaq və onların əvəzində nəinki ev tikdirmək, banklarda pul saxlamaq, bəlkə öz ailəsini belə bəsləyəcək qədərində də pulu olmayan bir mükafata razı olmaq zənburçuların nəzərincə pis şeydirsə, qoy mən pis olum".

Və nəhayət, jurnalistikanın bugünkü vəziyyəti üçün Azərbaycanda fəaliyyət göstərən müvafiq strukturlar da məsuliyyət daşıyır. İndi ölkədə onlarla jurnalist birlikləri və ya jurnalistlərin həmkarlar ittifaqları fəaliyyət göstərir. "Yeni nəsil" və "Ruh" jurnalist birliklərindən başqa digərlərinin indi jurnalistikaya hansısa əsaslı xeyir verdiyini, ona can yandırdığını söyləmək çətindir. Bu qurumların bir çoxu sovet dövründən qalma ətalət və durğunluq prinsipləri əsasında fəaliyyət göstərir.

Mətbuat fəaliyyət göstərdiyi cəmiyyətlə sıx bağlıdır, onun övladıdır. Cəmiyyətdə baş verən bütün proseslər, naqisliklər, mübarizələr və kataklizmlər mətbuatda öz əksini tapmalıdır. Mətbuatın saf olması üçün cəmiyyətin durulması gərəkdir. Bir çoxları ölkədə qayda-qanun yarandıqdan sonra demokratiyanın, demokratik mətbuatın bərqərar olacağını göstərir. Mənim fikrimcə isə, cəmiyyətdə sivil qaydaların yaranması üçün ən əvvəl demokratiya və demokratik mətbuat gərəkdir.

***"Günay" N 25,24.06.2001***

## BİTƏN ƏSRİN BÖYÜK ŞƏXSİYYƏTLƏRİ:

### M.Ə.Rəsulzadə və Ü.Hacıbəyov

XX yüzillikdə Azərbaycan torpağının yetirdiyi, tariximizdə və taleyimizdə mühüm rol oynayan şəxsiyyətlər, xalqın mədəni və ictimai-siyasi varlığı uğrunda fədakar mücahidlər sırasında M.Ə.Rəsulzadə və Ü.Hacıbəyovun adları ön cərgədə durur. Fitri istedada, kəskin və analitik təfəkkür tərzinə, mükəmməl biliyə, heyrətamiz qeyrətə və cəsarətə, əbədi varislik və milli-tarixi məsuliyyət hissinə malik hər iki Vətən övladını yaxınlaşdıran, birləşdirən cəhətlər çoxdur.

M.Ə.Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində, Ü.Hacıbəyov isə 1885-ci il sentyabrın 18-də Ağcabədidə dünyaya göz açmışlar. Aralarında 1 il 7 ay 18 gün yaş fərqi vardı.

Əsrin əvvəllərində kəskin iqtisadi, ictimai-siyasi böhran nəticəsində sosial-milli çəkişmə və çarpışmalara meydan olmuş sənaye Bakısı gənc M.Ə.Rəsulzadəni mübarizə səhnəsinə çəkmişdi.

Şuşanın əsrarəngiz zəngin mədəni və musiqi həyatında, doğma təbiəti qoynunda boy atıb Qori gimnaziyasının Şuşada istirahətdə olan müəllimi, görkəmli pedaqoq və maarif xadimi Firudin bəy Köçərlinin qayğısı ilə Qori müəllimlər gimnaziyasında təhsil alıb, bir müddət Qarabağda kənd müəllimi olmuş Üzeyir bəy də 1905-ci ilin yayında Bakıya gəlmiş, gələcək həyat və fəaliyyətini bu şəhərlə bağlamışdı.

M.Ə.Rəsulzadə ilə Ü.Hacıbəyovun ilk dəfə nə vaxt və harada görüşüb-tanış olmaları barədə dəqiq məlumat yoxdur. Məlum olan budur ki, Üzeyir bəy Bakıya gələn vaxt M.Ə.Rəsulzadə Bakının siyasi müxalifət dairələrində, xüsusilə gənclər arasında cosial-demokrat "Hümmət" qrupunun fəal üzvlərindən və rəhbərlərindən biri kimi tanınırdı. Onun bilavasitə iştirakı ilə gizli müxalif "Hümmət" adlı qəzet nəşr olunur, şəhərdə çoxlu inqilabi vərəqə və intibahnamələr yayılırdı. Güman etmək olar ki, "Şərqi-rus"u müntəzəm alan və oxuyan Üzeyir bəy qəzetin Bakı üzrə xüsusi müxbirlərindən olan M.Ə.Rəsulzadənin dərc olunan məktub və şerlərilə də tanış olmamış deyildi.

Üzeyir bəy Bakıya gəldikdən sonra, demokratik milli ruhlu ziyalıların qərargahına çevrilməkdə olan "Həyat" qəzeti redaksiyasına ayaq açır. Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev və redaksiyanın digər əməkdaşları ilə görüşür. Tezliklə "Həyat"da tərcüməci-mütərcim vəzifəsinə qəbul edilir. 1905-ci il sentyabrın 7-də qəzetin 59-cu sayında "mütərcimi Üzeyir" imzası ilə verilən yazıya rast gəlirik. Rus dilindən azəri türkcəsinə tərcümə edilmiş reportaj səciyyəli - "Avqustun 20,21

və 23-də "Küçə müqatiləsi" sərlövhəli bu yazı, əvvəlcə Peterburqda çıxan "Novoye vremya" qəzetində, sonra isə ermənipərəst "Baku" qəzetində dərc olunmuşdu. Söhbət erməni-müsəlman davası barədə "Novoe vrem"nın Bakıda məzuniyyətdə olan müxbirinin Bakıda cərəyan edən hadisələr barədəki mülahizələrindən gedirdi.

Üzeyir bəy nəinki tərcümə ilə məşğul olurdu. O həmçinin yazılanlara öz ciddi münasibətini də bildirirdi. Bu baxımdan "Həyat"ın sentyabrın 10-u sayında (N-62) dərc olunmuş onun "Bir xanım əfəndinin bizlərə hüsni-təvəcçöhi" sərlövhəli çox kəsərli polemik ruhlu məqaləsi diqqəti cəlb edir. Məqalə "Peterburqskie vedomosti" qəzetində Maqda Neyman adlı birisinin dərc etdirdiyi böhtan və iftira səciyyəli yazısına tutarlı cavab idi. Ermənirpərəst mövqedən çıxış edib, Qafqaz müsəlman-türk xalqına böhtan atan "qələm, mürəkkəb və kağızı müftə düşən" "biinsaf, bimürüvət və bivicdan mühərriri", "böhtan, kizb və iftiranı özünə peşə edən "Nazik xanım"ın iddiaları tutarlı fakt və məntiqlə ifşa edilirdi.

M.Ə.Rəsulzadə və Üzeyir bəyi - 20 və 19 yaşlı iki istedadlı gənci yaxınlaşdıran, Məmməd Əminin ifadəsilə desək "qələm arkadaşı" edən milli qeyrət və vicdani heysiyyət, əməksevərlik, cəsarət və hər cür fədakarlığa hazırlıq idi.

1905-ci il noyabrın 29-da "Həyat" qəzetinin 109-cu sayında iki tərcümə yazısı dərc olunmuşdur. Birincisi "Kaspi" qəzetindən tərcümə edilmiş "Əski qaydalar hələ güclüdür" sərlövhəli məqalə - mütərcimi Üzeyirbəy idi, ikincisi C.Məmmədquluzadənin Tiflisdə nəşr olunan "Kavkazski raboçi listok" qəzetinin 3-cü nömrəsində dərc olunmuş "Binəsiblər" (Obezdolennıye) məqaləsi idi. Onu M.Ə.Rəsulzadə tərcümə etmişdi.

1905-ci il dekabrın 17-dən Bakıda ikinci bir gündəlik mətbuat orqanı "İrşad" nəşrə başladı. Redaktoru Əhmədbəy Ağayev idi. Üzeyirbəy bu dəfə "İrşad"ın əməkdaşı olur. M.Ə.Rəsulzadə də onunla birlikdə "İrşad"da əməkdaşlığa başlayır 1905-1906-cı illərdə Üzeyirbəyin "İrşad"da çox mühüm və aktual mövzularda 50-dən artıq, müxtəlif janrlı yızısı dərc olunmuşdur. Elə həmin müddətdə müstəqil qəzetlər nəşr edən M.Ə.Rəsulzadənin də həmin qəzetdə 32 yazısı dərc olunmuşdur. Qəzetin elə nömrələri vardır ki, arada hər ikisinin yazıları dərc olunub. Məsələn, "İrşad"ın 47, 48,51, 67, 97, 128, 133, 139, 156, 159, 171 və 245-ci saylarını göstərə bilərik.

1906 və 1907-ci illərin avqust aylarında Bakıda keçirilən müəllimlərin 1-ci və 2-ci qurultaylarında, həmçinin "Nicat" mədəni-maarif cəmiyyətlərinin işində M.Ə.Rəsulzadə və Ü.Hacıbəyovun yaxından birgə fəal iştirak etdiklərini görürük.

1907-ci il iyulun 10-da Bakıda Orucov qardaşları çapxanasında "mətbuatda müstəməl siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türk-rusi və rusi-türk lüğəti çapdan çıxmışdı. Lüğətin müəllifi "İrşad" mühərrirlərindən müəllim Üzeyir bəy Hacıbəyov. Naşiri: "İrşad" mühərrirlərindən M.Ə.Rəsulzadə idi. Lüğətdə qeyd olunduğu kimi "Qəzetə və cəridə ilə məşğul olanlardan ötrü tək lüzumlu bir təstürül-əməl" olan lüğət M.Ə.Rəsulzadənin "Naşir tərəfindən" giriş sözü ilə nəşr olunmuşdur.

Üzeyir bəyin bu lüğəti indiyədək yenidən nəşr olunmamışdır. Məncə bunun əsas səbəbi M.Ə.Rəsulzadəyə qarşı düşməncəsinə münasibət olub. Halbuki çox böyük elmi-təcrübi və tarixi əhəmiyyətini bu lüğət indi də saxlamaqdadır.

M.Ə.Rəsulzadənin Ü.Hacıbəyovun hazırladığı lüğətə yazdığı "Naşir tərəfindən" giriş-təqdimatını oxuculara təqdim edirəm. İlk dəfədir ki, yenidən işıq üzü görür. Digər tərəfdən, Üzeyir bəyin də "ixtisara" salınmış mühüm bir yazısı ilə oxucuları tanış etmək istəyirəm. Belə ki, 1906-cı il iyunun 13-də Üzeyir bəy M.Ə.Rəsulzadə ilə birgə əməkdaşlıq etdiyi "İrşad" qəzetində "Bir tədbir lazımdır, ya yox?" sərlövhəli iri bir məqalə dərc etdirmişdir. Bu məqalə onun 1968-ci ildə nəşr olunmuş əsərlərinin 3-cü cildinə daxil edilmişdir. Lakin ixtisarla. Nəyi ixtisar etmişdilər? Oxuyun görün! Vallah-billah lazımlı yerləri, ibrət götürülüb-nəticə çıxarılası parçalar kəsilib-götürülüb. Görünür bizim ixtisar etdiklərimizdən daşnakların əməlli-başlı xəbərləri varmış və yetişdirdikləri yeni nəslə kimlə və necə mübarizə aparmağı da öyrədirlər. Şuşanı işğal etdikdən sonra Üzeyir bəyin bu doğma şəhərdəki abidəsini dağıdıb, gülləyə tutub, sonra Tbilisi bazarlarında hərraca qoyan və gözdağı kimi onun Bakıya gətirilməsinə şərait yaradan daşnaklar elə bil bu "ixtisar"dan da kam almaqdadırlar.

## *BİR TƏDBİR LAZIMDIR, YA YOX?*

İllər ilə təşkil və təqviyə edilmiş "daşnaksütun" bu gün özünü öz camaatı arasında elə möhkəmləndirib ki, tez bir zamanda puç olması çox mahaldır. Onun terror vahiməsi hələ camaatın canından çıxmayıbdır...

Bəs nə etməli?

Məlumdur ki, iqtişaş və qan tökmək olmamaqdan ötrü lazımdır ki, provakasiya olmasın. Bu provokasiya həm hökumət tərəfindən ola bilir və həm də hər iki camaatın əfzəl (fəzilət sahibi olan) və dəni (rəzil) şəxsləri tərəfindən...

İştə ölkənin sülh və müsalimәti (salamatlığı) üçün ümdə iki tədbir görmək lazımdır. Provakatorları qovub sürmək və caniləri layiqincə tənbeh etmək. Qətiyyən demək olar ki, bu erməni müsəlman iqtişaşı başından indiyə kimi, nə bir provakator, nə də bir caniyə arzu olunan surətdə cəza və tənbeh olunmayıbdır. Pravokatorlar öz yerlərindədirlər və bu yerdən o biri yerə dəyişilibdirlər. Əsl muqəssir və canilər isə cəza üçün ələ verilməyiblər.

Zatən caniləri məhkəmə əlilə tənbeh və tövbix (danlama) etmək bizim bu sülh və səlah komisionlarının vəzifələrindəndir. Lakin nə etməli ki, bu komisiyonlar öz təqsirlərinə görə bu işdə gücsüz və qüdrətsizdirlər. Halbuki, indi yalnız bu günə tədbirlər ilə ölkənin sükunət və rahatliyini - əhali əqlə və huşə gəlincə saxlamaq mümkündür.

**Ü.HACIBƏYOV**
*"İrşad" 13 iyun 1906*

## *NAŞİR TƏRƏFİNDƏN*

*Mətbuat artdıqca, tərəqqi və təkamül meydan aldıqca camaat arasında mədəni müəssisə və işlər çıxdıqca ədəbiyyat da bollaşıb yeni istilahat və ibarat (ibarələr) meydana gəliyor. Üsuli-məişət dəyişdikcə tərzi-lisan da dəyişir. On il bundan irəliki sözlərlə bugunkü əhval və ovza (vəziyyət) ifadə edilməz. Avtomobil olduğu yerdə öküz arabası ilə iktifa etmək (kifayətlənmək) olmaz. İştə Rusiyanın köhnə tərzi-idarə əsiranəsini (əsrlik idarə üsulunu) darbadağın edən hərəkəti-əhraranə (azadlıq hərəkatı) mətbuata vəsi (geniş) bir meydan açdı. Həmin fürsətdən istifadə edib qəzetə və jurnala həsrət olan müsəlman aləmi birdən-birə müxtəlif qəzetə və jurnallar ilə doldu.*

*Qəzetəçi və jurnalçılarımız müxtəlif məsələlərdən: iqtisadi, siyasi, ictimai və qeyri məqulələrdən (mövzulardan) bəhs açıb da camaatın, anlayamayacağı yeni istilahat və ibarət istemalına məcbur oluyorlar. Hörmətli qəzetə oxuyan vətəndaşlarımıza bu yolda bir müavinəti mənəvi etmək üçün qələm arkadaşımız Üzeyir bəy Hacıbəyov həzrətlərinin bu qəsd ilə tərtib verdiyi qamus (luğət) "turki-rus və rus-turki"sinin nəşrinə iqdam etdik. Bu qamus (luğət) həm rusca bilən, həm də rusca bilməyib, fəqət türkcə oxuyan qarə"lərə (oxuculara) yarayır. Türki qismində bəzi çətin sözlərə müfəssəl izahat və bəyanat verilmişdir. Hal-hazırda türk lisanına girmiş ərəb və fars əlfazından (sözlərindən)*

*başqa bir qədər əcnəbi Avropa təbirati-siyasiyyəsi (siyasi ifadələr) daxil olduğundan haman təbirlər dəxi əcnəbi tələffüzü ilə yazılıb, mənası bəyan edilmişdir və bir çoxunun ədibi-şəhir (məşhur yazıçı) Əlibəy Hüseynzadə həzrətləri tərəfindən dilimizə tətbiqi lüzumlu görünən ərəb və farsca müqabili yazılıbdır. Məsələn: mütləqiyyət, ictimaiyyət, zəmindarlıq (torpaqşünaslıq) və sair. Hər halda qamus (luğət) qəzetə oxuyub yazanlara yaxşıca bir dəsturuləməldir (vəsaitdir).*

***Məmməd Əmin RƏSULZADƏ***

**"Günay" N-26, 1-07 iyul 2001**

## QLOBAL DÜŞÜNƏN BÖYÜK MÜTƏFƏKKİR



Səlyanda dünyaya göz açıb, Tiflisdə orta, Peterburq və İstanbulda ali təhsil alıb, riyaziyyatçı-fizik və hərbi-həkim ixtisasına yiyələnmiş, Qərbi Avropanı gəzmiş, ərəb, fars, rus, latın, yunan, alman və fransız dillərini mükəmməl bilən, Şərq və Qərb ədəbiyyatı, fəlsəfi fikir tarixi və cərəyanlarını gözəl bilən alim, nasir, şair, publisist, tərcüməçi, rəssam Əlibəy hüseyn oğlu hüseynzadə xalqımızın son yüzilliklərdə yetişdirdiyi nadir fitri istedad, bilik və yaradıcı fikir dühalarından biridir. Cəmi 76 il yaşamış və onun yalnız 13 ilini doğma vətənində keçirmişdir. Ömrünün ilk 6 ilini Səlyanda (1864-71), 1903-1910-cu illəri isə Bakıda qızğın yaradıcılıq fəaliyyətində keçirmişdir. Bu 7 ildə onun "Kaspi", "Həyat", "Füyuzat", "İrşad", "Tərəqqi" qəzetlərində dərc olunmuş dərin qlobal səciyyəli yazıları xüsusi təfəkkür tərzi, uzaqgörənlik, geniş düşüncə tərzi nümunələridir. "Həyat" və "Füyuzat" ədəbi məktəbi bütün türk-islam dünyası-

nın problemlərinə sistemli baxış məktəbidir, bu məktəbdən bizim günlərimizdə də öyrəniləsi çox şeylər var. Qardaş Türkiyə Respublikasının son illər giriftar olduğu böhranlar, təzyiqlər, elə bizim özümüzün düçar olduğumuz bəlaların tarixi köklərini və səbəblərini anlamaq üçün Əlibəyi oxumaq, öyrənmək vacibdir. Əlibəy Türkiyədə yaşamış və yaratmış olsa da, qəlbi doğma vətənin həsrətilə döyünmüşdür.

"Hüseynzadə Əlibəy (Turan) doğulduğu, yaşadığı, çalışdığı yerlərə baxmaqsızın bütün Türk dünyasının mücahididir". Bu sözlər tanınmış türk alimi və ictimai xadimi professor Turan Yazqanındır.

"Əlibəy Azərbaycanda yox, bütün türklük miqyasında milli özünüdərkin, istiqlal düşüncəsinin memarıdır... Məhz bu mənada nəinki Məmməd Əmin və Nəriman Nərimanov, üstəlik Ziya Göyalp və Kamal Atatürk də Əlibəy Hüseynzadədən başlayır". Bu qiymətli və obyektiv kəlamın müəllifi çoxdan akademikliyə layiq və yalnız bu günlərdə müxbir üzv seçilmiş qüdrətli fikir va qələm ustası, tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayevdir.

İndisə sözü böyük həmyerlimiz Əlibəyə verək!

## *AZƏRBAYCANDA DÜŞÜNDÜKLƏRİM*

Hilali-Əhməriyyənin bayrağı bizimkinin eyni olan fəqət al rəngli milli bayrağında bəyaz hilal qarşısında beş şüali yerinə səkkiz şüali bir ulduz bulunan bir məmləkətdən, Qafqasiya Azərbaycanından, Azərbaycan Cümhuriyyətindən, daha doğrusu, Qafqasiya türk dövlətindən bir az bəhs etmək istərəm. Daha iki həftə olmadı ki, bu gənc dövlətin müvəqqəti paytaxtı olan Gəncə şəhərini tərk etdim. Müvəqqəti paytaxt deyirəm, çünki Azərbaycanın təbii paytaxtı, neft mənbəyi olan Bakıdır, Tiflissiz Gürcüstan nə isə, Bakısız da Azərbaycan odur. Bakını Azərbaycana çox görən kim olursa olsun, Azərbaycan xalqının ən mənfur düşmənidir!... Gəncəyə gəlincə, bu şəhər ancaq mərkəzi bir mövqedə olmaqla əhəmiyyət kəsb etmiş, iləridə Azərbaycanın maarif mərkəzi ola bilir. Gəncənin qırmızı kərpicdən ən gözəl binası olan bələdiyyə idarəsi də böylədir. Mühitin yaşıl zəmini üzərində süvaqsız qırmızı bina!.. Aman nə riqqətavər mənzərədir. O binanın mərkəz qapısı üstündəki, eyvanda hər axşam təmiz bəyaz paltarlar geyinmiş 20-30 yaralı osmanlı və azərbaycanlı türk nəfəri oturaraq hava alır. Küçədən gəlib keçən əhalini seyr edir, qarşıdakı baxçada çalınan osmanlı əsgəri musiqisini dinləyirlər... Və başları üzərində binanın ən uca bir nöqtəsində böyük möhtəşəm bir Hilal-Əhmər bayrağı dalğalanır!.. Riqqətli

bir mənzərə deyirəm, çünki Hilali-Əhmər xəstəxanasına çevrilmiş bu bələdiyyə binasında osmanlı türk nəfəri ilə azərbaycanlı türk əsgəri yaralı olaraq yan-yana yatırlar, bir-birlərilə dərdləşir, danışır və cüzi şivə ixtilafına baxmayaraq bir-birini mükəmməl surətdə anlayırlar!.. Bəli, anlayırlar, çünki Azərbaycan avam xalqı ilə Anadolu kəndlisinin, dili lap bir-birinin eynidir. Bir-birini anlamayan rus məktəblərində yetişib dilləri ruslaşmış Azərbaycan oxumuşları isə İstanbulun seçilmişlər ailəsinə məxsus istilahlar işlədən şəxsləridir.

Tarixin bəzi təbii cərəyanları olur ki, onları heç bir qüvvə saxlaya bilməz. Fərd nə qədər bilikli olursa-olsun, şaşırır, yanılır, yanlış yollara düşə bilir, fəqət tarix əsla şaşırmaz və olacaq öz təbiətilə olur!

Anadolu türkün Azərbaycan türkünə qovuşması da bu qəbil hadisələrdəndir.

Cahan müharibəsinin doğurduğu bütün çətinliklərə baxmayaraq, iki türk qardaş birləşir. Və bundan hər iki tərəf üçün də böyük fayda vardır. Çünki Azərbaycan və Anadolu bir-birini tamamlayırlar. Anadolu türkü coğrafi mövqeyi, tarixinin zərurəti üzündən dünyanın ən dəyərli əsgəri oldu. Fəqət, eyni zamanda da çarəsiz ticarətini, sənaye və iqtisadiyyatını başlı-başına buraxdı. Digər tərəfdən azərbaycanlı türk həddi-zatında əsgəri və cəngavər bir qövm ikən rus istilasından sonra rus hökumətinə əsgər verməkdən imtina etdiyindən, zaman keçdikcə döyüş qabiliyyətini itirmiş, yaxşı tacir və iqtisadçı olmuşdur. Onun sərvət qazanmaq xüsusunda kəsb etdiyi keyfiyyətlər heyrətamizdir. Halbuki, silahlı qüvvəyə malik olmayan bir millət istiqlalını qoruya bilmədiyi kimi, eləcə də ticarətsiz, sənayesiz və iqtisadiyyatsız da yaşaya bilməz. Bu səbəbdəndir ki, Azərbaycana qovuşmaqla hər iki türk bir-birinə qarışacağından türk milləti müasirləşmiş olacaqdır.

Bu gün Anadolu öz hərbi üstünlük və xüsusiyyətləri sayəsində Azərbaycanı ən mənfur bir əsarətdən xilas edir və bu müqəddəs ölkədə qanını axıdır. Lakin sabah da Azərbaycan öz iqtisadi mənbələri və tərəqqi etmiş ticarəti sayəsində Anadolunu iqtisadi səfalətdən xilas edə bilər.

Bu gün bütün dünyanı sarsıtmaqda olan və bir-birilə çarpışaraq ortalığı hərc-mərc eyləyən üç mühüm cərəyanın, yəni imperializm, nasyonalizm və sosializm cərəyanlarının ən faciəli fəaliyyəti sahəsi Qafqasiya və xüsusilə Azərbaycan oldu. Orası bir cəhənnəmə döndü. Oradakı türk qardaşlarımız bütün bu müxtəlif yağıcı, yıxıcı, əzici cərəyanların altında sərsəmlədi, nə edəcəyini bilmədi, mühakiməsini qeyb etdi. Osmanlı türkü imdadına yetişməsə idi məhv olub gedəcəkdi. Fəqət, onun məhv olması ilə Anadolu da təhlükəyə düşəcəkdi. Azərbay-

canı qurtaran Anadolu öz-özünü də qurtarır. Buna şübhə etməyiniz! Deyirlər ki, dağ-dağa qovuşmaz isə insan-insana qovuşur! Xeyr, tarixin elə anları vardır ki, dağ da dağa qovuşur, bu gün Ərciyəs* dağı Qaf dağına qovuşur və qovuşduqca yüksəlir!..

**Əlibəy HÜSEYNZADƏ,**
*"Hilal-Əhmər" qəzeti, 24 iyul, 1918.*
**(Yazının dili sadələşdirilib.)**

* **Ərciyəs** - Türkiyədədir.

## *ƏLİBƏYİN TARİX HAQQINDA DÜŞÜNCƏLƏRİ*

Qaranlıq bir şeydir ki, onun bulunduğu və hökmfərma olduğu məkanlarda və zamanlarda insan nə özünü, nə öz aynadakı surətini, nə də bulunduğu yerin daxil və xaricini görəməz. Bunları görmək və gördükcə bəristifadə edə bilmək ancaq işıq sayəsində ola bilir. Zülməti-mənəviyyə ilə ziyayi-mənəviyyə də bunlar kimidir. Maddətən heç bir kitab, hətta Qurani-Kərim dəxi qaranlıqda oxunmayacağı kimi, mənən o növ dərin mənalı kitablardan heç bir elmsiz adam layiqi-vəchlə bir məna çıxarmaz. İlahi və Qurani çoban çoban kimi, Musa da Musa kimi anlar. Biz diyoruz ki, aləmi-islamın, türkün, ərəbin, farsın bunca alimləri, həkimləri, ədibləri, şairləri, qəhrəmanları, dahiləri vardır. Sıra düşdükcə bunlarla fəxr dəxi ediyoruz.

Lakin əmin olmalıdır ki, zülmət, cəhalət üzündən biz bunların mənəviyyat asarinə (əsərlərinə) vaqif olmadığımız halda avropalılar əllərindəki şöleyi-maarif sayəsində bu asardan bizdən ziyadə istifadə ediyorlar. Məlumdur ki, islam məmləkətlərinin, məsələn, Türkiyənin, İranın bu gün ən gözəl xəriteyi-coğrafiyalarını yapan müsəlmanlar olmayıb avropalılardır. Bu məmləkətlərin vəqaye-tarixiyyəsini (tarixi vaqiələrini) mütaliə edən, giranqiymət (bahalı, qiymətli) asari-ətiqəsini (tarixi abidələrini) heç bahasına alıb muzeyxanələrinə nəql edən yenə avropalılardır. Hətta əşar (şerlər) və ədəbiyyat üçün belə məmləkətimizin mənaziri-təbiiyyəsini (təbii mənzərələrini), vəqayei-tarixiyyəsi, mücahadati-qəhrəmananəsi bizim özümüzdən ziyadə Avropa üdəba (ədibləri) və şüərası (şairləri) üçün mənbeyi-sünühat və ilhamat oluyor.

Budur, cədiddə (hazırda) bizim şairlik iddiasına bulunan nazimlərimiz, nəzmü şerə heç layiq olmayan məzmunlar üçün vəznsazlıq və qafiyəbazlıq ilə məşğul olub durmaqda ikən Avropanın Bayronları, Henrix Heyneləri, Bodenştedtləri Şərqə dair o qədər gözəl şerlər vücüda gətirmişlər ki, insani böht (təəccüb) və heyrət içində buraxırlar...

Uzağa getməyə nə hacət! Rusların ən böyük şüərasından olan Lermontovun ən gözəl əsərinə mənbeyi-ilhamat bizim Qafqazımız, Qafqazımızın mənzərələri, vəqələri (hadisələri), insanları olmamışdır? Nə üçün? Çünki o mənzərələrdə fövqəladə lətafəti-təsvir və əzəməti-şairanə olduğu kimi, o insanların da tənasübü-əza və hüsnü-əndami-zahirləri nisbətdə fitrət və təbiətlərində Firdovsilərin, Homerlərin tərifinə layiq xariqüladə övsafi-mərdanə (mərdanə vəsflər) vardır.

İştə bu səbəbdəndir ki, biz özümüz qərq olduğumuz qaranlığın içində zaman və məkanca bizə ən yaxın olan Şeyx Şamil kimi həqiqi bir insan və qəhrəmanı yaddan çıxardığımız halda ədibi-əzəm qraf Lev Tolstoy mərhum müşari-leyhin (yuxarda adı çəkilənin) vəqayei-ədəbiyyat üçün ən gözəl bir məzmun olduğunu anlayıb bu vəqayei təsvir üçün "Hacı Murad" ünvanı ilə yeni bir əsər qələmə almışdır.

"Füyuzat" N-9, 6 fevral, 1907

"Günay" N-27, 8 iyul 2001

## GƏNC TÜRKLƏR, YAXUD GƏNC TÜRKÇÜLÜK NƏ DEMƏKDİR

Dəryanın təlatümə gəlmiş dalğaları qoynunda tufana düşmüş, sualtı qayalara toxunub parçalanmaq təhlükəsi qarşısında olan gəmi şimşək və ildırım saçan qara buludlar altında köməksiz halda küləyin apardığı səmtə gedəndə gəmidəkilərin hər biri ümidini yalnız Allahın dərgahına bağlayır, təşviş və dəhşət dolu nəzərlərini gah göyə, gah gəminin kapitanına, gah da dəryanın ənginliklərinə zilləyərək, sakit bir buxtada təhlükəsiz sığınacaq yeri göstərən mayakın xilaskar işığını görmək arzusu ilə yaşayır!..

Vaxtilə bu tufan Asiyanın mərkəzindən qalxmışdı. Burada iğtişaş qaldırmış xalqlar, təlatümə gəlmiş bir dəniz kimi coşub-daşır və nəhəng dalğalar Qərbə üz tutaraq, orada siyasi qarışıqlıq və çevrilişlər törədirdi.

Hər bir qabarmadan sonra çəkilmə baş verir: bizim zəmanəmizdə də dünya suya qərq olmaq həddinə gəlmişdir, xalq axını bu dəfə Asiyadan deyil, Avropadan başlayır.

Yer kürəsinin hansı guşəsində dərya kimi çalxanan insan axını görsəniz, əmin olun ki, bu Avropada başlamışdır!..

Avropalılar daha Avropaya sığışmır, orada daşqın baş verir. Avropada tarazlıq pozulmuşdur!.. Xalqların kortəbii hərəkatı başlamışdır. Tox qarınla ac, zəhmətkeş beyin arasında uyğunluq yoxdur. Zəka aclığı, maarif aclığı, sivilizasiya aclığı xalqları Şərqə sürükləyir, orada bütün Şərq üçün və əlbəttə, ilk növbədə müsəlman dünyası üçün təhlükə törədir. Bu aləmin hətta ən vacib, başlıca hissəsi - onun mərkəzi orqanı olan ürəyi bu təhlükədən xali deyil. Saxta vətənpərvər ərəb liqasının bəyan etdiyi proqramı başqa cür anlamaq mümkün deyil. Dəfələrlə qeyd etdiyimiz kimi, bu proqramın ingilislər tərəfindən tərtib edildiyinə əsla şübhə yoxdur, çünki "ərəblər üçün olan Ərəbistana" guya ayrıca ruhani dövlət təşkil etməli olan Məkkə və Mədinə kimi xalis ərəb şəhərləri də daxil deyildir.

Başqa sözlə, bu o deməkdir ki, Məkkə və Mədinə katoliklərin Papalığı və lamaların Tibeti kimi o qədər zəif dövlətlər olmalıdır ki, lazım gəldikdə Yunqxesbland kimi bir leytenant bir ovuc ingilis əsgərinin köməyilə oraya soxula bilsin!

Məkkə və Mədinə - İslamın ürəyidir! Əgər bu ürək fırtınaya və daşqına məruz qalarsa, deməli, eyni təhlükə bütün müsəlman aləmini gözləyir.

Müsəlman aləminin ən mütərəqqi ölkəsi olan Türkiyə Qərbdən gələn bu dəhşətli qabarma təzyiqini hamıdan tez hiss etmişdir. Son yüzilliklərdə bir neçə zərbəyə məruz qalmış Türkiyə bu dəfə daha ciddi sarsıntı qarşısındadır. Bu sarsıntı ölkə hüdudlarında yaşayan xalqların hamısını hiddətləndirmiş və ayağa qaldırmışdır.

Əvvəlki dəfələrdən fərqli olaraq bu dəfə tufan təkcə xristianları deyil, həm də müsəlmanları və hətta, başlıca olaraq müsəlmanları ayağa qaldırmışdır!..

Albanlar (arnautlar-müsəlmanlar), ərəblər, gənc türklər və Əhməd-Cəlaləddin paşanın, Əhməd-Şövkət paşanın, Riza paşanın Sultana hamıdan yaxın olan bir sıra başqa şəxslərin qaçmaları barədə son məlumatları nəzərə alsaq, hətta mühafizəkar qoca türklər də ayağa qalxmışlar!..

Türkiyənin dövlət gəmisi Qərbdən gələn qorxunc zərbələrə get-gedə daha çox məruz qalır. Gəmidəkilərin hamısı narahatdır, bu gəminin içindən, onun qaranlıq və üfunətli anbarlarından və kayutalarından

hamı göyərtəyə qalxır. Onların bir qismi uzun sürən yuxudan ayılıb işığa və havaya çıxmaq istəyir, digərləri sakit havada gəmini suyun üzündə saxlayan maşınlara daha etibar etmir, fırtına və qəzadan qorxurdu.

Doğrudur, bu gəminin Sultan və Xəlif deyilən kapitanı var, hərbi baxımdan yaxşı təşkil edilmiş əla ordusu var, lakin bu əla ordunun arxasında və daxilində şüvən qaldıran başqa bir ordu - mövcud rejimdən narazı xalq varsa, xarici düşmənlərə qarşı sərhəddə fəaliyyət göstərən bu gözəl ordunun əlindən nə gələr?!.

Gəminin bütün bürokratik maşınları köhnəlmişdirsə, onlar Avropa sivilizasiyası deyilən daşqın üçün əsla yararlı deyildirsə, kapitanın əlindən nə gələr?!..

Xeyr, bütün başqa ölkələr üçün olduğu kimi, Türkiyə üçün də bürokratiya dövrü bir daha geri dönməyəcək.

Türkiyədə bürokratiyaya bel bağlamaq və onun bu dünyanın hər hansı başqa guşəsində mövcud burokratik maşınlar arasında ən mənasız, zərərli, təhlükəli, mənəviyyatsız (əgər bürokratiya maşınından mənəviyyat tələb etmək olarsa) olduğunu güman etmək olmaz.

Bizdə Türkiyə bürokratiyasını səciyyələndirən bir sıra məlumatlar var. Əgər həmin məlumatları bəyan etsək, bu bürokratiyanın dəhşətli cəhətləri bürokratizmin ən ehtiraslı tərəfdarlarını da mat qoyar!..

Beləliklə, Türkiyə dövləti deyilən və Avropa tərəfindən batırılma təhlükəsi gözlənilən köhnə gəmidəki bütün canlılar narahat-narahat vurnuxur və nicat yolu axtarırlar.

Həmin nicat işığı "gənc türkçülük hərəkatı" şəklində təzahür etmişdir. Gənc türklər əvvəlcə öz projektorlarını həmin gəmidə qurmağa cəhd göstərdilər. Lakin məşhur dövlət xadimi Midhət paşa devrilib uzaq Yəməndə sürgündə vəfat edəndən və molla Əli Suali Beşiktaş da şəhid olandan sonra gənc türklərin bütün cəhdləri bu günədək uğursuz oldu. İşığın əbədi düşməni olan zülmət - özünün gizlətdiyi bütün çirkab və üfunəti, gəminin gövdəsində bürokratik maşının təsiri altında yaranmış bütün çatları göstərməyə qorxan - zülmət işığa qarşı qiyam etmişdir.

Gənc türkləri - elmin, biliyin, zəkanın istedadın, idealın və mənəvi qüvvənin bu yeganə nümayəndələrini ölkə daxilində hər cür üsul və vasitələrlə təqib edirlər. Bu üsul və vasitələr arasında satqınlıq, məhbəslər, sürgünlər, hətta işgəncələr də mühüm rol oynayır.

Dəhşətli təqib sistemi fikrin və sözün üzərinə hücuma keçir. Məsələn, İstanbuldakı kitab mağazaları hamı tərəfindən tanınmış dünya klassiklərindən Milton, Şekspir, Bayron, Şiller, Hüqo, Dante, Tasso,

eləcə də Zolya, Dode, Qonkur və başqa realistlərin əsərlərini, nəinki türk dilində, hətta orijinalda - Avropa dillərində də sata bilmir.

Siz Türkiyə qəzetlərini oxumaqla heç vaxt xəbər tutmazsınız ki, Rusiyada fəhlə iğtişaşları baş vermişdir, orada bir neçə gün qəzetlər çıxmamışdır və i.a. Avropada və Asiyada ən iri sosial hadisələr və siyasi qalmaqallar dövründə Türkiyə qəzetlərində siz yalnız... Şimal Buzlu Okeanının, yaxud soyuq Cənub Qütbünün buzlaqlarının təsvirini tapa bilərsiniz (sic!).

Müsəlmanların əlində olan özəl mətbəələrin demək olar ki, hamısı bağlanmışdır. Bu cür idarəetmə sistemində maarif və bilik nümayəndələri olan Türkiyə ziyalıları ölkənin məhvə məhkum olması qənaətinə gələrək, oradan qaçmağa başladılar. Tufanın yaxaladığı bu gəmidəki adamlar özlərini dənizə atmalı və öz əzələlərinə ümid edərək həsrətində olduqları gözəl sahillərə doğru üzməyə başladılar ki, heç olmazsa oradan vətənin bu başıbəlalı gəmisinin yolunu işıqlandırsınlar.

Türkiyədəki mövcud rejim şəraitində böyük şair Əbdül-Həq-Həmid bu ölkəni qəti və həmişəlik tərk etməyi qərara almışdır.

Ürəkləri Vətən eşqilə döyünən, yüksək amallarla, işıqlı ideallarla yaşayan, nicat sözləri söyləyən Türkiyənin ən yaxşı övladları öz vətənlərini tərk etməyə tələsirlər ki, uzaqlarda bir mayak ucaldıb elə həmin vətəni xilas etmək üçün həqiqət işığı yandırsınlar.

Ərtoğrulun şərəfinə vətənpərvərlər klubu yaratmış, Osmanlı imperiyası qurulmasının ildönümünü yeni milli bayram kimi təsis etmiş, türklər üçün təfəkkür və söz xəzinəsi yaratmış Gənc Türklər Cəmiyyəti Sezostrisin və Ramzesin diyarında Xeops piramidasının zirvəsində və Kleopatra "iynəsinin" ucunda məhz belə bir işıq yandırmışdır. Əgər onların ucaltdığı mayak sakit, yumşaq və müntəzəm işıq saçırsa gənc türklərin digər partiyasının İsveçrədəki Alp zirvələrində ucaltdıqları və doğma üfüqləri şimşəklərlə işıqlandırmağı üstün tutan mayak- bunun tamam əksidir. Gənc türklərin bütün digər partiyaları və onların məxsusi mətbuat orqanları, o cümlədən "Şurayi-ümmət", "Məşvərət" və başqaları Misir və İsveçrə yönümlü bu iki ifrat mövqe arasında dayanır. Yuxarıda adını çəkdiyimiz "İctihad" məhz bu sonuncu istiqamətin nümayəndəsidir. Jurnalın istiqaməti elə onun adından görünür: "İctihad" sözü səy, qeyrət deməkdir. Mövcud qanunları həyatın yeni tələblərinə müvafiq qaydada yozmaq və işıqlı, zəkalı təşəbbüs və azad düşüncə vasitəsilə həmin qanunları yaxşılaşdırmaq cəhdi müsəlman aləmində islahatlar və dirçəlişlər yoludur.

Jurnalın hər bir nömrəsinin əvvəlində fransız dilində dərc edilən aşağıdakı iki sual onun devizidir:

1. Sizin fikrinizcə, müsəlman aləminin tənəzzülə uğramasının əsas səbəbləri nədən ibarətdir?

2. Bu tənəzzülü aradan qaldırmaq üçün hansı tədbirlərdən və vasitələrdən istifadə edilməsini təsirli sayırsınız?

Avropanın ən müxtəlif guşələrində yaşayan çoxsaylı professorlar və alimlər bu suallara cavab vermişlər və cavab verməkdə davam edirlər. Onların ciddi və işgüzar məqalələri yazdıqları dildə çap edildi. Biz də həmin mövzuda bir məqalə yazmışıq (hətta adını çəkdiyimiz jurnaldan və orada dərc edilən suallardan xəbərimiz olmadığı bir vaxtda). "Diaqnoz" sərlövhəli həmin məqalə vaxtilə "Kaspi" redaksiyasına təqdim edilmişdi. Ümidvaram ki, yaxın nömrələrdə bu məqalə dərc ediləcəkdir.

"İctihad" jurnalı məşhur gənc türk şairi, tibb elmləri doktoru Abdulla Cövdətin rəhbərliyi altında nəşr edilir. Biz çalışacağıq ki, oxucularımızı bu naşirin şəxsiyyəti və əsərləri ilə, eləcə də yeni türk ədəbiyyatının digər görkəmli xadimləri ilə tanış edək.

**(Əvvəli ötən sayımızda) Ə.HÜSEYNZADƏ,**
*"Kaspi", 27 mart 1905-ci il, N-55.*

**"Günay" 15.07.2001**

## PAOLO LEMBONUN DEDİKLƏRİ, "MOLLA NƏSRƏDDİN"İN YAZDIQLARI

**Yüzilliyin sonunda BMT-nin Azərbaycanda rezident-əlaqələndiricisi işləmiş Paolo Lembo ölkəmizdən ayrılarkən təşkil etdiyi mətbuat konfransında müstəqil respublikamız və xalqımız haqqında xoş sözlərlə yanaşı, öz tənqidi fikir və baxışlarını da gizlətmədən açıq şəkildə demişdir ki, "Mən dünyanın heç bir yerində Azərbaycan, Bakı kimi ziddiyyətli yer görmədim. Mən dünyada elə bir şəhər tanımıram ki, onun bu qədər çox zəngini və bu qədər çox dilənçisi olsun. Mən Avropada bu qədər xarici maşınların şütüdüyü, lakin xalqın ümidsiz vəziyyətdə yaşadığı ikinci şəhər tanımıram".**

**Paolo Lembo Azərbaycanda cəmi 4-5 il işləyib. Əlbəttə, onun baxışı Qərb mədəniyyəti baxışı, verdiyi qiymət və söylədiyi mülahizələr beynəlxalq hüqüq normalarına uyğundur. Lembo gördük-**

**lərini açıq deməkdən qorxub, çəkinməyir. Lakin bu vəziyyətin mövcudluğunun dərin köklərini, səbəblərini o aydınlaşdıra da bilmir. Bunu ondan tələb etməyə, gözləməyə haqqımız da yoxdur. Amma "Molla Nəsrəddin" jurnalı əsrin lap əvvəllərində onun indi gördüyünü görmüş, səbəblərini də göstərmişdir. İstəyirsiniz buyurun oxuyun! - "Azərbaycan padşahları"nı!**

## *AZƏRBAYCAN PADŞAHLARI*

Hərdənbir mənim xəyalıma bir belə şey gəlir: Azərbaycanda neçə padşah var?

Bu barədə Almaniya səyyahı "Reynqart" və ingilis səyyahı "Bekker" kitablarında yazdıqları məlumat bir-birilə müxtəlifdir.

"Reynqart" səyahətnaməsinin 65-ci səhifəsində yazır ki, Azərbaycanda 2522 padşah var, amma "Bekkerin" səyahətnaməsinin 125-ci səhifəsindən anlaşılır ki, Azərbaycanda 2323 padşah var.

Həmin iki səyyahın arasında keçən il bu məsələnin barəsində sual-cavab var idi: "Reynqart" Almaniyada çıxan "Trinxen" qəzetəsində yazdığına "Bekker" İngiltərədə çıxan "Tayms" qəzeti ilə cavab verərdi:

Axırda məlum oldu ki, "Bekker" Azərbaycanın "Nəmin" adında vilayətini nəzərə almayıb və buranın padşahlarını hesaba daxil eləməyib və bu səbəbdən Bekkerin hesabında Azərbaycan padşahlarının sayı 199-a qədər əskik çıxıb.

Vaqeən "Nəmin" vilayətində 199 padşah var ki, bu vilayətdə onlara "xan" deyirlər.

"Reynqart" Nəmin vilayəti barəsində belə yazır: "Nəmin" vilayətində 199 xan və 15 fəqir və biçarə rəiyyət var və burada bir yaxşı hamam var və bu hamamın pakizə suyu var. Hər bir xanın 99 oğlu var və 99 əlquşu və 99 tulası var. Xanların binayi-xeyirlərindən qırxa kimi darülfünun var və bu darülfünunların xərci güc ilə 15 nəfər kasıb rəiyyətdən alınır və bu məktəblərdə yaxşı elm oxunur, məsələn: "Cin Yusif", "Məşrubat" (içki) "Qumar". Və bu vilayətdə rəiyyətlərin əkilmiş zəmiləri də var və hərdənbir xanların könlü gəzmək istəyir, çünki Allaha şükür kefləri kök, damağları çağ, alacaq var, verəcək yox, quş var, ar yox, tula var, insaf yox, yumruq var, Allah yox...

Xülasə, a başınıza dönüm, bir gün bu padşahlar, yəni bu xanlar adama bir at, 21 tula və bir quş, 21 nökər üz qoydular rəiyyətin əkilmiş zəmilərinə və başladılar bu tərəfdən o tərəfə çapmağa, o tərəfdən bu tərəfə çapmağa.

Çəkmədi bir az, zəmilər zirbəzir oldular və əkinçilər də asudəliyə çıxdılar, çünki dəxi bir zəhmətləri qalmadı və axşam vaxtı Nəmin padşahları, yəni xanlar belə əhəmiyyətli fəth və zəfər ilə geri qayıdıb başladılar əvvəl "qaraxallı tulanın iy bilməyini, tərlan quşun ovlamağını" müzakirə və mübahisə etməyə. Və sonra mübaşir oldular eyş-işrətə.

İDARƏDƏN: biz belə eşitdik ki, "Reynqartın" kitabında bu əhvalatı oxuyandan sonra Avropada çox adam ağlayıb.

Amma bizlərdə bir belə xəbəri qəzetədə ya kitabda oxuyanda öz-özümüzə deyirik: "Maşallah, maşallah!"

Uşaqlıqda bir gecə canıma bir "birə" girib qoymurdu yatam. Çağırdım xalamı və ağlaya-ağlaya şikayət elədim. Xalam mənə dedi: "Bala yat, əlbət Allah belə məsləhət bilib".

Dedim: "Xala, vallah yata bilmirəm".

Dedi: "Bala, yat Allah məsləhətidi".

Dedim: "Xala, sən Allah, bu "birəni", mənim canımdan rədd elə".

Dedi: "bala, yat əlbət, Allah belə məsləhət bilib"

Xalam belə deyirdi.

Mollalarımız da deyir:

"Dər dəfi-xədəngi-sitəmi-gərdişi-gərdun,
Behtər zi-kifayəti-ilahi süpəri nist".

(fələkin zülm-cəfa oxlarının qabağını almaq üçün ilahi qüdrətdən yaxşı süpər yoxdur).

Xanəndə və sazəndələrimiz də hər toy məclisində əvvəl bunu başlayıb oxuyallar:

"Bari xudaya sən özün hifz elə,
Bu xan balasını, bu şahzadəni",
Adamlar da çıtmıq tutub oynayırlar.

1. **Nəmmam - Nəmin** - sözgəzdirən, araqarışdıran, xəbərçi

**HƏRDƏMXƏYAL**

*"Molla Nəsrəddin" N-11, 17 mart 1907*

**"Günay" N-29, 22 iyul 2001**

# N.NƏRİMANOV VƏ ŞƏXSİYYƏTƏ PƏRƏSTİŞ XƏSTƏLİYİ

Bəşəriyyəti min illər boyu təqib edən təbii-bioloji xəstəliklərlə yanaşı, ictimai-siyasi mərəz hissləri, vərdişlər, hədsiz itaətkarlıq, qorxu və istibdaddan qaynaqlanan şəxsiyyətə pərəstiş azarı, fanatizm bəlası da müşayiət etmiş və etməkdədir. Şöhrət və hakimiyyət hərislərinin ətraflarına cəm etdikləri "ziyalılar" bu xəstəliyin törədiciləri, daşıyıcıları, təbliğatçılarıdırlar. Xalqı soyanlar onların da qabağına tula payı atır, bəzən başlarına sığal çəkir, orden-medal verir, salır camaatın canına. Son əsrdə həqiqi demokratiya, insana hörmət, hüququn üstünlüyü prinsiplərinə əməl olunan ölkələrdə bu xəstəliyin qarşısı alınmışdır. Lakin kökü nəinki kəsilməmiş, hətta bəzi region və ölkələrdə yeni formalarda təzahür etməyə başlamışdır.

Qeyd edək ki, şəxsiyyətə pərəstişlə şəxsiyyətə hörmət, təcrübəli böyüklərə inam prinsipini qarışdırmaq olmaz. M.Ə.Rəsulzadə vaxtilə bu məsələyə toxunaraq yazırdı ki, "bu xüsusda prinsipial davranmaqla bərabər, mötədil bir ölçüyə malik olmaq, hadisə, təşkilat və şəxsiyyətləri təqdirdə vətənsevərlik içabə olaraq, ədalət və insaf hissindən ayrılmamaq şərtdi.

Məni bu mövzuda söhbət açmağa məcbur edən, daha doğrusu yazıya sövq edən N.Nərimanovun "Hümmət" qəzetinin 1918-ci il fevralın 13-dəki sayında dərc olunmuş bir yazısı oldu. "Balaca felyeton" adlanır bu yazı. Sovet Rusiyasında bolşeviklər Leninin şəxsiyyətinə pərəstiş kampaniyasını yenicə qızışdırırdılar. Şərqdə, o cümlədən İranda bu xəstəliyin tarixi çox qədimlərə söykənirdi. Azərbaycanın demokratiya yolu ilə irəliləməsi uğrunda çarpışanlar bu bəlaya da laqeyd qala bilməzdilər. Lakin Azərbaycan Xalq Cümhuriyyətini yaradanlar, demokratik və hüquqi dövlət arzusunda olanlar nə biləydilər ki, N.Nərimanovun təsvir etdiyi "ata", "vətən başı" deyib "kəllə vuranların", "boğaz yırtanların", məddah və yaltaqların yeni bir dəstəsi deyil, ordusu, partiyası yaradılacaq.

İndi isə "Balaca felyeton"la tanış olun.

## "BALACA FELYETON"



Mən gərək ki, uşaq idim, yadıma gəlir iranlıların bir padşahı vəfat etmişdi. Camaat dəstə-dəstə konsulxanaya yığılırdı. Bu dəstələr yolda gedə-gedə sinələrinə vururdular, ağlayırdılar: "vay atasız qalan canımız, vay! Başsız qalan vətənimiz vay!" - deyərdilər.

Sonra mən tarixdən-zaddan oxudum gördüm ki, haman bu "ata", "bu vətən başı" vətənindən, oğul-uşağından sərgərdan düşmüş, quru yerlərdə, quyularda can verən iranlı fəhləsinin qan-təri ilə qazandığı pulları bu "ata", bu "vətənin başı" fransız qızlarına yedirdirmiş. Bu "ata", bu "vətən başı" vətəni elə bir dərəcəyə gətirmiş imiş ki, camaat sevgili vətənindən qaçırmış.

Daha bir çox şeylər bu "ata"nın barəsində oxudum. Mən öz-özümə deyirdim: hərgah doğrudan da tarix yozan şeylər düzdürsə, bu "ata" vətənin əvvəlinci xaini gərəkdir hesab oluna idi. Göz yaşı ilə islanmış İranın torpağı çoxdan gərək idi bunun üstünü örtə idi, bunu öz altında bərk-bərk basdıra idi.

Bununla belə bu "ata"nın vəfatında bədbəxt, vətəni tar-mar olan camaat sinəsini açıb vururdu, göz yaşı tökürdü: "atasız, sahibsiz, köməksiz qalan canım vay!" - deyib ağlayırdı!?

Sonralar Məhəmmədəli faciələri meydana gəldi. İranlılar bütün cahana az qalmışdı göstərsinlər ki, bunlar daha hüquqlarını düşünüblər, bunlar vətən xainlərindən ötrü nəinki göz yaşı tökmək istəmirlər, hətta onları özləri topa bağlamağa hazırdırlar...

Bu da bir çovğun, yel idi, əsdi-getdi. Bu da bir qəzəbli sel idi, aşdı-daşdı. Fəqət bu yel və seldən sonra "İsmailliyə" binasında iranlıların iclasını görüb yenə də şaşdım-qaldım.

"Biz konsulu istiyor, biz konsulu və üsul-idarəsini axır nəfəsimizədək müdafiə edəcəyiz. Biz "Ədalət" firqəsi zad tanımırız, hanı o "Ədalət" firqəsini meydana gətirənlər? Veriniz onları bizə, biz həmin bu "İsmailliyə" zalında onların dillərini ağızlarından çıxarıb yerə atarıq, tain-

ki, bir də bildikləri, düşündükləri şeyləri intişar edə bilməsinlər... "Ədalət" firqəsinin də bildiyi, düşündüyü budur: camaat özü gərəkdir dərdinə qala. Bu da o vaxt olar ki, hökumət camaatin ixtiyarına keçə. İndi "İsmailliyə" zalında yığılan "camaat" də deyir: bu sözləri kökündən gərək yox edən, yəni elə bir üsul idarə ilə vətəni dolandırmaq ki, İranın "atası" öləndə bu camaat yenə küçələrə düşüb sinəsinə vursun, "sahibsiz canım vay!" - deyib ağlasın...

İndi mən çaşıb qalmışam: bilmirəm "Ədalət" firqəsimi vətənini çox istəyir, yainki, ölü cəmdəyə yüz kəllə vuranlar.

**Arı bəy (N.NƏRİMANOV)**
*"Hümmət" qəzeti, N-31. 13 fevral, 1918*

**"GÜNAY" 29.VII 2001 N-30**

## "TAYMS"IN YAZISI, ÜZEYİR BƏYİN DURĞU İŞARƏLƏRİ

**Dünya və Avropa mətbuatı tarixində öz xüsusi mövqeyi, çəkisi olan qəzetlərdən birisi - mən deyərdim, birincisi Londonda 1785-ci ildən müntəzəm çıxan nüfuzlu və sanballı "Tayms" qəzetidir. İngiltərədə beş əsrdən bu yana nəşr olunan mətbuat orqanları içərisində "Tayms" yeganə qəzetdir ki, Böyük Britaniya monarxı onun redaksiyasına şəxsən təşrif buyurmuşdur.**

**"Tayms"ın yazıları həmişə siyasət adamlarının, tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Uzun əsrlər böyük dünya dövləti statusunu daşımaqda olan İngiltərənin "Tayms" qəzeti də bu baxımdan maraq doğurmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilis hərbi hissələrilə birlikdə - 1918-ci ilin noyabrından "Tayms"ın müxbiri də Bakıya gəlmiş, bütün Qafqazı gəzmiş, burada cərəyan edən hadisələr barədə ingilis oxucularına, o cümlədən rəsmi dairələr və Avropa ictimaiyyətinə məlumat verməyə çalışmışdır. "Tayms"ın müxbirinin yazdıqlarına Azərbaycan jurnalistləri də maraq göstərmişlər. Məsələn, 1919-cu il aprelin 27-də Üzeyirbəy Hacıbəylinin müvəqqəti müdiri olduğu "Azərbaycan" qəzetinin 167-ci sayında 1-ci səhifədə "Qəzetlərdən" rubrikası altında "Qafqasiya əhvalı haqqında "Tayms" sərlövhəli bir maraqlı yazı dərc olunmuşdur. Qəzet yazırdı ki, Londonda çıxan ingiliscə**

**"Tayms" qəzetinin xüsusi müxbiri "Qafqasiyada milli rəqabətlər" sərlövhəsilə bir kaç məqalə yazıb göndərmişdir. İngilis mətbuatının Qafqasiya haqqında nələr düşündüklərini oxuculara bildirmək məqsədilə o məqalələrin ikincisini qismən tərcümə etdik".**

**Yazıda diqqəti cəlb edən incə bir mətləb də var. Üzeyirbəy məqalədə göstərilən fakt və mülahizələrə şərh verməmişdir. Lakin durğu işarələri ilə öz münasibətini bildirməyə çalışmışdır. Məsələn, müxbirin Azərbaycan türklərini "tatar" adlandırdığı yerdə mötərizədə nida işarəsi, "rus əleyhdarlığı Azərbaycanda Ermənistanda olduğu qədər şiddətlidir" cümləsindən sonra iri bir sual işarəsi, İrəvanı ermənilərin "milli yurdu" sözlərindən sonra yeni bir sual işarəsi qoymuşdur. Bunlar təsadüfi səciyyə daşımırdı. Əslində bu üsul da rəy bildirməyin incə bir formasıdır. Bütünlükdə "Tayms" qəzeti müxbirinin "Qafqasiyada milli rəqabətlər" barədə yazdıqları maraq doğurmaya bilməz. "Tayms"ın adı çəkilən nömrələrini tapmaq və Üzeyir bəyin diqqətini cəlb edən yazıları aşkarlamaq indi əlçatmaz problem deyil. Bunlar tariximizin çox mürəkkəb bir dövrünü və bugünkü hadisələrin tarixi köklərini araşdırmaq baxımından da faydalı olar. Hələliksə, "Azərbaycan" qəzetinin dərc etdiyi yazı ilə tanış ola bilərsiniz.**

### *"QAFQASİYADA MİLLİ RƏQABƏTLƏR"*

İslam millətinin qüvvət və əksəriyyətini ən ziyadə haiz bulunan və turançılıq fikrinin ocağı sayılan Azərbaycanda hökumət ilə müttəfiq qüvai işğaliyyəsi (işğal qüvvələri) arasında münasibət olduqca yolundadır. Hökumət milli ordusunu ingilis baş komandasının əmrinə görə mühafizət etdi. Axır zamanlarda səy və ücrət məsələlərindən dolayı bəzi uyğunsuzluqlar əmələ gəldi, amma tatar (!) fəhlələrinin əql və məntiqə görə hərəkət edə bilmələri haqqında çətinlik olmadı. Fəqət ruslar və erməniləri başa salmaq mümkün olmadı...

Azərbaycan məclisi-məbusanının birinci ictimai dekabr ayının 7-də açıldı...

Rus əleyhdarlığı Azərbaycanda Ermənistanda olduğu qədər şiddətlidir (?).

Dağıstan ərazisində rus antifaşisindən doğmuş bir Şimali Qafqasiya Cümhuriyyəti vardır. Bu hökumət milli deyil, bəzi siyasi təsirlərlə dünyaya gəldi (?). O qədər qüvvətli bir irqi heysiyyata tabe olmadığı üçün mövcudiyyətini saxlaya bilməsi məsələsi şübhəlidir.

Bolşeviklərin irəliləmələri üzündən Şimali Qafqasiya mərkəz hökuməti -"Vladiqafqazdan" "Temirxanşuraya" köçürüldü. Bu axırıncı şəhər Dağıstanda olmaqla bərabər hökumət dağıstanlıların müavinət və məzahiriyyətindən (imkanlarından) istifadə edəməyir (?!).

Ermənistan, yaxud digər ad ilə "Arıdaş" Cümhuriyyəti Batum müahidəsinə görə hüdudi-səthi təyin edilmiş və Qafqasiya hökumətlərinin ən kiçiyini təşkil eləmişdir. Bu hökumət ermənilərin milli yurdu (?) "İrəvan" əyaləti ilə bunun ətrafında bulunan bəzi kiçik ərazidən ibarətdir.

Ermənistanda iki siyasi firqə vardır: daşnaksütyunlar, yəni sosialistlər (?) və sosialist ciddi hürriyyətpərvərlər. Bu son firqənin nüfuzu çoxalır. Ermənistanda bolşevizm məslək və cərəyanı yoxdur. Əmlakı müsadirə etmək məsələsi də heç mövzu bəhsi deyildir. Bütün firqələr xarici işlərdə bərabərdirlər. Nübar paşanı ermənilər millətin mürəxxisi (vəkili) olaraq tanıyırlar. Onların məqsədləri indiki Ermənistanı Türkiyənin ermənilərlə sakin bulunan vilayətlərini birləşdirməkdir. Cülh konfransı bu hüdudları göstərərsə, müvəqqəti müstəqil bir Ermənistan hökuməti təşkil edəcəklərdir.

Əgər Nübar paşanın təklifləri qəbul edilərsə, Türkiyə Ermənistanı Qara dənizdən Ağ dənizə qədər böyüdəcəkdir.

Aldığım və öyrəndiyim fikirlərə görə, irəvan həvalisindən (ətrafından) Kiçik Asiyaya doğru böyük bir mühacirət hərəkətinə intizar etməlidir. Çünki nüfus məsələsi xaricdən mühacirlər gətirmək və başqa tərəfə doğru köçənləri əski yurdlarına iadə eləmək surətilə həll edilə biləcəkdir. 1915-ci ildən bəri İrəvan həvalisi (ətrafı) Türkiyədən gələn qaçqınlar və millətçilərlə dolmuşdur. Bunlara "İttihad və tərəqqi" ordusundan qaçan Batum, Ərdəhan, Kars erməniləri də iltihaq etmişdir (qatılmışdır).

Müstəqil bir Ermənistan təşkil edilməsi təsəvvür edilirsə, İrəvan həvalisinin dəxi əlavə ediləcəyi məmuldur (gözlənilir). Çünki ermənilərin rəisi - ruhanisi İrəvan əyaləti daxilində Eçmiədzində oturmaqdadır.

Ermənilər gürcüləri ittiham edirlər ki, "ittihad və tərəqqi" ordusunu Qafqasiyaya gətirənlər və yol verənlər onlardır. Onun üçün də gürcülərlə ermənilər arası yaxşı deyildir. Axalkalaya sahib olmaq üçün ermənilərlə gürcülər arasında çıxan qanlı müharibələrdən sonra iki tərəf arasında nifrət və düşmənçilik hissləri daha da artmışdır. Bundan sərf-nəzər ermənilər ilə müsəlmanlar arasında daha fəna bir münasibət vardır. İki millətdən bir-birinə aid və əksəriyyət nüfusun əqəliyyətə qarşı göstərdiyi vəhşiyanə müqabilə bilməsəllər nəticəsi olaraq qanlar töküldü. Qafqasiyalılarda sülhcüyanyə əməllər azdır (?). Müttə-

hid bir hökumət təşkil ediləcəyi təsəvvürləri boş şeydir (?)

Digər tərəfdən Rusiya da, Qafqasiya məsələlərini həll edə biləcək bir halda deyildir. Bununla bərabər üç və ya dörd millətin ittihadı ilə əgər bir intizam və sülh doğarsa, o zaman milli və irqi bir dairədə hökumətlər təşkili mümkün ola biləcəkdir. Hər nə olursa da, Qafqasiyada paydar bir vəziyyətin hüsulu üçün daha iyi zaman lazımdır".

*"Azərbaycan" qəzeti, 27 aprel, 1919, N-167.*

**"Günay" N-31, 5 avqust 2001**

## HƏQİQİ İNSAN VƏ QƏHRƏMAN HAQQINDA MÜTƏFƏKKİR SÖZÜ

***I Dövlət Dumasının Gəncə millət vəkili İsmayıl xan Ziyadxanov 1906-cı ilin iyununda duma iclaslarından birində çıxış edərək demişdi: "Zaqafqaziya torpaqları 100 il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu 100 il içində biz müsəlmanlar həmişə əsir müamiləsi görmüş və bu sifətlə hər təqibata məruz qalaraq hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik". Bu sözləri oxuyarkən Qafqaz xalqlarının, Qafqaz müsəlmanlarının ilk mücahid qəhrəmanları Qazi Məhəmməd, Şeyx Şamil və onların silahdaş və igid ardıcıllarının nurlu simaları gözlərim önündə canlandı. Dini və milli təəssüb, qeyrət, namus və fədakarlıq, azadlıq və istiqlal fikri və fəaliyyətinin ən böyük mücahidi hesab edilən Şeyx Şamil Azərbaycanda neçə-neçə nəslin pərəstiş və fəxr etdiyi, iman və inanc gətirdiyi tarixi şəxsiyyətlərdən olmuşdur. Buna şahidlik edəcək sənəd və tarixi materiallar istənilən qədərdir. Mətbuat tariximizi araşdırarkən mən də onlara rast gəldikcə həm sevinmişəm, həm də təəssüf hissi keçirmişəm ki, niyə biz bunları vaxtında gün işığına çıxardıb, hamının malı, dünyagörüşü etməmişik? Dostluq və qardaşlıq tarixinin mənəvi-dini-əxlaqi kökləri olduqda möhkəm və sarsılmaz olur. Əsrin əvvəllərində bu həqiqəti dərk edənlər az olmayıb. Şeyx Şamil onlar üçün istiqlal rəmzinə çevrilmişdi. Məşhur mütəfəkkir ədib və jurnalistimiz Əlibəy Hüseynzadənin nəşr etdiyi "Füyuzat" jurnalı 1907-ci ilin fevralında yazırdı: "Qərq olduğumuz qaranlığın içində zaman***

***və məkanca bizə ən yaxın olan Şeyx Şamil kimi həqiqi bir insan və qəhrəmanı yaddan çıxarmaq olmaz".***

***"Füyuzat", sonralar "Yeni Füyuzat" jurnallarında Şeyx Şamil haqqında çox tutarlı, böyük hörmət və məhəbbət hissilə yazılmış yazılar vardır. Onlardan birini -"Şeyx Şamil və onun həfidi" (oğul nəvəsi) sərlövhəli materialı olduğu kimi sizə təqdim edirəm. Qoy tarixdən xəbəri olmayıb bəzən hissə qapılan, kiminsə fitvasına uyan cavanlarımız ata-babalarımızın irsi ilə tanış olsunlar, əsl həqiqətin harada oluğunu bilsinlər, böyük Şeyxin iman və inancının ardıcıllarına çevrilsinlər.***

## *ŞAMİL VƏ NƏVƏLƏRİ*



Şeyx Şamil 14 sənə qədər əsrinin ən fazil və kamil alimlərindən ülum (elmlər) və fununu (fənləri) və bilxassə ülumi-islamiyyəni təhsil və əzcümlə Dağıstanın məşahir (məşhur) üləmasından Qazi molla Məhəmməd əfəndinin moizə və müsahibətindən dəxi külli istifadə etmiş qayət alim və kamil bir zat idi. 1832 sənəsində baron Rozen tərəfindən Gimrinin mühasirəsi əsnasında Qazi Molla Məhəmməd şəhid olub Şeyx Şamil də məğruh (yaralı) düşmüşdü. 1834 sənəsində Dağıstanın rüəsasından olan Həmzətbəy dəxi məqtulən (qətllər) vəfat etməklə Dağıstanın riyasət və imamətinə kəsbi-əhliyyət (layiqlik) və ləyaqət edən zat Şamil olduğuna məbna avar əhalisi Aşiltılı qəryəsinə (kəndinə) yığılıb orada imam və rəis intixabı xüsusunda məşxərət və məsləhət etdikdən sonra Şeyx Şamili özlərinə imam və rəis seçərək mötih əmr və fərmani olmuşlardır. İştə Şamil əfəndi iş başına keçdiyi kimi cəmaətin xeyr və mənfəətini dərpişi-nəzər, ədlü-insaf eləyərək qayət mükəmməl və müntəzəm islahat və nizamat icrasına təşəbbüs eləmiş və bir çox adilanə qanunlar vəzinə müvəffəq olmuşdu.

Bununla bərabər, təhti-idarəsində yaşayan əhali arasında hökmfərma olan adati-batilə (doğru olmayan adətlər) və cahiliyyəti-ləğv və

ibtal ilə yerinə ehkami-şəriəti qərrayi qaim etməyə son dərəcə sərfiməsai edib dəyanəti-islamiyyəyə müvafiq olmayan bir xeyli mərasim və adati-qəbiheyi büsbütün ortadan qaldıra bilmişdi. Onun tədbiri ilə şəri-qəvim (şəriət qanununa müvafiq sağlam) əhmədiyi icra və əhya üçün hər bir mahalda ərbabi-elmdən naiblər və qazılar təyin olunaraq naiblər qazılara, qazılarsa ümuri-müşküldə müftilərə, bunlar da məsaili-mühümmüdə Şamil əfəndinin təhti-rəyasətində iniqad edən məclisə müraciət eləmək nizam və qanuni vəz bulunmuşdur.

Bundan başqa, hər kəs olursa-olsun, əhraranə və sərbəstanə Şamil əfəndi ilə görüşmək və şikayətini bilzat kəndisinə söyləmək hüquqi-insaniyyəsini haiz bulunuyor idi.

Babi-şikayət məsdud deyil, açıq bulunmaqda idi. İştə görünür ki, Şamil əfəndi mühibbi-rəyasət (rəislik sevən) deyil, mühibbi-ədalət və cəmaət bir zati-şərif idi.

Məsaleh (məsləhət) və mənafe" ammieyi-mövzu müzakirə və müşavirə qılmaq üçün həftədə iki gün - düşənbə və pəncşənbə günləri öz təhti-sədarətində üləma və ərbabi-maarifdən mürəkkəb bir məclis təşkili-adati-Həsənəsi (gözəl adətlər) cümləsindən idi. Görüşmək qaydasına gəlincə bu qayət sadə bir surətdə icra olunuyordu. Məsələn, sair xanlar kimi tabei ayaq üstündə durmaya məcbur etmək üsulu olmuyub, ancaq səlamünəleyküm və əleykümərssəlam rəsmi-islamiyyəsi ilə iktifa olunurdu.

Şamilin təhti idarəsində bulunan ölkə 32 naibliyə təqsim olunaraq idarə olunmaqda idi.

Hər bir məmur və əhli mənsəbin rütbə və məmuriyyəti fərq və təmyiz (seçmə) olunmaq üçün əlaməti-fariqə olaraq bir növ qumaş əmmamələrinə təliğ (bağlama) olunurdu.

İbrazi-ləyaqət və bəsalət edən əfrad (fərdlər) medalya və nişan ətasına ciddi bir tərzdə riayət olunmaqda idi. Nişanlar isə sadə gümüş və yaxud müzəhhəb (naxışlı) mütəlla (qızıl suyuna çəkilmiş) gümüşdən ibarət olub bəzilərinin üzərində ərəbiəl-ibarə olaraq "Mən təfəkkür fil əvaqib ləmyəşcə" ibarəsi məhkuk idi. Mənası: "İşin aqibətidir, pişnəzər təfəkkür edən zat qəhrəman olmaz".

Və bəzi nişanların üstündə "Sahibül şücaət vəlseyfül məslul" cümləsi mənquş (nəqş edilmiş) və mühərrir (yazılmış) idi. Mənası "İştə bu adam sıyrılmış qılınc sahibi şücaətpərvər bir qəhrəmandır".

Gərək əsgər və gərək rəiyyətin ehtiyacat və islahatı təminə mədar (mərkəz) olmaq üçün Şamil əfəndinin olduqca mükəmməl və müntəzəm beytülmal və xəzinəsi var idi.

İşbu xəzinəni idarə edə biləcək mənbəyi varidat isə zəkat, əşərr

(onluq) və dəhatdan (kəndistandan) müvafiq qanuni-ədalət olaraq toplanan vergi, xərac, bir də əmvali-qənimət olmuşdur.

Şamilin qeyd dəftəri olunan əsakirinin (əskərlərinin) ədədi bir zaman 60 minə vasil olmaqla bərabər bir xanədə hərbə müqtədir nə qədər zükur (kişilər) varsa müharibə əsnasında əsgərliklə hərbdə iştirak etmələri qanunən məcburi idi. Əsgər bir onbaşıya tabe on kişilik dəstə və yüzbaşıya tabe yüz kişilik dəstələrə təqsim olunmuş idi və biəxərə hər min kişidən ibarət müntəzəm polklar, alaylar dəxi təşkil olunmuş idi.

Əsgərlik vəzifəsindən azad edilən kəndlərin əhalisi duz, kükürd və kirəc tədarükü ilə mükəlləf idilər. Kükürd və kirəc isə barıt emalı üçün lazım məvaddan (maddələrdən) olub bu növ mühümmati-hərbiyyə istehzarına (hazırlanmasına) məxsus olmaq üzrə Dağıstanın öz qəryələrindən Unsukul, Qunib və Vədnuda fabrika və cəbbəxanələr yapılmış idi. Əsləheyihərbiyyə dəxi Dağıstanın özündə emal olunurdu. 1846 sənəsindən sonra Şeyx Şamil bir topçu bölüyü dəxi tənzim edib bunların topları ibtida ruslardan ələ keçirilmiş toplardan ibarət ikən bilaxirə Vədnuda xüsusi bir top fabrikası bina etdirilib burada 50-yə qərib top töküldüyü məlumdur. Şamilin əsgəri arasında topçuluq, mühəndislik və istehkam inşası kimi sənətlərə aşina mütəfənni adamlar əskik deyil idi. Bunların bir çoxu Rusiyadan və rus əskərindən fərar edənlər olub Şeyx Şamildən fövqəladə lütf və ehtiram gördüklərindən müşarileyhə böyük bir həvəs ilə xidmət etməyə qeyrət ediyordular...

İştə Şeyx Şamilin baladə (yuxarıda) zikr olunan müdəbbiranə təşkilat və tənzimatı sayəsində idi ki, Dağıstan əhli Rusiya kimi müəzzəm və qəviülşəkimə (güclü, müqavimətli) bir dövlətə qarşı hürriyyət və istiqlalları uğrunda 25 sənə qədər müharibə ilə müqavimət edib dura bilmişlərdi. Bu xüsusda təşkilat və tənzimat ümurinə böyük bir qabiliyyətdən başqa Şamilin haiz bulunduğu sair övsafi-mənəviyyənin (mənəvi keyfiyyətlərin) də dəxli var idi.

**"Günay" N-32, 12 avqust 2001**

## "TƏKLİYİMİZDƏ NARAZI, MƏCMUMUZDA RAZI". NƏ SİRRİDİR BU?

İlk baxışda çox sadə görünən, lakin gələcək taleyimiz üçün böyük həyati əhəmiyyət kəsb edən bu dərin, köklü tarixi mərəzin aydınlaşdırılması, sistemli tərzdə öyrənilib müalicəsinə başlanması hədsiz dərəcədə vacib və lazımdır. Bu problem üzərində bizdən əvvəlki qələm və fikir sahibləri də xeyli düşünmüş, yazmış, onun dəf olunması yolunda xeyli əmək sərf etmişlər. M.Ə.Rəsulzadə 1914-cü ilin aprelində "Bəsirət" qəzetində "Bəsirət gərək" - yəni uzaqgörənlik, gözüaçıqlıq gərək sərlövhəli baş məqaləsində yazırdı:

"Bu hal nədən gəlir? Necə olur ki, bizə istədikləri şeyi qəbul etdirirlər. Necə olur ki, təkliyimizdə narazı olduğumuz hər bir şeyi məcmumuza qəbul etdirirlər? Biz də ona sual-cavabsız razı oluruq?

Bizdə gözüaçıqlıq yoxdur? Görə bilmirik?... Axı gözüaçıqlarımız var, görənlərimiz də var. Fəqət fəal bir uzaqgörənlikdən və müsbət bir nəzərdən məhrumuz.

Bu məhrumiyyət haradan gəlir? Əlbəttə, bunun çox səbəbləri ola bilər və vardır. Mən mümkün olarsa gələcəkdə onlardan da bəhs və oxucularla fikir mübadiləsi edəcəyəm. İndilik bu qədər deyəcəyəm ki, uzağı görməmək şəklində görünən fəaliyyətsizliyimiz kədərləndirici bir təfəkkür tərzimizin nəticəsidir".

M.Ə.Rəsulzadə yazırdı ki, "giriniz millətimizin, ölkə təbəələrinin arasına, danışınız onlarla: ziyalı, dindar, molla, tacir, yoxsul, sənətkar - hər kəslə danışsanız, hamısı həyatımızın qeyri-müvafiq olduğundan bəhs edər. Təbii ki, hər kəs də bu uyğunsuzluğu özünə məxsus bir nöqteyi-nəzərdən təhlil edər. Bu təhlillər bir-birinə tamamilə zidd olarsa da bir şeydə hamılıqla həmfikirdirlər. Bu da özümüzün geridə qalmasından, işlərimizin pərişan olmasından ibarətdir".

Müəllif belə bir sual qoyurdu:

"Axı geridə qalan irəliləməli, pərişan olan düzəlməli, bunun çarəsi nə?"

Bu sualın cavabına gəlincə, "əksəriyyətlə hər kəs deyir ki, canım, müsəlmançılıq böylə olar. Müsəlman düzəlməz!"

M.Ə.Rəsulzadə bu təfəkkür tərzini "ölü nəzəriyyə" adlandırır və qeyd edirdi ki, "hər bir fəaliyyəti və hərəkəti öldürən ölü nəzəriyyə, fanilik və ümidsizlik olduğu görülməkdədir, bu, avamımıza, seçilmişlərimizə, böyüklərimizə, kiçiyimizə, hamımıza təsir etmişdir. Həm də o qədər həddən artıq bir surətdə ki, ən adi şeyləri gördükdə belə haman hökm edəriz ki: "Canım müsəlmandan adam olmaz" və "müsəlmançı-

lıqdır". Müdhiş təfəkkür tərzi beyinləri islila etmiş, təbiidir ki, heç bir uzaqgörənlik və oyanışdan fayda gözləmək olmaz".

M.Ə.Rəsulzadə böyük bir ürəkyanğısı ilə göstərirdi ki, "bir millətin müxtəlif təbəqələrinə mənsub olanlar öz millətləri haqqında bu qədər yanlış bir görüşə tutulub da haqqına-nahaqqına bir məyusluq gətirici fikirləri təkrar edirlərsə, belə bir mühitdə ictimai məsələlərdə nə kimi hərəkətlər və nə kimi müvəffəqiyyətlər gözləmək olar?"

Müəllif Bakı əhalisinin əksəriyyətini müsəlman türklər təşkil etdiyi halda nə üçün şəhər bələdiyyəsində müsəlman qlasnıları əzəliyyət təşkil edir - sualını qoyur və belə cavablandırırdı: "Bələdiyyə dairəsində müsəlman qanunvericilərini barmaqla saymaq olar. Xalqın mənafeyini müdafiə üçün seçilmiş bu qlasnılar da ildə iki dəfə iclaslara gəlməzlər. Yenə də seçilərlər, camaatın işləri bunların eynlərinə deyil...

Əsrin əvvəllərində bu ciddi problem üzərində düşünənlər içərisində Ömər Faiq Nemanzadə də vardı. Bu baxımdan onun "İrşad" qəzetində dərc olunmuş "Nə vaxta qədər?" sərlövhəli yazısı diqqətə layiqdir. "Daha bəsdir mənfəətxorlara, dinini, millətini iki qəpiklik xeyrə satanlara boyun əymək!" "Öz-özümüzə balta vurmağımızın təsiri yalnız camaatımızda deyil, bəlkə beş-on manat məvacib - aylıq alan elmsiz, hünərsiz, başı sarıxlı qulluqçularımız ilə, başı şapkalı həmiyyətsiz qara qarğalarımızdadır!". "Nə vaxta qədər ümumi və milli nəfimizi buraxıb, bəzi sədrdə (başda) əyləşən, minbərə (tribunaya) çıxan həmiyyətsizlərin keyflərinə qulluq edəcəyik?!" "Nə vaxta qədər xeyir və şərimizi qanmayacağıq, ətrafımızı əhatə edən dəhşətli vaqilərdən daşlar belə mütəssir olur, aya biz nəyik?" Ürəkdağlayan bu sözlər 95 il bundan əvvəl yazılıb, aktual səslənmirmi?

Mirzə Cəlilin bu vacib məsələyə münasibəti də maraqlıdır. "Sözün doğrusunu danışmaq da bir hünərdir: yoxsa öz-özümüzü başlayaq tərifləyək və özgələri pisləyək - bu yaxşı deyil". "Dünyanın heç bir nöqtəsində, heç bir tayfa arasında şeytan o qədər modda deyil ki, biz müsəlmanların arasındadır. Hər bir işdə, hər bir məqamda, məscid və minbərdən başlamış, evlərimizə, küçələrimizədək öz qəlbimizi şeytanın adı ilə doldurmuşuz... Həmin kor şeytandır ki, müsəlman kitablarının hamısında onun tərifi var", "nə üçün birdəfəlik - Allah bizi yoldan çıxaran şeytana lənət eləsin - demirik!"

Və yaxud: "Gərək oxucularımızın heç biri bunu inkar etməyə ki, biz bir dövlətlini görüb ikiqat olanda məhz onun dövlətliliyini nəzərə alırıq, nəinki ləyaqətini, hüsnü-əxlaqını, insaniyyətini, ibadətini, ya millət yolunda xidmətini. Özgə millətlər içində bir dövlətli öz millətinə dövlətilə xidmət eləməsə, ona etina və hörmət eləməzlər. Amma biz-

lərdə tərsinədir. İstər bir yanda aclar acından ölə-ölə İrəvan və Naxçıvanda dövlətlilərimiz kef çəksinlər, istər bir yanda aclarımız acından ölə-ölə Bakıda dövlətlilərimiz dəstəbazlıqla məşğul olsunlar, istər Qarabağda bəylərimiz şeytançılığa qurşançınlar, biz yenə hər yanda onları görən kimi ikiqat olacağıq". Bir sözlə, "ar yox, tula var, insaf yox, yumruq var, Allah yox, vəzifə var", "kefləri kök, damağları çağ, alacaq var, verəcək yox..." Mirzə Cəlil bələlərini "Azərbaycan padşahları" adlandırırdı və yazırdı ki, "Kaş ki, Allah bizə pulları artıq düşənlər əvəzinə, cəsarəti - mədəniyyətləri çox olanlardan bollu-bollu ehsan edəydi".

"Təklikdə narazıyıq, birlikdə razıyıq" bəlasının əsil kökü ictimai-siyasi quruluşda, avtoritar rejimdə, həqiqi demokratiyanın, sosial ədalətin bərqərar olmamasındadır. Bu həqiqət əsr dəyişsə də lazımınca dərc olunmayır. Amma vaxt və zaman isə sürətlə axır!..

*"Günay", N-34, 2001*

## ŞƏKİ: İKİ MÜSTƏQİLLİK DÖVRÜ, İKİ MƏNZƏRƏ

**Son 83 ildə Azərbaycan iki dəfə öz dövlət müstəqilliyini elan edib. Müstəqillik xalqa nə verib? Yerlərdə faktik nə işlər görülüb? Kimlər hakimiyyətə gəlib? Dolanacaq necə olub? İkinci müstəqilliyimizin 10 illiyi ərəfəsində bu suallara cavab tapmaq, xüsusilə yerlərdə - əyalətlərdə o qədər də asan deyildir. 1918-1920-ci illərin 23 aylıq ilk müstəqillik dövrü qəzalarda görülən işlər barədə də məlumat o qədər çox deyil. Köməyə dövri mətbuatda dərc olunmuş yazılar gəlir. Həmin illərdə Üzeyirbəyin və qardaşı Ceyhun bəyin redaktorluğu ilə nəşr olunan "Azərbaycan" qəzetində mən bu mövzu ilə əlaqədar araşdırma apararkən Şəkidən göndərilmiş maraqlı bir yazıya rast gəldim. 1919-cu il mayın 30-da Cümhuriyyətin varlığının ildönümü qeyd olunan günlərdə dərc olunmuş yazı diqqətimi cəlb etdi. Digər tərəfdən ikinci müstəqilliyimizin 10 ili tamam olur. Bu 10 ildə Şəkidə nə işlər görülüb, mən öz gözlərimlə nəyi gördüm! Müqayisə hələlik xeyrimizə deyil. "Azərbaycan" qəzetinin yazdığını və şəxsi təəssüratımı oxucularla bölüşmək istəyirəm.**

## ŞƏKİDƏN

Mart ayının 24-də Azaq Əfəndi Mustafazadə Şəki bələdiyyə idarəsinin rəisliyini qəbul edərək işləri təhvil aldı. Azaq Əfəndi cənablarının millətinə etdiyi xidmətini, ələlxüsus keçən il anarxiya zamanı göstərdiyi fəaliyyəti söyləməyi öhdəmə almıram. Çünki bu haqda böyük məqalələr ilə qəzetlər sütunu doldurmaq lazım gələcəyinə əminəm.

Fəqət bunu ərz etmək istəyirəm ki, cənab Azaq Əfəndi bələdiyyə idarəsinin işlərini öz əlinə toplayandan sonra şəhərimizdə hər bir xüsusda böyük təbəddüllat görünməkdədir. Cənab Azaq Əfəndi keçmişdən füqəralar dərdinə qalmaqda, onların ağır hallarını düşünməkdə şəhərimizdə bəlli olduğundan, indi də iş başına keçərək onların keçirdiyi bu ağır güzaranı yaxşılaşdırmaq təşəbbüsündədir. İşlərə şüuru edərkən ən əvvəl füqəraları bilafərq millət hesabını cəmləşdirmişdir. İndi eşitdiyimizə görə şəhəri üç hissə edərək üç yerdə təndirxanalar açıbdır.

Hər birində gündəlik 40 pud əkmək (çörək) hazırlanıb adambaşına bir girvənkə olaraq bazar qiymətindən 60 qəpik fərqli buraxılacaqdır. Şəhərimizin nainsaf möhtəkirləri qidadatı (ərzağı) gətirən kəndçilərdən alıb istədiyi qiymətə satırdılar. Azaq Əfəndi möhtərəm qəza naçalniki Əyubbəy Rəfibəyov cənablarının məmavinəti ilə möhtəkirləri dustaq etdirib və kəndçilərdən satılmaq üçün almağı qadağan etdirdi. Bunlara binaən bu gün buğda şəhərimizdə 120 manatdan 80 manata və 70 manata qədər düşüb ve yenə düşəcəyinə ümid vardır.

Füqəra camaatin aptek əczalarını fövqəladə bahalıqdan ala bilməyib nə qədri əbəs yerə məhv olduğu aşkardır. Nainsaf aptek sahibləri əczaların qiymətlərini gün-gündən artırmaqda davam etməkdədirlər. Şəhərimizin bu anə qədər əczaxanəsi olmamağından dolayıdır ki, bunların qabağını almaq mümkün deyildir. İndi bələdiyyə rəisi bunu nəzərə alaraq yavuq bir zamanda şəhər əczaxanəsi açmaq istəyir.

Şəhərimizi görənlər küçələrin nə qədər dar və natəmiz olduğunu bilirlər. Bu gün bu natəmizlik qabağını almaq üçün Azaq Əfəndi iki taçka kirayə eləmiş və yavuq bir zamanda şəhərə məxsus bir neçə araba almaq fikrindədir.

Azaq Əfəndinin gördüyü işlərə ziyadə təşəkkürlər edəriz və belə şəxslərin xidmətini millət yaddan çıxartmaz-zənnindəyiz.

Şəki əhalisi Azaq Əfəndinin böyük bir fəaliyyətini Kiş çayı qabağına çəkiləcək bənddə gözləyir. Hökümətimiz bu bəndin çırpı ilə daşdan yapılması üçün 211 min manat pul buraxmışdır. Belə bənd çar hökümətı zamanında neçə dəfələr qayrılmış, hətta hürriyyətdən bir neçə ay müqəddəm camaatimizdən Azaq Əfəndinin təşəbbüsü ilə bir qə-

dər pul toplanıb sement alınmış ki, həmişəlik bir hasar qayrılsın və əhali rahat yaşasın. Qarışıqlıq zamanı sement az olmaq münasibətilə işlənməyib qalmışdı. İndi Azad Əfəndi mövcud olan sement ilə bəndi qayıtmaq fikrindədir. Buna görə hökümətdən pək ziyadə istərham (xahiş) edəriz ki, lazım olan müavinəti bu barədə Azaq Əfəndiyə versin. Tain ki, şəhərimizin gözəl binalarının, ipək zavodlarının, bağlarının, bazarının böyük hissəsini və cəmaətin vardatını Kiş çayının bəlasından xilas etmək mümkün olsun.

Azaq Əfəndinin belə bir ağır zamanda öhdəsinə götürdüyü məsuliyyətli vəzifəni asanlıqla ifa edəcəyinə əminiz.

**E.İ.Sultanzadə**
*"Azərbaycan" qəzeti, 30 may 1919.*

## DURĞUNLUQ VƏ TƏNƏZZÜL

Şəki təkcə Sovet dövründə deyil, ondan çox-çox əvvəllərdə də sənaye və iqtisadi inkişaf səviyyəsinə görə Azərbaycanın mühüm əyalət mərkəzlərindən biri idi. İpək istehsalı sahəsində isə ölkə miqyasında tanınırdı. Toxuculuq kombinatınının dünyanın 30-dan artıq ölkəsi ilə ticarət əlaqələri vardı. Sənayenin bu mühüm sahəsində 10 mindən artıq işçi çalışırdı. Təəssüf ki, bu potensialı qoruyacaq, dövrün tələblərinə, bazar iqtisadiyyatı qanunlarına uyğun yaradıcı iş adamlarına meydan verilmədi. Səriştəsiz, varlanmaq ehtirası ilə hakimiyyəti ələ keçirmiş söz pəhləvanları, məddahlar dağıtmaqla, gözə kül üfürməklə məşğuldurlar. Şəhərin sənaye müəssisələri işləmir. Yerli istehsalat, sənətkarlıq sahəsi dərin tənəzzüldədir. İşsizlikdən şəhər və kəndlərin cavanları ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalıb. Ən dəhşətlisi budur ki, "yuxarılarda" hamisi olmayan təşəbbüskar iş adamlarını sıxma-boğmaya salırlar. Rayonda çox böyük işgüzar mütəxəssis kimi tanınan Tehran Lətifovun başına gətirilənlər buna ən bariz misaldır. Keçən il mən Şəkidə olarkən onun vəsaiti ilə işə düşmüş keçmiş 3 nömrəli ipək zavodunun şəhərdə necə bir xoş əhval yaratdığını görmüşdüm - 150 nəfərdən artıq fəhlə işlə təmin edilmişdi. Çinli biznesmenlər Şəki ipəyi ilə maraqlanmışdı. Barama toxumu gətirmişdilər. Rayon rəhbərliyi cavan iş adamını qorumaq, ona yardımçı olmaq əvəzinə keçən ilin 18 noyabr hadisələrilə əlaqədar fürsət tapıb onu aradan çıxartdılar. Həbs etdirdilər.

İndi Şəkidə yeganə fəaliyyət göstərən müvəqqəti bir sex işləyir. Zoğal axtası istehsal edən sex. İpəkdən əli çıxan Çin biznesmenləri indi Şəkidə zoğal axtası işilə məşğuldurlar. Vaqif Əliyev bu sahəyə başçılıq edir. Çin mütəxəssisləri Şəkidəki dağ zoğalının yüksək qida və müalicəvi keyfiyyətini nəzərə alaraq bu il ən azı 15-20 ton zoğal axta etməyi planlaşdırmışlar. Sexdə 150-dən artıq işçi çalışır. Dağ zoğalının hər kiloqramını 300 manata alırlar. 300 manat da onun çərdəyini çıxartmağa verirlər. Vaqif Əliyevin sözlərinə görə 10 kq zoğaldan bir kiloqram axta hasil olur. Çinlilər isə hər kiloqram axtaya 4200 manat verirlər. Bu alverdən əməlli-başlı baş çıxaran demək olar ki, yoxdur.

Şəki informasiya sarıdan da acınacaqlı vəziyyətdədir. Axşamlar fasilələrlə verilən işıqda yalnız AzTV-1 ve TRT-1-ə baxmaq olur. Vəssalam. Bəzi verilişlər vaxtı işığı söndürürlər. Yerli qəzetlər də demək olar ki, çıxmır. "Şəki" qəzeti neçə aydır ki, fəaliyyətini dayandırıb. Maddi çətinliklə bərabər, latın qrafikasına keçidlə əlaqədar da çıxılmaz vəziyyət yaranıb. Qəzetin redaktoru Akif Salamov bildirdi ki, 5 nəfərlik redaksiya heyəti 14 aydır ki, əmək haqqı almır. Şəkidə mətbəədə latın şriftləri, kompüter yoxdur. Qəzetin materiallarını hazırlayıb başqa şəhərlərə aparıb latın qrafikası ilə çap etmək lazım gəlir. Göstərək ki, bu vəziyyət respublikanın əksər bölgələrində də mövcuddur.

Narahatlıq deyil, həyəcanverici əhvalatlar danışırlar. 13 yaşlı Tərlan mənə tükürpədici fakt dedi. Qışda məktəblərin sinif otaqlarını qızdırmaq üçün şagirdlərdən pul yığılır, odun alınır. Deməli hər sinfin öz odunu olur. 15-20 sinfin odununu qorumaq üçün qarovulçu tutulur. Sinif rəhbəri bu işin təşkilatçısıdır. Mən Tərlandan soruşdum ki, bəs imkanı olmayan, pul verməyən şagird nə edir? O dedi ki, sinif rəhbəri onu sinifin çöl qapısının yanında saxlayır, peçin yanına yaxınlaşmağa, isinməyə icazə vermir. Bəs qiymətlər necə verilir? - sualına Tərlan çox mənalı bir şəkildə üzümə baxıb dedi ki, bilmirsiniz ki, ortada nə məsələsi var?!

Şəkidə həyəcan doğuran problemlərdən biri də meşələrin geniş miqyasda qırılması, məhv edilməsidir. Yanacaq sarıdan korluq böyükdür. Dəfələrlə verilən vədlərə baxmayaraq təbii qaz yoxdur ki, yoxdur. Maye qazı da almağa hər ailənin imkanı yoxdur, onunla ev qızdırmaq mümkün deyil.

Nəhayət vaxtilə gül-çiçək diyarı olan Şəkidə indi çay yataqları zibilxanaya çevrilmişdir. Üfunətdən hətta şəhərin mərkəzində belə çayın sahilinə yaxınlaşmaq mümkün deyil.

XXI yüzilliyin ilk ilində Şəkini bu vəziyyətdə gördüm. Görünür "Azərbaycan" qəzetinin yazdığı Azaq Əfəndilərə ehtiyac böyükdür.

**"Günay" N-35, bazar, 2 sentyabr 2001**

## 15 SENTYABR 1918-Cİ İL BAKININ AZADLIQ GÜNÜDÜR

### *"MİLLƏT SİZƏ MİNNƏTDARDIR"*

Tarixi təcrübə göstərir ki, Milli istiqlalın, müstəqil dövlətçiliyin yolu həmişə əzablı-əziyyətli, qanlı-qadalı olmuşdur. Azərbaycanın son əsr tarixi də bu həqiqəti isbat edir. 1917-ci ildə Rusiya imperiyası dağıldı, müstəqillik qazanmaq imkanı yarandı. Lakin Qafqaz, xüsusilə Azərbaycan təsəvvürə belə gətirilməyəcək çarpışmalar, qanlı olaylar meydanına çevrildi, hətta soyqırımı təhlükəsilə qarşı-qarşıya dayandı. Türk və islam dünyasının qəddar düşmənləri olan daşnaklar və rus bolşevik-şovinist qüvvələri 1918-ci ilin martında silah gücünə Bakı və onun ətraf rayonlarında hakimiyyəti ələ keçirdilər. İstiqlalçı qüvvələr, azəri türkləri və islam ümməti öz doğma torpaqlarını tərk etməyə məcbur oldu. On minlərcə günahsız insan qətlə yetirildi. Bakı və bütövlükdə quberniyanı Azərbaycandan qoparmaq planı həyata keçirilməyə başladı.

1918-ci il mayın 28-də Tiflisdə öz dövlət müstəqilliyini elan edən Azərbaycan Milli Şurası, yeni təşkil olunmuş Azərbaycan hökuməti milli fəlakətin qarşısını almaq yollarını aradı və öz qeyrətli, istedadlı, işgüzar, hazırlıqlı dövlət və siyasət xadimlərinin ciddi səyi və qardaş Türkiyə və onun silahlı qüvvələrinin təmənnasız yardımı ilə Azərbaycan torpağında öz hakimiyyətini bərqərar etdi, demokratik bir dövlət sisteminin təməlini qoydu. Bu tarixi milli savaş asan başa gəlmədi. Minlərcə vətən övladı şəhid oldu, düşmənə aman verilmədi. Bu qələbə epopeyasında Bakının erməni-daşnak və hər cür anarxist və imperiyapərəst ünsürlərdən azad edilməsi uğrundakı mübarizə xüsusi yer tutur. 1918-ci il sentyabrın 15-i məhz belə bir tarixi gündür.

1990-cı ilin yanvarında - ikinci müstəqillik elanı ərəfəsində erməni millətçilərinin fitvası ilə Sovet qoşunlarının Bakını işğal etməsi, 1918-ci ilin martını xatırlatmırmı? 1918-1919-da olduğu kimi 1988-dən indiyədək Qarabağın Azərbaycandan qoparılması kampaniyası davam etdirilmirmi?

1918-1920-ci illərdə Azərbaycan hökuməti daşnakların və onların havadarlarının dərsini verməyi bacardı, ərazi bütövlüyünü qorudu. Bir millət iki dövlət anlayışı tarixə düşdü. Bakı və Azərbaycanın varlığını, millətin mövcudiyyətini mühafizə etməkdə qardaş Türkiyənin silahlı qüvvələrinin göstərdiyi rəşadət və əzmkarlıq tariximizin unudulmaz səhifələridir. 1919-cu il sentyabrın 15-i Bakının azad edilməsinin bir

illiyi şənlikləri məhz bu ruhu əks etdirdi. Sovet dövründə bu tarix saxtalaşdırıldı, Xilaskarlar "işğalçı" adlandırıldı. Böhtan və iftira baş alıb getdi. Tarixi unutqanlıq bizə yenidən baha başa gəldi. Amma indi də bu tarixi gün layiqincə qeyd edilmir. Bunu nəzərə alaraq bəzi tarixi sənəd və materialları oxuculara təqdim edirəm.

**12 Сентября.** Постановление Азербайджанского правительства о признание годовщины освобождения г. Баку нерабочим днем.

**N-618**

День годовшины освобождения г. Баку 15 сентября с.г. признать днем неприсутственным.

**Газ. "Азербайджан" 14 сентября 1919 г. N-196**

## F.X.Xoyski

"Bizim də həyatda yaşamağa, bizim də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və s. texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii gedişinə mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır".

**"Azərbaycan" qəzeti (rusca)**
**19 sentyabr, 1918**

"Türk komandanlığı bizim ərazimizə bizim sərhədlərimizi qorumaq, daxili hərc-mərcliyə son qoymaq, daxili işlərimizə xaricdən zor gücünə müdaxilənin qarşısını almaq üçün bizim öz dəvətimizlə daxil olmuşdur. Biz bir tərəfdən suveren hüquqlarımızı qoruyub saxlamağı arzulayır, digər tərəfdən isə türk komandanlığının xidmətlərindən istifadə etməyə möhtac idik. Ona görə biz elə etməli idik ki, özümüzü həm xarici müdaxilədən qoruyaq, həm də bizim fiziki mövcudluğumuzu böyük qurbanlar vermək hesabına edənləri özümüzdən incitməyək".

**"Azərbaycan" qəzeti, 10 dekabr, 1918**

## Azərbaycan parlamentinin təntənəli İclasında sədrlik edən H.B.Ağayevin çıxışı

15 sentyabr, 1919

Möhtərəm məbuslar!

Bügünkü bayramın nə qədər şərəfli, nə qədər tarixi olduğunu hər kəs düşünür və anlar. Bu bayram münasibətilə türklük və islamlıq yolunda şəhid düşən türk igidlərini yad etmək üçün rica edirəm ki, cümləniz qiyam edəsiniz (hamısı ayağa qalxır).

Möhtərəm əfəndilər! Bu gün düz bir ildir ki, Azərbaycanın milli mərkəzi hesab olunan Bakı düşmənlər əlindən, zalimlər əlindən xilas olmuşdur. Bizim qəvi (sağlam) vücudumuzu təşrih (kəsmək) və bədənimizi parçalamaq istəyən və hüququmuzu çeynəmək istəyən düşmənlər keçən sənə martdan başlayaraq ta Kürdəmir stansiyonundan igid türklər tərəfindən qovulub Bakıya soxulmuşlar və sonra dənizə tökülüblər.

Böyləlik ilə ən müqəddəs hesab etdiyimiz paytaxtımız olan Bakını alıb bizə vermişlərdir. Mayın 28-də istiqlalımız elan edilmişdir. Sentyabrın 15-də isə haqq yerinə varmış, Bakı istirdad edilmişdir (geri qaytarılmışdır).

Əfəndilər! Qan bahasılə türklük və islamlıq uğrunda şəhid vermişlər, vətənimizi xilas edən türk igidlərini yad etmək ilə bərabər onu da əlavə edirəm ki, biz azəri türkləri böyük qardaşımız olan türklərin canfədalıqlarını heç bir vaxt unutmayacağımız və müşkülat ilə qan bahasına alınmış və bizə bəxş olunmuş istiqlalımızı müdafiə etməyi əhd edib, hər şeydən müqəddəs tutaraq əqsayi (gələcək) muradımıza nail olacağıq. Bu gün azəri cəmiyyəti-xeyriyyəsi türk şəhidlərinin adına əbədi bir nişangah qoyur. Rica edirəm saat 11-də bulvarda vaqe olacaq rəsmi keçiddən sonra qəbristana buyurub tədbirlərimizdə iştirak edəsiniz.

**Az.RDTA, sr.895, S.1, İş 142, 6.1-4**

## TARİXİ GÜN

8-i zilhicceyi-haram 15-i eylul (sentyabr) bütün türk və İslam aləminin ən sədaqətli, ən şövkətli günlərindən ədd olunacağı şübhəsizdir. Haman gün türk və İslam tarixində zərrin (qızıl) bir səhifə işğal edəcəkdir.

Həmin gün Bakı süqut etdi. Bakının süqutu yalnız bir Azərbaycan deyil, bəlkə bütün türk və islam aləmi üçün siyasi və mənəvi nöqteyi-

nəzərdən ali mövqə açır. Həmçinin əks surətdə kürreyi-zəmində yaşayan bütün türk və islam övladlarına onun matəməngiz bir təsiri olacaq idi. Çünki siyasət meydanına atılan mətaziqiymət (qiymətli) idi. Haman mətatürk oğlunun namus və şərəfi idi.

Türklük və islamlığın ən mühib (təhlükəli) düşmənlərindən olan müstəbid Rusiya dövlətinin xarabazarlığından yaşıl budaq kimi ovcisəmayə (göyün ənginliklərinə) qalxan yeni, bir-birinə sarılmış türk millətı dörd bir tərəfdən əsən yellər, gələn fırtınalar qarşısında cavan qədd-qamətini əyəcəkmi, ya bu ruzigarı-xəsimanədən (düşmən hücumlarından) sağ və salim çıxacaqdır?

İştə hamının diqqətini cəlb edən məsələ bu idi. Bunu həm dost, həm düşmən kəmali-diqqətlə dinləyib bəkliyordu. Kəndi-kəndilərinə (öz-özlərinə) buraxılmış türk övladı istedadmı və kəsalətmi (süstlük) göstərəcəkdirlər? Dostlar bunu böyük bir iztirab içində, düşmənlər isə məxfi saxlanıla bilməyən təhqiranə bir xüsumət (düşmənçilik) və ədavətlə bəkliyorlardı.

Türklük və islamlıq əleyhinə bəslənilən ədavət və bədxahlıq o dərəcədə idi ki, düşmənlər hətta öz mənafelərindən belə vaz keçib türk ordusuna məğlubiyyət dilərlərdi. Halbuki, öylə olduqda bütün Qafqaz qan içində çabalayıb, bütün Qafqaz millətlərinin rahatca güzaranı paymal olub gedərdi.

Lakin beminnətil-kərim (şükürlər olsun ki,) düşmənlər öz məramlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğlanları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olduqlarını bütün aləmin gözünə çarpdılar. Və bundan belə yüz illərlə başqalarının təhtitəzyiqində əzilən milyonlarca dindaş və millətdaşlarımıza böyük ümidlər bəxş etdilər.

Şimdi növbət onlarındır!

C.Dağıstani (Ceyhun Hacıbəyov)

**"Azərbaycan" 3 oktyabr, 1918, N-5**

## M.Ə.Rəsulzadənin İstanbuldan XİN M.Hacinskiyə məktubundan

**6 avqust 1918**

"Mən bir daha Tələt paşa və Ənvər paşa ilə görüşdüm. Məsələ çox qaranlıq idi. İndi hər şey ötdü, onlar mənə ümid verdilər. Mən alman səfiri Berneffoltla görüşdüm. Bakının neytral olması barədə xəbəri Tif-

lis nümayəndəliyindəki bir məmurdan öyrəndim. Hər ehtimala qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Və almanlar bolşevikləri tam narazı salmaq istəmirlər. Lakin nə olursa-olsun siz Bakını almalısınız. Qoy hər kəs fakt qarşısında qalsın. Əgər bu baş tutarsa, iş tamam başqa xarakter alar".

* * *

"Türklərin müttəfi olan Almaniya Qafqaz siyasətində türklərin müttəfi deyildi. Qafqazın təbii ehtiyatlarından istifadə etmək istəyən Almaniya xüsusilə Bakı neftində mövqeyi ələ keçirmək istəyirdi. Bu barədə Osmanlı və Almaniya baş qərargah rəisləri arasında bir müqavilə imzalanmışdı".

Türkiyə Silahlı Qüvvələri Baş qərargah nəşriyyatının "Birinci dünya hərbində türk hərbi, Qafqaz cəbhəsi, 3-cü ordu hərəkatı" kitabı "Türkiyənin Azərbaycana əsgəri yardımı" bölməsindən.

(bax. "Zaman" qəzeti. 25 aprel 1998)

**Nəsibbəy Yusifbəyli**

"Ey cəsur türk qəhrəmanları! Sizə layiq bir söz vardır ki, onu da Bakının alınması münasibətilə Nuru Paşa həzrətlərinə Baş vəkilimiz yazmışdır. Ondan daha münasib bir təbir bulamadığımdan, onu mən də təkrar ediyoram və zənn edirəm ki, üç kəlmədən ibarət olan bu cümləyi Azərbaycan durduqca hər bir azərbaycanlı türk qəlbində yaşadacaq və dilində təkrar edəcəkdir:

Millət sizə minnətdardır"

**"Azərbaycan" qəzeti, № 5, 3.X.1918, Bakı**

**M.Ə.RƏSULZADƏ**

"Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür olunamaz. Bakı tarixində, halən də bir türk şəhəri və müsəlman bələdəsidir (şəhəridir). İstiqbalən də öylə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir...

Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə Azərbaycan üçün də Bakı ondan artıq olmasa da odur. Bu o qə-

dər aydın bir məsələdir ki, bunu məsələ olaraq ortaya qoymaq həqiqətən də mövcübi-heyrətdir. Bakı bolşeviklərinin, rus imperialistlərinin Qafqaziyadakı yardaqçılarının bu fikirdə olduqlarını, azərbaycanlıların haqlarını inkar üçün bu şəkli iltizam etdiklərini bilirdik. Əksəriyyəti kimlərdən ibarət olduğu məlum bulunan Bakı bolşeviklərinin ingilislər tərəfindən dəxi müzahirat görərək bu yolda təhrikatda bulunduqlarını duymuşduq...

Bakı ilə əlaqə petrola bağlı bir əlaqədir, deməк ki, iqtisadi və ticvari məsələ qarşısında bulunuyoruz. Bəhri Xəzər kənarında bulunan Azərbaycan petrolu su yerində işlədəcək deyildir... Azərbaycan əcnəbi sərmayəsindən istifadə edəcək və bu sərmayənin Bakı ərazisində tətbiqini dəxi hər dürlü vasitələrlə təhsil və təminə çalışacaqdır".

**"Tərcümani-Həqiqət" qəzeti,**
*İstanbul, avqust, 1818*

*Hər rəng ilə haqsızlığı gördün... Bumu qanun?*
*Ən qəmli səfalətlərə düşdün... Bumu dövlət?*
*Dövlətsə də, qanunsa da artıq yetər olsun,*
*Artıq yetər olsun bu dəxi zülmü cəhalət...*

**"Günay" N-36, bazar 9 sentyabr 2001**

# MİLLİ İNTİBAH: TALANTLAR, BƏDXAHLAR

Öz tarixi keçmişini bütün çalarları ilə bilməyən, varəsəlik əlaqəsi yaratmağı, nəticə çıxarıb sağlamlaşmağı bacarmayan, deməli, arxasında mənəvi boşluq olan xalqın başı dumanlı, qüvvələri pərakəndə, gələcəyi qaranlıq olur. Xalq öz dostunu, qeyrət və rəşad mənbəyini yaxşı öyrənə bildiyi kimi, onun tərəqqisinə, yeniləşmək meyllərinə, irəli getməsinə maneçilik törədən, daxili bədxahlar və xarici düşmənlərin fitvası ilə nadanlıq edən böhtançı və iftiraçıları da yaxşı tanımalı, onlara yezidə oxunan kimi lənət oxumağı da bacarmalıdır. Əks təqdirdə indiki kimi bu tipli qələm dəllalları, qəzet həşəratları baş alıb gedəcək, xalqı çaş-baş salmağa, böyük məsələ və problemlərin həllinə hər vasitə ilə maneçilik göstərməyə çalışacaqlar. Sinfi mübarizə nəzəriyyəsi prinsipləri əsasında yazılmış əsərlərdə hər şey alt-üst edilmişdir, əsl vətənpərvərlər, istedadlı millətpərəstlər düşmən, onlara hücum edən böhtançı kəmsavadlar, alət rolunu oynayanlar isə çox vaxt xalqın "dostları" kimi təqdim edilmişlər. Doğrudur, tariximizin elə böyük, dahi şəxsiyyətləri olmuşdur ki, böhtan və iftira seli onları boğa bilməmişdir, nəhəng qaya kimi ucalmış, durmuşlar. Üzeyir bəy də belə nadir şəxsiyyətlərdən biridir. Lakin lap gənc yaşlarından, xüsusilə, təkcə türk və İslam dünyasında deyil, ümumiyyətlə, Şərqdə ilk opera yaratmaq kimi tarixi təşəbbüsü çox böyük təbii istedad və fədakarlığı ilə öhdəsinə götürmüş Üzeyir bəy böyük rəğbət və məhəbbətlə yanaşı gözügötürməyənlərin, inamsızlıq ruhu aşılayanların, intriqa və bədxah nadanların hücumlarına da məruz qalmışdır. Üzeyir bəyə qarşı ilk iftira kampaniyasını özünü Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" məcmuəsinə benzətmək istəyən "Zənbur" (Arı) jurnalı başlamışdı. 1909-cu il martın 13-dən 1910-cu il oktyabrın 15-dək bu kampaniya davam etmişdir. Naşiri Əbdülxalıq Axundov idi. "Zənbur", ""kor aşıq" və s. imzalarla Üzeyir bəyə qarşı çevrilmiş böhtançı yazıların, cızmaqaralırın müəllifi də o idi.

"Zənbur" Üzeyir bəyi nədə ittiham edirdi? Ona layiqincə cavab verənlər vardımı? Birinci sualın cavabını jurnalın verdiyi karikatura və "Opera" sərlövhəli yazısından oxuyub bilmək olur. "Leyli və

Məcnun", "Şeyx Sənan" operalarını nadan qələm sahibi "Şəbeh", müəllifini isə "zurnaçıya" bənzədirdi. İttihamlardan biri də bu idi ki, "hal hazırda erməni tayfası cürət edib opera təsnif edə bilmir, hətta Türkiyənin musiqişünasları cürət edə bilmirlər opera yazsınlar", amma Üzeyir bəy guya zəhmət çəkmədən, elm oxumadan elə özbaşına kompozitorluğa nail olub".

İkinci sualın cavabı sevindiricidir. Bəli, ziyalılarımızın, qələm əhlinin böyük əksəriyyəti gənc istedad sahibini, onun tarixi və əvəzsiz xidmətini alqışlamış, bütün varlıqları ilə müdafiə etmişlər. Bir nümunə olaraq "Baku" qəzetində dərc olunmuş "Müsəlman operası" sərlövhəli məqaləni göstərə bilərəm. Bu yazıda ilk dəfə Üzeyir bəyin tərcümeyi-halı da oxucuların nəzərinə çatdırılmışdır.

Sentyabrın 18-də milli müqəddəslərimizdən hesab olunan dahi sənətkar, qeyrətli millət mücahidi Üzeyir bəyin anadan olmasının 116-cı ildönümünü çox böyük minnətdarlıq və şükran hissi ilə qeyd edəcək, həm də onun zəngin və keşməkeşli həyat yolunu öyrənmək sahəsindəki səylərimizi davam etdirəcəyik.



«اوپه‌راجی» یاددان چیخمش لهو و لعب آلتی اولمش «موسیقیمزی» دیریلدیر . (17)

**"Композитор" составляет новый квартеть дедушки Крылова.**

"Opera" yaddan çıxmış ləhvü - ləəb (oyun-oyuncaq) aləti olmuş musiqimizi dirildir (?!)".

## *OPERA*

Ağa "Zənbur"! Deyirlər biz müsəlman tayfası çox geridə qalmışıq, amma mənim zənnimcə bunlar sırf yalandır ki, bir para oxumuşlar özlərinə bu sözü vird (dua) eləyiblər.

Biz müsəlman milləti nəyə istəsən and içim ki, hamı millətlərdən qabağa getmişik və gedirik də. Getdiyimiz yerdə heç bir zihəyat (canlı) yoxdur ki, bizə məmaniət eləsin. Bu sözümə Şeyxülislam intibah (seçki) məsələsi şahid ola bilər.

Ağa "Zənbur" qeyri tayfalarda əgər indi ixtira başlanıbsa, amma biz müsəlmanda çox-çoxdan mövcuddur. Bu sözümə də şahid su tapılmayan yerdə buzu əridib su eləmək məsələsidir. Zəmanədir, kiminin ixtirası təzə olar, kimininki köhnə! Dəxi buna şikayət istəməz ki?!

Biz hərgah dursaq tərəqqimizin hesabına getməyə gözəl nəticələr mülahizə edə bilərik. Məsələ: opera kimi. Canım birdən-birə biz italyanlarla musiqi barəsində bir cərgədə durduq! Dəxi buna nə sözün, avropalılar bir opera vücuda gətirməkdən ötrü nə qədər zəhmət çəkib axırda görürsən ki, bir kompozitor "Verdi", ya "Rubinşteyn", yaxud Bethoven, Vaqner ömürlərinin yarısını sərf edəndən sonra bir şey əmələ gətirdilər. Amma biz müsəlman tayfası nə zəhmət çəkirik, nə elm oxuyuruq, elə özbaşına kompozitorluğa nail ola bildik. Sonra istəyirsən opera düzəlt ya zurnaçı ol! Hal-hazırda erməni tayfası cürət edib opera təsnif edə bilmir, Türkiyənin musiqişünasları cürət edə bilmirlər opera yazsınlar. Amma düşmənlər kor olsun bizlər gözəl operalar yaza bilirik.

Heç yadımdan çıxmaz bir gün operada idim. Bir müsinn (yaşı keçmiş) kişi dedi: Allah əcr versin, çox yaxşı şəbehdir, heyf adamı pulunan buraxırlar və təbil, şeypur yerinə urus tarı çalırlar.

**Kor Aşıq**
*"Zənbur" N-21, 31 iyul, 1909*

## *MÜSƏLMAN OPERASI*

Bazar ertəsi Nikitin qardaşlarının sirk-teatr səhnəsində sayca ikinci müsəlman operası tamaşaya qoyulmuşdur. Birinci opera "Leyli və Məcnun", ikinci opera "Şeyx Sənan" adlanır. Hər iki operanın musiqisi və librettosu Üzeyir Hacıbəyovundur.

Şübhəsiz, tamaşada iştirak edənlərin hər biri bilmək istəyirdi: cənab Hacıbəyov hansı musiqi məktəbini bitirib, musiqi təhsilini harada alıb?..

Bu məsələ xüsusən ona görə maraqlı idi ki, Hacıbəyov müsəlman dünyasında opera kompozisiyasının pioneridir. O, Şərq incəsənətində nəhəng bir addım atmışdır...

İndiyədək nəinki Rusiyada, hətta müsəlmanların ən mədəni mərkəzi sayılan Türkiyədə də müsəlman operasını dinləyən olmayıb...

C.Slavinski skripkada "Segah", "Əraq", "Gərayi", "Simayi-Şəms", "Zabul", "Bayatı-kürd" və başqa muğamları ifa edir. Fleytada ifa olunan "Bayatı-Qacar", "Bayatı-Kürd", "Bayatı-Şiraz" Sənanın məhəbbət duyğularını tərənnüm edir, simfonik orkestr isə qədim fars motivlərini səsləndirir...

Bəs cənab Hacıbəyov musiqi təhsilini harada alıb?

- Heç yerdə... Hacıbəyov - müəllimdir...

Qori Müəllimlər Seminariyasını bitirəndən sonra bir neçə il Qarabağın ucqar kəndlərində müəllimlik etmişdir. Bütün o biri müəllimlər kimi, o da seminariyada oxuyarkən skripkada nə isə dınqıldatmış, seminariyanı bitirəndən sonra isə yalnız kəndlərdə müəllimlik etmişdir. 1905-ci ildə o, köçüb Bakıya gəlmiş, rus-tatar məktəblərində dərs demiş, "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində əməkdaşlıq etmişdir. Son dövrlərdə o, yalnız ədəbiyyatla məşğul olurdu. Onun "Ordan-Burdan" rubrikalı kiçik yumoristik felyetonları tərcümə edilib rus qəzetlerində də çap olunurdu. Sonra o, pedaqoji fəaliyyəti tamam bir kənara atmış və... "Tərəqqi"nin redaktoru olmuşdur. "Tərəqqi" bağlanandan sonra Hacıbəyov yenidən "Səadət" cəmiyyətinin məktəbində müəllimlik edir.

Gənc müsəlman bəstəkarın bütün tərcümeyi-halı bundan ibarətdir.

Hacıbəyov dirijor yerində özünü inamsız hiss edir və o qədər də bacarıqlı dirijorluq etmirdi. Lakin tamaşaçılar, xüsusən, müsəlman tamaşaçılar o qədər vəcdə gəlmişdi ki, çəpik çalmaqdan bəlkə də əlləri şişib...

Yəni doğrudanmı, müsəlman aləmində bu cür istedadlı və qabiliyyətli adamlar indi - XX əsrdə də məhv olmalıdır?

Cənab Hacıbəyovun kiçik qardaşı ilk operanın ("Leyli və Məcnu"nun) yazılmasında ona kömək etmişdir. Hazırda o, Paris Konservatoriyasında təhsil alır. O, Murtuza Muxtarovun vəsaiti hesabına oxuyur. Yəni doğrudanmı, ikinci bir şəxs tapılmayacaq ki, o da Üzeyir bəyə kömək etsin, o isə qısa müddətdə öz musiqi biliklərini zənginləşdirsin.

* * *

Müsəlman sənət aləmində bu yeni eranın digər labüd xüsusiyyəti ondan ibarətdir ki, opera olmayan yerdə opera artistləri də olmur və operada notlar və musiqi nəzəriyyəsi barədə heç bir anlayışı olmayan müğənnilər çıxış etməli olur.

Bu cür "opera" truppası ilə çıxış etmək həddən artıq cəsarətli addım olardı. Yaxşı ki, Şərq musiqisinin səciyyəvi xüsusiyyəti - bu musiqidə bir sıra hallarda düzgün ritmin olmaması çox köməyə gəlir. Üstəlik, truppaya bir neçə qeyri-müsəlman ifaçının, xora isə notlarla az-çox tanış olan qeyri-müsəlmanların cəlb edilməsi işin xeyrinə olmuşdur.

Aydındır ki, belə bir şəraitdə, xüsusən, vokal baxımından, operanın ifası heç də arzuedilən səviyyədə olmamışdır.

H.Sarabski (Şeyx Sənan) "Leyli və Məcnun" da Məcnun rolunu yaxşı ifa etmişdi, orada o, adi "xanəndə" (müğənni) kimi, heç bir notsuz və ritmsiz oxuyur. Lakin Sənan rolu üçün musiqini və onun nəzəriyyəsini dərindən bilmək tələb olunur. Ona görə də H.Sarabskidən Sənan olmaz. Xüsusən, birinci pərdədə onun hərəkətlərində, oyununda heç bir cazibə yox idi.

Digər baş rolu - Xumar rolunu Tamara xanım ifa edirdi. Onun xoşagələn, cilalanmış səsi var. Lakin Tamara xanım rus olduğuna və oxuduğu sözlərin mənasını başa düşmədiyinə görə, onun oyunu zəif təsir bağışladı.

Cənab Əliyev (Hüqo) və Terequlov (Xumarın atası) öz rollarını qüsursuz ifa etdilər.

Yəhudi sinaqoqasının müğənnilərindən ibarət xorun ifası çox yüksək səviyyədə idi.

Dekorasiyalar, qrimlər və kostyumlar çox uğurlu seçilmişdi.

Yağışlı hava olduğuna baxmayaraq tamaşaçıların sayı çox idi.

**Ax-ov**

*("Baku" qəzeti, 28 may, 1909, N-267)*

**"Günay", N37, 16 sentyabr 2001**

## HAL-HAZIRIN KÖKÜ KEÇMİŞDƏDİR...
### KEÇMİŞ GƏLƏCƏYİN İYNƏSİDİR

Sentyabrın 11-i tarixə düşdü. Dünyanın iqtisadi, siyasi və hərbi cəhətdən ən qüdrətli dövləti dəhşətli terror aktları ilə bir an sarsıldı. Gözlənilməz fəlakətlə üzləşən Vaşinqton rəsmiləri, amerikalılar ilk günlər çaş-baş qalmışdılar. Olaylardan sonra xalqa müraciət edən prezident Corc Buş sentyabrın 11-dən dünyada yeni bir düzənin başlandığını elan etdi. "İslam terrorizminə qarşı səlib yürüşü" təşkil ediləcəyini bildirdi. Doğrudur, sonralar bu mövqe dəqiqləşdirildi. Lakin ifadə elə-belə işlədilməmişdi. O, tarixi yaddaşdan gəlir.

Vaxtilə Şərq-Qərb tarixinin bilicisi, mütəfəkkir filosof Əlibəy Hüseynzadə yazırdı: "XI əsrin sonlarından XIII əsrin nəhayətinə qədər Şərq və Qərb arasında baş verən və ədədi səkkizə varan Səlib müharibələri o növ hadisatdandır ki, əkmiş olduğu nifaq və ziddiyyət toxumlarının izlərini cahanın əsrimizdə belə cərəyan etmiş və etməkdə olan bir çox hadisələrində görməmək mümkün deyildir", "avropalılar və avropalılarla bərabər bəzi qonşularımız "panislamizm" deyə-deyə bizi, biz müsəlmanları bizar etmişlər!... Fəqət bu gün pərdənin arxasında cərəyan edən vüquat (hadisələr) bizə əyani bir surətdə göstərir ki, "panislamizmin", yəni ittihadi - islamın ən cüzi bir əsəri belə görünməyib, bəlkə mükəmməl bir Avropa panxristianizmi mövcud imiş!..."

Bu sözlər 1905-ci ilin sentyabr günlərində yazılıb. Keçən 20-ci əsrin 90-cı illərində Avropada, o cümlədən Rusiyada "islam fundamentalizmi"ndən geniş danışılmağa başladı. Dəhşətli, qorxunc ideya-siyasi cərəyan kimi qələmə verilən bu təhlükəyə qarşı "Pravda" qəzeti səhifələrində belyayevlər, nuykinlər, Melikyanslar və bu qəbildən olanlar islama qarşı səlib yürüşünə çağırmağa başladılar. 8 il bundan əvvəl serb fanatikləri - rəhmsiz, gözləri irqçilik və dini fanatizm dumanı ilə örtülmüş xaçpərəstlər Balkanlarda müsəlmanlara qarşı açıq Səlib yürüşünə girişdilər. Onlar elan edirdilər ki, "bu hələ islama qarşı müharibə deyil, müharibəyə girişdir, proloqdur", islama qarşı vuruş qabaqdadır", serblərin arxası "göydə İsa, yerdə isə Rusiyadır" (bax. "Pravda" 15.05.1993).

Amerika dəhşətli terror hadisəsindən sonra nisbətən özünə gəldikdən sonra əsas məzmun və qayə qalsa da, ifadələr, baxışlar yeniləşməyə başladı. Vaşinqtondan sonra Avropa və Rusiyada da "islam" ifadəsindən qaçmağı, yayınmağı tərcih etdilər. Corc Buş konqresdəki çıxışında açıqca bildirdi ki, dünyada Amerikanı gözügötürməyən, ona

nifrət hissi bəsləyən dövlətlər, təşkilatlar, cəmiyyətlər var. Bunlar əsasən müstəbid, totalitar və avtoritar rejimlərdir. Onlar Amerikada mövcud olan demokratiyanı, azadlıqları, insan hüquqları normalarını görmək istəmirlər. Mən bu çıxışı dinləyərkən böyük demokrat Üzeyirbəyin 1918-ci il dekabrın 7-də Azərbaycanın ilk demokratik parlamentinin açılışı münasibətilə yazdığı məqaləsindən yaddaşıma həkk olunmuş sözlərini xatırladım. "Xudavənd-aləm, harda istibdad varsa evini yıxsın!"

Lakin Amerikaya nifrətin və terrorun səbəbi yalnız budurmu? Məsələnin, problemlərin kökləri daha dərindir, əhatəlidir. Son vaxtlar bu mövzuda da geniş fikir ayrılıqları müşahidə edilməkdədir. Məsələyə çox vaxt neçə min illik tarixi olan ikiqiymətli məntiqlə yanaşılır. Halbuki təfəkkürün düşünmə, mühakimə və nəticə çıxarmasının doğruluq qiymətini müəyyənləşdirilməsi ikiqiymətli məntiqlə aydınlaşdırıla bilməz. İkiqiymətli məntiq hadisələri, prosesləri izah edən mühakimə qanunlarını çox məhdudlaşdırır. Corc Buşun - "kim bizimlə deyilsə, bizim əleyhimizədir" - fikri, tezisi məhz keçmiş ikiqiymətli məntiqin təzahürüdür. Burada 3-cü bir hala yol verilmir. Axı zəmanəmizdə yeni, çoxmənalı fazza məntiq nəzəriyyəsi, çoxmənalı məna konsepsiyası mövcuddur. Məsələn, Türkiyənin keçmiş baş naziri, Doğru Yol Partiyasının lideri, professor Tansu Çillər belə hesab edir ki, Yaxın Şərq, İsrail-Fələstin problemi, qarşıdurması həll edilməyincə beynəlxalq terrorizmin kökünü kəsmək mümkün olmayacaq. Rusiya Federasiyasının xarici işlər naziri İqor İvanov BMT-nin indiki payız sessiyasındakı çıxışında aqressiv separatizmin, qloballaşma və bununla əlaqədar dünyada varlılar və yoxsulların qütbləşməsi prosesinin dərinləşməsini konfliktlərin mənbəyi kimi qeyd etdi. Bəzi ölkələr ABŞ və İsrailin BMT-nin Durbanda keçirdiyi irqçiliyə qarşı mübarizəyə həsr olunmuş sessiyasını tərk etməsini düzgün siyasi xətt hesab etmədilər. Axı beynəlxalq ictimaiyyətə meydan oxumaq başucalığı gətirməz, əksinə, inamsızlıq və nifrət yarada bilər. Məsələn, "islam terrorizmini" ön plana çəkənlər, nə üçün əsrlərlə davam edən dəhşətli erməni-daşnak Asala terror təşkilatının, PKK-a və ETA-nın və digər bu kimi "xristian" terrorçularının adlarını çəkmirlər. Axı terror millət, din və məzhəb tanımır.

Nəhayət, uzun müddət Avropada mövcud olmuş islam şərqinə bir münasibəti də xatırlatmaya bilmirəm. Böyük mütəfəkkir ilahiyyatşünasımız Əhməd bəy Ağayev keçən əsrin əvvəllərində Qərb-Şərq münasibətlərinə dair seriya məqalələr yazmış, maraqlı, ibrətamiz faktlar və fikirlər söyləmişdir. Məsələn, 1908-ci il sentyabrın 10-da Əhməd bəy

“Tərəqqi”də dərc olunmuş “Məşriq və Məğrib” sərlövhəli məqaləsində Fransada Sarbon Universitetində təhsil aldığı vaxt təsadüf etdiyi bir əhvalatı xatırlayaraq yazırdı: “Məşhur yazıçı xanımlardan birinin evində idik. Söhbət Məşriqdən (Şərqdən) getdi. Mən də avropalıların Şərqə nisbət təqib etdikləri məsləkdən şikayət etdim.

Xanım əfəndi dedi:

- Mən təəccüb edirəm ki, şərqlilər də siyasi hakimiyyətə, mənəvi işlərə etina edirlər, görünür ki, Şərq də xarab olmağa üz döndərmiş! Çünki Allah Məşriqi yaradanda məhz xəyaldan, o xəyalatdan, göyləri, ulduzları, əflaki seyr etmədən ötrü yaratmış! Onlar gərək əsla maddi, dünyəvi işlərə etina etməsinlər! Bu günə işlər avropalıların vəzifəsidir! Çünki Allah Qərbi də maddi məsələlər üçün yaratmış! Yer-qərblilərə, göylər şərqlilərə, dünya-qərblilərə, axirət şərqlilərə! - Budur Allahın tövsiyəsi! Və bu təqsimdə ən bəxtiyar tərəf məşriqdir!

Doğrudan da, yaxşı təqsimdir, fəqət burası var ki, insan nə qədər ilahi səltənətdə (mələkum) və məlakuti seyr etsə də, yenə başı və qarnı bu dünyayi-fanidədir, başa Qərb yumruğu dəyəndə və yainki insanın əlində olanı qərblilər qarət edib ac qalanda çar-naçar mələkut və məlakutdan nüzul edib (göydən yerə enib) bu dünyayi-fanini yada salır.

Xanım əfəndi bir qədər mükəddər (qəmgin) olub dedi:

- Görünür ki, sən əsil şərqli deyilsən, əsil şərqli nə yumruğu və nə aclığı düşünməz!”

Hadisələrin tarixi mənbələrini bilmək vacibdir. Atalar yaxşı deyiblər ki, hal-hazırın kökü keçmişdədir, keçmiş isə gələcəyin iynəsidir.

**“Günay” N-39, 30.IX.2001**

# MÜDDƏTSİZ KEÇİD DÖVRÜ, TANIŞ SİSTEM

20-ci yüzilliyin 80-90-cı illərində cərəyan edən çox mürəkkəb tarixi hadisələri görən və yaşayan bizlər üçün, onları ümumiləşdirib düzgün qiymətləndirmək asan məsələ, asan iş deyildir. Həyəcanlar, emosiyalar, bilinməyən gizli məqamlar, daxili və xarici amillər və s. buna hələlik imkan vermir. Əlbəttə, məsafə artdıqca, nəsillər dəyişdikcə, xalq özünə gəldikcə keçdiyimiz və yaşadığımız şərəfli və əzablı yolun, proseslərin həlledici əsas məqamları yavaş-yavaş açılacaq, aydınlaşacaqdır.

Həqiqət və inkarolunmaz fakt budur ki, əsrin birinci istiqlal savaşı, milli dövlətçiliyimizin yenidən bərpası kimi, ikinci istiqlal savaşı da xalqımıza çox baha başa gəlmişdir. Birinci istiqlal hərəkatının lideri M.Ə.Rəsulzadə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti bolşevik işğalına məruz qaldıqdan sonra görülən cəza tədbirlərinin bir nəticə verməyəcəyini qed edərək yazırdı: "Bolşeviklər özlərinə xas xəlvəti bir metodla, müxaliflərini qorxutmaqla, hər cür vasitələrlə kənarlaşdırmaq və tələf etməyə çalışırlar. Onların vəhşi təcavüzlərinə qurban gedənlərin sayı sayılmaqla bitməz. Fəqət bihudə!.. Milli hərəkat bu cür susdurulmaz. İstiqlal və hürriyyət yolunun qəhrəmanları, hər cür təhlükəni göz önünə alaraq, mücadilələrinə davam edəcək, onlara ilham qaynağı olan böyük ideal tam zəfərə yetişmədikcə müqəddəs savaşdan vaz keçməyəcəklər". Bu sözlərin həqiqiliyini tarix sübut etdi.

80-ci illərin ortalarından yuxarılardan başlanan "yenidənqurma", "aşkarlıq", "yeni düşüncə", "insani sifətli sosializm" hərəkatı möhkəm və sarsılmaz görünən Sovet imperiyasını çalxaladı, aşağıların güclü təzyiqilə laxlatdı, xalq hərəkatının nəhri hərəkətə gəldi. Bir ideologiyanın, bir partiyanın, bir mülkiyyət formasının diktaturasına son qoyuldu. Bu ümumdünya tarixi salnaməsinə xalqımızın, xüsusilə gənc istiqlalçı nəslin töhfəsi böyükdür. 1991-ci il avqustun 30-da geniş xalq kütləsinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə" qəbul etdi. Bu tarixi sənəd ölkədə və onun xaricində çox böyük rəğbətlə qarşılandı. 30 avqust - 28 maya bərabər gündür. Aralarında

73 illik bir məsafə vardır. Xalq öz üçrəngli istiqlal bayrağını bundan çox öncə başı üstündə dalğalandırdı. Göstərək ki, Sovet respublikaları içərisində 3 Pribaltika respublikalarından sonra öz müstəqilliyini elan edən də məhz Azərbaycan oldu.

Müstəqillik hərəkatı fədailəri sırasında xüsusi yeri olan xalq şairi Xəlil Rza Ulutürk həmin günlərin sevinc eyforiyasına qapılmadan müdrikcəsinə deyirdi ki, "Məndə aşıb-daşan sevinc yoxdur, ancaq ümid qığılcımları var."

Vaxtı keçmiş durğunluq və tənəzzül rejimindən can qurtarmaq, müstəqil inkişaf və tərəqqi yoluna çıxmaq arzusu xalqın əksəriyyətini birləşdirmişdi, vahid xalq cəbhəsi yaranmışdı. Qarşıda müstəqilliyin çətin və ağrılı yolu dururdu. Digər tərəfdən Azərbaycanı parçalamaq, onu iqtisadi, hərbi və siyasi cəhətdən sarsıtmaq planları üzə çıxırdı. Birinci istiqlal savaşında Dağlıq Qarabağı uduzmuş ermənilər, daşnaklar yenə də öz şimal hamilərinin və xarici himayədarlarının köməyi ilə əvvəlcə Azərbaycanın qədim Qarabağ torpaqlarını Ermənistana birləşdirmək, sonradan isə Dağlıq Qarabağı müstəqil dövlət kimi dünyaya sırımaq xülyasına qapıldılar, Azərbaycan ərazisinin 20 faizini işğal etdilər.

Tarixi bir sual istər-istəməz hamımızı düşündürməlidir. Necə oldu ki, 1918-1920-ci illərdə əsrlik məsafədən sonra, zülm və müstəmləkəçilik, monarxiya rejimindən xilas olan xalq cümhuriyyəti yaradan və yaşadanlar daşnakların planlarını alt-üst etdilər. Üzeyir Hacıbəyov demişkən "Dağ böyüklüyündə iri olan Qarabağ məsələsini arzumuza müvafiq qolaylıqla həll etdilər", amma biz bunu bacarmadıq.

Obyektiv və subyektiv səbəblər axtaranlar, təqsiri kimlərinsə boynuna qoymağa çalışanlar çoxdur. Amma gəlin görək müstəqilliyin bir ili ərzində Üzeyir bəyin nəsli nə işlər görmüşdü? Həmin aylarda və günlərdə bu qələbələrin təşkilatçısı, milli vətənpərvər qüvvələri, xalqın geniş təbəqələrini öz ətrafında birləşdirən aydın milli məfkurəsi, demokratik dövlət quruculuğu proqramı olan Müsavat Partiyası - Zaqafqaziyanın ən güclü siyasi qüvvəsi meydanda idi. Onun xalq işinə sədaqətli, bacarıqlı, işgüzar rəhbər kadrları iş başında gecəli-gündüzlü fəaliyyətdə idilər. İndiki kimi o vaxt da sosialist-bolşeviklər və Azərbaycanın müstəqilliyini gözü götürməyənlər Müsavat partiyasına, onun liderlərinə hücum etməklə, onları "işsizlik"də, "bacarıqsızlıq"da təqsirləndirirdilər.

Gəlin Üzeyir Hacıbəyovun 1919-cu il sentyabrın 2-də "Azərbaycan" qəzetində bu münasibətlə yazdıqları ilə tanış olaq:

"Azərbaycan həm xarici işlərində və həm də daxili dolanacağında

öz qonşularına nisbətən salamat və rifah hal ilə yaşamağa ayaq basıb bolşevik dövrünün mənhus (talesiz) günlərini unutmaq üzrədir...

Dağ böyüklüyündə iri olan Qarabağ məsələsini arzumuza müvafiq qolaylıqla həll edən;

Lənkəranı qan tökmədən, qurban vermədən piyaniskalar çəngəlindən qurtaran;

Ümumqafqaz islamlarına lazım olan yerlərdə əl yetirib kömək edən;

Qüvveyi-hərbiyyəmizi möhtəməl (mümkün olan) bir vəziyyətə salmış olan;

Məmləkəti zülümkar və rüşvətxor məmurlardan təmizləməkdə olan;

Paytaxtda universitet açan;

Kasıb-kusublarına 3-4 manata çörək yedirən;

Hər yerdə əmin və asayiş bərpa edən;

Azərbaycanımızı bu gün hər bir insaf sahibinin iqrar (təsdiq) və etiraf edəcəyi rahətlik və asudəliyə çıxaran;

Qəlbində vətən və millət məhəbbəti olub da səmimi qəlb ilə çalışan, vuruşan və istirahət nə olduğunu bilməyən hökuməti və onun rəisini "işsizlik"də , "bacarıqsızlıq"da ittiham etmək, ya əql və insafdan xali olmaqdır, yaxud başqa bir mənzur (niyyət), özgə bir məqsəd yeritməkdir".

Azərbaycanda cərəyan edən hadisələri diqqətlə izləyən Türkiyədəki ağsaqqal həmvətənlərimiz ikinci müstəqillik elanını ürəkdən təbrik etməklə yanaşı, öz tövsiyələrini də bəyan etməkdə idilər. Əgər bu tövsiyələrə vaxtında diqqət verilsəydi xalqın əzab və əziyyətləri xeyli azalar, keçid dövrü bu qədər uzanmaz, müddətsiz görünməzdi.

"Zaman" qəzetinin (Ankara) 1991-ci il sentyabrın 6-da müstəqillik elanından 7 gün sonra dərc etdiyi geniş həcmli yazıda oxuyuruq:

"II Dünya hərbinə qatılan və Türkiyədə yaşamaq məcburiyyətində qalan, Azərbaycan türklərinin lideri M.Ə.Rəsulzadənin tövsiyələri doğrultusunda Azərbaycanı həm Türkiyədə və həm də dünya ictimaiyyətinə tanıtma qeyrətini göstərənlərdən Həsən və Nuru İsamillinin Azərbaycanı idarə edənlərə tövsiyələri qısaca bunlardır:

1. Çox diqqətlə hərəkət edərək düşmənə bir daha fürsət verməmək. Görülən işləri M.Ə.Rəsulzadənin qurduğu Müstəqil Azərbaycan Hərəkatının əsaslarına uyğun olaraq elan etməli.

2. Düşmən və dostu tanımalı. Görülən işləri və mitinqləri məqsədəuyğun yapmalı. Hərəkatın müstəqil Azərbaycan hökuməti proqramının demokratik prinsipləri əsasında olmasını açıqlamalı.

3. Əski Azərbaycan hərəkatı 1920 sənəsində böyük dövlətlər: Amerika, İngiltərə, Almaniya, Fransa dövlətləri tərəfindən tanınmışdı. Bunu dünyaya elan etməlidir.

4. Başda Türkiyə olmaq üzrə qardaş İslam ölkələrinin Azərbaycan hökumətini tanınmasında ön sıralarda yer almasını saxlamağa çalışmaq gərəkdir.

5. Bir daha xəta yapmamaq üçün hüquqçulardan, professorlardan bir komisiyon təşkil edərək beləcə yeni hakimiyyətin keyfiyyətini və proqramını tərəfdar və müxaliflərə geniş şəkildə izah edilməlidir.

6. Qonşu dövlətlərə yaxşı münasibətlər və daxili işlərinə qarışmamaq prinsipində olunmalı və belə olacağı anlatılmalıdır.

7. Rusiya, xüsusən Azərbaycan hələ kommunist təsirindən qurtarmamışdır. Çox sürətli və mədəni bir şəkildə izah edilərək, kommunizmin artıq köçdüyü və heç bir faydasının olmadığı bəllidir. İndi dünya azadlıq və demokratiya əsasları üzərində qurulmaqdadır. Ona görə Azərbaycan da bu əsaslar üzərində qurulmalıdır."

***"Günay" qəzeti, N40, 7 oktyabr 2001-ci il***

MÜSTƏQİLLİK ELANININ 10 İLLİYİ

## ALTMIŞ YEDDİ ÜSTƏGƏL ON

Oktyabrın 18-i rəsmi istiqlal bayramıdır. Sevinəsi, xoşluqla yad ediləsi olaylar az deyil. Son 10 il tariximizin sevincli və həmdə əzablı-əziyyətli illəri olub. Bu da təbiidir. İstiqlal yolu çətindir, qanlı-qadalıdır. Müstəqillik, milli dövlətçilik həyatını yaşamaq arzusu, istəyi əcdadlarımızın arzu və istəyi idi. Vidalaşdığımız 20-ci yüzillik bu baxımdan bəhrəli olub. Əsrin əvvəli və sonunda tarix və tale bizə iki şans verdi. Birinci obyektiv səbəblər üzündən cəmi 23 ay yaşadı. Ancaq təcrübə hədər getmədi. İstiqlal və müstəqillik fikri və məfkurəsi yeni nəslin şüuruna həkk olundu. İnam və inanc hissi ölmədi. Çünki kökləri çox dərinə işləmişdi. İlk Cümhuriyyətmizin memarı M.Ə.Rəsulzadə bolşevizmin istiqlalçı nəslin kökünü kəsmək üçün 30-cu illərdə həyata keçirməyə başladığı kütləvi qırmızı terror əməliyyatı günlərində yazırdı: "Üsulunu başqa mütərəqqi millətlərin elmi və ədəbi hərəkatlarından, ənənəsini Mirzə Fətəlilər, Həsən bəylər, 1905-ci il inqila-

bı ilə müvəqqəti istiqlal dövrünün milliyyətpərvər mühərrir ədiblərindən, həqiqətini əsrin ən qüvvətli və ən həyati məfkurəsini təşkil edən xalqçılıqdan, həyəcanını ən incə tellərə toxunan milli hiss və duyğusundan alan bu cərəyan fədakar bir nəsil və məfkurəçi bir gənclik tərəfindən təmsil olunur".

Mən ömrümün 67 ilini Sovet dövründə, Sovet məkanında yaşamışam. Arxaya dönüb, götür-qoy etməli məsələlər, problemlər çoxdur. Dövrün əsil qiymətini tarix verir və verəcək. Ancaq mən keçmişi qaralamağın da tərəfdarı deyiləm. "İndiki halda Azərbaycan məhdud, çox ağır təzyiq və əsarət altında, bolşevik sistemində olsa belə bir hökumət həyatı yaşayır". Bu sözlər də M.Rəsulzadəyə aiddir.

70 illik Sovet şəraitində namuslu, qeyrətli, vətənin tərəqqisi naminə fədakarcasına çalışan vətənpərvərlər az olmayıb. Mən orta məktəb müəllimlərini, insaflı-mürüvvətli partiya və sovet işçilərini, qayğıkeş adamları minnətdarlıq hissilə xatırlayıram. Sovet təhsil və səhiyyə sistemi ideoloji cəhətdən yararsızlığına baxmayaraq praktiki, elmi-texniki səviyyəsi etibarilə yararlı, faydalı idi. Adi vətəndaşların, istedadlı gənclərin təhsili üçün o vaxt yaradılmış şərait indinin özündə belə yoxdur. Mənə, adicə bir kasıb balasına iki ali təhsil almaq, Moskva universitetində aspirantura qurtarıb elmi dərəcə almaq imkanı verən təhsil sistemini necə pisləyə bilərəm?!

Əlbəttə, 1920-ci ilin aprelində Azərbaycanı bəşəri inkişafın təbii məcrasından qoparıb ayıranlara, onu mənəvi və əxlaqi zəmindən, tarixi yaddaş vərdişindən, müstəqil və sərbəst düşüncə tərzindən də ayırmaq istəyənlər ehkamçılıq, ələbaxımlıq, itaətkarlıq, məddahlıq, saxtakarlıq və yalançılıq xislətlərilə "tərbiyə" edənlərə haqq qazandırmaq olmaz.

Böyük rus şairi Aleksandr Blok Rusiyada iki inqilab dəhşətini nəzərdə tutaraq yazırdı: "Rusiyanı Allah ona görə yaratmışdır ki, dünya xalqları, ölkələri necə yaşamaq lazım gəlmədiyini baxıb görsünlər".

Görkəmli demokrat və hüquqşünas Ə.M.Topçubaşov 1919-cu il yanvarın 6-da Rusiyanın tanınmış siyasi xadimi S.D.Sazonovla söhbətində demişdi: "Allahın bizdən anadangəlmə istedad və əməyə məhəbbət hissini əsirgəmədiyi bir vaxtda bizi geridə qalmış bir bədbəxt xalqa döndərən ruslara nə deyəsən?"

Tarix və tale yenə bizə "geridə qalmış bir bədbəxt xalq" səviyyəsindən çıxmaq şansı vermişdir. İndi bizi bu vəziyyətdən çıxmağa qoymayanlar kimlərdir? Beləlari ilk cümhuriyyət dövründə də nəinki vardı, hətta güclü idi. Üzeyir bəy 1919-cu il sentyabrın 12-də "Azərbaycan" qəzetində dərc olunmuş və bu vaxta qədər yenidən işıq üzü görmə-

miş "Daha bəsdir!" sərlövhəli məqaləsində yazırdı: "Rus istibdadının ehticab kərdəsi (üstüörtülü hissəsi) olan şkolaların (rus məktəblərinin) hərəkətindən biz indiyə qədər nə dilimizi bilirik, nə özümüzü tanıyırıq, biz kimlərik, haradan əmələ gəldik, tariximiz nə deyir, bunların heç birini bilmirik! Hakimiyyətin yüksək zirvəsində tək-tək şəxsiyyətlər istisna olmaqla oturanlar, "qara camaata" yuxarıdan aşağı baxanlar Üzeyirbəy deyənlərdir. Bu vəziyyəti birdən-birə düzəltmək mümkün olmayacaq. Ancaq bu yolda, yəni milli ruhlu, milli məktəblərdə, həqiqi təhsil alan nəsli yetişdirmək işinə maksimum səy göstərmək lazımdır.

İstiqlal bir dəstə xəyalpərəstin fantaziyası deyil, millətin ruhunun ən dərin guşələrindən təzahür edən ehtiyacdır. "Milli istiqlaliyyət bir yoldur ki, cəmi miləli-tərbiyyə (qərb millətləri) getmişlər və yerdə qalan millətlər də gedəcəklər. Bu bir keçiddir ki, tarix hamısını buradan sürüb keçirəcəkdir. Bu bir dəhşətli yoldur ki, xahi-nə-xahi (istəsən də istəməsən də) hər kəs buradan keçməyə məcburdur. Bu, bir keçiddir ki, istibdad dağlarından axan zülm sellərindən tərkib tapmış dəhşətli bir nəhr içində ittihad düşmüşdür". Bu sözlərin, fikirlərin düzlüyünü yaşadığımız illər, günlər belə təsdiq edir. Arxada qoyduğumuz XX əsrə nəzər salaq. 20-ci yüzilliyin əvvəllərində dünyada 30-a yaxın müstəqil dövlət vardı. 1945-ci ilin oktyabrında BMT yaradılarkən onun 51 üzvü vardı. Əsrin sonunda BMT üzvü olan müstəqil dövlətlərin sayı 189-a çatdı. Nəyin hesabına? İmperiyaların dağılması, onların parçalanması, milli-azadlıq hərəkatının qələbələri hesabına. Planetimizdə isə ən son hesablamalara görə 3700-dən artıq, tayfa, xalq, millət vardır. Deməli, onlardan yalnız 200-ə qədərinə öz müstəqil dövlətini yaratmaq səadəti, xoşbəxtliyi nəsib olmuşdur. Azərbaycan bu sırada öz ləyaqətli yerini tutmaqdadır. Müstəqilliyimizin 10 illiyi təntənəsinə bu ümumdünya müstəvisindən baxmaq və fəxr etmək gərəkdir. Yadda saxlamaq vacibdir ki, azadlıq və istiqlaliyyəti heç bir xalqa, millətə bağışlamırlar, vermirlər. Xalq onu qanı ilə, canı ilə, ağlı və qətiyyəti ilə qazanmalı, əldə etməlidir. Müstəqilliyin yolu bu mənada tufanlardan, vuruşlardan keçir.

Dünyada ölkələr və xalqlar arasında yarış gedir. Tarix bəzən bu və ya digər xalqın üzünə çevrilib dik baxır, onun qarşısına taleyi ilə bağlı problemlər qoyur, imtahana çəkir, sonra müstəqil bir xalq kimi yaşayıb-yaşamaması barədə hökm çıxarır. İmtahandan çıxmayan millət keyfiyyətini itirib əhaliyə, yəni başqaları üçün işçi qüvvəsinə çevrilir. İki əsrə yaxındır ki, biz Rusiya ilə onun bəlalarını da yaşamağa məhkum idik. Dünyanın bəşəri inkişaf məcrasından hər cür yayınmağın sınaq meydanına çevrilmiş Rusiya və Sovetlər birliyində tərbiyə görmüş

bizlər çox çətinliklə yaxşıya doğru dəyişirik. Q.V.Plexanov 1917-ci ilin noyabr günlərində Lenin və bolşeviklərin proletar diktaturası planı ilə əlaqədar nəşr etdiyi "Novaya jizn" qəzetində yazırdı: "Lenini də kimyagər adlandırmaq olar. Əgər klassik kimyagərlər öz təcrübələrini cansız təbiət materialları üzərində aparırlarsa, Lenin öz təcrübəsini canlı insanlar üzərində aparmağı planlaşdırır".

Bizdə də sosializmdən-kapitalizmə keçərkən bu keçidin xalqın böyük hissəsinin taleyi və müqəddəratı, mövcudluğu, ölüm-dirim probleminə çevrilməsinə yol verməməliyik.

Yer üzündəki bütün təbii fırtınalar Günəş enerjisinin atmosferdə və okeanlarda qeyri-bərabər bölünməsi nəticəsində baş verir. Planetimizdə, ayrı-ayrı region və ölkələrdə ictimai-siyasi və iqtisadi böhranlar isə maddi nemətlərin qeyri-bərabər, insafsızcasına bölünməsi, xalqın hesabına, onu soymaq və aldatmaqla varlanıb harınlaşanlar ilə geniş zəhmətkeş kütlə arasında uçurumun dərinləşməsi sayəsində yaranır, baş verir. Bu həqiqəti dərk etməyənlər müstəqilliyin kökünə balta çalanlardır.

Çox keşməkeşli dövrdə yaşayırıq. Azərbaycanın müstəqilliyi geri dönməz prosesə çevrilir. Həmin prosesin tarixi dəyərini qiymətləndirməkdə xəsislik edənlər də var. Əsrin ilk ilində cərəyan edən hadisələr yeni dünya düzəninin başlayacağından xəbər verir. Adətən belə bir əsrarəngiz zamanda itib-batmamaq üçün mizan-tərəzi qurulur, götür-qoy edilir. Millətin qazandığı-itirdiyi, dostu-düşməni, maddi-mənəvi imkanları hesablanır. Gediləcək yol müəyyənləşdirilir. Bizcə bu yol demokratiya yolu, qanunun aliliyi, insan hüquqlarının tam həcmdə gözlənilməsi, sovet-kommunist rejimindən miras qalmış yalan, rüşvətxorluq, yerliçilik və regionçuluq bəlasından qurtarmaq yoludur.

Allah xalqımızdan istedad və əməyə məhəbbət hissini əsirgəməmişdir. İstedad deyəndə birinci növbədə öz müstəqil dövlətini yaratmaq, öz torpağıqna məhəbbət, onu düşmənlərdən qorumaq qeyrəti nəzərdə tutulur.

Müstəqilliyin qədrini bilmək, xalqın güzəranını yaxşılaşdırmaq üçün işgüzarlığa geniş meydan verilməsinə nail olmaq, xalqın canına darışmış inzibati-amirlik həşəratlarını zərərsizləşdirmək, həqiqi demokratik cümhuriyyət yaratmağa səy göstərmək tələb olunur. Mən belə düşünürəm.

***"Günay" qəzeti, N41, 14 oktyabr 2001-ci il***

# İNFORMASİYALI CƏMİYYƏT VƏ TƏHSİL PROBLEMİ

*(Bəzi qeydlər)*

Bəşəriyyət yeni bir informasiyalı cəmiyyət dövrünə qədəm qoymuşdur. Müasir şəraitdə dünya dövlətlərinin inkişaf səviyyəsini müəyyənləşdirən əsas amillərdən başlıcası informasiya iqtisadiyyatı, demokratiya mədəniyyətidir. Elm və təhsilin səviyyəsi tərəqqi və rifahın həlledici şərtlərindəndir. Təsadüfi deyil ki, informasiyalı cəmiyyətə öncüllük edən ABŞ-da belə təhsilin yeni tələblər baxımından islahı problemi ölkə qarşısında duran ən mühüm məsələ kimi diqqət mərkəzinə çəkilmişdir. Prezident Corc Öuş da seçkiqabağı kampaniyasında bu problemi ön plana çəkmişdi. Nə üçün? ABŞ-ın ən böyük və nüfuzlu ştatlarından olan Kaliforniyada aparılan yoxlamalar zamanı məlum olmuşdur ki, orta məktəbi bitirənlərin səviyyəsi çox aşağıdır, onlar universitetlərdə müvəffəqiyyətlə oxuya bilmirlər. ABŞ ali məktəblərində təhsil almaqda olan çinli, Yaponiya və koreyalı gənclərin hazırlıq səviyyəsi isə daha yüksəkdir. Bu xüsusilə texniki fənlərdə, riyaziyyat və fizikada özünü açıqca göstərir. Koliforniyada həyəcan təbili çalındı. Bu ABŞ cəmiyyətində şok yaratdı. Məsələ konqresə çıxarıldı. İndi Corc Buş administrasiyası Amerika təhsil sistemində qlobal islahat proqramını hazırlayır. Bütün məktəblərin dövlət hesabına kompüterləşməsi və internetə qoşulması, təhsilin ümumi səviyyəsini informasiya və biliklə yanaşı, düşünmək, sərbəst mühakimə etmək vərdişləri aşılanması istiqamətinə yönəltməyi nəzərdə tutan proqram hazırlanır.

Ali təhsil sistemində əsaslı islahatlar keçirmək Fransa, Almaniya və Böyük Britaniyada da gündəlikdə durur. Yazırlar ki, Fransanın elm, təhsil və texnologiya naziri məktəblərdən birində olarkən bir məktəblidən soruşur ki, "əgər ikinin üstə 3 gəlsən nə edər?" Əlaçı sayılan şagird çaşıb qalır. Öz başında bunu həll edə bilmir və cavab verir ki, ikinin üstə üç gəlsən bərabər olar üç üstə gəl ikiyə. Bu cavabı eşidən nazir əmr edir ki, məktəbin bütün riyaziyyat müəllimlərini vəzifələrindən azad etsinlər.

Diqqət verilən digər mühüm məsələ şagirdləri və tələbələri riyazi yaradıcı təfəkkürə, məntiqə öyrətməkdir. Məlumdur ki, sübutluluq, dəlillik, inandırıcılıq müstəqil düşünməyin əsas şərtləridir. Bunu da riyazi məntiq öyrədir. Bu keyfiyyətə yiyələnməyənlər, onu bilməyənlər nəyin düzgün, nəyin yalan olduğunu da təyin edə bilmirlər, seçməyi bacarmırlar. Belə adamları məsuliyyətsiz, populist siyasətçilər asanlıqla

yoldan çıxarırlar. L.N.Tolstoy vaxtilə yazmışdır ki, totalitar və avtoritar hakimlərin gücü xalqın avamlığına söykənir. Hakimlər bunu bildikləri üçün maarifçiliyin əleyhinə çıxır, riyazi düşüncənin formalaşmasına imkan vermirlər. Başları dumanlandıran fənnləri isə ön plana çəkirlər.

Əlbəttə, Azərbaycanın təhsil sisteminin qarşılaşdığı problemlər əsri problemlərdir, onları islah edib dünya standartları səviyyəsinə qaldırmaq çox uzun illərin, hətta nəsillərin işidir. Amma səy etmək, başlamaq vacibdir. Bu sahədə müsbət addımlar da atılır. Üzərində düşünüləsi və təcili tədbir görüləsi neqativ hallar var ki, bunlar dünya təcrübəsində, xüsusilə, demokratik cəmiyyətlərində müşahidə edilmir. Bu təhsilin bütün növlərində müşahidə edilən, tədrisin keyfiyyətini, qiymətini, nüfuzunu aşağı salan tanışbazlıq, xahiş və pulla savadsızlara qiymət və diplom vermək bəlasıdır. Sovet dövründən qalmış və indi də davam edən korrupsiya və rüşvətxorluq xəstəliyi tərəfdarları və bu bəladan faydalananlar sağlam qüvvələrin bütün səylərini heçə endirir.

Bununla yanaşı açıq-aşkar görülən digər xoşagəlməz hallar da gənc nəslin təlim-tərbiyəsi işinə az ziyan vurmur. Tanınmış incəsənət xadimi və ziyalısı Eldar Quliyevin "Günay" qəzetində (30.IX.2001) yazdıqları ilə razılaşmamaq olmaz: "Cəmiyyətin varlı və yoxsullara bölünməsi çox kəskin forma almışdır", "indi məktəblərin yanında saxlanmış maşınların sayı böyük bir taksomotor parkını xatırladır", "gəlin heç olmasa uşaqların psixikasını bir qədər qoruyaq, onlarda mənəviyyat, əxlaqi dəyərlər tərbiyə edək. Əks halda bu uşaqlar ərköyün, ədəbaz kimi böyüyəcək". Eldar Quliyev vahid məktəbli formasının tətbiqi ideyasını bəyənir, "uşaqlar heç olmazsa sinifdə bərabərləşər və onların sosial vəziyyətindəki fərqlər nəzərə çarpmaz" deyir. Nəhayət, müəllif düzgün olaraq göstərir ki, "mənəviyyat qanunlarına riayət etmək, böyüklərin həyat meyarı olmuş mənəvi dəyərləri uşaqlara mənimsətmək hamımızın borcudur".

Müstəqillik qazanmış Azərbaycanın sivilizasiyalı, demokratik ölkələr sırasında layiqli yer tutması şansı təhsil və təlim sistemində həyata keçiriləcək əsaslı, köklü islahatlardan asılı olacaqdır. Bu yolda əlbir çalışmaq hər birimizin şərəf işidir.

***"Günay" qəzeti, 20.X.2001***

# ELM, TƏRƏQQİ, RİFAH VƏ ZƏLALƏT

*(Bir dünya, iki mənzərə)*

Beynəlxalq hesablama mərkəzlərinin ən son hesablamalarına görə dünya əhalisinin 50 faizinin gündəlik gəliri iki dollardan azdır, 1,2 milyardın gündəlik gəliri bir dolların altındadır. Başıbəlalı Əfqanıstanda hər adam başına düşən gündəlik gəlir isə cəmi 44 sentdir. İnkişaf etmiş ölkələrdə adambaşına düşən milli gəlirlə geridə qalmış ölkələrdəki bu göstəricilər arasındakı fərq 500 dəfədən çoxdur. Çoxdandır ki, 21-ci yüzillikdə bəşəriyyətin getdiyi və gedəcəyi yolun qlobal istiqamətləri, iqtisadi, elmi, texnoloji və təhsil problemləri barədə geniş müzakirə və mübahisələr getməkdədir. Bu sahədə böyük inam və səy nümayiş etdirən ölkələrlə yanaşı, narahatlıq keçirən ölkələr də az deyil. Sonuncular sırasında yaxın keçmişdə öz qüdrətli sənaye potensialı və hərbi gücü ilə dünyanın super dövlətlərindən sayılan Rusiyanın da adı çəkilir. Biz də uzun müddət bu məkanın sakinlərindən olduğumuz və indi də müstəqil dövlət həyatının 10 illiyini qeyd etdiyimizə baxmayaraq, o təcrübənin və atmosferin təsiri ilə yaşadığımız üçün həmin narahatlığı bölüşdürməyə məhkumuq.

Rusiya Federasiyasının indiki vəziyyətindən, gələcəyindən narahat olan elm və mədəniyyət adamlarının düşüncələri, proqnozları necədir? Bu mövzuda ən sanballı, ən mötəbər yazılara nüfuzlu "Nauka i jizn" jurnalı səhifələrində rast gəlmək olur. Dünyaca məşhur akademiklər Q.Marçukun "Gələcək əsr barədə düşüncələr" (N1, 2000), N.Moiseyevin "Rusiyanın gələcəyi haqqında danışmaq olarmı?" (N1, 1998), A.Rakitovun "XXI əsr elmi" (N12, 1998), "Qloballaşmanın iki üzü" (N11, 2000), A.S.Alekseyevin "Hüquq və Rusiyanın taleyi" (N7, 1999), V.İ.Arnoldun "Hər-mərclik aləminə səyahət" (N12, 2000), "İnkişafın Qərbə çatmaq paradoksu" (N9, 1999) və b. bu qəbildəndir.

Məsələn, sonuncu məqalədə belə maraqlı fikir səslənir ki, XVIII əsrdən başlayaraq Rusiyada iqtisadi inkişafın yüksəliş tempini Qərbi Avropa ölkələrinə çatmaq problemi müəyyənləşdirib. Bu yarış Rusiyaya çox baha başa gəlib, fərq, məsafə artıb, gerilik daha da dərinləşib. Çünki əhalini soymaq, var-yoxdan çıxarmaq, həbsxanaları müftə işçi məqsədilə doldurmaq hesabına Qərbə "çatmaq", hətta onu ötmək xülyasına düşmək ən azı avantürist cəhd olub. Doğrudur, keçən əsrin 80-ci illərində SSRİ hərbi sənayesi, xüsusilə kosmik tədqiqatlar sahəsində irəli çıxdı. Amma nəyin hesabına. Bu illərdə SSRİ-nin hərbi xərcləri milli daxili məhsulun 20 faizdən çoxunu udurdu. ABŞ-da isə bu yalnız 6-8 faiz təşkil edirdi.

Alimləri və mütəxəssisləri narahat edən ən böyük problem Rusiyada elm və təhsilin vəziyyəti ilə əlaqədardır. Akademik A.Rakitovun "Rusiyada elm, texnologiya və təhsil: reallıq və prinsiplər" sərlövhəli iri həcmli məqaləsi də bu problemə həsr olunmuşdu. (N9, sentyabr 2001). Müəllif ABŞ və Rusiya Federasiyasında bu sahədəki vəziyyəti geniş və tutarlı faktlarla müqayisə edir, mövcud reallıqları göz önündə sərgiləyir. Akademik yazır ki, 2000-ci ildə ABŞ-da elmlə məşğul olanların sayı 12,5 milyon nəfər olub, Rusiyada isə bu rəqəm 890,1 min nəfərdir. Deməli, fərq 13:1 nisbətindədir. Həm də keçən il ABŞ-da elmlər doktorlarının sayı 505 minə çatdığı halda, Rusiya bu sahədə də xeyli - 8-9 dəfə geridədir. ABŞ alimlərinin qeydə alınmış, çap edilmiş, istehsalatda tətbiq olunmuş lisenziya və patentlə satılmış kəşf və ixtiralarının miqdarı Rusiyadakından neçə yüz dəfə çoxdur.

Rusiya alimlərinin diqqət verdikləri mühüm cəhətlərdən biri - elmi kadrların hazırlığı və iş şəraiti məsələsidir. Akademik A.Rakitov və başqaları öz yazılarında bu barədə də düşünüləsi problemlərə toxunurlar. Dünya təcrübəsi göstərir ki, elmi nailiyyətlərin aparıcı, yaradıcı qüvvəsi gənclərdir. Rusiyada bu sahədə vəziyyət necədir? Yazırlar ki, 2000-ci ildə Rusiya Federasiyası Elmlər Akademiyası üzvlərinin orta yaşı 70, ölkədəki elmlər doktorlarınınkı 61, elmlər namizədlərininki 52 idi. Əgər vəziyyət yaxşılığa doğru əsaslı surətdə dəyişməsə, 15 ildən sonra elmi işçilərin orta yaşı 59 olacaq. Bu isə artıq kişilərin orta yaşayış həddidir. Həyəcan təbili çalmağın əsas səbəblərindən ən mühümü də bu hesab olunur.

Əmək haqqı və iş şəraiti baxımından da vəziyyət müqayisəyə gələcək deyil. Buna görə də gənc elmi işçilər ixtisasları üzrə işdən yayınır, bir qismi isə ölkəni tərk etməyə məcbur olur.

Gənclərin elmi hazırlıq mərkəzi olan ali məktəblərdə də vəziyyət ürəkaçıcı deyil. Müasir elmi texniki təchizat baxımından ali məktəblərin səviyyəsi neçə onilliklər geridədir. Köhnə, vaxtını keçirmiş laboratoriyalarda yeni informasiyalı cəmiyyət dövrünün kadrlarını hazırlamaq mümkün deyil. ABŞ hökuməti hər il elmi tədqiqatlar üçün külli miqdarda vəsait ayırır. 1998-ci ildə bu 220,6 milyard dollar olmuşdur. ABŞ dövlət büdcəsində elm və təhsilə ayrılan təxsisat hərbi xərclərdən az olmur. Müqayisə üçün göstərək ki, Azərbaycanda bu rəqəm daxili milli məhsulun 0,5-0,2 faizi həcmində olur. Elmi işçilərimizin sayı 1998-ci il statistikasında 15299 nəfər kimi göstərilmişdir.

Akademik N.Moiseyev Rusiya qarşısında tarixi bir vəzifə durduğuna diqqəti cəlb edərək yazır ki, "millətin süstlüyünü, iradəsizliyini, özünə hörmət duyğusunun olmamasını, şəxsi ləyaqət hissinin tama-

milə itirilməsini mən ən dəhşətli hallar sayıram. Ən dəhşətli hal isə çoxmilyonlu xalqı bürüyən ümidsizlik, bədbinlik hissidir".

Qloballaşma planetin iqtisadi, siyasi, mədəni və mənəvi-əxlaqi simasını dəyişmək üzrədir. Burada tarixi inkişafın müsbət aparıcı meylləri ilə yanaşı, qloballaşmanın gətirdiyi və gətirəcəyi mənfi meyllər də özünü göstərməkdədir. Dünya miqyasında varlı ölkələr regionlar və hətta qitələrlə yanaşı, yoxsul, inkişafdan məhrum qütb də mövcud olmaqdadır. Hər bir müstəqil xalq və ölkə bu prosesdə öz yerini, mövqeyini müəyyənləşdirməyə borcludur. Bilmək lazımdır ki, tərəqqi və rifahın mühərriki elm, yeni texnologiya və təhsildir, vasitəsi həqiqi demokratiya, qanunun aliliyi, sosial istiqamətli, idarə edilən bazar iqtisadiyyatıdır.

***"Günay" qəzeti, 27 oktyabr 2001.***

## TARİXİMİZİN DİQQƏTƏŞAYAN HADİSƏSİ

Biz yer kürəsinin hər yerində azadlıq və demokratiyaya çağırış əks-sədasının eşidildiyi bir dövrdə yaşayırıq. Müasir liberal demokratiyanın sırf Qərbə, xristian dünyasına aid bir hadisə olduğunu və qeyri-qərb mədəniyyətlərində onun heç vaxt əməlli-başlı uğur qazana bilməyəcəyinə dair skeptiklərin yanlış fikirləri alt-üst olmaqdadır. Hər bir demokratiya üçün əsas meyar hesab edilən siyasi azadlıq və vətəndaşlıq azadlıqları, milli istiqlal və insan hüquqları prinsipləri qlobal səviyyə daşımaqdadır. Demokratiya mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan siyasi partiyaların varlığı və cəmiyyətin həyatında oynadıqları rol da durmadan artmaqdadır.

Məlumdur ki, ictimai inkişaf prosesində subyektiv faktor kimi böyük rol oynayan müasir mənada siyasi partiyaların təşəkkül tarixi o qədər də qədim deyil. Bu sahənin mütəxəssisləri yazırlar ki, 100 il bundan əvvəl dünyada fəaliyyət göstərən siyasi partiyaların sayı onluq rəqəmlə hesablanırdı. İndi isə onların sayı yüzlük və minliklərlə hesablanır. ABŞ-da yerləşən və "Azadlıq evi" adlandırılan araşdırma mərkəzinin son illik icmalında göstərilir ki, dünyanın BMT üzvü olan suveren 189 ölkəsindən 65-i həqiqətən azaddır. Qismən azad olanların sayı da elə bu qədərdir. Tarixdə ilk dəfədir ki, azad ölkələrdə və

azad cəmiyyətlərdə yaşayan əhalinin sayı dünya əhalisinin 50 faizindən də artıqdır.

Kapitalizm ictimai formasiyası, parlamentarizm, siyasi fəaliyyət azadlığı, ümumi seçki hüququnun bərqərar olması zəminində meydana gələn siyasi partiyalar Qərbə nisbətən Şərqdə həm tarixən gec və həm də çətinliklə təşəkkül tapmışdır. Çox böyük iftixar hissilə qeyd etməliyik ki, türk və islam aləmində ilk həqiqi demokratik, çox partiyalı parlament respublikası Azərbaycanda yaradılmışdır. 1918-1920-ci illərdə mövcud olmuş bu demokratik respublikanın yaradılmasının təşkilatçısı, onun ideya-siyasi proqramını hazırlayıb həyata keçirən ilk milli siyasi partiyamız olan milli Azərbaycan demokratik xalq partiyası - "Müsavat" olmuşdur. Bu payız günlərində partiyanın yaradılmasının 90 ili tamam olur. Azərbaycanda həqiqi demokratiya və onun əməli bəhrələri real şəkildə hiss edildikcə bu tarixi hadisəyə münasibət də köklü şəkildə dəyişəcəkdir. Çünki siyasi mədəniyyət qədəm qoyduğumuz 21-ci yüzilliyin aparıcı həyat tərzi, cəmiyyət idarə etməyin ən yüksək forması, vasitəsidir.

Milli demokratik xalq partiyası olan "Müsavat" 1911-ci ilin oktyabrında Bakıda milli istiqlalçılar: Tağı Nağıoğlu, Məhəmmədəli Rəsulzadə və Abbasqulu Kazımzadənin rəhbərliyi ilə yaradılmışdı. Bu addımın təşəbbüskarı Məmmədəmin Rəsulzadə əvvəlcə Bakıda 1902-1903-cü illərdə "gənc inqilabçılar dərnəyi" yaratmış, "siyasi xilaskarlıq istəyənlər" imzası ilə gizli vərəqə və intibahnamələr nəşrini qaydaya salmışdı, sonralar Bakı sosial-demokratları ilə əlaqəyə girərək "Hümmət" təşkilatını ərsəyə gətirmiş və 1904-cü ilin oktyabrından eyni adda gizli qəzet nəşr etməyə başlamışdı. Bu təşkilat ətrafına yığılan gənclər milli təhsil görmüş və əhalinin zəhmətkeş zümrəsindən olanlardan ibarət idi. Bu dövrü xatırlayan M.Ə.Rəsulzadə yazırdı:

"1905-ci ilə qədər Azərbaycan cəmiyyətçiliyi təzyiqdə, Azərbaycan fikri isə çarizmin sərt senzurası altında idi. Yalnız Mancuriyada uğradığı məğlubiyyət nəticəsində baş verən ilk rus inqilabından sonra Azərbaycanın ictimai həyatında yeni bir dövr başladı. Gündəlik qəzetlər və digər dövri nəşrlər təsis olundu. Ədəbiyyat qol-budaq ataraq çiçəkləndi, musiqi və teatr səhnəsi inkişaf etdi, mətbəələr açıldı. Bir çox maarif cəmiyyətləri, siyasi qruplar və partiyalar quruldu.

Ayaqları altında torpağı möhkəm görən cəmiyyət hərəkatı bütün görkəmi ilə milli şəkil və mahiyyət aldı".

20-ci yüzilliyin ilk illərində Zaqafqaziyada ən güclü siyasi milli partiya 1890-cı ildən fəaliyyət göstərən və Bakıda da geniş şəbəkəsi olan "Daşnaksütyun" partiyası idi. Əvvəllər Türkiyə və İran Ermənistanını

"qurtarmağ"ı planlaşdıran bu partiya, 1904-cü ildə proqramına Qafqaz Ermənistanını da əlavə etmişdi. 1905-ci il inqilabı və Rusiyanı bürümüş hərcmərclikdən istifadə edən daşnaklar 1905-1907-ci illərdə silahlı terror dəstələri təşkil edərək İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Gəncə, Bakı və Şirvanda silahsız və dinc türk əhalisini qırmağa başlamışdılar. Belə bir olum ya ölüm şəraitində Əhmədbəy Ağayevin başçılığı ilə daşnak və onunla həmrəy olan çar silahlı dəstələrinin hücumunu dəf etmək üçün 1906-da gizli "Difai" firqəsi-təşkilatı yaradıldı. "Difai" (difa düşmən hücumunu dəf etmə, özünü düşməndən qoruma, müdafiə etmək deməkdir) sözün geniş mənasında siyasi partiya deyildi, müdafiə, həm də silahlı müdafiə funksiyasını yerinə yetirirdi. Lakin təşkilatın yaradıcısı Ə.Ağayev mətbuatda, rəsmi danışıqlarda, ictimai-siyasi məclislərdə erməni terrorizmini, onun təcavüzkarlıq planlarını bütün çılpaqlığı ilə ifşa edirdi. 1905-1907-ci illərdə Azərbaycan mətbuatında yazılan, Azərbaycan və Qafqazda erməni daşnak terrorizminə həsr edilmiş, yerli-yataqlı faktlarla zəngin, ən istedadlı, qüdrətli, savadlı vətənpərvər qələminin məhsulu olan yazıları toplasaq neçə-neçə cild olar. Məncə xüsusilə indiki dövrdə bunu etmək vacibdir. Məsələn, "Difai" adından buraxılmış bir intibahnamədə oxuyuruq: "Daşnak firqəsi əmin olsun ki, heç bir vaxt biz öz millətimizin xarabazarlıqları və külü üzərində erməni millətinin səadət və xoşgüzarlıq qurmasına yol verməyəcəyik".

Əsrin əvvəllərində Azərbaycan və beynəlxalq miqyasda cərəyan edən hadisələri diqqətlə izləyən "Həyat" qəzeti və "Füyuzat"ın baş redaktoru uzaqgörən mütəfəkkirimiz Əliyev Hüseynzadə də Rusiya və Qafqazda gizli və açıq fəaliyyət göstərən, türk və islam dünyasına, xalqlarına nifrət və kin təlqin edən siyasi qrup, təşkilat və partiyaların qorxunc planlarının qarşısında dayanmaq və tab gətirmək üçün siyasi partiya yaradılması zərurətini dilə gətirərək "Füyuzat"da yazırdı: "Biz arzu edərdik ki, müsəlmanların özlərinə məxsus bir proqram və firqəsi olsun və o firqədə müsəlmanların və bilxassə türk və tatarların hər növ müsavat və hürriyyətləri ilə bərqərar hüquqi-qövmiyyə (milli-hüquq), lisaniyyə (dil) və diniyyələrini təmin edən sair firqələrə iltihal etsin (qatılsın). Bizim üçün nicat, hər növ hürriyyə və hüquqi-müsavat (bərabərlik hüququ) tələb edən firqələrlə birləşməkdir".

Çar hakimiyyət orqanları və daşnaklar "Difai" partiyasının fəallarına qarşı geniş təqib kampaniyasına başladılar. Bu işə öz gizli agentləri olan milli "qələm pəhləvanlarını" və danosçuları da cəlb etdilər. 1909-da Ə.Ağayev, M.Ə.Rəsulzadə, 1910-cu ildə Ə.Hüseynzadə və başqaları Azərbaycanı tərk etməyə məcbur oldular. Həbs və sürgün

edilənlər də az olmadı. Meydanı nisbətən boş görən daşnaklar beynəlxalq atmosferin və Rusiyada hadisələrin yenidən canlanmasını və kəskinləşməsini hiss edərək hazırlaşmağa başladılar. Daşnaksütyun partiyası imkanı olan və silah tutmağı bacaran erməniləri təbliği və zorakı yolla öz tərəfinə çəkirdi. Birinci dünya müharibəsi ərəfəsində Daşnaksütyun öz üzvlərinin sayını 167 minə çatdırmışdı.

Belə bir şəraitdə Azərbaycanın düşünən, qeyrətli övladları milli, güclü bir siyasi təşkilatın yaradılması zərurətini dərk etdilər, "Müsavat"ı yaratdılar.

1917-ci ilin iki inqilab tufanında müsavatçılar düşmənlərin bütün genosid və işğalçılıq planlarını böyük itkilər və məhrumiyyətlər bahasına olsa da dəf etdilər. 1917-1920-ci illərdə "Müsavat" Zaqafqaziyanın ən güclü və nüfuzlu siyasi partiyası kimi meydanda oldu. 1984-cü ildə Moskvanın "Mısl" nəşriyyatında məşhur tarixçi alim - akademik İ.İ.Minsin redaktorluğu ilə nəşr olunmuş "Neproletarskie partii Rossii. Uroki istorii" kitabında oxuyuruq:

"Zaqafqaziyanın ən nüfuzlu partiyalarından biri Müsavat (bərabərlik) partiyası idi. Azərbaycan kəndlilərinin və fəhlələrinin bir hissəsi onun ardınca gedirdi... 1917-ci ilin oktyabrında Müsavatçılar Azərbaycan federalistləri ilə (onlar 1917-ci ilin martında Gəncədə təşkil olunmuşdular) birlikdə vahid Türk federalist müsavatçılarının demokratik partiyasında birləşdilər. Birləşdirici qurultayın milli məsələ üzrə rezolyusiyasının əsasında federalistlərin Azərbaycanda milli burjua dövlətinin yaranmasını nəzərdə tutan proqram qoyulmuşdur (səh. 313)".

Buradakı dövrlə əlaqədar ideoloji oyunbazlığı kənar etsək, həqiqət çox doğru əks olunmuşdur.

1918-1920-ci illərin müstəqil Azərbaycan Xalq Cümhuriyyəti kimi, indiki müstəqil Azərbaycan Respublikası da vaxtilə Müsavat partiyası ətrafında cəmləşmiş, milli dövlətçiliyimizi demokratik zəmin üzərində bərqərar etmiş nəslin davamçılarıdır. Milli qurtuluş hərəkatımızın ideoloqu və lideri M.Ə.Rəsulzadə 63 il bundan əvvəl bu tarixi hadisə münasibətilə yazmışdı: "Müsavat" bu sürətlə milli birlik və milli həmrəyliyin təməlini qoymuş və milli hakimiyyət üçün milləti polad kimi monolit, həm mənəvi, həm də maddi bir vücud halına gətirəcək ən doğru yol göstərmişdir. Bu yol ilə "Müsavat" durmadan yürüyəcək, millətlə və məmləkətlə daşıdığı böyük milli məfkurənin gerçəkləşməsini bir daha görəcəkdir".

***"Günay" qəzeti, 3.XI.2001.***

## ŞANIMIZ - ŞÖHRƏTİMİZ - BAYRAĞIMIZ

Dövlət bayrağı dövlətin rəsmi fərqləndirici nişanıdır, suverenlik rəmzidir. Təsviri qanunla, bir qayda olaraq konstitusiya ilə müəyyən edilir.

Azərbaycanın suverenliyi kimi milli dövlət bayrağı da cəfakeş xalqımızla birgə sevincli və kədərli günlərin şahidi olmuşdur. Məşhur türk tarixçisi Mustafa Yazıçı "Tarixdə 128 türk dövləti ilə 318 dövlət - 356 hökumət başqanlarının özəllikləri (M.Ö.220-M.S.1990)" adlı fundamental əsərində yazır ki, "Azərbaycan cümhuriyyəti (1918-1920) tarixdə qurulan türk dövlətləri sıralamasında 114-cü sıranı almaqdadır". Bundan qabaq isə Azərbaycan beş dəfə müstəqil dövlətçilik həyatını yaşamışdır (bax. adı çəkilən kitab, Ankara, 1990, səh. 313-316). Bu dövlətlərin milli rəmzləri, o cümlədən bayraqları haqqında təəssüf ki, məlumat çox azdır. Bilinən budur ki, mavi rəng türklüyün, türk hürriyyətinin, yaşıl rəng islamlığın, islam mədəniyyətinin, qırmızı rəng isə azad insanlar iqtidarının rəmzi kimi qəbul edilmişdir. Müxtəlif vaxtlarda bu bayraqlar - sancaqlar üzərinə həkk olunan aypara və səkkizbucaqlı ulduz isə tarixdə "türk dövrlü" təqvimin tətbiqi ilə bağlıdır. N.Tusi adına Şamaxı Astrofizika rəsədxanasının böyük elmi işçisi, fizika-riyaziyyat elmləri namizədi Ədalət Ətayi hələ 1992-ci ildə mənim şəxsi xahişimlə yazdığı və yalnız 1998-ci ildə "Elm və həyat" jurnalında dərc olunmuş "Təqvimlər keçmişdə və bu gün" (N 1, səh.10) adlı məqaləsində çox geniş bir ədəbiyyata istinad edərək yazır ki, "Əsası Osman Qazi tərəfindən qoyulmuş Türk imperatorluğunun bayrağındakı Ay hilalı yanındakı səkkizbucaqlı dövlətin vaxt ölçüsü cədvəlinə rəmzi işarədir. Sonralar Türkiyənin başqa islam dövlətləri ilə əlaqələri genişləndikcə türklər də "ərəb dövrlü" Ay təqviminə keçmişlər. Onu da qeyd etmək lazımdır ki, səkkizlik "türk dövrlü" təqvimi 30 illik "ərəb dövrlü" təqvimindən çox sadə idi".

1918-ci il mayın 28-də elan edilmiş müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi dövlət bayrağı 1918-ci il iyunun 21-də hökumətin xüsusi qərarı ilə təsbit edilmişdir. Qərar belədir: "Üstündə qırmızı fonda ağ səkkizguşəli ulduz və aypara təsviri olan qumaş Azərbaycanın bayrağı kimi təsdiq edilsin".

Bu qərar F.Xoyskinin başçılıq etdiyi Müvəqqəti hökumət kabinəsi iyunun 16-da Tiflisdən Gəncəyə köçürüldükdən 5 gün sonra qəbul və elan edilmişdir. Həm də birinci hökumət kabinəsi tərəfindən deyil, iyunun 17-də təşkil edilmiş ikinci hökumət kabinəsi tərəfindən qəbul olunmuşdur. Cümhuriyyətin yaradılmasına başçılıq etmiş "Müsavat" partiyasının proqram sənədlərində strateji şüar olan "türkləşmək", "islamlaşmaq və müasirləşmək" bu bayraqda tam şəkildə öz əksini tapmamışdı. Nə üçün?

İstiqlalımızın ilk aylarında Azərbaycan hökuməti və Azərbaycan Milli Şurası çox çətin bir şəraitdə, müvəqqəti olaraq Gəncədə fəaliyyət göstərmək məcburiyyətində idi. M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan hökumət nümayəndə heyəti 1918-ci il iyunun 4-də Batumda Türkiyə rəsmiləri ilə hərbi kömək məsələsi də daxil olmaqla saziş imzaladıqdan sonra İstanbula getmiş, Sultanla görüşmüş və hərbi yardımın reallaşmasına nail olmuşdular. İyunun ortalarında Fikrət Nuri paşanın başçılıq etdiyi ilk hərbi dəstə Gəncəyə gəlib çıxmışdı. Onunla bərabər Azərbaycana və onun problemlərinə bələd olan məşhur həmyerlimiz, 1909-cu ildən İstanbulda can-başla çalışan Əhmədbəy Ağayev də siyasi müşavir kimi gəlmişdi. Ə.Ağayev Azərbaycanda vəziyyətin çox ağır olduğunu görüb Milli Şuranın və hökumət kabinəsinin buraxılmasını tələb etmiş, "Nuru paşa istədiyi şəxslərdən bir Azərbaycan hökuməti qurar" demişdi. Bu təklifə qismən əməl edildi. Azərbaycan Milli Şurası buraxılmadı, fəaliyyəti müvəqqəti donduruldu. İkinci müvəqqəti hökumət kabinəsinin təşkili yenə F.Xoyskiyə tapşırıldı. İyunun 21-də dövlət bayrağı haqqındakı qərar bu kabinə tərəfindən qəbul edildi. Bu bayraq Osmanlı imperatorluğunun bayrağının təkrarı idi. M.Ə.Rəsulzadə və Müsavatçılar vəziyyətin çətinliyini, Bakı və Azərbaycanın xeyli ərazisinin bolşevik-rus, erməni-daşnak və onlara aldanmış milli "beynəlmiləlçilərin" işğalı altında olduğu bir şəraitdə Azərbaycan-Türkiyə münasibətlərini ön plana çəkmək, suverenlik problemini əsas problemə çevirmək istəmədilər.

1918-ci il sentyabrın 15-də Azərbaycan hərbi birləşmələri və könüllülərinin də daxil olduğu Qafqaz Türk İslam Ordusu Bakını azad etdi. Sentyabrın 17-də Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Azərbaycan ərazisinin böyük hissəsi düşmən qüvvələrindən azad olundu. Qarşıda isə görüləsi çox işlər dururdu.

1918-ci ilin payızında Almaniya-Türkiyə bloku dünya müharibəsində məğlub oldu. Oktyabrın 30-da Türkiyə Mudros barışığının ağır şərtlərinə imza atmalı oldu. Bu məğlubiyyət Azərbaycan Cümhuriyyətinin taleyində acınacaqlı izlər buraxdı. Noyabrın əvvəllərində İstanbulda

danışıqlar aparan Azərbaycan nümayəndələri M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Şəfikürdski Bakıya qayıtdılar.

Birinci dünya müharibəsinin qurtarması, Türkiyənin məğlubiyyəti Azərbaycan üçün yeni çətinliklər gətirdi. Mudros barışığının şərtlərinə görə müttəfiqlər Bakını işğal etməli idi. **Noyabrın 10-da**, bazar günü Azərbaycan hökuməti Nuru Paşanın şərəfinə ziyayət verdi. Ziyafətdə 400 nəfər tanınmış ziyalı və siyasi xadim, iş adamları, dövlət qulluqçuları, Azərbaycan ordusunun rəhbərliyi iştirak edirdi. Mərasimdə M.Ə.Rəsulzadə, A.Ağayev, Nuru Paşa, F.Xoyski və b. çıxış etmişdilər. M.Ə.Rəsulzadə: "İndi Azərbaycan türkləri qan qardaşlarının köməyi ilə hüquqlarına nail oldular". F.Xoyski: "Azərbaycanın çöllərində bizim türk qardaşlarımızın qanı bizim türklərin qanı ilə bir-birinə qarışdı. Mənşə etibarilə biz bir-birimizə qohumuq, indi bizim bir-birinə qarışan qanımız bunu daha da möhkəmləndirdi. Azərbaycanın azadlığı uğrunda tökülmüş qanlar Osmanlı və Azərbaycan türkləri arasında yaxınlaşmanın və qırılmaz əlaqələrin möhkəm təminatıdır". Ə.Ağayev: "Vaxt var idi ki, Azərbaycan türklərinin öz qardaşları olan Osmanlı türkləri haqqında danışması az qala cinayət hesab edilirdi". Nuru Paşa: **"Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir. Əgər Azərbaycanın azadlığı yolunda yeni qurbanlar lazım olarsa ona da hazırıq".**

Qeyd edək ki, türk əsgərlərinin yola salınma mərasimindən bir gün əvvəl 1918-ci il noyabrın 9-da Azərbaycan hökumət kabinəsi Azərbaycanın dövlət müstəqilliyinin rəmzi kimi bu dəfə "Milli Bayraq haqqında qərar qəbul etmişdi. Qərarda deyilir: "Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət bayraq milli bayraq hesab edilsin".

1918-ci il noyabrın 17-də hindli əsgərlərdən ibarət ingilis qoşunları Bakıya daxil oldu. Qarşılama mərasimində ilk dəfə üçrəngli yeni milli bayraqlar asılmışdı.

Milli dövlət bayrağımız Azərbaycan parlamenti tərəfindən də çox böyük rəğbətlə qarşılandı. 1918-ci il dekabrın 7-də parlamentin ilk iclasını açaraq giriş nitqi söyləyən M.Ə.Rəsulzadə demişdi: "Səadət və hürriyyət istiqlaldır. İştə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı - əhraranəsini (azad adamlar iqtidarını) təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir (dalğalanacaqdır). Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir".

M.Ə.Rəsulzadənin parlamentin açılışındakı nitqini dinləyən bay-

raqla əlaqədar onun dediyi tarixi sözləri dəyərləndirən Üzeyirbəy Hacıbəyli redaktoru olduğu "Azərbaycan" qəzetində (9.XII) yazırdı: "Məhəmməd Əmin nitqi-ittitahəsində bu üç rəngin: türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə - bu bayraq endirilməz! - dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssüratı-fövqəladəmdən başımın tükləri biz-biz durdu".

İstiqlal rəmzi bayrağın millətə nəyin bahasına başa gəldiyini isə Ü.Hacıbəyli yenə həmin dekabr günlərində belə dilə gətirmişdi: "Burası da yadımdan çıxmayıbdır ki, ağzımızı açıb söz demək istədikdə möhtərəm rus demokratiyası naminə iş görən həriflər başımıza elə qapazlar salmağa başladılar ki, yerimizi, yurdumuzu da qapaz vuranlara qoyub hərəmiz bir diyara qaçmağı səlah bildik.

Ancaq bunu yetirmək istəyirəm ki, doğrudur, rus demokratiyası qan töküb, baş yaran rus istibdadından "qənimətlər" aldı. Biz dəxi o qənimətlərdən payımıza düşən hissəni almaq üçün qan da tökdük, can da verdik, baş da yardıq.

Qənimətdən məqsəd hürriyyət isə, haqq isə, biz ona malik olmaq üçün "ehsan" almadıq, bəlkə on minlərcə qurban verdik, çaylarca qan axıtdıq" ("Azərbaycan" qəzeti. 16.XII.1918).

Bu gün milli suverenlik rəmzi olan bayrağımız başımız üstündə qürurla dalğalanır, dünyada tanınır, sayılır. Bu müqəddəs varlığı yaradanları, çox böyük məşəqqətlərə baxmayaraq hifz edib saxlayanları, yaşadanları böyük minnətdarlıq hissilə anır və əminik ki, böyük öndərimiz M.Ə.Rəsulzadənin dillər əzbəri olan "Bir kərə yüksələn bayraq bir daha endirilməz!" kəlamı gələcək nəsillərin də yolunu işıqlandıran mayak olacaqdır.

***"Günay" qəzeti, 10.XI.2001***

# ERMƏNİLƏRİN TÜRK-İSLAM DÜŞMƏNÇİLİYİ VƏ İRANDA ERMƏNİ ƏRKÖYÜNLÜYÜ

İran İslam Respublikası səfirliyinin mədəniyyət mərkəzi İran İslam Respublikasının müxtəlif mətbuat orqanlarını təmsil edən bir qrup jurnalisti Bakıya dəvət etmişdi. Bu günlərdə həmin qrupun üzvləri ilə BDU-nun jurnalistika fakültəsi müəllimlərinin görüşü olmuşdur. Təbrizdə çıxan "Azərbaycan" qəzetinin məsul müdiri Əkbər Rzaye Təbrizi, "Azərbaycan nidası" qəzetinin baş redaktoru Mehdi Nəlbəndi, "Misaq" qəzetinin baş redaktoru Cəlal Məhəmmədi, həmin qəzetin icraiyyə müdiri Mustafa Quluzadə, şair, yazıçı ustad Şəhriyar adına cəmiyyətdən Muxtar Sədr Məhəmmədi, Urmiyədə nəşr olunan "Əmanət" qəzetinin əməkdaşı Bəhram Əsədi və başqalarının daxil olduğu, jurnalistlərlə ana dilində apardığımız səmimi şəkildə keçən görüşdə hər iki tərəfi maraqlandıran bir sıra məsələlər və problemlər barədə fikir mübadiləsi aparıldı. Fakültənin dekanı dosent Y.Əlizadə, kafedra müdirləri professor F.Mehdi, dosent C.Məmmədli, müəllimlər: dosent M.Mahmudov, dosent Ə.Nəbili, dosent M.Mehdiyev və bu sətirlərin müəllifi qonaqlara Azərbaycan jurnalistikası və onun müasir vəziyyəti barədə də məlumat verdilər. Qonaqlar Azərbaycanın bəzi mətbuat orqanlarında İran barədə qeyri-obyektiv və hətta antiiran səciyyəli yazılar dərc olunması ilə bağlı narahatlıqlarını bildirdilər. Biz də öz növbəsində İranın kütləvi informasiya vasitələrində müstəqil Azərbaycan Respublikasına dair qərəzli, birtərəfli yazılar və verilişlərə yol verildiyini nəzərə çatdırdıq. Bununla əlaqədar işğalçı, terrorizm yuvası, qatı və vəhşi millətçiliyin hökm sürdüyü Ermənistan ilə İran arasındakı yaxınlaşmanın heç cür anlaşılmadığını nəzərə çatdırdıq. Bu barədə fikirlər, görüşlər haçalandı. Doğrudur, rəsmi İran Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini sözdə pisləyir, Azərbaycanın torpaq bütövlüyünü tanıdığını bildirir. Lakin işğalçı ilə ən yaxın əlaqələr də yaradır. Bununla əlaqədar İranda, o cümlədən İran Azərbaycanında ermənilərin, digər millətlərə nisbətən geniş hüquq və imkanlara, təbliğat vasitələrinə, iqtisadi, siyasi və mədəni imkanlara malik olması da göz qabağındadır. Həm də bu, uzun illərdir ki, davam edir. Vaxtilə - 1909-1911-ci illərdə İranda yaşamış, Tehranda "İrani-nov" (Yeni İran) adlı gündəlik qəzetin baş redaktoru olmuş, İstanbulda "İran türkləri" sərlövhəli seriya məqalələr dərc etdirmiş, İran ədəbiyyatı və mədəniyyətini ürəkdən sevən M.Ə.Rəsulzadə də bu məsələyə diqqət yetirmiş və bu barədəki mülahizə və tənqidi qeydlərini qələmə almış, çap etdirmişdir. İranlı həmkarlarımızla söhbətdə mən nümunə olaraq

M.Ə.Rəsulzadənin "Qəribə bir baykot" yazısını göstərdim və məsləhət bildim ki, onu diqqətlə oxusunlar. Bunu "Günay" qəzetinin oxucularına da məsləhət bilirəm, ibrətamizdir, indiki bəzi bəlaların, problemlərin tarixi köklərini bilmək baxımından da faydalıdır. Bakıda "Tərəqqi" qəzetinin 1909-cu il 29 iyun tarixli nömrəsində dərc olunmuş bu yazını müəyyən ixtisarla oxuculara təqdim edirəm. M.Ə.Rəsulzadə özlərini dünyaya mədəni bir millət kimi tanıtmaq istəyən və talelərini "vəhşi millətçi", "çörək itirən, əclaf hərəkətli" daşnaklara verən erməniləri kəskin bir qələmlə tənqid edir, onlara bu çirkin əməllərində şərait yaradan və rəvac verən İran hakimlərinə öz nifrətini bildirirdi.

## QƏRİBƏ BİR BOYKOT

*(Xüsusi müxbirimizdən)*

İran erməniləri... bütün ölkə məktəbsizlik bəlasına giriftar, cəhalətə düçar olduğu bir halda bu millətin özünə məxsus məktəbləri mövcud olub, hər qism ülumdan (elmdən) təhsil edirlər.

İran qəribə bir təzad və dərəbəylik ölkəsi olduğundan qanun-qaydası yox, zülm və ədaləti bəyənilməz bir dövlət olduğundan, nədən isə ermənilər İranda kəmali-istirahət və azadlıqda yaşamışlar.

İran istibdadından bunlar zərrəcə bir zərər görməmiş, kəmali-rəfaətlə dolanmışlar.

İran xanlarının, ərbablarının, zülm sahiblərinin və qəddarların hər nə qədər kobudluqları, vəhşilik və yırtıcılıqları varsa, hamısı haman müsəlman əhalisinin başında oynadılmış, ermənilər isə bu bəlalardan daima toxunulmaz qalmış, müsəlmanlara nisbətən artıq bir imtiyaz ilə dolanmışlar.

Bu gün baxıram ki, erməni dilində elannamələr nəşr olunur. Birini alıram, oxuyuram. Tərcümə edirlər ki, erməni bağında erməni tələbələri cəmiyyətləri nəfinə ümumi gəzinti olacaqdır.

...Bir-iki nəfər iranlı cavanlarına, maarif əhlinə təklif edirəm ki, gedəlim, seyr edəlim. Bunlar mənə deyirlər ki, üzr istəyirik, gedə bilmərik. Zira müsəlmanlar bu bağa qoyulmazlar. Mən inanmıram. Zira, necə olur böylə bir şey olsun, axı ermənilərin İran müsəlmanlarından nifrət etməyə heç haqqı və ixtiyarları yoxdur...

Qırmızı Sultan Həmidin əsrində... Türkiyədə ermənilər belə bir şey yapmalıdılar, yapmadılar... Böylə bir şey olamaz. Yəqin bu bir münaqişədir. Şəxsən təhqiq etmək lazımdır.

Gedirəm. Bilet alıb bağa daxil oluram. Kimsə bir söz demir. Tanış ermənilərə rast gəlirəm, zarafatyana deyirəm, təəccüb edirəm ki, məni daxil olmağa qoydular. Bunlar... gülümsəyirlər.

Yuxarıda eşitdiyim inanılmaz xəbəri təhqiq edirəm. Məlum olur ki, əsli varmış...

Rəfiqim "Russkoye slovo" qəzeti müxbiri və onun möhtərəm xanımı ilə bərabər balkonda bufet qabağında oturub su istəyirik. Su verirlər... Bu vaxt bir nəfər cavan erməni mənim yanıma gəlib, iki dəqiqəliyə xahiş edirlər ki, bir mühüm söz deyəcəklər... Məni camaatdan kənara bir ağacın dibinə çəkib rusca diyor ki,

"... Sizə bəyan etməliyəm ki, müsəlmanların bu bağa gəlməyə ixtiyarları yoxdur, təvəqqə edirəm ki...".

Bu vəhşilik, bədəvillikdir deyə etiraz edib belə bir cəmiyyətə də, bağa da tüpürdüm. Mən əhvalatı yoldaşlarıma bildirincə, onlar da tüpürüb etirazkarcasına bağı tərk etdik... İnsanların bu dərəcə bir vəhşi millətçilik, dini təəssübə, əclaf kirdara (hərəkətli), alçaq çörək itirməkliyə qapıldıqlarına heyf etdik...

İnsanın hamıdan çox hörmət bəslədiyi bir övladı tərəfindən təhqir və təkdir (əziyyət) olunan qədim bir məmləkətə həm nifrəti, həm də heyfi gəlirdi.

Biçarə İran!

Millətçilik! İnsan-insanlar əvəzinə utanır, xəcalət çəkir! Ermənilərin nəzər-diqqətinə vagüzar (həvalə) edirəm: nasyonalizmin bu dərəcəsinə çıxmaq, haman o nasyonu (milləti) bərbad etməkdir".

**"Tərəqqi", M.Əmin, 29 iyun, 1909.Təbriz**

* * *

1909-cu ildə İranın hakim dairələri ermənilərin bu vəhşi millətçiliyinə necə göz yumur və bəzən də rəvac verirdilərsə, bizim günlərimizdə də bu vəziyyət bu və ya başqa şəkildə təkrar olunur.

Azərbaycan Respublikası və xalqı qonşu İranla dostluq, qardaşlıq münasibətləri yaratmağa meyllidir. Biz cənublu həmkarlarımızla görüşdə də bunu vurğuladıq. Biz İranın qonşuları, o cümlədən Ermənistanla da istədiyi münasibəti yaratması işinə müdaxilə edə də bilmərik. Lakin qələm əhli kimi hadisələrin gedişinə öz münasibətimizi bildirmək hüququna da malikik. Necə ki, bunu vaxtilə İranı və o taylı - bu taylı Azərbaycanı ürəkdən sevən ustadımız M.Ə.Rəsulzadə edirdi.

M.Ə.Rəsulzadənin adı çəkilən yazısını tam şəkildə oxumaq istəyənlər onun əsərlərinin tərəfimizdən hazırlanıb və 1992-ci ildə "Azərnəşr" tərəfindən nəşr olunmuş 1-ci cildində (səh. 376-379), fars dilinə tərcüməsini oxumaq istəyənlər isə 1998-ci ildə M.Ə.Rəsulzadənin Tehranda 1-ci cilddən götürülüb "Güzarişhayi əz inqilabe məşrutiyyəti İran" adı ilə çap olunmuş kitabında (səh. 210-214) tanış ola bilərlər. Tərcüməçi görkəmli tarixçi Rəhim Rəisniyadır.

**"Günay" qəzeti, 17.XI.2001."**

## V.PUTİNİN ABŞ-a "PƏNCƏRƏ" AÇMAQ İSTƏYİ VƏ HÜRRİYYƏT "SKVOZNYAKI"

Rusiya Federasiyasının prezidenti V.Putinin ABŞ-a rəsmi səfəri, prezident Corc Buşla apardığı danışıqlar, onların arasında hiss edilən dostluq münasibətləri, təkcə onların təmsil etdikləri ölkələrin deyil, qloballaşma dövrünə qədəm qoymuş dünyanın da kütləvi informasiya orqanları tərəfindən geniş şərh olunur. Amerikanı sarsıdan 11 sentyabr aktından sonra 21-ci yüzilliyin ilk ilindən dünya düzəninin yenidən formalaşacağına dair mülahizələrin necə reallaşacağı barədə proqnozlar da verilir. Buş-Putin görüşünü şərh edən Amerika jurnalistlərindən biri Putini Birinci Pyotrla müqayisə edərək yazmışdır ki, əgər I Pyotr Avropaya pəncərə açmaqla tarixə düşmüşdü, Putin də Amerikaya pəncərə açmaq istəyindədir. Məlumdur ki, Pyotrun pəncərə açmaq təşəbbüsünün 300 illiyi yaxınlaşır. Rusiyanın köhnə paytaxtı - Sankt-Peterburqun təməlinin qoyulmasının 300 illiyi təntənə ilə qeyd ediləcək və həm də Rusiyanın gələcək inkişaf perspektivləri nəzərdən keçirilməkdədir. Rusiya-Amerika açıq və gizli qarşıdurmasına son qoymaq isə Rusiyanın Avropa Birliyinə daxil olmasının, NATO ilə əlaqəsinin əsas şərtlərindən biridir.

ABŞ 19-cu yüzilliyin 90-cı illərindən başlayaraq dünyanın bir nömrəli sənayeləşmiş, iqtisadi gücə malik ölkəsi statusunu daşımaqdadır. II Dünya müharibəsi və müharibədən sonrakı illərdə bu iqtisadi gücə malik ölkəsi statusunu daşımaqdadır. II Dünya müharibəsi və müharibədən sonrakı illərdə bu iqtisadi gücə hərbi və siyasi-diplomatik güc də əlavə olundu. Sovetlər Birliyi dağıldıqdan sonra ABŞ dünyanın yeganə fövqəldövləti sayılır. Yeni texnologiya sahəsində ABŞ yenə də li-

derliyini saxlamaqdadır. İqtisadi qloballaşmaya da ABŞ başçılıq edir. Ən son məlumatlara görə, dünya əhalisinin 3 milyardını təmsil edən 24 inkişaf etmiş ölkə artıq bu prosesə qoşulmuşdur. İqtisadi qloballaşmaya müqavimət göstərən, dünyanın 2 milyard sakininin yaşadığı 20 ölkə də artıq məlumdur. Son vaxtlara qədər Rusiya da bu ölkələr sırasına daxil idi. İcmalçılar qeyd edirlər ki, Putin 11 sentyabrla yaranmış yeni şəraitdən istifadə edərək oriyentasiyanı dəyişmək və ABŞ ilə sövdələşmək mövqeyini seçmək meylindədir. Bu siyasətin nə ilə nəticələnəcəyi haqqında proqnoz vermək tezdir.

I Pyotr Avropaya pəncərə açdısa da, Rusiyanın düzəni Avropa standartlarına uyğunlaşa bilmədi. Ondan sonra gələnlər nə qədər cəhd göstərsələr də, istibdad rejimini yalnız 1917-ci ildə bir anlığa sarsıtmaq mümkün oldu. 1917-ci ilin fevralında Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Lakin Rusiya yağışdan çıxıb, yağmura düşdü. Bolşevik proletar diktaturası Qərbə açılan pəncərəni bərk-bərk bağladı. Hətta efirə buraxılan radio verilişlərini, kənar səs dalğalarını vurmağa başladılar. Başqa deyimlə, yerin-göyün pəncərələrini qapadılar. Digər tərəfdən, Şərqə, Qərbə, Cənuba yeni kommunist pəncərələri •açmaq üçün nələrə əl atmadılar! Əfqanıstan yürüşü sonuncu pəncərə açmaq cəhdi idi. Jirinovskinin ifadəsilə desək, Hind okeanında rus əsgərlərinin öz çəkmələrini yuması cəhdi də boşa çıxdı. "Pəncərə" açmaq cəhdləri Sovet İttifaqının özünün dağılmasında mühüm rol oynadı. İndi Rusiya da ABŞ-a qoşulub təkcə beynəlxalq terrorçulardan deyil, əfqan xalqından da öz heyfini çıxmaqdadır.

Bu vaxta qədər müxtəlif ölkə və qitələrə pəncərə açmaq cəhdi ilə Rusiya əməlli-başlı bir şey qazanmayıb. Hələlik bu sahədə tarixə düşən I Pyotrdur. 20-ci yüzilliyin əvvəllərində II Nikolay və onun ətrafındakılar da Şərqə pəncərə açmaq istədilər. Onun nə ilə nəticələnməsi barədə Bakıda nəşr olunan "Yoldaş" qəzeti 1907-ci il sentyabrın 1-də "Skvoznyak" sərlövhəli bir yazı vermişdi. Siz də onunla tanış olun. İbrətamiz yazıdır. V.Putin bu yaxınlarda Çində səfərdə olmuş və bununla əlaqədar da Çin Xalq Respublikası ilə strateji əməkdaşlıqdan danışılmağa başlanmışdı. Rusiyanın Çinə yeni "pəncərə" açmasından da söhbət gedir. Qısası, dünyaya açılmaq, əslində, pis şey deyil, amma dünyanın həqiqi, mütərəqqi düzəninə uymayıb, onu özünə uyğun şəkildə dəyişmək meyli xatalıdır, "skvoznyak" və tufanlar da bu vaxtlarda meydana gəlir. "Skvoznyak" müəllifi yazır ki, pəncərələr bu vaxta kimi yığışan "Nizam və qaydaları vurub dağıtdı. Camaatı da Avropadan götürdüyü "azarlara" mübtəla edib, böyük-böyük iddialara saldı".

"Skvoznyak"ı oxuyaq.

# SKVOZNYAK

Rusiya tarixini oxuyanlara məlumdur ki, məşhur Pyotri-Kəbr (Böyük Pyotr) Peterburqun binasını qoymaq istədikdə, Neva çayının kənarında kol-kosluq və bataqlıq yerdə durub dedi ki, "mən buradan Qərbə pəncərə açacağam". Sözünə əməl eləyən və dediyinə sabitqədəm (dayanıqlı) olan imperator dediyini elədi, onun əhəmiyyəti-siyasiyyə və ticariyyəsi münasibətilə bəzi Avropa nizamını rusiyalılara göstərib öyrətdi...

Pyotri-Kəbinin bu "pəncərə" açması bizim hakimlərin riyasət (rəislik) və pul, keyfə-mayəşa (keyf istədikləri) başlarında olub pəncərədə şöhrət gördükləri üçün camaat tərəfindən özlərinə bir "etimad" qazanmaq üçün Qərbdə işləyə bilməyib, Şərqə "pəncərə" açmaq istədilər...

İstədilər də pəncərəni açmağa, Şərqin divarını yıxmağa başladılar...

Pəncərəni açdılar... Lakin bu pəncərəni açmaqda böyük səhvə düçar olub, böyük bədbəxtliyə giriftar olduqlarını gördülər. Qərbdə bir pəncərə varkən Şərqdə də bir pəncərə açıldı. Pəncərə açıldı, nə açıldı... Hürriyyət "skvoznyak"ı bu başdan vurub o tərəfdən çıxdı. Tufan eləyib bu vaxta kimi yığışan "nizam və qaydaları" vurub dağıtdı. Camaatı da Avropadan götürdüyü "azarlara" mübtəla edib böyük-böyük iddialara saldı.

Bürokratlar səhvlərini anladılar. Pəncərəni açmalarına peşman olub küləyin qabağına sədlər qurmağa başladılar..."

"Yoldaş" qəzeti, 1 sentyabr, 1907

Doğrudur, tarix təkrar olunmursa da hər halda tarixi təcrübəni yada salmaq da faydasız deyil. 1919-cu ildə Azərbaycan parlamentinin sədr müavini Həsən bəy Ağayev cümhuriyyətin birinci ildönümü münasibətilə "Azərbaycan" qəzeti müxbirinin Rusiya ilə əlaqələrlə bağlı verdiyi suala cavabında demişdi: "Rusiyaya əvvəlki kimi yenə də səmimi dostluq duyğuları bəsləyirik. Rus xalqına qarşı heç bir düşmənçiliyimiz yoxdur. Biz ürəkdən arzulayırıq ki, Rusiya onu boğan dəhşətdən daha tez xilas olsun. Bu, bizə onunla ən mehriban qarşılıqlı münasibətlər yaratmaq imkanı verər".

Bu sözlərin söylənilməsindən 82 illik bir müddət keçsə də, onu yenə də təkrar etməyi vacib bilirik. Azadlıq "skvoznyak"ı Rusiya üçün xeyrli olsa yaxşıdır.

**"Günay" qəzeti, 24.XI.2001**

## NİZAMİ GƏNCƏVİ - 860

### *1941. Buxarest, "Azərbaycan şairi Nizami"*

Ağlasığmaz çətinliklərə, məşəqqət və təqiblərə mərdcəsinə sinə gərərək xalqının tarixini, mədəniyyət və ədəbiyyatını, bir sözlə, varlığını tədqiq edib tanıdan və yaşadan vətən övladlarını anmaq, zəngin irsini öyrənmək və öyrətmək ülvi və müqəddəs borcdur. Bu bizim üçün xüsusilə vacibdir. Çünki barmaqla sayıla biləcək vətən övladlarından biri olan Ziya Bünyadovun da yazdığı kimi "tarixən dəyirman daşını həmişə bizim başımızda fırladıblar... bizi çək-çevirə salıblar, siyasət ipini bizim boğazımıza keçiriblər... bölüb-bölüşdürmək nöqtəsini cızıb hazırlamışlar".

Allahın bəxş etdiyi zəngin torpağımıza, əməksevərlik, ləyaqət, istedad əta etdiyi varlığımıza qənim kəsilənlərin aramsız hücumlarını dəf edib, bizi dünyanın qabaqcıl və mədəni millətləri cərgəsinə qoşmaq istəyən və bunun üçün gecəli-gündüzlü əmək sərf edən fədailərimiz az olmayıb. Bariz bir nümunə: 1941-ci il, Avropa və dünya alov içərisindədir, necə deyərlər, ara qarışıb, məzhəb itib, Buxarestdə çətin mühacirət həyatı yaşayan 57 yaşlı M.Ə.Rəsulzadə dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi münasibətilə uzun illər boyu tədqiqat apardığı "Azərbaycan şairi Nizami" monoqrafiyasını başa çatdırmaq üzrə gərgin işləyir, son nöqtəni qoyur.

Bu tarixdən 60 il keçir. Bu illərdə nələrin baş verdiyini nəzərdən keçirmək, sadalamaq fikrində deyiləm. Lakin "Azərbaycanın bütün varlığı ilə minnətdar olduğu", "XII əsrin qızıl qələm şairi", "İlahi sənətkar", "Bəşər mədəniyyətinin dahi bayraqdarı", "Ağılları mat qoyan", "Qəlbinin bütün tellərilə ana yurduna bağlı olan" Nizami Gəncəvi və onun haqqında böyük bilgi və məhəbbətlə əsər yazan M.Ə.Rəsulzadənin vətəni Azərbaycan istiqlalına qovuşmuş, müstəqil dövlətçilik həyatını yaşamaqdadır.

Nizaminin 800 illik yubileyi 1941-ci ildə qeyd edilməli idi. Müharibə başladı. Yubiley mərasimləri təxirə salındı. Lakin faşistlər tərəfindən mühasirəyə alınmış Leninqradda tarixi bir yubiley mərasimi keçirildi. Buxarestdə isə monoqrafiya tamamlandı.

M.Ə.Rəsulzadənin əsərini Nizamiyə dair ondan əvvəlki və hətta sonrakı illərdə yazılmış təqdimatlarda fərqləndirən cəhətlər hansılardır. Monoqrafiyadan bəzi sətirlər:

"Hansı mənəvi varlıq və tarixi iftixar Azərbaycana Nizami xatirəsindən daha yüksək və dünyaya şamil olan bir dəyəri təmin edə bilər? Nizami kimi bir mədəni dəyəri hansı azərbaycanlı vətənpərvərlik ənə-

nəsi çərçivəsindən kənara çıxara bilər? Hansı yurdsevər və şüurlu bir azəri türkü Nizami ilə öyünməyə bilər?!

Kitabımızın müəyyən bölməsində təfsilatı ilə təkrar edəcəyimiz "gözəl ilə böyüyə-türk, gözəllik ilə böyüklüyə-türklük, gözəllik və böyüklük diyarına - Türküstan" - deyən bir şairə hansı ağız "o, türk deyildir" - deyə bilər?

Onun yaşadığı zaman və şəraitdə dilin əhəmiyyəti yox idi: əhəmiyyətli hissiyyat idi. Hiss nöqteyi-nəzərindən isə Nizaminin türklüyünü isbat edən dəlillər bir deyil, minlərcədir...

Azərbaycanın bu böyük oğluna can və ürəkdən bağlanmaq, ona aid maddi və mənəvi xatirələri vətən və milləti birləşdirən bir müqəddəsat kimi mənimsəmək, əsərlərini diqqət və ehtiramla öyrənmək, yaratdığı ədəbi tablo və timsalları müasir sənətin texnikası vasitəsilə yenidən canlandırmaq, möcüzəli sənətindəki bütün incəliklərin zövqünə varmaq, yüksək ruhundakı böyüklük və dərinliyin həqiqi ölçülərini bilməyə çalışmaq, varlığın sirlərini araşdıran hikmət və fəlsəfəsini qavramaq, bir sözlə, öz zamanında anlaşılmadığından şikayət etdiyi "türkcə"sini anlamaq - budur və vətənpərvər Azərbaycan ziyalılarının və xalqını sevən bütün türklərin vəzifəsi!"

M.Ə.Rəsulzadənin Nizami haqqındakı tədqiqatı öz əhatə dairəsi, istinad etdiyi mənbələr, yanaşma və elmi təhlil metodikası özündən əvvəlkilərdən əsaslı surətdə fərqlənirdi. Dəlilli-sübutlu isbat etdiyi əsas tezis isə belə idi ki, Nizami Azərbaycan şairidir, türk oğlu türkdür, Azərbaycan xalqı Nizami kimi bir dahi yaratmağa qadir bir xalqdır, formalaşan ümumbəşəri mədəniyyətdə bu xalqın da payı böyükdür. Bu isə Azərbaycan xalqına müstəqil yaşayıb-yaratmaq haqqı və hüquqi verir. M.Ə.Rəsulzadə yazır ki, Nizamini hər dəfə oxuyanda onda yeni bir özəllik, yeni bir gözəllik tapırıq. Nizaminin inkişaf yolu da eyni ilə təbiətin təkamülünə bənzəyir... "Məxzənül-əsrar", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Həft peykər" və nəhayət "İskəndərnamə" şairin həyatının müxtəlif dövrləri və hər dövrdəki təbii meyl və istəkləri ilə sıx surətdə bağlıdır. Şair heç bir zaman özünü məcbur etməmişdir; işlədiyi mövzularla yaşadığı bədii və fikri həyat arasında tam bir mütənasiblik vardır. O, təbiət kimi təbiidir...

Nizami sənəti və fikri arasında təzad olmayan müstəsna bir şəxsiyyətdir. Onun sənət baxımından fövqəladə qüdrəti eyni dəyər və qüdrətə malik fikirləri ilə uğurlu bir ahəng təşkil edir.

Nizaminin ən parlaq xüsusiyyəti həyatsevərlik və eşqdir. Eşqi onun qədər qüvvət və sənətkarlıqla qələmə alan ikinci bir şair yoxdur. Onun coşğun ilhamına bu mövzu qədər uyğun bir mövzu olmamışdır. Onun misilsiz əsərlərində təsvir etdiyi eşq və həyat tablolarının böyüklük və gözəllik baxımından dünya ədəbiyyatındakı bənzərləri ara-

sında müstəsna yeri vardır. Nizami tablolarının təsir qüvvəsi zaman keçdikcə azalmır.

Şairdəki bu coşqun qüvvəni müasir bir təşbehlə izah etmək istəsək, Nizamidəki dinamizmi atom enerjisi ilə müqayisə edə bilərik: bu fərqlə ki, bu gün müəyyən qəlibə qoyulub istənilən istiqamətdə tətbiq edilmədiyindən yalnız dağıtmaq və yıxmağa yarayan atomun əksinə olaraq, Nizami özündəki dinamizmə qurucu bir istiqamət verə bilmiş, onu özündə mövcud olan, zühd, təqva və ideyallıq sayəsində müəyyən bir qəlibə sala bilmişdir.

Bir yandan təbiət qədər coşqun və sonsuz yaşama arzusu, o biri yandan da bu arzunu nikbin dünyagörüşünə uyğun bir istiqamətə yönəldə bilən yüksək inam və iradə - məhz bu iki ünsür Nizaminin fövqəladə sənətkarlığını doğurmuş və bizə təbiət qədər böyük və onun qədər qavranılmaz bir aləm bağışlamışdır.

Nizami məlum fəxriyyəsində sənətin qiyamətə qədər yaşayacağını söyləyir. Bu iddia orta əsr Şərq ədəbiyyatının klassik şəkilləri üçün mübaliğəli görünsə də, Nizaminin əsərləri üçün mübaliğəsiz həqiqətdir. Xüsusən formadan öncə məna güdən nizamilik bütün nikbinliyi ilə "İskəndər güzgüsçü"ndəki kimi İskəndər tablosunda əks etmiş və zərrə qədər əhəmiyyətini itirməmişdir. Nizami şairanə detallarla təsvir və peyğəmbəranə duyumlarla təsəvvür etdiyi ideal dünyanın əsas cizgilərini "İskəndərnamə"sində vermiş və ideal hökmdar tipini də İskəndərin simasında göstərmiş, böyük bir tablo yaratmışdır: İskəndər tablosu!.. Bu Nizaminin qüdrətli əli ilə işlənmiş möhtəşəm bir əsərdir. Bu əsərdə o, sənətkarlığının əsl qayəsi olan siyasi və sosial fikirlərinə yekun vurmuşdur.

Qədim bir keçmişə aid edilən bu tablo, şübhəsiz, şairin öz dövründən uzaq bir gələcək üçün olsa da, təsəvvür etmiş olduğu dünya quruluşu haqqındakı idealını əks etdirir.

Şairin böyüklüyü ilə geniş və hüdud bilməyən fantaziyası sayəsində canlandıqca canlanan bu ideal iztirablar içindlə boğulan müasir bəşəriyyətin heç cür tapa bilmədiyi idealın bir obrazı deyildirmi?

Sosial ədalət, siyasi stabillik və harmoniyaya susamış müasir bəşəriyyətin vicdanını narahat edən qorxunc reallıq və ümidlərini oxşayan yüksək fikirləri XII əsrin bu qızıl qələmli şairi nə nəqədr real, nə qədər canlı və nə qədər parlaq təsvir etmişdir! Deyilmi?!

İnsanlığın dəyərini özünə xas yüksək bir tərzdə anladan şair kainata hökm edə bilən kamil insan haqqındakı görüşləri ilə təbiəti ram etməkdə möcüzələr göstərən çağdaş insan tipi və qüvvətli şəxsiyyət idealına tərcüman olmamışdırmı?

Fərdi səadəti milli və bəşəri xoşbəxtlikdə və bir parçası olduğumuz cəmiyyətə faydalı olmaqda görən filosof Nizami ən müasir sosioloqi-

yanın gəldiyi nəticəyə hələ o zaman gəlməmişdirmi?

"Cənnət şəhər"in timsalında gördüyümüz kimi, Nizaminin maddiyyata deyil, mənəviyyata, nifrətə deyil, sevgiyə əsaslandırdığı ictimai quruluş sosial ədalətə susamış bügünkü bəşəriyyətin aradığı ideal nizam deyildirmi?

Dövlətin ictimai bərabərlik təmin etməyə, bilik və sevgi ilə idarə etməyə borclu olan bir ədalət orqanı olduğunu düşünən Nizami, müasirlərimizin can atdıqları təzadsız və sinfi çəkişmələr bilməyən, amirlik və istismara yol verməyən bərabərçi bir dövlət idealının müjdəsini yetirməmişdirmi?!

Nəhayət, millətlər arasındakı münasibətləri hansı böyük filosof Nizamidən daha yaxşı bir şəkildə təsəvvür etmişdir?

Bu təsəvvürə görə, millətlərə zülm və hökmlə deyil, mənəvi bir nüfuz ilə yanaşmaq və qəlblərinin yeganə tərcümanı olan dillərini vasitəsiz olaraq anlamaq lazımdır.

Dünya miqyaslı yaradıcılığı ilə cahan ədəbiyyatına ölməz şer tabloları ilə eşq, sədaqət, namus, inam və fədakarlıq obrazları bəxş edən, yüksək fəlsəfi düşüncə və kəskin siyasi görüşləri ilə insanlığın ən səmimi duyğularına və ən ülvi ideallarına tərcüman olan bu ilahi sənətkar bəşər mədəniyyətinin dahi bayraqdarıdır.

Ağılları mat qoyan bu qüdrət Nizami qəlbinin bütün telləri ilə bağlı olduğu ana yurduna və onun mədəni ənənələrinə borcludur. O, elinin, soyunun, yetişmiş olduğu mədəni mühitin oğludur. "Yunanlar dünyaya Homeri, farslar Firdovsini, italyanlar Vergilini vermişlərsə, biz də Nizamini vermişik" - deyə öyünən azərbaycanlılar haqlıdırlar.

Bəli, mədəniyyət tarixində özünə çox şərəfli bir yer qazanan bu misilsiz övladına Azərbaycan bütün varlığı ilə minnətdardır. Əsərlərində bunca ideallaşdırılan türklər də, şübhəsiz, türk Nizaminin böyük adı ilə fəxr edir, onun yüksək ruhunu rəhmət və minnətdarlıqla anırlar.

M.Ə.Rəsulzadənin Azərbaycan və dünya nizamişünaslığına bəxş etdiyi 227 səhifəlik bu dəyərli əsəri yalnız 50 ildən sonra - 1991-ci ildə "Azərnəşr" tərəfindən çap edilmişdir. Kiril əlifbası ilə buraxılmış əsərin latın qrafikası ilə də nəşrinə böyük ehtiyac var. Nizaminin anadan olmasının 860, onun haqqında vətəndən uzaqlarda yazılmış dəyərli monoqrafiyanın 60 illiyi qeydə layiq hadisələrdir.

**"Günay" qəzeti, 1 dekabr 2001.**

# VƏTƏN QAYĞILI, MİLLƏT DUYĞULU, TARİXƏ DÜŞMÜŞ PARLAMENTİMİZ

İnsan cəmiyyətinin keçmişini, maddi və mənəvi həyatının min illik təcrübəsini öyrənən tarixçilər son vaxtlar demokratiya - insanların öz-özlərini idarə etməsi, xalq hakimiyyətinin ən ali təzahürü olan parlamentarizm tarixinin öyrənilməsi sahəsində də diqqəti xeyli artırmışdır. Məlumdur ki, ictimai ümumxalq idarəçiliyi forması olan respublika antik dövrlərdə meydana gəlmişdisə, nümayəndəlik orqanı kimi yaradılmış ilk parlament yalnız 13-cü yüzillikdə İngiltərədə təşəkkül tapmışdı. Keçən 700 ilə yaxın bir müddət ərzində parlamentarizm böyük vuruşlara, qələbə və məğlubiyyətlərə uğrasa da təkmilləşmiş və dövrümüzün demokratik dövlətçilik sisteminin əsasını təşkil etməkdədir. Alimlər Birinci Dünya müharibəsindən sonra demokratik idarəçilik sistemli respublikaların sayının sürətlə artdığını və əsrin ikinci yarısında qlobal səciyyə daşıdığını xüsusi qeyd edirlər. Məsələn, onlar yazırlar ki, əgər 20-ci illərin əvvəllərində dünyada 29 demokratik hakimiyyət sistemli ölkə vardısa, əsrin 70-ci illərində onların sayı 65-ə çatmışdı. Qədəm qoyduğumuz 21-ci yüzillikdə demokratik və yarımdemokratik respublikaların sayı artıq 135-ə bərabərdir. Beləliklə, bəşəriyyət demokratiya, parlamentarizm yolu ilə irəliləməkdədir.

Maraqlıdır ki, "Demokratiyanın üç tarixi dövrü"nü tədqiq edənlər Birinci Dünya müharibəsindən sonrakı "demokratiya dalğası"ndan söhbət açarkən müsəlman Şərqində ilk demokratik xalq cümhuriyyəti olan Azərbaycvan XC-nin də adını çəkirlər, onun parlamentindən də danışırlar.

Məlumdur ki, 1918-ci ilin dekabr günlərində Azərbaycan parlamenti fəaliyyətə başlamışdı. Vətən qayğılı, millət duyğulu, cəmisi 17 aya yaxın bir dövrdə fəaliyyət göstərmiş Azərbaycan parlamenti çox mürəkkəb və çətin tarixi şəraitə baxmayaraq, öz tarixi vəzifəsini şərəflə yerinə yetirmiş və dünya demokratiyası tarixinə düşmüşdür.

* * *

1918-ci il dekabrın 7-də Bakıda Nikolayev küçəsində, H.Z.Tağıyevin qız məktəbinin (indiki Əlyazmaları İnstitutu) binasında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin ilk açılış mərasimi oldu. Azərbaycanın üç rəngli bayraqları və qiymətli xalılarla bəzədilmiş salona dövlət müstəqilliyimizin bərpası uğrunda uzun illər böyük səy, səbat

və qətiyyətlə çalışmış xalqın layiqli övladları toplaşmışdı. Nəinki binada və salonda, binanın ətraf küçələrinə yığışmış vətənsevərlər də bu tarixi hadisənin gedişini izləməkdə idi.

Müsəlman Şərqinin ilk demokratik cümhuriyyətinin qanunvericilik orqanı - parlamenti çox böyük çətinliklər və maneələr şəraitində fəaliyyətə başlayırdı. 1918-ci il noyabrın 10-da türk qoşunları Bakını və Azərbaycanın digər mahallarını tərk etmiş, noyabrın 17-də müttəfiq qoşunları general Tomsonun komandanlığı altında Bakıya daxil olmuşdular. Ermənilər və onların təbliğatına uymuş rusların böyük bir qismi yaranmış şəraitdən istifadə edib müstəqilliyi heçə endirmək istəyirdilər. İngilis generalı Tomsonla və müttəfiq qoşunları ilə Bakıya gəlmiş əksinqilabçı general L.Biçeraxov və onun dəstəsi yerli müstəqillik düşmənlərilə bərabər paytaxtda milli hökumətlə bağlı dövlət rəmzlərini təhqir edir, onun ləğv ediləcəyi barədə şayiələr yayırdılar. Qeyd edək ki, sonralar məlum olmuşdu ki, Bakıya daxil olan ingilis qoşunları sırasında ermənilər də varmış. Bunlardan biri Londonda nəşr olunan "Hayıstan" qəzetinin redaktoru Arşaq Safrastiyan idi. O, ingilis zabiti adı altında daşnakların agenti kimi fəaliyyət göstərirdi.

Azərbaycan istiqlalını elan etmiş Milli Şura, çox böyük səylə çalışan müvəqqəti hökumət Bakıda asayişi qorumaq, dövlət orqanlarını möhkəmlətmək, təsərrüfat həyatını bərpa etmək, düşmənlərin açıq və örtulu planlarını puça çıxarmaq üçün gecəli-gündüzlü çalışırdılar.

1918-ci ilin iyununda öz fəaliyyətini dayandırmış Milli Şura noyabrın 16-da yenidən toplandı. Noyabrın 20-də "Azərbaycan məclisi-məbusanın təsisi haqqında" qanun layihəsini müzakirə edərək təsdiq etdi. Bu qanuna görə Azərbaycan parlamenti 120 nəfərdən ibarət olmalı idi. Ölkədə yaşayan bütün xalqların, fəaliyyət göstərən siyasi partiya və ictimai təşkilatların nümayəndələri parlamentdə təmsil oluna bilərdilər. Dövrün statistik məlumatlarına görə Azərbaycan Cümhuriyyətinin ərazisində 2 milyon 750 min əhali yaşayırdı. Onlardan statistika göstərildiyi kimi 1 milyon 900 mini müsəlman, 500 mini erməni, 230 mini rus, yerdə qalan 120 mini isə azsaylı xalqların nümayəndələri idi. Qanunla hər 24 min əhalidən parlamentə bir vəkil seçilməsi qərarlaşdırılmışdı. Beləliklə, 120 yerdən 80-i müsəlmanlar üçün, 21-i ermənilər, 10-u ruslar, alman və yəhudilərə - hərəsinə 1 yer ayrılmışdı. Bundan başqa sayca çox az olan gürcü və polyakların da hərəsinə 1 yer ayrılması qərara alınmışdı. Göründüyü kimi, parlamentin tərkibinin ədalətli, demokratik və həm də milli mənafe baxımından düzgün təşkili nəzərdə tutulmuşdu.

Dekabrın 7-də işə başlayan Azərbaycan parlamentinin ilk iclasını

erməni, rus və həmkarlar təşkilatının vəkilləri baykot etdilər. Azərbaycan parlamentinin ilk iclasını Milli Şura sədri M.Ə.Rəsulzadə açdı və tarixi bir nitq söylədi. O, "vətən qayğılı, millət duyğulu" parlament yaratmağın vacibliyindən danışdı. Millət vəkilləri İstanbulda gərgin diplomatik fəaliyyət göstərən Ə.M.Topçubaşovu parlamentin sədri seçdilər. Amerika tarixçisi F.Kazımzadənin "Parlamentin prezidenti seçilən Ə.M.Topçubaşov yüksək təhsilli hüquqşünas, öz görüşlərində dözümlü, məhdud millətçilikdən uzaq şəxs" kimi səciyyələndirdiyi bir siyasət və dövlət xadiminin bu vəzifəyə seçilməsi mühüm addım idi. İlk iclasda müvəqqəti hökumətin hesabat məruzəsi ilə F.X.Xoyski çıxış etdi. Məruzə geniş müzakirə olundu.

Bütövlükdə öz 17 aylıq fəaliyyəti dövründə parlamentin 145 iclası keçirilmişdir. Müzakirəyə 270-dən yuxarı qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını təsdiq edilmişdir. Parlamentin fəaliyyəti bilavasitə onun Nizamnaməsi rolunu oynayan "Azərbaycan parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi.

Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq, milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, beynəlxalq miqyasda müstəqil Azərbaycanın tanınması və s. tarixi vəzifələrin həyata keçirilməsi sahəsində ilk parlamentimizin fəaliyyəti tariximizin zəngin dövrü, səhifələridir.

Azərbaycan parlamentinin açılışına həsr etdiyi və "Azərbaycan" qəzetinin dekabrın 9-u nömrəsində dərc olunmuş geniş əhatəli "Təəssürat" sərlövhəli məqaləsində böyük və ilahi qələm ustası Üzeyir bəy yazırdı ki, "Xudavəndi-aləm hər yerdə istibdad varsa evini yıxsın!" Gəlin biz də 83 ildən sonra da olsa "Amin!" deyək, dövlətçiliyimizi bərpa edib bizə müstəqillik yolu açan və göstərənlərə şükranlığımızı bildirək!

**"Günay" qəzeti, 8.XII.2001**

## *1986-cı il, 17 dekabr. Alma-Ata hadisələri*

## BAKIDA ƏKS-SƏDA

Vidalaşdığımız 20-ci yüzilliyin 80-ci illəri Rusiya və dünya tarixinə sosializmin bir sistem, kommunizmin bir ideologiya kimi gücdən və qüvvədən, nüfuzdan və gözdən düşməsi dövrü kimi daxil olmuşdur. Uzun illər hakimiyyətə yiyələnmiş partiya nomenklaturasının qərargah üzvlərinin böyük əksəriyyəti ixtiyarlaşmış, əldən düşmüş xəstə hakimiyyət hərislərindən ibarət idi. Əvvəlcə 18 il dəbdəbəli həyat çürən,



***Şəkildə sağdan: Nurəddin Rzayev, Xudu Məmmədov, Bəxtiyar Vahabzadə, Ziya Əsədoı, Şirməmməd Hüseynov, Oljas Süleymenov, İlham Rəhimli, Şahmar Əkbərzadə, Gülzar Vahabzadə***

sinəsini qəhrəmanlıq nişanları, orden və medalları ilə bəzəyən, dünyada mövcud minik maşınlarını toplamaq azarkeşi kimi tanınan Brejnev, ardınca onun kürsüsünə yiyələnmiş 1956-cı il macar hadisələrinin "qəhrəmanı", tanınmış çekist Andropov, qısa bir müddətdən sonra uzun illərin xəstəsi, yeni baş katib Çernenko dünyalarını dəyişdilər. Ölkə işə durğunluq və sistemli böhran içərisində çabalayırdı. Beynəlxalq miqyasda kommunist hərəkatı və sosializm cəbhəsinin ağır yükünü daşımağa, Əfqanıstanda təcavuzkarlıq müharibəsinin başa çatdırılmasına nə ölkənin və xalqın, nə də sistemin artıq heyi qalmamışdı. Belə bir mürəkkəb şəraitdə Mixail Qorbaçov hakimiyyətə gəldi. Yenidənqurma, aşkarlıq, iqtisadi islahatlar, antialkolqol kampaniyası, sosializmə insançı-

lıq və demokratik səciyyə vermək və s. günün şüarlarına çevrildi. Qorbaçov da özündən əvvəlkilərin təcrübəsinə sadiq qalaraq dost və aşnalarını ətrafına yığmağa başladı. 1986-cı ilin dekabrında növbə Qazaxıstana, respublikaya uzun müddət başçılıq etmiş və qazaxların az-çox rəğbətini qazanmış D.Kunayevə çatdı. Qorbaçov qazax Kunayevin yerinə, rus Kolbini göndərdi. Bu vətənpərvər qazax gəncləri və ziyalılarının ciddi narazılıq və etirazına səbəb oldu. 1986-cı il dekabrın 17-də Alma-Atada - şəhərin baş meydanında böyük bir etiraz mitinqi toplandı. Mitinq vəhşicəsinə dağıdıldı. Yüzlərcə gənc həlak oldu, yaralandı, kütləvi həbslər, qarayaxmalar, böhtan və iftiralar başladı. Bununla yanaşı xarici radiolar Alma-Ata hadisələri barədə rəsmi Moskvadan və sovet kütləvi informasiya vasitələrindən fərqli xəbərlər və şərhlər verirdilər. Rəsmi dairələrin ən güclü hücumuna məruz qalanlardan biri tanınmış yazıçı, alim və publisist Oljas Süleymenov idi.

Alma-Ata hadisələri ittifaq və onun xaricində çox ciddi əks-sədaya səbəb oldu; mən də siyasi icmalçı kimi bildiklərmi, mülahizələrimi əqidə və məslək dostlarımla bölüşürdüm. Onlardan birincisi milli istiqlal şairimiz Bəxtiyar Vahabzadə idi.

"17 dekabr" şeri necə yarandı? B.Vahabzadə:

"Mən deyərdim Sovet imperiyasının sarsılması 1986-cı il dekabr ayının 17-də Alma-Ata etirazından başladı. Həmin il Qazaxıstanda Kunayevin yerinə rus çinovniki Kolbinin təyin olunmasına qazax millətinin etiraz mitinqi artıq bu imperiyanın sarsılmasının ilk xəbərçisi oldu. Həmin gün mən uşaqlıq dostum, jurnalist, professor Şirməmməd Hüseynovla görüşdüm. Mənim rejimə qarşı yazdığım bir sıra əsərlərin - o cümlədən "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət", "Dan yeri" və s. yazılmasının səbəbkarı Şirməmməd müəllim olmuşdur (daha doğrusu, mövzusunu o seçmişdir).

Görüşdüyümüz gün Şirməmməd müəllim Alma-Atada baş verən hadisədən ağız dolusu danışıb "İndi mən bu hadisəni qələmə ala bilən bir oğul istəyirəm" - deyə üzümə baxdı.

Mən ona: "Sən mənim bir neçə əsərimin yaranması üçün əlimə tutalqa vermisən, indi bu hadisənin də qələmə alınması üçün əlimə bir dəstəvuz ver. Gör necə yazıram" - deyincə, o, əlini cibinə salıb pasportunu çıxartdı. Baxdım ki, 17 dekabr onun ad günüdür.

Bununla 17 dekabrda baş vermiş Alma-Ata hadisəsini qələmə almaq üçün ayağım altına qoyacağım dayağı tapdım. Həmin axşam "17 dekabr" adlı şer yarandı. Şirməmməd Hüseynova həsr olunan bu şer belə başlayır:

*On yeddi dekabr... sənin ad günün,*
*Hərənin bəxtinə bir ulduz düşür.*
*Həm də tapmacadır yolu hər ömrün*
*Sönmüş bir ocağa birdən köz düşür.*
*...İllər yaxşı gəlir biri-birindən,*
*Küllər çözələnir od hənirindən.*
*Sənin ad günündə gördünmü birdən*
*Qaranlıq üfüqdə çaxan şimşəyi*
*Həmişə zamanın lal axarından*
*Gözlə fırtınanı, gözlə çox şeyi.*
*Həmin o fırtına döndərib yönü*
*Başqa bir dövranın olar ad günü.*

*...Vaxtın axarında sular durulur,*
*Gerçək gül açanda solur riyalar.*
*Bir anın içində uçub məhv olur,*
*Yüzillik, minillik imperiyalar.*
*Bu gün yetişdiyin pilləni qardaş,*
*Təbrik eləyirəm elə indidən*
*Sabahkı gün ilə səni qardaş.*

Bu şer 3 gündən sonra "Kommunist" qəzetində çap olundu. Şeri oxuyan bir neçə həmfikrim, o cümlədən yaxın dostlarım Nurəddin və Xudu məndən gülə-gülə soruşdular: "Şirməmməd müəllim doğrudan 17 dekabrda anadan olub, yoxsa bu da sənin növbəti qalxanındır? (B.Vahabzadə, "İstiqlal", V.1999, səh.68-70)

1987-ci ilin noyabrında Oljas Süleymenov Bakıya gəlmişdi. SSRİ Ali Sovetinin deputatı, dünyaca tanınmış görkəmli qazax yazıçısı və siyasi xadiminin Azərbaycana səfəri, onun qardaş respublikanın milli istiqlal düşüncəli ziyalıları ilə görüş və söhbətləri faydalı və yadda qalan idi. B.Vahabzadənin mənzilindəki fikir mübadiləsində Oljas "17 dekabr" şeri barədə də çox böyük rəğbətlə danışdı, razılığını bildirdi. X.Məmmədov, N.Rzayev, Ş.Əkbərzadə, İ.Rəhimli, sonralar X.Rza, İ.Şıxlı və b. iştirak etdikləri görüşlərmiz də oldu.

Təsadüfi deyildi ki, 1990-cı ilin 20 Yanvar faciəsinə qarşı yüksək hakimiyyət tribunasından öz güclü etiraz səsini bildirənlərdən biri məhz Oljas Süleymenov oldu. O, faciədən sonra Bakıya da gəlmişdi. Qeyd edim ki, 1990-cı ilin mayında Qazaxıstan Dövlət Universitetinin dəvətilə həmkarlarım professor F.Mehdi və dosent N.Əhmədli ilə bir-

likdə mən də Alma-Atada oldum. Hadisələrin iştirakçıları ilə görüşdük, ətraflı məlumat topladıq, meydanı ziyarət etdik.

Qeyd edim ki, Oljas Süleymenov 1999-cu ilin mayında yenidən Bakıya gələndə B.Vahabzadənin adı çəkilən şeri və Azərbaycan ziyalılarının qardaş qazax xalqı ilə həmrəyliyi ilə əlaqədar Romadan xalq şairinə xüsusi təşəkkür məktubu da göndərmişdi. Həmin məktubun mətni ilə oxucuları tanış etmək istəyirəm.

"Əziz müəllim! Qəzet vasitəsilə Sizin məktubunuzu, uzaqgörən şerinizi və Şirməmməd müəllimin ürəkdən gələn şərhini alıb oxuyanda çox sevindim. Bütün bunlar mənə 87-ci ilin noyabrında görüşümüzü xatırlatdı:

***"Bir anın içində uçub məhv olur***
***Yüzillik, minillik imperiyalar".***

Bu misralarınızı dəfələrlə təkrar oxudum. Qazax gənclərinin 1986-cı ildəki məğzi etibarilə SSRİ-də ilk demokratik aksiya olan dekabr etirazlarının əhəmiyyətini Sovet İttifaqında heç bir şair belə ucadan və aydınlıqla deməmişdi.

O vaxtdan çox sular axıb. Amma tarixi hadisələrin coşğun axarında belə alnında "birincilik" nişanəsi olanlar itib-batmır. Belə hadisələrə 86-cı ilin dekabr Alma-Atası kimi, 90-cı il Bakısının yanvarı da aiddir.

Ümid edirəm ki, zamanın bu axarında sevincli, zəfərli günlər də qabarıq görünəcək.

Bu yaxınlarda sizi və Bakıdakı başqa dostlarımı görməkdən çox məmnun qaldım. Heydər Əliyevlə görüş məndə xoş ovqat yaratdı. Allah onu salamat eləsin. Onunla görüşdən sonra Azərbaycanın çətinliklərin öhdəsindən gələcəyinə məndə dərin inam yarandı.

Bir daha Sizi, yaxınlarınızı, Şirməmməd müəllimi bərk-bərk bağrıma basıram.

Oljas Süleymenov, İtaliya, Roma, may 1999-cu il".

Dekabr hadisələrindən 15 il keçir. Azərbaycan kimi qardaş qazax xalqı da istiqlalına qovuşmuş, müstəqillik həyatını yaşamaqdadır. Dost və qardaş respublikada 17 dekabr fədailərini rəğbətlə anır, onların xatirəsini əziz tuturlar. Biz də öz növbəmizdə bu günü xüsusi qeyd etməyi özümüzə borc bilirik.

***"Günay" qəzeti, 15 dekabr 2001.***

## ƏSRİN İKİNCİ İLİ VƏ BƏŞƏRİYYƏTİN ARTIM PROBLEMİ

Təkcə günlər, həftələr və aylar deyil, hətta illər də sürətlə ötür. Bu təsəvvürü elmi-texniki tərəqqi, yeni kəşflərin istehsala tətbiqi müddətinin qısaldılması, insan zəkası və təxəyyülünü heyrətə salan yeni texnologiyanın nailiyyətləri yaratmaqdadır. Vaxtilə ucsuz-bucaqsız hesab etdiyimiz yer kürəsi sən demə səmaya nisbətlə o qədər də böyük və nəhəng deyilmiş. Alimlərin hesablamalarına görə fəzada milyardlarla səma səyyarələri mövcuddur. Müəmmalı qalan yer kürəsindən başqa digər planetlərdə canlı varlıqların olub-olmaması problemidir. 50-60-cı illərdə kosmosun fəthində sovetlərə uduzan amerikalılar, digər planetlərdən yer kürəsinə gələ biləcək "qonaqları" ilkin qarşılamaq və onlarla əlaqə yaratmaq üçün xüsusi nəhəng meydança belə hazırlamışdılar. Gecəli-gündüzlü 240 iri projektorlar meydanda yeri-göyü işıqlandırırdı. Hələlik söhbət rəvayət və təsdiq olunmamış fərziyyələrdən o yana getməmişdir. Deməli, canlı həyat hələlik yer kürəsindədir. Nə vaxtdan? Necə? Bu barədə də mülahizələr çoxdur, müxtəlifdir. Görünür, ya yaradan bizə bu sirri açmaq qabiliyyəti və imkanı verməmişdir, yaxud hələlik bu mümkün olmamışdır.

Mütəxəssislərin ən son təxmini hesablamalarına görə, insanın varlığının milyon illəri ərzində dünyaya 100 milyarda yaxın insan gəlib-getmişdir. Eramızdan bir min il əvvəl planetin sakinlərinin sayının 100 milyon olduğu təxmin edilir. Eramızın birinci ilində bundan iki dəfə çox, XVII əsrin ortalarında isə bu rəqəm 500 milyona çatmışdır. İlk milyard 1804-cü ildə qeydə alınmışdır. Dünyanın müxtəlif yerlərində əhali nə vaxtdan rəsmi surətdə siyahıya alınmağa başlayıb? Yazırlar ki, Qədim Babilistanda, sonra Romada siyahıya alınma təcrübəsi məlumdur. Yeni Fransada - Kvebekdə (Kanada) 1665-ci ildə siyahıya alınma keçirilib. "Demoqrafiya" (yunanca "demos" - xalq, "qrapho" - yazmaq) termini də ilk dəfə fransız Aşil Qiyar tərəfindən elmi ədəbiyyata gətirilmişdir. ABŞ-da əhalinin ilk siyahıya alınması 1790-cı ildə, bundan 30 il sonra İtaliya, İspaniya, Fransa və İngiltərədə, 1851-ci ildə Çində, 1861-ci ildə Rusiyada həyata keçirilib.

Məhsuldar qüvvələrin sürətli artımı, elmi-texniki yeniliklər, tibbi sahədki faydalı axtarışlar və nəticələr artımın sürətlənməsində böyük rol oynamışdır. Bununla yanaşı bu sahəyə dair elmi axtarışlar və proqnozlar da irəli sürülməyə başlanmışdır. Bunların sırasında məşhur ingilis keşişi Tomas Robert Maltusun adını xüsusi olaraq çəkirlər. 1798-ci ildə 32 yaşlı Maltus məxfi təxəllüslə "Əhali qanunu barədə esse"

(ruscası - "Эссе о законе народонаселения") əsərini nəşr etdirmişdi. Maltusa görə adamlar bioloji xüsusiyyətlərindən asılı olaraq həndəsi silsilə ilə, yaşayış vasitələrinin miqdarı isə yalnız ədədi silsilə ilə artır. Maltusun "Əbədi təbii əhali qanunları" və "Torpağın münbitliyinin azalması qanunu" uzun müddət inkar edilsə də indi qlobal şəkildə demoqrafik böhrandan "demoqrafik partlayış"dan söhbət açanlar müəyyən problemlərdə Maltusu xatırlamalı olurlar. İlk milyarddan 123 il sonra dünya əhalisinin sayı 1927-ci ildə 2 milyard, bundan 33 il sonra - 1960-cı ildə 3 milyard, 14 il sonra - 1974-də 4 milyard, 13 il sonra - 1987-də 5 milyard, 12 il sonra - 1999-da 6 milyarda çatdı. Bəs proqnozlar necədir? BMT-nin hesablamalarına görə XXI əsrin axırlarında dünya əhalisinin ümumi miqdarı təxminən 10,7 milyard nəfərə çatacaq. Qərbi Avropa və ABŞ-ın demoqrafları isə 12 milyarddan söhbət açırlar, həm də qitələr üzrə proqnozlar belədir: 50 ildən sonra Asiyada 5 milyard, Afrikada 2 milyard, ABŞ və Latın Amerikasında 1 milyard, Avropada isə 600 milyon əhali yaşayacaqdır.

Bəs yer kürəsinin bu qədər əhalini yaşatmaq, ərzaqla, su ilə təmin etmək imkanları necədir? Alimlərin mülahizələrinə görə planetimizin 12 milyarda qədər insanı yaşatmaq imkanı var. Lakin daha optimist rəy söyləyənlərə də rast gəlmək olur. Onların hesablamalarına görə bütün planetin imkanlarından maksimum istifadə olunarsa, Amerika standartları ilə 47, yapon standartları ilə 157 milyard insanı yaşatmağa yerin gücü çatacaqdır, rus alimi S.P.Kapitsa 15-25 milyard rəqəmini göstərir.

Bizim günlərimizdə demoqrafiya problemlərilə məşğul olan mütəxəssislərin diqqət verdikləri digər bir məsələ yaşlılıq problemidir. Hazırda dünya əhalisinin 30 faizini uşaqlar, 10 faizini isə yaşlılar təşkil edir. BMT-nin hesablamalarına görə, planetimizin 80 yaşdan yuxarı 66 milyon sakini var, 50 ildən sonra bu rəqəm 400 milyona çata biləcək. Deməli, bəşəriyyət qocalmağa meyllidir, hətta planetin 100 yaşlı sakinlərinin sayının 2,2 milyona çatacağı da qeyd olunur.

Qədəm qoyduğumuz XXI yüzillikdə dünya əhalisinin yarısı şəhərlərdə yaşayır. Bu prosesin gələcəkdə də davam edəcəyi təxmin olunur. Bu isə çox ciddi problemlər yaradır.

Məşhur rus alimi S.P.Kapitsa 1998-ci ildə nəşr olunmuş "Yer kürəsi əhalisinin artım nəzəriyyəsi" ("Теория роста населения земли") əsərində Rusiyada söhbət gedən problemlərlə bağlı maraqlı və bəzən də həyəcan təbilli mülahizələrə, faktlara da yer verir. Hazırda Rusiya Federasiyasında hər min nəfərə anadan olanların sayı 9, ölənlərin isə sayı 16 nəfərdir. Əgər belə getsə RF əhalisinin miqdarı 150 milyon-

dan 2050-ci ildə 120 milyona enə bilər. Beləliklə də dünya dövlətləri içərisində əhalisinin sayına görə indiki 7-ci yerdən 14-cü yerə düşər.

Demoqrafiya problemlərilə çox ciddi məşğul olan beynəlxalq mərkəzlər, qurumlar fəaliyyətdədir. İnkişaf etmiş ölkələri birləşdirən Roma klubu bu sahədə iri həcmli sosial, iqtisadi elmi-tədqiqat problemlərinə həsr olunmuş yığıncaqlar keçirir. "Artımın sərhədləri", "Bəşəriyyət seçim qarşısındadır", "Beynəlxalq qaydalara yenidən baxılması", "Dünya xərçəng xəstəliyinə tutulub, bu xərçəng - insandır" və s. bu qəbildəndir.

Başı gündəlik probleminə qarışan bizlərin ümumbəşəri problemlər barədə düşünməyə imkanı və vaxtı qalmır. Amma ölkəni idarə edənlərin, torpağımızın təbii sərvətlərindən insafsızcasına istifadə edənlərin, ərazilərimizin itirilməsinə laqeydlik göstərənlərin, millətin gələcəyilə bağlı qlobal məsələlərə diqqət vermələri vacibdir. Çünki söhbət gələcəkdən, minillərdən, var olub-olmamaqdan gedir.

**"Günay" qəzeti, 5 yanvar 2002.**

M.Ə.SABİR – 140

## QAFQAZ-TÜRK XALQ ŞAİRİ

Tarix və elm - birlikdə faydalı, ibrətamiz olur. Ulularımızın hökmü - rəbbani hesab etdikləri tarix elmi bəzək-düzəyi, saxtakarlıq və məddahlığı, sifarişi sevmir. Onun əsas və dəyişməz meyarı həqiqətdir. Bu baxımdan müstəmləkəçilik dövrünün siyasət gömrükxanasından keçirilmiş əsərlərə, ədəbiyyata elmi obyektivlik meyarı ilə yenidən baxmaq, saf-çürük etmək zərurəti duyulmaqdadır. Bu yaxşıları inkar etmək demək deyil. Görülmüş çox böyük faydalı işləri, əsərləri layiqincə qiymətləndirmək vacibdir. Amma yenidən öyrəniləsi, tədqiq olunası və üzə çıxarılası hadisələr, problemlər, məsələlər, şəxsiyyətlər də az deyil.

Tariximizin iftixar səhifələri, hadisələri ilə yanaşı, təəssüf ki, obyektiv və subyektiv səbəblər üzündən utancverici səfihələri də vardır. Bunların da haqqında danışmaq, köklü səbəblərini araşdırıb üzə çıxarmaq vacib və lazımdır. Ədəbiyyat tarixində misli-bərabəri olma-

yan, "öz xidmətinin mükafatını ölüncəyə qədər ancaq vicdanından alan", "ədəbiyyatımızda əzim bir inqilab vücuda gətirən", "müqəddəslik və paklıq timsalı" Mirzə Ələkbər Sabir irsinə ilkin münasibət belə utancverici vaqelərdən biridir. 17 aylıq əzab-əziyyətdən sonra böyük istedad və hünər sahibi M.Ə.Sabirin ilk kitabçasının hazırlanması və nəşri işini uğurla başa çatdırmış onların bizlərə dərs olsun deyə "Hop-hopnamə"nin 90 il bundan əvvəlki ilk nəşrinə müqəddimə əvəzinə "Sabirə nəzirə" sərlövhəli tarixi bir ibrət sənədi yazmışlar. Bu müqəddiməni indi də həyəcansız oxumaq olmur. Amma, oxumaq özü də bizim günlərimizdə diqqətlə oxumaq lazımdır. Çünki, deyəsən, həmin cəmiyyətə, həmin əxlaqa qayıdırıq.







Dilimizin əzbəri, xalqımıza başucalığı gətirən Mirzə Ələkbər Sabirə "xalq şairi" adını rəsmi dairələr deyil, həqiqətən oxucular, onun ecazkar poeziyasının, pak və müqəddəs şəxsiyyətinin pərəstişkarları vermişlər. 1914-cü ildə çox böyük əzab-əziyyət, uzunmüddətli kampaniya nəticəsində Sabirin əsərlərinin az-çox tam külliyyatını nəşr etmək mümkün oldu. İşıq üzü görmüş 337 səhifəlik "Hophopnamə"nin arxa üzündə rus dilində dərc olunmuş titul listində oxuyuruq: "Хоп-хопнаме". Полное собрание стихотворений Кавказко-тюрского народного поэта Сабира Таирзаде. Издательница: Ханума Таир-заде, 2-ое полное издание Баку Типо-литография "Каспий" Иса-бека Ашурбекова 1914 года.

Cəmi 49 il il məşəqqətli bir həyat sürmüş Sabirə öz sağlığında "Hophopnamə"ni görmək səadəti müyəssər olmamışdı. Lakin bu işi görə biləcək dostlarına onu vəsiyyət etmişdi. Bunların içərisində 10 il müddətində (1901-1911) əqidə və məslək dostluğu etdiyi vətənpərvər

ziyalı, şair və həkim Abbas Səhhət birinci sırada dururdu. Sabirin pərəstişkarları içərisində Cəlil Məmmədquluzadə, Mehdibəy Hacınski, M.Mahmudbəyov və b. adlarını çəkmək olar.

1922-ci ildə "Hophopnamə" üçüncü dəfə daha geniş və əhatəli şəkildə nəşr olundu. Həmin il noyabrın 6-da Bakıda Sabirin abidəsinin təntənəli açılış mərasimi keçirildi. Lakin bu mərasimə Sabir yaradıcılığına, onun ilham atının çapmasına meydan açan "Molla Nəsrəddin" məcmuəsinin yaradıcısı və redaktoru Mirzə Cəlili dəvət etməyi "unutmuşdular".

Azərbaycanda Sabirşünaslıq elmi-tədqiqat məktəbi mövcuddur. Onun əsərlərinin ana dilində nəşr olunmuş nümunələri M.F.Axundov adına Respublika kitabxanasının Azərbaycan kitab arxivi şöbəsində saxlanılır. Ərəb, latın, kiril əlifbalarında çap olunmuş bu nəşrlərin sayı 50-yə yaxındır. Sabirin əsərlərinin son nəşri 10 il bundan əvvələ 1992-ci ilə aiddir. M.Ə.Sabirin əsərləri bir çox xarici dillərə tərcümə olunmuş və nəşr edilmişdir.

Bu il böyük xalq şairimiz M.Ə.Sabirin anadan olmasının 140, "Hophopnamə"nin ilk nəşrinin 90 illiyi tamam olur. Düşünürəm ki, "Günay" qəzeti bu münasibətlə Sabirşünasların yazılarına xüsusi yer ayıracaq, Sabir irsinin öyrənilməsi sahəsindəki yeniliklərlə öz oxucularını tanış edəcəkdir. İndi isə 1912-ci ildə İsabəy Aşurbəyovun "Kaspi" mətbəəsində 2000 tirajla 104 səhifə həcmində nəşr olunmuş Sabirimizin ilk "Hophopnamə"sinin müqəddəməsi, bu müqəddəmədə "Mərdanə xanım" adlandırılan böyük dramaturqumuz Nəcəfbəy Vəzirovun qızı Sara xanım Vəzirzadənin "Yeni İrşad" qəzetində dərc olunmuş məktubunu oxuculara təqdim edirəm. Sara xanım M.Ə.Sabirin əsərlərinin nəşri üçün ilk maddi yardım göstərən qeyrətli vətən qızı idi.

## MÜQƏDDİMƏ ƏVƏZİNƏ "SABİRƏ" NƏZİRƏ

Keçən il iyul ayının 12-də "Milli şairimiz" Sabir əfəndi vəfat etdi. Onu diriltmək üçün nə qədər millətdən himmət (səy) istədiksə, heç bir səs çıxmadı.

Dəfə ilə yazıldı. Yalvarıldı ki, ay canım! Ay millət, ay cəmiyyət, axır bu biçarə Sabirin əsərləri otaq künclərində siçanlara yem olur. Çap etmək lazımdır. Heç bir kəsdən cavab çıxmadı. Axırda bir Mərdanə xanımdan 5 manat gəldi ki, "bu beş manatı Sabirin əsərlərini çap olmaq üçün fond edin, bəlkə kişilər də himmətə (qeyrətə) gələ". Bu xanım pey-

rəvi (ardıcıl) olmaq üçün Sabirin əsərlərinə mənəvi mənfəətbərdar olan müəllimlərdən 15 manat əvvəlki 5 manata ilhaq oldu. Neçə aylar keçdi. Deyəsən millət, camaət lal oldu. Ya kisəsi möhürləndi. Bir kəsdən səs çıxmadı. Yenə rus, müsəlman qəzetələrində bəlkə də firəng qəzetələrində qışqırıq, bağırıq çıxdı ki, Sabirin əsərləri çap gərək olsun, para lazımdır. Bir şey olmadı. Bir azdan sonra 1 nəfər "ali himmət" cavan çırmanıb ortaya çıxdı ki, heç kəsdən iyanə, himmət lazım deyil, mən öz xərcim ilə Sabirin əsərlərini çap edəcəyəm. Tezcə əsərləri gətirin. Biz də sevindik, tezcə simsiz teleqraf ilə Sabirin rəfiqi Səhhətə xəbər verdik ki, nə durmusan tezcə özün də gəl. Sabirin əsərlərini də gətir ki, birdən bəlkə "sahibi-himmət" cavanımız peşiman oldu. O biçarə gəldi. Sabirin əsərlərini də gətirdi. "Himmətli cavanımız" Bakıdan yox oldu. Tamam şəhər arandı. Gəzildi, bu cavandan bir nişan verən olmadı.

Sabirin rəfiqinə dedik ki, "aşna, necə gəlmisən, öylə də Şamaxıya get, sonra biz işə düşərik, deyərlər ki, filan "himmətli cavanın" yox olmağına səbəb siz olmusunuz".

Nə isə bu yayda Dilican yaylağında bir-iki müəllim erməni xanımları vasitəsilə bir müsamirə düzəldib Sabirin əsərlərini çap etmək üçün bir qədər pul cəm elədi. Biz də qabaqkı, 20 manat və Dilicandan gələn 100 manat pul ilə çoxdan arzu elədiyimiz əsərlərin birinci hissəsini çap etməyə şüru etdik.

Əgər bu kitabı alıb oxuyan olsa, onda qalan hissələri də çap olacaq və ilax... Lənət heçə!

**"Hophopnamə", Bakı 1912, səh.2-3**

## MİRİ - URFANPƏRVƏR
## (BİLİKSEVƏRLƏR BAŞÇISI)

**Müdir əfəndi!**

Möhtərəm "Kaspi" qəzetəsində "Mehdibəy" imzalı, şairi-şəhirimiz (məşhur şairimiz) Sabir əfəndi haqqında bir məqalə dərc olunmuşdu. Məqalədə müşarulileyh (yuxarıda adı çəkilən) Mehdibəy cənabları mərhum Sabirin əsərlərini çap etmək təklifini etmişdir. Böylə ki, əsərlərdən cəm olunmuş pul mərhum Sabirin ailəsinə məsrəf olunsun. Özümə borc bildim ki, öz aldığım məvacibimdən 5 manat xidmətinizə göndərib, rica edəm ki, bu az məbləği gələcəkdə Sabirin əsərlərini çap olmaq üçün



cəm olan sərmayəyə (fonda) daxil edəsiniz. Və bunilə bərabər ümid edirəm ki, sahibi-sərvət qardaşlarım və bacılarım Sabirin bizim həqqimizdə çəkdiyi zəhamətini (zəhmətlərini) yaddan çıxarmıyıb onun yadigarına olaraq əsərlərini çap etdirələr. Tainki, həm millətimiz o əsərlərdən bəhrəmənd olub, həm də o mərhumun övrətinə bir iyanə olunsun".

Bakıda ikinci şəhər rus-müsəlman ünas məktəbinin müdirə və nazirəsi:

**Sara xanım VƏZİRZADƏ**
*"Yeni İrşad" qəz., 28 avqust 1911, N1*

**"Günay" qəzeti, 12 yanvar 2002.**

## ELMƏ ZİDD QÜVVƏLƏR BƏŞƏRİYYƏTİ YENƏ DƏ TƏHDİD EDİR

Sənayeləşmə, elmi-texniki inqilab, indi də informasiyalı cəmiyyət. Bəşəriyyətin son bir neçə əsrdə keçdiyi inkişaf və tərəqqi yolu bu cür səciyyələndirilir. Bu tarixi prosesin hərəkətverici qüvvəsi kimi ilk növbədə elm və təhsil göstərilir.

Məlum həqiqətdir ki, elmin yolu heç vaxt hamar olmamışdır. Həmişə elmlə bərabər avamlığa, sadəlövhlüyə, fanatizm və xurafata uyğunlaşan yalançı elm, elmə zidd qüvvələr də fəaliyyət göstərmiş, həqiqi elm və tərəqqinin yolunu kəsməyə çalışmışlar.

Elmə və təhsilə laqeydlik - tənəzzül əlamətidir. Bu qlobal həqiqət indi də qüvvədədir. Təsadüfi deyil ki, ABŞ kimi dünyanın ən inkişaf

etmiş fövqəldövləti qədəm qoyduğumuz XXI yüzillikdə də təhsil problemini ön plana çəkmişdir. Prezident Buş yaxın 10 il ərzində ABŞ təhsil sistemini modernləşdirmək üçün bir trilyon 300 milyard dollar həcmində vəsait ayrılmasını nəzərdə tutan proqram hazırlamışdı. ABŞ-da yalançı elm və elmə zidd qüvvələrin geniş əl-qol aça bilməməsinin əsas səbəblərindən biri də məhz budur.

Məşhur amerikalı sehrbaz, televiziyada elmi-kütləvi verilişlərin aparıcısı Ceyms Rendo hər hansı bir parapsixoloji, ekstrasensor hadisəni tamamilə aydın, aşkar surətdə və birmənalı nümayiş etdirən şəxsə 10 min dollar mükafat verəcəyini elan etmişdir. Mükafat telepatlara, gələcəyi söyləyə bilən adama, levitasiya nömrəsi (heç bir texniki qurğu olmadan adamı havaya qaldırmaq), telekinez hadisəsi (əşyanı fikrin gücü ilə yerindən tərpətmək) göstərənə, ruhlarla danışana, yaxud əllərlə cərrahi əməliyyat aparanlara, bir sözlə, elm və sağlam düşüncənin qəbul edə bilmədiyi hadisələri göstərənlərə də şamil edilirdi. Mükafat almağın yeganə şərti hadisəni elmi eksperiment şəraitində əyani və birmənalı nümayiş etdirməkdən ibarət idi. Problemlə maraqlanan 260 nəfər kənar şəxs və təşkilatlar da Rendonun təşəbbüsünə qoşulmuş, mükafatın miqdarı 1 milyon dolları ötüb keçmişdi. Hələlik heç kim göstərilən şərtlə fövqəladə qüvvəsini nümayiş etdirməyə cürət etməyib.

Keçən ilin sonunda Moskvada "Elm, yalançı elm və mənasız etiqadlar" (Наука, антинаука и паранормальные верования) mövzusunda beynəlxalq simpozium keçirilmişdi. Dünyanın bir sıra iri inkişaf etmiş ölkələrində, o cümlədən ABŞ, Almaniya, Fransa, İngiltərə, İtaliya və b. gəlmiş görkəmli alim və mütəxəssislərin iştirak etdiyi məclisdə elmə zidd qüvvələrin son vaxtlar fəallaşması və bəşəriyyəti yenidən təhdid etməsi ilə əlaqədar, görülməsi vacib olan problemlər müzakirə edilmişdir. Rusiya Federasiyası Emlər Akademiyası və M.V.Lomonosov adına MDU-nun təşkil etdikləri simpoziumun təşkilat komissiyasının tərkibində tanınmış akademiklər V.L.Ginzburq, E.B.Aleksandrov, E.P.Kruqlyakov, professorlar: S.P.Kapitsa, V.A.Kuvakin, Q.İ.Abelev və başqaları vardı.

Müzakirə olunan məsələlərin mahiyyəti barədə təsəvvürə malik olmaq üçün simpozium iştirakçılarının çıxışlarından bəzi məqamlarla tanış olaq:

Akademik E.P.Kruqlyakov:

"Mənə məlum olduğuna görə, yalançı elm termini ilk dəfə XI əsrin sonunda Bizans şahzadəsi Anna Komnina tərəfindən işlədilmişdir. O vaxtdan yalançı elm yaşayır və intişar tapır. Lakin bu gün o, o qədər

yaxşı təşkilatlanmış nüfuz və qüvvə qazanmışdır ki, elm və cəmiyyət üçün real təhlükəyə çevrilmişdir. Əslində hakimiyyət strukturlarının məmurları ilə yalançı elm arasında korrupsiyaya əsaslanan qaynayıb qarışma baş verməkdədir. Bunun bizə dəxli olmadığını söyləmək, yaxud lazımi diqqət yetirməmək olmaz. Yəni yalançı elmlə mübarizə aparmaq lazımdır...

"ABŞ-ın və Avropa ölkələrinin dövlət strukturlarınıda yalançı elm və xurafat bizdəki miqyasda deyil. Orada bütün bunlar yalnız epizod şəklindədir...

Kütləvi informasiya vasitələrimizin bizə təqdim etdiyi cəfəngiyyat, uydurmalar o qədər çoxdur ki, onların hamısını sadalamaq mümkün deyil. Həmin halda bütün elmi inkişaf dayanardı. Bizim şəraitdə ağlagəlməz elmi saxtalaşdırmalar daha da təhlükəlidir. Bizdə hərc-mərclik, xüsusilə çoxdur. Bizim bəzi əldəqayırma "akademiklər" də, elmlər doktorlaru və professorlar "yetişdirirlər", diplom biznesi qol-budaq atır. Misal üçün bu gün saxta tibb elmləri doktoru, yaxud professor diplomu almaq üçün heç də xüsusi səy və vəsait tələb olunmur. Daha doğrusu, həmin adların "dəyəri yoxdur" demək düzgün olmazdı. Onların dəyəri heç də az olmayan puldur".

Ceyms Alkoq (Kanada): "İnsanlar sadəcə olaraq mürəkkəb elmi izahatları başa düşmürlər. Ona görə də onlar televiziya, radio, yaxud mətbuatın hər cür məlumatına inanmağa meyllidirlər... Qeyri-adi məlumatlardan ibarət ümumi baza yaratmaq və onların elmi izahının olduğunu nümayiş etdirmək gərəkdir".

Ceyn Eysler (ABŞ): "İnsanlar alternativ təbabətə ona görə müraciət edirlər ki, onların təkcə müalicəyə deyil, həm də rəsmi təbabətin bir qayda olaraq göstərmədiyi səmimiyyət və diqqətə böyük ehtiyacları var".

Q.İ.Ablev (RF): "Kütlə hər cür cin-şeytan yığnağı üçün münbit torpaqdır. Həmin kütlə möcüzə sorağındadır və möcüzə üçün də pul xərcləyir".

S.P.Kapitsa (RF): "Bizim belə konfrans keçirməyimizin özü kədərlidir. Əlkimyagərlər elə həmin siçanlardır. Ancaq dünyada pişiklər - yəni alimlər də mövcuddur. Gərək onlar mürgüləməsinlər".

Li Nisbet (ABŞ): "Alimlər jurnalistlərlə söhbət edərkən əldə olunmuş nəticələrin əhəmiyyətini şişirtməməlidirlər. Proqnozları diqqətlə götür-qoy etmək və vaxtı çatmamış nəticələr çıxartmaqdan çəkinmək lazımdır".

Beynəlxalq simpozium "Rusiyada yalançı elm, şarlatanlıq və irrasionalizmə qarşı" mübarizəyə həsr edilmiş xüsusi qətnamə qəbul et-

mişdir. Onun birinci maddəsində deyilir:

"Dağıntılar, keçmiş ideallarn tar-mar olması və yenilərinin yaranmaması Rusiyada elə bir vəziyyət yaratmışdı ki, insanların bir çoxu indi yalnız möcüzəyə ümid edir. Belə "möcüzə"lərdən biri olan yalançı elm yaxşı təşkilatlanmış peşəkar fırıldaqçılarla qaynayıb-qarışmışdır. Bu gün həmin birlik mahiyyət etibarilə güclü, mənəviyyatsız və cinayətkar qüvvəyə çevrilmişdir. Yalançı elm və şarlatanlıq hətta hakimiyyətin yuxarı pillələrinə təsir göstərir, onsuz da yalavac elmin büdcəsini parazitcəsinə sovurur".

Azərbaycan müstəqil dövlət həyatını yaşasa da, MDB, xüsusilə Rusiyanın mübtəla olduğu bəlalardan da xali deyil. Odur ki, elmi idarələr və ali məktəblərdə elm adına məddahlıq, yaltaqlıq və yeni saxtakarlıqlarla məşğul olan, özlərini dünyanın tanınmış alimlər ordusu sıralarına zorla sırımaq istəyənlərin həddini də tanıtmaq vacibdir. Digər tərəfdən elm falçıları, hər cür möcüzə icad edən müasir Dərviş Məstəli şahları, Molla İbrahim Xəlil kimyagərləri, Şeyx Nəsrullahları da ifşa etməyi yaddan çıxarmaq olmaz. Yaddan çıxarmaq olmaz ki, əsl elm və təhsilə laqeydlik - tənəzzülə aparır.

Qeyd edək ki, Moskva simpoziumunda elmi-texniki jurnalistikanın vəziyyəti də diqqət mərkəzində olmuşdur. Belə bir fakta diqqət yetirilmişdir ki, məsələn, ABŞ-da nəşr olunan jurnalların 60-70 faizini elmi-texniki və elmi-kütləvi nəşrlər təşkil edir. Rusiya və digər MDB ölkələrində bu sahədə vəziyyət acınacaqlıdır. Məsələn, respublikamızda 40 ildən artıq nəşr olunan "Elm və həyat" jurnalı qapanmaq ərəfəsindədir. Vaxtilə 140 min tirajla nəşr olunan bu jurnalın indi ildə cəmi bir-iki nömrəsini çıxara bilirlər ki, o da 500 nüsxə tirajla. Səbəbi maliyyə çətinlikləri, elmi yeniliklərin KİV vasitəsilə vaxtında geniş kütləyə izah və şərh edilməsinin vacibliyinin dərk edilməməsidir. Məncə, belə bir simpoziumun Bakıda da keçirilməsi məqsədəuyğun və gərəkli olardı.

***"Günay" qəzeti, N3 19 yanvar 2002.***

# JURNALİSTƏ FANTASTİK ZƏHMƏT HAQQI

Amerikanın 68 yaşlı məşhur televerilişlər aparıcısı Lari Kinq CNN teleşirkəti ilə yaxın 4 il müddətinə yeni kontrakt imzalamışdır. Əgər o əvvəllər ildə 7 milyon dollar əmək haqqı qazanırdısa, indi ona ildə 14 milyon dollar məvacib verəcəklər. 4 il müddətində bu 56 milyon dollar edir. Yazırlar ki, nəinki televiziya, hətta jurnalistika tarixində ildə bu qədər zəhmət haqqı alan jurnalist olmamışdır. Lari Kinq Ginnesin rekordlar kitabına yəqin ki, düşəcək. Əslində bu hamısı deyil. CNN Lari Kinqə xüsusi təyyarə də təhkim etmişdi. Çünki Kinq Nyu-Yorkda yaşayır. İş yeri isə Los-Ancelesdədir. Bu da sensasiyadır.



Neçə vaxtdır ki, bacarıqlı, istedadlı, hazırlıqlı, telemüsahibələr və verilişlər aparan, tamaşaçıların çox böyük rəğbətini qazanmış Lari Kinqi öz tərəfinə çəkmək üstündə Amerika və dünyanın ən iri və nüfuzlu iki teleşirkəti: CNN və Fox News arasında mübarizə gedirdi. Göründüyü kimi, birinci ona veriləcək pulun miqdarını ikiqat qaldırmaqla qalib gəlib. CNN dünyanın 210 ölkəsinə müxtəlif dillərdə verilişlər verir. Sutkanın 24 saatını işləyir. 15 süni peyk vasitəsilə bütün planetdə baş verən təbii, ictimai-siyasi, iqtisadi, kriminal, mədəni, bir sözlə, diqqət çəkəsi, maraq doğurası, heyran qoyası, təəcübə səbəb olası nə varsa, tamaşaçılarına operativ, anlaşıqlı və əyani şəkildə göstərməyə çalışır. Lari Kinqin tok-şou verilişləri xüsusilə, çox böyük auditoriya toplayır. CNN-nin tamaşaçı auditoriyası 250 milyona çatır. Bu isə ən əlverişli reklam bazarıdır. CNN-in hər il reklamdan 5-7 milyard dollar qazandığı qeyd olunur.

Lari Kinqin illik gəlirini - yəni zəhmət haqqını Amerika prezidentlərinin və konqresmenlərinin rəsmi maaşı ilə müqayisə də edirlər. Prezidentlər ildə 200 min dollar, konqresmenlər isə ildə 130 min dollar zəhmət haqqı alırlar. Son vaxta qədər bu rəqəmlər göstərilirdi.

Məlumdur ki, kasıbın boş vaxtında işi dövlətlilərin haqq-hesabını çəkmək olur. Bu kəlamı ata-babalar nahaq yerə deməyiblər. Kimin hansı sənət və peşə sahibinin nə qədər və hansı yolla pul qazandığı

ictimaiyyətin diqqət və maraq dairəsində olur. Əslində pul qazanmaq özü istedad və bacarıq tələb edən işdir, hətta H.Zərdabinin təbiri ilə desək - elmdir. Müasir beynəlxalq informasiya banklarında, statistika qurumlarında bu barədə də çox maraqlı faktlara və rəqəmlərə rast gəlmək olur. Özü də təkcə qanuni yolla deyil, hətta "çirkli", kriminal, oğurluq və rüşvətxorluq, korrupsiya yolu ilə əldə edilmiş pullar haqqında da məlumat toplanılır. Mütəxəssislərin fikrincə, qədəm qoyduğumuz informasiyalı cəmiyyətdə, yeni texnologiyanın yaratdığı imkanlarla cəmiyyətin oğurluq pulları tapmaq imkanları da artmış və artacaqdır da. Beynəlxalq miqyasda terrorçu təşkilat və qurumların maliyyə imkanları və vəsaitlərinin axtarılması və müəyyən qisminin tapılıb müsadirə edilməsi faktı da bunu nümayiş etdirir.

Digər bir cəhət. Yadımdadır, sovet dövründə, xüsusilə yenidənqurma və aşkarlıq illərində iqtisadçılarımız Amerika ilə SSRİ-də zəhmət haqqı - maaş məsələsinə dair mülahizələrində qeyd edirdilər ki, ABŞ-da hər bir işçiyə onun gündəlik - həftəlik fəaliyyət zamanı qazandığı dəyərin 60-65 faizi miqdarında zəhmət haqqı verilir. SSRİ-də isə bu rəqəm 7 faizdən artıq olmurdu. Son illər Amerikada minimum əmək haqqının miqdarı 1 saatda 5 dollar 35 sent həcmində müəyyən edilmişdi. Deməli, 8 saat işləyən hər bir amerikalı gündə ən azı 42,8 dollar qazanmalıdır. Ölkənin iqtisadi potensialı, maliyyə imkanları, daima artan xarici ticarəti, yeni texnologiyanın tətbiqi nəticəsində əmək məhsuldardlığının durmadan yüksəlməsi və s. bu imkanları yaradır. Lari Kinqin də rekord zəhmət haqqı bu baxımdan qiymətləndirilməlidir. Odur ki, atalar demişkən, hərə öz yorğanına görə ayağını uzatmalıdır. Deyim ki, bu qaydalar oğrular və rüşvətxorlar, korrupsiyaya, təbii sərvətləri allahsızcasına talan edib harınlaşmışlara aid deyildir. Onların öz "qayda-qanunları" var. Amma nə vaxta qədər? Məsələ bundadır.

**"Günay" qəzeti, N4,**
**26 yanvar 2002.**

## ZAMAN NƏ İSTƏYİR?

Biz M.Ə.Sabiri qübrətli bir satirik şair kimi hamılıqla tanıyırıq, böyüklü-kiçikli sevirik. Bu barədə ətraflı söz açmağa ehtiyac yoxdur. Lakin Sabiri həm də qüdrətli bir publisist, mütəfəkkir bir şəxsiyyət və qələm əhli kimi tanıyırıqmı? Məncə, lazımınca yox! Doğrudur, sabirşünaslar böyük xalq şairinin qələmindən çıxanları, o cümlədən məqalələrini axtarıb tapmaq və oxuculara təqdim etmək üçün çox böyük səy göstərmişlər. 49 illik ömrünün cəmi 5-6 ilini fəal ədəbi-bədii və publisistik yaradıcılığa həsr etmiş fitri istedad sahibinin hələ də tapılmamış əsərləri vardır. Digər tərəfdən müəyyən obyektiv və subyektiv səbəblər üzündən Sabiri həqiqətən olduğu kimi deyil, müəyyən ideoloji çərçivəyə salıb ondan siyasi məqsədlər üçün istifadə etmək təşəbbüsləri də bolluca müşahidə edilməkdədir. Sözümün canı budur ki, Azərbaycanın tərəqqisi, milli-mədəni intibahı uğrunda mübarizlərin ön cərgəsində yer tutan M.Ə.Sabirin yaradıcılığının yeni müstəqillik dövrünün gənclərinə daha obyektiv və elmi təqdiminə böyük ehtiyac var.

Mətbuat tarixçisi kimi məni M.Ə.Sabirin Rusiyanı yerli-dibli, aşağıdan və yuxarıdan çalxalayan Birinci rus inqilabı dövründə dövrü mətbuat orqanlarında dərc olunmuş məqalələri maraqlandırdı. Bu yazılarında da Sabir poeziyasında olduğu qədər də müdrikdir. Onlarda bir sıra elə problemlər, qlobal məsələlər var ki, bu gün üçün də aktualdır, gələcək üçün də aktual olaraq qalacaqdır. Məsələn, şairin "İrşad" qəzetinin 1907-ci il fevralın 12 tarixli sayında dərc olunmuş "Zaman nə istəyir?" məqaləsinə nəzər salaq.

Filosoflar "Zaman" anlayışının mahiyyətini qısaca belə şərh edirlər: Zaman - proseslərin sürəkliliyini, axıcılığını, ardıcıllığını, bu proseslərin müxtəlif faza və mərhələlərini bir-birindən ayırd edilməsini, səbəb-nəticə münasibətlərini, genetik əlaqələrini və s. ifadə edir. Zaman, geri dönməzlikdir, bir ölçülüdür.

M.Ə.Sabir dövrünün modda olan siyasi cərəyanlarından, filosoflarından fərqli olaraq cəmiyyəti əsasən 3 qismə - sinfə bölürdü: "Birinci sinif uşaqlar, ikinci sinif cavanlar, üçüncü sinif qocalardır". Sonra sual edirdi: "Bu üç sinif insanların hansı birisi millətə, milliyyətə kömək edə bilər? Hansı birisi tərəqqiyə, səadətə səbəb ola bilər"? Cavabı belə idi: "Əlbəttə aşkardır ki, birinci sinif insanların dünya və mafi hadan (onda olanlardan) hələ xəbərləri yoxdur... üçüncü sinif insanlar ömürlərinin axır vaxtları olduğu üçün, həvəsləri getdikcə əksildiyi üçün, hər bir işdə yorulduqları üçün onlardan da kömək xahiş etmək olmaz". Sonra, "Anlaşıldı ki, millətin pişrəftinə (tərəqqisinə), səadəti-

nə bais olan ikinci sinif - cavanlardır. Amma hansı cavanlar? Burası böyük sualdır. Cavabına iczimi (acizanə) etiraf ilə bunu deyə bilərəm ki, o cavanlar rahi-nicarata (nicat yoluna), tərəqqi və səadətə dəlil, hadi (doğru yol göstərən) ola bilər ki, oxumuş olalar, ali mədrəsələrdə təhsili-elm, təhsili-kəmalət etmiş olalar. Heyf ki, məəttəəssüf bunu söyləyə bilərəm ki, millətimizin avam cavanları çox-çoxdur. Millətdən, milliyyətdən bixəbər (xəbərsiz) olanları daha çoxdur. Nə təəssüflü bir hal! Bundan daha böyük təəssüf olunacaq burasıdır ki, oxumuş cavanlarımız dəxi əksəriyyət ilə ana dilindən, əqaidi-diniyyələrindən (dini əqidələrindən) lazımınca xəbərdar ola bilməyiblər. Əcəba, bu təqsir kimdədir, oxumuşlarımızdamı? Xeyir! Xeyir! Təqsir bizim məktəbsizliyimizdədir. Zira, üsuli-cədid (yeni üsul) üzrə təşkil olunmuş müntəzəm məktəblərimiz olmuş olsaydı, məkatibi-ətiqin (köhən məktəblərin) ömür zay edici üsulundan qorxub, hələ ana dili bilməyən, əqaidi-diniyyəsindən xəbərdar olmayan övladlarımızı, ümidi-istiqlalımız olan (gələcəyimiz olan) övladlarımızı xarici məktəblərə verib ilminskilər təlif edən risalələrə (tərtib edən kitablara) mötəqid (inanan) olmazdılar".

M.Ə.Sabir yazırdı ki, "girdablar bizi boğur, biz hələ qafil dururuq. Bu cəhalət bizi odlara yandırır, biz hələ bixəbər qalırıq", "hər bir dərdin, illətin çarəsinə baxmaq zamanı yetişmişdir". Əcəba, bizim də dərdimizin çarəsi varmı? "Bilmirsən çarəsi nədir?" Bu suala böyük vətənpərvər belə cavab verirdi: "Ey millətimin ziyalı cavanları, bilsəniz ki, siz dünyalar qədəri olan bir vəzifə altında yaşayırsınız! Budur, vətəni-əzizimizin gül, rəyahi (reyhanlar) bitirən torpaqları qardaşlarımızın məsum qanları ilə, elmsiz, tərbiyəsiz cavanlarımızın vəhşikaranə, zalimanə hərəkətlərindən ağəştə (islanmış) olduğunu görürsünüz". Biz də "təqazayi-zamanı (zamanın gərdişini) mülahizə edib iş görməliyik", "mədəniyyət, hürriyyət zamanı" gəlmişdir.

M.Ə.Sabir "İrşad"da dərc olunmuş digər bir yazısında rəfiqi A.Səhhətin şerindən bir iqtibas gətirir:

***Ey vətən, getmə ki, əldən gedəriz!***
***Biləriz fərz sənin xidmətini!***
***Nəqd can eşqinə isar edəriz,***
***İstəriz vəzi fəlah heyətini!***

Və yazısının sonunda böyük bir ümumiləşdirmə edərək yazır:

***Milləti yad eyləyin, ey ümməti-naci!***
***Pək təhlükəli xəstədir islam məzaci!***

İslam dünyasını təhlükəli xəstə təbiətli olması barədə böyük şairin 97 il bundan əvvəl yazdıqları indi də aktual səslənmirmi? Və yaxud mətbuata qarşı hücum çəkən qaraguruhçuların ifşasına dair "Bəhlul" jurnalında dərc olunmuş yazısı: "Qaraguruhların ələmdarı, şeytanfikirlilərin sipəhsaları (sərkərdəsi) deyir: "Xalqı qudurdan - qəzetlərdir, üləma və şeyxləri söyən - qəzetlərdir, arvadları insan cərgəsinə salmaq istəyən - qəzetlərdir, adamlara hüquq göstərən - qəzetlərdir, müsəlmanları dinsiz edən - qəzetlərdir, hamı bərabər olsun deyən - yenə qəzetlərdir. Bu bədbəxtlər - qəzetlərin, ədiblərin məhv olmağını istəyir. İndi, ey möhtərəm qare (oxucu) qara üzlülərin qəzetlərdən şikayət etməsi mühüm məsələ deyil də nədir?...

Vətənpərvər şair və görkəmli ziyalı Abbas Səhətin "Hophopnamə"nin ilk nəşrinə (1912) yazdığı "Sabirin tərcümeyi-halı"nda belə bir qiymətli müqayisə var:

Gələlim siyasiyyati aləmə etdiyi xidmətə: Məlumdur ki, Fransa şairlərindən Şatobrian Fransız qövminin (xalqının) səltənət xanədanından olan Burbonlar ilə Napoleon Bonapart arasındakı müqayisəyə dair bir kitab yazmışdır ki, bu kitab Burbon xanədanından olan fransız kralı XVIII Luinin kəndi etiraf və iqrarınca bir ordudan ziyadə ona xidmət etmişdi. Mən də iddia edirəm ki, Sabir əfəndinin də asarı (əsərləri) bu 5 ilin müddətində İran məşrutəsinə haman növ bir bərr (qitə) ordudan ziyadə xidmət etmişdir".

M.Ə.Sabirin Azərbaycan ictimai-siyasi fikrinə etdiyi xidmətin qiyməti hesaba gəlməzdir. Hər bir nəslin Sabir irsindən öyrənəcəyi hədsiz-hüdudsuzdur, ölçüyə gəlməzdir. Gənclərin roluna dair fikirləri isə əvəzsizdir! Görəsən, indiki gəncliyin bundan xəbəri varmı?!

**"Günay" qəzeti, N5, 2 fevral 2002**

## "SOYUQ MÜHARİBƏ"DƏN "AZADLIQ" MÜHARİBƏSİNƏ

1946-cı il martın 5-də ABŞ-ın Fulton şəhərindəki nitqində Uinston Çerçil kapitalizm dünyasını dünya kommunizmilə mübarizə məqsədilə hərbi, siyasi və iqtisadi ittifaq bağlamağa çağırdı. Yenidən sürətlə silahlanma, siyasətə təsir vasitəsi kimi hərbi qüvvədən istifadə, iqtisadi embarqolar, baykot və hətta terrorist fəaliyyətləri, güclü təbliğat və ideoloji təxribat və s. işə düşdü. NATO,SENTO,SEATO və s. ittifaqlar yaradıldı. Dünya yenidən üç cəbhəyə bölündü: kapitalizm, sosializm və bitərəf ölkələr cəbhəsinə. Bu qarşıdurma bəşəriyyətə əsrin iki dünya müharibəsindən də baha başa gəldi. Üçüncü dünya müharibəsi baş verməsə də dünya müharibələrsiz gün görmədi. 1946-1991-ci illər ərzində, yəni SSRİ və dünya sosializm və kommunizm sisteminin dağılmasına qədərki, 45 il ərzində politoloqlar dünyanın müxtəlif qitələrində eyni miqdarda lokal müharibələr baş verdiyini yazırlar. Bunların sırasında 1946-1949-cu illərdə Çində vətəndaş müharibəsini, 1950-1953-cü illərdə ABŞ və BMT-nin də qarışdığı Koreya, 1954-1961-ci illər Əlcəzair, 1956-1975-ci illərdəki Vyetnam, 1979-1989-cu illər Əfqanıstan, 1980-1988-ci illər İraq-İran müharibələrini və b. göstərirlər.

Dünyanı təsir altına almaq, təsir dairələrinə bölmək siyasətinin tarixi çox qədimlərə gedir. Hər dəfə də dini, ideoloji, mədəni-milli bəhanələr tapılır. Bərqərar olmayan isə sosial ədalətdir, milli hüquqlardır. Məhz bunu nəzərə alan böyük milli ideoloqumuz M.Ə.Rəsulzadə 20-ci yüzilliyin əvvəllərində Tehranda nəşr etdiyi "Yeni İran" (İrani-nov) qəzetində yazırdı: "XX əsrdə dinclik və rahatlıq barədə düşünmək olmayacaq". Biz bu sözlərin doğruluğunun şahidləriyik. XX yüzilliyin 90-cı illərində kommunizm bir ideologiya və sistem kimi çökdü, süqut etdi. Sovet imperiyası dağıldı. Dünyada sakitlik və əmin-amanlıq dövrünün başlanacağı xülyası yarandı. Əvvəlcə dünyanın müxtəlif bölgələrində keçmişdən qalan ərazi, mədəni-dini, siyasi-ideoloji-iqtisadi ziddiyyətləri körükləməyə başladılar. İndi də dünyanı bir mərkəzdən idarə etmək meyli özünü göstərməkdədir. Bu dəfə 2001-ci ilin 11 sentyabrı yeni dünya düzəninin başlanğıc nöqtəsi sayılır. Bu ifadə yenə də ABŞ-da səsləndi. Prezident Buş dünya miqyasında əvvəlcə "islam terrorizminə qarşı səlib (xaç) yürüşü elan etdiyini" bildirdi, sonra bu ifadəni "beynəlxalq terrorizmlə "müharibə" əvəz etdi. İndi isə ABŞ "azadlıq müharibəsi"nə başladığını elan edir.

ABŞ prezidentinin yeni "Azadlıq" müharibəsinə başlamaq barədəki tezisləri konqresin yanvarın 21-dəki növbəti illik məclisində qızğın alqışlarla qarşılandı. Prezident Buşun təxminən 45 dədiqəlik çıxışı 77 dəfə alqışlandı. "Təhlükəsizlik, sağlamlıq və təhsil" haqda respublikaçıların hazırladığı proqramın birinci hissəsini demokratlar partiyasından olan konqresmenlər də müdafiə etdilər. Prezident hərbi xərclərin xeyli artırılıb, son 10-15 ilə nisbətən daha yüksək 300 milyarda qədər qaldırılacağını elan etdi. Amerika iqtisadiyyatının durğunluq və nisbi tənəzzül dövründən çıxarlımasının yolunu sürətli silahlanmada axtarmağa dair tarixi "ənənə" yenidən üzə çıxmaqdadır. Bu tendensiyanın yəni militarizmi əvvəllər dünyanın başına nə oyunlar açdığını deyəsən "azadlıq" müharibəsi qızışdıranlar yaddan çıxarırlar.

Amerika elan edir ki, o müharibə vəziyyətindədir. Çünki "azadlıq" risq altındadır, təhlükədədir. Əfqanıstandan sonra ABŞ-ın siyahısında Şimali Koreya, İraq və İran durur. Bu hələ hamısı deyil. Deyirlər ki, iştah diş altındadır. Bəs dünyanın aparıcı böyük dövlətləri, BMT və dünya ictimaiyyəti bu müharibənin genişlənməsinə necə reaksiya verir?

Böyük dövlət statusunu çoxdan itirmiş, lakin böyüklük adını mühafizəkarlıqla hifz edən Böyük Britaniyanın indiki rəhbərliyi ənənəvi olaraq ABŞ-ın əsas müttəfiqi kimi hərəkət edir. Qərbi Avropa ölkələri hadisələri diqqətlə izləyir, Fransa və Almaniya İraq və İranın müharibə meydanına çevrilməsini istəmir. Hər iki ölkənin neft ehtiyacları əsasən İraq və İran hesabına ödənilir. Terrorizmə qarşı mübarizənin dünya müharibəsi, "azadlıq" müharibəsi səviyyəsinə qaldırılmasının gözlənilməz nəticələr verə biləcəyindən əndişə duyanlar da az deyil. Azərbaycan və bizim kimi kiçik ölkələrin güclülərə əl çalması təbiidir. Həm də terrorizmlə mübarizə avtoritar rejimlərin də karına gəlir. Müxaliflərinin hər cür müqavimət hərəkətinə terrorizm damğası vurmaq, terrorizm libası geyindirmək də belə rejimlərin köhnə peşəsidir. Evinə, cibinə, maşınına silah və qumbara qoyub nə qədər adamı desən sıradan çıxarmaq da olar...

Ötən əsrin 90-cı illərində SSRİ, Yuqoslaviya parçalandıqdan sonra BMT üzvlərinin sayı xeyli artıb - 189-a çatdı. Politoloqlar XXI yüzilliyin sonunda dünyada müstəqil dövlətlərin sayının XX yüzillikdə olduğu kimi sürətlə artacağını təxmin edirdilər. Hətta BMT üzvlərinin sayının 300-ə çatacağı təxmin edilirdi. Nəzərlər hər şeydən əvvəl çoxmillətli iri dövlətlərə yönəlmişdi. Hindistan, Çin, Rusiya, Kanada, ABŞ və b. bu qəbildəndir. Müstəqillik tarixən milli-azadlıq mübarizəsi sayəsində əldə edilən nailiyyətdir. Bu mübarizənin həm dinc, həm də silahlı mübarizə yolu vardır. Hələlik hakim müstəmləkəçi dövlətlərin, əsir millət-

lərə müstəqil dövlət həyatı yaşamaq imkanı verdiyini, həm də dinc və sülh yolu ilə verdiyini görənlər azdır. Tarixi həqiqət budur ki, müstəqillik, milli azadlıq verilmir, alınır. Bu baxımdan ABŞ-ın beynəlxalq terrorizmlə qlobal müharibəyə başlaması milli-azadlıq hərəkatlarını boğmaq istəyənlərin də dəyirmanına su tökür. Rusiyanın Çeçenistana tutduğu divan, beynəlxalq miqyasda bunun görməməzliyə salınması təsadüfi deyil.

ABŞ çox böyük, yeganə fövqəldövlətdir. Dünya sənaye məhsulunun təxminən üçdə biri onun payına düşür. Dollar dünya valyutasıdır. ABŞ hər il 950 milyon ton neft və neft məhsulları işlədir. Vaxtilə ikinci fövqəldövlət statusu daşıyan Rusiyada bu rəqəm 120 milyon tondur. Silahlı qüvvələr baxımından da onun qarşısına çıxacaq qüvvə demək olar ki, yoxdur. Təhlükəli cəhət də bundadır. Buşa 45 dəqiqədə 77 dəfə sürəkli əl çalanlar öz qüdrətlərini dünyaya nümayiş etdirmək istəyənlərdir.

Bəşəriyyəti XXI yüzillikdə nələrin gözlədiyini proqnozlaşdırmaq çətindir. Amma aydın olan tarixi təcrübə də var. Vaxtilə böyük bir imperiya yaratmış türk sultanlarından biri dünya xəritəsinə baxaraq demişdir ki, mən elə bilirdim ki, dünya böyükdür, amma heç bir padşaha yetər qədər də böyük deyilmiş. Dünyanı bir mərkəzdən idarə etmək, bir mədəniyyətin təsiri altına almaq, demokratiya və azadlığın Amerika və Qərb anlayışı və dəyərlərini hədə-qorxu və silah gücünə qəbul etdirmək xəyalı yoldur, xətalı təşəbbüsdür.

XX əsrin narahat şairi Bəxtiyar Vahabzadənin sözləri ilə desək:

***Qorxuram dünyada bir zaman gələ,***
***İnsanlar yaşaya, insanlıq ölə.***

**"Günay" qəzeti, N6, 9 fevral 2002.**

# TƏHSİL

## *MİLLİ MƏKTƏB VƏ MİLLİ RUH*

Əsrlərin və nəsillərin tarixi təcrübəsi göstərir ki, müstəqil milli dövlət üç əsas təməl üzərində bərqərar olur. Vətən, millət, hakimiyyət.

Vətən - müqəddəsləşmiş torpaqdır; millət - bu torpağın əbədi sakinləridir, hakimiyyət - milləti yaşadan, qoruyan, tərəqqisini təmin edən qurumdur.

Hər üç təməli birləşdirib vahid, sarsılmaz qüvvəyə çevirən isə milli vətənpərvərlik, milli qeyrət, milli fədakarlıq ruhudur.

Milli müqəddəslərimizin fikrincə, vətənpərvərlik ruhu əsasən milli məktəbdə formalaşır. Kim 1918-1920-ci illər - Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatını və cümhuriyyətinin ana dili və təhsil sistemi barəsindəki sənədləri və materialları ilə tanış olmaq zəhmətinə qatlaşsa, bu həqiqəti görə bilər. Biz özümüzü ilk cümhuriyyətin varisləri hesab ediriksə, bu tarixi təcrübədən də bəhrələnməliyik. Çünki təhsilin məqsədi təkcə bilik, savad, ixtisas vermək deyil, həm də vətəndaş tərbiyə edib yetişdirməkdir. Milli ictimai-siyasi intibahımızın sərkərdəsi Həsən bəy Zərdabi 1877-ci il martın 17-də "Əkinçi" qəzetində yazırdı:

"Dövləti-rus bizim vilayəti zəbt edəndən irəli bizim Qafqaz müsəlmanları öz avamlığından dünyada bəylikdən artıq xoşbəxtlik bilmədiyinə dövlət onlar üçün elm təhsil etməkdən ötrü bina elədiyi məktəbxanalara məhz bu qəsd ilə giriblər ki, oxuyub bəy olsunlar, yəni basıb-kəsmək ixtiyarını kəsb eləsinlər. Əlbəttə, belə bəylik axtaran kəs xalqın xoşbəxtlik fikrini çəkməz. Onun üçün pul gərəkdir ki, kef damağa məşğul ola və millət əvəzinə heyvan gərəkdir ki, ona hakimlik edib, öz bəyliyini zahir edə. Bu səbəblərə zikr olan əşxaslar (şəxslər) o məktəbxanalarda elm təhsil etmək ac (çətin) olduğuna onu heç dadmayıb, ancaq adətlərin dəyişdiriblər, yəni yeyib, içib, geyib, durub-oturmaqda özlərini xaricilərə oxşadıb, əslən elmdən bixəbər qalıblar.

Bilirəm, bu sözləri oxuyub həzarat bizdən rəncidə-xatir olacaq. Amma, dustan (dostlar) insaf deyil ki, qeyrilərin eybindən danışıb, öz eybimizi xalqdan gizlədək. Əlbəttə, bu halda bizlərdən beş-on elm sahibi və millət təəssübü çəkən olsaydı, bizim millət belə qara günə qalmaz idi".

M.Ə.Sabirin "mənəvi atamız" adlandırdığı H.Zərdabinin, milli mətbuat, milli teatr, milli məktəb uğrunda apardığı fədakarlıq səyləri hədər getmədi. Onun yuxarıda təsvir etdiyi milli manqurtlar dəstəsilə yanaşı yeni vətənpərvər bir gənc nəsil də yetişdi. Bu nəslin milli mücahidlərindən olan M.Ə.Rəsulzadə H.Zərdabinin görüşlərinə istinadən 1914-cü ilin oktyabrında "Dirilik" məcmuəsində yazırdı: "Bizim mühitimizdəki rusca oxumuşlarımızı tədqiq etsək, görəcəyiz ki, ali diplom almış, böyük təhsil görmüşlərimiz arasında ancaq o qismi az-çox iqtidarlı və mənsub olduğu mühitin işləri ilə əlaqədardır ki, az-çox türkcə savadı var və öz milliyyətinin nə olduğunu bilir. Sırf rusca ilə böyüyüb də özlərindən xəbəri olmayanlar isə əksərən mənsub olduqları millətin ehtiyaclarına qarşı laqeyddirlər".

Azərbaycan Xalq Cümhuriyyəti varlığının 23 ayı ərzində ana dilinin dövlət dili elan edilməsi, milli ana dilli məktəblər şəbəkəsinin yaradılması sahəsində görülən tədbirlər də çox böyük müqavimətə rast gəlirdi. Rus şkolalarında, rus ailə mühitində tərbiyə görmüşlər bütün imkanları ilə maarifin milli zəmin üzərində qurulması işinə hər vəchlə müqavimət göstərirdilər. Bu çətin və mürəkkəb qarşıdurmanın ön cəbhəsində duranlardan biri də milli müqəddəslərimizdən olan Üzeyirbəy Hacıbəyli idi. "Azərbaycan" qəzetində Üzeyirbəyin söhbət gedən mövzuda çox qiymətli və bu gün üçün də əhəmiyyətini saxlayan yazıları dərc olunub. Mən təəssüf edirəm ki, böyük vətənpərvər qələm ustadının bu yazılarının bir qismi onun hətta 1995-ci ildə nəşr olunmuş 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc olunan əsərləri toplusuna nədənsə daxil edilməmişdi.

Son vaxtlar milli təhsil problemi yenidən müzakirə mövzusuna çevrilmişdi. Azərbaycanla Rusiya Federasiyası arasında münasibətlərin yaxşılaşmasından istifadə etmək istəyən rus dillilər, sovet dövrünün ab-havasını yenidən bərpa etmək, Bakını həm də dil cəhətdən 70-ci illərin səviyyəsinə döndərmək cəhdlərini artırmışlar. Məktəblərin rus dilli qrupların sürətlə artmaqda, bəzi idarə və müəssisələrdə əvvəlki sovet ruhu bərpa edilməkdədir. Ana dilini, türkçülüyü, milli məktəbləri gözdən salmaq meylləri də hiss edilməkdədir. Zənnimcə, Üzeyirbəyin 1919-cu ilin sentyabrında "Azərbaycan" qəzetində dərc olunmuş və onun əsərlərinə daxil olmamış "Daha bəsdir!" sərlövhəli məqaləsi bu gün üçün də aktual səslənir. Bəlkə biz də indi "daha bəsdir!" deyək.

## *DAHA BƏSDİR!*

Bu günlərdə Valideyn Şurasının mərkəzi komitəsi mürəxxisləri (vəkilləri) milli maarif naziri həzrətlərinə müraciət edib də Rusiya tarixinin, coğrafiyasının və köhnə ədəbiyyatının məkatibi-edaidiyyə (orta məktəb) proqramından çıxarılması əmrinə qarşı protesto yolu ilə bu əmrin ləğvi haqqında nazir həzrətləri yanında vəsatətdə bulunmuşlardır.

Bizə burası məlumdur ki, Azərbaycanımızda bir çoxları vardır ki, milisionerdən tutmuş ta nazirə qədər bütün məmurların Azərbaycan türklərindən təyin edilməsi zəruriyyəti ilə bir növ barışıb da buna xahü-naxah (istər-istəməz) razı olubdurlar. Ancaq bir istədikləri budur ki, rus hökumətindən qalma qaydalar pozulmasın: dil - rus dili olsun, rəsmi kağızlarımız rusca yazılsın, əzcümlə məktəblər də rus məktəbliyində qalsın. Qərəz ya Denikin gələnədək və ya gələcək rus məclisi-müəssisanının Qafqaz haqqındakı qərarına qədər burada heç bir şey dəyişməsin. Rus qaydaları və rus ruhu öz yerində qalıb, Azərbaycan necə ki, var - bir rus ölkəsi halında baqi dursun.

İştə Valideyn Şurası mərkəzi komitəsinin vəsatəti dəxi bu növ rusluq qaydalarının rəayət və mühafizəsilə çalışmasını işarə edən bir fəqərədir.

Rus istibdadının ehdicapkərdəsi (üstüörtülü hissəsi) olan şkolaların bərəkətindən biz indiyə qədər nə dilimizi bilirik, nə özümüzü tanıyırıq, biz kimlərik, haradan əmələ gəldik, tariximiz nə deyir - bunların heç birini bilməyirik. Amma "Ryurik" kim idi, "Yaraslav Mudrı" nəçi idi, "İvan Kalita" nə ilə məşhur idi - bunun hamısını gözəlcə bilirik.

Zənn edirik ki, indi - bir zamanda ki, felən müstəqil bir halda yaşayırıq, biz azadə öz tariximizi, öz ədəbiyyatımızı öyrənməyə borcluyuq.

Bu gün Azərbaycan edadi (orta) məktəbində rus və ya yapon tarixinin nə əhəmiyyəti ola bilər? Vətənimizdə yaşayan ruslar öz tarix və ədəbiyyatlarını öyrənmək istəyirlərsə onlara biz heç bir vaxt mane olmarıq. Edadi proqramında xüsusi məktəblər açıb da hər nə istəsələr övladlarına oxuda bilərlər. Lakin hökumət məktəblərinin proqramlarını təqyir (dəyişdirmək) və təbdilə (başqa şəklə salmağa) valideyn şuralarının heç bir haqqı yoxdur.

## *DAHA BƏSDİR!*

Bir bu qədər ki, biz rusca bilirik, rus tarixinə, rus ədəbiyyatına, rus coğrafiyasına fəzləsi ilə aşina və qaimik - yetər! İndi də bir az özümüzü, öz keçmişimizi, halımızı və gələcəyimizi öyrənməyə çalışalım! Başqalar isə bir nəhv ilə öz tarixlərini oxuyacaqdırlarsa - oxusunlar, ona sözümüz yoxdur. Ancaq bizim övladımızın istədiyimiz kimi təhsili - elm işlərinə mane olmasınlar. Rus hökuməti edadilərinin proqramı başqa, Azərbaycan edadisininki də başqa olmalıdır.

Fəqət sözlərimizdən böylə zənn edilməsin ki, biz məktəblərimizdə rus adı çəkmək belə istəməyiriz. Öz tariximiz, baxüsus (xüsusilə) tarixi istiqlalımız şübhəsiz ki, özümüzdə yüz illik bir müddət ərzində hökmran ruslardan bəhs edəcək və lazım olan qədər bir məlumat verəcəkdir. Fəqət bu bəhs və bu məlumat bir vaxt Rusiyada 200 illik hökm sürmüş olan tatarlar haqqında rus tarixçiləri tərəfindən məlumat kimi bir şey olacaqdır. Həmçinin rus ədəbiyyatının ümumədəbiyyat aləmində nə kimi bir mövqe tutmuş olduğu, bu mövqeyin məna və mahiyyəti, Azərbaycan ədəbiyyatına əta etdiyi təsiri və sairə, edadilərimizin proqramına daxil ediləcəkdir. Ancaq bir bu qədər. Valideyn Şurası (roditelskiy krujok) bu qədər məlumatı rus balaları üçün kafi bilməsə öz xüsusi vasitələri ilə istədiklərini artıra bilər.

Valideyn Şurası zənn edir fövqəlzikr dərslərin bizim edadilərimizdə yeni proqram üzrə keçməsi dövlət nöqteyi-nəzərindən qeyri qabili-imkan deyildir. Lakin bu xüsusda bizim zənnimiz və ümidvarıq ki, zənnimizcə maarif nəzarətimizin dəxi zənni başqadır.

**Hacıbəyli ÜZEYİR**
*"Azərbaycan" qəz.,*
*12 sentyabr 1919, N272.*

**"Günay" qəzeti, N7, 16 fevral 2002.**

## AZADXAHLIĞIN QƏRB VƏ ŞƏRQ ANLAMI

Biz qeyri-adi, tarixdə misli görünməmiş bir formasiyaların dəyişməsi dövrünü yaşamalı olmuşuq. Bəşəriyyətin qabaqcıl qismi xalq kapitalizmi və demokratik dövlət quruculuğu sistemindən, yeni informasiyalı cəmiyyət mərhələsinə qədəm qoymuşdur. Biz isə qeyri-adi sosializmdən ilkin kapitalizmə keçid dövrünü yaşamağa məhkumuq. Bu yaxınlarda Qərbi Avropa ölkələrində yaxşı tanınan və oxunan yazıçı Çingiz Abdullayev ANS-in "Açıq söhbət" proqramında aparıcının - Paris, London və Brüssel səfərlərinizdən sonra Bakıya dönərkən özünüzü necə hiss edirsiniz? - sualına - XXI yüzillikdən XV əsrə düşən bir insan özünü necə hiss edə bilər? - cavabını verdi. İbrətamizdir.

Əlbəttə, inkişafın məcrasını ümumin çoxdan getdiyi yola istiqamətləndirmək hədsiz çətinliklər, problemlər və bəlalarla müşayiət olunur. Ən ağrılı cəhətlərdən biri də budur ki, bu məcburi prosesə başçılıq etməli olanlar ölkəni və xalqı çıxılmaz döngəyə salanlar və bunun üçün tarixi məsuliyyət daşımalı olan qüvvələrdir. İndiki, tarixi keçid dövrünün çox ağrılı-acılı keçməsinin də əsas səbəbkarları onlardır. İlkin kapitalizm dövründən miras qalmış, Sovet-kommunist sistemində təkmilləşdirilmiş inzibati-amirlik, hədsiz bürokratizm, korrupsiya və rüşvətxorluq, itaətkarlıq və məddahlıq, saxtakarlıq və yalanı aradan qaldırmaq asan vəzifə, asan iş olmayacaq. Bununla əlaqədar NTV-nin "Sözün azadlığı" ("Svoboda slova") seriyasından növbəti - RF-da ölüm hökmünün yenidən tətbiqi probleminə həsr edilmiş verilişi diqqəti cəlb edir. Dövlət Duması deputatlarının, tanınmış hüquqşünas, yazıçı və KİV nümayəndələrinin fəal iştirakı ilə keçirilən müzakirədə maraqlı məqamlara toxunuldu. Məsələn, RF DİN-in - generalı A.İ.Qurov bildirdi ki, son vaxtlar Rusiyada inzibati güc orqanlarının və əməkdaşlarının sayı xeyli artırılsa da cinayətkarlıq azalmaq bilmir. Planetimizdəki həbsxanalarda hazırda 7 milyona yaxın məhbus vardır ki, onlardan 1 milyonu Rusiyadadır. Dünya paytaxtları içərisində ən çox polis işçiləri də Moskvadadır. Məsələn, əgər Nyu-York kimi çox nəhəng bir şəhərdə cəmi 45 min polis varsa, Moskvada onların miqdarı 140 mindir. Qeyd edək ki, Bakı da hər min nəfərə düşən polisin miqdarına görə öncül yerlərdən birini tutur.

General A.İ.Qurov qeyd etdi ki, belə bir əziyyətin səbəbləri çoxdur. Onlardan biri də budur ki, güc strukturları əməkdaşlarının bir qismi cinayətkar, korrupsiya və rüşvətxorluğa qurşanmış dairələrlə sıx əlaqədədir. İşsizlik, alkoqolizm, narkomaniya, inamsızlıq, ümidsizlik, küçələrə atılmış sayları milyon həddini keçmiş sahibsiz uşaq-

**lar və s. cinayətkarlığın artmasının səbəbləridir. Prezident V.Putin RF prokurorluq işçilərinin müşavirəsindəki son çıxışında da A.İ.Qurovun dedikləri daha kəskin şəkildə səsləndi. Doğrudan da həyəcan təbili çalınmalı məqam yetişib. Təkcə qısa bir müddətdə Rusiyada 30 min adm itkin düşüb, 2001-ci ildə 45 min minik maşını qaçırılıb, minlərcə günahsız adam öldürülüb və s.**

**Cinayətkarlığın belə bir həddə çatmasının səbəbləri, ona rəvac verən amillər barədə də müxtəlif mülahizələrin şahidi oluruq. Deyilənlər hələ həqiqətin hamısı deyil. Axı bizləri uzun müddət məcbur ediblər ki, bir cür düşünək, başqa cür danışaq, bir başqa tərzdə də hərəkət edək.**

**Göstərim ki, azadhaxlığın, yəni həqiqi demokratik dövlət quruculuğu və idarə sisteminin Qərb anlayışı ilə Şərq, o cümlədən Rusiyadakı anlamı arasında əsrlər boyu əsaslı fərqlər mövcud olmuşdur və hələ indi də mövcuddur. Azərbaycanın dünya siyasətini, Qərbin demokratik dəyərlərini görən və qiymətləndirən uzaqgörən mütəfəkkirləri bu köklü problemə də toxunmuş və sözlərini demişlər. Məsələn, 1921-ci ildə Təbrizdə olan Mirzə Cəlil sosial ədalət millət və xalq adından danışan və hakimiyyətə gələn şəxslərin diktaturasına aparan yolla getdiklərini görmüşdü və "Millət" adlı yazısında bu problemə öz elmi-publisistik münasibətini bildirmişdi. Bu gün üçün də aktuallığını nəzərə alaraq onu oxuculara təqdim edirəm.**

## MİLLƏT

"Millət" ləfzi İranda yoxdur. Nə qədər ki, qamusları (lüğət kitabları) vərəqlədim, nə qədər ki, camaat içində dolandım, - "Millət" sözünü nə eşitdim, nə də bir kitabda gördüm.

O yerdə ki, lüğət kitabında gərək yazılaydı "millət", orada "millət" əvəzinə yazılıb "şəxs". O yerdə ki, söz düşəndə gərək millət sözü danışıla - orda "əşxas" (şəxslər) ləfzi istemal olunur.

Və məhz bu səbəbdəndir ki, bizlərdə millət qurğuları şəxsi qurğular şəklində zühura gəlir, milli işlərimiz əvəzinə şəxsi dəstgahlar peyda olur.

Bu söhbətin bir müxtəsər tarixi var.

Qədim əsrlərdə də belə imiş: yəni millət ibarət imiş bir şəxsdən, ya bir neçə şəxsdən. Millət yox hesabında imiş. Ta ki, ortancı əsrlərin əvailində (başlanğıcında) məşhur filosof Demokrit birinci dəfə olaraq söylədi: "millət", "millət" və bəyan etdi ki, hər məmləkətin tək bircə sahibi var ki, onun adı millətdir.

Bir qədər vaxt bu söhbət yenə fəramuş oldu (unuduldu). Ta ki, miladi tarixinin 1793-cü ilində yer üzünün ən nəcib millətlərindən hesab olunan Firəngistan camaatı yenə bir səs ilə dedi: "millət", "millət!".

Və bundan sonra Firəngistan millətpərəstliyi sayəsində yer üzündə çox-çox millətlər tərbiyə olundu, millətçilik və azadxahlıq bayrağı cəmi məmləkətlərə sirayət elədi və onların cümləsində biz də bir yüngülvari hərəkətə gəldik. Və lakin bircə fərqi buradadır ki, biz dəxi istəmədik qeyriləri təqlid edək, biz özümüz üçün məxsusi bir azadlıq fabrikası bina etdik ki, bu fabrikadan çıxan mal Firəng və Avropa azadixahlığına oxşamasın, necə ki, məsəl üçün, şüşə karxanası, ya ki, əba fabrikası. Bəs çün ki, Qərb mətaı ilə Şərq mətaı mabeyndə (arasında) həmişə bir fərq var, həmçinin Qərb azadxahlığı ilə bizim azadxahlığımızda haman təfavüt əmələ gəldi ki, biz azadlıq binalarımızın bünövrəsini əşxas (şəxslər) üstündə tikdik, millət üstündə tikmədik.

Onun üçün bu 15 ilin müddətində hər vaxtki, özümüz üçün bir azadlıq binagüzarlığı istəmişik eləyək, - özümüzə öz içimizdən bir şəxsi sultan qərar vermişik və o sultandan izn hasil olmamış dinməyə və danışmağa ixtiyarımız olmayıb. Və bunun adını qoymuşuq - azadlıq!

O ki, qaldı millət, - o da kənardan qalıb baxa-baxa. Çünki kənardan baxmağa min-min illərlə adət edib.

Mən heç demirəm bu fabriklərin hansı yaxşıdır, hansı pisdir: hər kəsin meyli hansını çəkər, - onu qəbul elər. Buyur ağa, mərhəmətin artıq.

Əgər meylin çəkir, bunu götür, meylin çəkmir o birini götür; elə ikisi də fabrik malıdır. Ancaq bunu bil və eşit ki, məmləkət və camaat cəmi əfraddan (fərdlərdən) ibarətdir, yoxsa o cız-vızçı və dükançı, başmaqçı və kömürçü, o lüt bambılı qardaşları nəzərdən salıb, böyük əşxası (şəxsi) özüvə büt qərar versən, sənin azadlıq fabrikanın mətaı qeyri-millətlər içində o qədər rəvac tapmaz və axırda fabrikanı bağlamağa məcbur olub, məəttəl qalarsan. Onda dəxi məndən küsmə!

**Molla NƏSRƏDDİN**

*"Molla Nəsrəddin", Təbriz, 1921, N1*

**"Günay" qəzeti, N8, 24 fevral 2002.**

# MİLLİ OYANIŞIMIZIN BANİSİ

## *(Bir yubiley xatirəsi)*

Biz M.F.Axundovla başlayan yeni mədəniyyətin varisləriyik. Azərbaycan maarifçi demokratlarının hazırladıqları milli və mədəni zəmin üzərində formalaşan milli istiqlal hərəkatı milli dövlətçiliyimizin yenidən dirçəldilməsi ilə nəticələndi. Böyük dramaturqumuzun M.F.Axundovun ləyaqətli və istedadlı davamçısı, - Cəfər Cabbarlı öz ustadına həsr etdiyi bir məqaləsində yazmışdı: "O zaman həyatın bir tərəfi sökülür, dağılır, o biri tərəfi başqa və yeni bir biçimdə tikilirdi. Burada Mirzə Fətəli bir mühəndis kimi bu sökülən və tikilən binanın başı yanında durmuş, amansız qələmi ilə "bura sökülməlidir, bura isə tikilməlidir" - deyir, həm də köhnə yaşayışın bütün nöqsanlarını, yaramazlığını, yeni gərdişin isə bütün faydalarını irəli sürür, anladır, qandırırdı".

XIX yüzilliyin yetirməsi olan M.F.Axundovun yaradıcılığı və böyük şəxsiyyəti özündən sonra gələn nəsillərin, ibrət və təcrübə məktəbi, qürur və ilham mənbəyi olmuşdur. 1911-1912-ci illərdə Mirzə Fətəlinin anadan olmasının 100 illiyi çox böyük ləyaqət və məhəbbətlə qeyd edilmişdir. Görkəmli daramaturq yazıçı Ə.Haqverdiyev bu münasibətlə "Xəyalat" adlı xüsusi pyes də yazmışdır.

1938-ci il, dekabrın sonunda bir il gec olsa da, Azərbaycan ictimaiyyəti M.F.Axundovun anadan olmasının 125 illiyini qeyd etdi. 1937-38-ci illərin repressiyaları şəraitində belə bir mərasimin keçirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. "Kommunist" qəzeti dekabrın 29-da bu münasibətlə "Böyük yazıçı və filosof" sərlövhəli baş məqalə, görkəmli ədəbiyyatşünas F.Qasımzadənin "M.F.Axundovun həyat və yaradıcılığı (1812-1878)", filosof H.Hüseynovun "M.F.Axundovun ictimai görüşləri" sərlövhəli irihəcmli məqalələrini dərc etmişdi. Yubiley şənlikləri respublikanın digər şəhər və rayonlarında da keçirilirdi. Bu haqda respublika mətbuat orqanlarında dərc olunmuş çoxsaylı yazılar içərisində "Bakinski raboçi" qəzetində dərc olunmuş "Yazıçının vətənində" (Na rodine pisatelya) sərlövhəli yazı diqqətimi cəlb etdi. S.Kurqanov bu

**yazısında M.F.Axundov və onun nəslinin davamçıları ilə əlaqədar çox maraqlı hadisə və faktları qələmə almışdır. M.F.Axundov adına Respublika Mərkəzi Kitabxanası müdirinin elmi işlər üzrə müavini F.Məmmədov Mirzə Fətəli haqqında araşdırmaları içərisində rast gəldiyi bu yazı barədə mənə məlumat verdi. Burada mənim də vaxtilə təhsil aldığım M.F.Axundov adına Nuxa şəhər 2 nömrəli orta məktəbində keçirilən yubiley şənliyi haqqında geniş məlumat verilmişdir. 64 il sonra həmin yubileyə necə hazırlaşdığımız, necə böyük məhəbbətlə çıxış etdiyimiz xatirəmdə bir daha canlandı.**

**M.F.Axundova, bütünlükdə tarixi mənəvi irsə məhəbbət, vətənə məhəbbət, xalqa məhəbbət, dövlətçiliyimizə, gələcəyimizə məhəbbətdir. Bu il M.F.Axundovun anadan olmasının 190 illiyi tamam olur. Yubiley ərəfəsində 1939-cu il yanvarın 6-da "Bakinski raboçi"də dərc olunmuş "Yazıçının vətənində" sərlövhəli yazını oxuculara təqdim edirəm.**

## *YAZIÇININ VƏTƏNİNDƏ*



Yastı çardaqlı alçaq ev uzaqdan daşlar və quru budaqlar üzərində qurulmuş dağ quşlarının yuvasını xatırladır. Bina dərənin yastı yamacında tikilmişdir. Müxtəlif ləhcəli danışıqların, avtomobil siqnallarının, tikinti meydançalarının uğultularının, radio gücləndiricilərinin səslərinin eşidildiyi Nuxanın get-gəlli küçələri arxada qalmışdır. Biz Nuxanın kənarındakı təpəlikdə yerləşən qədim "gəncəli məhəlləsi" ilə irəliləyir, yarıdağılmış, mamır basmış, alçaq qala divarlarını arxada qoyuruq. Yolumuz dağ qartalının yuvasına bənzəyən binaya doğrudur. Qızılı və məxməri payız yarpaqları səpələnmiş dar küçə bizi qarşısında "Mirzə Fətəli Axundovun evi" sözləri yazılmış yaşıl lövhə asılmış darvazaya aparıb çıxarır. Bu evdə böyük Azərbaycan yazıçısı, dramaturqu,

şairi, yazıçısı anadan olmuş və ilk uşaqlıq illərini yaşamışdır. İndi bu evdə M.Fətəlinin əmisi nəvəsi qoca Ələskər Axundov yaşayır. 52 illik əmək stajı olan, bir zamanlar Nuxa İnqilab Komitəsinin Maliyyə şöbəsinin müdiri işləmiş, indi təqaüdçü Ələsgər Axundov özünün böyük qohumu haqqında bildiklərini müqəddəs xatirələri kimi yaddaşında saxlayır.

M.Fətəli burada böyümüşdür. Anası Nənəxanım xalqının gözəl laylaları ilə onu burada əzizləmişdir. Onun babası - "ikinci atası" axund Hacı Ələsgər ərəb və fars əlifbalarını, böyük maarifçinin sonralar qüdrətli qələmi ilə mübarizə apardığı şəriət qanunlarını ona burada öyrətmişdir. O vaxtdan bu iki balaca otaqda çox şey dəyişmişdir. Yalnız alçaq qara tavan, daş döşəməli "ocaq", soluxmuş mis şamdanlar, əyri budaqları pəncərələrin qabağına sallanan iki tut ağacı Mirzə Fətəli dövrünün xatirəsi kimi qalmışdır. İndi evdə bir neçə işıqlı pəncərə var. Mirzə Fətəli dövründə isə şüşə əvəzinə ağac çərçivəyə vurulmuş yağlı kağızla örtülmüş yeganə pəncərə olmuşdur. Nuxalıların dediyi kimi Ələsgər əmi Mirzə Fətəli Axundov haqqında bildiklərini atası molla Abbas Axundovdan eşitmişdir. Molla Abbas bütün ömrü boyu Nuxanın varlıları və ruhaniləri tərəfindən, "kafir" Mirzə Fətəli ilə qohumluğa görə, ömrü boyu təqiblərə məruz qalmışdır. Bütün şəriət kitablarını bilsə də, ona ibadət imkanı verməmişlər. Mollalıq üçün onu çox savadlı hesab edirdilər. Belə hesab edirdilər ki, barışmaz Allahsızın qardaşına məscid və Məhəmməd dininin ibadətini etibar etmək olmaz.

Mirzə Fətəli təhsil almaq üçün nuxalılara hər cür kömək göstərmişdi. Molla Abbasın üç böyük oğlu Mirzə Fətəli Axundovun havadarlığı sayəsində Sankt-Peterburqda ali təhsil almışlar. Mirzə Fətəlinin uzaq qohumu nuxalı Ələsgər uşaqlıqda ona kitab bağışlamışdır. Ərsəyə çatdıqdan sonra Mirzə Fətəli minlərlə kitab oxusa da, bu hədiyyəni heç vaxt unutmamışdır. Ələsgərin ölümündən xəbər tutduqda onun oğlanlarından öz himayəsini əsirgəməmiş, onları Tiflisə apararaq, təhsil almalarına şərait yaratmışdır. Dərənin sərt yamacındakı binanın hər daşında Azərbaycan xalqının böyük oğlu haqqında xatirə yaşamaqdadır. Sevimli yazıçını daha dərindən başa düşmək və qiymətləndirmək üçün sovet adamları təkrar-təkrar buraya gəlirlər. Ağsaqqal Ələsgər əmi buraya gələn pedaqoqları, yazıçıları, memarları, məktəbliləri, fəhlə, kolxozçu və partiya işçilərini məhəbbətlə qarşılayır. Onların arasında ruslar, azərbaycanlılar, ermənilər, gürcülər, ləzgilər, avarlar var. Qoca Ələsgərin səliqə ilə tikib hazırladığı dəftəri kimlər imzalamamış, burada kimlər olmamış, böyük yazıçı, əziz və yaxın insan haqqında həyəcanlı xatirə sözləri yazmamışlar?...

* * *

106 yaşlı nuxalı Asiya xalanın 30 nəvəsi və 70 nəticəsi var. Ona məhəbbət və ehtiram göstərirlər. Ancaq bir vaxtlar Asiya xala Nuxa varlılarının həyətlərini gəzərək, bayram yeməkləri, qonaqlar üçün yağlı, ətirli plov hazırlamaqla özünə çörək pulu qazanırdı.

Bir dəfə Asiya xalanı zərgər Ağa Cabbarovun evinə biş-düş etmək üçün çağırdılar. Axşam qonaqlar: tacirlər, mollalar, axundlar toplaşmışdılar. Mirzə Fətəli də onların arasında idi. Süfrə başında o mollalarla mübahisə edərək, onları avamlıqda günahlandırır, "Allah payı" olan ərəb əlifbasının yeni, daha sadə, əhalinin geniş kütlələrinə daha asan əlifba ilə əvəz edilməsinin zəruriliyini onlara sübut edirdi.

Burada iştirak edən Mirzə Fətəlinin həmfikirləri - şair İsmi bəy Nakam və Ömər əfəndi həbs edilərək, Yelizavetpola sürgün edilmişlər. Şəhərdə Mirzə Fətəlini axtarırdılar.

Axşam Mirzə Fətəli Asiya xalanın evinin qapısını döymüşdür. Ona divan tutmağa çalışan azğınların cəzasından o, bu sadə aşbazın evində qurtula bilmişdi. Sübh tezdən isə Asiya xalanın evindən saman yüklü araba yola çıxmışdı. Samanın altında "Qurana asi çıxan" Mirzə Fətəli Axundov gizlənmişdi.

Axşam çadraya bürünmüş Asiya xala Mirzə Fətəlinin paltarlarını qışlağa çatdırmış və onu uzaq səfərə, Tiflisə yola salmışdır. M.F.Axundov Asiya xalanın xidmətini unutmamışdır. Bir neçə il sonra o və arvadı Tubu xanım Tiflisə onlara qonaq gəlmiş Asiya xalanı hörmətlə qarşılamış, böyük oğlu İsmayıl vəfat edəndə isə ona maddi yardım göstərmişlər. Nuxa "cəmiyyəti" tərəfindən qovulmuş, Azərbaycan əməkçilərinə divan tutanların, onları aldadanların nifrət etdikləri M.F.Axundov dar ayaqda Nuxadakı sadə bir zəhmətkeş qadının yanında özünə sığınacaq tapdı, onun çöhrəsində nəciblik və öz xalqının əzabkeş əzmkarlığı duyulurdu.

Nuxada dağın döşündəki geniş meydançada əvvəllər mollaların qızışdırdığı nuxalılar "şaxsey-vaxsey" mərasimində zəncir vurub öz qanlarını tökmək üçün toplaşardı. İndi həmin meydançada M.F.Axundov adına 2 nömrəli Nuxa orta məktəbinin daş binası ucalır. Bu məktəbdə işləyən müəllimlərin hamısı sovet hakimiyyəti illəri dövründə təhsil alıblar. Onların əksəriyyəti "Allahın göndərdiyi" başşındıran əlifbanı bilmirlər, o əlifbanı ki, M.F.Axundov bütün ömrü boyu ona qarşı mübarizə aparırdı.

*Qoca Asya xalanın nəticəsi, pioner dəstə rəhbəri Əlövsət Ələsgərovun rəhbərlik etdiyi məktəb dram dərnəyi M.F.Axundovun "Hacı Qara" komediyasının tamaşasını hazırlayır. Bu komediya tamaşaya qoyulan günlərdə tamaşa zalına təkcə məktəblilər yox, onların valideynləri də yığışır, 8-ci sinif şagirdi, dərs əlaçısı, 1938-ci ildən komsomolçu Şirməmməd Hüseynov A.S.Puşkinin ölümünə "Şərq poeması"nı əzbərdən oxuyur. Şabalıdı rəngli qıvrım saçlı bu boy-buxunlu oğlanın qarabuğdayı çöhrəsində diqqəti cəlb edən qaynar gözlərini, onun nazik, amma möhkəm barmaqları ilə qavalı necə şövqlə çalmasını, M.F.Axundovun ölməzliyini yeni qüvvə ilə hiss etdirmək üçün uca səslə necə oxumasını sözlə təsvir etmək çətindir, bunu görmək lazımdır.*

Şirməmməd də məktəb yoldaşları Əli Hüseynov, Mənsur Zeynalov və başqaları kimi Mirzə Fətəli Axundova öz şerini həsr etmişdir.

Vaxtilə xanların və bəylərin, mal-qara saxlayanların, acgöz mollaların və ara həkimlərinin məskəni kimi məşhur olan qədim Nuxada M.F.Axundovun nurlu dühasını nifrətlə lənətləyirdilər. Çiçəklənən ordenli Azərbaycanın üçüncü sənaye şəhəri, fəhlə və kolxozçuların, qulluqçu və tələbələrin, ağıllı və həssas adamların, yeni biliklər əxz etməkdən doymayan insanların şəhəri olan yeniləşmiş Nuxa bu şəhərin böyük sakininin əsərlərini qəbul edir, onun yüksək zəkasına və istedadına, öz xalqının rifahı naminə gördüyü nəcib işlərə yüksək qiymət verir.

**S.KURQANOV**
*"Bakinskiy raboçiy", 6 yanvar 1939.*

**"Günay" qəzeti, N9, 2.III.2002**

# TARİXİ İNKİŞAF PROSESLƏRİNƏ ORİJİNAL BİR BAXIŞ

Təxminən 5 il bundan əvvəl respublika qəzetlərindən birində "Humanistlik düsturu, yaxud təbiətən humanist insan" sərlövhəli bir yazıya rast gəlmişdim. Müsahibə səciyyəli, qeyri-adi fikirlər və mülahizələrlə zəngin sual-cavab məni heyran etmiş və ona əks-səda yazmaq fikrində idim. Lakin müxtəlif səbəblər üzündən qayəmi reallaşdıra bilməmişdim. Söhbət nədən gedir?

1997-ci il aprelin 5-də "Veçernyaya Ufa" qəzetində tanınan və sayılan böyük alim, akademik Azad Mirzəcanzadə ilə qəzetin əməkdaşı Q.İşmuxammedovanın müsahibəsi dərc edilmişdi. Müəllif sual-cavaba keçməzdən əvvəl alim haqqında belə bir qısa məlumat vermişdi: "Başqordostanı bir zamanlar neft ehtiyatlarına görə ikinci Bakı adlandırırdılar. Bakı onun doğma vətənidir, onun kökləri Bakıya bağlıdır. Lakin Başqordostan da ona doğmadır. O, burada öz elmi mərkəzini yaratmış, 14 nəfər elmlər doktoru, neçə-neçə elmlər namizədi yetişdirmişdir. O, neft hasilatı sahəsində yeni perspektivli istiqamətin - reotexnologiyanın banisidir... Başqordostan ensiklopediyasında onun rütbə, fəxri ad və mükafatlarının siyahısına bütöv bir səhifə ayrılmışdır (utanc verici olsa da qeyd edim ki, ASE-da A.Mirzəcanzadəyə cəmi 39 xətt, onunla bir səhifədə daşnak Levon Mirzoyana isə 54 xətt verilib. Bax.VI c.səh.593). Belə bir "Nəhənglə" söhbət üçün 40 dəqiqə əslində heç nə də olsa, biz bəzi aktual məsələlərə toxuna bildik".

Bu aktual məsələlər bu gün də aktual olaraq qalır. Müxbirin ilk sualı belədir: "Azad Xəliloviç, zaman anlayışını siz necə şərh edirsiniz? Götürək elə neft sahəsini. Neçə-neçə "lukoyl"lar, "Yukos"lar yaradır, xaricə neft göndəririk. Benzini isə finlərdən alırıq. Buna necə baxırsınız? Azad müəllimin cavabı: "TAD" (tədricilik, ardıcıllıq, daimilik) qanunu vardır. O, hər şeydən əvvəlcə tədricən, sonra ardıcıl, ən nəhayət bundan sonra daimi görməyi tələb edir. Təəssüf ki, islahatlar keçirməyə başlananda bu qanun nəzərə alınmadı. Ona görə də istədiyimizi qazana bilmədik, necə deyərlər əlimizə gələn elə əlimizdə olandır. "Başqa dövlətlərlə Rusiyanı müqayisə edən alim göstərirdi ki, "Rusiyanın çox böyük şansı var. Bu şans onun təbii sərvətlər xəzinəsidir. Misal üçün, əgər Rusiya heç bir şey istehsal etməsə belə, təkcə təbii ehtiyatları satmaqla Küveytdən pis yaşamaz".

Müxbirin "Axı nə üçünsə yaşamır? - sualına Azad müəllimin cavabına diqqət edin: "- Bilirsinizmi rus xalqının tərbiyəsi nəyə əsaslanır? "DYSQ" qanununa! Duymaq, yaranıb qulluq göstərmək, salamat qalmaq!

Rusların mentaliteti belədir. Məsələyə ciddi yanaşdıqda isə "Mədaxil-məxaric arasında defisit" adlı teoremi xatırlamalıyıq. Vergiləri artırmaqla mədaxili artırmağa çalışanlar yanılırlar. Bu, səhvdir. Yalnız məxarici azaltmaqla mədaxili artırmaq olar. Yüksəliş yolu buradan başlanır".

Küveyt məsələsilə əlaqədar Azərbaycanın BMT-dəki daimi nümayəndəsi olmuş Həsən Həsənovun Nyu-Yorkda neft müqavilələrilə əlaqədar verdiyi bir proqnozu yadıma düşdü. Həsən müəllim də deyirdi ki, 20-ci yüzilliyin sonunda Azərbaycan Küveyt səviyyəsinə yüksələcək. Bəs nə görürük? Doğrudur, bəzi rəsmilərimiz elan edirlər ki, 1993-cü illə müqayisədə indi yerlə-göy qədər fərq var. Əgər bu adamlar öz yaşayış səviyyələri və "qazandıqlarını" nəzərə alıb belə danışırlarsa, sözümüz yoxdur. Söhbət xalqdan gedirsə beynəlxalq təşkilatlar əhalinin çox böyük qisminin kasıblıq həddindən belə aşağı səviyyədə olduğunu elan edir.

Azad müəllimin Rusiyanın əsrlər boyu düçar olduğu bir köklü probləmə münasibətini də xatırlatmaq istəyirəm. "Ötən əsrin ümumdünya şöhrətli Fransa tarixçisi Tokvil qabaqcadan xəbər verib yazmışdır: "XX yüzillikdə iki nəhəng, böyük dövlət olacaqdır: Rusiya və ABŞ, lakin onlar başqa-başqa yollarla gedəcəklər. ABŞ torpaqla vuruşacaq, onu abadlaşdıracaq, Rusiya isə öz xalqı ilə mübarizə aparacaqdır". Azad müəllimin akademik Aleksis Tokvilin (1805-1859) - "Amerikada demokratiya haqqında" (rusca nəşr olunub - O demokratii v Amerike) və "Köhnə nizam və inqilab" (Старый порядок и революция) əsərlərinin müəllifindən iqtibas gətirdiyi fikirlər çox böyük və vacib strateji məsələni dərk etməyə yardım göstərir. Öz xalqı ilə vuruşan, öz daxilində daim düşmən axtaran geniş kütlələrin deyil, bir qrup və dəstənin mənafeyini güdən ölkədə xeyir-bərəkətə rifah və inkişafa nail olmaq mümkün olmamışdır və olmayacaq da.

Müsahibəsində Azərbaycan alimi Rusiyanın gələcəyinə olan nikbin münasibətini özünə məxsus bir şəkildə ifadə edərək deyirdi ki, "mənə ümid və təsəlli verən odur ki, rusiyalılar "Sullproot" - sərsəmliyə davamlı"dırlar (Bu ifadə ingiliscədən hərfən belə tərcümə olunur)... Rusiyalılarda özünü müdafiə qabiliyyəti böyükdür. Ümidvaram ki, qarışıq dövr tezliklə ötüb keçəcək, hər şey öz qaydasına düşəcəkdir".

Azərbaycan iki əsrə yaxın bir dövr ərzində Rusiya ilə, onun qayda-qanunları ilə yaşamışdır. Böyük vətənpərvər alim və vətəndaş akademik Azad Mirzəcanzadənin "Veçernyaya Ufa" qəzetinin əməkdaşı ilə müsahibəsində toxunduğu məsələlər, elmi-nəzəri və təcrübi mülahizələr bizim üçün də faydalı və gərəklidir.

**"Günay" qəzeti, N10, 10 mart 2002**

## MÜSTƏQİLLİK ŞÖVQÜ, BAYRAM SEVİNCİ

Qədim, müqəddəs Novruz şənlikləri yaxınlaşır. Son neçə yüzillikdə cəmisi 13-cü dəfədir ki, bu ümumxalq bayramı müstəqil milli dövlətçilik şövqü və sevinci ilə müşayiət olunur. Nəsillərin arzusunda olduqları, uğrunda can fəda etdikləri bu ikili sevinci Azərbaycan ilk dəfə 1919-1920-ci ildə yaşamışdır. Hədsiz çətinliklərə, saysız qurbanlara, olmazın təcavüzlərə sinə gərən, torpağını və ləyaqətini hifz edən istiqlal mücahidləri Novruzu da layiqincə qeyd etməyi bacarmışdılar. Bu sevinc və iftixar ruhunu biz o zamanın kollektiv yaddaşı olan mətbuat səhifələrindən duya bilirik. 1919-cu ilin mart günlərində Üzeyir bəy Hacıbəyli "Azərbaycan" qəzetində yazırdı: "Millət imtahandan keçdi və parlaq bir surətdə keçdi!... Biz candan əziz tutduğumuz Azərbaycanımızı dünən bolşeviklərlə "hökumətlik" üstündə çarpış-çarpış salan, bu gün isə bolşevikləri köməyə çağıran, dünən ingilislərə yalvaran, bu gün ingilisləri söyən Çurayev, Anaşkin və mikoyanların hava və həvəsinə, keyfmayəşasinə qurban etmək istəmirik.

İmtahan parlaq bir surətdə keçdi. Dost sevindi, düşmən yandı!"

Qeyd edək ki, hədsiz çətinlik və maneələrə baxmayaraq, sənət adamları, qələm sahiblərimiz milli iftixar və vətənpərvərlik ruhunu gücləndirmək üçün çox böyük səy göstərirdilər. Məsələn, 1919-cu ildə, həm də Novruz şənlikləri ərəfəsində müxtəlif mətbəələrdə xüsusi kitablar nəşr edilirdi. "Novruz" mətbəəsi parlaman üzvü Hacı Kərim Sanilinin "Yeni şərqilər, mahnılar", "İran" mətbəəsi Ağa Həsən Mirzəzadənin "Milli nəğmələr", "Azərbaycan" qəzeti mətbəəsi Səttaroğlunun "Ordu marşları" kitablarını nəşr etmişdilər. Bu kitabçalarda müxtəlif janrlı, həcmli, istiqamətli xeyli mahnı mətnləri, aşıqsayağı deyişmələr, bayatılar və s. dərc olunmuşdur. İndi də çox böyük maraq doğuracaq şərqi, mahnı və marşlar, deyişmələri həvəslə oxumaq, mütaliə etmək məncə faydalı olardı. Kitabçalardan iki şeri oxuculara təqdim edirəm.

### QABAQ SÖZ

*Söylədiyim Azərbaycan dilidir,*
*Mən dərdiyim öz vətənmin gülüdür,*
*Bu çaldığın el sazının telidir*
*Gərək səsi ürəkləri oynada.*

*Aşıq bunu çalacaqdır ellərdə,*
*Çoban-çoluq oxuyacaq çöllərdə,*

*İnandığım budur gəzə dillərdə,*
*Çağıralar onu bağda bağçada.*

*Mən bilirəm eşidəndə bu dili,*
*Çırpınacaq Azərbaycan bülbülü,*
*Dindirəcək öz dilində o gülü,*
*Açılacaq şirin söhbət ortada.*

*Gah ərəbin, gahi farsın dilində,*
*Gah onların, gah urusun dilində,*
*Danışardı özgə nasın dilində,*
*Öz dilini yanılmışdı dünyada.*

*Bundan belə tazə yollar açılar,*
*O yollara əlvan çiçək saçılar,*
*Özgə şivə, özgə sözdən qaçılar,*
*Daha bir də biz uymarıq hər yada!*

**"Yeni şərqilər, mahnılar", 1919, səh.3**

## AZƏRBAYCAN

Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı,
Dərələri şirin narlı,
Azərbaycan! Azərbaycan!

Səhraları sünbüllüdür,
İl müdam üstü güllüdür,
Baxçaları bülbüllüdür,
Azərbaycan! Azərbaycan!

Durna gözlü bulaqların,
Cənnət kimi yaylaqların,
Geniş-geniş oylaqların,
Azərbaycan! Azərbaycan!

Ormanında maral bürkür
Çöllərində ceyran ülkür

Göllərində qazlar üzür,
Azərbaycan! Azərbaycan!

İlxında ayqır kişnəşir,
Naxırda buğan güləşir,
Süründə əmlik mələşir,
Azərbaycan! Azərbaycan!

Qayaların əlvan mərmər,
Belində var qızıl kəmər,
Bir yanında bəhri Xəzər,
Azərbaycan! Azərbaycan!

İplik pambıq, yunun çoxdur,
Arpan, buğdan, düyün çoxdur,
Hər şeyin var, nəyin yoxdur,
Azərbaycan! Azərbaycan!

Yer üzündə yoxdur tayın,
Gur-gur axar sənin çayın,
Bol veribdir fələk payın,
Azərbaycan! Azərbaycan!

Laçının var, tərlanın var,
Çoxlu şirin kəlamın var,
Qorxun yoxdur - düşmənin var,
Azərbaycan! Azərbaycan!

***"Yeni şərqilər, mahnılar" 1919, səh.4-5***

**"Günay" qəzeti, N11, 16 mart 2002.**

**Dünyanın kədəri, qürub çağı olduğu kimi, sevinci, dan üzü də var. Bir-birini dabanqırma izləyən bu ədəbi-əzəli qovhaqovda müqəddəs olan əbədi kədər yox, əbədi mübarizədir. Haqq işi, "əqidə, amal və məslək yolunda" ölümə getməkdi. Azərbaycan uğrunda şəhid olan hər bir kəs xoşbəxtdir. Çünki sevgili vətəni yolunda şəhid olmuşdur. Bu müqəddəs kədərin özündə də bir qürur hissi yaşayır. Bu bayram günlərində biz şəhidlərimizin ruhunu kədərdən çox, qürur hissi ilə yad etdik. Bizdən cəmisi səkkiz, onillik məsafədə olan böyük faciələrimizi, müsibətlərimizi unudanlar da oldu.**

**Novruz bayramı ilə Aşura günlərini qarşı-qarşıya qoyub hay-küy salan bəzi din xadimləri isə bizi guya dinimiz uğrunda şəhid olanlara sayğısızlıqda günahlandırdılar. Yaşıllıq, oyanış içində olan dünyamızı "qara" rəngdə görmək istəyən bu cənablara M.Ə.Rəsulzadənin 14 noyabr 1914-cü ildə "İqbal" qəzetinin 790-cı sayında dərc edilmiş "Aşura" yazısını təqdim edirik. Mənə elə gəlir ki, "Aşura" bugünkü aşura günlərimiz üçün də ciddi bir dərsdir.**

## AŞURA

Vaqieyi-Kərbəlanı çox eşitmişik. Əhli-beytin oradakı məzlumiyyətlərini, min dürlü şəkil və növdə dinləmişik. Aşura gününün məzaliminə hər sənə göz yaşı və baş qanı tökərək gəlmişik. Gözlərimizlə bədənimizi zorlayaraq bu xüsusda əcirlər gözətləmişik. Yalnız bu, qiyamətə qədər böyük bir tufani-müsibət qoparan vaqeə haqqında ən azı işlətdiyimiz və ən az zəhmət verdiyimiz bir şey vardır: əql!

Halbuki, bu kimi ictimai və siyasi vəqəələrdən istifadə edə bilmək və onun künhünə və hikmətinə lüzumunca aşina ola bilmək üçün hissiyyati bihudə yerə sərf edən gözyaşlarından ziyadə bundan faydalı nəticələr istehsal edə biləcək əqllə gözyaşlarını siləcək və millətlərə təskinlik bəxş edəcək bu böyük qivvətə müraciət etməli və Aşura vaqeəsi üzərində düşünməlidir.

Bu düşüncə bizə nə kimi bir hiss təlqin ediyor?

İştə iki gün sonra misli gələcək olan bir gün - Aşura!

Yar və ənsari qırılmış, yalnız bir imam! Düşmən çox, aman yox! Ərsə təng. Ölüm mühəqqəq. Buradan qurtarmaq üçün yalnız bir vasitə var: tövbə və iltica!

Bizim indiki tələqqilərimizcə (indiki deyil, Aşura şəhidindən bir az sonra əsaslı bir surət alan "təqiyyə" fəlsəfəsinin zühur elədiyi günlərin düşüncəsinə də belə) buradan çıxılacaq yol mövcud olduğu halda imam ölümünə razı oluyor. Bidət etmək istəmiyor! Cismən ölüyor. Fəqət rühən zində olduğunu isbat ediyor. İstiqaməti-fikir, sabati-məslək və bunların müqabilində vücudun heç bir əhəmiyyəti olmadığını nə müəssir bir surətdə izhar ediyor. Bu nöqteyi-nəzərdən məzlum Dəşt-Neynəva heç də məğlub deyildir. Bəlkə o qalibiyyətin ən böyük bir dərəcəsini təşkil edən ruh əzəməti və qəlb qələbəsinə nail olmuş bir mücahidi-həqiqdir.

Hüseyni məzlum bilib də halına ağladığımız halda hər qism bəla və müsibətləri ancaq ağlamaq və yalnız ağlamaq təriqi ilə istiqbal etmək məzlumiyyətinə öyrənən bizlər, imamın bu böyük ruhu ilə aşina olub ona imtisal etmək xəyalında heç olmuyoruz. Bəlkə də bu hal Kərbəla şəhidini qəbrində də rahatsız etməkdədir.

Din, fikir, elm və millət naminə şəhid və məzlum olanlar bəşəriyyət tarixi ilə, islamiyyət tarixində çoxdur. Bunlar həmişə və hər bir millət arasında təqdim olunar və adları ehtiramla anılar. Bu kimilər haqqında göstərilən ən böyük ehtiram, onların böyüklüklərinə imtisal etməkdən ibarətdir.

Əqidə, amal və məsləki yolunda ölümünə razı olub da nəfsini fəda edən kim olursa-olsun böyükdür.

Və bu böyüklük təqlidəşayan və təhsinə müstəhəqqdir!

Aşura günü bizə böylə bir əxlaq tərbiyəsi vermək iqtidar və səlahiyyətində ikən, eyvah ki, biz onu başqa dürlü qandıq, hər şeydə olduğu kimi burada da narəftə bir yola düşdük. Hüseyn əleyissəlam inandığı və etiqad elədiyi fikri üstündə ölməyincə, özünün əbədi bir rəhmətə nail ola bilməyəcəyini göstərmiş ikən, biz "mən-mənə, o-ona, o-o yana" timsalından dördəlli yapışıb səadətdarini üç-dörd qətrə göz yaşı müqabilində veriləcək qədər ucuz bir şey sandıq.

Fəqət ey matəmgəran, artıq burasını düşünmək zamanı da gəlmişdir. Siz Kərbəla vaqieyi-cansuzinə ağlayırsınız. Fəqət tarixi-hicrinin il başçısı olan tazə məhərrəmdə bir az özünüzü toxdadıb keçən illərə baxınız, həqiqi bir nəzəri-ibrətlə baxmış olsanız Kərbəlanümun bir çox vaqeələr görəcəksiniz. İştə bu vaqeələri də düşününüz. Onlar da sizin nəzər diqqətinizi cəlb etsin. Fəqət yalnız bir rica edirəm ki, artıq bu vaqeələrə ağlamayınız. Çünki ağlamaq dini vaqeələrdə, ruh və imanın nəzarət və istirahəti üçün lazımi bir şey isə də, dünya işlərində fayda gətirməz. Təbiət olduqca qəddar və birhəmdir. O, göz yaşlarına zərrə qədəri əhəmiyyət verməz. O, gülməyə, ağlamağa qarşı laqeyddir. Hə-

lə ağlamaqdan bir az da zəhləsi gedər. Çünki ağlamaq ecaz əlamətidir. Acizlərin isə təbiət ən birinci düşmənidir. Qüvvətli olanları saxlar, zəif olanları əzər-budur onun rəftarı. Siz gəlin də bu xasiyyətindən ötrü ona kəcmədar deyiniz. Fəqət bu onun getdiyi doğru bir yoldur. Təzə ilimizdə köhnəsindəki itirdiklərimizi təlafi etmək istəyirsək, gələn məhərrəmə qədər ağlanacaq hallardan bir az olsun, özümüzü xilas etmək amalında isək, fələyin "gəcmədar" olduğunu anlayalım və böylə bir zalimə qələbə çala bilmək üçün insani boşaldan gözyaşından deyil, fikir istiqaməti və əqidə səbati ilə əməlpərvərlikdən kömək gözləyəlim. Böyük Aşuranın müəzzəm şəhidinə imtisal edərək ruhi-qəhrəmanlığını dərk edəlim ki, ən böyük əcri də ancaq bundan ala bilərik!

**M.Ə.RƏSULZADƏ**
*"İqbal" N790, 14 noyabr, 1914*

**"Günay" qəzeti, N12, 23.III.2002**

## İNTELLEKTUAL MÜLKİYYƏT ƏSRİ

Rusiyanın nüfuzlu elmi məcmuələrindən birində "İdeyalar qazanc gətirməlidir" sərlövhəli maraqlı analitik yazıya rast gəldim. Son 20 ildə inkişaf etmiş ölkələrin keçdiyi tərəqqi yolunu səciyyələndirən məqalədə deyilir: "Əgər ötən əsrin 80-ci illərində müvəffəqiyyətin əsas tərkib hissəsi məhsulun keyfiyyəti, 90-cı illərdə biznes proseslərinin düzgün təşkili həll edirdisə, yeni minilliyin ilk beş ilində rəqabət mübarizəsinin başlıca amili yeni ideyaların "sürətli generasiyası olacaqdır".

Məlumdur ki, inkişaf etmiş ölkələrdə lazımi qaydada tərtib olunan və hüquqi cəhətdən müdafiə edilən ideya intellektual mülkiyyət forması alır, əmtəəyə çevrilir və satılır. Mütəxəssislərin rəyinə görə, hazırda bəşəriyyətin yalnız 15 faizi intellektual mülkiyyət potensialına malikdir. Yeni ideya və ixtiraların tətbiqi və nəticələrindən planetimizin sakinlərinin təxminən 50 faizi xəbərdardır və ondan faydalana bilir. Yerdə qalanlar isə bu ümumbəşəri tərəqqi və inkişaf prosesindən kənarda qalmaqdadır.

İqtisadçı alimlərin fikrincə, XXI yüzillikdə cəmiyyətin iqtisadi inkişafının əsas göstəricisi ixtiraçıların fəallığı olacaqdır. Məsələn, yazır-

lar ki, son iki ildə ABŞ-da qeydə alınmış patentlərin miqdarı 40 faiz artmışdır. Həm də onların böyük əksəriyyəti istehsalata tətbiq edilmişdi. İxtira ilə onun hazır məhsula çevrilməsi arasındakı müddət də getdikcə azalmaqdadır.

Böyük intellektual qüvvəyə və imkanlara malik, onun mülkiyyət və əmtəəyə çevrilməsi sahəsində geridə qalan Rusiyada son vaxtlar bu mühüm qlobal problemə həsr edilmiş ən yüksək səviyyələrdə müzakirələr keçirilməkdədir. Rəsmi şəkildə qeyd edilir ki, son on il müddətində 200 minə yaxın yüksək ixtisaslı elmi işçi Rusiyanı tərk etmişdir. Hər il ölkənin sayılan ali təhsil müəssisələrini bitirən və ixtisasını artıran gənclərin 25 faizi iş üçün xaricə getməyə məcbur olur. Əsas səbəb bir tərəfdən elmə və elmi işçilərə laqeyd münasibət və iqtisadi vəziyyətin ağırlığıdırsa, digər tərəfdən ideya və ixtiraların intellektual mülkiyyət və əmtəəyə çevrilməsi sahəsindəki gerilikdir.

ABŞ-ın Corc Meyson Universitetinin professoru "Elmin əsasları haqqında", "Elm. Gələcəyə baxış", "Hakimiyyət və elm" kimi fundamental əsərlərin müəllifi, əslən rusiyalı olan professor V.N.Soyfer bu yaxınlarda Moskvadakı müsahibələrindən birində demişdir: "Biz texnoloji tərəqqi əsrinə qədəm qoymuşuq və indi dövlət ancaq intellektual təminata əsaslana bilər. İctimai formasiyalar kimi dövlətin tərəqqisi də intellektual ehtiyatlardan asılıdır. Axı hökumət və onu idarə edənlər cəmiyyətin yalnız texniki orqanlarıdır (əlbəttə, əgər bu cəmiyyət totalitarizm xəstəliyinə tutulmayan sağlam cəmiyyətdirsə).

Mənə elə gəlir ki, Rusiyanın taleyinə antiintellektual ənənələrin göstərmiş olduğu mənfi təsiri bu gün bu ölkədə hamı anlayır... Bu gün elmi Rusiyada partiya şüarları ilə məhv etmirlər, ancaq onu alçaldırlar. İndi elmin məruz qaldığı maliyyələşdirməni daha nə cür adlandırmaq olar? Mən istəyirəm ki, böyük ölkənin vətəndaşları bunu dərk etsinlər və özlərinin tapdaq altında qalmasına yol verməsinlər".

Rusiya Felerasiyası rəhbərliyi vəziyyətin ciddiliyini nəzərə alaraq yaxın illərdə büdcədən və digər kanallardan elmə, ideya və ixtiraların tətbiqinə təxsisatları 5-6 dəfə artırmağı planlaşdırır. Elmin maliyyələşdirilməsi işinə xüsusi bölmənin, iri şirkətlərin cəlb edilməsi də nəzərdə tutulur.

Diqqəti cəlb edən problemlərdən biri də elmi kadrların tərkibi və yaşı məsələsidir. Məsələn, əgər ABŞ və Qərbi Avropa ölkələrində elmlə məşğul olanların orta yaşı 45-ə yaxındırsa, Rusiyada bu yaş həddi 56-dır.

Gənc və perspetktivli elmi mütəxəssislər dünya bazarında yüksək qiymətləndirilir. Vəziyyət elə gətirmişdir ki, dünyanın bir sıra ölkələri

ABŞ və Qərbi Avropa ölkələri üçün yüksək texnologiya sahəsində işləməyi bacaran mütəxəssislər hazırlayıb "ixrac" etmək funksiyasını yerinə yetirməli olmuşlar. Bu ölkələr sırasında Çin Xalq Respublikasınıy, Hindistan, Rusiya, bəzi MDB ölkələrinin adları çəkilir. Bu yaxınlarda Almaniya Federativ Respublikasının parlamenti ölkəyə yüksək texnologiya ilə işləməyi bacaran xarici mütəxəssislərin cəlb edilməsini təmin etmək üçün bu barədəki mövcud qanunlara düzəlişlər etmək barədə qərar vermişdir. Göstərək ki, hazırda Almaniyada 4 milyona yaxın işsiz olsa da, 1,5 milyon iş yeri boşdur. Söhbət yüksək ixtisaslı mütəxəssislərdən gedir.

Müstəqil respublikamızda bu sahədə vəziyyət necədir? Əgər görüb-götürdüyümüz, təqlid və tərif etdiyimiz Rusiya son 10 ildə yuxarıda qeyd olunan vəziyyətə düşübsə, özümüzdən nə deyək, nə danışaq! Başımız daha "vacib" işlərdən ayılanda yəqin ki, elm də yada düşəcək! Amma qorxuram yaxın illərə kimi heç yada düşməyə.

**"Günay" qəzeti, N14, 6 aprel 2002**

## AZƏRBAYCAN SİYASİ MÜHACİRƏTİNƏ DAİR DƏYƏRLİ TƏDQİQAT

Qardaş Türkiyədə doktor Səbahəddin Şimşirin "Azərbaycanlıların Türkiyədə siyasi və mədəni fəaliyyətləri (1920-1991)" adlı monoqrafiyası nəşr olunmuşdur. Sağ olsunlar, bu kitabın bir nüsxəsini mənə də göndərmişlər. Onu çox böyük həvəs və diqqətlə oxumuşam. İlk təəssüratımı oxucularla bölüşmək istəyirəm. Əvvəla, Səbahəddin Şimşir haqqında: 36 yaşlı bu cavan və kamil tədqiqatçı Türkiyənin Balakəsir elində dünyaya göz açıb, Egey Universiteti tarix bölümündə ali təhsil alıb, hazırda bu universitetin Atatürk prinsipləri və inqilab tarixi bölümündə çalışır. Bütün elmi yaradıcılıq fəaliyyətini Azərbaycan siyasi mühacirət tarixinin tədqiqi işinə, bütövlükdə Azərbaycanda XX əsrdə cərəyan edən hadisələrin öyrənilməsinə həsr edir. Bu vaxta qədər onun "M.Ə.Rəsulzadənin Türkiyədə həyatı fəaliyyətləri və düşüncələri" (1995), "Azərbaycan problemi" (1996), "Stalinlə ixtilal xatirələri" (1997) kitabları, "Əlibəy Hüseynzadə və bir kitab" (1993), "Türkiyədə Azərbaycan mətbuatı" (1995), "M.Ə.Rəsulzadənin Türkiyəyə gəlişi" (1998) və bu kimi çox dəyərli məqalələri işıq üzü görmüş və çox böyük maraq və

rəğbətlə qarşılanmışdır. Söhbət gedən 5 fəsil və 256 səhifəlik monoqrafiya gərgin və diqqətli araşdırmaların nəticəsidir. 11 səhifədən ibarət zəngin biblioqrafiya (s.187-198), arxiv sənədləri, araşdırılan 41 adda mətbuat orqanı, monoqrafiyaya əlavə edilmiş sənədlər bunu bariz şəkildə nümayiş etdirir. Monoqrafiyanın şəxsi adlar siyahısı da tədqiqatla bilavasitə bağlı olan 655 nəfərin adı qeyd olunmuşdur.



Əsərin 1920-1930-cu illəri əhatə edən birinci bölümündə Azərbaycan Cümhuriyyəti ərazisinin 1920-ci il aprelin 27-28-də bolşevik silahlı qüvvələri tərəfindən işğal edilməsi, azərbaycanlıların qətllər, həbs və təqiblər üzündən ölkəni tərk etməyə başlaması, M.Ə.Rəsulzadənin Moskvaya aparılması və oradan qaçmağı bacarması, İstanbula gəlişi və orada digər mühacirlərlə bərabər fəaliyyətə başlaması, Azərbaycan Milli Mərkəzinin təşəkkülü, Azərbaycan Gənclər Birliyinin yaradılması və ilk mətbuat orqanlarının nəşri və fəaliyyətindən yığcam, tarixi sənəd və faktlardan söhbət açılır.

İkinci bölüm 1931-1947-ci illəri əhatə edir. Göstərilən çox mürəkkəb, keşməkeşli və dəhşətli çarpışmalar, ölüm-dirim müharibələri şəraitində Azərbaycan siyasi mühacirlərinin, milli mərkəzin, onun rəhbərlərinin Avropadakı və Türkiyədəki gərgin fəaliyyətləri nəzərdən keçirilir, Azərbaycan Demokratlar Birliyinin, Müsavat Partiyasının Azərbaycan istiqlal davasına yönəldilmiş təşkilati, nəşriyyat və siyasi nəzəri tədbirlərindən ətraflı danışılır. Burada həmçinin türk mətbuatında azərbaycanlıların fəaliyyətinə dair maraqlı nümunələr verilir.

Monoqrafiyanın 1947-1955, 1955-1991-ci illəri əhatə edən üçüncü və dördüncü bölümlərində Azərbaycan mühacirlərinin təkrar Türkiyəyə gəlmələri, Müsavat Partiyası və Milli Mərkəzin burada yenidən təşkilatlanması "Azərbaycan müdafiə hüquq Cəmiyyəti", "Azərbaycan Kültür dərnəyinin" qurulması, digər dərnək və təşkilatların fəaliyəti tədqiq olunur, araşdırılır. Azərbaycan istiqlal davasının bir an belə səngimədiyi qeyd olunur. Bu dövrlərdə də nəşr olunan qəzet, məcmuə, kitab və kitabçaların hər biri, onların ideya-siyasi istiqaməti, iştirakçıları haqqında obyektiv, ümumiləşdirilmiş mülahizələr söylənilir. M.Ə.Rəsulzadənin 1955-ci il martın 6-da vəfatından sonra Müsavat Partiyası başqanlarının hər birinin fəaliyyət dövrü əsaslı təhlildən keçirilir.

Doktor Səbahəddin Şimşir kitaba yazdığı ön sözündə doğru olaraq qeyd edir ki, "Günümüz türk dünyası ilə ilgili başda dövlətə bağlı olmaq üzrə dəyişik qurum və quruluşlar tərəfindən çalışmalar yapılmaqdadır. Ancaq, bu çalışmalar tarixin şahidi olduğu hadisələr, yəni dün kü, mücadilə və bu mücadiləyə dayaq olan insanlar, qurum və quruluşlar ələ alınmadan, araşdırılmadan yapılarsa, fəzlə faydalı ola bilməz". Biz də müəllifin bu fikri ilə razılaşırıq, çünki atalar demişkən axı hal-hazırın kökü keçmişdədir, keçmiş isə gələcəyin iynəsidir.

Azərbaycan Milli Mərkəzi başqanı, mühacirətdə milli mücadiləmizin əsas təşkilatçılarından və ağsaqqallarından biri, şəxsən tanıdığım, böyük hörmət və ehtiram bəslədiyim doktor Məhəmməd Kəngərli monoqrafiyaya çox məzmunlu, əhatəli bir təqdimat (sunuş) yazmışdır. Ömrünü vətənin istiqlalı yolunda mübarizəyə həsr etmiş, M.Ə.Rəsulzadə ideyalarına sədaqətlə seçilən, yaşı 90-ı haqlamış böyük vətənpərvər ixtiyar yazır: "Bu əsərdə, milli liderlərimizlə, önəmli bəzi siyasi şəxsiyyətlərimizin fəaliyyətləri və tərcüme-yi hallarına təmas edilmişdir. Ancaq, Azərbaycanın milli müstəqillik davası kimi, cahanşümul bir siyasi hərəkatın içərisində yer alan hər kəsin ayrı-ayrı tək bir monoqrafiya çərçivəsində incələnərək qiymətləndirilməsi, razı olarsınız ki, bəzi ölçü sərhədləri içərisində imkansızdır. Zira vətənpərvər və müstəqillik qəhrəmanları və iştirakçılarının hər biri haqqında bir monoqrafiya, dissertasiya yazmaq olar. Bunu Azərbaycanımızın gənc qızıl qələmli gənclərindən gözləyirik... Azərbaycan türklərinin qəlblərində yaşayacaq olan siyasi mühacirlərin fani dünyadan köçən şəxsiyyətlərinin heç olmasa adlarını xatırlamaq, yad etmək vacibdir". Doktor M.Kəngərli M.Ə.Rəsulzadə başda olmaqla 100-ə yaxın ən görkəmli istiqlal fədailərinin adlarını çəkir və sonda yazır ki, "Milli davada: Milli iradə, iman, inanc (səbat) əzm və təcrübə maneələri aşaraq hədəfə aparan yoldur. Bütün dönəmlərdə siyasi liderlərimiz yaranmş əngəlləri aşaraq istiqlala yetişməyi başarmış və millətimizi arzuladığımız hədəfə aparmışlar. Qoy rahat olsunlar! Azərbaycan türkləri bu müqəddəs mirası əbədiyyətəcən qoruyacaqlar!"



Vətənimiz Azərbaycanın Şimalı yeni yüzilliyə dünyaca tanınmış, müstəqil bir dövlət kimi qədəm qoymuşdu. Aydındır ki, digər dünya xalqları kimi bizim də müstəqil dövlətçilik yolumuz hamar və asan olmamışdır. Torpağımızı və varlığımızı xarici düşmənlərdən və daxildə milli şərəfsizlərdən qorumaq yolunda can fəda edən və hətta mübarizəni davam etdirmək qəsdi ilə vətən torpağını tərk etməyə məcbur olan minlərcə mücahidlərimiz olmuşdur. Onları anmaq, şərəf və qeyrət tariximizi tədqiq edib öyrənmək və nəsillərə öyrətmək müqəddəs vəzifə, borcdur. Bu sahədə bizə hərtərəfli köməklik edən və nümunə göstərən qardaş Türkiyənin elm adamlarına, o cümlədən dəyərli monoqrafiya müəllifi doktor Səbahəddin Şimşirə və ona çox böyük yardım göstərən və himayədarlıq edənlərə dərin təşəkkür və şükranlarımızı bildiririk.

**"Günay" qəzeti, N15, 13 aprel 2002.**

## MİRZƏ ƏLƏKBƏR SABİR - 140

**Xalqımızın fəxri, 1914-cü ildə "Hophopnamə"nin Abbas Səhhət tərəfindən çox böyük çətinliklə həyata keçirilmiş nəşrində "Qafqaz türk xalq şairi" adlandırılmış M.Ə.Sabirin anadan olmasının 140 illiyi yaxınlaşır. Bu tarix may ayının 30-na, milli istiqlal bayramından iki gün sonraya düşür. Mən, böyük vətənpərvər, bütün varlığı ilə torpağına və xalqına bağlı Sabirsiz istiqlalın qələbəsini təsəvvür edə bilmirəm. Oyanmamış xalq, millət, müstəqillik savaşı da apara bilməzdi. "Dürr saçan təbi ilə" M.Ə.Sabir bir mücahidlər ordusunun görə biləcəyindən də qat-qat artıq iş görmüşdür.**

**M.Ə.Sabirin ilham atının ədəbi-siyasi meydana çıxmasında və məharətlə çapmasında 1905-ci il inqilabından sonra Tiflisdə və Bakıda, onun kimi qeyrətli və istedadlı ziyalıların nəşr etdikləri mətbuat orqanları: "Həyat", "İrşad", "Molla Nəsrəddin" və digər dövri mətbuat orqanları böyük rol oynamışlar. Cəmi 6 il - 1905-1911-ci illər ərzində M.Ə.Sabir böyük və zəngin bir irs yaratmışdır. Heç vaxt öz dəyərini itirməyəcək bu irsin toplanması, dəyərləndirilməsi, tədqiqi və nəşrilə böyük bir sabirşünaslar ordusu məşğul olmuşdur. Böyük şairlə ünsiyyətdə olan, onun yaradıcılığına və şəxsiyyətinə məftun olanlardan biri də görkəmli tədqiqatçı-ədəbiyyatşünas, jurnalist və publisist Salman Mümtazdır. Onun "Sabir haqqında xatirələr"ində biz bunu**

bariz şəkildə görürük. Həm də məlum olur ki, S.Mümtaz M.Ə.Sabirdən müsahibə alan ilk və yeganə jurnalistdir. Əhvalatı o belə təsvir edir: "1910-cu ilin iyun ayında mən Bakıya gəlmişdim və Bakıdan da Tiflisə gedəcəydim. Burada təsadüfi olaraq ikinci dəfə Sabirlə görüşə bildim. Bu da Aşqabaddan 1893-cü ildə ilk dəfə Sabirlə görüşdüyümüz tarixdən 17 il sonra idi..."

1910-cu ilin iyununda M.Ə.Sabir Haşımbəy Vəzirovun gündəlik "Səda" (1909-1911) qəzetində korrektor (müsəhhih) işləyir və "İslamiyyə" mehmanxanasında qalırdı. Əvvəlcə "Metropol" mehmanxanasına düşən S.Mümtaz Sabirlə görüşdükdən sonra onun qaldığı mehmanxanaya köçür.

S.Mümtaz yazır: "... Sabiri öz nömrəmə gətirdim və qalmağı təklif etdim. Sabir razı oldu. Əlahiddə krovat qoymaq mümkün olmadığından krovatımı ona verərək özüm kuşetkanın üstündə uzandım.

Sabir yarım saatdan çox o böyrü və bu böyrü üstündə çevrildi. Səbəbini soruşduqda krovatdan şikayət edərək "məni atıb-tutur", - dedi. Yerimizi dəyişdik. Kuşetkanın üstündə uzanan kimi "ox, buna nə demişəm, mən prujinli krovatı harda görmüşəm" - deyərək yatdı... Gecə gec yatmağımıza görə səhər bir az gec durmalı idik. Lakin konkaların zənginin səsi və bazar əhlinin hay-küyü buna mane oldu və o gün Sabirlə aşağıdakı müsahibəmiz oldu".

Qeyd edim ki, M.Ə.Sabirdən ilk müsahibə alanda S.Mümtazın 27 yaşı, şairin isə bu vaxt 48 yaşı vardı. 1911-ci ildə M.Ə.Sabir dünyasını dəyişəndə onun yaradıcılığına və şəxsiyyətinə vurğun olan S.Mümtaz "Böyük Sabirə" adlı şerini yazmış və dərc etdirmişdi. Bu barədə tədqiqatçılar A.Zamanov və R.Tağıyev ətraflı yazmışlar.

M.Ə.Sabirin bu ilk maraqlı və olduqca dəyərli müsahibəsini yubiley ərəfəsində oxuculara təqdim edirəm.

## *M.Ə.SABİRİN YEGANƏ MÜSAHİBƏSİ*

**Sual: - Sizin ilk təxəllüsünüz olan "Hop-hop" sözünün mənası nədir və nə səbəbə bunu qəbul etmisiniz?**

Cavab: -Bu təxəllüsü mənə əziz dostum Məşədi Həbib vermişdir. Hop-hop quş adıdır. Bu quşun bu addan başqa el arasında yenə bir neçə adı vardır ki, Fatmabacı, bu-bbu, op-op və şanapipik o cümlədəndir. Məşədi Həbib mənə "Fatmabacı" deyə xitab etmək üçün bu adı intixab etmişdir (seçmişdir). Mən də bunun əvəzində onun təxəllüsünü "Qızdırmalı" qoymuşam ki, mənasını hələ bu günə kimi anlaya bilməmişdir.

**Sual: - Nə səbəbə təxəllüsünüzü tez-tez dəyişdirirsiniz?**

Cavab: - Bunu şirvanlılardan və mühitdən soruşmalısınız.

**Sual: - Abbas Səhhətin neçə yaşı vardır? Siz böyüksünüz, yoxsa o?**

Cavab: - Başda o böyükdür, yaşda mən.

**Sual: - Səhhət dərin savadlıdırmı?**

Cavab: - Mən onun şagirdiyəm, o mənə ustaddır.

**Sual: - Osmanlıların klassik şairlərindən kimləri bəyənirsiniz?**

Cavab: - Ziya Paşa ilə Namiq Kamal bəyi.

**Sual: - Tofiq Fikrəti bəyənirsiniz, düzdürmü?**

Cavab: - Siz, Osmanlı şairlərini soruşdunuz, mən də fikrimi dedim. Fikrət ərəb şairidir (M.Ə.Sabir T.Fikrətin əsərlərində ərəb sözlərinin çox işlədildiyini yəqin ki, nəzərdə tuturdu - red.).

Bu adda türk şairi yoxdur. Yaxşı olardı ki, bunu Məhəmməd Hadi əfəndidən soruşaydınız. Yaxşısını o bilər (M.Hadinin də şerlərində fars və ərəb sözləri çoxdur, Sabir ona da işarə eqirəi - red.).

**Sual: - "Molla Nəsrəddin" məcmuəsinin 18-ci nömrəsindəki "Gözəlim" ünvanlı şerinizin 3-cü və 5-ci bəndləri ayrı bəhrdədir. Bunun səbəbi və hikməti nədir?**

Cavab: - Hikməti və səbəbi mürgüləməkdir. Mən gecələr "Səda" qəzetində ("Səda" 1909-1911-ci illərdə N.Vəzirovun nəşr etdiyi gündəlik qəzet idi. -Ş.H.) korrektorluq edirəm. İdarə xüsusi teleqramlar almır. O qədər gözləyir ki, "Kaspi", "Həqiqət" və sair qəzetlər çap olub çıxır. Onlar çıxandan sonra teleqramlar tərcümə olunur, düzülür, basılır, mən də korrekturasına baxıram, mən o şeri Haşım bəyin mətbəəsində gecə yarısı yazmışam və yazarkən mürgüləyib sonra da yuxulamışam. Yuxudan ayılandan sonra da mabədini yazmışam. Şer təb olub gələndən sonra səhvini başa düşmüşəm ki, bu da çox gec idi.

**Sual: - Mətbu şerlərinizin hansını çox bəyənirsiniz?**

Cavab: - Heç birini. Bəyəniləsi şerləri sonralar yazacağam.

**Sual: - Sonra nə vaxt?**

Cavab: - Mürgüləməyəndə.

**Sual: - Nə üçün şerlərinizi heca vəznində deyil, əruz bəhrində yazırsınız və şerin əski formalarını, şəkillərini şiddətli surətdə mühafizə edirsiniz?**

Cavab: - Bu çox mühüm məsələdir. Görüm öz fikrimi deyə biləcəyəmmi. Məncə yeni fikirləri və yeni mövzuları mütləq əski formada və əruz bəhrlərində vermək və yazmaq lazım, həm də vacibdir. Bunları birdən-birə dəyişib oxucunu ədəbiyyatdan yadırğatmaq və soyutmaq olmaz. İri-iri toplar ilə hücuma keçən düşmənin qabağına sədəf dəs-

təli və qızıl suyu ilə yazılı gümüşü xəncəl ilə çıxmaq ağılsızlıqdır. Əruz bizim deyildir. Bunu hamı bilir. Lakin 13 əsrdir ədəbiyyatımızı mühasirəyə almışdır. Bu mühasirə də böyük-böyük ustadların planı, nəqşəsi və əlləri ilə olmuşdur. Bu mühasirəni yarıb ədəbiyyatımızı xilas etmək, yenə yuxarıdakı ustadlar kimi böyük ustadların əlləri ilə mümkün olacaqdır.

Böyük şairləri də, ustadları da ancaq bilik və xalq yetirə bilər. Şair elin, xalqın hökmranı və gözünün işığı olmalıdır ki, o nə desə xalq ona baxsın və nə yazsa el oxusun. Bu hökmranlıq da yalnız elin ruhunu bilməklə və tələblərini ödəməklə olar. Elin halına yanmayıb güclə hökmranlıq edənlər "dostum" Əbdülhəmid və Məmmədəlinin gününə düşərlər.

Şer ilə musiqi birdir. Bunların hər ikisi də insanların ruhu ilə əlaqədardır. Lakin şer yüksəkdir və onun məqamı (vəzifəsi) ucadır. Şer musiqisiz olar, musiqi şersiz olmaz. Elin ürəyindən deyilən şerlər başdan-başa musiqidir. Çünki hər bir kəs onu öz ahənginə uydurub oxuyacaqdır.

Musiqimizdə segah, çahargah, şur, rast və sair muğamlar vardır. Bunlar bizim deyil, gəlmədir, amma bizimdir, ruhumuza kök salmışdır, ruhumuzun qidasıdır. Bu muğamlar əruz bəhrləri ilə bir tarixdə yurdumuza gəlmişdir və bir tarixdə də gedəcəkdir. Bunların həyatı bir-birinə bağlıdır. Dörd yüz ildən bəridir Füzulinin şerlərinin şöhrəti bütün Şərqi qapsamışdır. Hamı o şerləri əzbərdən bilir və istədiyi zaman sevə-sevə oxuyur. Halbuki, bu şerlər başdan-başa əruz bəhrlərində yazılmışdır. Sədinin, Hafizin qəzəllərinin qabağına ancaq qəzəl ilə çıxmaq olardı ki, Füzuli bunu duymuş, çıxmış və onların nüfuzlarını qırmışdır.

Mən Füzuli "Divan"ına Füzuli qəzəllərinə başdan-başa nəzirə yazmaq fikrindəyəm, yəni o formada və o bəhrlərdə olmaq şərti ilə yeni-yeni mövzularda qəzəllər yazacağam. Hələ bir neçə nəzirə də yazmışam.

***Ah eylədiyim nəşeyi-qəlyanın üçündür,***
***Qan ağladığım qəhveyi-fincanın üçündür.***

* * *

***Könlüm bulanır kuçədə cövlanını görcək,***
***Nitqim tutulur hərzəvü hədyanını görcək, -***

mətləri (qəzəlin ilk beytləri) ilə başlanan qəzəllər də o cümlədən olaraq Füzulinin aşağıdakı:

***Ah eylədiyim sərvi-xuramanın üçündür,***
***Qan ağladığım qönçeyi-xəndanın üçündür.***

* * *

***Könlüm açılır zülfü-pərişanını görcək,***
***Nitqim tutulur qönçeyi-xəndanını görcək.-***

mətləli qəzəllərinə nəzirədir.

Şer odur ki, mövzusu həyatdan götürülüb, özü də açıq və aydın yazılsın, həm də xalqın ruhuna uyğun yazılsın. Beş gün, üç gün ömür eyləyib yaşayan şerlərə şer deyilməz. Xalqın oxumadığı, əzbərləmədiyi şer, şer deyildir. Çünki onların əsası və bünövrəsi yoxdur, onlar hübab (yağış yağanda su üzünə çıxan qabarcıq, köpük) gəmisi kimi tez çıxıb, tez də batarlar. Elin ruhundan, ürəyindən, qopmayan şerlər xalqın ruhunda heç bir zaman həyəcan əmələ gətirə bilməz.

Bir adamı rahat oturduğu yerdə yerindən durquzub oynatmaq üçün ona onun könlü istədiyi və sümüyünə düşdüyü hava çalınmalıdır. Belə olmasa o, qollarını açıb süzə bilməyəcəkdir.

Əziz dostum və ustadım olan Səhhət mənim fikrimin bəzi nöqtələri ilə şərik olmursa da eybi yoxdur. Bunu gələcək göstərəcəkdir...

Sabir mənim "Molla Nəsrəddin" məcmuəsində seyrək-seyrək şer yazmağımın səbəbini soruşdu. Mən də bacarıqsızlığımı və vaxtımın az olduğunu söylədim. "Bunlar bəhanədir - dedi. Ziya Paşanın məşhur tərkib bəndinin iki parçasına iki saata kimi nəzirə yazmağımı tapşırdı.

Mən də itaət edərək yazdım. Sabir bəyəndi və bir sətrini də təshih etdi.

**"Günay" qəzeti, N16, 20 aprel 2002.**

## TARİXİMİZİN QARA GÜNLƏRİNDƏN BİRİ - 27 APREL

27 aprel 1920, saat 20, dəqiqə 45. Müstəqil Azərbaycan Cümhuriyyəti parlamentinin təcili fövqəladə axşam iclası. Hədsiz mərhumiyyətlər və qurbanlar bahasına bərqərar olmuş və dünyaca yenicə tanınmış müstəqil demokratik cümhuriyyət və onun xalqının və torpağının taleyi müzakirəyə qoyulmuşdur. Əslində daşnakların da qatıldıqları rus sovet bolşevik ordusu artıq Şimaldan Azərbaycan sərhədlərini keçmiş Bakıya doğru irəliləməkdə idi. Bu işğala "qanuni" don geyindirmək üçün parlamenti təcili toplamışdılar. Moskvada hazırlanan və yerli kommunistlərin əli ilə parlamentə təqdim olunan ultimatum "müzakirəyə" qoyulmuşdu. Rusca yazılmış ultimatumun məzmununu komissiya sədri M.H.Hacinski qısaca belə tərcümə edirdi: "Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, hökuməti onlara təslim edək. Bununla belə, əmin edirlər ki, onların şərtlərini qəbul etsək, Qızıl Ordu əsla Bakıya gəlməyəcək... Azərbaycan parlamentinə daxil olan siyasi firqələr bərabər və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən, hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar".

Bu aldadıcı, riyakar və yalan vədlərin nə ilə qurtardığı, nəticələndiyi tarixə və dünyaya bəlli olsa da daxildə bu işğala rəğbət bəsləyən və ona haqq qazandırmaq istəyən dairələr hələ indi də mövcuddur. 82 ildir ki, vətəni tərk etməyə məcbur olmuş istiqlal mücahidləri, onların vətənə sədaqətli övladları 27 apreli qara bir gün, 71 illik sovet rejimini tariximizin, demokratik dövlətçiliyimizin itirilmiş illəri kimi qeyd edirlər. Bizlər isə onu uzun müddət "bayram" etmişik. Həm də bu işğal gününü xarici mühacirət Rusiya imperiyasının dörd yüz ildən artıq bir müddətdə türk-islam xalqlarına qarşı qanlı təcavüz günlərindən biri kimi qeyd etmişdir və edir. 1923-cü ildə M.Ə.Rəsulzadənin İstanbulda nəşrini təşkil etdiyi "Yeni Qafqasiya" məcmuəsinin 1927-ci ildə 27 aprel Azərbaycan matəmi ildönümünə həsr etdiyi xüsusi nömrəsində oxuyuruq: "Rus (imperatorluğu) kabusu altında inləyən türk və islam ölkələrinin bir çox matəm günləri vardır:

1552, oktyabrın 2-si Kazan xanlığının süqutu günü;

1740, avqustun 10-u Başqırdıstan mücahidlərinin istiqlal mücadilələrinə ən son zərbə endirilərək mücahid Qara Saqqal Sultan Gireyxanın fərarə məcbur olduğu və 5 min əsir başqırdın edam edildiyi gün;

Sibiriya türk xanlığının süqutu, kazax-qırğız türklərinin "Orda"larının rus əsarətinə boyun əydiyi, Krımın dünki köləsinə itaətinə məcbu-

riyyətinə qaldığı günlər;

1804, 3 yanvar Gəncənin süqutu ilə Azərbaycan qəhrəmanı Cavad xanın şəhid düşdüyü gün;

1859, 25 avqust günü Dağıstan mücahidlərinin ən son istehkamı "Günnib"in süqut etdiyi, qəhrəman Şamilin əsir düşdüyü gün;

1865, 14 iyul - Türküstan Mərkəzi Daşkəndin müdafiəçisi Əlim Qolun şəhid düşüb, şəhərin rus əlinə keçdiyi gün".

Jurnal yazırdı ki, "27 aprel, bu hesabsız qara günlərimizdən çox xüsusiyyətləri ilə ayrılan böyük bir matəm günüdür". Nədir bu xüsusiyyətlər, gəlin müstəqil Azərbaycan xalq cümhuriyyətinin yaradılması işinə başçılıq etmiş, istiqlal hərəkatının ideoloqu və lideri M.Ə.Rəsulzadənin məcmuənin söhbət açdığımız xüsusi nömrəsində dərc olunmuş "Böyük faciə" sərlövhəli baş məqaləsi ilə tanış olaq!

## BÖYÜK FACİƏ

Böyük faciə!

İştə türk tarixçisinin bundan 7 il əvvəl Bakıda vaqe olan hadisəyə verəcəyi ən müvafiq bir ism.

Yüz sənəlik bir əsarət dövrü, bu dövrdə yaşanan tarixin müxtəlif həyat səhifələri, məhkumiyyət və əsarət. Hər dürlü hürriyyət və istiqlal təsəvvürlərini xatir və xəyaldan silən ümidsiz günlər! Rus səltənətinin sarsılmaz təsəvvür olunan əzəmət və dəhşətinə qarşı qaranlıq yas və yuxusu, acı və qaba təslimiyyət dövrünün öz ağrısından əmələ gələn bir təsirlə bu acıyı duymamaq bədbəxtliyi!..

Zaman keçir. Çar idarəsi sarsılır. Əsrin fikirlər üzərində təsir yapan hakim şüarları Rusiya əsarəti altında yaşayan millətlərə qədəri - əks edir. Böyük hərəkət başlanır. Bu hərəkatdan təsirlənən Azərbaycan türkü də özünü bir millət olaraq hiss edir. Türk mədəniyyət və milliyyətçiliyinin cərəyan və inkişafı nisbətində Azərbaycanda siyasi istiqlal fikir və qayəsi də qüvvələnir. Azərbaycan xalqı xilas gününü gözləyir!

Bu gün gəlir. Hərbi-ümumi-Şərqin qara bəlası, yəni türk və islam dünyasının ədəbi düşməni! Rusiya imperatorluğunun məğlubiyyəti zərurət olur. Millətlər düşdükləri bu məhbəsin barılarını yarır, hürriyyət dünyasına çıxırlar. Azərbaycan da fürsəti əldən vermir. Türk və islam dünyasında ilk dəfə bir cümhuriyyət təsis edir. Azərbaycan Xalq Cümhuriyyəti!

Azərbaycan Xalq Cümhuriyyəti - bu cahan tarixində, şübhəsiz, çox böyük bir dövr təşkil edəcək hərbdən sonrakı Milli Şərq demokratiya-

sı cərəyanının bəlli-başlı bir hadisəsi, bu cərəyanın mahiyyət etibarilə üç kəlmədə xülasə edilmiş rəmzi bir ifadəsidir!

Bu ilk türk cümhuriyyətinin, xüsusilə, Türkiyəni də cəlb etdiyi əlaqə səbəbsiz deyildi. Çökən Osmanlı səltənəti yanında yüksələn bu xalq hakimiyyəti türk xalqının tarixi həyatiyyətə malik olduğuna bir işarət idi. Əslində elə də oldu. Səltənətin batırdığı Türkiyəni cümhuriyyət fikri və sistemi qurtardı. Saray batdı, xalq yüksəldi. Dörd gün əvvəl bütün Türkiyə iştə bu yüksəliş gününü bayram edirdi.

Fəqət tam bu sırada, istiqlalına hənuz qovuşan Azərbaycan, beynəlmiləl vəziyyətdə zühur edən siyasi tufana düçar oldu. Həyatının ikinci sənəsini daha tamamilə dərk etmədən, fəlakətin ən böyükünə məruz qaldı, istiqlalını qeyb etdi.

Əvət, 1920 sənəsində bu günün misalında, qızıl rus ordusu tərəfindən işğal altına alınmaqla Azərbaycan cümhuriyyəti hər dürlü hürriyyət və istiqlalını qeyb eləmişdir. Bolşeviklərin Azərbaycan hürriyyət və istiqlalına təcavüz etmədiklərinə vaxtilə inanan vardısa da, indi heç olmazsa Türkiyədə, bu əfsanəni səmimi olaraq ciddi qəbul edən tək bir şəxsə təsadüf ediləməz!

Sənələrdən bəri gözlədiyimiz səadəti, əldə etdiyi günün sabahında qeyb etmək kimi ani fəlakətə məruz qalan Azərbaycan xalqının düçar olduğu faciə həqiqətən də böyükdür. Bu faciələr düşmənin eyni irqdən və eyni mədəniyyətdən olan ögey qardaşla dost olması ilə artmaqda idi ki, bu faciə, əvvəlki dərəcədə olmasa da indi də davam etməkdədir.

Azərbaycan faciəsi həqiqətən də böyükdür. Hakim olan qüvvə yeni şüarlar və yeni rənglərə malik olsa da, əski rus siyasətini təmsil edir və tətbiq etdiyi də milliləşdirmək rejimi ilə çarların ruslaşdırma siyasəti ilə müvəffəq olmadıqları nəticəyə gəlirdi.

27 aprel aldatması ilə Azərbaycana girən qızıl ordunun məmləkətdə bərpa etdiyi dəhşət və törətdiyi zülm və vəhşəti burada sayacaq deyilik. Bu xüsusda bu sütunlarda vaxtilə çox yazılmışdır. Elə bu nüsxənin digər səhifələrində dəxi oxucu bu barədə az-çox məlumat bulur.

Fəqət biz hürriyyət, milliyyət, ədalət və müsavat məfhumlarının hamısını tərsinə bir-birinin arxasınca düzən zalım bir idarə altında, hər cür xüsusiyyət və haqqından təcridlə Moskvanın köləsi hökmünə düşən zavallı məmləkətin keçirdiyi böyük faciəni təsvir etməkdən ziyadə, böyük faciənin özü ilə mütənasib olaraq doğurduğu əks-əməl hadisələrini qeyd etmək istəriz.

27 aprel hadisəsi Azərbaycan xalqını ta qəlbindən vurmuş, təsəvvürü qabil olmayan bir təsirlə dağdar etmişdir. Bunlardan bir qismi duyduqları acının təsiri ilə gözlərindəki yaşlara yol vermiş, bu sürətlə ələ-

min gövşətici təsirinə özlərini təslim etməklə işi təbiətə buraxmışsalar da, digər qism əksinə boyla yapmamış, göz yaşlarını zəbtlə kin və qeyzini toplamış, günün birində dəhşətli intiqam taraqqası ilə partlayacağına həqiqətən inanan milli savaş hərəkatını vücuda gətirmişdir.

Birinci qismin tərəfdarlarınca həyatda əsl olan həm də vaqeələrə uyuşmaqdan ibarətdir. Millətin təbii həyatını qurtarmaq - iştə onların düşüncəsi. Əsrlərin fəlsəfəsi! İkinci qisim isə təbii həyatla qalmaz, şərəfli həyat istər və bunun üçün də o uyuşmağı deyil, vuruşmağı düşünür.

Solovki sürgünləri, "çeka" zirzəmiləri, Xəzərin qanlı dalğaları, Bayıl həbsxanasındakı yüksək divara dayanaraq soldat qurşunlarına açılan qəhrəman kökslər, südəmər cocuğundan ayrılaraq öldürülən analar, yanıq izlərilə damğalanmış qanlı köynəklər - xülasə böyük intiqamı hazırlayan ilahi mətanətlər və qəhrəmanca müqavimətlər - iştə şərəfli həyat üçün vuruşmağı seçən nəslin keçdiyi qorxunc mücadilə yolları!

Böyük faciənin yeddi sənədən bəri Azərbaycanda icra etdiyi müdhiş təxribat yanında özünü yasa qapdırmayan vətəndaş, şübhəsiz, istiqlal məfkurəsi uğrunda aparılan bu müqəddəs mücadilənin əkəsriyyətlə məxfi qalan anatını bilməli, yarınki günün gətirəcəyi səadətə qüvvətlə inanmalıdır.

Bu xüsusda bizi inandıracaq şahid kommunistlərin özləridir. Böyük Rusiya imperatorluğunun tərəkəsi ilə beynəlmiləl inqilab təşkilatının şeytanı mələkəsinə malik bulunan qanlı bir qüvvət yeddi sənə boyuna tətbitq etdiyi zülmlər və vəhşiyanə icraatından sonra da, hala milliyyət cərəyanının özü üçün bir təhlükə təşkil etdiyindən bütün sisteminin "xırda burjuaziya" adını verdiyi milli üsyan təhlükəsinə məruz qaldığından bəhslə bilavasitə cahanca məşhur komsomol və pioner təşkilatına rəğmən gənc nəslin "müsavatizm" təsiri altında olduğunu etiraf edirsə - artıq verilən qurbanların bihudə deyil, məqsədi təmin edəcək bir şəkil və mahiyyətdə olduğuna qane ola biləriz.

Əvət, əfəndilər, şübhə etməyəlim: 27 aprel faciəsi Azərbaycan cümhuriyyətinin də 23 aprel zəfərini hazırlayacaq o böyük və müqəddəs cahadın qəhrəmanlarını doğurmuşdur. Azərbaycan İstiqlalı hələlik yıxılmışsa da, bacarıqla tikilmişdir.

Yaşasın Azərbaycan istiqlalı!

**RƏSULZADƏ Məhəmməd Əmin,**
*"Yeni Qafqasiya" məcmuəsi, 1927,*
*27 aprel, N10(84). İstanbul*

**"Günay" qəzeti, N17, 27 aprel 2002.**

# MÜCAHİD VƏ FƏDAİLƏRİ TERRORÇULARLA QARIŞDIRMAQ OLMAZ

Bu dünyada hər birimiz və hamımız nə birinciyik, nə də axırıncı. Milyadlarla bəşər övladı gəlib-getmişdir. Şair demişkən "bir yandan boşalır, bir yandan dolur bu dünya". Amma daimi olan nəsillər arasındakı əlaqədir. Yaradan bu prosesi elə düzüb-qoşmuşdur ki, əlaqəsiz, rabitəsiz anımız olmamışdır. Təbiidir ki, bu günü, onun hadisələrini, cərəyan edən prosesləri başa düşmək üçün əvvəlki düzəni, nəyin üstündə durduğumuzu, nəyə sahib çıxmalı və nəyi rədd etməli olduğumuzu da bilməliyik. Buna qısaca tarixi təcrübə də deyirlər. Xoşbəxtlikdən günlərimizdə bu təcrübəni əxz etmək, ondan faydalanmaq imkanları getdikcə artır və təkmilləşir. Yeni informasiya texnologiyası dünya miqyasında belə lazımi məlumat və tarixi informasiyanı qısa zaman təriqində almaq imkanı yaratmışdır. ABŞ-ın konqres kitabxanasında onun varlığı müddətində 22 milyon adda kitab və digər mətbu vasitələr toplanmışdır. Artıq bu zəngin xəzinədən beynəlxalq miqyasda istifadə etmək imkanı yaranmışdır. Belə ki, onlar kompüterlərə salınmış, internet vasitəsilə istifadə olunmaq üzrədir. Digər yüksək inkişaf etmiş ölkələrdə də vəziyyət buna oxşardır.

İnformasiya almaq və onu yaymaq imkanları da sürətlə inkişaf etməkdədir. Əvvəllər informasiya və tarixi təcrübədən kasad cəmiyyətləri xülyalara əsaslanan şüarlar və ideyalarla aldatmaq və yoldan çıxarmaq, ictimai rəyi çaşdırmaq nisbətən asan idi. İndi əslində bu cür üzdəniraq fəaliyyət növlərinin meydanı daralmalı idi. Lakin vəziyyət yenə də ürəkaçıcı deyil. Dezinformasiya öz işini görməkdədir. Beynəlxalq terrorizmlə mübarizə şüarı altında milli-azadlıq hərəkatlarını, avtoritar və totalitar rejimlərə qarşı mübarizə aparan qüvvələri sıxışdırmaq meylləri də göz qarşısındadır.

Diqqəti cəlb edən digər mühüm bir cəhət yaranmış qeyri-normal şəraitdən neofaşistlərin, irqçi-şovinist dairələrin istifadə etmək təşəbbüsləridir. Fransa, İngiltərə, İrlandiyada keçirilən son seçkilərdə irqçi-şovinistlərin, ifrat sağların xeyli səs toplaması, Rusiyada rus olmayanlara qarşı yönəlmiş təqiblər, Hindistanda dini zəmində baş verən toqquşmalar və s. bütün bunlar ciddi həyəcan təbili çalmağa əsas verir. "İzvestiya" qəzetinin siyasi icmalçı Andrey Kolesnikov bu prosesi qısaca belə səciyyələndirir: "Qloballaşma öz övladlarını məhv edir" ("Глобализация пожирает своих детей". Bax. "İzvestiya" 30.04.2002).

Mücahid və fədailəri, öz torpaqlarının və xalqlarının azadlığı uğrunda mübarizə aparan vətənpərvərləri terrorçu kimi qələmə vermək

meylləri də görünməkdədir. Əlbəttə, dinc əhaliyə, günahsız insanlara, mülki obyektlərə qarşı silahlı basqınlara, partlayış və cinayət əməllərinə hər vəchlə haqq qazandırmaq yolverilməzdir. Lakin bu prinsip bütün tərəflər tərəfindən gözlənilməlidir. Bu baxımdan "İzvestiya" qəzetinin 26 aprel tarixli nömrəsində, qəzetin əməkdaşı Nataliya Babasyanın "Ceninin zəngin terrorçuluq ənənələri" (У Дженнина богатые террористические традиции) yazısı diqqətimi cəlb etdi. Son vaxtlar İsrail-Fələstin qarşıdurmasının son faciəli həddə çatdığı məlumdur. İsrailin müasir, ən yeni silahlarla təchiz olunmuş güclü ordusu, arxasında Amerika və Fransanın xarici işlər naziri Yuber Vedrinin ifadəsilə desək, Vaşinqtonda güclü "yəhudi lobbisi" var. Bu günlərdə İsrailin Fələstində həyata keçirdiyi hərbi kampaniyanın dünyada yaratdığı ikrah hissinin qarşısında durmaq üçün ABŞ konqresinin hər iki palatası İsraili müdafiə edən xüsusi qətnamə qəbul etmişdir. Nataliya Babasyan isə, Ceninde törədilən qətli anın təsirini azaltmaq üçün onun əvvələlər də, hətta ingilislərin əlində olanda da terrorçuluq yuvası olduğunu nəzərə çatdırmaq istəyir. Bəs 1938-ci ildə Ceninde əslində nə olmuşdu? 1938-ci ilin yayında bir fələstinli mücahid özbaşınalıq edən bir ingilis müstəmləkə məmurunu öldürmüşdü. Bunun müqabilində ingilis hərbçiləri Ceninə 4200 kiloqram partlayıcı maddə və minalar gətirib xüsusi hərbi əməliyyatla yaşayış məntəqəsini indiki kimi yerləyeksan etmiş, yerli ərəbləri öz əsgərlərinin qabağına qatıb minalanmış sahədən keçməyə məcbur etmişdilər. Bir "terrorçu"nun intiqamını dinc əhalidən çıxmışdılar. Yenə həmin ildə eyni əməliyyatı Miar kəndində həyata keçirmiş, kəndi yandırmışdılar. Babasyan sanki almanların Avropada və Rusiyada, amerikalıların Vyetnamda, rusların Əfqanıstan və Çeçenistanda həyata keçirdikləri əməliyyatlara bir növ haqq qazandırmaq istəyir.

Ancaq nədənsə Babasyan vəhşi terrorçu erməni-daşnak təşkilatı ASALA-nın terrorçuluq əməllərini yada salmır.

Bəşəri inkişafın qarşısını almaq mümkün olmadığı kimi, milli-azadlıq hərəkatının da qarşısını almaq mümkün deyil. Keçən ilin 11 sentyabr Amerika faciəsindən sonra yeni dünya düzəni barədəki mülahizələr, ABŞ və ona sadiq müttəfiqlərin dünyanı Qərb modeli üzrə "düzəltmək" planları milli istiqlal hərəkatını zəiflətməməli, ona qarşı çevrilməməlidir.

**"Günay" qəzeti, N20, 18 may 2002**

# NADİR ŞƏXSİYYƏT, QEYRİ-ADİ NAZİR VƏ PARLAMAN SƏDRİ



*Azərbaycan milli qurtuluş hərəkatının orqanı, "İnsanlara hürriyyət, millətlərə istiqlal!" epiqrafı ilə Berlində nəşr olunan "Qurtuluş" jurnalının 1934-cü il dekabr tarixli 2-ci nömrəsi Əli Mərdan bəy Topçubaşovun xatirəsinə həsr olunmuşdu. Nömrədə "Əli Mərdan bəy üçün" sərlövhəli baş məqalə, "M.Ə.Rəsulzadənin Əli Mərdan bəyin məzarı başında nitqi", yenə onun "Azərbaycan hərəkatında Topçubaşi Əli Mərdan bəyin yeri", Dok. Mir Yaqubun "Topçubaşi Əli Mərdan bəy", M.B.Məhəmmədzadənin "Ən həyatı məsələmiz (Əli Mərdan bəyin vəfatı münasibətilə)", Hilal Münşinin - "Böyük Azəri", Viç.Prokopoviçin - "Əli Mərdan bəyin xatirəsinə", imzasız verilmiş "Əli Mərdan bəy Topçubaşinin tərcümeyi-halı", "Əli Mərdan bəyin dəfni-cənaza təşyin və nitqlər", "Təziyə yazıları" müxtəlif qrup və şəxslərdən gələn teleqram və əl yazıları", "Ezaz (hörmətlə yad etmə) məclisləri - müxtəlif məclislərdə mərhumu yad" və s. yazılar dərc olunmuşdur. Bütövlükdə jurnalın bu nömrəsi Azərbaycan istiqlal hərəkatı tarixinə dair ən dəyərli məxəzlərdən biri hesab edilə bilir. Çünki bunlar hər cür subyektivlikdən uzaq, hərəkatın yaradıcı və fəal iştirakçılarının çox böyük elmi və tarixi obyektivliklə yazdıqları əsərlər, sənədlərdir.*

*Bu qiymətli xatirə və sənədlərdə XIX əsrin sonu və XX əsrin ilk onilliklərində Azərbaycan, Qafqaz və Rusiyada cərəyan edən hadisələr, vətənin və xalqının siyasi və mədəni hüquqları uğrunda yorulmadan mübarizə aparan, istiqlal hərəkatına qoşulan və onun mübariz xadimlərindən biri olan Əli Mərdan bəyin çoxcəhətli, zəngin həyat və fəaliyyəti diqqətlə nəzərdən keçirilir, layiqincə qiymətləndirilirdi. Bu vaxtadək Əli Mərdan bəy haqqında yazılan və dərc edilən yazıların heç biri elmi və tarixi dəyəri ilə "Qurtuluş"un yazıları ilə müqayisə edilə bilməz. Çünki, bu yazılar onun məslək və əqidə, əməl və fəaliyyət arkadaşları, onun kimi fitri istedada, milli hiss və qeyrətə, istiqlal yolunda can fəda etməyə hazır olan vətən övladları tərəfindən yazılmışdır.*

*Oxucuların diqqətini qeyri-adi, analoquna çətin təsadüf edilən bir cəhətə cəlb etmək istəyirəm. 1918-ci il martın sonunda Bakıda Ə.M.Topçubaşovun ifadəsilə desək "bir gecənin içində bolşevik olan daşnaklar" Bakı Sovetində hakimiyyəti ələ keçirmiş bolşeviklərlə birlikdə yerli müsəlman-türk əhalisini kütləvi surətdə qırmağa başlayanda daşnaklar Ə.M.Topçubaşova da divan tutmaq üçün onun evinə basqın etmiş, təsisçisi olduğu "Kaspi" mətbəəsini və redaksiyasını yandırmışlar. Hətta Əli Mərdan bəyin öldürülməsi barədə qəzetlərdə yazılar da dərc olunmuşdu. Lakin bakılılar öz himayədarlarını gizlətməyi və qorumağı bacarmışdılar. Bir versiyaya görə, o Şamaxıda sığınacaq tapmışdı. 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan istiqlalı elan edilərkən Topçubaşov Bakı quberniyasında gizlədilmişdi. 1918-ci il iyunun 17-də Gəncədə Azərbaycan müvəqqəti hökumətinin 2-ci kabinəsində Əli Mərdan bəyi qiyabi olaraq portfelsiz nazir təyin etmişdilər. Yalnız 1918-ci il avqustun ortalarında türk-Azərbaycan silahlı qüvvələri bolşevik-daşnak ordusunu sıxışdıraraq Bakı quberniyası sərhədlərinə yaxınlaşdığı vaxt Əli Mərdan bəy düşmənlərin gözündən yayınıb türk ordu hissələrinin nəzarəti altında olan əraziyə keçməyi bacarmış və Gəncəyə gəlmişdi. Gəncədə Azərbaycan hökuməti tərəfindən əvvəlcə Gürcüstana, sonra isə İstanbula fövqəladə səfir olaraq göndərilmişdi.*

*Ə.M.Topçubaşovun İstanbulda göstərdiyi gərgin fəaliyyət, apardığı rəsmi danışıqlar barədə qeydləri və göndərdiyi məktublar 1994-cü ildə ayrıca kitabça halında nəşr olunmuşdur. 1918-ci il oktyabrın 2-dən 1919-cu il martın 17-dək dövrü əhatə edən bu qiymətli sənədlər mahir diplomat, dövlət və siyasət xadiminin gördüyü böyük işləri hərtərəfli əks etdirir.*

*Məlumdur ki, 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclasında "Müsavat" və bitərəflər adından paralmentin sədri vəzifəsinə Ə.M.Topçubaşov namizəd göstərilmiş və bir səslə bu təklif qəbul edilmişdir. Göstərək ki, parlamentin fəaliyyət göstərdiyi 17 ay müddətində onun sədri Azərbaycanda olmamışdı. İclasları əsasən yenə "Musavat" və bitərəflərin irəli sürdükləri sədrin birinci müavini Həsən bəy Ağayev aparmışdı. Beləliklə, Ə.M.Topçubaşov nə Tiflisdə mayın 28-də elan edilmiş İstiqlal Bəyannaməsinə imza edənlər sırasında ola bilmiş, nə də parlament iclaslarında. Ümumiyyətlə isə, 1918-ci ilin avqustun sonundan ta 1934-cü il noyabrın 5-nə - vəfatına qədər Ə.M.Topçubaşova vətəndə olmaq müyəssər olmamışdı. Lakin həmin müddət ərzində Azərbaycanı beynəlxalq miqyasda tanıtmaq, onun mənafelərini müdafiə etmək sahəsində gördüyü işlər ölçüyə gəlməzdir. Bəzi tarixdən xəbərsiz qələm gədaları kiminsə hansı bir məclisdə olub-olmamasını, nəyəsə imza atıb-atmamasını əldə dəstəvuz edərək hədyanlar yazmaqdan çəkinmədən qarayaxmaqla məşğul olurlar. Beləları üçün fəaliyyətin məğzi dövrün tələbləri əsas sayılmır. Vəzifə hərisliyi ön plana çəkilir. M.Ə.Rəsulzadə və Ə.M.Topçubaşovla əlaqədar belə iftira səciyyəli yazılara bəzən təssüf ki, rast gəlmək olur.*

*Bu il Ə.M.Topçubaşovun anadan olmasının 140 illiyi tamam olur. Qarşıdan 28 may istiqlal bayramı gəlir. 28 may fütuhatının sərkərdələrindən olan Əli Mərdan bəyin ibrətamiz, zəngin, ağrılı-acılı, niskilli həyat yolu ilə tanış olmaq, bu böyük vətənpərvər və nadir şəxsiyyəti yad etmək borcumuzdur. Bu əziz xatirəni onun əqidə və məslək dostları, mücahid həmkarları layiqincə tarixə həkk etmişlər. "Qurtuluş" məcmuəsindəki yazılar da bu qəbildəndir. Tanış olun. İstiqlal qəhrəmanlarına 28 may ərəfəsində bir daha min-min rəhmət deyək!*

## ƏLİ MƏRDAN BƏYİN MƏZARI BAŞINDA MİLLİ AZƏRBAYCAN MƏRKƏZİ RƏİSİ RƏSULZADƏ M.ƏMİN BƏY ƏFƏNDİ TƏRƏFİNDƏN SÖYLƏNİLMİŞ NİTQ

Xanımlar, bəylər!

Millət yolunda çalışanlarımızdan bir böyüyü ilə halallaşırıq. Heyhat! Azərbaycan parlamentinin şanlı rəisini, nümayəndə heyətinin sayğılı başçısını, müsafiri bulunduğumuz Fransa torpağına əmanət edirik.

Parlament rəisi, nümayəndə heyəti şefi, milli mərkəz üzvü və sair kimi mərhumun daşıdığı rəsmi ünvanları zikr etməklə Əli Mərdan bəyin isminin mənasını tamamilə anlatmaq, mövzunu bütün təfərrüatı ilə qavramaq qətiyyən mümkün deyildi.

75-i haqlayan yaşının, heç olmazsa əllisini, mərhum durmadan, yorulmadan və sıxılmadan camaat işinə və millət yoluna vermişdi. 50 il ömür - yarım əsrlik həyat! Qoca bir dövr!

...Əvət, Əli Mərdan bəyin vəfatı ilə biz milli həyatımızda başdan-başa bir dövrü təmsil edən mühüm şəxsiyyətdən ayrılırıq. Çünki Topçubaşi Əli Mərdan bəyin ismi müəyyən bir nəsli və müəyyən bir dövrü andırır.

Rusiyada ali təhsil görmüş, türk və müsəlman münəvvərlərini (ziyalılarını) barmaqla saymaq qabil olduğu bir zamanda idi ki, Əli Mərdan bəy meydana çıxmış bulunurdu.

Mərhum hüquq bitirmişdi. Həyata dava vəkili olaraq girmişdi. Onun həyata atıldığı çağlarda Rusiyadakı türklərin və xüsusilə, azərbaycanlıların milli yaşayışlarında yeni bir dövr başlayırdı: Axundzadə Mirzə Fətəli, Zərdablı Həsən bəy və Qaspıralı İsmayıl mirzələri canlandırdıqları milli kültür hərəkatı irəliləyir və bu hərəkat siyasi hüquq davası mərhələsinə girirdi.

Əli Mərdan bəy bütün istedadını, haqqın ona bəxş etdiyi talantı iştə bu ümumi davanın müdafiəsinə verdi. Ömrünün sonuna qədər o,



Soldan sağa: Abbas bəy Atamalıbəyov, Məmməd Məhərrəmov, Əli Mərdan bəy Topçubaşov, Əkbər Ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Miryaqub Mirmehdiyev

həm dili, həm qələmi, həm də burdan - oraya, oradan - buraya qoşan enerjisi ilə milli davanın vəkili olaraq qaldı.

1905-də Nijnidə, Rusiya müsəlmanlarının siyasi hüquqda ruslarla bərabərliklərini tələb edən Konqreyə rəislik etdiyi zaman o, bu davanın vəkili idi. Bu sifətlə də o, "İttifaqi-Müslimi"n adını daşıyan siyasi təşkilatın başçısı və Dövlət Dumasındakı müsəlman fraksiyasının lideri idi. Vəkilliyini boynuna aldığı bu millət davası üçün o, məşhur Vıborq Bəyannaməsini imzalamış və bunun nəticəsində siyasi haqlarından düşürülərək "Kresti" qalasına salınmışdı.

Biz burada mərhumun millət davası yolundakı zəhmətlərinin ən başlı və canlı nöqtələrini qeyd edirik. Yoxsa onun bu yoldakı işlərini saymaqla bitirmək qeyri-mümkündür. Onun bütün həyatı millət davasının vəkilliyi ilə keçmişdir. Bununla yanaşı, "Kaspi" qəzetinin müdiri və "Həyat" qəzetəsinin təsisçilərindən ikən Əli Mərdan bəy yenə eyni davanın vəkili deyilmiydi?!.

Zaman gəldi. Çarlıq binası çökdü. Milli hərəkat canlandı. Azərbaycan milləti siyasi müqəddəratını öz əlinə aldı. Milli hökumətini qurdu. İstiqlalını elan etdi. Bu istiqlalı o zaman dünyanın beynəlmiləl ən böyük məhkəməsində - Versal Sülh Konqresində müdafiə etmək lazım idi. Bu müdafiəni kim edəcək idi? Gözlər Əli Mərdan bəyə çevrildi. Milli davanın müdafiəsi millət vəkilinə tapşırıldı.

Azərbaycan istiqlal davasının, qafqaziyalı digər qonşularımızın istiqlal davaları kimi, nədən həqiqilə müdafiə edilmədiyini bilirik. Bilirik

ki, əgər qafqaziyalılar o zaman birlikdə olsalardı qeyb etməzlər, qərib ölkələrdə bu qədər qiymətli məzarlar buraxmazlar, ana vətənin iztirablarını görməklə bu qədər bağrı qan olmazlardı.

Əli Mərdan bəy o qafqaziyalı ərlərdən idi ki, bir Gürcüstanın, bir Şimali Qafqaziyanın və bir Ermənistanın özbaşına, tək qalaraq, yaşayacağını və istiqlalında paydar olacağını daim əndişəli görürdülər. Onun Qafqaziya birliyinə candan bağlılığı onu tanıyanlarca bəllidir. Hələ 1914-cü ildə Tiflisdə gürcü şairi Seretelinin məzarı başında söylədiyi nitqində o "həm yaşa, həm də yaşat!" - deyə bir şüarı təkrarlamışdı. Bu təkrar o zaman Qafqasya mətbuatının aylarla bəhs etdiyi bir mövzu olmuşdu.


KURTULUŞ

Azerbaycan Millî Kurtuluş Harekelinin Organı

Yıl 1 | II-nci Teşrin 1934 | Sayı 1

İdareden

Azerbaycan milli-kurtuluş hareketinin davasını devam ettirmek üzre intişare başlayan „Kurtuluş" mecmuası ilk nushasında milliyetçi bütün Azerbaycanlıları kederlendiren esefli bir haberi kaydetmek mecburiyetinde bulunmaktan son derecede teessür ve elem duymaktadır.

Sabık Azerbaycan parlamentosunun ve ayni zamanda Azerbaycan Heyeti Murahhasası'nın reisi muhterem Topçıbaşı Ali Merdan Bey bu ayın beşinde, Paris civarinde vaki St. Cloud'a bulunan evinde vefat etmiştir.

Muhterem reisin naşi ayın 8-nde St. Cloud mezaristanına defnedilmiştir.

Cenaze merasiminde Paris'te mevcut bütün Azerbaycanlılarla Kafkasyalılardan başka Ukrayna, Türküstan, istiklâlçı Kazaçiler gibi Rusya'dan ayrılmak isteyen millî kolonilerin dahi bir çok mümessilleri de hazır bulunmuşlardır.

Mezar başında merhumu karakterize eden bir çok yanıklı nutuklar söylenmiş, bir çok teşkilatlar ve şahıslar tarafından merhumun mezarine çelenkler ve çiçekler koyulmuştur.

Ali Merdan Beyin şahsında Azerbaycan millî hareketinin en kıdemli bir çalışanını kaybeden milliyetçi ve istiklâlçı Azerilere „Kurtuluş" en samimî taziyetlerini takdim ettiği gibi, merhumun matem vurgunu ailesine ve bilhassa muhterem refikası Peri Hanımefendiye yürekten baş sağlığı verir.

Bununla beraber „Kurtuluş" gelecek nushasının temamen bu esefli hadiseye ayrılacağını dahi muhterem karilerine bildirir. Şu nushada merhumun tercümei hali, fotografı, kendisine ait makaleler, hatıralar ve defin merasiminin tafsilatı verilecektir.

Sonra, İstanbulda, Mondros barışığı günlərində, Azərbaycan nümayəndə heyəti rəisliyində ikən nəşr etdiyi həcmcə kiçik - mənaca böyük bir kitabçasında o, Qafqasya məsələsindən bəhs etmiş, qafqasiyalılar üçün, konfederasiyadan başqa çıxış yolu olmadığına uzaqgörənliklə işarə etmişdir.

Daha sonra, Parisdə mərhumun Azərbaycan nümayəndəsi sifəti ilə bu xüsusdakı təşəbbüsləri hər birimizə məlumdur.

Əgər vəfasız həyat, qurtaracağına heç bir zaman şübhə etmədiyi vətənə dönməyi ona nəsib etmədisə də, bundan bir az əvvəl, Azərbaycanın səlahiyyətli bir nümayəndəsi sifəti ilə qafqasiyalı qonşularımızın səlahiyyətli digər nümayəndələri ilə birlikdə imzaladığı Qafqasya Konfederasiyası əhdi elanı ilə nəhayət qafqasyalıların bir arada olmağa əzm etdiklərini görməkdən təsəlli bulmuş, zövq almışdı.

Bu təsəllinin onda nə qədər böyük bir həyəcan və ümidlər oyandırdığını şəxsən özüm gördüm də. Xəstəlik və ixtiyarlığın hücumuna rəğmən, mərhum son dəminə qədər, vəziyyət haqqında məlumat istəyir, böyük davanın mənafeyi ilə yaşayırdı.

Şübhə yoxdur ki, onun şəxsində konfederalist qafqasyalılar öz da-

valarının ən qocaman müdafiəçilərindən birini qeyb etdilər.

Əvət vətəndaşlar, biz azərbaycanlılar, Əli Mərdan bəyin şəxsində milli hərəkatımızın müəyyən dövrünü təmsil edən, müstəqil Azərbaycanın böyük dövlət adamını, Aəzrbaycan istiqlalının sayğılı mücahidini qeyb etdik!

Əvət, matəmimizi bölüşmək üçün lütf edib gələn əziz qonşular! Biz qafqasyalılar, konfederasiya ideyasına sadiq qiymətli bir işçidən ayrıldıq!.. Siz də, ey bu şanlı tabutun arxasında göz yaşı tökən matəmzadə ailənin üzvləri! Şəfqətli bir babadan (atadan) ayrıldınız. Bir ata ki, o, milli və ümumi xidmətlərindən başqa, ailə həyatında dəxi təqdirəlayiqdir. Onun ailəsi mühitində milli ənənəyə verdiyi əhəmiyyət deyilmədən keçilə bilməz. Hər kəsi, istər-istəməz assimle edən yabançı mühitin və qürbət şəraitinin ağırlıq və yoxsulluğu içində, çoluq-cocuqlarının milli xüsusiyyətlərini və ailədəki məmləkət adətlərini mərhum qədər qoruya bilmək, şübhəsiz, bir məziyyətdir. Mərhumun xüsusi həyatına dair bu cəhət mühacirətdəki ailələrimizə örnək olaraq buraxılan mənəvi bir mirasdır. Möhtərəm rəisin hələ qapanmamış bulunan məzarı başında buna bilavasitə işarə etmək istəyirəm.

Ey davamızın yorulmaq bilməyən vəkili! İndi sənə xitab edirəm: sən vəzifəni yapdın: üzərinə aldığın davanı son imkanına qədər yürütdün. Fəqət, əcəl sənə aman vermədi. İstəmişdin ki, bütün həyatını sərf etdiyin Azərbaycan qurtulsun və sən də oraya dönəsən. Həm də təkcə özün və arkadaşlarınla deyil, istəmişdin ki, çox sevdiyin oğlunun burada əmanət buraxılan nəşini də özünlə bərabər alasan və məmləkətə öylə qovuşasan.

Heyhat! Təqdir (qismət) böylə deyilmiş!.. Bir az daha gözləmək, oğlun Rəşidlə yan-yana gözləmək lazım imiş!.. Fəqət, sən əmin ol, istirahətlə gözlə, burada ata-oğul, gözlədiyiniz bu məzarıstanda, biz azərbaycanlılar, biz sənin getdiyin yolla gedən, müdafiə etdiyin dava üzərində bulunan Azərbaycan çalışanları sənə söz veririk: var qüvvəmizlə duracaq, milli davanı müvəffəqiyyətlə başaracağıq!.. Buna əminik. Əminik, çünki bərabər getdiyimiz və səndən sonra da davam edəcəyimiz yol doğru və yetişəcəyi mənzil haqdır. Yol - millət yolu, mənzil - istiqlal mənzilidir!.. Tarix lehimizə işləyir. Yalnız deyilik. Qonşularımız var. Bizimlə dərddaş Rusiya məhkumu millətlər var. Bu millətlər tarixdə misli görünməyən zülmə, qızıl istilaya uzun müddət dözəsi deyildirlər. Necə ki, etmirlər. Ən ağır şərait altında ikən bu məmləkətlərdə istiqlal fikri sönməmiş, hürriyyət əzmi qırılmamışdır. Azərbaycan istiqlal fikri ilə Qafqasya Konfederasiyası şüarının mücahidləri də yorulmadan çarpışırlar, durmadan vuruşurlar. Sonuncu zəfər bizimdir!

Çox çəkməz, məmləkət qurtular: və o zaman mütəşəkkir (minnətdarlığını bildirən) millət ilk parlamentinin rəisini, istiqlal davasının vəkilini xatırlar, gələr, səni oğlunla bərabər buradan alar, arzu etdiyin vətən torpağına gətirər və xatirəni əbədiləşdirər.

Eyni zamanda şübhə etmirəm ki, birləşik müstəqil Qafqasya dəxi hürriyyət bəratında (sənədində) imzası bulunan hörmətli mücahidini unutsun!.. İştə sənə söyləyəcəyim son söz!.. Sənə bizdən minlərlə rəhmət! Sənə bizdən minlərlə hörmət!..

***"Qurtuluş" jurnalı, N2, dekabr 1934, Berlin***

*"28 may Milli Azərbaycan hərəkatının mədəni və ideoloji sahəsindən çıxaraq hüquqi və siyasi beynəlmiləl bir dava şəklinə girdiyini təsbit edən bir tarixdir. Bu tarixdən etibarən Azərbaycan xalqı dövlət halına gəlmiş, bir millət olmuşdu. Bu millət o gündən etibarən Rusiya ilə bir əqəliyyət xalqı kimi deyil, hakimiyyət haqqına malik bir millət olaraq mücadiləyə çıxmışdır".*

**M.Ə.RƏSULZADƏ,**
*"Qurtuluş" N6, aprel, 1935*

*"28 may bizim dövlət oluş günümüzdür. Bir cəmiyyətin müştərək istəyi ilə, müştərək qarar və iradəsiylə, kollektiv əzmi nəticəsində dövlət oluşu demək, o cəmiyyətin sözün tam mənası ilə, millət halına gəlmiş və doğru yolunu bulmuş olduğu deməkdir. Çünki, millət ancaq milli dövlət qurduğu və milli dövlət qurmaq üçün çarpışdığı zaman mövcuddur".*

**M.Ə.RƏSULZADƏ,**
*"Qurtuluş" N7-8, aprel-may, 1935*

*"28 may gününü bu gün biz hər nə qədər maddətən mühacirətdə, sürgündə, zindanlarda və ən əziz şəhidlərimizin, məzarları bəlli olmayan qəhrəmanlarımızın fərağında qeyd ediriksə də mənən orada, sevgili vətəndə, əsir yurddaşlarımızın yanındayıq. Fəlakət bizi birləşdirir. Duyduğumuz acıların şiddəti mənəvi birliyimizin bağlarındakı mətanətlə mütənasibdi".*

**M.Ə.RƏSULZADƏ,**
*"Qurtuluş" N43, may, 1938*

**"Günay" qəzeti, N21, 25 may 2002.**

# MÜQƏDDƏSLİK VƏ PAKLIQ TİMSALI

*Böyüklü-kiçikli milli təhsil alan hər birimizin sevə-sevə oxuduğumuz, əsərlərini yaddaşımıza həkk etdiyimiz Sabirimizin anadan olmasının 140 ili tamam oldu. Sabir sevgisi - vətən sevgisidir, millət sevgisidir, qeyrət rəmzidir, düşünmək və düşündürmək sənətidir. 50 ildən artıqdır ki, yolum Şirvan torpağından, Şamaxıdan düşəndə şairin müqəddəs məzarını ziyarət edir, mənən onunla həmsöhbət olur, uzaqgörənliyinə, millətin dərdlərini dərk etmək, anlatmaq məharətinə heyran qalır, Sabir ruhu ilə yoluma davam edirəm. Bu barədə də ilk dəfədir yazıram. Bu ənənəyə əməl edən məslək yoldaşlarım, əqidə arkadaşlarım da var. Sabir vurğunu, el ağsaqqalı, xalq şairi Bəxtiyar Vahabzadə buna şahidlik edə bilər. Onunla birikdə Sabir ziyarətimiz çox olub. Şəkinin yolu bizim üçün Sabir ziyarətgahından keçir.*

*Sabiri oxuyanlar çoxdur. Amma onun qeyrət ruhunu qanında, canında gəzdirənlər, yaşadanlar təəssüf ki, bir o qədər çox deyil.*

*Sabirin anadan olmasının 140 illiyi necə qeyd edildi? Bu sualın cavabını rəhmətlik özü 1908-ci il yanvarın 13-də "Molla Nəsrəddin" jurnalının 2-ci nömrəsində dərc edilmiş "Yadigar" sərlövhəli felyetonunda mənalı bir şəkildə vermişdir. Doğrudur, aradan 94 il keçmişdir. Amma satira hədəfləri bütün eybəcərlikləriIə bu və ya başqa şəkildə qalmaqdadır. Digər tərəfdən Sabirin millətə, onun fitri istedadlı övladlarına, millətin mənəvi atalarına olan hörmət və məhəbbət hissi də yaşamaqdadır. Sabirin bu qəbildən olan, ömrünün son illərində yazdığı iki yazısını oxuculara təqdim edirəm. Bunlardan "Yadigar" milli müqəddəslərimizdən olan Həsənbəy Zərdabiyə, ikincisi, Ü.Hacıbəyovun təsis etdiyi "Həqiqət" qəzetində dərc olunmuş Xaqani Şirvaniyə həsr olunmuş ibrətamiz "Xaqani" əsəridir.*

## *YADİGAR*

Möhtərəm Molla Nəsrəddin əfəndi!

Acizanə xahiş edirəm ki, bu neçə kəlməyə jurnalınızda yer verəsiniz.

Mərhum Həsənbəyin vəfatı münasibətincə lazım idi ki, bütün Qafqazda olan şəhərlərdən biz şamaxılıların üstümüzə sər-sələməti (başsağlığı) teleqramları çəkiləydi...

Çünki o mərhum bizim öz şamaxılımız idi, o bizim öz adamımız idi, daha doğrusu, o bizim mənəvi atamız idi.

Amma Qafqaz əhli bu barədə səhv etdilər, götürüb Bakıya teleqram elədilər, nə bilim "İRŞAD"a yazdılar...

Bainhəmə (bununla belə) biz yenə öz vəzifəmizi ifa etməkdə qüsurluq etmədik, o mərhumu yadımızdan çıxarmadıq, demək onun bizdə olan haqqını əda etdik. Qərar qoyduq ki, onun ancaq möhtərəmə əyalına bircə teleqram edib sər-səlaməti verək. Hətta bu xüsusda çox danışdıq da, hələ də danışırıq, yenə də danışacayıq, çünki o mərhumu yadımızdan çıxarda bimərik!!!

Şərt teleqram vurmaqda deyil; hər mətləbin üstündə gərək danışıq olsun, danışılar, danışılar, axırda iş bir yerdə qərar tutar, necə ki, elə belə də oldu, yəni teleqram mövquf edib (saxlayıb) mərhumun yadigarına şəhərimizdə olan şkolaların birində tək bircə nəfər yetim uşaq oxutmaq fikrinə düşdük, demə ki, müsadimeyi-əfkardan bariqeyi-həqiqət parlatdıq (fikirlərin toqquşmasından həqiqət şimşəyi çaxar)!! Afərin bizə! Mərhəba bizə!

O idi ki, bu xüsusda götür-qoy elədik, götürdük qoyduq, qoyduq götürdük, qoyduq, götürdük qoyduq, bircə xırda qalmışdı ki, iş lap düzəlsin, nagah vaxtsız xoruz kimi bir şoğərib tək səbir bu yandan bannadı, səbrin səsinə diksinib yuxudan ayıldım, bir bu tərəfə, bir o tərəfə nəzər saldım, gördüm hamı xorhaxorunan yatıb, tez kağız-qələmi götürüb bu neçə kəlməni sizə yazıb, dübarə başımı atdım yastığa və getdim yuxuya. Hərçənd ev isti, yorğan-döşək qalın, yuxu şirin, heç bir də oyanmağa ümidim yoxdur, amma yenə vəsiyyət yüngüllükdür; budur sənə deyirəm, aşna. Əhyana (ara-sıra) oyandım, mabədini də yazaram, yox, əgər oyana bilmədim, nə bir eybi varmış: yar baqi, söhbət baqi (yar - durur - söhbət durur) o dünyada görüşüb zəbani ərz edərəm.

**Muxlisiniz Malxulyaçı (M.Ə.Sabir)**
"Molla Nəsrəddin", N-2, 13 yanvar, 1908, s.6-7

## XAQANİ

*ULULARIMIZDAN EŞİTDİYİM!*

Şirvan xaqanlarından, - xaqani-kəbir Mənuçehr olsa gərək, - bir gün erkən ova getdiyi əsnada Şamaxının şimal-qərbisində, ən yavuq bir məhəldə vaqe "Məlhəm" kəndi kənarından keçərkən, pişivazi üçün kənd əhlindən bir kimsənin gəldiyini görmədiyi halda ancaq, çıpırtı yığmaqla məşğul gördüyü bir uşağı yanına çağırıb demiş ki:

- Oğlum! Sizin kənddə ən böyük kimdir?
- Əmi! Bizim kənddə ən böyük camışdır!

- Oğlum! Mən öylə böyük demədim. Bunu demək istədim ki, sizin kənddə adam qabağına çıxan kimdir?
- Əmi! Bizim kənddə adam qabağına çıxan itdir!
- Yox canım, yəni ağsaqqal adam kimdir?
- Əmi! Adam istərsən mən, saqqal istərsən bilməm.
(Şah gülərək): - Oğlum! Söylə baxayım,sən burada nə yapırsan?
- Əmi! Mən burada çör-çöp toplayıram!
- Oğlum! Çöp məlum, çör- nədir, əcəba?
- Əmi! Çöp ayaqda duran, çör isə yerə yıxılmış çıpırtı deməkdir!
(Uşağın bu sözləri xaqanın xoşuna gedər, bir qızıl çıxarır) - Al oğlum!
- Nədir, o?
- Bir qızıldır, sənə bağışlayıram!
- Sağ ol, əmi! Mən istəməm!
- Niyə?
- İstəməm, çünki anam məni çör-çöp yığmağa göndərmiş, bu qızılı göstərərsəm sorar ki, nerədən buldun! Şübhələnər də... sonra mənə acıqlanar!
- Oğlum! Mən Şirvanın şahı xaqanam. Anana söylə ki, qızılı mənə xaqan verdi.
(Uşaq təzim edər)- Şahım! öylə isə heç almam, çünki padişah adama ehsan edər, bir qızıl verməz ki, çox, çox versin gərək. Anam da deyər ki, gərək sənə padişah çox versin, sən bu pulun qalanını nə yapdın? - Kiçik bir uşaqda bu böyük istedadı görən xaqan uşağın oxuyarsa, şübhəsiz gələcəkdə böyük fazil bir şəxs olacağına əmin olduğu cəhətlə, uşağın atasını ehzaz etdirib onun oxuma məsarifinə vəkil olacağını vəd ilə uşağın bir alim zatın təhti-tərbiyəsinə verilməsini vüzəraya əmr edər.

Əvət, oxumaq bərəkəti sayəsindədir ki, (məlhəmli) dülgər Alı kişinin oğlu Şirvan şahlarının sərmayei-təfaxürü olan "Xaqani" ləqəbini onlardan almağa kəsbi-ləyaqət edib.

Xaqani-Şirvan kimi bir şöhrəti-əbədiyyəyə nail olur ki, bu gün bütün üdəba (ədiblər), Süəra (şairlər) və füzəla (fəzilət sahibləri) indində (yanında) şayani-təqdir olmaqla biz şirvanlılar, xassə (xüsusilə) biz Şirvan şairləri onunla təfaxür (fəxr) etməkdə haqlı qalırız. İştə, oxumanın bəxş etdiyi fayda budur!

**Ə.Sabir**

*"Həqiqət" qəzeti, 6 iyul 1910, N-153*

**"Günay" N22, 1 iyun 2002**

## KORRUPSİYA VƏ RÜŞVƏTƏ DAİR YENİ AÇIQLAMALAR

Ümumdünya Bankı Rusiyada fəaliyyət göstərən "Demokratiya üçün informatika" (İndem) fonduna Rusiyada korrupsiya və rüşvətxorluğun ümumi səviyyə və səciyyəsini, üzdəniraq "qanunauyğunluq"larını ətraflı və dərindən tədqiq edib öyrənməyi sifariş etmişdi. Tədqiqatın xərcini Danimarka hökuməti öz üzərinə götürmüşdür. Rusiyanın keçmiş prezidenti Boris Yeltsinin iqtisadi məsələlər üzrə müşaviri professor Georgi Sattarovun başçılıq etdiyi "İndem" bu günlərdə 2000-2001-ci illər üzrə Rusiyanın mövcud yeddi federal dairəsi üzrə apardığı tədqiqatın nəticələrini elan etmişdir. "İzvestiya" qəzeti bu məlumatı "Rüşvətin həcmi. Rusiyada korrupsiyanın miqdarı dövlətin birillik gəlirinə bərabərdir" sərlövhəsilə birinci səhifəsində dərc etmişdir.

Aparılan sorğu və tədqiqatın sxemi, araşdırmaların ümumi mənzərəsi aşağıdakı suallarla müəyyənləşdirilmişdir: "Nə qədər verir və alırlar", "Kim verir və kim alır", "Rüşvətin effektliliyi", "Korrupsiyanın dinamikası", "Nə üçün verir və alırlar?", nəhayət, sonuncu ən vacibi: "Rüşvətxorluğa necə qalib gəlmək olar?".

Məlumatda göstərilir ki, Rusiya federasiyasında korrupsiya və rüşvətin illik həcmi təxminən 37 milyard ABŞ dolları miqdarındadır. Bu dövlətin birillik mədaxili qədərdir. Tədqiqatçılar ayrı-ayrı sahələr üzrə də maraqlı faktlar açıqlayırlar. Məsələn, "məişət rüşvətxorluğu" bölməsində oxuyuruq ki, Rusiya Federasiyasında hər il ali məktəblərə daxil olmaq üçün verilən və alınan rüşvətin həcmi təxminən 449 milyon dollar, "pulsuz" hesab edilən tibbi xidmət sahəsində rüşvətin illik miqdarı 600 milyon dollar, Dövlət Yol Polisinin vətəndaşlardan qopardığı rüşvətin həcmi 368 milyon dollar, ədalət və qanun keşiyində "duran" hakimlərin aldıqları rüşvətin həcmi 274 milyon dollar miqdarındadır. Bütünlükdə "məişət rüşvətxorluğunun" ümumi illik miqdarı təxminən 2,8 milyard dollara bərabərdir.

Dünya Bankını, ümumiyyətlə, beynəlxalq ictimaiyyəti maraqlandıran suallar içərisində "Kimlər rüşvət verir?" Kimlər oğurlayır? Niyə verir, nə üçün oğurlayırlar? Nə üçün rüşvət istəyirlər?" bu və bu kimi suallar da mühüm yer tutur. Cəmiyyətin əxlaqını, iqtisadi-siyasi durumunu pozan, qanunları kəsərsiz edən, dövləti nüfuzdan salan, inamsızlıq və imansızlıq yaradan bəlanın səbəbkarları, iştirakçıları, onun mexanizminin açılması qlobal səciyyə daşımaqdadır.

Rusiyada aparılan tədqiqat və sorğuların elan edilmiş nəticələrinə

görə bizneslə məşğul olanların 82 faizi rüşvət verməyə məcburdur. "İşgüzar korrupsiya" və rüşvətlə, oğurluqla, talançılıqla dövlət çinovniklərinin Böyük bir hissəsi yuxarıdan tutmuş, aşağıya qədər əllərində vəzifə, imkan və səlahiyyət olanların demək olar ki, hamısı bu və digər səviyyədə məşğul olur. Bu mənada tədqiqatçıların rəyinə görə, korrupsiya və rüşvət kütləvi xarakter daşıyır, rusiyalıların bir növ şüur və həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu bəla bir ilin, onilliklərin işi deyil, ictimai, iqtisadi-siyasi quruluş və sistemdən, kimlərin hakimiyyətdə olmasından asılı olmayaraq öz işini görməkdədir. Xalq nahaq yerə demir ki, "ne podmajeş - ne poedeş" (verməsən - işin keçməyəcək), yaxud "dayut beri, byut-beqi" (verirlər al, döyürlər qaç) və s.

Korrupsiya və rüşvət Rusiyada adamların böyük bir hissəsinin həm də həyat tərzinə çevrilib, cəmiyyəti özünə tabe edib. Bu mənada tədqiqatçıların rəyinə görə, bu bəla özünü məğlubedilməz hesab edir. Ona qarşı zaman-zaman qəbul edilən qanun və qərarlar, hay-küylə müşayiət olunan kampaniyalar, məhkəmə prosesləri istənilən nəticəni vermir.

Tarixdən məlumdur ki, XIX yüzilliyin otuzuncu illərində məşhur rus yazıçısı 27 yaşlı N.V.Qoqol dramaturgiyasının şah əsəri olan "Müfəttiş" komediyasında Rusiyada hökm sürən qanunsuzluq, ədalətsizlik, rüşvətxorluq və bürokratizmi kəskin ifşa etmişdir. Peterburqda bu əsərin tamaşasında I Nikolay və onun 19 yaşli oğlu Aleksandr da olmuşdu. Sonralar Rusiya taxtında oturmuş I Aleksandrın gündəliyini araşdıran tarixçilər orada maraqlı bir dialoqa rast gəlmişlər. Sən demə, "Müfəttiş" də gördüklərindən bir növ sarsılan gələcək çar atasından "doğrudanmı əyalətlərdə dövlət çinovnikləri belə nalayiq işlərlə məşğul olurlar?" sualına I Nikolay belə cavab vermişdir: "Oğul! Rusiyada çinovniklərin demək olar ki, axtarsan hamısı rüşvət alır və verir. Alıb-verməyən axtarsan, biz səninlə ikimizik. Bizimsə ona ehtiyacımız yoxdur. Çünki bütün Rusiya bizə işləyir!"

Bizdə vəziyyət necə olub və necədir? "Müfəttiş" tamaşaya qoyulduğundan 10 il sonra 1846-ci ildə "Kavkazski kalendar" Azərbaycan barədə verdiyi məlumatlardan birində yazırdı: "Yerli sakinlərdən heç kəs, hətta gecələr belə evlərinin qapılarını bağlamır, bu barədə düşünmürlər də, qaravul söhbəti, alıb-vermək və oğurluq söhbəti buralarda yoxdur". Aradan 60 il keçəndən sonra 1906-cı ildə İsmayıl xan Ziyadxanov I Dövlət Dumasının tribunasından demişdi: "Bizdəki idarə sistemi tənqid xaricindədir. O qədər ki, əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahilləri olaraq düşünülərsə, bu dənizlə sizə gərəkli olmayan nə qədər boş və səfil varsa, hamısını bizim Qafqaz sahillərinə

fırılladıb atırsınız. Və bunlar da əslən əxlaqsız olan bir idarənin məmur kadrlarını tamamlamağa yaramış olurlar. Bizim ölkəmizdə dövlət idarəsinin idealı: rüşvət almaq və xalqa əziyyət verməkdir. Kim 90 yaşlı bir qocanın əlindən loxmasını qoparıb alırsa, o, bizdə ən yaxşı məmur sayılır. Gözü kor olası islamlar üçün bundan dəhşətli nə ola bilər?"

İndi Azərbaycanda Rusiyada mövcud olan və tədqiqat aparacaq "İndem" yoxdur. Vəziyyətimiz Rusiyadakından nəyi ilə fərqlənir? Bu suala da fakt və tədqiqatsız cavab vermək çətindir. Amma məşhur atalar sözü istər-istəməz yada düşür: "dostunu yorulmuş görsən, özünü gərək ölmüş biləsən". Bir də təxminən 13 il bundan əvvəl "Pravda" qəzetində dərc olunmuş bir fəhlənin məktubundakı sözlər də yadıma düşdü. O yazırdı ki, "Ya naçalnik tı durak, tı naçalnik ya durak". Tak i jivem". (Mən rəisəm - sən axmaqsan, sən rəissən - mən axmağam. Beləcə də yaşayırıq). Vəssəlam, vəziyyətimizi hamı bilir. Onun da ciddi tədqiqata və müalicəyə çox böyük ehtiyacı var.

**"Günay" qəzeti, N23, 8 iyun 2002**

**M.F.Axundov – 190**

## BÖYÜK FİLOSOF, MÜTƏFƏKKİR SƏNƏTKAR

**Azərbaycanda, hətta müsəlman-türk aləmində mütərəqqi bəşəriyyətin irəli sürdüyü elmi fikrin ən yaxşı mənimsəyəni və inkişaf etdirəni dram, hekayə və şerdən başlamış, fəlsəfə, etika, əxlaq, tənqid, dövlət, dil, təhsil, əlifba və bu kimi məsələ və problemlərdən bəhs edən, öz dövrünə görə onlara konkret və aydın cavab verən, böyük və fitri istedad və həqiqi milli qeyrət sahibi Mirzə Fətəli Axundov olmuşdur.**

**M.F.Axundov 1870-ci il dekabrın 17-də Mirzə Yusif xana yazdığı məktubunda məşhur "Kəmalüddövlə məktubları" ilə əlaqədar qeyd edirdi ki, əgər mən də əsrimi Mollayi-Rumi, Şeyx Mahmud Şəbustəri, Əbdürrəhman Cami və sair mütəfəkkirlər kimi yazmış olsam, mənfəətsiz qalar. Onlar öz fikirlərini ifadə edərkən cəsarətsizlik və qorxaqlıq göstərmişdilər. Buna görə də, onların əsər-**

ləri indiyə qədər anlaşılmamış qalmış və heç kəs onların əsərlərindən bir səmərə əldə etməmişdir. Lakin fransız Volter və ingilis Lokk və sair Avropa filosofları eyni fəlsəfəni öz düşüncələrinə uyğun olaraq, bütün açıqlığı ilə qorxmadan, cəsarətlə və maskalamadan ifadə etmişlər. Buna görə də, onlar bütün dünyaya səs salıb Avropanın bugünkü sivilizasiyasının faktoru olmuşlar... Mən də nəinki, sivilizasiyaya xidmət etmək istəyirəm, mən insanların düşünə bilməsini, filosof və mütəfəkkirlərimizin həbsdə qalan təsəvvürlərini azad etmək istəyirəm. Mən insanları korluqdan qurtarmaq istəyirəm. İnsanın 60 ya 70 il kor-koranə yaşayıb və sonra ölməsindən nə mənfəət var?

M.F.Axundov qətiyyətlə inanırdı ki, onun həmvətənləri həmişə kor-koranə yaşamayacaqlar, köhnə təsəvvürlərini dəyişəcəklər, qorxubilməz bir qəhrəmanlıqla sivilizasiya yolunu seçəcəklər.

M.F.Axundov cəmiyyətin inkişafı və tərəqqisi üçün söz və fikri azad ifadə etmək azadlığının böyük əhəmiyyətini qeyd edir. Con Stüart Millin Azadlıq haqqındakı fikirlərini izah və inkişaf etdirərək yazırdı ki, "Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə, heç inkişaf olmaz, mədəniyyətdə, elmdə durğunluq əmələ gələr". Mirzə Fətəli insan təbiətində azadlıq olduğunu irəli sürür və yazırdı ki, bu azadlığı despot hökmdarlar, digər tərəfdən fanatik din xadimləri onların əlindən almışlar və alırlar.

M.F.Axundov doğulduğu və yaşadığı mühitə passiv, seyrçi sifətilə tamaşa etməmiş, fəal bir mübariz olaraq vətənini və xalqını, bütövlükdə türk və islam dünyasını oyanmağa, fanatizm və orta əsr kəsalətinə və kəsafətinə qarşı mübarizəyə səsləmişdir. Xalqımızın bir millət kimi formalaşıb öz müstəqil dövlətçiliyini bərpa etmək yolundakı müasir tarixi qələbəsində M.F.Axundovun da şübhəsiz çox böyük, inkaredilməz payı vardır. Yaşadığımız iyun günlərində böyük həmyerlimizin anadan olmasının 190 ili tamam olur. Bu münasibətlə müdrik filosof və böyük sənətkarın bu gün də əhəmiyyət və aktuallığını saxlayan bəzi kəlamları ilə oxucuları tanış etmək istəyirəm. Həmçinin 1933-cü ildə Moskvada nəşr olunmuş nüfuzlu elmi sovet ensiklopediyasında M.F.Axundova həsr olunmuş həcmcə kiçik, mənaca qiymətli hesab etdiyim yazını da oxucuların nəzərinə çatdırmağı vacib sayıram.

## Mirzə Fətəli Axundov
## (1812-1878)

Böyük türk dramaturqu və ictimai xadimi. İnkişaf etməkdə olan ticarət burjuaziyası ideyalarının parlaq ifadəçisi. Axundov öz əsərlərində burjuaziyanın inkişaf perspektivlərini tesvir edir, türk həyatının avropalaşması tərəfdarı kimi çıxış edir...

Axundov türk ədəbiyyatında birinci olaraq qadınların hüquqsuzluğuna qarşı kəskin çıxış etmişdir. Feodal cəmiyyətinə qarşı çıxan Axundov XVIII əsr fransız materialistlərinin güclü təsiri ilə ölkədə konstitusiya tətbiq edilməsini, islahatlar keçirilməsini tələb edir, cəmiyyəti parçalanmaqdan xilas etməyə qadir olan ağıllı və nəcib hökmdarın hakimiyyətə gəlməsini gözləyir("Kəmalüddövlə məktubları" adlı fəlsəfi-siyasi əsərində).

Türk teatrının banisi olan Axundov Molyerin, Ostrovskinin və Qoqolun əsərlərini türk səhnəsinə gətirmişdir. Zəmanəsinin son dərəcə savadlı, yüksək təhsilli nümayəndəsi olmuş Axundov (o, fars, ərəb, fransız və rus dillərini bilirdi) türk dilinin sadələşdirilməsi üçün çox iş görmüşdür. Latın əlifbasına keçmək ideyası Axundova məxsusdur, lakin bu ideyanı həyata keçirmək cəhdləri ciddi müqavimətə rast gəldi və səmərəsiz qaldı. Azərbaycan SSR hökuməti Axundovun ictimai və ədəbi xidmətlərini yüksək qiymətləndirərək Bakıda ona abidə qoyulmasını, bir neçə məktəbə və iri dövlət teatrına onun adının verilməsini təmin etmişdir.

Axundovun əsas dram əsərləri bunlardır; "Hacı Qara", "Aldanmış kəvakib", "Sərgüzəşti vəziri-xani-Lənkəran" və s.

**Малая Советская Энциклопедия,**
**том I, 1933, стр. 618, Москва.**

*"Keçmişlərdə Yevropada da zalıma zülmü tərk etməsi üçün nəsihət etməyin lazım olduğunu düşündülər: sonra nəsihətin zalımın təbiətinə qətiyyən təsiri olmadığını gördülər. Buna görə də millət özü, dinin maneəsizliyi sayəsində elmlərdə tərəqqi edərək birliyin faydalarını anladı və bir-birilə yekdil-yekcəhət olub, zalıma müraciət edib dedilər ki, səltənət və hökumət busatından çəkil! ...Ondan sonra... Konstitusionu millət özü, ümumi iş və ədalətin icrası üçün tətbiq etdi".*

* * *

*"Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə Yevropada insan ağlı tamamilə əbədi həbsdən qurtulacaq, işlər və fikirlər də nağıl deyil, yalnız insan ağlı istinadgah və dəlil tapılaraq hakimi-mütləq olacaqdır".*

* * *

*"Əfsanə dalınca yüyürmək və əfsanə deyənlərə qul olmaq bizim təbii adətimizdir...*

*Min iki yüz səksən ildir ki, yanlışlıq içindəyik. Artıq bundan sonra özümüzü ərəblərin ölülərinə qul saymayaq. Öz yaxşı dədə-babalarımızın yadigar və qalqılarına tərəf nəzər salaq...*

*Dini təəssüb fərz deyil, vətənin, həmcinslərin, həmvətənlərin və dildaşların təəssübü fərzdir. Necə ki, yevropalıların adətidir... vətən və el təəssübünü qeyrətlilik əlaməti və yaxşı adlılıq səbəbi bilirlər".*

* * *

*"Patriot - ibarətdir o kimsədən ki, vətən təəssübü üçün və millətinin məhəbbəti üçün can və malına müzayiqə etmiyə və öz vətəninin və millətinin mənfəəti və azadlığı üçün san və cəfakeş ola. Bu halət və xasiyyət, həmişə qeyrətmənd şəxslərdə büruz edər".*

* * *

*"Bizim cismani azadlığımızı, despot hökmdarlar əlimizdən almış, bizi bu dünya həyatından tamamilə öz buyruqlarına məhkum edib, bizi öz nəfslərinin istəklərinə görə cürbəcür ağır yüklərin və təkliflərin hambalı etmişlərdir. Biz bu maddədə dəxi zalımların hüquqsuz qulu və zəlil bəndələri olub, azadlıq nemətlərindən məhrumuq".*

*"Bizim ruhani azadlığımızı islam dinin rəhbərləri əlimizdən almış, bizi bütün ruhani işlərdə, tamamilə alçaq bir qul və öz əmr və nəhylərinə tabe etmişlər və bizim bu maddəyə heç bir müdaxilə etmək ixtiyarımız yoxdur. Beləliklə, biz ruhani azadlıq maddəsində din rəhbərlərinin buyuruq qulu olaraq azadlıq nemetindən məhrumuq".*

* * *

*"Mən o dini tərcih edirəm ki, onun vasitəsilə insan bu dünyada xoşbəxt və azadə ola bilsin".*

* * *

*"Millət niyə gərək öylə natəvan (gücsüz) olsun ki, hər bir dərdə baş qovzuyan it-qurd, onun başına bu növ bəlalar gətirsin?".*

* * *

*"Axmaq şairlərin onu (hökmdarı) tərifləməsi uşaq aldatmalarıdır... Bu cür axmaq aldadıcı yaltaqlıqdan o şadlanır və yalançıya ənam da verirlər və qətiyyən bilmir ki, nə qeysər, nə xaqan və nə də başqaları heç yerdə onu hesaba almırlar. Dəxi hərgiz müqəyyəd deyil ki, əcnəbi məmləkətlərdə bədnamdır və hər biganə məmləkətin xalqı onun adın eşidəndə, onu xar tutur və onun təbəəsinə və məmurlarına həqarət ilə baxır və olara nisbət məğruranə rəftar edir".*

* * *

*"Yollar xarab, qəryələr (kəndlər) viran, şəhərlər birövnəq, küçələr biəndam, qəbristanlar küçələrin içində havanın kəsafətinə (natəmizliyinə) bais. Məhz bu xatirə... hər gün beş-altı kəlmə ərəb dilində fatihə ismilə söz oxuyanlar".*

* * *

*"Tam azadlıq iki növ azadlıqdan ibarətdir: biri ruhani azadlıqdır, o biri cismani azadlıqdır.*
*Bizim ruhani azadlığımızı, islam dinin rəhbərləri əlimizdən almış... cismani azadlığımızı isə, despot hökmdarlar əlimizdən almış, bizim bu dünya həyatında tamamilə öz buyruqlarına məhkum edib, bizi öz nəfslərinin istəklərinə görə cürbəcür ağır yüklərin və təkliflərin hambalı etmişlərdir".*

* * *

"Nəğəmat (nəğmələr) çalma haramdır; nəğəmata qulaq asma haramdır; nəğəmat öyrənmə haramdır; teatr, yəni tamaşaxana qayırma haramdır; teatra getmə haramdır; rəqs etmə məkruhdur (məsləhət deyil); saz çalma haramdır; saza qulaq asma haramdır; sətrənc (şahmat) oynama haramdır; nərd oynama haramdır; rəsm çəkmə, evdə heykəl saxlama haramdır və s.".

**"Günay" N25, 22.06.2002**

# TƏCAVÜZKAR VƏ PASSİV İDEYASIZLIQ

Zaman-zaman cəmiyyət də okean və dənizlər kimi coşur, çalxalanır. Böyük və mütəfəkkir Sabir demişkən "çalxalandıqca, bulandıqca zaman nəhrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur".

Son, futbol üzrə 17-ci dünya birinciliyi ilə əlaqədar olaraq əmələ gələn çalxantıya Rusya da məruz qaldı. Moskvada heç kəsin gözləmədiyi kütləvi nizamsızlıq və iğtişaş baş verdi. Təkcə manej meydanı deyil, hətta Dövlət Duması da hücuma məruz qaldı. Bu barədə ətraflı şərh və təhlil yazan icmalçılar qeyd edirlər ki, 1993-cü ildən Moskvada Ağ ev ətrafında cərəyan edən məlum hadisələrdən sonra bu ikinci ciddi hadisədir.

Rusiya milli futbol yığma komandasının yaponlara uduzması nəticəsi kimi təzahür edən iğtişaşın çox ciddi və dərin səbəbləri olduğunu qeyd edirlər. Məsələn, "Известия" kimi ümummilli qəzet yazır:

"1993-cü ildə siyasi mövqelər toqquşmuş, tarixi seçim xətləri kəsişmişdir. Tərəflərdən hər biri nəyin naminə risqə getdiyini və bu seçimin ona nəyin bahasına başa gələ biləcəyini anlayırdı. 2002-ci ildə Rusiyanın inkişafının ən yeni dövründə ilk dəfə olaraq təcavüzkar ideyasızlıq passiv ideyasızlıqla üz-üzə gəldi. Əqidəsiz və prinsipsiz və ümidsiz vəziyyətdə olan adamlar nazik siyasi zənciri qıraraq öz daxilində yığılıb qalmış mənasız nifrəti eyni ilə onlar kimi əqidəsiz və prinsipsiz, lakin qarınları tox olan həmcinslərinin üzünə tüpürdülər. O ki qaldı ümidlərə - bu, ayrı bir söhbətin mövzusudur".

İcmalçıların fikrincə, kommunist sistemi və ideologiyasının süqutundan sonra postsovet məkanında ideoloji boşluq yaranıb, onu doldurmaq üçün müxtəlif vasitələrə əl atırlar. Bəzi MDB ölkələrində şəxsiyyətə pərəstiş dirçəldilir, inzibati amirlik sistemi demokratiya pərdəsi altında bərpa edilir.

Rusiya isə yeni bir hibrid sistem axtarışındadır. Dövlət simvollarına fikir verin: sovet himni, imperiya gerbi, çar bayrağı. İdeya boşluğu isə qalmaqdadır.

Bəzi rəsmi dairələr cəmiyyətin birliyinə idman vasitəsilə necə deyərlər, "idman ideyası" vasitəsilə nail olmaq xülyasına düşüblər. İqtisadi təsislər, sənaye müəssisələri əvəzinə idman qurğuları tikməyə başlayıblar. Halbuki, idman ideyası vasitəsilə biznesmenlərin kiçik bir dəstəsini, həm də hakimiyyət orqanların və adamlarına yaxın olmaq və bundan öz məqsədləri üçün istifadə etmək istəyən qrupu cəlb etmək olar. İdmandan siyasi məqsədlər üçün istifadə etmək təşəbbüsləri geniş mənada baş tutan şey deyil.

Heç kəs idman və idman qurğuları tikintisinin əleyhinə deyil. Amma əhalinin böyük bir qisminin işsizlik və maddi çətinliklər girdabında çabaladığı bir ölkədə idman qurğularını ön plana çəkib idmanı siyasi oyuna çevirmək xətalı yoldur.

Təcavüzkar ideyasızlıq həmçinin siyasi və mənəvi əxlaqsızlığa aparan yoldur. Rusiya neçə əsrlərdir ki, bu bəlaya da mübtəladır. Bu yaxınlarda "Nauka i jizn" jurnalında "İmperator I Nikolay və onun çarlığı" sərlövhəli iri həcmli bir məqalə dərc olunmuşdur. Yazıda maraqlı cəhət odur ki, 30 il müddətində çarın ətrafında olan, ona can-başla qulluq edən, namus və şərəflərini vəzifə və ənamlara qurban verib, əxlaqsızlıq mühiti yaradanlar, diktator öləndən sonra onun haqqındakı həqiqətləri, rəzalət və cəhaləti qələmə almaq "cəsarəti" göstərmişlər. Məqalədə deyilir:

"İmperator I Nikolay nəinki gözəgəlimli frelinalara və saray xanımlarına, həm də təsadüfən qarşısına çıxan cazibəli qadınlara kişi diqqətini əsirgəmirdi. Bu barədə onun müasirlərinin əsla şübhə doğurmayan xatirələri çoxdur. Məsələn, o vaxtlar Rusiyada olmuş əcnəbilərdən biri - məşhur knyaz N.N.Demidovun kübar katibinin xatirələrində deyilir: "Çar özünün bütün başqa hərəkətlərində olduğu kimi sevgi macəralarında da mütləqiyyətçidir: əgər o gəzinti zamanı, teatrda, kübar cəmiyyətdə bir qadını gözaltı etmiş olsa, özünün növbətçi yavərinə bir söz deyir. Onun diqqətini cəlb etmiş qadın nəzarət altına alınır. Əgər onun əri varsa ərinə, subaydırsa - valideynlərinə bildirirlər ki, onlar böyük şərəfə layiq görülmüşlər. Bu cür diqqətin müqabilində dərin ehtiramla minnətdarlıq izhar edilmədiyi hal məlum deyil. Eyni qayda ilə belə bir hal da məlum deyil ki, şərəfləri tapdalanmış ərlər və ya atalar özlərinin şərəfsizliyi hesabına mənfəət əldə etmiş olmasınlar...

Nikolayın ölümündən sonra savadlı adamların əksəriyyəti rahat nəfəs aldı. Hamı istər-istəməz hiss edir ki, onların hər birinin çiynindən sanki ağır bir yük götürülmüş, o vaxtadək hiss etdikləri təzyiq azalmış, onlar daha rahat nəfəs almağa başlamışlar. Əgər adamlardan hər biri səmimi olsa, heç kəs onun dirilməsini istəməzdi. Nikolayın ölüm xəbəri cəmiyyətin digər yarısı tərəfindən açıq sevinclə qarşılanmışdı".

Bu vəziyyət Rusiyada hakimiyyətdə olan diktatorların demək olar ki, hamısına bu və ya digər cəhətdən şamil olan keyfiyyətdir ki, davam edir.

Yaşadığımız günlərdə hadisələr elə sürətlə cərəyan edir ki, neçə yüzilliklər ərzində müstəmləkəsi olduğumuz, ölkəni idarə etmək qayda-qanunlarını öyrəndiyimiz Rusiyada formalaşmış iqtisadi-siyasi, mənəvi əxlaqi idarəetmək mexanizminin təbiətini və fəaliyyət prinsiplərini də-

rindən ayırd etməyi yadımızdan çıxarırıq.

Rusiya tarixini hərtərəfli tədqiq edənlər qeyd edirlər ki, imperiya düşüncəsi, hərbi feodal təfəkkür tərzi, avtoritarizm, ideyasızlıq, yerliçilik və rüşvətxorluq Rusiyada zaman-zaman, müxtəlif intervallarla böhran və sarsıntılara səbəb olur. Məsələn, göstərirlər ki, son 200 ildə 9 belə böhran və inqilablar dövrü yaranmışdır. 1801, 1825, 1856-1866, 1881, 1905-1907, 1917, 1937-38, 1956, 1985. Burada nəzərə çatdırılır ki, hadisələr arasındakı müddət yeni bir nəslin siyasət meydanına gəlməsi müddəti qədərdir.

Əlbəttə, hakimiyyətə gələn qüvvələr bu vaxta qədər çox vaxt sistemi köklü şəkildə dəyişməyə çalışmamışlar. Cüzi islahatlar, formal və aldadıcı təsisatlar, demokratiya oyunları ilə öz mövqelərini möhkəmləndirməyə səy göstərmişlər. Padişahları, çarları, baş katiblər, onları prezidentlər əvəz etmişlər. Sosialist mülkiyyəti talan edilmiş, kapitalist, xüsusi mülkiyyət forması hələlik ölkəni müstəqil idarə etmək şəklində formalaşmamışdır. Ölkə iqtisadi və siyasi cəhətdən dolaşmış kələfə bənzəyir. İdeyasızlıq, özü də təcavüzkar ideyasızlıq hər an özünün dağıdıcı formasında təzahür edə bilər. Problem idman ideyası ilə həll oluna bilməz. Məcrasını tapmış sivilizasiyalı ölkələr və xalqlar ailəsinə istiqamət götürmək, qoşulmağa səy göstərmək vaxtıdır. Gecikmək olmaz!

**"Günay" qəzeti, N27, 6 iyul 2002**

## QARABAĞDA ERMƏNİ İTAƏTSİZLİYİ

ÜZEYİR BƏYİN ŞƏRHİ

Qarabağın düşməndən azad edilməsi məsələsi düyünə düşüb. Onun qanuni, hüquqi və ədalətli həllini tapmaq düşüncəsi belə nəzərə çarpmır. Ermənilərin Qarabağda Azərbaycan hökumətinə itaətsizliyi, qiyam və üsyanı torpaq məsələsinə çevrilib. Məsələ problem olub, beynəlxalq səviyyəyə çıxarılıb. Azərbaycan torpağı hərrac obyektinə çevrilib. Milli mənlik hissi, torpaq qeyrəti ruhu koşayıb. Şəxsi mənafelər milli mənafeləri üstələyir. Qarabağ torpağının itaətsiz, azğın düşməndən azad edilməsi, dövlətin və xalqın fövqəladə, təxirə salınmaz bir nömrəli vacib məsələsinə çevrilməyib. Atalar "özgəyə ümid olan şamsız yaşar" - demişlər. Nə ABŞ, nə Fransa, xüsusilə, nə də Rusiya Qarabağ məsələsini həll edən deyillər. Tarixi təcrübə də bunu sübut edir.

Ermənilərin Qarabağı ələ keçirmək cəhdləri birinci dəfə deyil. Tarixdən az-çox xəbəri olanlar bunu yaxşı bilir. Rusiyada 1917-ci ildə çarlıq imperiya üsulu-idarəsi dağıldıqdan, Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdiyi gündən ermənilər bu dövləti zəiflətmək, parçalamaq qəsdilə nələrə əl atmamışdılar?! Bakıda bolşeviklərlə sövdələşib hakimiyyəti ələ keçirmişdilər - 26 Bakı komissarından 17-si erməni, cəmisi 3-ü azəri türkü idi. Bakı quberniyasını Sovet Rusiyasına birləşdirmək planı gündəlikdə idi. Qarabağda Andranikin quldur dəstələrinin vəhşilikləri tüğyan edirdi. Gəncə və ətrafı erməni basqınına məruz qalırdı. Yenicə təşkil olunmuş Azərbaycan hökuməti qardaş Türkiyə Silahlı Qüvvələrinin yardımı və qısa müddətdə təşkil olunmuş milli ordu hissələrinin qəhrəmanlıq və rəşadəti sayəsində Bakını və Azərbaycan torpaqlarının böyük bir qismini azad etdilər. Lakin 1918-ci ilin noyabrında Osmanlı ordu hissələri Azərbaycanı tərk etdikdən və ingilis müttəfiq silahlı qüvvələri gəldikdən sonra ermənilər yenidən fəallaşmağa başladılar. Ermənilərin Azərbaycan hökumətinə itaətsizliyi qiyam və üsyan səciyyəsi alırdı. Üzeyir bəyin yazdığı kimi onlar "Avropaya ümidvar"idilər. "Ümidvar olmaqlarının əsası dəxi budur ki, guya onlar müharibə əsasında müttəfiqlərə "kömək durub" düşmən qabağında "duş gərib qılınc vurubdular", bunun əvəzində müttəfiqlərdən "ənam gözləyirlər!"

Üzeyir bəy yazırdı ki, daşnaklar "Andraniklərin top və tüfəng hücumları ilə bərabər"... iftira və böhtan hücumuna da başlamışlardı, azərbaycanlıların "zülmündən", "məzlum" ermənilərin müsəlmanların "təzyiqinə" məruz qalmasından car çəkirdilər.

Üzeyir bəy Qarabağ məsələsini ermənilərin torpaq iddiası kimi yox, Azərbaycan hökumətinə iaətsizliyi kimi qoyurdu. O yazırdı: "Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad artıq həyasızlıq dərəcəsinə varmışdır".

Məsələnin bu cür qoyuluşuna ingils generalı Tomson da müqavimət göstərməyə cürət etməmişdi. "Azərbaycan hökuməti icrai-hökm və ifadeyi-vəzifə edə biləcəyini bildirdi, bundan sonra hər kəs ki, Qarabağda Azərbaycan hökumətinə qulaq asmadı, asi və xain cümləsindənədd (hesab) edilib layiqi olan cəzalara düçar edilməlidir" - dedi, yazdı.

Üzeyir bəy yazırdı ki, "Qarabağda "hartuvurtu" salan, bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmayıb, bir dəstə daşnakgüruhudur... bu güruh erməni millətinin gözünü o qədər qorxudubdur ki, bir qədər haqsızlıq və zülmlərə qarşı ağız açıb söz deməyə cürətləri yoxdur".

Qarabağ məsələsinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-1920-ci illərdə hökumətə iaətsizlik kimi qoyub həll etdiyi məlum-

dur. Bunun üçün ümumi Qarabağ qubernatorluğunun yaradıldığı da bəllidir. Nə üçün bu tarixi təcrübədən lap əvvəldən istifadə edilmədi? Müsavat düşmənçiliyi demokrat libası geyinmiş bolşevik-kommunistlərin və onların tör-töküntülərinin düşüncəsini bu o qədər küt etmişdi ki, əllərində imkan olsaydı o dövrü tariximizdən silib atarlardı. Amma nahaq! İndi gəlin Qarabağ məsələsilə bağlı milli müqəddəsimiz 1918-1920-ci illərdə Azərbaycan hökumətinin mövqeyini əks etdirən "Azərbaycan" qəzetində aparıcı qələm sahiblərindən olan Üzeyir bəyin "Eyni müamilə gözləyirik" sərlövhəli şərhi ilə tanış olaq!

**P.S.** *Üzeyir bəyin bu mövzudakı digər yazılarını da oxuculara təqdim etmək fikrindəyik.*

## *EYNİ MÜAMİLƏ GÖZLƏYİRİK*

Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad artıq həyasızlıq dərəcəsinə varmışdır.

İngilis baş komandanı Bakı nümayəndəsi Şatulvert cənabları Qarabağ ermənilərini Azərbaycan hökumətinə itaətə dəvət etmək üçün rəsmi surətdə Bakıdan Qarabağın müqərrər (qərarlaşdırılmış) hökuməti olan Şuşa şəhərinə getdi. Erməniləri əhvaldan xəbərdar edib Qarabağda yalnız Azərbaycan hökuməti icrai-hökm və isr状-vəzifə edə biləcəyini onlara bildirdi, ingilislərin də yalnız bu nöqteyi-nəzəri iltizam (təəhhüd) etdiklərini elan ilə Qarabağ ermənilərini itaətə dəvət etdi.

Buna cavab olaraq Qarabağ erməniləri bir "syezd" yığıb məsələni "müzakirə" etdilər və təkrar bu qərara gəldilər ki, Azərbaycan hökumətinə tabe olmasınlar!

Şatulvert cənabları ermənilərin bu qərarına rəğmən Qarabağın məhz Azərbaycan hökuməti təhti-idarəsində olduğunu elan ilə bu hökumətə tabe olmağı umum əhaliyə tənbiğahə (əmr) etdi.

Deməli, bundan sonra hər kəs ki, Qarabağda Azərbaycan hökumətinə qulaq asmadı, asi və xain cümləsindənədd edilib (sayılıb) layiqi olan cəzalara düçar edilməlidir.

Lakin Qarabağ erməniləri böylə cəza və tənbihələrdən qorxmayırlar, çünki öz dedikləri kimi "Avropaya ümidvardırlar", ümidvar olmaqlarının əsası dəxi budur ki, müharibə əsnasında müttəfiqlərə "kömək durub" düşmən qabağında "duş (çiyin) gərib qılınc vurubdurlar", bunun əvəzində müttəfiqlərdən "ənam" (mükafat) gözləyirlər! ...Məsələ-

nin bu gün bizi maraqlandıran cəhəti budur: maadam ki, Qarabağ ermənilәri ingilis baş komandasının dəxi əmrindən çıxırlar və öz haqsızlıqlarında inadlıq edib dururlar, o surətdə ingilis baş komandanlığı öz nüfuz və heysiyyətini itirməmək üçün nə kimi müamilələrə təvəssül edəcəkdir, rəftarlara əl atacaqdır?

Kiriyib duracaqdırmı?

Əlbəttə, əgər ingilislər bu cürə işlərə əvvəldən qatışmasa idilər və məsələnin həllini bizim özümüzə vagüzar (həvalə) etmiş olsa idilər, biz bu işi bir növlə bitirib, ya sazişlərə və ya cəbrən haqqımızı yeritməyə qadir olardıq. Məsələn, ingilislər gürcü və Axıska məsələsinə qatışmadıqları kimi, Azərbaycan və Qarabağ məsələsində də bitərəf qalsa idilər, biz özümüz bu məsələni çoxdan həll etmiş olardıq. Amma maadam ki, ingilislər Qarabağ məsələsinə qatışdılar, özləri də haqqın tərəfdarıdırlar, o halda gözlədiyimiz odur ki, erməni inadını sındırmaq və erməniləri boş xəyalatdan əl çəkdirmək işini yarımçıq və natamam qoymayıb, axıradək aparsınlar. İngilis baş komandası bu əmri axıradək yetirməyə üç cəhətdən borcludur:

Əvvəla, iş natam qalırsa, ermənilərin haqsızlığı müsəlmanlara xoş gəlməyib arada vuruşma və toqquşmalar əmələ gələ bilər ki, bunun məsuliyyəti ingilislər üzərinə düşür.

Və saniyən (ikinci) - ingilislər bir dəstə Qarabağ ermnəilərini itaətə məcbur edə bilməsələr, öz nüfuz və heysiyyətlərini Qafqaz millətləri arasında itirə bilərlər.

Və salisən (üçüncü) - maadam ki, ingilislər Karsı və həvalisini (ətrafını) erməni hökumətinə təslim etmək üçün oranın "İslam şurasını" dağıtdı, əzalarını (üzvlərini) həbs etdi və bir neçələrini öldürdülər, o halda Qarabağ ermənilərinin bu itaətə məcbur üçün insaf və ədalət naminə eyni müamiləyi (rəftarı) işlətməyə mənaən (mahiyyətcə) məcburdurlar. Bala (uca) türk qövmünə qarşı böyük bir haqsızlıqda bulunmuş olarlar.

Qarabağda bu "hartuvurtu" salan və bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmayıb, bəlkə bir dəstə daşnakguruhudur. Qarabağın kənd erməniləri yaxşı bilirlər ki, Azərbaycan hökumətinə tabe olmasalar, müsəlmanlar ilə əlaqələrini kəsməyə məcbur olub acından ölərlər. Öna görə biz əminik ki, bədbəxt erməni kəndliləri bu gün bir dəstə daşnakların xəyanət və şeytanəti qurbanıdırlar, bu guruh layuflihun (nicat tapmayan) erməni millətinin gözünü o qədər qorxudubdur ki, bir bu qədər haqsızlıq və zülmlərə qarşı ağız açıb söz deməyə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd (qovulsa) və təbid (sürgün) edilirsə və onların yuvaları dağılarsa, Qarabağ ermәni-

ləri asudə nəfəs çəkib həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb Azərbaycan hökumətinin ədaləti altında və sayeyi-mərhəmət vayəsində (mərhəməti səbəbli) kəmali-asudəgi ilə imrari-məişət edərlər.

İştə, bizim və Ümumqafqaz türklərinin ingilislərdən gözlədiyi budur ki, Qarabağ erməni üsyançılarına qraşı şiddətli tədbirlər ibraz etməklə, həm ədalət göstərsinlər, həm də öz şan və heysiyyətlərini artırsınlar və bununla Qarabağ erməni məsələsi birkərəlik həll edilib qurtarsın.

**Üzeyir HACIBƏYLİ**
*"Azərbaycan" qəzeti, N172,*
*5 may 1919-cu il.*

**"Günay" qəzeti, N28, 13 iyul 2002**

## BƏŞƏRİ DƏRDLƏR, QLOBAL PROBLEMLƏR AZALMIR Kİ, AZALMIR

20-ci yüzillik kimi, bizlər - 21-ci yüzilliyin ilk sakinləri də belə xəyal edirdik ki, bəşəriyyət inkişaf və tərəqqinin ən yüksək pilləsi sayılan informasiyalı cəmiyyətə qədəm qoymuşdur. Ölkə vətəndaşı dünya vətəndaşı səviyyəsinə yüksəlir, kosmosdan planetin hər bir guşəsini görmək imkanı yaranmışdır, elmi-texniki tərəqqi çox geniş bir vüsət almaqdadır, bir sözlə, insancasına yaşamaq və yaratmaq üçün şərait və imkan yaranmaqdadır. Yüksək inkişaf etmiş bir qrup ölkə üçün bu artıq reallıqdır. Dünyanın 6,4 milyard sakinindən "qızıl milyard" adlanan qismi inkişafın bu mərhələsindədir.

İndi planetin bütün guşələrini görmək, cərəyan edən təbii və ictimai-siyasi hadisələri izləmək yeni informasiya texnologiyası sayəsində reallığa çevrilmişdir. Digər tərəfdən, yaşadığımız dünyanı, onun tarixi abidələrini, gözəlliklərini bilavasitə görməyə və seyr etməyə xidmət edən turizm də genişlənməkdədir. Ən son statistikaya görə keçən il turistlərin bütün dünya üzrə umumi miqdarı 690 milyon nəfərə çatmışdır. Bu dünyanın bir üzü.

Dünyanın digər bir üzü də var: aclıq, fəlakət, haqsızlıq, təcavüzkarlıq, dini və etnik toqquşmalar, diktatorluq, avtoritar rejimlər, quraqlıq, susuzluq, işsizlik, xəstəliklər və s. və s. Bunlar da reallıqdır. BMT-nin

hesablamalarına görə hər 4 saniyədə planetin bir sakini acından ölür. Aclıq çəkənlərin ümumi miqdarı 840 milyon nəfərə çatır. Müxtəlif səbəblər üzündən vətənini, doğma yurdunu tərk etmək məcburiyyətində qalanların sayı da ilbəil artır. Qanunsuz mühacirət beynəlxalq problemə çevrilib. Təkcə Avropada onların miqdarı milyonlarla hesablanır. Qaçqınlar və məcburi köçkünlərin miqdarı isə BMT-nin rəsmi məlumatında 22 milyon nəfər kimi qeyd edilir.

Bu yaxınlarda "İzvestiya" qəzetində "Moskva etnik kartla oynayır" ("Москва разыгрывает етническию карту") ümumi başlığı altında bir səhifə verilmişdi (18.VI.2002). Faktlar, rəqəmlər, diaqramlar, statistik məlumatlar və Rusiya Elmlər Akademiyasının etnologiya və antropologiya institutunun direktoru V.Tişkovun problemlə əlaqədar geniş şərhi dərc olunmuşdur. Diqqət veriləsi, düşünüləsi cəhətlər çoxdur. Səhifədə verilmiş xəritədən məlum olur ki, Moskvada beş əsas yığcam etnik icma mövcuddur: Çin, Cənub-Şərqi Asiya, erməni, gürcü və azərbaycanlı icmaları. Çinlilər şəhərin Oçakova, "Avtozavodskaya" metrosu sahəsində, Cənub-Şərqi asiyalılar metronunun Savelovskaya, Domadedovskaya, Planernaya stansiyaları zonasında, ermənilər paytaxtın cənub-qərbində, azərbaycanlılar metronunun İzmaylova stansiyası ətrafında, gürcü icması isə şəhərin Marina Roşşa sahəsində məskunlaşmışlar.

Moskva hökumətinin ictimaiyyət və regionlararası əlaqələr komitəsinin sədri Eduard Koman yazır ki, neçə illərdir ki, kütləvi informasiya vasitələri Moskvada yaşayan rus olmayan əhali barədə şişirdilmiş, həqiqətlə uzlaşmayan rəqəmlər uydurmaqda və beləliklə də ekstremist əhvali-ruhiyyə qızışdırmaqdadır. Məsələn, yazırlar ki, guya Moskvada 800 min tatar, 400 min erməni və bir milyona qədər azərbaycanlı yaşayır. Halbuki 1989-cu il siyahıya alınmasına görə Moskvada cəmi 155 min tatar vardır. Bu rəqəmi birdən-birə 5 dəfə artırmaq nə məqsədlə edilir? Bu həmçinin azərbaycanlılara da aiddir. Eyni sözləri Moskvada qeyri-leqal, icazəsiz yaşayanların miqdarı haqqında da demək olar. Bəziləri MDB, Cənub-şərqi Asiya və ərəb ölkələrinin Moskvada qanunsuz yaşayanların miqdarı haqqında 3,5 milyon kimi uydurulmuş, fantastik rəqəmlər göstərirlər. Halbuki 2002-ci ilin 4 ayı ərzində 180 min belə şəxs aşkar edilmişdir, 300 min nəfər isə pasport-viza rejimini pozduqları üçün administrativ qaydada məsuliyyətə cəlb olunmuşlar.

"İzvestiya" qəzeti müxbirinin V.Tişkova verdiyi suallar və onun cavabları da bu beynəlxalq səciyyəli problemi dərk etmək baxımından xeyli maraq doğurur. Suallara diqqət verin -

"Ərəb" Parisinin, yaxud "alabəzək qazanı" xatırladan Nyu-Yorkun təcrübəsini çoxmillətli Moskvada tətbiq etmək mümkün olsa, bizi Los-Ancelesdəkinə oxşar talanlardan və ya CAR-dakına oxşar aparteiddən sığortalanmış olacağıqmı?

Yaxud - nəyə görə irqçilik elementləri dövlət siyasəti xarakteri kəsb edir?

Akademik V.Tişkov göstərir: "İrqçiliyə qarşı mübarizə üçün əsas məsuliyyəti dövlət daşıyır, lakin cəmiyyətin köməksiz halda ah-zar etməkdən əl çəkmək vaxtı yetişib. Burada strategiya - ekstremizmin dövlət səviyyəsində cəzalandırılmasından ibarət olmalıdır. Bizdə bu sahədə, mükəmməl olmasa da, müəyyən qanun var. Zənnimizcə, birmənalı şəkildə başa düşülməyən "milli şərəf"in təhqir edilməsinə görə deyil, qruplararası ayrı-seçkiliyin hər hansı formasının qəsdən və ya bilməyərəkdən qızışdırılmasına və zorakılıq hərəkətlərinin icrasına görə cəzalandırmaq lazımdır".

O ki qaldı Moskva sakinlərinin milli tərkibinə, "İzvestiya" 1989 və 1994-cü illərin siyahıyaalınma hesablamalarına və son tədqiqatlara istinadən yazır ki, paytaxt əhalisinin 90,5 faizini ruslar və ukraynalılar, yerdə qalanlarını isə saya görə tatarlar, yəhudilər, belaruslar, ermənilər, moldovlar, gürcülər, sonra azərbaycanlılar və digər xalqların nümayəndələri təşkil edir.

Məncə, respublikamızın kütləvi informasiya vasitələri əməkdaşları Moskvadakı azərbaycanlılar haqqında yazanda və danışanda, bu həqiqəti və faktları nəzərə almalıdırlar.

**"Günay" qəzeti, N29, 20 iyul 2002.**

## QƏDDAR TƏCAVÜZKAR, İFTİRA VƏ BÖHTAN QURMAQ "USTALARI"

Hər gün ANS televiziya kanalı elan edir ki, cəbhə xəttində atəşkəs pozulmayıb, nisbi sakitlikdir. Bu trafaret sözləri eşidəndə Üzeyir Hacıbəylinin 1919-cu il yanvarın 23-də "Azərbaycan" qəzetində dərc olunmuş "Fitnələr qarşısında" sərlövhəli məqaləsi yadma düşür. Üzeyir yazırdı:

"Hökumətimizin və müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirləri sayəsində Andranikin vəhşiliyi dayandırıldı", "daşnakların andraniklərin vasitəsilə üzərimizə atdığı top və tüfəng güllələrini dəf etmək, onların iftira və böhtanlarını dəf etmək işindən çox asandır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustadlığı ilə məşhurdurlar".

Bağışlanılmaz xətadır ki, biz böyük Üzeyirin bu uzaqgörən, tarixi həqiqəti əks etdirən, nəsillərə vəsiyyət səciyyəsi daşıyan xəbərdarlıq və açıqlamalarından xəbərsiz qalmışıq. Elə indinin özündə də Qarabağ faciəsilə əlaqədar Azərbaycan xalq cümhuriyyəti dövrü siyasəti və tədbirləri barədə geniş ictimaiyyətə lazımınca əsaslı, sanballı məlumat verilmir. Amma çox nahaq!

Cümhuriyyət hökuməti Qarabağda ermənilərin törətdikləri cinayətkar hərəkətlərə torpaq iddiası, Azərbaycan torpağını zəbt edib, ondan qoparmaq cəhdi kimi deyil, qanuni, xalq tərəfindən seçilmiş, parlament tərəfindən təyin edilmiş hökumətə itaətsizlik hərəkəti kimi baxmış və lazımi tədbirlər görmüşdü, daşnakların bu qiyam və üsyanlarını dəf etməyi bacarmışdı. Digər tərəfdən ermənilərin "iftira, böhtan və əsassız ittihamlarını ifşa və bədnam etməyi də bacarmışdılar. Bu təcrübə də tarixi əhəmiyyətə malikdir. Çünki, dövrün ən istedadlı, tanınmış, nüfuz, hörmət və ləyaqət sahibi olan ziyalıları bu ideoloji-siyasi savaşın ön cəbhəsində dururdular. Vətənin taleyi, millətin şərəfi, xalqın gələcəyi onları vahid namus və qeyrət cəbhəsində birləşdirmişdir. Bu cəbhəyə də indi çox böyük ehtiyac duyulur. Erməni-daşnak fitnəkarlığı indi də müstəqil Azərbaycanı təqib edir, Qarabağ torpaqları xilaskarlarını gözləyir. Üzeyir bəy demişkən "özümüzü "əqrəb"lərdən qorumaq hər bir cəhətcə borcumuzdur". 1918-1920-ci illərdə erməni fitnəkarlıqlarının qarşısı qətiyyətlə alındı. Çünki Üzeyirbəylər bu fitnələri vaxtında görmüş, onun mahiyyətini nəinki, azəri xalqına, həmçinin müttəfiq ölkələrin rəsmi dairələrinə lazımınca inandırmağı bacarmışdılar. Üzeyirbəyin haqqında danışdığımız məqaləsilə tanış ola bilərsiniz.

## *FİTNƏLƏR QARŞISINDA*

Hökumətimizin və müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirləri sayəsində Andranikin vəhşiliyi dayandırıldı. Andranik "yarüənsarinə" (dost və tərəfdarlarına) məktubları yazıb, "müharibə" bitdiyini elan edir...

Top və tüfəng hücumları ara verdi. Zənn edilirdi ki, bir qədər qulağımız dincələr, baş-beynimiz rahat olar. Qəlbimizin təşvişi sakit olub, yorğun əsəblərimizin sızıltısı dayanar.

Lakin heyhat! Bu zənni o adam edə bilər ki, daşnakların xilqəti-xüsusiyyətlərinin təqazası və təbiəti-milliyyələrinin icbatı olan "Niş" (neştər) vurmaq xüsusiyyətindən bixəbər ola!

Andraniklərin top və tüfəng hücumlarının arası yenicə kəsilmişdi ki, bü gün özümüzü başqa növ hücumlara məruz qalmış görürük. Bu yeni hücumlar iftira və böhtan hücumlarıdır ki, daşnakların "Vperyod" qəzetinin dünənki nömrəsi başdan-ayağa bü iftira və böhtanlar ilə doludur.

Top və tüfəng ağzından çıxan güllələr, daşnak və əmsalı (ona oxşayanlar) ağzından çıxan söyüş və yalan sözlər ilə əvəz edilibdir.

İftira, böhtan və əsassız ittihamlarından ibarət olan bu sözlər, zatən general Tomsona qarşı bir nümayişdir. Yəni: ey general Tomson! Sən ki, bizim andraniklərimizi dayandırmağa məcbur etdin, indi gör: Azərbaycan müsəlmanları bizim başımıza nə oyunlar açırlar, nə zülmlər edirlər. Halbuki, bunun təqsiri sənin boynuna gəlir, çünki bu işdə ehmallıq edən və Azərbaycan türklərinə "cürət" verən sənsən!

Bugünkü nömrəmizdə tərcümə edilmiş olan Şuşa erməni komitəsi nümayəndələrinin "şikayəti" mülahizə edildiyi üzrə azərbaycanlıların "zülmündən" və general Tomsonun "qeydsizliyindən"dir.

Lakin zənn etmirik ki, bu "şikayətnamə" müttəfiqlər komandası rəisinə ermənilərin arzu etdiyi təsiri - "bəxş" edib də "məzlumların" halına can yandırtsın. Tomsonlar erməni "şikayətlərini" London məhafilində (yığıncaqlarında) dinləmirlər ki, inanmamağa haqları olsun. Tomsonlar qafqazdadırlar, işin içindədirlər. Kimin-kimdən şikayət etməyə haqqı olduğunu görürlər. Görməsə idilər andraniklərin həddini özünə bildirməzdilər.

Azərbaycanın Azərbaycan hökumətinə tapşırılmasını təsdiq etmiş olan general Tomson Azərbaycan torpağında haman hökumətin hökm və qanununun icra ediləcəyini bilmirmi ki, ermənilərin "Azərbaycan hökuməti bizi tərk-silaha məcbur edir" kimi nahaq şikayətlərinə məhəlgüzar olsun. Əlbəttə, bir dövlətdə ki, bir ünsür iğtişaş və nizamsız-

lığa mail ola və bu meylini hüsulə gətirmək təşəbbüslərinə silah gücü ilə girişə, bu "məğşuş" (qarışıqlıq salan) ünsürün müsəddiq hökumət tərəfindən tədibə (tərbiyə) tərksilaha məchur ediləcəyi təbii və qanuni bir əmrdir.

Azərbaycan torpağında yaşayan ünsürlərin Azərbaycan hökumətini tanıması və tanımaq istəmədikdə bu əmrə məcbur edilməsi dəxi müvafiq qanun və ədalət bir işdir ki, daşnakların: Azərbaycan hökuməti bizi itaətə məcbur edir - deyə bu yoldakı şikayətlərinin nə qədər boş və əsassız olduğunu öz-özündən aşkar surətdə bildirməkdədir.

Guya Azərbaycan qoşunu və "müsəlləh tatarlar" səbəbsiz olaraq erməni kəndləri üzərinə hücumlar edib, əhalini qətli-qarət edirlər - deyə şikayətin dəxi ətraflı bir surətdə təhqiqə böyük bir ehtiyacı vardır. Bu təhqiqin nəticəsi meydana çıxıncaya qədər haman "şikayətlərin" bizim gözümüzdə iftira və böhtandan ibarət olacağı da dəlil və əsassız deyildir.

Daşnakların, andraniklərin vasitəsilə üzərimizə atılan top və tüfəng güllələrini dəf etmək, bunların iftira və böhtanlarını rədd etmək işindən çox asılıdır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustalığı ilə məşhurdurlar. Odur ki, bu günə "donoslar" hücumuna və iftiralar "Niş"inə qarşı qəlbimizi bir o qədər də sıxmayıb Sədinin

**"Nişe əqrəb nə əz-rəhe kin əst,**
**İğtezaye təbiətəş in əst!"** *

beyti ilə mütəsəlli ola bilərik. Lakin bununla belə özümüzü "əqrəb"lərdən qorumaq hər bir cəhətcə borcumuzdur. Çünki bunların "niş"i kin üzü ilə olsun, ya təbiətlərinin iqtizası (tələbi) olsun - insanın canını ağrıdır və əziyyətinə səbəb olur.

**Hacıbəyli ÜZEYİR**
*"Azərbaycan" qəz. N95, 23 yanvar,*
**1919-cu il**

* ***Əqrəbin neştəri ilə sancması onun sancdığına kin bəsləməsi səbəbli deyil, onun təbiətindən gələn xasiyyətdir.***

**"Günay" qəzeti, N30,**
**27 iyul - 2 avqust 2002**

# MÜQƏDDƏS BİR ƏQİDƏNİ KİMDƏN GÖZLƏYİRİK?

Əcdadlarımızın qan bahasına hifz edib bizə miras qoyduğu zəngin torpağımız var. Fəxr edə biləcəyimiz mənəvi, ədəbi-mənəvi irsimiz də var. Sayı yarım milyona yaxınlaşan ali təhsilli mütəxəssislərimiz, minlərlə elmi dərəcəli və rütbəli alimlərimiz də var. Bəs nə üçün bu böyük potensiala sahib ikən xalqı və torpaqlarımızı müdafiə etməyə və insancasına yaşayıb-yaratmaq problemlərini layiqincə, əl və dil birliyi ilə həll edə bilmirik? Bu yeni sual, yeni problem də deyil! Bizi zaman-zaman müşayiət edən sual və problemlərdir. bunların ətrafında və həlli yolunda baş sındıran, can fəda edən mücahidlərimiz də az olmayıb. İndi də onlar az da olsa var.

Yola saldığımız 20-ci əsrin əvvəllərində Azərbaycanın taleyini düşünən, nicat yolunu axtaran, bütün varlığı, təmiz qəlbi, ülvi niyyətilə xalqına bağlı olan qüdrətli bir nurlu şəxsiyyətlər dəstəsi yetişmişdi. Nəticə etibarilə seçdiyi yolda haqlı olub-olmamasından asılı olmayaraq onların hər birini anmaq, xalqa sədaqət duyğularından faydalanmaq vacibdir. Demokratiya mədəniyyəti, fikir müxtəlifliyinə hörmət də bunu tələb etməkdədir. Belə şəxsiyyətlərdən biri də görkəmli yazıçı-dramaturq, jurnalist və publisist, həkim və ictimai-siyasi xadim Nəriman Nərimanovdur.

1922-ci ildə Azərbaycana divan tutmaq üçün N.Nərimanovu vəzifəsini böyütmək adı ilə Moskvaya aparan və orda məkrli bir yolla aradan götürənlər (1925), sonralar vətənpərvərləri "Nərimanovçuluq"da ittiham etməyə başladılar. 1920-ci ilin noyabrında İ.V.Stalin müstəqil Azərbaycan dövlətinin yenidən demokratik cümhuriyyət formasında bərpası işinə başçılıq etmiş M.Ə.Rəsulzadəni də Moskvaya aparmışdı. Onu da sovet imperiyasının əlaltısına, xalqının qənliminə çevirmək istəyirdilər. Baş tutmadı. Tarix M.Ə.Rəsulzadənin milli demokratik, müstəqil dövlətçilik nəzəriyyəsi və təcrübəsinin doğruluğunu, həyatiliyini isbat etdi. Biz indi onun başçılıq etdiyi istiqlalçı xadimlərin və fədailərin ilk dəfə qaldırdıqları bayrağın altında yenidən müstəqil dövlətçilik həyatını yaşayırıq.

Uzun müddət bizdə tarixi proseslərə və şəxsiyyətlərə ikili məntiq nöqteyi-nəzərindən yanaşılıb: dost və ya düşmən, mütərəqqi yaxud mürtəce və s. Halbuki, şəxsiyyətin qiyməti vətəninə, xalqına təmənnasız xidməti ilə ölçülməlidir. M.Ə.Sabirin təbirilə desək mükafatını yalnız öz vicdanından almaq yolunu seçməyi öyrənənlər meyar olmalıdır. başqa deyimlə milli əqidə və məslək sahibi olmalıdır. Bu problem Birinci Dünya müharibəsi ərəfəsində aktual səciyyə almışdı. N.Nərimanov da bu münasibətlə "Əqidə" sərlövhəli bir məqalə yazmış və "Bəsirət" qəzetində dərc etdirmişdi. Məncə, N.Nərimanovun əsərlərinə bu yazı daxil edilməmişdir. Onu "Günay"ın oxucularına təqdim edirəm.

# ƏQİDƏ

Əqidə - inanılan şey, etiqad, imkan deməkdir. Yəni insan bir şeyə inanır, ona ibadət edir, onu hər şeydən müqəddəs bilib ruhunu, ağlını, tam vücudunu onun yolunda sərf etməyə çalışır...

İnsan ya elm, tərbiyə və ya təcrübənin təsirindən müəyyən əqidə sahibi ola bilər.

Tutalım ki, bir adam müəyyən bir əqidə sahibidir. Məsələn, həyatdirilik nə olmağını böylə düşünür: dünya beş gündür, beşi də puç. Bu dünya eyş-işrət meydanıdır. İkinci dəfə daha bu dünyaya gəlməyəcəksən. Bu keçən gün, keçən saat, keçən dəqiqə ömürdən gedir, mümkün olduqca ver onu zövq-səfaya ta ürəkdə qalmasın arzun, köçəndə darülbəqaya (axirət dünyasına). Bu müəyyən bir əqidədir... Bu əqidənin sahibi həyatdiriliyin nə olmağını böylə anlayıbdır. Şəksiz bunun feli (işi), qövlü (sözü), ruhu, hissiyyatı əqidəsinə müvafiq gərəkdir hərəkət etsinlər.

"Dünya beş gündür, beşi də puç" əqidədə olan nə tövr gərəkdir zindəganlıq (həyat) keçirsin? Səhər yerindən durub çayını içər, çaydan sonra ya kantora, ya dükana və yainki zavoda gedər. Namaz qılır, qılmayır, o bizim işimiz deyil, özü bilsin öz Allahı. Günlük məişətində öz həmcinsləri ilə nə tövr rəftar edir, kimi aldadır, hankı yetimin pulunu yeyir, hankı adama quyu qazıyır, bu da bizim işimiz deyil. Fəqət onu bilirik ki, günorta ac qarnını doldurub kəlləni atır, axşam yenə də çay içib, xörək yeyib, qəlyanı xoruldadır və sonra bir az uşaqları ilə oynayır, bir az da arvadına yaxşı-yaman deyib genə də kəlləni atır.

İl uzunu bu tövr ömür keçirir. Fəqət haman bu əqidədə olub da bir parası, yəni bir para rəndələnmişlər, üzdən pak, təmiz, ruh sarıdan ən zəiflər, axşam çaylarını və xörəklərini klublarda yeyərlər. Bunlar da dünənki araqçın örtəndilər. Fəqət zəmanənin məqazası kluba getməyi, klubda çörək yeməyi, səhər saat üçə, dördə tək qumar oynamağı bunlardan tələb edir. Yaxşı fikir versəniz, görərsiniz, həqiqət bu iki qisim adamların müəyyən bir əqidəsi vardır, yəni dünyaya nə üçün gəlməklərini bu tövr anlayıblar; həyat nə olmağını bu tövr düşünüblər. Bunların hərəkətləri, yəni durub-oturuşları, bütün həyatları - müəyyən bir əqidədən olmaqlarını göstərir: dünya beş gündür, beşi də heç. İnsan yaranıbdır ölməkdən ötrü, ye, iç, kef et, dünyanın hər bir ləzzətini dad!... Böylə bir əqidə sahibəlrinə, əqidələrinə müvafiq zindəganlıq edənlərə mən heç vaxt təəccüb etmirəm, çünki bir şey ki, təbii yol ilə gedir, ona təəccüb etməməli. Məsələn, bu qism adamlardan tutalım ki, biri qeyri bir əqidəyə qulluq edir, fikir edib özü üçün müəyyən bir

yol tapıbdır. Doğrudur, deyir: dünya beş gündür, fəqət bu beşgünlük dünyada gizlin xəzinələr, gizlin sirrlər, qüvvələr, mühüm məsələlər, açılmayan düyünlər, təbii qanunlar vardır. Bunları aşkar etmək, təbii qanunları həll edib meydana buraxmaq insanın vəzifəsidir. Mən insanam isə bu məsələlərin birini beqədri-qüvvə mən gərəkdir həll edəm, tainki dünyadan köçəndə insana məxsus olan vicdan "gərdişin hankı bir qüvvəsini ümuminsandan ötrü həll etdin?" - sualını verənlərə isə mən məğrurluqla cavab verərəm.

Həqiqət, yuxarıda zikr olunan "müəyyən əqidə" sahiblərindən biri böylə bir müqəddəs əqidədə olub, həyatın müdam gərdişi ilə müharibədə çürütsə təəccüb deyilmi?

Odur ki, deyirəm zikr olunan həriflərin "əqidə"lərinə və əqidələrinə müvafiq hərəkətlərinə heç vaxt təəccüb etməməli.

Dünya və həyat nədir? İnsan nə yol ilə yeriş edib də "insanlıq" dərəcəsinə çatmış? - suallarını bünövrəsiz bir adam cavab verə bilməz. Yəni demək istəyiriz: gərdişə (prirodaya) yavuq olmaq, onu sevmək, onun gizli xəzinələrini tapmağa səbəb olur. Bu da oxumaq ilə olan bir şeydir. Bünövrəsiz, yəni elmsiz böylə bir mühüm məsələlərə girişmək çətindir. Bu "müəyyən əqidə" sahibləri elmdən məhrum olub da bunlardan qeyri bir şey tələb etmək, ya qeyri bir əqidə, məslək gözləmək olarmı? Yox, əfəndim!

Təbii alma toxumundan gərək alma ağacı bitsin, deyilmi? Biz buna təəccüb etməyiriz. Biz təəccüb ediriz özlərini "müəyyən bir əqidədə" olanlara oxşadan "balta başlılar"a, "dişləri nallılar"a, "başları koqardalılar"a. Balta, nal, koqarda (vəzifə şapkasına taxılan nişan) - bunların darülfununda elm təhsili etməklərini guya göstərir. Rusiyada və Avropadakı darülfünunlar Molla əmi yazdığı "Mazandaran" darülfünunlarına oxşamırlar. Bu darülfünunlarda həqiqət mükəmməl surətdə müəyyən bir şöbəyə dair elm oxunur. Məxsus bir sənətə dair lazımınca məlumat verilir isə ümum məsələlər, yəni insanın ağlını hərəkətə gətirən, ruhunu təmizləyən məsələlər də müdam müzakirə olunur.

Demək ki, bir sənətdən savayı darülfünunda xahiş edənlər üçün elmlər dairəsində ümum həyata dair geniş bir meydan açılır. Fəqət görən göz, eşidən qulaq, sağlam beyin, hissli ürək gərəkdir olsun. Bunlar oldu isə, şəksiz müəyyən bir əqidə də meydana gəlir.

İndi məndən sorarsınız: bizim oxumuşların əksəri hankı bir yol ilə gedir? Hankı bütə sitayiş edir?! Hankı bir nöqtəyə yeriş edir? Doğrusu bu suallara birdən-birə cavab vermək çətindir. Fəqət bunu təkrar edə bilərəm ki, insanın həyatına, yəni dolanacağına baxıb onun məsləkini bilmək mümkündür.

Bu mənim təsəvvürümdə. Ola bilsin də bu təsəvvür səhv olmuş ola. Səhv deyilsə, yəni siz də bu təsəvvürdəsiniz isə bir para bizim intelligentlərin məsləkləri, əqidələri barəsində nə üçün məndən sorursunuz?

Buyrunuz klublara, restoranlara, daha nə bilim nerəyə! Nerəyə! ... Yain ki, buyurunuz cəmiyyətlərə... cəmiyyətlərdə oturub bunların hərəkətlərinə, nitqlərinə baxınız, diqqət ediniz: ikiüzlülük, "filan hacının qaşqabağına" baxıb sözünüzü dəyişmək, qaraya ağ, ağa qara demək. Vicdanını, əqidəsini, elmini qara pula satmaq - bunların hamısını özünüz görürsünüz, eşidirsiniz.

Diplomlu provakatorların, şpionların, "cəmiyyətlər"in, millətin minlərcə pullarını yeyib sonra haman cəmiyyətə, haman millətə xəyanət edənlərin hələ sözlərini danışmıram.

Həqiqət hərdənbir oturub fikir edirsən: bir millətin müəyyən bir yolu, məqsədi olmadısa o millətin istiqbalı dəhşətli bir fırtınaya düçar olacaqdır, deyilmi? Düz bir yol, saf, sağlam, dəyanətli bir əqidə kimdən gözləmək? "Əlbəttə oxumuşlardan" ...deyib xəcalətinizdən başınızı aşağı salacaqsınız... Və ürəkdən ah çəkib deyəcəksiniz: Ax bədbəxt millət! Müqəddəs bir əqidəni "sən" kimdən gözləyirsən?

**Nər. (N.NƏRİMANOV)**
*"Bəsirət" qəz. 5 iyul 1914, N11*

**"Günay" qəzeti, N31, 3 avqust 2002.**

## “MOLLA NƏSRƏDDİN” VƏ QƏZET “ƏTİQƏLƏRİ”

**Azərbaycanda qəzetlərin adı və sayı sarıdan korluq yoxdur. Əsas korluq oxucu, alıcı sarıdandır. Qəzet almaq imkanı olanların sayı həddsiz dərəcədə azalıb. Digər tərəfdən oxunaqlı, müasir tələblərə cavab verən, həyat həqiqətlərini doğru və düzgün əks etdirən, cəmiyyətin həqiqi aynası olan mətbuat orqanlarının sayı da azalıb. Jurnalistikanı gəlir mənbəyinə, yalan və iftira vasitəsinə, məddahlıq və yaltaqlıq ruporuna çevirmək təşəbbüsləri də göz qabağındadır. Mətbuat informasiya vasitələri elektron informasiya vasitələri ilə rəqabətdə də əsasən uduzur. Əgər imkanlı hakimiyyət dairələrinin açıq və üstüörtülü təzyiq və təqiblərini də hesaba alsaq KİV-in çox da ürək açıcı olmayan mənzərəsi qarşımızda canlanar. Jurnalistika tariximizdə keçən əsrin əvvəllərində bazar iqtisadiyyatının mətbuat və nəşriyyat sahəsində də bərqərar olmağa başladığı dövrdəki vəziyyəti və problemləri elə bil müəyyən mənada təkrar olunur. Bu mənada “Molla Nəsrəddin” jurnalında Mirzə Cəlilin 1911-ci ildə çaldığı həyəcan təbilinin səsi adamın qulağında səslənir. “Ətiqə” sərlövhəsilə verilmiş bu maraqlı və ibrətamiz yazını jurnalist həmkarlarımız oxusalar yaxşıdır.**

### *ƏTİQƏ*

Bakıda Quba meydanından keçirdim. Gördüm camaat o qədər yığılıb ki, deyəsən cəmə (cəmiyyət) məsələsindən ötrü mitinq edirlər. Bir az yaxın getdim ki, görüm bu nə qiyamətdir? Lakin bir şey anlamadım. Ancaq dəyənək guppultusu ilə qarışıq bağırtı səsləri eşitdim. Bu həngamədə üç-dörd gavur (müsəlman olmayan) əcnəbi səyyahlar da mənə yaxın gəlib, mitinqin səbəbini duymaq istədilər. Bunların biri tez fotoqrafiya maşınını çıxarıb mitinqin şəklini almağa başladı.

Mən daha artıq şəkləndim və fikir etdim ki, bu azğın müsəlmanlar polisəni ortaya alıb protest edirlər. Amma camaatın çoxluğundan yaxına gedə bilmədim. Axırda bir həmşəridən xəbər aldım ki, “qardaş, bu nə xəbərdir?” Həmşəri tütün çubuğunu ağzından çıxarıb bir neçə kərə çitfit etdi. Tüpürüyü düz səyyahın üstə düşdü. Bir az sonra mənə böylə cavab verdi: “Zalım uşağı itlər gəlib kababçıların ətlərini yeyiblər, kababçılar da itlərdən intiqam alırlar”.

Sonra qandım ki, həmişəki müsəlman mitinqlərindəndir. İstədim ki, işimin dalınca gedəm. Gördüm ki, həmşərinin tüpürdüyünə acıqlanıb gedən səyyahın əlində ətiqə (köhnə əski) mallar və bir çox müsəl-

man qəzetələri var. Əcnəbilərin məmləkətlərimizdə ətiqə mallar aldıqları məlum. Lakin bu müsəlman qəzetlərini yığmaları nə üçün? Bizim təzə qəzetələr onların nəyinə lazım?

Doğrusu bu iş mənə dərd oldu. Yanlarındlakı dilmancdan (tərcüməçidən) soruşdum ki, bunlar bizim müsəlman qəzetlərimizi nədən ötrü alırlar. Dilmanc hazırlaşırdı ki, cavab versin, o yandan səyyahın biri türkcə dedi ki, "əfəndim, bunlar bizim üçün ətiqədir".

Bir yevropalının gözəl türkcə danışması və bizim qəzetələrə ətiqə - deyib, əziz və möhtərəm tutması mənim killi hissimi oyandırdı. Mən də razılıq üçün dedim:

- Çox sevindim ki, siz bizim qəzetələri ətiqə kimi möhtərəm saxlayıb, bizim Qafqazı həmişə yada salmaq istəyirsiniz.

Mənim bu razılığıma qarşı səyyah yavaşca gülüb dedi:

- Əfəndim, bizdə riyakarlıq və yalançılıq olmaz. Sizin qəzetələrin ətiqələri özgə cəhətlədir, nəinki Qafqaz müsəlmanları qəzetələri olduğu üçün. Əgər özgə qəzetələr də varsa, mərhəmət edib bizim üçün tapınız.

Səyyahın bu acı və rümuzlu (rəmzli) sözü mənim başıma su töküən kimi oldu. Çox pozuldum və dedim:

- Taparam, lakin bizim qəzetələrə nədən ötrü ətiqə deməyinizi qanmadım.

**Səyyah:**

- Kömək edəcəyinizdən razıyıq. Ətiqə bəhsi uzundur. Vaxtınız varsa, buyurun bizim mənzilə gedib danışaq.

- Çox əcəb - dedim və "Yevropa" mehmanxanasına doğru getməyə başladıq. Yoldakı söhbətimizdən duydum ki, mənimlə danışan ingilis Misirdə, İstanbulda 10-15 il qalıb. Çox gözəl ərəbcə, türkcə bilir. Otağa girib oturandan sonra mən başladım:

- Bizim qəzetələrə sizin nədən ötrü ətiqə deməyinizi bilmək istəyirəm, bəlkə bizim tatar şivəsi sizə ətiqə kimi gəlir?

**İngilis:**

- Xeyr, onlar bizə çoxdan məlum. Bizim bilmədiyimiz ancaq qəzetələrinizin məzmun və mündəricatı idi. İndi oxuyub gördük ki, doğrudan ətiqədirlər. Budur ki, alıb məmləkətimizə götürürük və muzeylərdə saxlayacağıq.

**Mən:**

- Bu söz bizim üçün həqarətdir. Nədən ötrü bizim təzə qəzetələri köhnə mallar, paslanmış paxır pullar ilə bərabər tutursunuz? Halbuki, bizim qəzetələr də qonşularımızın qəzetələri kimi hər şeydən yazır, hər şeydən bəhs edirlər. Bəs nədən ötrü bizimkilər sizə köhnə görünüb, belə şeylərdə də din və millət təəssübü çəkirsiniz?

**İngilis:**

- Əfəndim! Təlaş etməyiniz. Təəccüb yeri yox. Budur "Yeni həqiqət"in 3-cü nömrəsi, oxuyum qulaq asınız: "İdarədən: bütün ülamə və sair mühərrirlərə təklif ediriz ki, "Kişabimübin" məsələsinə müdaxilə etsinlər. Bu xüsusda yazılan məqalələrə qəzetimizin sütunları açıqdır".

**Mən:**

- Çox yaxşı, bunda nə var ki?

**İngilis:**

- Əzizim, daha nə olacaq. Qafqazlıların bu sıxıntı halətində osmanlının, İranın belə müsibətli günlərində siz hələ boş din bəhsləri ilə vaxt keçirirsiniz. Belə bəhsləri özgə millətlər 300 il əvvəl eləyirdi. Halbuki, siz bu gün, özü də bu fəlakətli günlərinizdə eləyirsiniz. Buna görə 300 il əvvəlki qəzetələr bizim üçün ətiqədir, elə də sizin bugünkü qəzetlərinizi (ingilis bu həngamədə çamadandan 5-10 müsəlman qəzeti çıxarıb mənə göstərdi) oxuyursunuz, baxınız bu təzə dediyiniz qəzetələrə. Allah üçün deyiniz: bunların yazdıqları ilə 500 il əvvəlki adamların fikirləri, əqidələri və adətləri arasında nə fərq var? Ha... bir fərq var, - bağışlayınız, bu fikirlər, bu əqidələr, bu bəhslər əski zamanda din kitablarında yazılırdı, amma indi müsəlman qəzetələrində...

Mən bu həqarətə dayanmayıb dedim:

- Səhviniz var, əfəndim! Bizim dinimizin qoşulları (şərtləri) sizinki kimi boş dua, quru əxlaq, adi iman və vicdan hisslərindən ibarət deyil.

Biz hər bir addımımızı 1300 il əvvəl gələn şəriətmizin öyrətdiyi kimi və hər işimizi ruhanilərimizin buyurduğu kimi tutmaq istəyirik. Eyb olmasın, bağışlayınız: döşəkdə yatıb qalxmağı, hətta ayaq yoluna getməyi də gərək şəriətdən öyrənək. Bu səbəblə din bəhsləri və nəsihətləri bizim üçün eyni nemət və böyük səadətdir.

**İngilis:**

- Şəriətinizə sözüm yoxdur. Lakin mən bilmirəm Quranın "kitabimübin" olub-olmadığından camaat üçün nə nəf və səadət var? Gözünüzü diqqətlə açıb özünüzə bir baxınız: Nəsiniz, nəyiniz var? Hankı haqqa, insanlığa, müsavata maliksiniz? Qafqazı başdan-başa gəzdim. Sizdən cahil, sizdən fəqir, sizdən səfil, sizdən qate (möhkəm), sizdən yazıq bir camaat görmədim. Qonşunuz ermənilərin, gürcülərin də dinləri var. Həm sizinkindən də köhnədir. Qəzetələrinə baxınız. Sizinki kimi boş dini bəhslər ilə camaatlarını məşğul edirlərmi? Onlar sizdən 2-3 qat az olduqları halda, hüquqda, maarifdə, ticarətdə sizdən 2-3 qat yuxarıdırlar. Bu sözlərimdən inciməyiniz. Mən bitərəf bir ingilisəm. Arxayın olunuz ki, siz mühərrirləri istədiyim üçün bu sözləri söyləyirəm.

**Mən:**

- Bizi istəyən bizi, bizim qəzetələri pisləyərmi?

**İngilis:**

- Qanıram ki, sizin indiki halınız lap köhnə yəhudilərin və qədim bizans rumluların halına oxşayır. Siz öz xeyirxahlarınızı da tanımırsınız!

**Mən:**

- Yaxşı tanıyırıq. Bizi heç vaxt qədim yəhudilərə də bağlamayınız!

**İngilis:**

- Tam onlar kimisiniz. Bilirsiniz ki... əski osmanlılar da İstanbulun divarlarını topla döyəndə, rumlular Aya Sofiyaya doluşub din bəhsləri ilə bir-birlərini boğurlardı. Kimsədə vətən qeydi, millət qeyrəti, insanlıq hissi qalmamışdı. O idi ki, osmanlılar az bir müqavimətdən sonra qoca Bizans imperatorluğunu çürük ağac kimi devirdilər. Sizin bugünkü halınız da o dağılmış millətlərin halına oxşayır. Öz gününüzü, öz dərdinizi buraxıb şeytanın, lövhi-məhfuzun (ilahi kitabın), zülcəlalın (hörmət sahibinin) qeydinə qalırsınız. İslam günbəgün irəli getdiyi halda siz hələ 500 il əvvəlki din bəhsləri ilə geri-geri qaçırsınız. İndi deyiniz: belə bir vaxtda camaatı faydasız din bəhsləri ilə məşğul edən müsəlman qəzetələri "ətiqə" deyillər də, nədir?

**Mən:**

- Bir qəzetəmiz necə olubsa, elə bir zad yazmış.

**İngilis:**

- Bir qəzetənizmi? Hamısı belədir. Bu həngamədə çantasından bir çox qəzetə çıxarıb qabağıma tökdü və başladı oxumağa:

"Burhani-Tərəqqi", nömrə 131; - "Qəzetə oxuyan adamın imaməti caizmi?"

"İşıq", nömrə 1; "İstanbulda bir türk xanımı fotoqrafxanaya gedib üzü açıq şəklini çıxartmaq istəmiş. Lakin polis döyüb fotoqrafxananı dağıtmış (?) və xanımı divanı hərbiyə (?) vermiş. İdarədən: islam xanımlarının şəriəti - islamdan kənara çıxmamaları əlzəmdir (çox gərəkdir)".

"Bəyanül-həqq". Bizim nicat və səadətimiz təməssük edib (birləşib) ondan bir qıl (tük) qədər ayrılmamaqla olacaqdır...

**İngilis:**

- Deyiniz görək: bunlar 500 il əvvəlki fikirlər, yazılar deyil də, nədir? Belə yazılara bizim və sizin nəvələriniz "ətiqə" deməz də nə deyər?

***Lağlağı "Molla Nəsrəddin", N5,***
***29 yanvar 1911-ci il.***

**"Günay" qəzeti, N32, 10 avqust 2002**

## ÜMUMBƏŞƏRİ İNSAN VƏ TORPAQ PROBLEMİ

Yer kürəsi və canlı həyat, insan və torpaq - bəşəriyyətin daimi mövzusu, əsrləri və nəsilləri məşğul edən, düşündürən problem olmuş və beləcə də qalmaqdadır. XXI yüzillik də istisna olmayacaq. Əksinə qloballaşma, kosmosdan anamız Yer kürəsinə baxış, onun tədqiqi və problemlərinin öyrənilməsi prosesi və imkanları, yeni informasiya texnologiyasının sürətli inkişafı və tərəqqisi bu sahədə yeni görüş və baxışların yaranmasına və kəşfinə geniş meydan açmaqdadır. Həm də yola saldığımız XX yüzillikdə bu sahədə çox güclü elmi və elmi-texniki potensialın yaradıldığı da məlumdur. İnsan və Yer kürəsi, insan və torpaq mövzusunda baş sındıran, ömrünü bu qlobal problemin tədqiqinə həsr edən dünyaca məşhur alimləri anmaq, onların qoyub getdikləri dəyərli irslə də tanış olmaq, yeni nəsilləri bu tədqiqlərlə tanış etmək də vacib problemlərdən biridir. Məni bu barədə söhbət açmağa sövq edən bu yaxınlarda əldə etdiyim və diqqətlə oxuduğum böyük fransız alimi Jak Elize Reklyunin (1830-1905) 1906-cı ildə vəfatından sonra əvvəlcə Fransa və Qərbi Avropanın bir sıra ölkələrində, elə həmin ildə də Peterburqda rus dilində çap edilmiş çox iri həcmli "İnsan və torpaq" (550 səh.) əsəri ilə tanışlıq oldu.

1905-ci ilin iyulunda dünyasını dəyişmiş Reklyu Jok Elize 75 il çox mənalı ömür yaşamışdır. Coğrafiyaşünas alim və siyasi xadim kimi tarixə düşmüş Elize 19 cildlik (1875-1894) dünya coğrafiyası əsərinin, "Torpaq və insanlar", "İnsan və Yer kürəsi", "Zənginlik və yoxsulluq" və s. kimi dünyaca məşhur əsərlərin müəllifidir. Ölümündən sonra işıq üzü görmüş "İnsan və Yer kürəsi" əsərinə yazdığı müqəddimə, orada qoyulan köklü problemlər, proqnozlar zənnimcə bu gün də əhəmiyyətini saxlayır, hadisələri və qlobal problemləri dərk etməyə yardım göstərir. Məhz bü mülahizələri nəzərə alaraq həmin müqəddiməni oxuculara təqdim edirəm.

### İNSAN VƏ YER KÜRƏSİ
*(Müqəddimə)*

Bundan bir neçə il əvvəl "Yer kürəsi və insanlar. Ümumdünya coğrafiyası" adlı geniş əsərimin son sətrlərini tamamlayarkən gələcəkdə insan haqqında ayrıca bir əsər yazmaq arzumu ifadə etmişdim. Əvvəllər insanın yaşayışını məmləkətlərin təbiəti baxımından təhlil etdiyim kimi, həmin əsərimdə yüzillərin bir-birinin ardınca ötdüyü əsnada insanın taleyinə nəzər salmaq istəyirdim. Həmçinin, təhqiqatlarım əsnasında gəldiyim sosioloji nəticələri də ortaya qoymağı nəzərdə tuturdum. Elə o zaman planını tutduğum yeni əsərimdə torpağın, iqlimin və

digər çevrə ünsürlərinin tarixi hadisələrə təsirini, bəşər taleyinin torpaqla əlaqəsini göstərmək, xalqların həyat və fəaliyyətindəki səbəb və nəticələri araşdırmaq, bunların planetimizin ümumi inkişafı ilə ahəngini ayırd etmək niyyətində idim. Həmin bu yazımı da indi oxucuların mühakiməsinə təqdim edirəm.

Sözsüz ki, tədqiqatlarım nəticəsində üfüqlərdə cazibəli ilğım kimi vaxtaşırı gözümüzə görünüb yenidən qeyb olaraq fikirlərimizi məşğul edən bəşəriyyət inkişafının o əsas qanununun kəşf olunacağını əsla zənn etmirdim. Kainatın azman sonsuzluğunda bir toz zərrəsi olaraq yaranan bizlər nə mənşəyimizin, nə də yaranmamızın mahiyyətini dərk edir, hətta canlıların eyni cinsinə mənsub olub-olmadığımızı belə yəqin etməmişik, - bəlkə bəşəriyyət Yer kürəsində dəfələrlə yaranıb yox olmuşdur? - və belə bir bixəbərlik içərisində taleyimizə təkamülün qanunlarını ortaya qoyaraq sanki ətrafımızdakı əlçatmaz dumanı həndəsi formaya salmaq düşüb.

Fəqət, yox - bəşər tarixinin zülmətində, arxeoloqların səyləri ilə daima uzanan yüzilliklər sırasında biz bəşəriyyətin taleyi ilə Yer qüvvələrinin fəaliyyəti arasında sirli bir əlaqəni aşkar edə, xalqların həyatındakı istənilən dövrün ətraf mühitdəki dəyişikliklərilə əlaqəni zaman kəsiyində izləyə, təbiətin insana və insanın ona həyat bəxş edən təbiətə qarşılıqlı təsirini öyrənə bilərik!

Yer üzündə insan kütlələri ilə bu qədər ahəng təşkil edən təbiət mənzərələrinin sonsuz rəngarəngliyini seyr edərkən hər birimizi bürüyən ehtizaz tarixinənginliklərinə daldıqda gah xoşbəxt həyat sürən, gah iztirab içində sürünən, lakin onları daşıyan və qidalandıran Yer üzü, onları nurlandıran və Kainata qovuşduran səma ilə bağlantını heç zaman üzməyən xalqları gördükdə duyduğumuz sevinclə qırılmaz vəhdət təşkil edir.

Yer üzü gözlərimiz önünə heyərtamiz gözəlliklərin tükənməz çeşidini çıxardığı kimi, tarixin axını da ardıcıl seyr edən hadisələri ilə möhtəşəm, göz, zəka və qəlbimizi oxşayan səhnələrlə zəngindir. Tarixi coğrafiya bizə ən iti təxəyyülün belə ortaya çıxara bilməyəcəyi ağlasığmaz, eyni zamanda həyatın özü qədər gerçək olan təlatümlər göstərir.

Müasir dövrün bütün cəmiyyəti sarsıdan kəskin böhran şəraitində, təkamül axınının başgicəlləndirici sürətlə irəli apardığı insanın yeni-yeni dayaq nöqtələr aradığı bir vaxtda tarixin öyrənilməsi daha çox maraq və əhəmiyyət kəsb etməkdədir və onun əhatə dairəsi daha da genişlənməkdədir. Əsrlərin ardıcıllığında gözlərimiz önünə çıxan həyatın əbədi dərsləri nizamlanaraq hətta başlıca qanunları ortaya çıxarır.

Tarixçilərin iştirakı ilə müəyyənləşən birinci ümumi hadisələr qrupu bizə göstərir ki, ayrı-ayrı fərdlərin və ictimai qrupların inkişafında-

kı uyğunsuzluğa görə ibtidai səviyyədə yaşayan qəbilələr istisna olmaqla hər bir cəmiyyət müəyyən zümrə və siniflərə bölünməkdədir. Həmin siniflərin mənafe və istəkləri nəinki müxtəlif, hətta zidd olunduğundan onlar bütün mövcudluqları dövründə bir-birinə düşmən mövqedədirlər. Bu, bütün dünyada və bütün zamanlarda müşahidə etdiyimiz, yalnız ərazi, iqlim və yerli şərtlərin təsiri ilə zahiri cəhətdən müxtəlif şəkil alan tarixi hadisələrin mahiyyətidir.

Cəmiyyətin müxtəlif sosial qruplara bölünməsinin labüd nəticəsi olan ikinci ümumi hal, ayrı-ayrı fərdlərin və ya siniflərin mənafeyinə uyğun olaraq tarazlıq pozulduqda mizanın mütləq bu və ya digər tərəfə əyilməsindən ibarətdir - axı haqqın tapdalanması hər zaman qisasçılıq ovqatını bərabərində gətirir! Nəticədə ictimai qrupların daimi dəyişkənliyi meydana çıxır. Hakimlər mövqelərini qoruyub saxlamağa çalışarkən məzlumlar isə azadlığa qovuşmağa can atır, sonra isə mücadilə havasına qapılıb özləri hakimiyyəti ələ keçirməyə çalışırlar. Məhz bunun nəticəsində xarici müharibələrin, üsyanların yatırılması və mövcud quruluşun dağılmasınını müşayiət etdiyi bütün vətəndaş müharibələri meydana çıxmaqdadır. Bir-birinin ardınca cərəyan edən bu mübarizələr ünsürlərin enerji nisbətindən asılı olaraq ya məzlumların müqavimət gücünün tükənməsi və tabe olub sonra həyat enerjisini itirərək tədricən məhv olub getməsilə, yaxud da azadlıq mücahidlərinin qələbəsi ilə başa çatır. Belə olan təqdirdə isə dünya hadisələrin nizamsızlığı içində əsl inqilabı, yəni mühitin daha aydın dərk edilməsində, habelə ayrı-ayrı fərdlərin təşəbbüskarlığı və fəaliyyəti sayəsində baş verən siyasi və sosial quruluşun dəyişməsini müşahidə edirik.

İnsan oğlunun bütün tarix və məkan boyu tədqiq ilə bağlı olan hadisələrin üçüncü qismi bizi xalqların həyatındakı istənilən təkamülün yalnız və yalnız fərdi səylər vasitəsilə əldə ediləcəyinə inandırmaqdır. Məhz cəmiyyətin ilkin ünsürü olan insan şəxsiyyəti yaşadığımız mühitin təsiri ilə iradə gücü sayəsində fikirlərin yayılmasına, millətlərin inkişaf yolunu dəyişdirilməsinə yönəlmiş fəaliyyətlərə qatılır. Cəmiyyətin tarazlığındakı kövrəklik yalnız ayrı-ayrı fərdlər tərəfindən yaradılan maneələr ucbatından meydana çıxmaqdadır.

Azad cəmiyyət hər bir fərd üçün azadlığın təminatı yolu ilə yaradılır. Fərd isə cəmiyyətin ilkin və başlıca ünsürü olub, öz iradəsi ilə digər ünsürlərlə birləşə bilər. Cəmiyyətin böyüklüyü və qüdrəti fərdin azadlığı və təşəbbüskarlığının artması ilə bilavasitə bağlıdır: insanın yaratdığı yaradıcı iradə dünyanı yaradan və yeniləşdirən iradə ilə eynidir!

Siniflər arasında mübarizə, ictimai qruplar arasında tarazlığın tapılması və fərdin öncüllüyü - budur sosial coğrafiyanın qarşımıza çıxardığı və dünya olaylarının qarışıq axını içərisində qanun adlandırılacaq qədər daimi olan hadisələrin üç qrupu. Bizim böyük xoşbəxtliyi-

miz ondan ibarətdir ki, bu qanunlara bələd olub öz davranışımızı, cəmiyyətin həyatında iştirakımızı onlara uyğun qurmağı və mühitin bizə məlum olan təsirləri ilə uzlaşdırmağı bacarırıq.

Beləliklə, Yer kürəsinin tədqiqi bizə tarixi hadisələri dərk etməyə kömək edir, tarix isə planetimizin tədqiqinə girişməyə və ölçüsüz nəhəng kainatla müqayisədə çox kiçik və eyni zamanda bu qədər böyük olan "mən"imizə daha şüurlu vəhdət axtarıb tapmağa sövq etməkdədir.

**Elize REKLYU**

***"İnsan və Yer kürəsi", I cild, Sankt-Peterburq, 1906, s.1-5 (fransızcadan ruscaya tərcümə)***

**"Günay" qəzeti, N33, 17 avqust 2002**

## KƏRBƏLAYİ MƏHƏMMƏD HACI AĞAZADƏ VƏ "MEDAL" ƏHVALATI

Hörmətli oxucular yəqin ki, "Kərbəlayi Məhəmməd Hacı Ağazadə" kimdir? - deyə düşünəcəklər. İzah edim. 1903-cü il iyunun 13-də "Şərqi-rus" qəzetinin 31-ci nömrəsində "Ədəbiyyat" rubrikası altında bir şer dərc olunmuşdur. Şerin altında belə bir imza vardır: "Kərbəlayi Məhəmməd Hacı Ağazadə, təxəllüsi Səid Ordubadi". 31 yaşlı müəllif XX əsrin anadilli ilk qəzetini şerlə təbrik edirdi. Əsrin birinci yarısnda yaşayıb-yaradan qələm ustadları içərisində yazıçı, jurnalist və publisist Məhəmməd Səid Ordubadinin xüsusi yeri, xüsusi mövqeyi vardır.

Yazıçının ədəbi-publisistik irsini tədqiq edən mərhum həmkarımız professor Tofiq Rüstəmov haqlı olaraq yazırdı ki, "20-ci illər mətbuatımızın ən fəal müəlliflərinin siyahısı tutulsaydı, yəqin ki, M.S.Ordubadinin adı birinci olardı. Onun qələmi daim işdə idi".

Əlbəttə, yazılanların hamısı klassik irs sayılmır. Amma problemlər var ki, uzunömürlüdür. Məsələn, Ordubadi "İncimək nə lazım?" felyetonunda yazırdı ki, "qulaqlar düz-doğru söz eşitmək qabiliyyətini vücuda gətirməlidir".

M.S.Orlubadi "mətbuat tərəqqinin əsası deməkdir" məqaləsində yazırdı ki, "tənqidsiz qəzet və mətbuat dərmansız xəstəyə bənzər ki, dirilməsinə ümid edilməz". Başqa bir "tərifmi, tənqidmi?" məqaləsində isə yenə də tənqidə üstünlük verilməsini vacib sayırdı.

M.S.Ordubadi 20-ci yüzilliyin əvvəllərində "erməni Daşnaksütyun Komitetinin müstəbid bir üsuli-idareyi təşkil edən, Qafqazda bir taqım qanlı teatrlar oynayan" bir partiya olduğuna dair rəy sorğusu ilə ilk kitab yazan müəllifdir. "Qanlı sənələr" kitabı 1911-ci ildə işıq üzü görmüşdü. Müəllif yazırdı ki, "Qafqazın gözəl şəhərləri təxrib və təhqir edilib, xanimanlarımız qan dəryasına bənzədi".

20-ci yüzilliyin iki on illiyində M.S.Ordubadi qədər təqib və həbslərə, sürgünlərə məruz qalan ikinci bir yazıçı-jurnalist göstərmək çətindir. Birinci Dünya müharibəsi başlayanda hökumət şübhələndiyi, imperiyanın düşməni hesab etdiyi M.S.Ordubadini həbsə aldı. Saritsin şəhərinə sürgün etdi. Azərbaycanla əlaqəsini kəsməyən yazıçının mətbuatla "Hərdəmxəyal" təxəllüsü ilə yazıları dərc olunurdu.

İndi onlardan birini - "Medal" sərlövhəli kiçik bir yazını oxuculara təqdim edirəm.

## *MEDAL*

Bu axır vaxtlarda Naxçıvan şəhərindən idarəmizə üç-dörd adsız kağız gəlibdir. Sahibləri yazırlar ki, vilayətdə şpion əmələ gəlib və hökumətə gedib yalan-palan əhvalat söyləyib günahsız adamları işə saldırırlar. Kağız sahibləri həmin şpionların varlığından guya dilgirdirlər.

Biz idarə tərəfindən bunu deyirik ki, məktub sahibləri səhv eləyən adamlara oxşayırlar, onunçün ki, şpionluq özü xidmətdir və bu xidmətdə olanlar hər millətin içində müşahidə olunublar. Götür, məsələn, nemsə millətini ki, şpionluğun bərəkətindən bir tövr başlarını saxlayırlar. (Allah onların başlarını batırsın ki, yavan çörəyə də həsrət qalmışıq).

Şpionluq özü bir xidmətdir və bu xidməti layiqincə yerinə yetirənə medal verirlər. Amma yetirməyənə heç zəhrimar da vermirlər.

Odur ki, məktub sahibləri səhvdədirlər.

**HƏRDƏMXƏYAL**
**(M.S.ORDUBADİ)**

*"Molla Nəsrəddin", 9 mart, 1917 N5*

**"Günay" qəzeti, N35,**
**31 avqust 2002.**

## ÇİNGİZ AYTMATOVUN XƏBƏRDARLIĞI, ZƏMANƏMİZİN REALLIQLARI

Yola saldığımız 20-ci yüzilliyin 90-cı illərinin əvvəllərində "İzvestiya" qəzetinin müxbiri Yuri Kovalenko Parisdən göndərdiyi "Çingiz Aytmatov rahib Filofeyi orbitə göndərir" sərlövhəli müsahibə-məqaləsini (bax: "İzvestiya" 30.XI.1994) belə başlamışdı: "Bir vaxtlar "süni yolla doğulan insanlar" - "İksrod"lar texnologiyası üzrə qapalı elmi-tədqiqat laboratoriyasının qüdrətli rəhbəri olmuş, indi özünü "kosmik rahib Filofey" adlandıran genetika professoru Krıltsov yenidənqurma illərində orbital stansiyada kosmosa üz tutmuşdu. Belə demək mümkündürsə o, kainatda yeni kəhkəşana üz tutmuşdur. Orada dərin xəyallara dalaraq peşmançılıq hissləri ilə yaşayır, keçmiş günahlarını yumaq barədə düşünür. O, orbitdən bizim günahlara batmış Yer kürəsini müşahidə edir, yaşadığımız narahat dövrün mahiyyətini anlamağa çalışır. Alim indi baş verən bütün hadisələri öz elminin prizmasından izah etməyə cəhd göstərir. O əmindir ki, bizim törətdiyimiz pisliklər heç də izsiz ötüb keçmir. Bu pisliklər bizim genetik "matrisimizdə" əks olunur.

Filofey dəhşətli bir qənaətə gəlir: bəşəriyyəti labüd fəlakət gözləyir, lakin hər şeyi alt-üst edən apokalipsis ən böyük cəza kimi zahiri kataklizmlərdə, kənardan təsir göstərməyəcək, o, insanın daxilində, onun qəlbində, nəsillərində toplanıb qalır".

Dünyaca tanınmış və mənim də şəxsən tanıdığım və Bakı səfərləri vaxtı ünsiyyətdə olduğum Çingiz Aytmatovun 1994-cü ildə işıq üzü görmüş, ruscadan əvvəl alman, yapon və fransız dillərində çap edilmiş "Tavro Kassandra"* romanı çox böyük maraq, heyranlıq və hətta həyəcana səbəb olmuşdu. Yuri Kovalenko müəlliflə görüşmüş, oxuculara həm müəllif və həm də yeni roman haqqında ətraflı məlumat verməyə çalışmışdır. Bu müsahibədən 8 ilə yaxın bir müddət keçmişdir. Çingiz Aytmatovu narahat edən problemlər indi xüsusilə təhlükəli səciyyə almışdır. Yazıçı deyirdi ki, "Filofeyin dünyaya faciəli baxışı - müəyyən dərəcədə mənim öz baxışımdır".

Müsahibədə oxuyuruq: "Yazıçı təəssüflənir ki, Sovet İttifaqı dağılandan sonra əslində qorunub saxlanması zəruri olan dəyərlər - millətlərarası məkanda müxtəlif etnosların qarşılıqlı təsir təcrübəsi də gərəksiz şeylərlə birlikdə atılmışdır. Zavodlar, kosmodromlar tikmək, yollar salmaq mümkündür, lakin millətlərarası ünsiyyət körpüləri salmaq bundan qat-qat çətindir... "Yadlara" nifrət hissi heç vaxt xeyir gətirməyəcək. Elə bu hadisələrin tarixi də göstərir ki, nifrət nifrət doğurur, dözülməzlik də dözülməzlik..."

Rusiya Federasiyası və bütünlükdə MDB ölkələrində milli münasi-

bətlər sahəsində cərəyan edən hadisələr, qatı təcavüzkar millətçilik, müxtəlif qaraguruhçu partiya və bandaların qanlı əməlləri, dözümsüzlük halları yazıçının uzaqgörənliyi əyani şəkildə nümayiş etdirir. Həm də bu dözümsüzlük təkcə MDB məkanında deyil, dini və etnik zəmində dünyanı ağzına almışdır. Rəsmi statistikaya görə, təkcə keçən il Rusiya Federasiyasında 30 minə yaxın adam itkin düşmüş, qətlə yetirilmişdir. Bir il bundan əvvəl dünyanı sarsıtmış 11 sentyabr faciəsindən sonra ABŞ və Qərbi Avropanını bir sıra ölkələrində müsəlmanlara qarşı münasibət xoşagəlməz, təhlükəli həddə çatmışdır. ABŞ prezidenti Buşun elan etdiyi Səlib yürüşü sonralar müxtəlif təbəddülat və düzəlişlərə məruz qalsa da, öz dəhşətli təsirini göstərməkdədir. Xristian-müsəlman qarşıdurması təhlükəsi hələlik sovuşmamışdır. Beynəlxalq terrorizmlə mübarizə, daha dəqiq desək, müharibə, ayrı-ayrı ölkə və xalqlara qarşı çevrilmək təhlükəsi doğurur.

Çingiz Aytmatov qeyd edirdi ki, "Bəşəriyyətin mədəni ənənələri üçün güclü təməl rolu oynamış dünya dinləri həm də dünyanı parçalayan amil olaraq qalmaqdadır. Bu amil insanları dini etiqad və mənsub olduqları konfessiya əlamətlərinə görə amansızcasına, bəzən barışmaz dərəcədə saf-çürük edir, bunun nə kimi nəticələr törətdiyi isə göz qabağındadır. Labüd olaraq hər bir insan barədə belə bir sual verilir: Bu bizimkidir, yoxsa yad!?? Bəs əgər birisi öz əqidələrinə görə hamıdan ötrü doğma olmaq istəyirsə, o nə etməlidir? Əlbəttə, dini təlimlərə görə, Allaha iman gətirənlər müxtəlif yollar seçə bilərlər. Lakin, bu sistemlərin rəngarəngliyi Allahın yaratdığı dünyanı dərketmə vasitələrinin tükənməz və sonsuz olmasını yalnız təsdiq edir... Bəlkə də yarıdindarlıq ideyası insanların dünyanı gələcəkdə başqa cür görmələrinə, bu məsələyə indiki qədər qərəzli və xudbin mövqedən yanaşmamalarına kömək edəcəkdir?"

Dünyada həm təbiətdə və həm də ictimai-siyasi həyatda bəşəriyyəti təhdid edən çalxantılar göz qarşısındadır. Nuhun tufanını andıran daşqınlar, sellər planeti bürümüşdür. Hər il yerin təkindən 3 milyard tondan artıq neft, ondan yüzlərcə miqdarda çox qaz, daş kömür çıxarıb yandıran, meşələri məhv edən insan oğlu yaddan çıxarıb ki, bu milyon və milyard illər boyunca yerin təkində yığılıb qalmış istilik enerjisini atmosferə buraxmaq facələrə apara bilər. Alimlərin fikrincə, sənaye və elmi-texniki inqilablar dövrünü əhatə edən müddətdə atmosferdə illik temperatur 1,5-2 faiz artmışdır.

Dünyamızı daxildən dağıda biləcək amillər sırasında yazıçı planetdə varlı ölkələrlə - əksəriyyəti təşkil edən yoxsul ölkələr arasındakı fərqin getdikcə dərinləşməkdə olduğu faktını qeyd edir. Digər tərəfdən, ayrı-ayrı ölkələrin daxilində də bu təbəqələşmə təhlükəli həddə çatmışdır. Məsələn, o yazır ki, əgər MDB ölkələrində, o cümlədən RF-də

"özəlləşdirmə başqa cür aparılsaydı, indi biz sənaye kapitalına, şəxsi mülkiyyətçiliyə, sayca çox olmasa da, hər halda orta təbəqəyə də malik idik. Amma bir faiz həddən ziyadə varlı təbəqənin, bir də yoxsul və dilənçilərdən ibarət nəhəng bir kütlənin qazanılmasına "nail" olduq. Bu çox təhlükəli haldır. Məğzi biz diktatura rejimlərinin astanasında dayanmışıq. Burada həmin o bir faiz küll-ixtiyar sahibləri istənilən "seçki"ni kefi çəkən kimi təşkil edə bilər və edir də.

Ç.Aytmatovun "Kassandra Tavrosu" - gələcək bədbəxtliyin xəbərçisi romanı yazıçının özünün də etiraf etdiyi kimi fantastik-fəlsəfi əsəridir. "Kassandra Tavrosu"nda əvvəlki Aytmatovdan əsər-əlamət yoxdur. Burada ondan ötrü səciyyəvi olan Şərq mövzusu, doğma obrazlar, vətənin coğrafiyası barədə mülahizələr yoxdur..." Qərb oxucularından birinin əsər barədəki rəyində oxuyuruq: "Aytmatov əvvəlcə milli yazıçı idi, sonra imperiya (yəni sovet) yazıçısı oldu, indi isə kainata üz tutaraq kosmopolit yazıçıya çevrilmişdir". Bu növ rəylərə münasibətini yazıçı müsahibəsində belə şərh edir: "Doğrudan da mən bu yeni romanımda kosmopolit ideyasının daşıyıcısı kimi çıxış edirəm. bununla mən milli mədəniyyəti heç də inkar etmirəm və milli mədəniyyətdən əsla uzaqlaşmaq istəmirəm. Quşu uçmağa qanadlandıran - torpaqdır".

Bəşəriyyəti, anamız planeti daxildən hədələyən qlobal təhlükəyə qələm əhlinin, alim və yazıçıların, dövlət və siyasət adamlarının münasibəti məsələsi də yazıçını düşündürür. Aytmatov xüsusilə tanınmış yazıçıların, mədəniyyət xadimlərinin öz ölkələrində cərəyan edən dağıdıcı proseslər barədə susmasını - başa düşmədiyini bildirir: "Bizdə demokratiyanın başına nə oyun açıblar? Nəyə görə o, bu dərəcədə hörmətdən düşübdür? Korrupsiyanın və cinayətkarlığın dəhşətli miqyas almasını nə ilə izah etmək olar? Bizlərdən heç kəs ağlına da gətirməzdi ki, demokratiyanını təntənəsi insan ruhunun bu dərəcədə sarsılması ilə müşaiyət olunacaqdır. Bu, ən böyük müəmma, sirr, izah edilməz bir qismətdir".

Mən böyük düşüncə və təfəkkür sahibi Çingiz Aytmatovun 20-ci yüzilliyin sonunda yazdığı, nəşr etdirdiyi, 20-dən artıq dilə tərcümə edilmiş romanı haqqında geniş söhbət açmaq fikrində deyiləm. Amma orada qoyulan qlobal təhlükə fantastikadan çıxıb reallığa çevrilməkdədir. Bunu planetimizin hər bir düşünən sakini bilməli və onun qarşısını almaq prosesində fəal iştirak etməlidir.

Qeyd: *Kassandra - qədim yunan eposunda Troya çarı Priamanın və Hekubanın qızı, görücü olmuşdur. Onun qabaqcadan söylədiyi dəhşətli xəbərlərə heç kəs inanmır, onu yalnız bəd xəbərlərin carçısı hesab edirdilər.

Tavro - fərqləndirici nişan, damğa deməkdir.

**"Günay" qəzeti, N36, 7 sentyabr 2002.**

# ƏYİB-ƏYLƏNƏN HAKİMLƏR, ƏYİLMƏZ NADİR ŞƏXSİYYƏTLƏR

*(ÜZEYİR BƏYİ DÜŞÜNƏRKƏN)*

**1935-ci il 18 sentyabr, Bakı**

"Aşağı Priyut küçəsində, Üzeyir bəyin yaşadığı evdə kompozitorun anadan olmasının 50 illiyi münasibətilə qonaqlıq olmuşdur". Üzeyir Hacıbəyovun "Həyat və yaradıcılığının Salnaməsi" (1885-1948) kitabında 375-ci səhifədə beləcə yazılmışdır. 460 səhifəlik salnamədə yeganə faktdır ki, mənbə göstərilməmişdir. Böyük zəhmətkeş tədqiqatçı Qulam Məmmədlinin 1984-cü ildə işıq üzü görmüş bu dəyərli əsərində həmin sətrləri mən elə müəllifin sağlığında oxumuş və təəccüblənmişdim. Qulam müəllim mənə təklikdə izah etmişdi ki, bolşeviklər, M.C.Bağırov Üzeyir bəyin Müsavat dövrü fəaliyyətini həmişə onun üzünə vurur, əyilməyən şəxsiyyətini əymək, ondan bolşevik yaltağı və məddahı, müsavatın və onun liderlərinin ünvanına hədyanlar söyləyən yeni "ziyalı" yetişdirmək istəyirdilər. Üzeyir bəy isə çox təmkinli, hər bir hərəkəti və sözü ölçüb-biçən, bütün varlığı ilə siyasətdən qismən uzaq Azərbaycan musiqi mədəniyyətini inkişaf etdirmək, yeni milli musiqi xadimləri yetişdirmək qayğısı və amalı ilə yaşayırdı. Həm də Üzeyir bəyin anadan olduğu 18 sentyabrdan sonra 20 sentyabr gəlirdi. Həmin gün hər il çox böyük canfəşanlıqla 26 Bakı komissarlarının həlak olduqları gün kimi geniş qeyd olunur, müsavatçılar ittiham edilir, onların ünvanına böhtan və hədyanlar söylənilir, qəzet səhifələri belə yazılarla doldurulurdu.

Bu günlərdə 1935-ci ilin sentyabr günlərinin qəzetlərini yenidən vərəqlədim. "Kommunist" və "Ədəbiyyat" qəzetlərinin sentyabr nömrələrini nəzərdən keçirdim. Üzeyir bəyin anadan olmasının 50 illiyinə dair yazıya rast gəlmədim. Tam laqeydlik.

1935-ci ilin aprelində bolşeviklərin, sovetlərin müstəqil Azərbaycan cümhuriyyətini silah gücünə, yerli satqınların əlilə devrilməsinin 15 illiyi çox böyük hay-küylə qeyd olunmuş, orden-medallar paylanmış, xalqımıza uzun müddətdən sonra müstəqil milli, demokratik dövlət həyatı yaşatmış xadimlər barədə, dövlət haqqında saxtakarlıq, iftira və böhtan kampaniyası xüsusi vüsət almışdı.

20-ci əsr tarixinə dəhşətli repressiya illəri kimi daxil olmuş bədnam 37-38-ci illərin irtica tufanı artıq hiss edilməkdə idi. İstiqlalçı nəslin kökünü tamamilə kəsmək planları hazırlanırdı. M.C.Bağırov və onun ətrafında cəmləşmiş bədnam çeka-nın erməni-daşnak və rus şovinist intiqamçıları milli gədalar fürsət və mərkəzdən komanda gözləyirdilər. Hədəflərdən biri də Üzeyir bəy idi. Üzeyir bəyin dünyaca tanınan musiqisi, repressiya dövründə tamaşaya qoyulan böyük "Koroğlu" operası, ittifaq miqyasında tanınan, sayılan adı, sənəti və şəxsiyyəti xilas edirdi. 1937-ci il aprelin 30-da (bu tarixə fikir verin. Cümhuriyyətimizə xitam verilən günlərdə) M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında Ü.Hacıbəyovun "Koroğlu" operasının ilk tamaşası göstərildi. Sonralar repressiya qurbaqnı olmuş Hüseyn Cavid "Yeni yol" qəzetində yazırdı: "Koroğlu operası Azərbğaycanın opera aləminə öz revolyusion coşğunluğu ilə, bədii yenilikləri ilə, parlaq xalq musiqisi ilə son dərəcə yüksək bir yer tutmaqdadır".

"Koroğlu" qısa bir müddətdə ittifaq miqyasında çox qiymətli rəylərlə, rəğbətlə qarşılandı. "Sovetskoe iskusstvo", "Teatr", "Muzıka", sonralar "İzvestiya", "Pravda", "Komsomolskaya pravda" kimi nüfuzlu mətbuat orqanlarında opera və onun müəllifi Üzeyir bəy haqqında mütəxəssislərin xeyirxah və peşəkar yazıları dərc olundu. Üzeyir bəyin şöhrəti xüsusilə 1938-ci ilin aprelində Moskvada keçirilən Azərbaycan İncəsənət dekadasından sonra birə on qat artdı. İ.V.Stalin operaya tamaşa etmiş və müsbət rəy söyləmişdi.

Üzeyir bəy öz sənəti, istedadı, əyilməz şəxsiyyəti, vətəninə, xalqına böyük sədaqət və məhəbbətilə özünü nadanların, öz əcdadlarına böhtan və iftira yağdıran yaltaq, məddah və satqınların hücumlarından qoruya bilmişdi.

"Koroğlu" operasını diqqətlə dinləyən, cərəyan edən səhnələri, hadisələri, oxunan sözləri, musiqi dilini araşdıranlar bu əsərdə istiqlal davasının, istiqlal dövrünün ruhunu, ab-havasını hiss etməmiş olmazlar. Üzeyir bəyin 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin ilk parlamentinin açılışı münasibətilə dekabrın 9-da "Azərbaycan" qəzetində dərc olunmuş "Təəssürat" sərlövhəli, ürək qanı ilə yazılmış sətrlərini oxusanız, operanın məşhur milli himn kimi əzəmətlə səslənən üverturasının ssenarisini açıqca hiss edə bilərsiniz. Və yaxud operada Həsən xanın ariozosuna diqqət verin. Həsən xan öz əyanlarına müraciətlə oxuyur:

***Qamçıdır saxlayan bu rəiyyəti,***
***Qamçısız yaşamaz xanın dövləti,***

*Zülmə öyrənənlər sevməz mərhəmət,*
*Zülmsüz yaşamaz bizim məmləkət.*
*Döyməsən, söyməsən, malın almasan,*
*Dara çəkdirməsən, dama salmasan,*
*Rəiyyət bir daha xanı dinləməz,*
*Malının, çanının sahibi deməz.*
*İstəsən xannlığı, əz rəiyyəti,*
*Söyləyib atalar bu vəsiyyəti.*

Bu sözlər repressiya və qanlı diktatura dövründə səhnədə səslənirdi. Qızım sənə deyim, gəlinim sən eşit timsalı deyilmi?!.. Bunu bütün dövr diktatorlarının "Himni" də adlandırmaq olar".

Bəs, 1945-ci ildə Üzeyir bəyin 60 illik yubileyi necə keçirildi! Mərhum Qulam Məmmədlinin salnaməsində bu barədə verilən məlumatlardan görünür ki, bu barədə ilk yazı Təbrizdə nəşr olunan "Şəfəq" qəzetində elə (avqust 1945) Q.Məmmədlinin özünün yazdığı, Ü.Hacıbəyovun anadan olmasının 60 illiyinə həsr olunmuş "Böyük bəstəkar" məqaləsi hesab edilir. Avqustun 24-də "Kommunist" qəzetində 60 illiklə əlaqədar X.Ağayevanın, 27-də "Azərbaycan gəncləri"ndə Səid Rüstəmovun, avqustun 31-də "Kommunist"də Qubad Qasımovun yazıları verilib. "Kommunist" qəzeti sentyabrın ilk günlərindən "Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi və musiqi fəaliyyətinin 40 illiyi qarşısında" sərlövhəli rubrika açmışdı. Burada sentyabrın 9, 11, 12, 15, 16 və 17-də müxtəlif yazılar, yubiley teleqramları, təbriklər, xatirə, məqalə və şəkillər verilmişdir. Sentyabrın 18-də M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında təntənəli yığıncaq keçirildi. Diqqəti cəlb edən budur ki, yığıncaqda M.C.Bağırov başda olmaqla partiya və dövlət rəhbərləri iştirak etmirdi.

Bu yığıncaq və onun iştirakçıları haqqında Q.Məmmədli ətraflı məlumat vermir. Halbuki, "Kommunist" qəzetinin1945-ci il 19 sentyabr tarixli nömrəsində yazılır ki, təntənəli iclası Xalq Komissarları Soveti sədrinin müavini N.Q.Allahverdiyev açdı. Səməd Vurğun məruzə etdi. MK və XKS-ın təbrikini Azərbaycan Xalq Komissarlar Soveti yanında Mədəni-Maarif Müəssisələri komitəsinin sədri Süleyman Rəhimov oxudu və s.

Respublika kommunist-bolşevik rəhbərliyi, xüsusilə onların milləti həmişə diz çökdürüb, özünü ucaltmaq xəttini yürüdən, xalqın böyük məhəbbətini qazanmış istedad sahibəlrini özündən asılı vəziyyətə salıb simasız məddah və yaltaqlara çevirməyə cəhd edən M.C.Bağırovun Üzeyir bəyə münasibəti məkrli idi. Bu barədə çox əhvalatlar eşit-

miş, xatirələr dinləmişəm. Sovet dövrünün ən yüksək mükafat və adlarına layiq görülmüş Üzeyir bəyə heç kəs deyə bilməzdi ki, "mənim adamımsan!", "səni mən şərəfləndirmişəm", "şöhrətin və adınla mənə borclusan!". Üzeyir bəy əyilib-əyləndirməyi, məddahlıq, simasızlıq və məsləksizliyi yaxına belə qoyan şəxsiyyət olmamışdır. Üzeyir bəy 24 yaşında ikən "Tərəqqi" qəzetində yazırdı ki, "adam var əqli başındadır, adam var ki, gözündə və qulağındadır", "bizim yerlərdə isə fitnəçiləri həmişə baş yerdə oturdub, ikiqat baş əyərlər və əldən gələn hörməti edərlər, onun sözlərinə qulaq asarlar. Camaat içinə fitnə dağılar. Xalq bir-birindən üz-göz olar. Amma fitnəçi özü hörmətdə qalar".

1948-ci il noyabrın 23-də Üzeyir bəy dünyasını dəyişdi. Ölüm yatağında onu görməyə gələnlərə Üzeyir bəy deyərdi:

"vaxtdır, köçmək gərək, köçmək, bu dar-fənadan".

Mən Üzeyir bəyi görən və çıxışını dinləyənlərdən biriyəm. 1946-cı ilin sentyabrında Üzeyir bəy ADU-ya tələbə-müəllim heyətilə görüşə gəlmişdi. Onun qısa və mənalı çıxışı xatirimdən heç vaxt çıxmır. Bir də 1948-ci ildə Üzeyir bəyi əbədiyyətə yola salan yüz minlərin içərisində mən də vardım. Üzeyir bəyin cənazəsi Akademiyanın böyük zalına qoyulmuşdu. Əklilləri aparmaq üçün universitet tələbələrindən də zala gətirmişdilər, mən də həmin qrupda idim. Bu dəfə M.C.Bağırov başda olmaqla respublika rəhbərliyi dəfn mərasiminə gəlmiş, hətta tabutu ilk dəfə onlar çiyinlərinə götürmüşdülər.

Bakı şəhəri XX əsr tarixinin iki möhtəşəm dəfn mərasimini yaşayırdı. Hər ikisi noyabrda. Birinci milli intibahımızın ilk mücahidi Həsən bəy Zərdabinin 1907-ci il noyabrın 30-da, ikincisi 1948-ci il noyabrın 23-də. Üzeyir bəyin cənazəsi Akademiyanın binasından indiki (İstiqlal küçəsindən) ta birinci Fəxri Xiyabanadək (o vaxtlar təkcə bir Fəxri Xiyaban vardı) çiyinlərdə aparıldı. Həmin mərasim xalqın öz böyük sənətkarına, əyilib-əyləndirmək bilməyən, əyilməz şəxsiyyətinə hədsiz hörmət və məhəbbətinin nümayişi idi.

**"Günay" qəzeti, N37,**
**14 sentyabr 2002.**

# YENƏDƏMİ SƏLİB YÜRÜŞÜ?

Xarici siyasi şərhçilər ABŞ-da son bir ildə 11 sentyabr hadisələrilə bağlı cərəyan edən hadisələri, prezident Corc Buşun BMT-nin baş məclisindəki son çıxışını, yeni dünya düzəni barədəki strateji planları təhlil edərkən "Səlib yürüşü" ifadələrini işlətməyə başlamışlar. Tarixdən az-çox xəbəri olanlar səlib yürüşlərinin kimlər tərəfindən kimlərə qarşı təşkil edildiyini lazımınca bilirlər. Xristian Qərbin, müsəlman şərqinə qarşı zaman-zaman müxtəlif adlar, vasitələr və bəhanələrlə təşkil etdiyi hərbi yürüşlərin arzu edilən nəticəni vermədiyi də göz qarşısındadır. Lakin məşhur rus tarixçisi V.O.Klyuçevsiknin yazdığı kimi "Tarix - yalnız o şeydir ki, o, yaşamaqda davam edir". Səlib yürüşü ideyası da yenə də yaşayır. Şərhçilər Əfqanıstan yürüşünü 21-ci yüzilliyin 1-ci səlib yürüşü adlandırırlar, növbəti ikinci yürüş İraqa qarşı yönəldiləcək. Yürüşlərin üzdə olan motivləri bəllidir: beynəlxalq terrorizm, bəşəriyyəti hədələyən İraq təhlükəsi və s. Terrorçuluqla mübarizə aparmaq lazım və vacibdir. Azərbaycan xalqı dünyada öz qəddarlığı, hiyləgərliyi, maddi imkanları, himayədarları ilə seçilən erməni terroru ilə bir əsrdən çoxdur ki, qarşı-qarşıya durmuşdur. Minlər, on minlərlə günahsız soydaşlarımız bu terrorun qurbanı olmuşdur. Lakin bu vaxta qədər bu mövzuda nədənsə bizdən və türklərdən başqa beynəlxalq məclislərdə danışan, məsələ qaldıran yoxdur.

"Panislamizm", "islam fundamentalizmi", "islam terrorizmi" bayrağı altında qaldırılan siyasi hay-küy də yeni deyil. Qədri hələ lazımınca bilinməyən böyük mütəfəkkir alim-publisist Əlibəy Hüseynzadə "Həyat" qəzetində dərc olunmuş "Avropalılar və Makedoniya" sərlövhəli məqaləsində (N105, 1905) yazırdı: "Avropalılar və avropalılarla bərabər bəzi qonşularımız "panislamizm" deyə-deyə bizi, biz müəslmanları bizar etmişlərdi!.. Fəqət, bu gün pərdənin arxasında cərəyan edən hadisələr bizə açıq bir surətdə göstərir ki, "panislamizmin", yəni ittihadi - islamın ən cüzi bir əsəri belə görünməyib, bəlkə mükəmməl bir Avropa "panxristianizmi" mövcud imiş!"

Digər bir mütəfəkkirimiz Əhmədbəy Ağayev Fransanını Sarbona universitetinin ilahiyyət fakültəsinin məzunu - 1908-ci ildə redaktoru olduğu "Tərəqqi" qəzetində dərc olunmuş "İslam və xristianlıq" sərlövhəli məqaləsində "islam fundamentalizmi", "panislamizm" və "islam-xristian qarşıdurması" barədə qaldırılmış hay-küyə cavab verəkə yazırdı: "İslam vilayətlərinin cəhl və cəhalətləri, elmsizlik və mərifətləri cəhətincə əsrlərdən bəri xristian aləmi tərəfindən töhmətlənməsi hamıya məlumdur. İndiyədək avropalılar müsəlmanları barbar deyə Av-

ropa mədəniyyətinə, Avropa idarə tərzi və məişətinə qabiliyyətləri olmaması barədə qışqırıb bağırırdılar. Və fasiləsiz islam aləmini mədəniyyətə, elm və təhsilə, hürriyyət və azadlığa dəvət edirdilər! İndi islam aləmi çox zillət və pərişanlıqdan sonra Qərbdən gələn nur aləmi, mərifət ilə, hürriyyət çağırışları və azadlıq ilə işıqlanıb, ürəklənib min illərcə üst-üstə qalanmış cəhalət pərdələrini gözlərindən və ürəklərindən silib sürətlə Avropa mədəniyyətinə yiyələnməyə girişib... Lakin "islam doğuldu-doğulmadı xristian aləmi onunla əlləşir, çarpışır, vuruşur", "müsəlman deyildikdə hər bir xristianın nəzərində bədrək (kinli, xoşa gəlməyən) bir vücudiyyət canlandırılır".

Əhmədbəy yazırdı ki, "bu adların hər birisi bir aləmi, bir dünyanı, bir şəxsiyyəti, bir rəngi ifadə edirlər. Və bu rəngi, bu dünyanı, bu şəxsiyyəti təyin edən tarixdir".

Tarix isə islam ölkələrinə qarşı səlib yürüşlərinin əsasında iqtisadi-siyasi və hərbi-strateji mənafelərin durduğunu, gizləndiyini açıqca göstərməkdədir. Napaleonun Misri işğal etmək üçün necə hiyləgərliyə əl atdığı barədə maraq doğuran faktlar aşkarlanmışdır. Onlardan birində deyilir:

"İşğalçı orduya komandanlıq edən Napoleon Bonapart Misiri Fransa burjuaziyasının müstəmləkəsinə çevirmək və Misirin vasitəsilə Hindistanı işğal edərək özünün başlıca düşməni olan İngiltərəyə sarsıdıcı zərbə endirmək istəyirdi. Napoleon əmin idi ki, Misir xalqı onu bu xalqı türklərin və məmlük bəylərinin əsarətindən xilas edən şəxs kimi qarşılayacaqdır. O özünü istibdaddan əzab çəkən müsəlmanların dostu və müdafiəçisi elan etmişdi. Bu rolu axıra qədər oynayan Napoleon başına çalma bağlayıb, əyninə xalat geyinib məscidlərə gedirdi. onun generalı, ekspedisiyanın son dövründə fransız qoşunlarına komandanlıq etmiş Menu islam dinini qəbul etmiş və müsəlman qadınla evlənmişdi. Bu cür faktların xalq arasında yayılması üçün mətbuatdan geniş istifadə edilirdi...

Napoleon özünün ilk (1798-ci ilin iyün ayında tərtib edilmiş) bəyannaməsində (proklamasiyasında) yazırdı ki, o Misirə yalnız misirliləri məmlük tiranlarının zülmündən xilas etmək üçün gəlmişdir... Napoleon deyirdi: "Mən qadir Allaha məmlüklərdən daha çox inanıram, onun peyğəmbərinə və böyük Qurana ehtiram bəsləyirəm... Fransızlar da əsl müsəlmanlardır".

İraq xalqını Səddam Hüseyn diktaturasından azad etmək çağırışları da təxminən belə səslənmirmi?

XXI əsrin ilk illəri beynəlxalq atmosferin hədsiz dərəcədə korlanması ilə səciyyələnir. Qloballaşma, iqtisadi, ictimai-siyasi natarazlıq,

enerji qıtlığı qorxusu ABŞ və Qərbin bəzi dairələrinin islam ölkələri, o cümlədən neft ehtiyatlarına görə Səudiyyə Ərəbistanından sonrakı yeri tutan İraqa qarşı yönəlmiş kampaniyanın səbəbləri sırasında sadalanır.

Əlbəttə, İraqdakı diktatura rejiminə, İraqın Küveyti işğalına, İraq-İran müharibəsinə heç kəs haqq qazandıra bilməz. Amma 11 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının tətbiq etdiyi embarqodan İraq xalqı da az əziyyət çəkmir. Məsələnin silah gücü ilə həllindən ən çox xalq əziyyət çəkir. Əfqanıstan bunun ən bariz nümunəsidir.

İslamı bəhanə edib öz strateji məqsədlərinə çatmaq istəyənlər odla oynayırlar. Bu əsla yolverilməzdir.

**"Günay" qəzeti, N38,**
**21 sentyabr 2002.**

## ADİ GÜNLƏR, TƏHLÜKƏLİ VƏ İBRƏTAMİZ HADİSƏLƏR

Sentyabr başa çatır. ABŞ-ın indiki rəhbərliyi belə hesab edir ki, XXI yüzilliyin tarixində sentyabrın 11-i xüsusi yer tutacaq. Bizlər hələlik əsrin ikinci ilini yaşayırıq. "Yeni dünya düzəni" deyilən doktrinanın nə ilə nəticələnəcəyi barədə fikir söyləmək çətindir. Yeni "təhlükəsizlik doktrinası" da belədir. Silah gücünə, sürətlə yenidən daha dəhşətli elektron-kosmik silahlanmanı sürətləndirməklə dünyada Amerikasayağı əmin-amanlıq yaratmaq planları və cəhdi də müəmmalı bir plandır. ABŞ-ın təkidi ilə Qərbi Avropanını bəzi ölkələrində də yenidən hərbi xərclərin artırılması planlaşdırılır. Kimdir düşmən? Kimə və nəyə qarşı sürətlə, yeni texnologiya ilə silahlanmaq lazımdır? Hələlik bu düşmənin adı "beynəlxalq terrorizm" - ölkələr isə dörddür: Əfqanıstan, İraq, İran, Şimali Koreya! Guya əhalisinin sayı cəmi 120 milyona yaxın olan, elmi-texniki inkişaf səviyyəsinə görə, əhalisinin yaşayış imkanları cəhətdən Qərblə heç cür müqayisəyə gəlməyən, hərbi cəhətdən də müqayisə edilməz bu ölkələr dünya, birinci növbədə ABŞ üçün çox ciddi təhlükə törədirlər. Atalar demişkən, iannan daşa dönsün!

Buş, Ramsfeld, Çeynisayağı yeni dünya düzənınə qarşı artıq etiraz səsləri eşidilməkdədir. Cənubi Afrika Respublikasının keçmiş prezidenti, Nobel sülh mükafatı laureatı Nelson Mandela ABŞ-ın vitse prezidenti Dik Çeynini davakar çıxışlarına görə "müasir dinozavr" adlan-

dırmışdır. Bu günlərdə Almaniyanın ədliyyə naziri Gerta Daubler - Qmelin qorxub-çəkinmədən demişdir ki, "Buş ictimaiyyətin diqqətini özünün daxili problemlərindən yayındırmaq istəyir. Bu, klassik taktikadır, Hitler də bu taktikadan istifadə edirdi".

Polşanın keçmiş prezidenti, dünyaca tanınmış cəsarətli siyasi xadim, Nobel sülh mükafatı laureatı Lex Valensa BMT müşavirləri ilə bərabər İraqa getməyə hazır olduğunu bildirmiş və digjər Nobel sülh mükafatı laureatlarını da bəşəriyytin başının üstünü almış müharibə təhlükəsinin qarşısını almaq üçün İraqa getməyə dəvət etmişdi. Almaniya, Fransa, Çin və Rusiyada ABŞ rəhbərliyini tələsməməyə, diqqətli olmağa çağırmışdı. Bu səylərin bir nəticə verib-verməyəcəyini zaman göstərəcək.

Biz keçən yüzillikdə də belə situasiyalarla üzləşməli olmuşduq. 46 il bundan əvvəl - 1956-cı ildə Macarıstan xalqı sovet tipli diktatura rejiminə qarşı ayağa qalxmışdı. O zamankı SSRİ, partiya və sovet rəhbərləri dünyanın gözü qarşısında öz silahlı qüvvələrini Macxarıstana yeritmiş və silah gücünə istədiyi adamları və qüvvələri hakimiyyətə gətirmişdi. Bu əməliyyat N.S.Xruşşovun adı ilə bağlı idi. Sistemin aqibəti artıq bizə bəllidir. Bəs N.S.Xruşşovun aqibəti necə oldu? Bu yaxınlarda "Nauka i jizn" jurnalında bu barədə ibrətamiz bir yazıya rast gəldim. Sən demə Xruşşov da sentyabrın 11-də dünyasını dəyişib. Bəs necə dəfn olunub? Yazıda oxuyuruq:

"1971-ci il sentyabrın 11-də Sov.İKP MK-nın sabiq birinci, SSRİ Nazirlər Sovetinin sabiq sədri Nikita Sergeyeviç Xruşşov vəfat etmişdir.

Adamlar bu hadisədən yalnız dəfn günü - 1971-ci il sentyabrın 13-də qəzetlərdə dərc edilmiş qısa məlumat əsasında xəbər tutdular. Birinci olaraq "Qaradinməz oyunu"nu pozmaq qərarına gəlmiş bu insanla harada və nə vaxt vidalaşmaq olacağı barədə heç nə deyilmirdi. Hökumət orqanları, hər ehtimala qarşı həmin gün Novo Deviçe monastrına gedən şəhər nəqliyyatları marşrutunda hərəkəti dayandırmış, qəbiristanın darvazasında isə oranın sanitar günü ilə əlaqədar bağlı olması barədə lövhəcik asılmışdır. Milislər, əsgərlər və zirehli transpartyorlar qəbiristanı mühasirəyə alaraq minlərlə günahsız adamı xilas etmiş, onların təmiz adlarını özlərinə qaytarmış bu insanla halallaşmaq istəyənlərin içəri keçməsinə imkan vermirdi.

Nikita Sergeyeviçin yalnız qohumları və ən yaxın dostları, tanışları və məsləkdaşları onunla vidalaşa bildilər.

Bu kədərli gündə jurnalın bütün əməkdaşları qəbiristanda Nikita Sergeyeviçin qızı Rada Nikitiçna Acubeyin (jurnalın baş redaktorunun müavini) yanında idi".

İbrətamiz deyilmi?

ABŞ-ın indiki rəhbərliyi intiqam və misilləmə hissindən qurtara bilmir. 11 sentyabr faciəsindən faydalanmaq istəyənlər də az deyil. İsrailin Fələstin ərəb xalqına qarşı törətdiyi olmazın qəddarlığa heç cür haqq qazandırmaq olmaz. Terrorçuluğa qarşı kütləfi terror və kütləvi cəzalandırma yolu ilə mübarizə aparmaq nəticə verə bilməz.

Rusiya rəhbərliyi də 11 sentyabrdan Çeçenistan problemini sülh gücünə həll etmək məqsədilə istifadə etmək istəyir. Gürcüstana qarşı aparılan yolverilməz kampaniya da, hədə-qorxu da burdan qaynaqlanır. ABŞ-İraq, Rusiya-Gürcüstan qarşıdurması göz qarşısındadır. Narahatlıq doğuran cəhət odur ki, qlobal kommunikasiya sistemi beynəlxalq ictimai rəyi əvvəllərdə olduğu kimi fəal surətdə formalaşdırmağı bacarmır. Ən təhlükəsi də budur. Beynəlxalq əmin-amanlığın yolu silahlanmadan, qəddarlıqdan, müharibələrdən deyil, sosial ədalətdən, insafdan, insan hüquqlarının qanunla qorunmasından, insancasına yaşamağın təmin edilməsindən keçir.

**"Günay" qəzeti, N39,**
**28 sentyabr 2002**

## NEFT EYFORİYASI VƏ REAL GƏLƏCƏK

Bu yaxınlarda neft mövzusunda yazan və danışan xarici icmalçılardan biri yarızarafat, yarıgerçək söylədi ki, harada toplu halında müsəlman tayfaları, xalqı yaşayırsa, bilin ki, həmin torpağın altında neft var. Yaxın Şərqi, Rusiyanı, İndoneziyanı, Qazaxıstanı və Orta Asiyanı, Qafqazı nümunə kimi göstərdi. Belə bir mövzuda söhbət açan məşhur rus yazıçısı, Nobel mükafatı laureatı A.İ.Soljinitsin isə "qara neft, qara fəlakətdir" ifadəsi işlətmişdir. Yazıçıya görə yerin altından neft çıxarıb məmləkəti onunla dolandıranlar ilə xalqlarını elm və texniki nailiyyətləri, əmək məhsuldarlığını iqtisadiyyatın bütün sahələrində daimi yüksəlişini təmin edib dünyanın hər guşəsini keyfiyyətli məhsulla dolduranlar arasında fərq böyükdür. Hələləik neft də dünya bazarında ən çox tələb olunan, pula gedən məhsuldur. Lakin alimlər, mütəxəssislər artıq həyəcan təbili də çalmaqdadırlar. Hazırda dünyada hər il təxminən 3 milyard tona yaxın neft çıxarılır. Neft məhsullarını ən çox ehtiyacı olan, onu alan və işlədən ABŞ-dır: ildə 950

milyon ton. Mütəxəssislərin təxmini hesablamalarına görə isə, yerin təkində cəmi 120-160 milyard ton neft ehtiyatı qalmışdır. Ona görə də əgər neft Amerikasayağı işlədilsə, bu ehtiyat yalnız indiki nəslin tələbatını ödəməyə çatacaq. Həm də dünyada neft istehsalı hər il 3-5 faiz artmaqdadır. Əgər İkinci dünya müharibəsi vaxtı planetin hər bir sakininə 120-170 ton neft ehtiyatı düşürdüsə, hazırda bu rəqəm 20-30 tona enmişdir. Burada gələcək nəsillərin payı da var. Beləliklə, alimlərin rəyinə görə əgər hərbçilərin işlətdikləri və ehtiyat yığmaqda olduqları neft məhsullarını da nəzərə alsaq 2015-ci ildə dünya çox ciddi problemlə üzləşməli olacaq. Dünya əhalisinin sürətli artımı faktoru da mühüm əhəmiyyət kəsb etməkdədir və nəzərə alınmalıdır. (Bax: "Nauka i jizn" j. N7 2002,s.9-12).

Diqqəti cəlb edən cəhətlərdən biri odur ki, dünya neft bazarında daha çox neft çıxarmaq uğrunda yarış da genişlənməkdədir. Məsələn: Rusiya yaxın illərdə ABŞ neft bazarından Səudiyyə Ərəbistanını sıxışdırmaq fikrindədir. İraqın neft ehtiyatlarına sahib olmaq üstündə vuruş səngimək bilmir. Corc Buş ABŞ-a İraq təhlükəsi dedikdə əslində neft ehtiyatlarının əldən çıxması təhlükəsini nəzərdə tutur. Hər halda bu fikri xarici icmalçılardan bir qismi açıqca söyləyir.

Dünyada ən çox neft işlədən ABŞ neftin qiymətinin beynəlxalq bazarda aşağı düşməsinə səy göstərir. Amma Səddam Hüseyn rejimi səbəbli İraq nefti beynəlxalq bazardan BMT embarqosu ilə sıxışdırılıb. Əgər bu rejim devrilsə İraq dünya neft bazarına hər gün 5-6 milyon barel neft çıxara bilər. Bu isə neftin qiymətinin xeyli ucuzlaşmasına səbəb olar. Elə İngiltərənin baş nazirinin də məhz bu məqsədlə Buşa dəstək verməkdə olduğu qeyd edilir. Beynəlxalq ictimaiyyəti İraq hədəsi ilə qorxudanlar özləri atom və istilik nüvə silahının bütün növlərinə, kimyəvi və bioloji silahlara, yeni tipli elektron silahlarına malik ölkələrdir. Özləri tərksilah olmaq istəmirlər, sürətlə silahşlanırlar, hərbi xərclərini artırır, hər il dünya silah bazarına yeni "məhsullar" çıxarırlar. Bu barədə nədənsə söhbət açanlar azdır. Əgər ABŞ rəhbərliyi zorakılığı, gücü, qlobal təzyiqi, xoşu gəlməyənləri əzməyi "yeni dünya düzəni" hesab edirsə, XXI yüzillik əvvəlki yüzilliklərdən çətin fərqlənəcək.

Dünyanın enerji daşıyıcılarına olan tələbatının təmin edilməsi perspektivləri və mövcud ola biləcək fəlakətin qarşısının alınması ilə əlaqədar yolların aranması barədəki mülahizələr sırasında dəhşətverici bir layihənin işləndiyinə də rast gəlinir. "Bunun "alternativ" yolu var: planetin əhalisinin təcili olaraq "qızıl milyarda" endirmək lazımdır. Bəzi siyasətçilər heç kəsin - "nə fiziklərin, nə liriklərin" rəyini soruşmadan buna gedə bilərlər və bütün bunları "sabitliyə sıçrayış" adlan-

dıra bilərlər". Mən birinci dəfədir ki, belə bir mülahizəyə rast gəlirəm.

Qızıl milyard dedikdə ABŞ başda olmaqla Qərb dünyasının yüksək inkişaf etmiş ölkələori nəzərdə tutulur. Yeri gəlmişkən elmi-texniki jurnallardan birində "Avropa od içində" sərlövhəli bir yazı, kosmosdan çəkilmiş Qərbi Avropa xəritəsi verilmişdir. Avropa şəhərlərinin axşam mənzərələri kosmosdan ümumi yanğın mənzərəsini xatırladır. İtaliya astronomlarının fəazanı və kosmosu işıqlandırmağın mənzərəsinə həsr olunmuş atlasda çox bariz şəkildə bunu ictimaiyyətin nəzərinə çatdırır və yazırlar ki, iri şəhərlərin səmanı işıqlandırması bir tərəfdən astronomların işini çətinləşdirir, ikinci tərəfdən enerji məsrəfinə səbəb olur. Alimlər belə bir faktı da nəzərə çatdırırlar ki, "Avropa əhalisinin 98 faizi hətta ən aydın gecələrdə belə başları üzərində ulduzları görmürlər. Bir də kosmosu işıqlandırmaq üçün sərf edilən enerjiyə adamın heyfi gəlir.

Göstərim ki, Çexiya Respublikası parlamenti dünyada birinci dəfə olaraq "Gecələr fəzanı işıqdan kirlənməkdən müdafiə etmək haqqında" adlı qanun qəbul etmişdir. Bu qanun bu il iyunun 1-dən qüvvəyə minib. Məhz bu səbəbdən bundan sonra Praqada səmadakı ulduzları seyr etmək mümkün olacaqdır.

Azərbaycan dünyanın qədim neft mənbəyi və mərkəzlərindən biridir. Bu torpağın altından çıxarılan və ondan qazanılan var-dövlətin dəqiq miqdarını və həqiqi sahiblərini bilən və hesablayan da yoxdur. Milyard tondan artıq neft çıxarılan Abşeronun acınacaqlı vəziyyəti də göz qarşısındadır. Yüz min hektara yaxın torpaq xarabazarlığa döndərilmiş, metal yığını mənbəyinə çevrilmişdir. Neft dalınca gələn xaricilərin sayı dı əksilmək bilmir. Vaxtilə "Əkinçi" qəzetində Həsənbəy Zərdabi yazırdı: "Amerikadan Badu-Kubəyə bir iki adam gəlib. Deyirlər ki, onlar orada olan neft zavodlarının sahiblərindəndirlər və buraya gəlməkdən murad budur ki, özlərinə yer alıb quyu qazdırıb cövhər çəkdirsinlər. Bu barədə bizim neftçilərin arasında çox danışıq var. Əz oncümlə nağıl edirlər ki, keçən il bizim neft cövhəri Amerika zavodlarına zərər elədiyinə, onlar gəliblər ki, yer alıb cövhər çəkib, onu zərərinə satıb, bizim zavodculları sındırıb, sonra onların zavodlarını və yerlərini ucuz alsınlar". ("Əkinçi" N14, 7.VII.1877)

Neft eyforiyasının əleyhinə deyilik. Amma bir az da uzağı görmək lazımdır. Gələcək nəsillərin yeraltı, Allah payını hərraca qoymağa haqqımız yoxdur. Axı biz bu torpaqda nə əvvəlinciyik, nə də axırıncı.

**"Günay" qəzeti, N40,**
**5 oktyabr 2002.**

## CON KENNEDİNİN DEDİKLƏRİ, VAŞİNQTONUN İNDİKİ HƏRƏKƏTLƏRİ

"Ya bəşəriyyət müharibələrə son qoyacaq, ya da müharibələr bəşəriyyəti kökünü kəsəcək!"

- Bu ibrətamiz, tarixi sözlərin müəllifi ABŞ-ın keçmiş prezidenti, irticanını gülləsinə tuş gəlmiş mərhum Con Kennedidir. Kuba Respublikası ətrafında SSRİ ilə ABŞ arasında 1951-ci ildə atom-nüvə müharibəsi həddinə çatdırılmış, təhlükəli, böhranlı günlərdə deyilmişdir. ABŞ-ın davakar hərbi dairələri iqtisadi-hərbi qüdrətə arxalanaraq "yeni dünya düzəni" planları həyata keçirmək işinə girişmək istəyirdilər. Lakin qarşılarında SSRİ kimi, onlardan da geri qalmayan qüdrətli davakar hərbi güc vardı. İki sistemin apardığı "soyuq müharibə" zaman-zaman isti müharibəyə çevrildi. 1950-1953-cü illərin Koreya savaşı, Kennedidən sonra "böyük cəmiyyət" doktrinasının müəllifi prezident Lindon Consonun başladığı Vyetnam müharibəsi bunun ən bariz örnəyidir. Zaman dəyişmiş, yeni əsr başlanmışdır. ABŞ mütəxəssislərinin fikrincə, 20-ci yüzillikdəki müharibələrdən, çəkişmələrdən, iqtisadi, elmi-texniki rəqabətdən uğurla çıxmış, iqtisadi qüdrətini təxminən yeddi dəfə, hərbi qüdrətini də bir bu qədər gücləndirməyə müvəffəq olmuşdur. Əsrin bu fenomenini təhlil edən iqtisad elmləri doktoru İ.Osadçaya "İki iflas - ibrət dərsləri və yekunlar" ("Dva kraxa-uroki i itoqi") sərlövhəli analitik məqaləsində yazır: "XX yüzillik iki böyük iflasın şahidi olmuşdur. Bu əsrin birinci qərinəsi klassik kapitalizm sisteminin iflası ilə başa çatdı. 1929-1933-cü illərdə baş vermiş ən dərin və geniş əhatəli böhran buna sübutdur. Lakin kapitalizm sivilizasiyalı bazarı, dövlətin iqtisadiyyata müdaxilə etməsini və demokratik hakimiyyət sisteminin birləşdirməyə əsaslanan yeni tənzimlənmə mexanizmi yaratmaqla bu böhrandan çıxış yolu tapdı.

Əsrin son qərinəsi iqtisadiyyatın tamamilə dövlətləşdirilməsi və bir partiyanını total hakimiyyətinə əsaslanan sosializm sisteminin iflasa uğraması ilə əlamətdar oldu. Bu böhran indi də davam edir. Keçmiş "sosializm düşərgəsi" ölkələrinin bir qismində dönüş nəzərə çarpsa da (Polşada, Çexiyada, Slovakiyada və Macarıstanda inflyasiya prosesi praktiki olaraq dayanmış və tərqqi başlanmışdır), bizim ölkəmizdə (Rusiyada-red.) işıq ucu görünmür. Çox dərin struktur böhranı - keçid dövrünün böhranı, eyni dərəcədə dərin struktur inflyasiyası və bu yaxınlarda baş vermiş maliyyə böhranı ilə çulğaşmışdır...

Lakin aşkardır ki, perspektivdə yenə eyni məqsəd güdülür: elə həmin üç nəhəngə - sivilizasiyalı bazara, dövlət tənzimlənməsinə və de-

mokratik siyasi sistemə əsaslanan iqtisadi sistemin idarə edilməsi üçün sabit mexanizm yaradılmalıdır".

ABŞ 21-ci yüzilliyə, üçüncü minilliyə dünyanın hələlik yeganə, hər cəhətdən güclü, qüdrətli fövqəldövləti kimi daxil olmuşdur. Qarşısında ciddi rəqib görmədiklərini nəzərə alan ABŞ-ın indiki, respublikaçı rəhbərliyi, xüsusilə müvəffəqiyyət və uğurlardan "baş gicəllənməsi" xəstəliyinə tutlanlar - dünyanı istədikləri kimi yenidən düzəltmək iddiasına düşmüşlər. Əllərinə, necə deyərlər, göydən "bəhanə"də düşmüşdür.

Dünyanın təkcə ABŞ-a, necə deyərlər, həsəd aparan kasıb ölkələrində və regionlarında deyil, hətta Qərbi Avropa ölkələrində belə antiamerika - yəni ABŞ-a qarşı tənqidi, müəyyən təbəqələrdə düşmənçilik hisslərinin gücləndiyi də müşahidə edilməkdədir.

Sentyabrın ortalarında bu meyllərin artmasından əndişələnən Vaşinqtonda politoloq və sosoloqların bu problemlə əlaqədar xüsusi simpoziumu da keçirilmişdir. Həm də son vaxtlar "beynəlxalq terrorizm"lə yanaşı ABŞ-da "daxili terrorizm"də güclənmişdir. Səbəb nədir? "ABŞ-da daxili terrorizmə qarşı mübarizə məsələləri üzrə tanınmış ekspert, Qustav Adolf adına kollecin müəllifi Keren Larson açıqca qeyd edir ki, "terroristləri törədən bizim həyat tərzimizdir", "evdəki terrorçular bütövlükdə amerika həyat tərzindən son dərəcə narazıdırlar", "Çariz Bişop adlı yeniyetmə yadınızdadırmı - bu ilin yanvar ayında "Sessna" markalı kiçik təyyarədə Mayamidəki binaların birinə pərçim olan oğlanı deyirəm. Mənim fikrimcə, onun bu hərəkəti - qorxu və məyusluğun təsirindən irəli gələn davranışa bir nümunədir".

ABŞ rəhbərliyi ölkədə qorxu və həyəcan hissini gücləndirməklə həm ölkə daxilindəki tipik Amerika laqeydliyini aradan qaldırmaq, daxildə düşmən axtarışı hissini gücləndirməklə respublikaçı prezidenti reytinqini qaldırıb qarşıdakı seçkilərdə onun ikinci dəfə qələbəsini təmin etmək, digər tərəfdən iqtisadi və mənəvi böhran təhlüükəsini bu yolla aradan qaldırmaq məqsədi güdür. Məhz bu məqsədlə də indiki Vaşinqton administrasiyası mükəmməlləşdirilmiş daxili təhlükəsizlik nazirliyi (superministerstvo vnutrenney bezopasnosti) yaratmaqla məşğuldur.

Xarici mətbuat orqanları, xüsusilə, Qərbi Avropanın bir sıra nüfuzlu qəzetləri ABŞ-ın İraqa dair düşünülmüş, sistemli strateji bir planının olmadığını da qeyd edirlər. İndiki İraq rejimini silah gücünə devirmək ön palna çəkilsə də, İraqın gələcək taleyi, xalqın gələcəyi barədə işlənmiş dəqiq bir siyasi xətt də aydın deyildir. Avropalıları, islam dünyasını və hətta amerikalıların bir qismini narahat edən də budur. Səddam rejiminə qarşı olan İraq müxalifəti də ABŞ-ı açıq şəkildə və ya

birgə açıq müdafiədən çəkinir. Əlbəttə, avropalıların, xüsusilə, Almaniya və Fransanın İraq probleminə Vaşinqtondan daha ehtiyatlı yanaşması da səbəbsiz deyil. Axı Qərbi Avropa ölkələrinə gətirilən neftin 40 faizi körfəz ölkələrinin payına düşür. Bu ölkələr və xüsusilə onların xalqları İraq probleminin hərbi yolla həllini istəmirlər. Prezident Buş isə hətta amerikalıları son həftəlik müraciətində İraqın ABŞ və bütün dünyaya təhlükə təşkil etdiyi barədəki əvvəl dediklərinə daha kəskin bir şəkildə təkrar etdi. Lakin bu çıxışda əsaslı dəlillər və faktlardan çox emosiya güclü idi.

ABŞ öz iradəsini BMT və onun Təhlükəsizlik Şurasını da qəbul etdirmək fikrindədir. BMT-nin İraqa dair əvvəlki qətnamələrinə məhəl qoymayan Vaşinqton nəyin bahasına olursa-olsun müharibəyə meydan açacaq qətnamə istəyir. Əslində isə İraqa qarşı müharibə başlanmışdır. Söhbət onun daha geniş miqyas almasından gedir. İraq xalqının vəziyyəti, taleyi davakarları maraqlandırmır.

ABŞ-da müsəlman-ərəb dünyası vətəndaşlarını qarşı inamsızlıq, qorxu mifi də dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Konqres ölkəyə gələn ərəb və bir sıra müsəlman ölkələri vətəndaşlarını xüsusi yoxlamadan keçirmək barədə xüsusi qətnamı qəbul etmişdir. 350-yə yaxın təyyarə meydanında və limanlarda xüsusi yerlər təşkil olunur: gələnlərin kimliyi, gəlişinin məqsədi öyrənilir, şəkli çəkilir, barmaq izi götürülür. Qısası, onlara üçüncü növ insani münasibət bəslənilir. Nəzər alsaq ki, hər il ABŞ-a təxminən 34 milyon adam gəlir və bunların müəyyən bir qismi "şübhəli" ölkə vətəndaşlarıdır - vəziyyətin necə dramatik səciyyə daşıyacağı aydındır. Diqqətimi çəkən, ilk baxışda o qədər də nəzərə çarpmayan bir ifadəni də qeyd etməyə bilmərəm. Bi-Bi-Si-yə müsahibə verən bir Amerika icmalçısı İraq ərəb xalqı əvəzinə "Ərəb camaatı" (arabska tolpa) ifadəsini işlətdi. Bəlkə buna görə müasir silahlarla İraqa divan tutmağı nəzərdə tutanlar onun xalqını insan yerinə qoymaq istəmirlər.

Con Kennedinin vaxtilə dediyi: "Ya bəşəriyyət müharibələrə son qoyacaq, ya da müharibələr bəşəriyyətin kökünü kəsəcək!" sözləri bizim günlərdə də aktual səslənmirmi?

**"Günay" qəzeti, N41,**
**12 oktyabr 2002.**

## BİR SANİYƏDƏ 40 TRİLYON ƏMƏLİYYAT. QÜDRƏT VƏ GÜC ELM VƏ TEXNİKADADIR

Xəbər verilir ki, Yaponiya hökumətinin sifarişi ilə NES firması "Yerin simulyatoru" adlı super-kompüter hazırlamışdır. Tokionun 40 kilometrliyində bu nəhəng maşın üçün uzunluğu 65, eni 50 və hündürlüyü 17 metr olan anqara bənzər xüsusi bina tikilmişdir. Superkompüter dövlətə 350-400 milyon dollara başa gəlmişdir. O, 5 il müddətinə hazırlanmışdır. Yazırlar ki, Superkompüter İokohamadakı Yer haqqında elmələr İnstitutuna məxsus olsa da, ölkənin üç iri elmi mərkəzi bu kompüterdən birgə istifadə edəcəkdir: Dəniz Elmləri və Texnologiyaları Mərkəzi, Atom Enerjisi İnstitutu və Milli Kosmik Tədqiqatlar Agentliyi. Yeni kompüter bütün planet miqyasında iqlim proseslərini modelləşdirməyə, hava proqnozu, o cümlədən tayfunlar və sunamilər haqda proqnozları yüksək dəqiqliklə qabaqcadan söyləməyə imkan verəcəkdir. Nəhəng kompüter seysmik hadisələri modelləşdirməyə və zəlzələləri proqnozlaşdırmağa da qadir olacaqdır. Nəhəng yapon kompüterinin işləmə sürəti saniyədə 40 trilyon əməliyyatdan çoxdur.

Göstərək ki, bu vaxta qədər ABŞ-da bu tipdən olan superkompüter hər saniyədə 12,3 trilyon əməliyyat aparmaq imkanına malikdir. Amerika mütəxəssislərindən biri Yaponiyada istifadəyə verilən nəhəng kompüterin istehsalını ABŞ üçün ciddi, həyəcanverici siqnal hesab edir. Onun sözlərinə görə "yaponların yeni məhsulu ABŞ-dan ötrü 1957-ci ildə sovet süni peykinin buraxılması ilə eyni dərəcədə həyəcanlı siqnaldır".

45 il bundan əvvəlin oktyabr günlərində SSRİ-də yerin ilk süni peykinin orbitə çıxarılmasının yaratdığı sevinc və həyəcan mənim nəslimin yadındadır. Bu müqayisə çox şeydən xəbər verir. Axı hər il dünyada mövcüd olan ən güclü 500 kompüterin siyahısı elan edilir. ABŞ uzun illər idi ki, bu siyahıda ilk 6 yeri tuturdu. İndi bir yapon superkompüterinin gücü ABŞ-ın 6 iri kompüterinin ümumi gücündən çoxdur. ABŞ kompüterçilərini həyəcana salan və hətta qorxudan da budur.

Bəşəri tərəqqiyə yön verən, dünyanı ardınca aparmağa çalışan ölkələrin və xalqların elm və texnika sahəsindəki nailiyyətləri təsadüfi hesab edilə bilməz. Bu ölkələrdə təhsil və elmin sürətli inkişafına külli miqdarda vəsait qoyulur. Bu sistem daim təkmilləşdirilir. Vaxtilə ingilis filosofu Frensis Bekon (1561-1626) böyük uzaqgörənliklə demişdi: "Bilik - qüvvədir". Tanınmış rus iqtisadçısı professor Y.Şişkov bu yaxınlarda dərc olunmuş bir məqaləsində inkişaf etmiş "şimalla", geridə qalmış "cənub" arasındakı uçurumun, həyat və tərəqqi fərqinin ta-

rixi köklərini nəzərə çatdıraraq yazır ki, dünyanın çevik inkişaf etməkdə olan avanqarda və get-gedə daha çox geridə qalan aryerqarda bölünməsi tarix baxımından o qədər də çoxdan başlanmamışdır. Bu proses XVI əsrdəki böyük coğrafi kəşflərdən sonra başlanmış, üç əsrdən sonra isə partlayış xarakteri kəsb etmişdir. Əlbəttə, sənayeləşmədən əvvəlki dövrdə də dünyanın ayrı-ayrı regionlarının həyat səviyyəsi arasında fərq vardı, lakin həmin fərq indiyədək heç vaxt ciddi əhəmiyyət kəsb etmirdi, çünki o dövrdə hər bir ölkənin iqtisadiyyatında mütləq dominantlıq edən sahə kənd təsərrüfatı idi... Sənaye inqilabı və kapitalizm bu fərqləri hədsiz dərəcədə kəskinləşdirdi. Sənaye inqilabı ilə, demək olar ki, eyni vaxtda sosial inqilab baş verdi: durğunlaşmış sosial-iqtisadi münasibətləri kapitalizm və istehsal vasitələri üzərində xüsusi mülkiyyət əvəz etdi, nəticədə, insanların öz əməyinin nəticələrinə şəxsi marağı əsaslı şəkildə artdı və onların yaradıcılıq təşəbbüsü buxovlardan azad oldu.

Bu günlərdə yeni ilin Nobel mükafatı laureatları elan edilmişdir. Dünyanı, bəşəriyyəti arxasınca aparan, təhsilə, elmə və texniki tərəqqiyə külli miqdarda maya qoyan, vəsait ayıran, insanın yaradıcılıq potensialının üzə çıxmasına şərait yaradan demokratik ölkələrin və xalqların nümayəndələri bu dəfə də bu beynəlxalq ali mükafatların sahibləri oldular. Yeni elm sərkərdələrini dünya tanımağa başlayır. Fəxr ediləsi və həm də həsəd aparılası hadisədir. Zaman sürətlə dəyişir. İnformasiyalı cəmiyyət təhsil və elmi-texniki sistemlərin əsaslı islahatını, təkmilləşdirilməsini tələb edir. Rusiya elminin tanınmış şəxsiyyətlərindən, akademik-fizik Vladimir Fortov "Известия" qəzetinə verdiyi müsahibəsində deyir: Bir vaxtlar Frensis Bekon demişdi ki, bilik - qüvvədir. Bilik - informasiyanın sinonimidir. İnformasiya - hakimiyyət, informasiya texnologiyaları isə çox güclü iqtisadi amildir. Dünya informasiya texnologiyaları isə çox güclü iqtisadi amildir. Dünya informasiya texnologiyaları bazarının miqyası aviasiya və avtomobil sənayesi bazarlarının birgə miqyasından genişdir".

Yeri gəlmişkən, qeyd edim ki, informasiya texnologiyası sahəsində Hindistanda son illər həyata keçirilən sistemli yeniliklər öz bəhrəsini verməkdədir. Xəbər verirlər ki, keçən il kompüter proqramları və proqramistlərin ixracı sayəsində Hindistan 10 milyard dollar gəlir əldə etmişdir.

Azərbaycanda təhsil və elmin vəziyyəti hamımıza bəllidir. Paytaxtda az-çox iş görülür. Rayonların əksəriyyətində isə vəziyyət ağırdır, acınacaqlıdır. Başdansovdu kampaniyalarla vəziyyəti düzəltmək mümkün olan şey deyil. İkinci Dünya müharibəsində məğlub olmuş,

atom zərbəsinə məruz qalmış, dağıdılmış Yaponiya bütün qüvvəsini, maddi imkanlarını səfərbər edib təhsil sistemini yenidən qurdu, totalitar və avtoritar düşüncə tərzindən, dövlət sistemindən əl çəkdi, elmi-texniki tərəqqi yolunu açdı. 30-40 il ərzində dirçəldi, dünyanın yeni "iqtisadi möcüzəsini" həyata keçirdi. Builki Nobel mükafatı laureatları sırasında da, əvvəlki illərdə olduğu kimi, Yaponiya alimələri də öz ləyaqətli yerlərini tuturlar. Deməli, nümunə götürməyə, öyrənməyə dünya təcrübəsi mövcuddur. Düşünmək, hərəkət etmək vaxtı deyilmi? Onuncu dərəcəli məsələlərlə baş qarışdırmaq fayda verə bilməz.

**"Günay" qəzeti, N42,**
**20 oktyabr 2002.**

## PARADOKS: ARTIM DA VAR - UÇURUM DA DƏRİNLƏŞİR

Getdikcə təkmilləşən, yeni ixtiralarla zənginləşən texniki-tərəqqi, elmi kəşflər, informasiya inqilabı, iqtisadi ticarət, maliyyə və mədəni əlaqələrin sürətlə artımı, qloballaşma prosesi belə bir təsəvvür və ümid yaradır ki, planetin hər bir sakini işləmək, insancasına yaşamaq və allahın verdiyi ömrü başa vurmaq üçün bu və ya başqa səviyyədə imkan və şərait sahibi ola biləcəkdir. Bəşəriyyətin bir qismi üçün bu ümidlər reallığa çevrilməkdədir. Belə ölkələrin "yuxarı təbəqə", "şimal" və hətta "qızıl milyard" ölkələri adlandırırlar. Doğrudan da ABŞ, Qərbi Avropa, Yaponiya və dünyanın bir sıra inkişaf etmiş ölkələrinin əhalisinin əksəriyyətinin iş və həyat şəraiti son onilliklər ərzində əsaslı surətdə dəyişmişdir. Bunu beynəlxalq miqyasda aparılan tədqiqatlar da nümayiş etdirir.

Hər il Nyu-Yorkda "BMT-nin inkişaf proqramları" adlı illik toplu nəşr olunur. Burada beynəlxalq miqyasda iqtisadi inkişaf dinamikası, umumi vəziyyət, problemlər barədə statistik rəqəmlərlə yanaşı, ümumiləşdirilmiş proqnozlara da geniş yer verilir. Topluda ürəkaçan, ümidverici meyllərlə yanaşı, ciddi təşviş və həyəcan doğuran faktlara da rast gəlmək olur. Məsələn, qeyd edilir ki, indi ümumdünya məhsul istehsalının 86 faizi, beynəlxalq ixracatın 82 faizi, birbaşa investisiyaların 68 faizi "qızıl milyard" ölkələrinin payına düşür. Halbuki geridə qalmış "aşağı təbəqə" adlandırılan ölkələrdə bu göstəricilər 1 faizdən yuxarı belə deyil. Və yaxud başqa bir müqayisəyə diqqət edək. Göstərilir ki,

əgər 1960-cı ildə, yəni 40 il bundan əvvəl dünya əhalisinin təxminən beşdə birini təşkil edən varlı ölkələrdə adambaşına düşən ümummilli gəlir yoxsul zəif inkişaf etmiş ölkələrdəkinə nisbətən 30 dəfə artıq idisə, indi bu fərq 74 dəfəyə çatmışdır. Belə bir mənzərə yaranır ki, varlılapr getdikcə daha da varlanır, kasıblar isə əvvəlki kasıblığında qalır. Üçüncü bir qrup da vardır ki, onlara inkişaf etməkdə olan ölkələr deyirlər. O yerdə ki, siyasi sabitlik var və hüquqi zəmin əlverişlidir, həmin ölkələrə xarici kapital və iş adamları ayaq açır, inteqrasiya prosesi sürətlənir. Bu ölkələr üçün ən çətin problem yeni texnologiyanı işlətməyi bacaran, ixtisaslı yerli kadrların məsələsidir. BMT-nin hesabatında 48 belə ölkənin adı çəkilir. Bu ölkələrdə dünya əhalisinin 10,4 faizinin yaşadığı qeyd edilir.

Tərəqqinin, həyat və yaşayış şəraitinin yaxşılaşmasınını hərəkətverici qüvvəsi, amili əlbəttə ki, sivilizasiyalı bazar iqtisadiyyatı dövlət tənzimləməsi və həqiqi demokratik dövlət quruluşudur. Belə ölkələrdə elmi və texniki tutumlu sənaye sahələri daha çox gəlir gətirir. Məsələn, mütəxəssislərin hesablamaların görə, "dünya bazarında 1 kiloqram xam neft satışından 2-2,5 sent mənfəət əldə edildiyi halda, 1 kiloqram məişət texnikasının satışından 50 dollar, 1 kiloqram aviasiya texnikası satışından 1000 dollar, 1 kiloqram elektronika və informasiya texnikasının satışından isə 5000 dollara qədər qazanc əldə etmək mümkündür".

Təsəvvür edin ki, Rusiya Federasiyasının 2003-cü il büdcəsini "neft büdcəsi" adlandırırlar. Neftdən, deməli, beynəlxalq bazarda bu məhsula olan tələbat və onun tez-tez dəyişən qiymətindən asılı olan ölkənin, hətta hərbi və kosmik sənaye sahəsində irəlidə gedənlər sırasında olsa belə vəziyyəti necə ola bilər? Doğrudur, "neft büdcəsi"nin qarşısına bir sosial sözü də əlavə edib, onu "sosial neft büdcəsi" də adlandırırlar. Lakin bununla əhalinin vəziyyəti düzəlirmi? Gələn ilə bu büdcə ilə də əhaliyə çoxlu vədlər verilir. Minimum əməkhaqqının 450 rubldan-600 rubla, pensiya və büdcədən maliyyələşdirilən sahələrdə əmək haqlarının xeyli artırılması nəzərdə tutulur. İcmalçıların bir qismi isə azlıq təşkil edən varlıların qarşıdakı ildə də daha da varlanacağını, kasıbların vəziyyətində əsaslı dəyişikliyin olmayacağını bildirirlər. Çünki ölkədən xaricə çıxarılan valyutanın miqdarı azalmaq bilmir. Son 10 ildə bu məbləğ 100-120 milyard dollar həcmindədir. O biri tərəfdən xarici kapitalın ölkəyə gəlişi də istənilən səviyyəyə çatmır.

Rusiya Federasiyasında hədsiz varlıların və kasıblığın fəsadları da ölkə rəhbərliyini narahat etməyə başlayıb. Ölkədə 37 milyon uşağın yarısı atasız böyüyür. Bir milyon küçələrə tökülmüş, sahibsiz uşağın olduğunu deyirlər. İşsizlik, ümidsizlik, içki düşgünlüyü, narkomaniya

və s. bu kimi bəlalar artıq dözülməz həddə çatmaqdadır.

Diqqəti cəlb edən digər bir beynəlxalq problem ABŞ və bir sıra Qərb ölkələrinin silahlanmaya yenidən xeyli vəsait ayırmaq meylləridir. Halbuki külli miqdarda bu vəsaiti geridə qalmaqda olan yoxsul ölkələrin iqtisadiyyat, təhsil, səhiyyə və s. tələbatlarına ayıra bilərdilər. Qloballaşma əleyhinə çıxış edən qüvvələrin əsas tələblərindən biri də məhz budur. Axı nəinki, son İkinci Dünya müharibəsi, hətta Birinci Dünya müharibəsi vaxtından qalan, məhv edilməmiş hərbi sursatlar da bəzi yerlərdə qalmaqdadır. Məsələn, hazırda Rusiya Federasiyasında 700 min hərbi sursat yüklənmiş vaqon, yarım milyon ton vaxtı keçmiş hərbi sursat qalmaqdadır. Onların mühafizəsinə hər il xeyli əsgər ayrılır, vəsait sərf edilir.

Müstəqil Azərbaycanın dünya ölkələri içərisində hansı cəbhədə, hansı mövqedə olduğunu söyləməyə ehtiyac yoxdur, vəziyyət gözümüz önündədir. Varlıları, harınları, çapıb-talayanları da görürük, ürəyi yananları, vəziyyəti düzəltməyə çalışanları da. Vaxtilə M.F.Axundov yazmışdır: "Mənim xalqımın fitri istedadı bütün Avropa xalqlarının fitri istedadından əskik deyil..." Bununla yanaşı, gələcək haqqında optimist, nisbətən nikbin mülahizələr də vardır. Onlardan birində oxuyuruq: "XXI əsrdə qlobal iqtisadiyyatın sosial-iqtisadi landşaftı daha hamar olacaq, onun avanqardı ilə aryerqardı arasındakı məsafə xeyli azalacaqdır, lakin beynəlxalq birlik daha heç vaxt indiki vəziyyətdən geriyə - sənayeləşdirmədən əvvəlki dövrə qayıda bilməyəcəkdir".

**"Günay" qəzeti, N43,**
**26 oktyabr 2002**

# DƏRDLƏRİMİZİN TƏRCÜMANİ - ÜZEYİR BƏY

1948-ci ilin soyuq noyabr günlərində milləti və torpağı ilə bütövləşən Üzeyir bəy dünyasını dəyişdi, əbədiyyətə qovuşdu. 1909-cu ilin avqustunda ona hücum çəkən nadanlara cavabında 24 yaşlı Üzeyir bəy yazırdı: "Mən nə edim ki, öz elmimi, biliyimi və bütün istedad və qabiliyyətimi - xudadadımı millətin tərqqisi yolunda sərf etməklə xain, həsud və paxıl "zənburçuların" gözlərinə bir ox olub batıram?.. 63 illik zəngin, keşməkeşli, sevinc və faciələrlə dolu həyatını doğma Azərbaycana həsr edən bu müqəddəs insan bizə heç bir sərvətlə müqayisə edilməyəcək bir xəzinə, irs qoyub getmişdir. Bu irsdən, onun ibarətamiz görüşlərindən və həyatından öyrəniləcək, nümunə götürüləcək məqamlar istənilən qədərdir. Onun düşüncələrini əks etdirən bir neçə nümunə:

"Qayeyi amala - malik olan millətlər - dövlətlər arasındakı münasibətlərdə əhəmiyyət qazana bilərlər";

"Məsləksiz adam kütləni də özü kimi məsləksiz edib, əxlaqını da pozar"; "Ümumun xoşbəxtliyini, asayiş və aramını, rifah halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək, onun sahibi üçün müqəddəsədd olunmalıdır";

"Millətpərəstlik, milli iftixar kimi ali və nəcib hisslər hələ bizim qəlbimizdə yer tapmayıbdır. Çünki qəlbimiz başqa hisslərlə doludur və hələ "vakansiya" yoxdur";

"Camaat öz xeyrini və zərərini bilsə və xeyir gətirən ilə zərər yetirəni dürüst tanısa, o halda alçaq fitnəkarlara yol verməz. Gərək camaat razı olmasın ki, alçaq müfəttinlər (araqarışdıranlar) onları öz murdar əllərində alət və oyuncaq etsinlər";

"Əsrlərdən bəri avam xalqın iliyinə qədər yerləşmiş olan çürük əqidələr puç oluncaya qədər əziyyət çəkəcəyik";

"Millətin taleyini əqilləri başlarında olmayıb, bəlkə gözlərində və daha çox qulaqlarında olanlara.tapşırmaq olmaz";

"Hörmətli cənab, sizin qəzet, Allah bilir, hansı niyyətləriniz naminə müdam müsəlman cəmiyyətinin arasına nifaq salıb onu iki düşmən cəbhəyə, bir "təzə müsəlmanlara" və ya "mürtədlərə", bir də ki "köhnə müsəlmanlara" və ya "əsil müsəlmanlara" bölürdü və təbii ki, buna biganə baxa bilməzdik";

"Cəmaət bizdən hələ cəhaləti, dedi-qoduçuluğu, fitnəkarlığı, saf və qurtuluşa çağıran təbliğatdan ayıra bilmir";

"Büllür kimi saf görünmək istəyən adamın arzusuna bizim heç bir etirazımız olmazdı, bu şərtlə ki, haman kəs cürət edib özünün baş

**tutmaz qəribə arzusuna görə əslində necə bir adam olduğunu, yəni hoqqabaz olduğunu boynuna alaydı".**

**Azərbaycanın qələm əhli içərisində qələm dəllalarına, söz pəhləvanlarına, iftira və böhtanla baş girləyən boşboğazlara Üzeyir bəy qədər layiqli cavab verən ikinci bir jurnalist və publisist tapmaq çətindir. Üzeyir bəy "məramı alver olan" qəzetlərə və jurnalistlərə nifrət edirdi. O göstərirdi ki, belə fitnəçilərin arxasında "cibinə hər saat təpələrdən yel kimi, dərələrdən sel kimi pul axan" qərəzkarlar durur. Digər tərəfdən, Üzeyir bəy də Həsən bəy Zərdabi kimi pul qazanmaq elminə yiyələnməyin vacibliyini xüsusi bir şəkildə vurğulayırdı.**

**Noyabr günlərində Üzeyir bəyin xatirəsini yad etmək üçün onun iki maraqlı hesab etdiyimiz yazısını oxuculara təqdim edirəm.**

## ORDAN-BURDAN
*(BOŞBOĞAZLAR)*

Bir az da öz işimizdən, daha doğrusu, öz içimizdən danışaq... Adam qəzetəni əlinə alıb açanda "müharibə"dən başqa bir şey görmür.

Hərçənd bu halda lap qızıl bir şey varsa, o da yenə elə "müharibə" xəbərləri, amma yenə də öz işimizi və öz içimizi yaddan çıxarmayalım.

Götürək, məsələn, bizim boşboğazlarımızı və buradan bir balaca haşiyə çıxaq.

Bu halda Yevropa adamlarının hansı biri ilə danışıq eləsən və hansı məsələyə əl vursan, baxıb görərsən ki, bu adamın hər bir məsələdə bir müəyyən nəzəri vardır. Amma bizlərdə öylə deyil.

Məsələn, Kərbəlayi Əliquluya deyirsən ki: Kərbəlayi Əliqulu, qatıq ağdır, Kərbəlayi Əliqulu deyir ki, doğrudur - ağdır. Bir də görürsən ki, boşboğazlarımızdan biri çıxdı və dedi: Xeyir, qatıq qaradır və onun ağlığı da məhz qaralığındadır! Kərbəlayi Əliqulu razı olub deyir ki, doğrudur, qatıq qaradır. Sonra bir ayrı boşboğaz çıxıb Kərbəlayi Əliqulunu inandırır ki, qatıq qırmızıdır - Kərbəlayi Əliqulu inanır... Deyirlər sarıdır, - inanır, ...yaşıldır, - inanır... Qərəz, Kərbəlayi Əliqulu olur bir yaş çubuq, - hara əyirsən, ora əyilir!

Bu nədən belə olur? Nə üçün Kərbəlayi Əliqulu ora-bura əyilir?

Bu ondan ötrü olur ki, Kərbəlayi Əliqulunun qatığın ağlığı barəsində nəzəri müəyyən etiqadı dürüst və imanı kamil deyildir. Kərbəlayi Əliqulu qatığın rəngindən bixəbərdir, odur ki, hər kəs hər nə deyir - ona qulaq asır və axırdan axıra yenə bilmir ki, qatıq nə rəngdədir.

Əlbəttə, Kərbəlayi Əliquludan murad-ümum cəmaətimizdir və qatıqdan da murad cəmaət işlərimizdir.

Bəli, insanın gərək nəinki bir din və ayin, bəlkə hər bir barədə dürüst bir etiqadı olsun. Amma bəşərtiha və bəşirutiha! (Bu şərtlə, bu xoşluqla ki,) etiqadı yaxşısına olsun, pis şey olmasın. Məsələn, deməsin ki, mənim etiqadıma görə oxuyub yazmaq haramdır və ya zərərdir. Biləks etiqad etsin ki, elm və mərifət ən vacib şeylərin böyüyüdür və hərgah boşboğazın birisi desə ki, oxuyub-yazmaq pis şeydir - cavab versin ki, xeyir, boş danışırsan!

Boşboğaz kimdir?

Boşboğaz - cəmaət işlərinə zərər vuran, bir para biməni (mənəviyyatsız) vücudlardır ki, özlərinin əllərindən heç bir şey gəlmir, bişüurdurlar, bivecdirlər və bununla belə həsuddur (həsəd aparan, paxıl), xain və xasirdirlər (yollarını azmışdırlar).

Sənətləri nədir?

Onu pisləmək, bunu pisləmək, bacarıqlı adamları söymək, iş görənlərə zərər yetirmək, fitnə salmaq, cəmaətimizin, yəni yaxşı ilə pis barəsində dürüst etiqadı olan cəmaətimizin borcu odur ki, haman müzür boşboğazları tapıb, ağızlarını açan kimi ağızlarına vursun, yol verməsin, qudurtmasın və bu yol ilə onların bazarını kasad edib, meydandan çıxartsın, qovsun... Amma bunun üçün yaxşıya və yamana etiqad lazımdır ki, boşboğazların fikri haman dəm aşkar olsun...

**FİLANKƏS**
**(Ü.Hacıbəyli)**
*"Yeni iqbal" qəzeti, 7 sentyabr 1915, N111*

## ORDAN-BURDAN

### *(ÖZ CİBLƏRİNİ BƏRK-BƏRK TUTUB, ÖZGƏNİN CİBİNİN HESABINI ÇƏKƏNLƏR)*

Məzəli-məzəli işlərimiz olur.

Kasıbı və fəqiri görəndə yazığımız gəlir, deyirik ki, ah, bu nə üçün belə fəqirdir? Dövlətlini və nahaq yol ilə bir pul qazananı görəndə acığımız tutur. Deyirik ki, bu, cibişdan üçün çalışır.

Bu biməzə olan "cibişdan" sözü boşboğazlarımızın ağzından düşməyən bir sözdür ki, yerli-yersiz işlətməkdədirlər.

Deyirlər ki:

"Filankəs "cibişdan" üçün çalışır!"

Onda bunlara demək gərək ki, bəs sən nə üçün çalışırsan? Hərgah sən pul qazanmaq üçün çalışırsansa, bəs nə yeyib, nə içirsən?

Hamımız bilirik ki, bu əyyamda pulsuz adam acından ölər. Heç kəs ona ömrü olalı müftə yerə çörək verməz.

İndiki sən pul qazananları pisləyirsən, görünür ki, sən özün pul qazanmırsan.

İndi ki, sən pul qazanmırsan, görünür ki, sən acından ölürsən.

İndi ki, sən pul qazanmırsan və acından ölmürsən, görünür ki, sənin ata-babandan qalma pulun var. Ata-babanın zəhməti ilə qazanılmış pulu biduni zəhmət (zəhmətsiz) yeyib, içib hələ pul qazananlara da, atan, babana da içində söyüş söyürsən.

Yalandan deyirlər ki: "cib" üçün çalışmaq lazım deyil. "Millət" üçün çalışmaq lazımdır. Bir adam ki, heç öz-özünü dolandıra bilməyə, o adam millətə qulluq edə bilərmi?

Bir adam ki, 5-6 nəfər külfətini saxlaya bilməyə, o adam bir böyük millətin qeydinə qala bilərmi?

Deyirlər ki:

"Cibişdan" üçün çalışma, millət üçün çalış!"

Bu boş və axmaq sözdür.

İnsan gərək həm özü üçün həm də ümum millət üçün çalışsın.

Əgər sən, əhli-əyalını ac qoyub, başqa işlərlə məşğul olsan, o halda sən millətə düşmənsən. Çünki sənin ac qalan əhli-əyalın da millət üzvləridir.

Amma oxucular elə bilməsinlər ki, doğrudan da boşboğazlar öz mənfəətlərini qoyub, tək millət üçün qulluq edirlər və sairlərini bu işə çağırırlar.

Xeyir a! O qədər də bilmə!

Boşboğazlar öz ciblərini bərk-bərk tutub, özgənin cibinin hesabını çəkirlər ki, bu nə qədər pul qazanır və onun nə qədər prosenti eyləyir.

Özü hər məqamda və hər anda xalqı haqq-nahaq söyür, alladır, tovluyur, amma xalqın halal pulundan "millətə" pay istəyir.

Bu genə axmaq adamlar millət düşmənidirlər. Onların zərərdən başqa heç bir xeyiri ola bilməz.

Millətimizin onlara bir sözü ola bilər:

"Mərabə xeyri to ümmid niski, şərr mərasan".

(Xeyrinə ümidim yoxdur, ancaq şər yetirmə mənə).

**FİLANKƏS**

*(Ü.HACIBƏYLİ)*

*"Yeni iqbal" qəzeti, 8 sentyabr 1915, N112.*

**"Günay" qəzeti, N44, 2 noyabr 2002**

# BİZDƏN UZAQLAŞAN İLLƏR, HADİSƏLƏR

Yola saldığımız 20-ci yüzilliyin tarixə həkk olunmuş hadisələri sırasında Rusiyada 85 il bundan əvvəl baş vermiş fevral inqilabı və oktyabr bolşevik silahlı çevrilişi xüsusi yer tutur. Rusiya xalqlarının, hətta bəşəriyyətin taleyi və inkişaf prosesinə ciddi təsir göstərən bu hadisələr haqqında həm keçmiş SSRİ-də, həm də onun xaricində minlər, onminlərcə müxtəlif istiqamətli, qayəli əsərlər yazılmış, işıq üzü görmüşdür. 70 il ərzində biz də oktyabr çevrilişini bayram etmiş, noyabrın 7-də ciddi nizam-intizamla təşkil olunmuş nümayişlərin, şənliklərin iştirakçısı olmuşuq.

1917-ci ildə oktyabrdan qabaq fevral inqilabı baş verdi. 302 il hökm sürmüş Romanovların səltənəti iflasa uğradı. Rusiya respublika elan edildi. 1917-ci il martın 5-də M.Ə.Rəsulzadə bu münasibətlə "Açıq söz" qəzetində dərc olunmuş "Böyük inqilab" sərlövhəli baş məqaləsində yazırdı: "Əmsalı tarixlərdə görünməyən aləmşümul müharibəsinin ən müşkül bir zamanında dünyanın ən böyük bir hadisəsi, Rusiya inqilabı vaqe oldu. Müharib və mübariz milləti iflic bir hala qoyan köhnə rus istibdadı yıxıldı. Neçə gündən bəri Petroqraddan alınan xəbərlər qaranlıq siyasət gecəsinin sübh hürriyyətilə açıldığını bildirdi".

M.Ə.Rəsulzadə inqilabın "son türk üsulu ilə icra olunduğunu" qeyd edir və məqaləsini "Yaşasın təzə və azad Rusiya! Var olsun millətlərin bərabərliyi!" sözləri ilə bitirirdi.

1917-ci ilin fevral-oktaybr ayları ərzində Rusiyada, o cümlədən Zaqafqaziya və Azərbaycanda cərəyan edən hadisələri obyektiv, elmi cəhətdən doğru və düzgün əks etdirən əsərlərə rast gəlmək çətindir. Məlum ideoloji çərçivə buna imkan da verməmişdir. Lakin xoşbəxtlikdən həmin dövrün ruhunu, cərəyan edən hadisələrin salnaməsini, müxtəlif yönlü qüvvələrin fikir, düşüncə və əməllərini özündə hifz edib saxlayan mətbuat orqanları saxlanılmaqdadır. Bunları tarix və zaman baxımından nəzərdən keçirmək faydalıdır. Bu, bu vaxta qədər qərəz və saxtakarlıqla yazılmış və indi də bir sıra hallarda təkrar olunan stereotiplərdən can qurtarmaq üçün də vacibdir.

Çar üsulu-idarəsinin devrilməsini Azərbaycanın ictimai-siyasi səhnəsində fəaliyyət göstərən, açıq fəaliyyət imkanı qazanmış partiya və təşkilatlar, milli qurumlar bütövlükdə rəğbətlə qarşılamışdılar. Əlbəttə, padşahsız, çarsız, general-qubernatorsuz yaşamağın çətinliyini hiss edən dairələr də vardı. Sənaye və iri ticarət şəhəri Bakıda Rusiyanın

və Azərbaycanın gələcəyilə bağlı təşviş keçirən, ümidlər bəsləyən, açıq və gizli planlar üzərində düşünənlər də az deyildi. Əvvəllər meydanda həlledici sözə malik olan monarxistlər və onların tərəfdarları gözlərini Petroqrada, ordakı hakimiyyət davasına dikmişdilər. Rusiya hansı inkişaf yolunu, dövlət quruculuğu sistemini seçəcək? İmperiyanın taleyi necə olacaq? Məlumdur ki, uzun müddətdir ki, Rusiya və Avropa çox vaxt qarşı-qarşıya dururdu. Çünki onlar, rus tarixçilərinin də yazdıqları kimi siyasi, dini, milli məişət və xarakter cəhətdən prinsipial olaraq fərqlənən iki dünyanı təmsil edirdilər. Vaxtilə N.M.Karamzin "Qədim və yeni Rusiya haqqında" kitabında yazırdı: "Biz İngiltərədə yaşamırıq, əsrlər boyu biz hakim deyəndə monarxı, ən ali nizamnamə deyəndə monarxın xoş məramını başa düşmüşük. Rusiyada hökmdar - canlı qanundur: o, xeyirxah adamlara rəhm edir, pislik edənləri cəzalandırır və sonuncuları qorxudaraq birincilərin sevgisini qazanır".

Azərbaycanın demokratik düşüncəli siyasi xadimləri Rusiyanın "Rusiyada canlı qanun - hakim şəxsdir" - bəlasından qurtarması, həqiqi xalq cümhuriyyəti dövlət sisteminin bərqərar olması yolunu seçməsini arzu edir, bu yolda təbliğat aparır, fəaliyyət göstərirdilər."Açıq söz" qəzeti yazırdı: "Biz gərək istibdadlar üsul-idarəsini xalqın başından çıxaraq, onu öyrədək, ona tərbiyə verək, hüququnu düşündürək ki, təzə üsul ilə bütün işlərini apara bilsin. Bu da inqilabın tələbidir."

Oktyabr cevrilişinə qədər Ayərbaycan müsavatçıları da millətlərin bərabərliyi- milli muxtariyyət şüarını irəli sürürdülər. Lakin onların hətta bu mötədil siyasi xətti bolşevik-erməni - rus və yerli "hümmətçilərin ciddi müqavimətinə rast gəlirdi. Yaxşı silahlanmış, yeri gəldikcə Şaumyan və digər erməni başçılarıyla sövdələşən daşnaklar isə yaranmış ikihakimiyyətlilik və hərc-mərclikdən istifadə edərək diyarın müxtəlif bölgələrində azəri türklərinə qarşı qətliama başlamışdılar. "Hümmət" qəzetinin 1917-ci ilin oktyabrın 3-ü tarixli 14-cü nömrəsində "Qarabağ Ovzai (vəziyyəti)" sərlövhəli məqaləsində deyilir: "Hürriyyət elan olduğu gündən az bir müddət keçər-keçməz bu ana kimi Qarabağ səfhəti ki, ibarət olsun: Zəngəzur, Qarabağın Şuşa, Cavanşir uyezdlərindən bir parça qan dəryasına, daha doğrusu Avropa meydanı - müharibəsinə dönmüşdür."

"Hümmət" qəzeti milli istiqlal mübarizəsini ön plana çəkən müsavatçıları ittiham edərək 1917-ci ilin noyabr nömrələrindən birində yazırdı: "İndi isə adlarını "millətçi" qoyan ağalar bütün camaatin, millətin dilindən danışmaq istəyirlər. Bu cənablar -müsavatçılar Müstəqil türk yurdunu meydana gətirmək istəyirlər. Bu cənablar milli bir "qəzetə"nin

başında oturub bu qəzetəyə ruh verirlər..."

Buna qarşı qəzetlərdə digər istiqamətli informasiya və şərhlər də vardı: millətlərin mərkəzdən uzaqlaşmaları müşahidə olunmaqdadır. Burada Finlandiya özünü cümhuriyyət elan edir, Ukrayna milli hökuməti nüfuzunu artırır. Polşa Rusiya himayəsindən kənar olub istiqlala və istiqbala çatdı. Ədil boyu müsəlmanları toplaşıb milli mədəni muxtariyyət tələb etdi. Tiflisdə Gürcüstan üçün imtiyazlar almağa çalışırlar. Ermənilər isə elan etdilər ki, onlar hələ milli məsələni qalxızmayacaqlar. Çünki vaxt deyildir. Ara qarışıq və pozğundur. Əslində isə məzkurların dəstəvüzü özgədir. Müharibənin aqibətinə bağlıdır.

Müsəlman xalqının hərəkətinə gəldikdə görürsünüz ki, Türküstanda və Qafqazda hərənin ağzından bir avaz gəlir. Bir şüar yoxdur ki, o xalqı başına yığsın... Bəziləri mədəni muxtariyyətdən, qeyriləri federasiyadan, üçüncü heç bir şeydən dəm vururlar.

"Hümmət" isə deyir ki, bu gün bizim nicatımız Rusiya sosial-demokrat fəhlə firqəsinin milliyyət təşxisi (tanınması) tələbini vücuda gətirməkdir.

1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə Petroqradda baş verən hadisələr barədə xəbər oktyabrın 26-da (noyabrın 8-də) Bakıya çatdı. "Bakinski raboçi" qəzeti "Perevorot v Peterburqe. Vlast pereşla k Sovetu" ("Peterburqda çevriliş. Hakimiyyət sovetlərin əlinə keçmişdir") sərlövhəli, "Hümmət" "Petroqradda hadisatın gedişi" yazıları ilə Petroqrad və Rusiyanın digər iri şəhərlərində baş vermiş çevrilişlər haqqında geniş informasiyanı oxuculara çatdırdılar.

Oktyabr çevrilişilə Rusiya tarixinin bolşevik-kommunist diktaturası dövrü başladı. Dünyanı bolşevikləşdirmək, sosializm və kommunizm xulyasını həyata keçirmək, kapitalist, mülkədar, qolçomaq və onların yetişdirdiyi ziyalıları kütləvi surətdə məhv etmək planı həyata keçirilməyə başladı. Çarları baş katiblər əvəz etdi. Lakin bir partiyanın, bir ideologiyanın, bir mülkiyyət formasının diktaturası tarixi baxımdan uzun müddət sürmədi. Bizlər bu hadisələrin canlı şahidləri olmuşuq.

Rusiyanın, Sovetlər birliyinin dağılması ilə yaranmış müstəqil dövlətlərin xalqları, vətəndaşları keçən uzun illərin ağrıları və acılarını yaşamağa məhkum olmuşlar. Rus yazıçısı Yuri Polyakov haqlı olaraq yazırdı ki, "Salamat qalma uğrunda mübarizə artıq sosial ədalət iştahası üzərində cəmləşməyə imkan vermir. Kütləvi informasiya vasitələrində yeni yaranmaqda olan sinfin nümayəndələrinə və onların varlanma üsullarına mənəvi qiymət verən yazılar, demək olar ki, yoxdur. Qələm və mikrofon cəngavərləri cəmiyyətdə belə bir inam yaratmaq

üçün mümkün olan və olmayan hər şeyi ediblər ki, guya varlıların və dilənçilərin sayının eyni vaxtda artması bir-birindən əsla asılı olmayan iki müxtəlif prosesdir. Jurnalistika iyrənc Rusiya kapitalizminin mamaçasına çevrilmişdir".

1919-cu ildə Üzeyirbəy Hacıbəyli oktyabrdan sonra müstəqilliyinə qovuşmuş Azərbaycan xalq cümhuriyyəti dövləti və xalqı qarşısında duran vəzifələri "Azərbaycan" qəzetində belə şərh edirdi: "Bugünkü vəzifəmiz Rusiya işlərinə kənardan baxmaq və Rusiya daxilində vaqe olan hadisələrə qarşı bitərəf qalmaqla bərabər, oradan bizi təhdid edən təhlükələrdən özümüzü qorumaqdır. Yeni cümhuriyyətlərdən Azərbaycan olsun, Gürcüstan olsun, Ukrayna, Litva, Estoniya, Finlandiya, qərəz, özgə bir məqsəd təqib edən Ermənistandan başqa, bütün hamısının fikri ancaq budur. Rusiya işlərinə qarışmamaq və Rusiya təhlükəsindən qorunmaq... istiqlalımızı mühafizə etmək!...

83 il bundan əvvəl yazılmış bu müdrik sözlərə nəsə əlavə etməyə ehtiyac yoxdur. Mən belə düşünürəm.

**"Günay", N45, şənbə, 9 noyabr 2002**

## NƏYİMİZİN VAXTIDIR?

**Dünyanın digər sivilizasiyalı xalqları kimi bizim də ümummilli sevincli, fəxarətli günlərimizlə yanaşı kədərli anma, yaddaş günlərimiz də vardır. Noyabrın 23-ü belə günlərdən biridir. 54 il bundan əvvəl 1948- ci il noyabrın 23-də sözün həqiqi mənasında böyük vətənpərvər insan, dahi bəstəkar, qüdrətli qələm və düşüncə sahibi, milli istiqlal mücahidi Üzeyir bəy Hacıbəyli dünyasını dəyişdi, əbədiyyətə qovuşdu. Lakin Üzeyir bəyin ecazkar musiqisi, zəngin fikir dünyası, ədəbi, ictimai-siyasi və publisistik irsi ölməzdir, daimyaşar gücünə, qüdrətinə malikdir. Onu yaşatmaq, hifz etmək, qorumaq, yeni-yeni açılmamış qatlarını araşdırıb üzə çıxarmaq, nəsildən-nəslə vermək bizim borcumuzdur. Bu sahədə hər nəslin tarixi bir hökmlülüyü, mən deyərdim milli məsuliyyəti var. Bu sahədə görülmüş işləri çox yüksək qiymətləndirməklə yanaşı, görüləcək işlərə də diqqət yetirmək vacibdir. Məlumdur ki, Üzeyir bəyin musiqi yaradıcılığı geniş tədqiq olunub. Bu yaradıcılığın dərin məfkurə, fəlsəfi, ictimai-siyasi qat-**

ları isə lazımınca, tarixi həqiqətlərə uyğun tərzdə öyrənilib sistemli şəkildə üzə çıxarılmayıb. Doğrudur, son illər Üzeyir ensiklopediyası hazırlanıb nəşr olunmuşdur. Bir cildlik bu nəşr əvvəlki sovet dövrü nəşrlərinə nisbətən fərqlidir. Bu yaxşıdır. Lakin bizcə hazırda hər şeydən əvvəl Üzeyir bəyin əsərlərinin tam külliyyatı toplanıb nəşr olunmalıdır. Məlumdur ki, vaxtilə Üzeyir bəyin əsərlərinin 10 cildinin buraxılması planlaşdırılmışdı. Lakin cəmisi 4 cild işıq üzü görmüşdür. 1968-ci ildə buraxılan 4-cü cild 1915-ci ilin oktyabrın 6-dək olan dövrü əhatə edir. Onun ən mühüm - 1916-1920-ci illərdə yazdığı əsərlərin çoxu yenidən işıq üzü görməmişdir. Yeganə istisna Aslan Kənanın 1995-ci ildə nəşr etdirdiyi "Fitnələr qarşısında" kitabıdır. Bu da Üzeyir bəyin 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc olunmuş yazılarının bir qismidir, tam deyil. Əlbəttə, bu təşəbbüsü alqışlamaq lazımdır. Bəs sonra? Üzeyir bəyin əsərlərinin yeni əlifba ilə tam külliyyatının hazırlanması və nəşri işinə başlamaq vaxtı deyilmi? Üzeyir bəyin bir cildlik ensiklopediyası ana dilində çıxıb, rus və digər dillərdə nəşrinə ehtiyac yoxdurmu? Elə əsərlərinin tam külliyyatını da ən azı 2-3 dildə nəşr etmək məqsədə uyğun olmazdımı?

Mənim bu gün oxuculara təqdim etdiyim, onun əsərləri toplusuna daxil edilməmiş "Nəyimizin vaxtıdır?" sərlövhəli çox böyük dəyər və misilsiz qiymət kəsb edən analitik məqaləsini Üzeyir bəy belə yekunlaşdırırdı: "Hal-hazırda əsl bunun vaxtıdır ki, biz əvvəlcə öz-özümüzə məhəl qoyaq, millətimizin qədrini bilək, müsəlman millətinin içini və çölünü o cürə düzəldək ki, biz də bir millət olub millətlər arasına girməyə layiq olaq. Ehtiyacımızın tək-tük ağızlardan deyil, bəlkə ümumi millət ağzından çıxan bir səs olduğuna və bu səsə də rus camaatı, rus mətbuatı və Dövlət Dumasının tərəqqipərvər vəkilləri ağzından da səs verilib kömək edilməsinə və qonşu millətlər tərəfindən də haqlı görülməsinə yol göstərən şərait ilə dolanmaq xüsusunda danışmağımızın və çalışmağımızın vaxtıdır!..

Üzeyir bəyin də daxil olduğu istiqlalçı, namus və qeyrətli vətən oğulları məhz bu yolla gedərək milli dövlətçiliyimizin 1918-ci il mayın 28-də bərpasına nail oldular, onu dünyaya tanıtdılar. İndi biz onların varisləri deyilikmi?

..."Nəyimizin vaxtıdır?" sualı bizim üçün də aktualdır. Üzeyir bəy yazan, düşünən mənada aktualdır.

## NƏYİMİZİN VAXTIDIR?

Sədri əfəndi Maqsudovun müsəlman qəzetələrində görünməkdə olan "Ən mühüm diləklərimiz" ünvanlı siyahısı (yazısı) və Faiq Əfəndinin "Açıq söz" rəfiqimizdə hərdəm görünməkdə olan "Milli ehtiyaclarımızın vaxtımı?" sərlövhəli məqalələri Rusiya müsəlmanları əhval və məişətinin yaxşılanması məqsədini təqib edən və yollarını göstərən mühüm yazılar olduğu şübhəsizdir.

Bu məqalələri oxuduqda "Həyat", "İrşad" və "Tərəqqi" qəzetələri zamanı yadıma düşür. O vaxt dəxi ehtiyaclarımız xüsusunda bir çox şeylər yazılıb və bir çox yollar da göstərilmişdi. İçəri Rusiya müsəlman qəzetələri dəxi bu sədalara səs verib, qəzetə danışıqlarının axırı bir neçə ümumi syezd və ictimalara müncər oldu. Böylə ümumi ictimanın axırıncısı 1913-cü ildə Petroqradda vaqe oldu ki, orada içəri Rusiya və Qafqaz müsəlmanları nümayəndələrinin iştirakı ilə ictima əmələ gəlib şüğlunun (məşğuliyyətinin) bir çoxu ruhani işlərimizin islahı xüsusunda idi.Bu ictimanın qərardadları və müəyyən maddələri Rusiya müsəlman qəzetələrində və Qafqazda isə məəttəəssüf yalnız bir "Kaspi" qəzetəsində müxtəsər də olsa yazıldı. İndiki qəzetə danışıqlarının dəxi axırı bir ictimaya müncər olmaq meyli və ehtimalı vardır. Hətta Faiq Əfəndi bir ictima yığılmaq lüzumunu açıqcasına yazmışdı da.

İşə əsasca baxılsa, hər bir ictima yaxşı şeydir. Başbilənlərin bir yerə yığılıb danışması, ehtiyaclarımıza baxılması, yolları aranması lazım və vacibdir. İndiyə qədər vaqe olmuş ümummüsəlman ictimalarının gözə görünən və işə yaradılan nəticələri olmuyubdursa da, mənəvi əhəmiyyəti olubdur, indi də yenə istər ümumi Rusiya müsəlmanları, istər xüsusi Qafqaz müsəlmanları ictiması vaqe olursa, bunun nəticəsində bizə yenə mənəvi bir mənfəət olacağı şübhəsizdir. Lakin ictimadakı qövlün-felə (sözün işə) qoyulub da gözə görünən və icrası əmələ gələn nəticələri olacaqdırmı? - deyə suala, zənnimcə, heç kəs qəti surətdə "hə" deyə bilməz.

Böylə olan surətdə təkrarən deyilmiş ehtiyaclarımızı bir də təkrar edib də ağızda çeynəməkdənsə və ictima qurub yenə təzədən ehtiyacları kağız üzərində yazıb dağılmaqdansa, bu milli ehtiyaclarımızın və milli məsələlərimizin bundan belə deyil bir quru danışılmaq, bəlkə felən (işdə) rəf və dəfini və həllini təmin edə biləcək yollar xüsusunda danışıb və ictimalar qurmağımız daha münasib deyilmi? Və bundan sonra məhz bu yolların aranılmasının vaxtı deyilmi? Qəzetə vasitəsi-

lə danışmaq yenə danışılmağında qalır. İctimai qurmaq yenə qurulmasında qalır. Ancaq "tema" dəyişilir. Yəni qəzetə və ictima söhbətinin zəmin və mövzusu daha milli ehtiyaclarımız və məsailimiz (məsələlərimiz) olmayıb, bəlkə bu ehtiyac və məsailimizin keçirilmək və hüsulə gətirilmək yolları söhbətinə dəyişir. Bu gün o söhbətin ibtidası, mənim zənnimcə 1) biz 30 milyonluq Rusiya müsəlmanlarının bu böyük məmləkətdəki öz hal və mövqeyimizdən və 2) siyasi firqələr cərgəsində tutmuş olduğumuz məqamdan başlanmalıdır.

1) Məmləkətdəki hal və mövqeyimiz böylə bir surətdədir ki, Rusiya millətləri arasında ədəd və çoxluqca ikinci bir dərəcədə olduğumuz halda, hər kəs nərəyə baxsa gərək bizi görsün və hiss etsin. Əvəzində gözə görünəcək və hiss ediləcək bir halda deyilik. Rusiyada yaşayan yəhudilər nə qədər dağınıq və nə qədər pərişan olsalar da, yenə də onları Rusiyada həmişə görüb və həmişə vücudlarını hiss etməkdədirlər. Yəhudi millətinin əfradı nə qədər dağınıq olsalar da, yenə də yəhudi millətində müəyyən bir yəhudilik siması var ki, hər əfradının tərzi-hərəkətindən, fikrindən, amal və arzusundan məlumdur. Və bu sadaladığım şeylər hər bir yəhudidə bir qayda və bir yoldadır. Bir yəhudinin tərzi-hərəkəti, fikri, amal və arzusu bütün yəhudi millətinin tərzi-hərəkəti, fikri, amal və arzusudur. Həmçinin polyaklar, həmçinin ermənilər, həmçinin bu axır vaxtlarda gürcülər dəxi haman müəyyən surəl və simaya haiz olduqları halda, biz heç bir yerdə bir-birimizə uyğun gəlmirik. Hərəmizin fikri başqa, hərəmizin amal və arzusu varsa başqa, tərzi-hərəkətimiz başqa-başqa.

Bu səbəbdəndir ki, ümumi camaat və dövlət işlərindəki əməllərimiz dəxi pərişanlıq üzündən calibi - diqqət deyildir. İçimizdəki pərişanlıq bir dərəcəyə çatıbdır ki, hətta əlimizdə olan hüquq və ixtiyaratdan dəxi layiqilə istifadə etməyə həvəsimiz olmayıb, bu üzdən hətta bəzi vaxt elə də olur ki, o hüquq və ixtiyaratdan mənfəət almaq əvəzində özümüzə zərər də vururuq. Və bu da bizi heç açındırmayır da! Çünki ruhsuz, həvəssiz, laqeyd, Avropa təbirilə "apatiçni" olmuşuq. İctimai və siyasi işlərə qarşı göstərməkdə olduğumuz bu "apatiya" və qeydsizlik bizim hər bir sinfimizdə mövcuddur. Xass (imtiyazlı), avam, oxumuş, oxumamış, ümumiyyətlə hamısı bu "apatiya" dərdinə mübtəladır. Doğrudur, bəzi vaxt olur ki, qaranlıq içində bir balaca işıq zühuru görünən kimi bizim içimizdə dəxi milli və ictimai işlərə qarşı bəzilərimizdə bir həvəs əlaməti görünür. zühur edib də tez sönən kimi, bizim bu həvəsimiz dəxi tez yatıb yenə qeydsizlik zülməti içində yox olur.

"Müsəlmanların heç bir şeyə meyl və həvəsləri yoxdur, heç bir şey

veclərinə deyildir" - cümlələri rusların və qonşu millətlərin bizim haqqımızdakı nəzər və etiqadlarını bildirir. Bu "heç bir şey"dən ibarət ictimai və milli işlərdir. Əlbəttə, öz şəxsi işlərimizə və şəxsi mənafelərimizə aid işlərə həvəsimiz çoxdur, öz dolanacağımızı və güzəranımızı yaxşı keçirmək üçün çalışmq və bunu da mən töhmət və məzəmmət yolu ilə demirəm. Çünki hər kəsin öz şəxsi rifah halı üçün çalışması təbiidir. Lakin bunda da bizim ancaq o cürə işlərə meyl və həvəsimiz olur ki, şəxsi mənafeyimizə doğrudan-doğruya dəxil və əlaqəsi vardır. Dərd burasıdır ki, ümumi və ictimai və milli işlərin də hər birimizin xüsusi mənafeyimizə kənar yol ilə dəxli və əlaqəsi olduğunu başa düşə bilməyirik və ona görə də o işlərə meyl və həvəs etməyirik və laqeydanə baxırıq.

Dəlil üçün, iştirak və icrasına haqq və ixtiyarımız olan ümumi ictimai və milli işlərimizi bir-bir sadalayıb bu işlərdə göstərdiyimiz süstlük və qeydsizliklərimizi müxtəsər bir surətdə meydana qoymağa məcburam.

Məsələn ictimai işlərdən birisi və ən ümdəsi seçki işidir.

Heç görünübdürmü ki, müsəlmanı olan bir şəhərdə Dum seçkisi mərhələsi müsəlman camaatını maraqlandırıb qızğın danışıqlara, mübahisələrə, yığıncaqlara səbəb olub, camaatı qaynaşdıra, bir hərəkət verə, bir həyəcan sala? Heç vaxt! Hətta Bakı kimi bir müsəlman şəhərində Dum qlasnılarının yarısı müsəlman olmaq ixtiyarı bizdə ola-ola və şəhərimizdən qırxa qədər qlasnı seçmək haqqına malik olduğumuz halda bu hüquq və ixtiyaratdan layiqilə istifadə edib bəhrimənd olmağa da həvəsimiz olmuyor. Qlasnı seçkisi Bakı müsəlman camaatını deyil, bəlkə qlasnı olmaq və "qlasnısı" olmaqla öz xüsusi mənafeyinə doğrudan-doğruya qulluq edən işlər ilə əlaqəsi olan beş-altı nəfəri seçkidə qızışmağa vadar ediyor. Ümumcamaatın isə bu işdəki əlaqə və münasibəti ölçüsünü bu iki söz bildirir: "mənə nə!" Bu söz deyil, bir avam camaatın, bəlkə ziyalı intelligentlərimizin dəxi gözəl ağzından çıxan "qəşəng" sözlərdir. Bir tərəfdən qlasnı seçkisi qaydalarının məhdud şəraiti, bir tərəfdən də müsəlman camaatının bu qeydsizliyi müsəlmanlardan o cürə qlasnılar seçilməsinə səbəb olur ki, onların Dum iclaslarında olub-olmamaları iclasda qoyulan qərardadlara heç də əsər eləmiyor. Buna görə də şəhərin müsəlman camaatının qırxa qədər qlasnısı olmaqla bərabər, yenə qlasnısızlıq hiss edilir. Yəni müsəlman qlasnıları ya iclasa çox vaxt gəlməməklə və ya gəlib də müzakirə edilən məsələlərə məhəlgüzar olmaqla bir çox işlərin ümum müsəlman camaatına və yaxud Dum qulluqlarında əlaqədar olan tək-tək

adamlarına zərərli bir surətdə icrasına səbəb olurlar. Bizim qlasnıların səhv və xətalarını və səhlənkarlıqlarını keçmiş illərdən bəri yada salmaq uzun işdir. Bu keçən aylarda canişin həzrətləri yanındakı şuraya Bakıdan bir nəfər də olsun müsəlman seçilmədiyinə və Dum seçkilərinin bu il nə səbəbə görə isə təxir edilməsi məsələsinin Dumdan keçirilməsinə səbəb olanlar məhz müsəlman qlasnıları olduğunu da işarə etsək, kifayətdir. Böylə hal tək bir Bakıda deyil, Qafqazın sair şəhərlərində də belədir. Bunu da bizim ziyalılarımız, intelligentlərimiz, görə-görə və bilə-bilə, bu cürə mühüm bir işə diqqət yetirməyib laqeyd baxırlar. Bu qlasnılara yol göstərmək və rəhbər olmaq işi heç bir kəsin fikrinə də gəlmir. Hələ Tiflis kimi o qədər böyük bir şəhərdə bir o qədər müsəlman ola-ola indiyə qədər bir nəfər də olsun müsəlman qlasnısı yoxdur. Bu il orada müsəlmanlardan da qlasnı seçilmək məsələsi qalxdısa da, bu da xeyirxah qonşumuz gürcülərin fikri ilə əmələ gəldiyi şübhəsizdir.

Yenə şəhər Dumuna qlasnı seçkisində şəhərin ümum müsəlman camaatı laqeyd qalırsa da, bu işdə şəxsi mənafe ilə əlaqədar olan 5-6 nəfər müsəlmanın cünbüşü və hərəkəti müşahidə olunur. Dövlət Dumasına vəkil və məbus seçmək işi isə bundan da isfənak bir haldadır. Dövlət Dumasının şəxsi mənafeyə doğrudan-doğruya əlaqəsi yoxdur, camaatımız da yuxarıda dediyimiz üzrə - mənafeyi-şəxsiyyələrinə kənar yol ilə əlaqəsi olan ictimai işlərin əhəmiyyətini başa düşmüyorlar. Odur ki, Dövlət Duması kimi o qədər ali bir müəssisə müsəlman camaatı yanında əhəmiyyətsiz bir şeydir. Dövlət Dumasının bir o qədər böyük olan məna və əhəmiyyətini avam qismimiz anlamıyor. Bu məna və əhəmiyyəti avamlara qandırmaq lazım olduğunu da ziyalı və oxumuşlarımız anlamaq istəmiyorlar. Görünür, ki, özləri də bu işə bir o qədər əhəmiyyət vermiyorlar. Odur ki, Dövlət Dumasına müsəlmanlardan hər kəs deputat olacaqsa-olsun, təfavüt yoxdur. Təki bir adam getsin! Əvvəlinci Dumada Əlimərdan bəy Topçubaşovun və bu dördüncüdə də Məhəmməd Yusif Cəfərov cənablarının iş bilən, iş görən və çalışqan olduqlarını inkar etmək olmaz. Lakin siz elə güman etməyin ki, bu adamları, haman o safi (təmiz) haiz olduqları üçün müsəlman camaatı layiq bilib məbusluğa intixab etdi! Bu seçkilərin səbəbi başqa mülahizələr idiki, Dövlət Dumasına layiqli adam seçmək arzusuna heç bir dəxli yox idi. Bunların seçildikdən sonra layiqli məbus olmaları təsadüfi bir işdir.

Bu gün Qafqaz üçün zemstvo istənilir. Hökumət dəxi Qafqaza zemstvo verməyə maildir. İctimai müəssisə və idarəxanələrə nüma-

yəndə seçmək işlərinə bu cürə qeydsizliyimiz də baqi qalacaq isə, zemstvo olanda da oraya seçdiyimiz adamların Duma qlasnılarından yaxşı olmayacaqları şübhəsizdir.

Hələ ictimai və ümumi müəssisə və idarəxanələr kənarda dursun, milli cəmiyyətlərimizə adam seçməkdə də yenə səhlənkarlıq edib və qeydsizlik göstərib elə adam seçə bilmirik ki, bunların iş görmələri və fəaliyyəti sayəsində cəmiyyət işlərinin gözə görünən və mənfəəti aşkar olan bir nəticəsi olsun və yainki bir kərə başlanmış olan iş axırına yetirilsin və ya davamı lazım isə davam edilsin...

Bəs seçki kimi o qədər mühüm olan ictimai bir işə süstlük və qeydsizlik ilə baxmamız desəm ki, tək bir Qafqaz müsəlmanları arasında olmayıb içəri Rusiya müsəlmanları arasında dəxi belədir, xəta olmaq zənn edirəm, oralarda da süstlük və qeydsizlik nəticəsi olaraq dum və zemstvolara layiqsiz adamlar seçilməklə müsəlmanlar mənafeyinə aid məsələlərin keçirilmədiyi fəqərəsi qəzetlərdə hər dəm görülməkdədir. Hələ Dövlət Dumasına "seçilmiş" olan məbuslarımız arasında bir nəfəri var ki, heç rusca bilmiyor...

***ÜZEYİR "Yeni İqbal" N-185,***
***17 dekabr 1915.***

**"Günay" 46, şənbə, 16 noyabr 2002**

## NƏYİMİZİN VAXTIDIR?

*(əvvəli keçən nömrədə)*

Ümumi ictimai işlərdə öz seçdiyimiz adamlar vasitəsilə iştirakə ixtiyarımız olduğu halda, bu ixtiyardan lazımınca mənfəətbərdar olmadığımızı birinci məqaləmizdə bəyan etdik.

Milli işlərimizə gəlincə burada dəxi tərzi hərəkətimiz laqeydanə bir surətdə olub bu cürə işlərin icrası üçün bizə verilmiş olan ixtiyarlardan dəxi layiq dərəcədə istifadəyə qadir ola bilmirik.

Qafqaz müsəlmanlarının milli mətbuatı olmaq, milli məktəblər açmaq, milli cəmiyyətlər qurmaq kimi millət tərəqqi və təalisinə xidmət edən işlərə mübaşir olmaq ixtiyarı verildiyi 10 ildən artıqdır - Deyə bilərik ki, biz bu ixtiyardan istifadə edib də öz dilimizdə qəzetələr nəşrinə başlamışıq. Milli məktəblər açmışıq və milli cəmiyyətlər qurmuşuq. Amma burası var ki, biz bu işlərin hamısını "qızışmış" vaxtımızda etmişik, yəni 1905 və 1906 illərində, Rusiyanın "tazələnməsi" gurultularından mütəəssir olmaya bilməyib, biz də bir əsəri-həyat göstərmək arzusu ilə ictimai və milli işlərə mübaşir olmuşuq: "Həyat", "İrşad" və "Tərəqqi" kimi böyük və ciddi qəzetələr nəşr etmişik. "Molla Nəsrəddin" kimi jurnal çıxartmışıq. "Nicat", "Nəşri-maarifu", "Səfa" və "Cəmiyyəti-xeyriyyə" adlı maarif və xeyriyyə cəmiyyətləri qurmuşuq. "Səadət", "Nur" və "Mədrəseyi-ruhani" kimi milli məktəblər açmışıq və bu işlər hamısı millətimizin ziyalıları, intelligentləri, müəllimləri və ümum başbilənləri iştirakı ilə icra edilibdir.

İndi bu 10 ilin ərzində bu milli təşəbbüslərimizdən Qafqaz müsəlmanları tərəqqi və təkamül yolunda bol-bol mənfəətlər görməli idilər. Bu tərəqqi və təkamül mənbələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb cəhalət qaranlığının ən uzaq guşələrini də işıqlandırmağa başlamalı idi. Halbuki əksini görürük: işıq dairəsi ildən-ilə daralıb sönməyə maildir və bu sayaq ilə qalarsa bir gün dəxi sönəcəyi aşkardır.

Əvvəllərdə həvəs ilə işə girişmiş olan başbilən ziyalı və intelligentlərimiz nədəsə yavaş-yavaş camaat işlərindən çəkilməyə və boyun qaçırmağa başladılar. Milli qəzetə ilə müsəlman inteligentləri, arasında, əvvəlcə bağlanmış olan əlaqə, get-gedə azalıb axırda lap kəsilmişdir. Bu gün müsəlman ziyalıları ilə müsəlman mətbuatı arasında heç bir əlaqə yoxdur. Müsəlman intelligentlərinin oxuduqları qəzetə rus qəzetələridir. Bu barədə bir yerdə söz düşəndə intelligentlərdən bəziləri müsəlmanca bisavad olduqlarını, bəziləri "əxbaratın" rus qə-

zetlərində bir gün əvvəl çıxdığını, bir parası da müsəlman qəzetəsi "avtaritetni" adamlar əlində olmamasını, bir yarısı da müsəlman qəzetələrinin dili çətin olduğunu bəhanə gətirib mətbuatımızdan bixəbər olduqlarını bu yolla səbəblər ilə bəyan edirlər. İntelligentlərimizdən bir parasının müsəlmanca bisavad olmaları vaqeən təəssüf ediləcək bir haldır. Bu ziyalılar haman o zamanənin övladıdır ki, o vaxtlar müsəlman dili bilməməklik böyük bir fəxr və "təşəxxüs" hesab olunurdu!

Lakin müsəlmanca bisavad olan intelligentdə savad olmasa da milli şövq və həvəs olsa, millət qeydinə qalmaq, millətini mütərəqqi və mütəməddin bir hala salmaq arzusu olsa, haman bu tərəqqi və təməddün nişanəsi olan milli mətbuatda iştiraka özünü məcbur bilər və müsəlmanca bisavad olmağı da bu yolda ona mane olmaz. İntelligentlərimizin sair bəhanələri də heç tənqidə də layiq olmayıb, yenə milli "apatiya" və milli ruhsuzluq üzündən əmələ gəlmiş haldır. "Həyat", "İrşad" və "Molla Nəsrəddin" kimi cəridələrimizin əlimizdən getməyinin təqsiri hamandan artıq intelligentlərimizin boynundadır, Bu halda isə əlimizdə olan qəzetələrin halı belədir ki, oxucularımız az olan kimi qəzetədə işləyənlərimiz dəxi bir o qədər azdır. Bu qızğın zamanda meydana o qədər böyük məsələlər çıxır ki, onun həlli ümum müsəlman başbilənlərinin iştirakı ilə olması vacib gəlir. Halbuki bu cürə məsələlərin bir qəzetə mühərririnin (və hələ bəzi intelligentlərimizcə "avtoritetni" olmayan bir mühərririn) təkbaşına fikir və mülahizəsinə qəzetə stununda həll edilməsi arzu edilməyən nəticələr verə bilər. Bir qəzetə, bir siyasi firqənin və ya bir millətin nəşri-əfkarı olmaq qaydası özgələrcə müslim olduğuna görə haman özgələr bizim qəzetələrə (bizdə siyasi firqələr olmadığına görə) bir millət nəşri-əfkarı dərdinə baxıb qəzetəmiz sütununda oxunan və milli və ictimai və ümumi məsələlərə aid olan sözləri, bir millətin ağzından çıxan söz bilirlər. Ona görə də hər bir məsələnin qəzetələrimiz stununda pis və ya yaxşı həllini deyil, yalnız qəzetə mühərririnə, bəlkə ümum müsəlman camaatına əsnad verirlər. Bunu gözəlcəsinə bilmiş olan ziyalı və intelligentlərimiz yenə də özlərini milli mətbuatdan kənar tutub bu yolda heç bir qayğı çəkmiyorlar. Və bununla da öz mənsub olduqları millət barəsində heç bir fikir çəkmədiklərini aşkara çıxardırlar...

Qəzetələrimiz başına yığılmış olan bir neçə nəfər yazıçılarımız nə qədər "avtoritetni" olmasalar da yenə də hərdəm bir mühüm məsələlərdən söhbət salıb fikirlərini söylüyüb, haman mühüm məsələ haqqındakı fikirlərini camaat arasında müzakirə və mühavirəsini görmək, qəbul və yardımını bilmək istiyorlar. Halbuki, mühavirə - söhbət, müsahibə mübadilə və ya müsadimeyi-əfkara əşədd ehtiyacı olan böylə

mühüm məsələlərə heç bir diqqət yetirən və məhəlgüzar olan olmuyor. Halbuki birisi qəzetədə öz şəxsiyyətinə aid bir şey görmüş olsa, haman dəm cavab hazırlayıb qəzetə idarəsinə yüyürür, bu isə əvvəlinci məqaləmizdə dediyimiz kimi, hər kəsin öz şəxsi işlərindən başqa daha heç bir şey ilə "işi" olmadığını təkid edən bir sübutdur.

Ziyalı və intelligentlərimizin milli mətbuata meyl və həvəs etməyib də əlaqəsi olmadığı zatən ümumrusiya müsəlmanları içində müşahidə olunan isfinak (fəna) bir hal isə də, bunun baxüsus Qafqaz müsəlmanları arasında daha artıq gözə çarpdığı aşkardır...

Keçək milli cəmiyyətlərimizə. Qafqaz müsəlmanlarının Bakıda "nəşri-maarif", "Nicat", "Səfa" adlı maarif və Bakıda, Tiflisdə və Gəncədə birər xeyriyyə cəmiyyətləri vardır. Ondan əlavə bu yaxınlarda bir də ünas cəmiyyəti-xeyriyyəsi əmələ gəldi. Qars fəlakəti xeyriyyə cəmiyyətlərimizi iş görməyə vadar etdi. Bakı "cəmiyyəti-xeyriyyəsinin" 10 sənəlik davamı münasibətilə 10 illik fəaliyyəti xüsusunda bir şey yazmaq istəyən mühərrirlər çox gücləndilərsə də, bu halda "cəmiyyəti-xeyriyyəmiz"in ciddi və geniş bir fəaliyyət göstərməsini təsdiq etməmək olmaz, həqqət cəmiyyəti-xeyriyyə bu halda çox iş görür və müsəlman millətinə kömək yetirir. Əhlimiz dəxi cəmiyyətin böylə iş görən olduğunu hiss edib cəmiyyətin kassasını bilaram ianə pulları ilə doldurmaqla əldən gələn qədər cəmiyyətə iş görməkdə köməklərini heç də müzayiqə etmiyorlar. Odur ki, bu cəmiyyət bu halda sayılır. Öz aramızda da, qonşularımız yanında da və hökumət nəzərində də sayılıb fəaliyyəti də təqdir olunur. İsfənd - burda üzərlik. Maarif cəmiyyətlərimizə gəlincə, bu halda maarif yolunda doğrudan-doğruya işləyən "nəşri-maarif" cəmiyyətidir ki, bəzi yerlərdə məktəbləri olub davam etməkdə və əhalimizi maarifləndirməkdədir. Sair cəmiyyətlərimizin isə iş görmələrindən artıq yalnız bir adlarını çox eşidirik. Zatən "qızışmış" zamanımızda cəmiyyətlərimizin hamısı ciddiyyətlə işə girişib əhalimizin maarifi yolunda şirin-şirin işləməkdə idilər. Hətta "Nicat" maarif cəmiyyətinin yoxsul və mənzilsiz məktəb şagirdləri üçün bir pansionu və bir qiraətxanası dəxi var idi. Lakin sonralar "süstlük" və qeydsizlik dövrü hülul edib cəmiyyətlərimizin "nəşri-maarif"də içində olmaq üzrə fəaliyyəti suzaldı və getdikcə dar bir dairəyə girdi. Yəni yenə hər kəs artıq öz şəxsi işlərilə məşğul olub camaat işlərinin bargiranını (ağır yükünü) üstlərindən atmağa başladılar, dağıldılar. Yerdə beş-üç nəfər köməksiz adamlar qaldı, pansion, qiraətxana tərk edilib, başlanmış işlər dayandırıldı, başlanması lazım görülən işlər də heç başlanmadı. Hal-hazırda "Nicat" və "Səfa" maarif cəmiyyətləri hər bir şeydən çox teatrolar qoymaqla məşğuldurlar. Lakin bu teatrolardan

məqsəd cəmiyyətə pul qazanıb da o pul ilə maarif işlərinə mübaşir olmaqdırmı, yaxud məhz teatro tamaşası ilə camaatı maarifləndirməkdirmi? Hələ dürüst müəyyən deyildir. Hər halda bu cəmiyyətlərin ciddi işlər görməkdə "köməksiz" olduqları və bu köməyin də yenə ziyalı və intelligentlərimizdən gözlənilməsi son dərəcə hiss edilməkdədir. Cəmiyyətlərimizin on illik fəaliyyətinin nəticəsi bir neçə dənə məktəbdən ibarət olması əlbəttə, çox da sevinəcək bir hal deyildir. Halbuki cəmiyyətlərimiz tərəqqi və təalimiz yolunda istəsə idilər, çox-çox işlər görə bilərdilər... (hülul - yetişmə, gəlib çatma). Açılmasına ixtiyar verilmiş olan milli məktəblərimiz dəxi milli cəmiyyəllərimiz kimi əvvəl gurultu patıltı ilə dəmdəstgah və cah-cəlal ilə açılıb da sonradan yavaş-yavaş kiçilib axırda yox olmağa üz qoyduqlarını kəmali-yas və kədərlə müşahidə etməkdəyik. Böyük milli məktəblərimizdən "səadət" məktəbinin əvvəlki halı ilə indiki halını tutuşduranlar, "Nur" məktəbinin vücudunda daha bir əsər qalmadığını yada salanlar sözümüzün şahididirlər. Bu böyük milli məktəbləri qayda ilə aparıb da başa çıxarda bilmədik. Məktəbi idarə edənlər, milli məktəb açıb da axıra qədər saxlamağa qadir olmadıqlarını aşkara çıxartdılar. Ziyalı və intelligentlərimizdən də milli məktəb illərinə əhəmiyyət verənlər, "səadət" kimi böyük bir məktəbi əvvəlki böyük halında daimi surətdə saxlamağa səy etmək əvəzində, nədənsə, bu məktəbə qarşı açılandan bəri xilafgiranə bir surətdə hərəkət başlayıb indiyə qədər də o hərəkətlərə davam etməkdədirlər.

İçəri Rusiya müsəlmanları içində "Hüseyniyə", "Aliyə", "Zəncirli" və sair böyük milli məktəblər olduğunu eşidib də xoşhal olduğumuz halda, Qafqazda Bakı kimi böyük müsəlman şəhərində bir böyük milli məktəb açmağa ixtiyarımız ola-ola məktəbi açıb da saxlamağa qüdrət və qabiliyyətimiz olmadığını görüb məyus olmaya bilməyirik...

**Üzeyir,**
***"Yeni İqbal", N186, 18 dekabr, 1915***

**"Günay" N47, 23 noyabr 2002**

## NƏYİMİZİN VAXTIDIR?

...Bir dövlətin daxili işləri pərişan bir halda olduğu surətdə xarici əlaqə və münasibəti dəxi o daxili pərişanlığa yaraşar bir halda olub şan və heysiyyəti qonşular tərəfindən çox da nəzərə alınmaz. Bir millətin dəxi içərisi xarab olursa, həmvətən olduğu qonşu və vətəndaşları içində yazıq bir hala düşüb sayılmaz və nəzəri-etibardan kənar tutular. Bu əyyamda "bir adam öz qədrini bilməzsə, özgələr də onun qədrini bilməz" sözü doğrudur. Bu sözün mənasını bir millətə dəxi tətbiq etmək olar. Adam özünün insanlıq qədrini bilməli olduğu kimi, bir millət də özünün milliyyət qədrini bilməlidir.

Sair millətlər ümumvətən və dövlət işlərində ciddi bir surətdə iştirak etdiyi halda biz bu cürə işlərə heç də əhəmiyyət vermədiyimizi və haqq-nahaq iş gördüyümüzü süstlük və qeydsizlik ilə icra edilən seçkilərimiz ilə bildiririk. Sair millətlər millətin bəqa və davamı şəraitini təşkil edən milli mətbuat, milli məktəb və milli cəmiyyətlərini get-gedə tərəqqiyə mindirməyə çalışdıqları halda, biz buna da bir o qədər əhəmiyyət verməyib heç də məhəl qoymayırıq. Bunlar keçdikdən əlavə özgə millətlərin xalqın rifahı-halla dolanmağına və həm də mədəni olmağına kömək yetirən cürbəcür iqtisadi, elmi və fənni müəssisə və idarələri (xırda istiqraz şirkətləri, kooperativləri, ticarət və sənət komitələri, cürbəcür soyuzları, müxtəlif elm və fənnlərə dair cəmiyyətləri) olduğu halda, bu kimi şeylərin bizim içimizdə nam və nişanəsi də yoxdur - deməyə hər kəs haqlıdır.

Milliyyət qədərini bilməzlikdən irəli gələn bu daxili pərişanlıq biz milləti özgələr yanında başı aşağı edir, adımızı "qeyri-mədəni bir camaat" qoyub da kiminin bizə yazığı gəlir, kiminin bizdən zəhləsi gedir, bir parası da bizim bu halımızdan özləri üçün mənfəət qazanır. Bizim qeyri-qabili-islah və tərəqqi bir millət olduğumuzu da iddia edənlər vardır. Dəlil və sübutları da içimizdə mövcud olan pərişanlıq, süstlük, qeydsizlik və "apatiya" üzündən irəli gələn pəsməndə hal və mövqeyimizdir.

Siyasi firqələr cərgəsində tutmuş olduğumuz məqam dəxi sair vətəndaşlarımızın və özümüzün də anlayacağı dərəcədə aşkar və müəyyən deyildir. Məbusumuz Məhəmməd Yusif Cəfərovun bu keçən günlərdə çap etdiyimiz məktubları bunu isbat etdi ki, Dövlət Dumasının böyük siyasi firqələr vəkilləri də bizim surət və simayi-siyasimizi tanımıyorlar. Dumada kadet, oktyabrist və nasyonalistlərin böyük bir blok qurub da, müsəlmanlardan başqa hər bir millət vəkilləri nümayəndələrini oraya daxil etmələri, Duma əksəriyyətinin 30 milyonluq müsəl-

manlara qarşı münasibətini təyin və aşkar ediyor. Lakin bu münasibət bizi heç də şad edəcək münasibətlərdən deyildir. Proqramı "millətlər hüriyyətini" müdafiə edən kadet firqəsi vəkilləri müsəlman milləti üstündə olan bəzi qanuni məhdudatın götürülməsi tələbnaməsinə qol qoymaq da istəməyibdirlər. Məhəmməd Yusif Cəfərov cənabları kadetlərin bu hərəkətini "opportunist"lik deyə bəyan eliyor. Opportunist öz məqsədini ələ gətirmək üçün hər bir fürsətdən istifadə edənlərə diyorlar: yəni kadetlər blok qurmaq fikrini əmələ gətirmək üçün Duma əksəriyyətini təşkil edən oktyabrist və nasionalistlər firqəsini haman blokda iştiraka cəlb üçün, ifrat sol və ifrat sağlar ilə bərabər müsəlmanları da bu işdən kənar etdilər ki, oktyabristlər və nasionalistlər bloka girməyə razı olsunlar. Lakin Cəfərov cənablarının sonrakı şikayətindən anlaşılır ki, Duma əzaları müsəlman fraksiyasının hansı bir siyasi firqəyə bənzədiyini və ya xüsusi sifəti-siyasini hələ müəyyən edə bilməyibdirlər. Kadetlərin deyil, bu dördüncü Dumada bəlkə birinci, ikinci və üçüncüdə də müsəlman fraksiyasına qarşı göstərməkdə olduqları etinasızlığın başqa bir səbəbi də var ki, o da yenə bizim öz süstlüyümüz və qeydsizliyimiz nəticəsi olaraq əmələ gəlmiş bir keyfiyyətdir. Belə ki, erməni müsəlman qırğın vüquundan bəridir ki, rus millətinin kadet firqəsi də içində olmaq üzrə ümum tərəqqipərvər hissəsi bizə başqa bir nəzərdə baxmağa başladılar. Biz onların gözündən düşdük. Bir dərəcəyə qədər bədnam olmağa layiq göründük. Həqiqət halda tərəqqixahların nəzərindən düşməyə və bədnamlığa şayestə olmadığımız bir surətdə bu ləkə üstümüzdə baqi qaldı. Deməli, günahkar olmadığımız halda günahkar göründük. Nədən? Çünki günahkar olmadığımızı isbata çalışmadıq, Rusiyanın bütün tərəqqipərvər qəzetələri bizi bu murdar işdə təqsirləndirirkən, biz təqsirkar olmadığımızı bəyan etmək də istəmədik. Doğrudur, rus tərəqqipərvər camaatı nəzərində bəraət qazanmaq üçün Moskva və Petroqrada bir deputatsiya göndərdik. Amma deputatsiyanı göndərib də bu yolda geniş bir surətdə iş görməyə imkan vermədik. Deputatsiya getməsinin nəticəsi olaraq, bəzi sağ tərəf qəzetlərində bizim leyhimizə məqalələr yazıldı. Bu isə bizi tərəqqipərvər rus camaatı nəzərində daha da bədnam etdi. İndi o zamandan bəridir ki, rus tərəqqipərvər camaatı bizə etibar və etimadsızlıq ilə baxmağında davam eliyor. Doğrudur, rus tərəqqipərvərləri içində bizim həqiqət halımızı nəzərə alanlar və müsəlman millətinin isfənak halının səbəbini başqa yerlərdən görənlər də yox deyildir. Hətta "Russkie vedomosti" kimi ən ciddi və ən tərəqqipərvər bir qəzetə "Russkoe slovo"lara, flanlara rəğmən müsəlman millətinə qarşı əvvəlki nəzərini dəyişmiş kimi görünür. Lakin yenə də rus

tərəqqipərvərlər əksəriyyəti əvvəlki etimadsızlığında baqidir. Bizdə də o şüur yoxdur ki, rus camaatını həqiqət halımız ilə tanış etməyə çalışaq, ermənilərin, yəhudilərin və Rusiyada olan sair millətlərin hal və ovzalarını bəyan və aşkar etmək və xalqı həman millətlər leyhinə döndərmək üçün deyil, bir Rusiyada, bəlkə əcnəbi məmləkətlərdə də orqanizasiyaları var ki, bu yolda şifahən və təhrirən söz yeridib hər dəm çığırıb-bağırmaqdadırlar. Amma biz öz vətəndaşlarımız olan rusları da əhvalımızdan xəbərdar etməyə çalışmıyoruq.

Erməni müsəlman qırğını rus camaatı nəzərində bizi ləkədar edən kimi keçən ilki acar vaqeəsi dəxi ümumrus camaatı nəzərində bizi təzədən bir də ləkələndirdi. Ədalətli rus sudu bu işi təhqiq edib də müsəlmanlar tərəfindən heç bir xəyanət olmadığını elan etdi. (Böyük bir hissə mətndən çıxarılıb yeri ağ buraxılmışdır - Ş.H.)

Qəribə burasıdır ki, 30 milyonluq müsəlman millətinin hal və ovzai ilə rus camaatını aşina etmək üçün dövlətin paytaxtı olan Petroqradda rus dilində bir qəzetəmizin nə qədər lazım və vacib olmasını indiyə kimi və indi də nəzəri-etibara almayırıq. Halbuki əvvəldən Petroqradda böylə bir böyük və ciddi qəzetəmiz olsaydı, rus camaatı bizim hal və övzamızdan (vəziyyətimizdən) bu sayaq bixəbər olmazdı. Və o halda bizim də ehtiyacımız nəzərə alınardı.

Hal-hazırda Qafqazda gürcülər və ermənilər arasında mübahisələr cərəyan etməkdədir. Bu mübahisə Qafqazda olan erməni müsəlman və gürcü münasibət və əlaqələrinin qayda və nizama salınması xüsusundadır. Yəni belə qayda və nizam ki, bir millət digər bir millətin interesinə və mənafeyinə toxunmasın hüququnu qəsb etməsin. Gürcü camaatının bir hissəsi bu fikirdədir ki, gürcülər ilə müsəlmanlar yaxınlaşsınlar və əlbir olsunlar. Çünki o surətdə bu əhval ermənilərə təsir edib müsəlman və gürcülərə qarşı ehtiram ilə dolanarlar. Gürcülərin bir qismi də müsəlmanlara xeyirxah olmaqla bərabər, əvvəlcə ermənilərin özləri ilə sülh və sazişə girişməyi səlah bilirlər. Şübhəsizdir ki, məsələ ən mühümədd olunacaq bir məsələdir. Qafqaz müsəlmanları dəxi bu barədə öz fikirlərini, öz rəylərini bildirməlidirlər ki, Qafqazda olan bu üç millət arasında daimi bir sülh və saziş işi tez əmələ gəlsin. Onun üçün də bir millətin sair millət mənafeyi və hüququna toxunmaq politikası aradan götürülməklə əlaqə və münasibatamız müəyyən bir qaydaya girsin, tərəqqi və nəşvü-nüma (inkişaf) yolunda bir millətin o biri millətə xələli olmasın. Bu cürə mühüm məsələlərin müsəlman qəzetələri tərəfindən özbaşına həll edilməsi bizcə münasib deyildir. Burada ümummüsəlman başbilənlərinin fikri lazımdır ki, qəzetələr dəxi o fikri izah və bəyan edib gürcü və erməni millətlərinə bildirsin. Halbu-

ki, bundan da süstlük və qeydsizliyimiz müşahidə olunub üç millətə aid olan bu məsələnin ancaq iki millət arasında müzakirə edilməsilə məsələnin tez zamanda həll edilməyəcəyi və ya edilsə də arzu olunan nəticələri verməyəcəyinə səbəb biz olacayıq. Hələ bu günlərdə Qafqaz qəzetələrinin birində: Qafqaz müsəlmanlarından da saldat aparmaq lüzumu haqqında bir şey göründü. Bu da ən mühüm məsələlərdən birisidir ki, onun həllində yenə ümummüsəlman başbilənlərinin iştirakı və müəyyən fikri lazımdır...

Qərəz, bir bu qədər danışdığımız onun üstündədir ki, biz gərək əvvəlcə özümüz-özümüzə bir nəzər yetirək, öz içimizi və öz çölümüzü düzəldək və bir hala salaq ki, sonra özgələr də bizə nəzər yetirməyə və ehtiyacımızı nəzəri-etibara almağa rəğbət göstərsinlər. Hal-hazırda əsl bunun vaxtıdır ki, biz əvvəlcə öz-özümüzə məhəl qoyaq, millətimizin qədrini bilək, müsəlman millətinin içini və çölünü o cürə düzəldək ki, biz də bir millət olub millətlər arasına girməyə layiq olaq. Ehtiyacatımızın deyil tək-tük ağızlardan bəlkə ümummillət ağzından çıxan bir səs olduğuna və bu səsə də rus camaatı, rus mətbuatı və Dövlət Dumasının tərəqqipərvər vəkilləri ağzından da səs verilib kömək edilməsinə və qonşu millətlər tərəfindən də haqlı görülməsinə yol göstərən şərait ilə dolanmaq xüsusunda danışmağımızın və çalışmağımızın vaxtıdır, zənn və etiqadla sözümü tamam edib qurtarıram.

**ÜZEYİR (Hacıbəyli)**

*"Yeni İqbal" N-187, 20 dekabr 1915*

**"Günay", N48, 30 noyabr 2002**

## STALİNİZMİN ANATOMİYASINA DAİR XATİRƏ - ƏSƏR

### *21 dekabr - İ.V.Stalinin anadan olduğu gündür*

20-ci yüzilliyin dövlət və siyasət adamları sırasında tarixə düşmüş şəxsiyyətlərdən biri də İ.V.Stalindir. Vəfatından 50 ilə yaxın bir müddət keçsə də 29 il Sovet İttifaqı kimi nəhəng bir dövlətə, xalq demokratiyası adı ilə kommunistlərin hakim olduqları sosializm ölkələri cəbhəsinə başçılıq edən, 73 illik həyatı boyu bütün vuruşlardan əsasən müzəffər çıxan, öz məqsədi və şəxsi hakimiyyəti yolunda heç bir şeydən çəkinməyən, milyonları bada verən, həm səxavəti və həm də qəddarlığı ilə seçilən Stalin haqqında yüzlərcə əsər yazılmış, bir sıra filmlər çəkilmişdir. Stalinizm dövrünü yaşamış adamların sıraları seyrəkləşsə də hələ kifayət qədərdir. Stalinizm də müxtəlif formalarda özünü göstərməkdədir. 1953-cü ilin martında Stalinin ölümünə hədsiz kədərlənənlərlə yanaşı ürəkdə sevinənlər də vardı. İkincilər tezliklə özlərini göstərdilər. Şəxsiyyətə pərəstiş şüarını, təcrübəsini, Stalinin törətdiyi cinayət və haqsızlıqları ilk dilə gətirənlər, açıqlayanlar, sağlığında ona mədhiyyələr söyləyib onu ilahəşdirən yaxın adamları - bir sıra Siyasi Büro üzvləri oldu. Stalinin bütün ölkəni bəzəyən portretləri, büst və heykəlləri yavaş-yavaş yığışdırıldı, dağıdıldı. Onun adı ilə adlandırılan yüz minlərcə yer və müəssisə adları yenidən dəyişdirildi. Stalinin mumiyalanıb bolşevizmin banisi V.İ.Leninlə yanaşı qoyulmuş cəsədi çıxarılıb səssiz-səmirsiz torpağa tapşırıldı. Kremldə hakimiyyət savaşı səngimək bilmədi. Nəhayət Stalinin vəfatından 38 il sonra, 1991-ci ildə Sovet imperiyası bolşevizmlə birlikdə süqut etdi. XX əsrin ən böyük təhlükəli xətası sovuşdu.




Qeyd edək ki, vaxtilə əvvəlcədən bu tarixi faciəni, aqibəti görənlər də az olmamışdır. Bunların sırasında Azərbaycanın 20-ci yüzillikdə

yetişdirdiyi ən uzaqgörən siyasət adamlarından sayılan M.Ə.Rəsulzadəni də göstərə bilərik. İ.V.Stalin və M.Ə.Rəsulzadə arasında mövcud olmuş ünsiyyət və münasibətlər haqqında az-çox yazılıb. Həqiqətə uyğun olanları da var, hədsiz şişirtmə və uydurmalar da az deyil (Məsələn: dərsliklərdən birində oxuyuruq: "Vaxtilə M.Ə.Rəsulzadə onu (Stalini) ölümdən xilas etmişdi", M.Ə.Rəsulzadəyə həsr olunmuş başqa bir kitabda yazılır ki, guya o "Stalini Novxanıda atasının axund olduğu məscidin minbərində gizlədib" və s.).

Sovet İttifaqının dağılıb Azərbaycanın yenidən öz milli müstəqilliyinə qovuşduğu 1991-ci ildə "Elm" nəşriyyatı M.Ə.Rəsulzadənin "Stalinlə ixtilal xatirələri" kitabını 20 min tirajla nəşr etdi. Akademik Ziya Bünyadovun redaktorluğu və şəxsi təşəbbüsü ilə çap olunmuş bu xatirələr 1954-cü ilin may-iyun aylarında Türkiyənin "Dünya" qəzetində dərc olunmuşdu. Bu məqalələri Azərbaycan ədəbiyyatı və mətbuatının Türkiyə mühacirəti dövrünün görkəmli tədqiqatçısı Əli Yavuz Ağpinar toplamış, foto surətini Ziya Bünyadova göndərmişdi. "Dünya" qəzetində məqalə - xatirələr "bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri" sərlövhəsilə dərc olunmuşdur.

Ziya Bünyadov və əsəri çapa hazırlayan görkəmli tədqiqatçı Nəsib Nəsibzadə "Ön söz"də qeyd edirlər ki, "Xatirələr"də Stalin və stalinizmin anatomiyasının açılması ilə yanaşı əsrimizin ilk onilliklərində Azərbaycanda gedən çox maraqlı proseslər təsvir edilir" onlar bu əsəri "XX əsr Azərbaycanın ən dəyərli şəxsiyyətinin çox maraqlı siyasi xatirəsi" kimi təqdim edirdilər.

Qeyd edək ki, "Dünya" qəzeti 1954-cü il 21 may tarixli nömrəsində "Xatirələr"dən öncə "M.Ə.Rəsulzadə kimdir?" sərlövhəli iri bir yazı dərc etmiş, oxuculara onun tərcümeyi-halı, 70 illik həyatı və rəhbərlik etdiyi istiqlal mücadiləsinin əsas mərhələləri barədə ətraflı məlumat vermişdi. Qəzet sonda yazırdı ki, M.Ə.Rəsulzadənin "Sovet Rusiyası və Azərbaycan mövzularına dair müxtəlif məqalə və kitabçaları nəşr olunur. Kommunizm əleyhində və Qafqaz davası lehindəki inadlı mübarizəsini davam etdirir".

M.Ə.Rəsulzadə "Stalinlə ixtilal xatirələri"nə xarici mətbuat orqanlarından birində onun vəfatı ilə əlaqədar dərc olunmuş nekroloqdan götürdüyü aşağıdakı sözlərlə başlayırdı: "Fantastik adamın fantastik karyerası bitdi, 73 il əvvəl Qoridə fəqir bir pinəçi ailəsində doğulmuş oğlan Kremldə dünyanın ən böyük imperatorluğunun ən böyük diktatoru olaraq öldü". Sonra əlavə edir: "Dövrünün tarixini yazanlar tarixin bu ən böyük müstəbidi haqqında cürbəcür hökmlər verəcək, onun allahlaşdırılmış şəxsiyyətini müxtəlif mövqelərdən təhlil edəcəklər. Fəqət

biz onu bir küll olaraq ələ almaq niyyətində deyilik. Ən qorxunc rus çarlarına nəsib olmayan bir iqtidarla 30 ilə yaxın bir müddətdə sovet imperatorluğundakı 200 milyon insanın müqəddəratına hökm edən, yer küresinin üçdəbirini nəzarəti altına almış, bütün dinləri inkan edən, kommunist dininin bir peyğəmbəri sayılan, totalitarlar totalitarı bir rejimin ən böyük nümayəndəsi Stalini, onun necə bir demaqoq, bir diplomat, bir diktator və necə bir terrorist, bir ixtilalçı (inqilabçı), bir marşal, bir generalissimus, fironlara, neronlara, çingizlərə rəhmət oxutduran bir tiran, bir qızıl çar olduğunu azad millətlər cəmiyyətində bilməyən bir kimsə yoxdur".

M.Ə.Rəsulzadə qarşısına qoyduğu konkret məqsədi şərh edərək yazırdı: "Eyni dövrdə, eyni şərtlər daxilində, eyni nəslə mənsub olaraq yaşayan, dürlü zamanlarda, dürlü şərtlər altında Stalinlə bu və ya başqa şəkildə təmasa gəlmiş bulunan bir adam sifətilə xatirələrimin ona aid qismini nəşrə qərar verdim. Çarlıq rejiminə qarşı mücadilə, sovet istilası və əsarəti, Moskva yolunda, Moskvada iki ilə və Moskvadan qaçış fəsillərini ehtiva edən bu xatirələr çağdaş tarixçilərin işinə yarayarsa, sərf edilən əmək boşa getməmiş olar qənaətindəyəm".

Tarix Azərbaycan istiqlalının böyük öndəri, M.Ə.Rəsulzadənin uzaqgörənliyini, siyasi fəhmini sübut etdi. Doğrudan da onun sonda yazdığı kimi "dünyanın böyük bir parçasını şəxsi iqtidar və nəzarəti altına alan bu qorxunc adamın ehtirası bütün dünyanı hakimiyyəti altına almaq həddində idi. Onun yeganə qayəsi... hakimiyyətə ancaq hakimiyyət üçün gəlmək və bunu bütün dünyaya yaymaq idi. O, rus imperializminin tarixi seyrinə hakim olan cahangirlik ənənəsinin ən qəddar bir nümayəndəsi idi!"

Yalan vədlər və aldadıcı şüarlarla hakimiyyətə yiyələnib sonra xalqa arxa çevirənlər, məddah və yaltaqlar dəstəsi düzəldib özünü "dahi" hesab edənlər yəqin ki, bundan sonra da olacaqdır. Əlbəttə diktator və qəddarların fəaliyyət və hakimiyyət dairəsi getdikcə daralır. Beynəlxalq demokratiyanın, insan hüquqları mübarizlərinin nəzərindən indiki şəraitdə yayınmaq mümkün deyil. Tarixin acı dərsləri həmişə bəşəriyyətin karına gəlmiş və yəqin ki, bundan sonra da gələcəkdir.

**"Günay" 51, şənbə, 21 dekabr 2002**

*TARİXİ BİR GÜN*

## 7 DEKABR PARLAMENT GÜNÜMÜZDÜR

### *İLK PARLAMENT SEVİNCİMİZ*

**1918**-ci il dekabrın 7-də Bakıda, çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın müstəqil xalq cumhuriyyəti dövlətinin ilk parlamentinin açılış mərasimi oldu. Bu mərasimin iştirakçısı, o milli futu-həmdən doğan sevinc hissini, vətənsevər qəlbi, qüdrətli qələmilə ələ alan, tarixə həkk edən Üzeyirbəy Hacıbəyli 1918-ci il dekabrın 7-də - 84 il bundan əvvəl "Azərbaycan" qəzetində dərc edilmiş "Tarixi günümüz" adlandırdığı məqaləsində yazırdı:

"Bu gün o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb Azərbaycan təkmil bir hökumət şəklinə girir.

Yüz, yüzəlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüdudları silinib-süpürülüb müttəhid və vəsi (birləmiş və geniş) bir ərazi şəklinə girdi və bu gün xilas olub da 2 milyonu keçmiş nüfus ilə Azərbaycan Cumhuriyyəti namını (adını) daşımağa kəsbi-ləyaqət etdi.

Pəs bu gün haman bu Azərbaycan Cümhuriyyətinin Milli Parlamanı, Milli-Məclisi açılmaqla təşkilat və tərtibati-siyasi artıq itmama yetir...

Qəlbimizdə bəslədiyimiz ümid parlamanımızdır".

Dekabrın 9-da Üzeyirbəy parlamentin açılışı mərasimini bütün təəssüratı ilə təsvir edən və mənalandıran "Təəssürat" sərlövhəli reportajını isə bu sözlərlə başlamışdı: "Parlamanımız açıldı, gördük. Fətəli xan doğru dedi ki, yatsa idik də yuxumuza girməzdi... Parlaman imarətinin içində ziynət cümləsindən calibi-diqqət (diqqəti cəlb edən) olan şey qiymətli xalılar deyil idi, bəlkə fiyatı (qiyməti) ucuz lakin mahiyyəti-milliyə və siyasiyyəsi dedikcə baha olan üç rəngli milli bayraqlarımız idi.

Məhəmməd Əmin nitqi-iftişahəsində (açılış nitqində) bu üç rəngin: türkləşmək, islamlaşmaq və müasirləşmək amalı-əlamətindən ibarət olduğuna işarə ilə - bu bayraq endirilə bilməz! - dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssüratı fövqəladəmdən başımın tükləri biz-biz durdu".

Üzeyir bəy yazırdı ki, "qəlbən nikbin olan və nikbinliyində də sabit-

qədəm olan", "açıq və gülərüzlü", "yerə baxmaq adəti olmayan" M.Ə.Rəsulzadənin millət vəkillərinə xitabən söylədiyi nitqinin "hər bir cümləsi axırında alqışlar yağırdı". Həm də qeyd edirdi ki, "padşahlı məmləkətlərdə məclisi-məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin məclisi mətbusanını bir nəfər vətən övladı açdı".

İlk Azərbaycan parlamentinin sədri vəzifəsinə "Müsavat" və bitərəflər adından Əlimərdan bəy Topçubaşov, sədrin birinci müavinliyinə doktor Həsən bəy Ağayev namizəd göstərildi və seçildilər. Göstərildi ki, "Əlimərdan bəy həzrətləri burada yoxdur". Ona görə sədrliyi "baş müavin" Həsən bəy aparacaq. Qeyd edim ki, parlamentin 17 aylıq fəaliyyəti dövründə, yəni 1920-ci il aprelin 27-dək olan 145 iclasının heç birində Ə.M.Topçubaşov iştirak etməyib. O, əvvəlcə İstanbul, sonra isə Parisdə diplomatik fəaliyyət göstərirdi.

Yeri gəlmişkən: bir sıra tarix ədəbiyyatında, dərsliklərdə, hətta Azərbaycan Sovet Ensiklopediyasında belə Həsən bəy Ağayevlə Əhməd bəy Ağayevi dəyişik salırlar. Məsələn, ASE-nin 1-ci cildinin 96-cı səhifəsində Ə.Ağayevə həsr olunmuş yazıda göstərilir ki, guya o, "parlament sədrinin müavini olmuşdur". 2001-ci ildə "Tutu nəşriyyatının nəşr etdiyi Ə.Ağayevin "Sərbəst insanlar ölkəsində" əsərinin giriş məqaləsində eyni səhv təkrar olunur. Kitabın 6-cı səhifəsində deyilir ki, guya Əhməd bəy Ağaoğlu "Azərbaycan Demokratik Respublikası dövründə parlamentin üzvü və parlament sədrinin müavini seçilib". X sinif üçün 1999-cu ildə nəşr olunmuş "Ədəbiyyat" dərsliyində (səh. 362) "Azərbaycan parlamentinin başçısı M.Ə.Rəsulzadə" sözləri yazılmışdır. Təlimi rus dilində olan məktəblərin 8-ci sinifi üçün "Azərbaycan dili" dərsliyinin (2001-ci il) 74-cü səhifəsində oxuyuruq: "1918-ci il mayın 28-də müsəlman partiyaları (?) toplaşdılar və müstəqil Azərbaycan Respublikası yaradıldığını elan etdilər. 34 yaşlı Məmməd Əmin Rəsulzadə hökumət başçısı seçildi".

Hər cür həqiqətdən uzaq oxucuya, şagirdlərə doğru olmayan məlumatlar vermək ondan irəli gəlir ki, bəzi dilçilər, ədəbiyyatçılar tarixçilik etməyə də başlamışlar, bilmədikləri, tədqiq edib öyrənmədikləri, ordan-burdan eşitdiklərini yazmağa girişmişlər. Başqa deyimlə meydanı yiyəsiz görmüşlər.

M.Ə.Rəsulzadə parlamentdəki açılış nitqini aşağıdakı sözlərlə bitirmişdi: "Əfəndilər, bu gün Azərbaycanın paytaxtında məclisi-məbusan iftitahındayıq (açılışındayıq). Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi (öz) sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər şəkil, ümid və inam təşkil eyləmişdir. O atəş ki, bu gün də sərvət və saman

(dövlət) səbəbi və baisi-təməddündür (tərəqqidir). Qəvi (güclü) bir atəş, Azərbaycan övladının sinələrinə düşən milyonlar ilə şölə saçan bu atəş əbədən sönməz bir müşkül güşa (çətin məsələləri həll edən) təşkil edib də hürriyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın. (Surəkli və uzun alqışlar). Bu atəş sönməmək üçün əl-ələ verib müttəhidən (birgə) çalışalım, əfəndilər! Mən sizi belə bir ittihada (birliyə) dəvət edirəm (Alqış)!"

1919-cu il dekabrın 7-də Azərbaycan parlamentinin bir illik yubileyi təntənəli şəkildə qeyd edildi. Parlamentin 104-cü təntənəli iclasına sədrlik edən Həsən bəy Ağayev "millətimizin siyasi tarixində belə əhəmiyyətli anın" bayram edilməsi zərurətindən söhbət açaraq dedi ki, "həmişə parlament hakimiyyətin xalqda olmasını dərk etmiş və nəzərdən buraxmamışdır", "bu bir ilin ərzində başqa millətlər ilə sülhpərvəranə siyasət yürütmüş, Avropaya qarşı siyasətimiz müvəffəqiyyətlə keçmiş və mövqeyimiz də möhkəmlənmişdir... Bir ilin ərzində parlamentin 104 iclası olmuşdur... Parlamentimizə 205 qanun daxil olmuşdur. Onlardan 113-ü qəbul edilmişdir...".

Təntənəli iclasda yubiley münasibətilə İrandan, Gürcüstandan, xaricdə yaşayan və işləyən azərbaycanlılardan, cümhuriyyətin müxtəlif qəzalarından göndərilmiş təbrik teleqramları oxunmuşdur. Sədr iclasdan sonra millət vəkillərini yenicə təşkil edilmiş Azərbaycan Milli Muzeyinə baxmağa dəvət etmişdi.

Yubiley iclasında Həsən bəy həmçinin dedi ki: "Bəzi səbəblərdən dolayı keçən il Azərbaycan xalqı doğru və haqlı yolu ilə parlament toplamağa nail olmamışdı. Lakin yenə də toplanmışdır və onlar da xalq mümessilidir (nümayəndələridir). Zahiri baxışda bəzi təfriqələr görünən kimi idi. Lakin ümum millətə ümumi bir təhlükə olanda bütün parlament bir fərd, vahid kimi olub təfriqəni buraxıb var qüvvəlrilə istiqlal yolunda çalışıblar və mətləbə də çatıblar. Mən əminəm ki, 2-ci sənəyə (ilə) qədəm basan parlamentin milli məsələlərə bir göz ilə baxması daha da artacaqdır, milli arzuların hüsuluna daha da artıq səy edəcəkdir".

Deyirlər "sən saydığını say, amma gör fələk nə sayır". Bizə müstəqil, həqiqi demokratik, çoxpartiya parlamentli xalq cümhuriyyəti yaradanların niyyətləri ali, arzuları böyük, qeyrət və namusları yerinə idi; Azərbaycanı dünyanın demokratik, sivilizasiyalı ölkələri ailəsinə qoşmaq, xalqı uzun əsrlərin cəhalət və xurafat bəlasından xilas edib işıqlı tərəqqi dünyasına çıxarmaq əzmləri güclü və böyük idi. Lakin xarici və daxili irtica buna imkan vermədi. 1920-ci il aprelin 27-də parlament axırıncı fövqəladə 145-ci iclasını keçirdi. Bildirildi ki, "Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər

hökuməti onlara təslim edək. Bununla belə əmin edirlər ki, onların şərtlərini qəbul etsək Qızıl ordu əsla Bakıya gəlməyəcək...".

Bu kommunist hiyləsi və yalanının nəticələri bizlərə məlumdur. 70 il bu yalan, saxtakarlıq, ikiüzlülük rejimini yaşadıq və indi də onun ruhunu, "təcrübəsini" hiss etməkdəyik.

Azərbaycan parlamentinin son fövqəladə iclası "parlamentin məsələsi bağlanır" - ifadəsilə qapanmışdı. Bu iclasda milli istiqlal mücadiləmizin bayraqdarı M.Ə.Rəsulzadə uzaqgörənliklə demişdi: "Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin... Məclisimizin qapılarını millət üçün bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək!"

Tarix və tale millət və müstəqillik fədailərinin arzularını böyük zaman və insan itgisi bahasına da olsa çin etdi. Yenidən dövlət müstəqilliyinə qovuşmuşuq. Bizi bu yola sövq edənləri şükranla anır, onların müqəddəs əməlləri və ruhları qarşısında baş əyirik!

**"Günay", 49, şənbə, 7 dekabr 2002**

## JURNALİSTİKA - ORTAQ DƏYƏRLƏR, ORTAQ PROBLEMLƏR

Müasir informasiya fəaliyyətinin qloballaşması, onun mədəni mühitə, bütövlüklə cəmiyyətin həyatına təsiri özü ilə bərabər yeni dəyərlər və problemlər də gətirməkdədir. Sənayeləşmə dövrünün məhsulu olan elektron informasiya vasitələri adamların şüuruna, həyatına hakim kəsilmək üzrədir. Televiziya artıq yeni doğulmuş nəsli beşikdən qəbir evinə qədər müşayiət etmək ümidindədir. Daxil olduğumuz yeni cəmiyyət də elə informasiyalı cəmiyyət adlandırılır. Bu tarixi prosesdir, qarşısıalınmazdır. Lakin özü ilə bərabər yeniliklərlə yanaşı, köhnə və yeni bəlalar da gətirməkdədir. Məsələn, televiziya dünyasında çox vaxt təsvir edilən həyat fantastik həyatı andırır, nağıllar aləminə oxşayır. Alimlər hətta "yeni elektron ruhanilər" ifadəsini işlətməyə başlayıblar ("Mifı i leqendı noyoqo elektronnoqo duxovenstva").

İnformasiya inqilabının humanitar problemləri də geniş müzakirə mövzusuna çevrilməkdədir. Çünki, artıq televiziya kütləvi mədəniyyətin bayraqdarı rolunu oynamaqdadır. Həm də mütəxəssislərin fikrincə, o köhnə dinlərlə rəqabət aparmaq imkanı əldə etməkdədir.

Əlbəttə inkişaf etmiş Qərblə - postsovet dünyasının informasiya vasitələri qarşısında duran problemlər, vəzifələr, çətinliklər eyni deyil. İnzibati-amirlik sistemindən həqiqi demokratik sivilizasiyalı sistemə keçmək nə qədər çətin və ağrılıdırsa, ideoloji çərçivəyə salınmış jurnalistikadan yaxa qurtarmaq da belədir. Axı sistem dəyişsə də kadrlar nəinki yaşayır, hətta çox halda hakimiyyətdədir. Köhnəni yeni libasda, yeni geyimdə davam etdirirlər. Bunun nümunəsini biz yeni yaradılmış müstəqil dövlətlərin timsalında aydın görürük. Bu proseslərin məna və mahiyyətini aydınlaşdırmaq sahəsində aparılan tədqiqatlar və mülahizələrlə tanışlıq bizim üçün də faydalıdır. Bu baxımdan beynəlxalq jurnalistikanın müasir problemlərinə yaxşı bələd olan, Rusiya Federasiyasında "dördüncü hakimiyyət"in vəziyyətini araşdıranların öncülü sayılan M.V.Lomonosov adına Moskva Dövlət Universiteti jurnalistika fakültəsinin dekanı, mənim də uzun illərdən bəri yaxşı tanıdığım professor Y.N.Zasurskinin bir müsahibəsilə oxucuları tanış etmək istəyirəm. Müsahibəni "Literaturnaya qazeta"nın əməkdaşı A.Druzenko aparmışdır. Yazı ixtisarla verilir.

**Sual:** - Onlar əvvəllər partiyanın əlaltıları idilər, indi isə oliqarxların nökərləri. Hər halda arada müəyyən qədər fərq var. O vaxtlar bir rəhbər partiya və onunla yanaşı elə bil mücərrəd bir asılılıq vardı, o, indiki kimi sərt personlaşdırılmış və konkret asılılıq deyildi.

**Cavab:** - O vaxtlar asılılıq siyasi, ümumdövlət səciyyəsi daşıyırdı. Şəhər və ya müəssisə səviyyəsinə keçərkən, siz bir qayda olaraq, birbaşa təzyiq hiss etmirdiniz. Qrup maraqları da bugünkü kimi açıq-aşkar ifadə edilmirdi. Təəssüf ki, oliqarxlar agitpromdan da bəsit işləyirlər, onları hələ xeyli müddət öyrətmək və tərbiyə etmək lazım gələcək. Bizim zavod, qəzet, gəmi sahiblərimiz öz tabeliyində olan KİV və onun işçiləri ilə normal münasibət qaydalarına yiyələnməyiblər. Yeri gəlmişkən, elə onlar - yaradıcı, çox vaxt istedadlı olan mətbuat işçiləri üçün də təəsüflənməli olursan. Hər necə olsa, onlar seçməkdə sərbəstdirlər. Nəyisə edib-etməməkdə sərbəstdirlər. Bir də görürsən istedadlı, peşəkar bir jurnalist əvvəlcə Berezovski ilə işləməyəcəyini deyir, bir ildən sonra isə Berezovskinin son dərəcə ağıllı adam olduğunu bəyan edir.

**Sual:** - Üstəlik də primitiv çoxpartiyalılığa bənzəyən daha nəsə meydana çıxır. Oxucu qabaqcadan bilir ki, məsələn, əgər "Yeni İzvestiya" qəzeti elə həmin Berezovskinin pulu hesabına nəşr olunursa, bizim qətiyyətli prezidentimizin təbirincə desək, onda onlar Primakovu "pisləməlidirlər". Əgər "Moskovskiy komsomolets" qəzeti Moskva meriyasına xidmət edirsə, onda onlar Berezovskini "döyməlidirlər". Bizim qəzetin şərhçisi prezidentin administrasiyasına zəng vuranda ona de-

yirlər: "Bir dəqiqə gözləyin, baxaq siz hansı qrupdansınız. Aha, siz "Sistema"dansınız... Leninin partiya təşkilatı və partiya ədəbiyyatı məqaləsini bir də oxumağın əsl vaxtıdır.

**Cavab:** - Elə buna görə də professional nöqteyi nəzərindən müxtəlif cür "pisləyirlər". Belə hesab olunur ki, "Nezavisimaya qazeta" da həmin Berezovskinin tabeliyindədir. Amma bu qəzet kobud dərəcədə primitivdir.

**Sual:** - Mətbuatın kimdənsə asılılığı yalnız mənəvi deyil, sosial problem də doğurmuşdu. Mən jurnalistlərin açıq-aşkar aciz vəziyyətdə olmasını nəzərdə tuturam.

**Cavab:** - Kasıb jurnalist olmaq çox pis şeydir.

**Sual:** - İndi redaksiyalarda həmkarlar ittifaqları təşkilatları yoxdur. Maliyyə cəhətdən öz qələmindən və ya efirdən asılılığımız, bizi istənilən vaxt işdən çıxarılmaq təhlükəsi qarşısında qoyur. Həmişə real, peşəkar ittifaq olmaq arzusu ilə yaşayan Jurnalistlər Birliyi sanki bunu etməyə tələsmir.

**Cavab:** - Hər necə olsa, çox şey jurnalistlərin dilənçi vəziyyətində olmasından irəli gəlir. Xoşagəlməz həqiqəti çılpaqlığı ilə deyən jurnalistləri barmaqla saymaq olar, dilənçilərin əksəriyyəti isə həmişə sədəqə həsrətindədir. Sədəqə üçün onlar hər şeyə hazırdırlar.

**Sual:** - Belə hesab edirlər ki, islahatlar gedişində biz, mozaik də olsa, inkişaf etmiş ölkələrin, əsasən Amerikanın təcrübəsindən istifadə edirik.

**Cavab:** - Jurnalistikada belə deyil.

**Sual:** - Necə elə deyil, onlarda da korporasiyalar, holdinqlər, səhmdar cəmiyyətlər var, bizdə də.

**Cavab:** - Bununla belə, arada böyük fərq var. Siz Amerika korporasiyasına gələn zaman onun sahibinin, prezidentinin kim olduğunu dəqiq bilirsiniz. Onun hansı pulun hesabına fəaliyyət göstərdiyi məlumdur. Onun öz Nizamnaməsi var. Vicdanlı rəqabət prinsipi hamını təmiz, şəffaf olmağa məcbur edir. Əks təqdirdə, biznes, o cümlədən kütləvi mediada da biznes mümkün deyil.

**Sual:** - Bundan əlavə, etik normalar, hamı tərəfindən qəbul edilmiş ümumi oyun qaydaları onların peşəkar şüurlarına sözün əsl mənasında yeridilmişdir.

**Cavab:** - Orada sarsılmaz peşəkarlıq kodeksi hökm sürür. Bizim redaksiyaların çoxunda bu təcrübəni tətbiq etmək istəyiblər, "sponsorlar" qarşıya bir şərt qoyan kimi, bu qaydalar unudulub. Elə televiziya işçilərini götürün, onlar da gözəl prinsiplərlə işləməyi elan edirdilər, ancaq bunları asanlıqla yaddan çıxardılar. Elə birinci kanal - ictimai televiziya kanalı nümunə göstərməli idi. O, nümunə göstərdi, ancaq bunu tam tərsinə göstərdi. Hərçənd ki, məncə, bu usul və metodlar sə-

mərəli deyildir. Özünüz görəcəksiniz ki, seçkilərin yekunları heç də qəzet və televiziya killerlərinin xeyrinə olmayacaq.

**Sual:** - Siz seçkilərdən sonra bir dəyişiklik olacağını gözləyirsiniz? Ağıllı bir "ağsaqqal" gələcək və hər şey yoluna düşəcək?

**Cavab:** - Hakimiyyətin dəyişilməsində pis bir şey yoxdur, əksinə, belə olması yaxşıdır. Nahaq yerə demirlər: təzə süpürgə yaxşı süpürər! Jurnalistikaya gəldikdə isə, bu sahədə yaxşılığa doğru dəyişikliklər nə parlament, nə də prezident seçkiləri ilə bağlıdır. Dəyişikliklər ancaq iqtisadi sabitliyin yaranması ilə baş verə bilər. Bir sıra səbəblər üzündən islahatların ən böyük qurbanı jurnalistika olmuşdur! Axı o, bazar münasibətlərinə əsla aidiyyati olmayan bir sahə idi! O çox böyük gəlir gətirirdi, ancaq bu gəlir həmin sahənin inkişafına sərf olunmurdu...

**Sual:** - Bir sıra nəşrlərin iqtisadi cəhətdən ziyanlı olmasının, onların qalın pul kisəsindən birbaşa asılılığının, istədiyini danışıb-yazmaqla və məncə, göz qabağında söz anarxiyasına çevrilən söz azadlığı ilə yanaşı getməsində bir paradoksallıq var.

**Cavab:** - Azadlıq var, ancaq ondan jurnalistikanın xeyrinə istifadə olunmur. Bəlkə də ondan siyasətçilərin və ya oliqarxların, yaxud daha kimlərinsə xeyrinə istifadə edilir.

**Sual:** - "İnformasiya müharibəsi" metoduna indiki tələbələrin münasibəti necədir?

**Cavab:** - Onlar bu üsulu qəbul etmirlər və ümidvaram ki, jurnalistika peşəsinə yiyələndikdən sonra da qəbul etməyəcəklər. Tələbələr - mən bunu mühazirə vaxtı onlardan aldığım qeydlərdən müşahidə etmişəm - görünür, professional etikaya laqeydlik göstərilməsinə tənqidi yanaşırlar. Onların davranışında bu gün birinci kanalda və ya hər hansı bir başqa kanalda nümayiş etdirilən açıq-aşkar tərbiyəsizlik və pis zövq aşılayan məşhur jurnalistləri belə təqlid etmək cəhdi görmürəm.

**Sual:** - Siz bir neçə jurnalist nəsli yetişdirmisiniz, bizim nəsillə indiki nəslin arasındakı fərq nədən ibarətdir?

**Cavab:** - Sizin nəsil çox çevik və düşünən, hər hansı çətinliyi dəf etməyə çalışan nəsil olub. İndikilərin belə problemləri çox azdır, necə deyərlər, onlar hər şeyin hazırına malikdirlər. Buna görə də onlar rahatlığa alışmış olsalar da, nisbətən daha səmimidirlər. Bir də ki, bəlkə də onlar daha vicdanlıdırlar. Onların riyakarlıq etməyə ehtiyacı yoxdur. "Agitprom", "Qlavlit" barədə onların təsəvvürləri belə yoxdur!

**"Günay" 50, şənbə, 14 dekabr 2002**

# YENİ İL ARZULARI VƏ KEÇMİŞƏ BİR NƏZƏR

İllər ötür. Yaşımızın üstünə yaş gəlir. Yeni yüzilliyin zirvəsindən ötənlərə nəzər salmaq, gələcəyin proqnozunu vermək asan iş deyil. Planetimizin iqtisadi-siyasi mənzərəsi, insanların yaşayış tərzi, rabitə və informasiya sistemi və imkanları sürətlə dəyişir. Elmi-texniki tərəqqi ağlagəlməz nailiyyətlərilə insanı heyran edir. Kosmik fəzanın dünya problemlərini həll etmək sahəsindəki rolu durmadan artır və təkmilləşir. Həyatın, yaşamağın mənası və mahiyyəti, millətlər və dövlətlərarası münasibətlər, sivilizasiyaların qarşılıqlı əlaqələri aktuallığını saxlamaqdadır. Sistemlər və ideologiyaların vuruşu da tam səngimiş deyil. Müharibə və sülh mədəniyyəti problemi yenə də ön plana çıxıb. Qısası, böyük fikir ustadımız M.Ə.Sabir demişkən "dünya nəhrə kimi çalxalanmaqdadır". Əgər el şairi Səməd Vurğunun təbirini işlətsək, "atını dörd nala çaparkən zaman, qalib gələcəkmi cahanda kamal" sualı yenə cavabsız qalmaqdadır.

Dünya çox təqvimlikdən vahid təqvimə doğru da irəliləməkdədir. Məlumdur ki, bizlər uzun əsrlər yeni ili martın 20-21-də Novruz bayramı kimi qeyd etmişik. İndi onu bahar bayramı kimi qeyd edirik. Təqvimimiz isə hicri-islam təqvimi idi. 19-cu yüzilliyin əvvəllərində Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ikili təqvim işlənməyə başladı. Məsələn, H.Zərdabinin 1875-ci il iyulun 22-də Bakıda nəşr etməyə başladığı "Əkinçi" qəzetinin 1-ci nömrəsində təqvim belə göstərilmişdir: "Fi rəcəbül mürəccəb, sənə 1292", "fi 22 iyul Rusiya, sənə 1875". İkili təqvim göstəricisi 70 ilə yaxın bir müddət davam etmişdir. Qafqaz Statistika Komitəsinin 1846-cı ildən başlayaraq, hər il nəşr etdiyi illik təqvimdə ("Кавказский календарь") sərlövhəsilə hər iki-xristian və hicri təqvimlərinin qarşılıqlı cədvəli dərc edilirdi. Yanvarın 1-nin yeni ilin ilk günü kimi bayram edilməsi mərasiminin Bakıda yerli əhali tərəfindən də müəyyən yerlərdə və mətbuatda xüsusi mərasimlərlə və yazılarla müşayiət edilməsinə də 20-ci yüzilliyin əvvəllərində rast gəlirik. Bu baxımdan "Molla Nəsrəddin" jurnalında dərc olunmuş bir baş məqalə diqqətimi cəlb etdi. 1927-ci il dekabrın 30-da verilmiş "İlin axırı" sərlövhəli bu yazının altında jurnalın əsas müəlliflərinin gizli imzaları - təxəllüsləri qoyulmuşdur.

Mirzə Cəlilin - Dəli, Qızdırmalı, Sırtıq; Ə.Haqverdiyevin - Mozalan, M.Ə.Sabirin - Hop-hop, Ö.F.Nemanzadənin - Lağlağı, M.S.Ordubadinin - Hərdəmxəyal. Həm də jurnal onları Molla Nəsrəddinin müridləri - ardıcılları kimi təqdim edirdi.

Mətbuat tariximizdə ilin yekununa həsr edilmiş orijinal yazı nümunəsi kimi onu oxuculara təqdim edirəm. Həm də 16 il sonra 1923-cü il yanvarın 13-də yenə bu münasibətlə "Molla Nəsrəddin"də dərc olunmuş "Bayram" sərlövhəli baş məqalədə jurnal bu mövzuya, bu məsələyə yeni bir münasibət də bildirmişdi. Məqalədə oxuyuruq:

**“Hər yan bağlandı. Dedilər rojdestvodur. Budur mən fikir edirəm: darülmüəllimin türklərin, dərs verənlər müsəlmanlar, dərs oxuyanlar müsəlmanlar, öyrənilən dərs tamı ilə türkcə, Nikolay dayı da indi Allaha şükür yoxdur. Bəs aya, xaçpərəstlərin Allahı Həzrət İsanın rojdestvosunu bizə məcburən bayram etdirən kimdir?”**

**Bunlar tarixdir: zaman dəyişib, qloballaşma dövranı gəlib, yeni minillik, yeni yüzillik başlayıb. İndi insanları birləşdirən elmdir, elmi təfəkkür, bəşəri-demokratik dəyərlərdir. Müstəqillik yolu ilə sivilizasiyalı millətlər ailəsinə qoşulmaq vaxtıdır. Yeni 2003-cü il qoy xalqımıza, vətənimizə səadət, rifah gətirsin!**

## *İLİN AXIRI*

1907-ci il axıra çatdı.

İndi lazımdır ki, həmin ilin ərzində dünyada hər bir böyük iş ki, vaqe olub, hamısını yazaq ki, oxucularımız bilsinlər.

Həmin 1907-ci ilin müddətində şöhrətli vüquatın (hadisələrin) lap şöhrətlisi rus və ingilis əhdnaməsidir. Dəxi burada Ləfsilat lazım deyil, çünki bu iş hamıya məlumdur.

Həmin ilin müddətində Bakıda ianə (yardım) komissiyası əmələ gəlib və Zəngəzur və Qarabağ aclarına 45 min manat göndərib (amma qorxuram inanmayalar).

Tehranda Əzizüllah xan İbnüş-şəhid rus səfarətxanasında məxfi işlər məmuru olub və çox məvaciblər alıb.

Üç kilsədə katalikos və Tiflisdə şeyxül-islam vəfat ediblər.

Naxçıvanda və Şamaxıda diri pirlər əmələ gəliblər və çox kəramətlər göstəriblər.

Peterburqda 3-cü Duma başlanıb və Şvetsiyanın padşahı vəfat edib...

Amerika və Yapon dava gəmilərini hazırlayırlar (güman var ki, davaya çıxsınlar).

Qazax mahalında Şıxlı kəndində bir neçə eşşək yayın istisinə dözməyib, gedib giriblər... (vallah yazmaq da olmur ki, hara giriblər!)

Ənzəlidə millət yolunda çalışan Əşri-Hümayun (padşahın əmiri) Mirzəbəyin gədəsini çəkə-çəkə aparıb Rəştin hakimi əmiri-əzəmə (böyük əmirə) və 100 tümən pul alıb (amma oğlan qalmadı, yenə qoydu qaçdı).

Axtıda Qulyar mahalında camaat Molla Qədirə iman gətirib.

İrəvanda müsəlmanlar məktəbə çox səy qoyublar.

Gəncə quberniyasında bu il çəyirtkə əmələ gəldi və Cəbrayılda pristavın bir gürcü aşpazı vardı, cənab inspektor Cəbrayıl məktəbindəki müsəlman müəllimini çıxartdı və bu aşpazı qoydu onun yerinə.

Naxçıvanda çox yağışlar yağdı və palçığın əlindən bir neçə gün Dumanın üzvləri dəvə minib, ancaq divanxanaya gələ bildilər.

Bakıda kazanlıların məscidinə yığılan 1000 manat düşdü iki qardaşın cibişdanına.

Makuda çox qarışıqlıq oldu və Culfada gəncəli Məhəmmədovlar... (Allahu əkbər, hələ bilmirəm bu Məhəmmədovlar binəva iranlılardan nə istəyirlər?)

Yenə həmin 1907-ci ildə Misirdə bir böyük müsəlman məclisi əmələ gəlib və Gəncədə həmin ilin axırıncı ayında bir qəribə həngamə üz verdi. Bir gün müsəlman məhəlləsində "qoyma ha, qoyma ha!" düşdü. Çoxusu elə xəyal elədi ki, erməni-müsəlman davası düşdü. Axırda məlum oldu ki, 50 yaşında bir kişi səkkiz yaşında bir qızın qolundan yapışıb çəkir o yana. Xalq elə bildi ki, bu kişi qızın atasıdır. Sonra konsulun adamları tökülüb gəldilər və sual elədilər ki, "kişi, bu qız sənin nəyindir?" cavab verdi ki, "ovrətimdir" (qərəz köhnə işdi).

Yenə həmin 1907-ci ilin ərzində yer üzündə çox işlər baş verib. Tehranda "Məclis" ruznaməsi (qəzeti) Məhəmmədəlinin barəsində çox "mərhəba"lar yazıb.

Ordubadda Seyid Mürtəzanın təhti-sədarətində fitva zavodu açılıb.

Gəncədə bir kişi bir qara iti muşqura-muşqura gətirib hamama, hamamdakı adamlar səslənirlər ki, "evin yıxılsın" iti niyə hamama gətirirsən?"; kişi cavab verir ki, "vallah mənə cadu eləyiblər", kişi iti aparır əvvəl hamamı dolandırır; sonra başlayır iti çimdirməyə. Hamam isti, su isti, it çığırıb qaçır. Hamamda olan kişilərin biri qorxub və sərsəm gətirib (indi bir dua yazan axtarırlar)...

Yenə həmin 1907-ci ildə İrəvanda seminariyada şəriət dərsində... Ha istəyirəm irəvanlılardan yazmayam, yenə olmur, çünki irəvanlılar bulvarda iskomeyka üstündə oturub danışan vaxt uzaqdan elə ki, görürlər yoldan keçənin qarnı bir az yoğundu, o saat qalxırlar ayağa və baş yendirirlər... "hələ bu da heç". 1907-ci ildə yenə bir para işlər vaqe olub. Hamısını nağıl eləsək, məcmuəmizdə yer olmaz. Amma o ki,. hamısından vacib idi-dedik. Qalanları sonra yadımıza düşsə, təzə ilin əvvəlinci nömrəsində inşallah yazarıq.

Hələ ki, köhnə ilə xudahafiz - deyib sözümüzü tamam edirik.

**Molla Nəsrəddin**

**Müridləri:**

Mozalan, Hop-Hop, Lağlağı,
Dəli, Qızdırmalı, Sırtıq və Hərdəmxəyal

***"Molla Nəsrəddin" jur., 28 dekabr 1907, N49***

**"Günay" 52, şənbə, 28 dekabr 2002**

# BÖHTAN VƏ MƏKRLƏ DOLU BİR SUALA CAVAB

"Alternativ" qəzeti 17-23 iyul tarixli sayında hiddət və nifrət doğuracaq əcaib bir sual - "Bəxtiyar Vahabzadənin anası ermənidir" (?) başlıqlı yazı dərc etmişdir. Redaksiya, məsələnin və redaksiyaya gələn üzdəniraq "oxucu"nun təqdim etdiyi "sənəd"in mahiyyətini lazımınca araşdırmadan "sevincək" olmuş, Amerika açmış bir poza götürərək millətimizin fəxri, şərəf və ləyaqəti simvoluna çevrilmiş, həqiqətən dünyaca tanınmış bir xalq şairini əslində ləkələməyi, gözdən salmağı qarşısına məqsəd qoymuşdur. Qayəm belə qələm dəllalarına, iftira və böhtan orqanına cavab vermək deyil. Belə şərəfsizlərə qoşulmaq mənim yaşıma və əqidəmə də yaraşmaz. Amma qoyulan suala konkret cavab verməyi özümə bir borc bilirəm. Çünki əvvəllər də B.Vahabzadənin ülvi sənətinə, milli qeyrətinə kölgə salmaq cəhdləri az olmamışdır.

Mən, Bəxtiyar Vahabzadənin eloğlusu, 70 illik dostu, ailəsini, nəsli-nəcabətini yaxından tanıyan bir adam kimi "Alternativ" qəzetində dərc olunan məqalədəki suala öz münasibətimi bildirmək istəyirəm. Bəxtiyarın həqiqi anasına, onu dünyaya gətirənə nənə, analığına isə "ana" deməsi nə ilə əlaqədardır? Aydınlıq gətirmək istəyirəm.

Bəxtiyarın kökünə bələd olan çox yaxın adam kimi deyə bilərəm ki, onun anası xalis türk-müsəlman qadını Xanım Məcid qızıdır. Bu həqiqət şairin doğulduğu Şəkinin Yuxzarıbaş məhəlləsində bilməyən yoxdur. Xanım arvad vaxtilə mənim anamla birlikdə Şəkinin 3 nömrəli ipək fabrikində barama çeşidləyən sexdə işləyirdi.

1905-ci ildə erməni-müsəlman qarşıdurmasında Vartaşen (indiki Oğuz rayonu) Söyüdlü kəndindən 2-3 yaşında bir erməni qızı Şəkiyə gətirilir. Onu Şəkidə Allahverdi adında xeyirxah bir kişi qızlığa götürülür. Adını Gülzar çağırır. Qız bu ailədə müsəlman adətləri ilə böyüyür. Oruc tutur, namaz qılır. 1918-ci ildə bu qızı Şəkinin Yuxarıbaş məhəlləsinin sakini Mahmud Zəkəriyyə oğlu Vahabov adlı bir gəncə Gülzar Allahverdi qızı adı altında ərə verirlər. 6-7 il keçir. Gülzarın övladı olmur. Həkimlər onun sonsuz olduğunu müəyyənləşdirəndən sonra Mahmud və Gülzar 1925-ci ildə Zəkəriyyə və Xanımın üçüncü övladı olan Bəxtiyarı oğulluğa götürürlər. 1934-cü ildə Mahmud və Gülzar uşaqla bərabər Bakıya köçür. Bəxtiyar onların himayəsində böyüyür.

Demək, Bəxtiyarın doğma atası Zəkəriyyə Vahab oğlu, anası isə Xanım Məcid qızıdır. Amma o, uşaqlıqdan doğma atası olan Zəkəriyyəni babası, doğma anası Xanım Məcid qızını isə nənəsi kimi tanıyır.

Bu barədə şair özü "Şənbə gecəsinə gedən yol" kitabında ətraflı yazmışdı.

1954-cü ildə şair "Sadə adamlar" adlı poema yazır. Həmin poemada şairin

**Öz ana yurduna vurğun deyildir,**
**Vurğunun şerinə vurulmayanlar. -**

misarsı S.Vurğunun müxaliflərini qəzəbləndirir və 1954-cü ildə "Kirpi" dərgisində B.Vahabzadəni "S.Vurğunun şəxsiyyətinə pərəstişə uymaqda" günahlandırırdılar. Gənc şairi daha artıq ittiyam etmək üçün onu millətçilikdə, erməni xalqına düşmənçilikdə ittiham edirlər. Poemada oxucu kitabxanaçıdan soruşur:

"Namusu" yoxdurmu Şirvanzadənin?"

Məlumdur ki, oxucu kitabxanaçıdan erməni yazıçı Şirvanzadənin "Namus" kitabını istəyir. Amma şairi millətçilikdə ittiham etmək istəyənlər göstərir ki, şairdə millətçilik o yerə çatır ki, böyük erməni yazıçısı Şirvanzadənin namusu olub-olmadığını şübhə altına alır.

Beynəlmiləlçiliyin bayraq olduğu o zaman şair özünü müdafiə etmək, millətçi deyil, beynəlmiləlçi olduğunu sübut etmək üçün Mərkəzi Komitəyə yazdığı məktubda qeyd edir ki, "Mən erməni xalqına və onun klassiki Şirvanzadəyə necə düşmən ola bilərəm ki, anam erməni qızıdır". Bu cümlə, sadəcə o vaxt rejimdən qorunmaq üçün yazılmış qeyri-dəqiq bir cümlə idi.

Burada şairin "səhvi" onda olub ki, "Məni himayə edən analığım" sözünün əvəzinə "anam" sözünü yazıb. Lakin bunu da başa düşmək lazımdır. Bəxtiyar onu böyütmüş, həm də milli və islam ruhunda böyütmüş bir qadına sağ ikən necə "analığım" deyə və yaza bilərdi. Bu onun qəlbinə dəyməzdimi?

Əslində həqiqət belədir:

Şairin doğma atası baba kimi qəbul etdiyi Zəkəriyyə Vahab oğlu, anası isə nənə kimi qəbul etdiyi Xanım Məcid qızıdır. Gülzar xanım isə əslində onun ata bir, ana ayrı ögey qardaşının arvadıdır.

**"Yeni müsavat" qəzeti, N202, 1 avqust 2003**

# MƏNƏVİ VƏ MADDİ ÇƏTİNLİKLƏR İÇİNDƏ ÇABALAYAN SƏNƏTKAR ÖMRÜ

Tale elə gətirib ki, "Günay" qəzetinin 2003-cü il üçün ilk nömrəsi yanvarın 4-nə düşüb. Bu tarix isə uzun illərdir mənim yaddaşıma həkk olunub - öz kədəri, öz hüznü və ələmilə. 20-ci yüzillikdəki dahi şəxsiyyətlərimizin cəfakeş və yorulmaz salnaməçisi Qulam Məmmədli məşhur Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin Molla Nəsrəddinin zəngin həyat və fəaliyyətinə həsr etdiyi qiymətli kitabında böyük ədibin həyatının son gününü - yanvarın 4-nü salnaməsində belə təsvir edir: "Mirzə Cəlil səhər yuxudan ayılanda özünü bir az yaxşı hiss edir; balkona çıxıb gəzişir, çəkmələrini silir, əl-üzünü yuyub südlü çay içir... Gündüz saat 12-nin yarısı... Mirzə Cəlil açar və qıfılı götürür, çəkiclə vurub düzəltmək istəyir. Bir azdan gözləri qaralır, onu çətinliklə yorğan-döşəyə uzadırlar... Həkim gəlib xəstəyə baxır və deyir: Beyninə qan vurmuşdur. Gündüz saat 3-də ədib vəfat edir". Bunlar 1984-cü ildə çap edilmiş "Molla Nəsrəddin" salnaməsində yazılanlardır. Q.Məmmədli bu qəmli hadisənin canlı şahidlərindən idi.

1992-ci ildə milli müstəqilliyə qovuşmağımızın 2-ci ilinin yanvarında keçmiş tələbəm, istedadlı jurnalist mərhum Malik Fərrux "Molla Nəsrəddin" jurnalının nəşrini yenidən bərpa etmək fikrinə düşdü. 1-ci nömrəni də buraxdı. Jurnalın nəşrini təbrik edənlər içərisində xalq şairi B.Vahabzadə, İstanbuldan professor Camal Anadolu, alim-şair Rəfiq Zəka Xəndan, şair, "Gənclik" jurnalının baş redaktoru Məmməd İsmayıl, xalq yazıçısı B.Bayramov və bu sətirlərin müəllifi də vardı. B.Vahabzadə yazırdı: "Bu gün Mirzə Cəlil bizə həmişəkindən daha vacibdir. Xoş gəlmisən "Molla Nəsrəddin". Gəl o polad qələmini əlinə al, bəlkə biz görə bilmədiyimiz işin bir çoxunu sən görə biləsən".

"Molla Nəsrəddi"nin 1992-ci il yanvar birinci nömrəsində mollanəsrəddinçi-tənqidçi, yaşı 90-nı keçmiş Qulam Məmmdəli ilə bir müsahibə dərc edilmişdir. Jurnalistikamızın ağsaqqalı bu dəfə vaxtı ilə yaza bilməyib ürəyində hifz etdiyi acı həqiqətləri açıb dilə gətirdi. Məsələn, dedi ki, " jurnal 1917-ci il oktyabr inqlabından bir ay sonra bağlandı. C.Məmmədquluzadə demişdi ki, "biz belə deməmişik" - yəni Türkiyədən və İrandan qayıdan rus soldatları yol uzunu İran, Türkiyə, Azərbaycan kənd və şəhərlərini talayırdılar. Bu barədə Mirzə Cəlilin sağ əli Əliqulu Nəcəfovun "Molla Nəsrəddin"də çap olunmuş bir şeri var: "Dinmə, danışma ona, soldatdı o" - təxminən belə başlayır şer. Bu şerə görə bağladılar".

Q.Məmmədli jurnalın Təbrizdə1921-ci ildə başına gətirilən hadisəni yada salır: "Mircə Cəlil Təbrizdə "Molla Nəsrəddin"i

azərbaycanca nəşr etmək istədi. Lakin İran hökuməti buna razılıq vermədi - "Gərək jurnal farsca çıxsın" - dedilər. Mirzə Cəlil bunun cavabında dedi: "Təbrizdə ermənilər ermənicə qəzet çıxarırlar. Siz isə Azərbaycan dilində jurnal nəşr etməyə icazə vermirsiniz. Elə isə icazə verin "Molla Nəsrəddin"i erməni dilində nəşr edim".

Nəhayət 1921-ci ildən - yəni Mirzə Cəlil Təbrizdən Bakıya gələndən sonra başına gətirilənlərin bir qismini Qulam müəllim dilə gətirir. "Mirzə Cəlil və Mərkəzi Komitə arasında mübahisə başladı. "Jurnal necə çıxacaq və nədən yazacaq?" Mirzə Cəlil deyirdi: "Sizdə mətbuat partiya orqanıdır, şəxsi adamlara qəzet çapına icazə verilmir. Mənsə "Molla Nəsrəddin"i özüm yaratmışam, özüm satmışam, özüm də nə istəmişəm, onu yazmışam. Buna icazə verəcəksinizmi?"

Bildiyimiz kimi "Molla Nəsrəddin"in Sovet dövrü ilk Bakı nömrəsi 1922-ci il noyabrın 2-də çıxdı. 17 ay müddətində bolşevik hakimiyyətinin fəaliyyətini diqqətlə izləyən Mirzə Cəlil 1-ci nömrədə çox ciddi tənqid və ifşaedici yazılar vermişdi. Məhz bu səbəbdən də onu noyabrın 6-da M.Ə.Sabirin İsmailiyyə binası yanında ucaldılmış abidənin açılış mərasiminə dəvət etməmişdilər. Qulam müəllim müsahibəsində deyir: "Çox danışıq getdi. M.Cəlil təslim olmadı. M.S.Ordubadini jurnalın üstündə hərbi komissar təyin etdilər. Ondan icazəsiz heç bir yazı gedə bilməzdi"...

M.Cəlil Ordubadiyə yazdığı məktubunda deyir: "Səid, bildiyini elədin, gələn nömrədən mənim adım redaktor kimi o jurnalda yazılsa, mən bilirəm hara şikayət edəcəyəm".

Mirzə Cəlilin bütün həyat salnaməsini diqqətlə, sonunadək izləyən, araşdıran tədqiqatçı yazılmayan, dilə gətirilməyən, əksinə saxtalaşdırılan, təhrif edilən bəzi məqamlara aydınlıq gətirir və sonda yazırdı ki, "Molla Nəsrəddin" 20-ci ilin ortalarında tamam simasını itirdi. Mirzə Cəlil ağır mənəvi və sözün əsl mənasında maddi çətinliklər içində qaldı. Nəhayət 1930-da xəstələndi. 31-ci ilin sonunda ağır vəziyyətə düşdü. 32-nin yanvarın 4-də dünyanı tərk elədi.

Yaddan çıxmış, gözdən düşmüş, tənqid hədəfi olmuş, üçüncü dərəcəli bir jurnalist kimi ölüb getdi. Aparıb dəfn edildiyi zaman qəbrə qoyularkən Mehdi Hüseyn çıxış eləyib dedi: "Mirzə, biz sağlığında səninlə mübarizə apardıq, öləndən sonra da səninlə mübarizə aparacağıq".

Mən bu sətirləri hər dəfə oxuyanda ilk milli mücahidimiz, mətbuatımızın, jurnalistikamızın, milli teatrımızın banisi Həsən bəy Zərdabinin, milli iftixar şairimiz M.Ə.Sabirin, böyük mütəfəkkir-şair M.Hadinin və yüzlərcə qeyrətli sənət və qələm mücahidlərinin acı taleyini xatırlamaya bilmirəm. 1907-ci il noyabrın 30-da Həsən bəyin dəfn mərasimində Əhməd bəy Ağayev vida nitqində demişdir:

"Həsən bəy bizə haqq söz dedikdə acığımız tutub, ağzına belə döyürdük! Ən əvvəlinci tənə və danlaq ki, ona edirdik onun kasıblığı, onun biçizliyi idi. Ağzını açıb danışdıqda biz ona deyirdik: Kəs səsüvü! Danışma! Sən kasıbsan! Sən fəqirsən! Yəni biz ona tənə edirdik ki, vaxtını pul qazanmağa sərf etmək əvəzinə, bizə, biz millətə qulluq etməyə sərf edirdi!" Lakin bu mücahid, bu millətpərəst bizim heç bir cöfri-cəfamızdan geri durmayıb öz tutduğu yolunu qəribə bir səbat ilə davam edib milləti ayıltmaq işi ilə, taifəsinə xidmət etmək üçün əlindən gələni əsirgəmirdi".

Məşhur ictimai xadim Qarabəy Qarabəyov da vida nitqində Əhməd bəyin dediklərini təsdiq edərək demişdi: "Həsən bəyin Bakıda qəzetə çıxardığı zamanlar öylə bir vaxt idi ki, onda yerin sajınını 3 qəpiyə almaq mümkün idi. Neft yerləri, demək olar ki, müftə paylanırdı. Həsən bəy istəsəydi indi Bakının kapitalistlərindən ola bilərdi. Lakin o bunu eləmədi. Dünya malına göz dikmədi. Ancaq camaat dərdinə qaldı. Axırda da quru taxta üstə vəfat edib, öz əhli-əyalına heç bir şey qoymadı. Onun "nöqsanı" bu idi... Bizi mükəddər edən (kədərləndirən) o hal və o zaddır ki, Həsən bəyin naxoşluğu cəhətinə camaat işinin səhnəsindən düşdüyü zamanda, bizim xatirəmizdən çıxmışdı. Heç birimiz onun görüşünə belə getməmişdik. Həmçinin bizim şəhərimizin nümayəndələri də onu saymırdılar. Bu qızıl və dövlət adamları onun hər bir haqq sözünün müqabilində... sən danışma deyirdilər".

Bəlkə bunlar keçmişdə qalıb? Əlbətdə çox şey dəyişib. Amma haqq sözün işə keçdiyini, düz danışanın papağının əyri olmadığını deməyə, yazmağa da əlim gəlmir. Pul və dövlət yığmaq hayında olub, vətənin, millətin dərdlərinə əlac axtarmaq qayğısına qalmayan nə qədər rüşvətxor çinovnik iş başındadır? Məddahlıq və yaltaqlıq etməyən nə qədər elm və sənət adamı qayğı və diqqətdən kənardadır? Neçə əsrlərdir davam edən bu milli bəlanı rəf etmək vaxtı çatmayacaqmı?

Varlığımızı yaşadan, sağlığında çox vaxt qədrini bilmədiyimiz, qeyrət və namus mücəssəməsi olan milli şəxsiyyətlərimizdir. C.Məmmədquluzadə bu böyük şəxsiyyətlərin öncüllərindəndir. Vəfatının 71-ci ildönümü günü bu el sənətkarını hörmətlə yad edir, Allahdan rəhmət diləyirik.

**P.S.** *Azərbaycan Molla Nəsrəddinin böyük tədqiqatçılarından Milli Elmlər Akademiyasının müxbir üzvü, mərhum professor Ə.Mirəhmədov Mirzə Cəlil ensiklopediyasını nəşrə hazırlayırdı. Görəsən onun taleyi necə olacaq?! (Ş.H.)*

**"Günay", N1, 4 yanvar 2003**

## TARİXİMİZİN İŞIQLI GÜNLƏRİNDƏN BİRİ

Tariximizin şəxsiyyətlərlə əlaqədar əlamətdar günləri az deyil. Təbiət və dini təqvimlərlə də bağlı bayram günlərimiz də var. Himayəsində olduğumuz ölkələrin dövlətləri tərəfindən müəyyən edilmiş günləri də bayram etmək məcburiyyətində olmuşuq. Milli dövlətçilik tariximizin ümummilli hadisələrinə həsr olunmuş və millətcə ürəkdən hamılıqla fəxr etdiyimiz, sevincli, bayramlı günlərimiz isə azdır. Həm də olanlarını da zaman-zaman gözdən salmış, tarixi yaddaşımızdan silməyə çalışmışlar. Çünki hər hakimiyyətə gələn dəstə, qrup, şəxs "burda mənəm, Bağdadda kor xəlifə" atalar sözündə təsbit edilən meyarla hərəkət etməyə, özündən əvvəlkiləri silməyə, özünü tariximizin ilkin yaradıcısı kimi qələmə verməyə səy etmişdir. Həm də hər dəfə tarixi keçmişi istənilən kimi saxtalaşdıran üzdəniraq üləma məddahlar dəstəsi də tapılmışdır. Bu adət son onilliyə qədər 20-ci yüzillikdə tariximizin ən şərəfli, ən unudulmaz fövqəladə əhəmiyyətli hadisəsi olan 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrü tarixinə də aiddir. Bəzi qələm gədaları "23 ay" müddətinin azlığını, böyük milli proqramların bu müddətdə həyata keçirilməsinin mümkün ola bilmədiyini, ümumiyyətlə, xalq cümhuriyyəti dövründə görülmüş işlərin böyük tarixi əhəmiyyətini kiçiltməyə, bəzən hətta gözdən salmağa cəhd edirdilər və bəzən indi də edirlər. Məsələn, mən fikirləşirəm, nə üçün yanvarın 11-i müstəqil, demokratik dövlətimizin beynəlxalq miqyasda tanınması günü kimi geniş şəkildə qeyd edilməsin? 83 il bundan əvvəl - Versal Ali Şurası məhz həmin gün Azərbaycan Xalq Cümhuriyyəti dövlətini defakto tanımaq haqda qərara gəlmişdi. Axu bu respublikanın geniş beynəlxalq əməkdaşlığa daxil olması, onun dünya siyasətini müəyyən edən ölkələr tərəfindən de-yure tanınması və dünya birliyinin bərabərhüquqlu üzvü kimi hərtərəfli diplomatik əlaqələrə girməsi üçün əlverişli imkanlar açırdı.

23 ayda görülmüşlərə nəzər salın: Əgər müstəqillik elan edilməsəydi, bu tarixi məsuliyyəti öhdəsinə götürənlər məqamı bir an belə əldən versəydilər Azərbaycan ərazisi Rusiya, Ermənistan və Gürcüstan arasında bölüşdürüləcəkdi. Qarşısı alındı. Bu müddətdə Azərbaycan öz parlamenti, hökuməti, ordusu, pul vahidi, dövlət atributları olan demokratik cümhuriyyətə çevrildi; Azərbaycan bütün Şərqdə, islam və türk dünyasında ilk cümhuriyyət üsul-idarəsi oldu, bu zaman ərzində Azərbaycan iqtidarı ənənəvi tarixi milli

ərazilərimizə sahib çıxdı, onun mübahisəsiz ərazisi 97,3 min kv.km, mübahisəli ərazilə birlikdə isə ərazisi 113,9 min kv.km idi.

Milli mənafeyi hər şeydən üstün tutan, dövrün nəbzini tutmağı bacaran, hazırlıqlı, uzaqgörən, səriştəli ziyalılar mürəkkəb tarixi şəraitdə xalqı öz arxalarınca aparmağı bacardılar, milli ərazimizi daxili və xarici müdaxilələrdən qorumağa nail oldular. Bütün bunları əyani şəkildə görən Qərb dövlətləri 1920-ci il yanvarın 11-də Versalda Ali Şura iclasında Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıdıqlarını bildirdilər. 1920-ci il yanvarın 14-də Azərbaycan parlamentinin 117-ci iclasında xarici işlər naziri Fətəli xan Xoyski birinci çıxış edərək bildirdi ki, "Srağagün Tiflisdən, bizim Gürcüstanda olan nümayəndəmizdən bir teleqraf gəldi ki, məzmunu belədir: "Bu gün ingilis nümayəndəsi vürud olub məlum etdi ki, lord Kerzon sülh konfransında nümayəndələrə təklif etmiş ki, Azərbaycan və Gürcüstan istiqlaliyyətləri gərək təsdiq olunsun. Sülh konfransı nümayəndələri bu təklifi müttəhidən qəbul etmişlər" (sürəkli alqış). Bu ayın 11-də olmuşdur. Lakin xəbər bizə srağagün gəlib yetişdi. Bu xəbər bizdən ötrü böyük bayramdır". Azərbaycan hökuməti xəbərin Versaldan gecə gəlməsi səbəbli yanvarın 14-nün bayram edilməsi barədə sərəncam verdi. Sərəncamda deyilir: **"Azərbaycanın müstəqilliyinin tanınması ilə əlaqədar bu il yanvar ayının 14-ü, çərşənbə günü hökumət müəssisələrinin bütün qulluqçuları üçün qeyri-iş günü elan edilir".**

Azərbaycan hökuməti bu münasibətlə respublikanın vətəndaşlarına xüsusi müraciət etdi. Müraciətin tam mətni belədir:

"28 may 1918-ci il. Azərbaycan, öz xalqının iradəsinə uyğun olaraq müstəqil dövlət elan edilmişdir.

Respublika ağır məhrumiyyətlər içində yaranmışdır.

Qanlı vətəndaş müharibəsi bütün ölkəni bərbad hala salmışdır.

Xalq öz müqəddəratını sərbəst müəyyən etmək kimi müqəddəs hüququna inanaraq anarxiyaya son qoymuş və öz dövlətçiliyinin təməlini qoymuşdur.

Azərbaycanın milli amallarının həyata keçirilməsi üçün gələcək yolumuz nə qədər ağır olsa da, o, öz qismətinə düşmüş sınaqlardan şərəflə çıxmışdır.

Xalqın müstəqil həyat əzmi və özünü idarə etmək qabiliyyəti indi yeni, müstəqilliyə və azadlığa əsaslanan dövlət nizamının qəti təntənəsinə gətirib çıxarmışdır.

Azərbaycanın müstəqilliyi böyük Avropa millətlərinin ali şurası tərəfindən yekdilliklə tanınmışdır.

Azərbaycanın Qərbin qabaqcıl xalqları ailəsinə tamhüquqlu üzv kimi daxil olması onun tarixində işıqlı gündür, bu gündən etibarən onun mənəvi qüvvələri yenidən tərəqqi etməyə başlayacaqdır.

Hökumət inanır ki, bundan sonra hansı maneələr və təhlükələr yaranacağından asılı olmayaraq bütün vətəndaşlar azad və müstəqil Vətənin xoşbəxtliyini təmin etmək cəhdində birləşəcəklər.

Yaşasın müstəqil Azərbaycan xalqı!

**Nazirlər Sovetinin sədri Nəsib bəy Usubbəyov".**

Parlamentin bu mühüm hadisəyə həsr olunmuş iclasındakı çıxışlardan sətirlər:

**Həsən bəy Ağayev:** "Tanımaqdan əvvəl tanınmaq lazımdır. Bu yolda azəri türkləri çox zəhmət çəkmişlərdi. Biz özümüzü tanımasaydıq təbii bizi tanımazdılar və bugünkü günə qovuşa bilməzdik... Avropa indi gördü ki, azəri türklərinin digər mədəni millətlər kimi yaşamağa haqqı var".

**Məmmədəmin Rəsulzadə:** "Bayram saxlarkən o zəfərin əldə edilməsinə başlıca səbəb olanlar unudula bilməz, unudularsa, nankorluq olar. Və nankor bir millət də heç vaxt hüququnu saxlaya bilməz... O qardaşlar ki, bizə dəsti-qüvvələrini (qüvvətli əllərini) uzatdılar, qanlarını axıtdılar və bizi bu günə çıxartdılar, biz bu gün Azərbaycan istiqlaliyyətini mühafizə edərkən o müəzzəz (istəkli) ruhları yadımıza gətirməliyiz. Çünki o ruhlar bizə daha çox lazımdır (Məclisi-Məbusan ayağa qalxır)".

**Xəlil bəy Xasməmmədov:** "Hökumət bu bayram münasibətilə bir əfvi-ümumi layihəsi hazırlamağı mənə həvalə etmişdir. Bu yaxın günlərdə haman layihə sizə təqdim ediləcək"...

Parlamentin iclasında bu münasibətlə gəlmiş təbrik teleqramları oxundu. Onların sayı 20-dən çoxdur. Ayrı-ayrı siyasi partiyaların nümayəndələrinə söz verildi. Çıxış edənlər içərisində erməni Malxazyanın bir təklifi diqqətimi cəlb etdi. Bütün erməni nümayəndələri adından danışır, deyir ki, "biz gərək hər zaman yazaq ki, demokratik Azərbaycan Cümhuriyyəti". Görünür, şüurlu, ya şüursuz, Azərbaycan Xalq Cümhuriyyəti əvəzinə "Azərbaycan Demokratik Respublikası" yazanlar erməni Malxazyanın bu arzusunu yerinə yetirirlər.

Nəhayət, təbrik nitqlərində qeyd edilən digər mühüm bir cəhət: "Bu bayram bütün türklərindir, bəlkə bütün islam aləminindir. Bu gün bizim istiqlaliyyətimiz təsdiq edilməklə islam aləminin əzasından (üzvlərindən) biri də baş qaldırır. Bu baş qaldıran üzv isə digər islam ünsürlərinin dəxi onlar kimi istiqlaliyyətlərini əldə etmələrinə yardım edəcəklərinə heç də şübhə yoxdur".

Yanvarın 11-i Azərbaycan tarixinin işıqlı günlərindən biridir. Bu işıqlı günü tariximizə həkk edənləri iftixar hissi ilə anır, onların sevincini bölüşür, qürur və inamla parlament tribunasından bu tarixi fütuhatın memarı M.Ə.Rəsulzadənin bir daha təkrar etdiyi və parlament üzvləri tərəfindən şiddətli və sürəkli alqışlarla qarşılanan sözlərini biz də təkrar edirik: "Bir dəfə yüksələn Azərbaycan bayrağı bir daha aşağı enməz".

**"Günay", 11 yanvar 2003**

## İNSAN TƏBİƏT VƏ BƏŞƏRİYYƏT QARŞISINDA MƏSULİYYƏT DAŞIYIR

Vaxtilə yazardılar ki, insan oğlu təbiətlə mübarizədə şüurlu, fəaliyyətli varlıq olub. Bəzi filosoflar bəşəriyyətin inkişafını digər baxımdan təsnif edirlər. Məsələn, inkişafın kənd təsərrüfatı dövrü, sənaye dövrü, postsənaye və ya informasiyalı cəmiyyət mərhələsi. Biz bu dövrü yaşayırıq. İnsanın təbiətlə mübarizədə təbiətlə əməkdaşlığa, onu qorumağın və qayğısına qalmağın vacibliyini dərk etməsi zamanı gəlmişdir. Digər tərəfdən, insanlar, ölkələr və xalqlar arasındakı münasibətlərdə də minilliklərin düşmənçiliyi, qarşıdurması bu və ya digər formada qalmaqdadır. Doğrudur, demokratik dəyərlər, insan hüquqları, əməkdaşlıq sahələri genişlənməkdə və sürətlə inkişaf etməkdədir. Lakin təbii fəlakətlərin, fırtına və tufanların sayı azalmadığı kimi siyasi atmosferin də istənilən səviyyədə olduğundan danışa bilmərik. Təbiətlə-insan, insanla-insan, insanla-dövlət arasındakı münasibətlərin normallaşmasına ehtiyac indi hər dövrdəkindən daha artıq hiss edilməkdədir. Bu barədə yazan, həyəcan təbili çalan elm, siyasət və mədəniyyət adamlarının sayı da artmaqdadır.

Rusiya Federasiyasında nəşr olunan elmi-kütləvi jurnallardan birində gələcəyi tədqiq edən ümumdünya federasiyasının bülletenindən maraqlı bir məktub tərcümə edilərək dərc olunmuşdur. "Gələcək nəsillərə məktub" adlanır bu yazı. Müəllifi dünyaca tanınmış Nobel mükafatı laureatı, fizik və filosof İlya Priqojindir. Mənşəcə rus olan Priqojin Belçika alimidir.

Brüssel Azad Universitetində onun rəhbərliyi altında işləyən

tədqiqatçılar qrupu bütün dünyada Brüssel Elmi Məktəbi kimi məşhurdur. 1959-cu ildən o, Solvey tərəfindən əsası qoyulmuş Beynəlxalq Fiziki Kimya İnstitutunun direktoru, 1967-ci ildən - Texas universiteti nəzdində Termodinamika və Statistik Fizika Mərkəzinin direktoru, 1982-ci ildən SSRİ EA-nın xarici üzvü olmuşdur.

1917-ci il yanvarın 25-də anadan olmuş Priqojin gələcək nəsillərə məktubunda qeyd edir ki, mən bu məktubu yazarkən öz mövqeyimin çox cüzi olduğunu tamamilə dərk edirəm. Mənim işim - elmlə məşğul olmaqdan ibarətdir və bu elm bəşəriyyətin gələcəyini başa düşməkdə mənə hər hansı xüsusi səlahiyyət vermir. Molekullar "qanunlara" tabe olur. İnsanların qərarları isə keçmiş haqqında xatirələrdən və gələcəyə ümidlərdən asılıdır.

O, daha sonra qeyd edir: "Məlumdur ki, müharibə mədəniyyətindən sülh mədəniyyətinə keçid probleminin həlli perspektivi son illər ərzində aydın deyildi. Hərçənd qeyri-Avropa mədəniyyətləri etiraf edilmişdir və buna görə də "sivil" və "qeyri-sivil" xalqlar arasında ehtimal edilən qeyri-bərabərliyin, başqa sözlə desək, avrosentrizmin mövqeyi xeyli zəifləmişdir. Bu mütərəqqi dəyişikliklər soyuq müharibə təhlükəsi altında baş vermişdir. Berlin divarı uçurularkən biz inanırdıq ki, nəhayət, müharibə mədəniyyətindən sülh mədəniyyətinə keçid baş verməlidir. Bununla belə, tarixin sonrakı onilliklərində bəşəriyyət bu yol ilə getmədi. Biz istər Afrikada, istərsə də Balkanlarda lokal münaqişələrin davam etməsinin və hətta güclənməsinin şahidi olduq. Bu vəziyyəti keçmişin qalıqlarının müasir dövrdə təzahürləri hesab etmək olardı, lakin Priqojin deyir ki, bəşəriyyəti daim narahat edən nüvə müharibəsi təhlükəsinə yeni təhlükələr də əlavə edilmişdir: bu gün texnoloji tərəqqi o səviyyəyə çatmışdır ki, "işəsalma düyməsi"ni basmaqla müharibə başlaya bilər - lap elektron oyunlarında olduğu kimi".

Belçikalı alim qeyd edir ki, iqtisadiyyat və ya ekologiya kimi bir sıra elmi predmetlər də beynəlxalq kooperasiya tələb edir, çünki elm insanları birləşdirir, o, universal dil yaradır, siyasətin istiqamətlərini ifadə etməyə kömək edir. Bununla belə, son dərəcə heyrətamiz hadisələr baş verir, məsələn, Avropa İttifaqının üzvü olan ölkələr Avropa Birliyinin ifadəsi kimi Avropa ordusu yaratmağa çalışırlar, Sual olunur: bu ordu kimə qarşı yaradılır? Düşmən haradadır? İstər ABŞ-da, istərsə də Avropada hərbi büdcələrin daim artırılması nəyə gərəkdir? Bu məsələ barədə müəyyən mövqe işləyib hazırlamaq gələcək nəsillərin işidir, çünki bizim zəmanədə vəziyyət bəşər tarixində görünməmiş sürətlə dəyişməkdədir və gələcəkdə

dəyişikliklərin tempi heç də az olmayacaqdır. Gələcək nəsillərə ünvanlanmış məktubumda mən ram olmaq və acizlik hisslərinin aradan qaldırılmasının zəruriliyi barədə də bir neçə söz demək istərdim. İnsan daim özünün yeni imkanlarını hiss edir. İnsanın insanla, eləcə də insanın təbiətlə daha ahəngdar münasibətlərinə gətirib çıxara biləcək utopiyalar qurur. Bu mövzular iyirmi birinci əsrdə inkişafın xarakteri barədə bu gün aparılan rəy sorğularında dönə-dönə müzakirə edilir.

İlya Priqojin soruşur: biz haraya gəlib çıxmışıq? O, öz sualına belə cavab verir: biz informasiya texnologiyalarının inkişafında tərəqqi ilə və bu tərəqqiyə aid olan nə varsa, hamısı ilə - kütləvi informasiya vasitələri, robot texnikası və süni intellektlə bağlı olan bifurkasiya nöqtəsinə yaxınlaşırıq. Biz özümüzü hansı sahədə aşkar edəcəyik? Qloballaşmanın nəticəsi nədən ibarət olacaq? Plüralizmin qorunub saxlanması və digər mədəniyyətlərə hörmət gələcək nəsillərin diqqətini tələb edəcəkdir, lakin bu yolda təhlükələr də var. Məsələn: informasiyalı cəmiyyətin təsiri nədən ibarətdir, axı informasiya varsa, dezinformasiya da var, onları bir-birindən necə fərqləndirməli? Aydındır ki, bundan ötrü indikinə nisbətən qat-qat çox bilik və tənqid hissinin daha çox inkişaf etməsi tələb olunur. Doğrunu yalandan, mümkün olanı mümkün olmayandan fərqləndirmək lazımdır.

İnformasiyalı cəmiyyətin inkişafı o deməkdir ki, biz gələcək nəsillər qarşısında çox çətin bir məsələ qoyuruq. Güman etmək olmaz ki, informasiya texnologiyalarına əsaslanan "şəbəkə quruluşlu cəmiyyət"in inkişafı yeni fikir ayrılıqlarının və ziddiyyətlərin yaranmasına gətirib çıxaracaqdır. Daha fundamental problemlərin də həllini axtarmaq lazımdır. Qloballaşma sülh və demokratiya ilə səciyyəvi olacaq, yoxsa əksinə, **aşkar və ya maskalanmış zorakılıqla?**

Nobel mükafatı laureatı öz məktubunun sonunda yazır: "Bizim heç bir "post-bəşəriyyətə" ehtiyacımız yoxdur. Bugünkü insan özünün bütün problemləri, sevinci və qüssəsi ilə birlikdə bunu başa düşməyə və gələcək nəsillərin timsalında özünü qoruyub saxlamağa qadirdir. Məsələ qloballaşma ilə mədəni plüralizmin qorunub saxlanması arasında, zorakılıqla problemin həllinin siyasi metodları arasında, müharibə mədəniyyəti ilə zəka mədəniyyəti arasında daha qısa yol tapmaqdan ibarətdir. Bu vəzifə bizim üzərimizdə ağır məsuliyyət yükü qoyur".

Hərtərəfli inkişaf etmiş və universal təfəkkürə malik bir alim olan Priqojin təbiət elmləri ilə humanitar elmlər arasında körpü salmağa cəhd göstərir. Priqojin bəşəriyyətin dünyaya baxışında elmi

paradiqmanın dəyişməsi və radikal dəyişikliklər barədə dərin ümumiləşdirmələrə müraciət edir. Təkamül paradiqması bütün kimya elmini, eləcə də biologiyanın və sosial elmlərin xeyli hissəsini əhatə edir. Yeni, dönməzlik dünyası, **daxili təsadüflər və mürəkkəbliklər dünyası kəşf edilir.**

**Priqojin qeyri-sabitlik fəlsəfəsini inkişaf etdirir.** O, zaman probleminə, "çərxi-fələyin" mənşəyinə, labüdlüyün təbiətinə xüsusi diqqət yetirir. Onun fikrincə, müasir dövrdə baş verən elmi inqilabın mahiyyəti ondan ibarətdir ki, **mürəkkəbliklər barədə müasir elm determinizmi** inkar edir və təkidlə iddia edir ki, təbii təşkilatın istənilən səviyyəsində kreativlik təzahürüdür. **Qeyri-sabitlik təbiətə xas olan mühüm xüsusiyyətdir.** Bir qayda olaraq bifurkasiya (latın sözü bifurcus - dinamik sistemin parametrləri cüzi dəyişdikdə onun yeni keyfiyyətlər kəsb etməsi, ikiləşməsi deməkdir) təkcə olmur, onlar bütöv kaskad şəklində mövcud olur. Nəticədə, davranışını qabaqcadan duymaq mümkün olmayan yeni makrostrukturlar yaranır, buna görə də **biz nə baş verəcəyini proqnozlaşdıra bilmərik.** Bu mənada, gələcək məsələsi açıq qalır. Bu, o deməkdir ki, hətta fundamental təbiətşünaslıq elmləri də tarixi elmlərə çevrilir, onlarda zamandan asılı olan temporal element yaranır, "müəyyənliklərin sonu" yetişir. Priqojin yazır: "Dünya formalaşma mərhələsindədir, biz özümüz isə bu formalaşmanın iştirakçılarına çevrilmişik. Biz təbiətlə dialoq aparmalıyq. Biz elə bir dövrdə yaşayırıq ki, **fərdi hərəkətlər böyük əhəmiyyət kəsb edir. Buna görə də elmdə müəyyənliklərin sonunun** yetişməsi təbiətin və bəşəriyyətin taleyi üçün insanın xüsusi məsuliyyət dövrünün başlanması deməkdir".

Belçikalı fizik və filosofun, bu elm ağsaqqalının müdrik sözlərini alqışlamaq və onun fikirlərinə tərəfdar çıxmaq olar!

**"Günay", N3, 18 yanvar 2003**

# "LEYLİ VƏ MƏCNUN" OPERASI - 95

95 il bundan əvvəl - beləcə bir qış günündə təkcə Azərbaycanda və Qafqazda deyil, hətta Rusiyada mətbuat orqanları içərisində tanınan, nüfuzlu, gündəlik tirajı 10 min nüsxəyə yaxın olan, azərbaycanlı iş adamı Hacı Zeynalabdin Tağıyevin nəşr etdiyi "Kaspi" qəzetinin 9 yanvar tarixli (yeni təqvimlə 22 yanvar) 7-ci nömrəsində "İz jizni i pressı musulman" ("Müsəlman həyatı və mətbuatında") sərlövhəli maraqlı bir yazı dərc olunmuşdu. İmzasız, lakin mənim təxminimə görə 1907-ci ildə Ə.M.Topçubaşovdan sonra qəzetin redaktorluğuna gətirilmiş məşhur mütəfəkkir, alim, yazıçı və publisist Əlibəy Hüseynzadənin qələmindən çıxmış bu maraqlı, tarixi əhəmiyyətli yazıda xalqımızın mədəniyyət tarixinin, milli intibahının mühüm bir hadisəsi haqqında məlumat verilirdi. "Leyli və Məcnun" operası haqqında bu ilk müjdənin mətnini olduğu kimi "Günay"ın oxucularına təqdim edirəm. "Kaspi"dən sonra yanvarın 10-da (23-də) "İrşad" və "Təzə həyat" qəzetləri də "Tağıyev teatrında ayın 12-də "Nicat" cəmiyyəti artistləri tərəfindən "Leyli və Məcnun" operası oynanacaqdır. Müdar Vəli və rejissor Ərəblinski", yanvarın 12-də "Kaspi" tamaşa haqqında, onun proqramı haqqında yenə elan və yazı dərc etmişdi.


Каспій

ОПЕРА НА МУСУЛЬМАНСКОМЪ ЯЗЫКѢ

ТЕАТРЪ Г. З. А. ТАГІЕВА

Въ субботу, 12-го января 1908 года

ЛЕЙЛИ И МЕДЖНУНЪ

ПРАВЛЕНІЕ

общее собраніе

Operanın müəllifi kimi ilk yazıda "gənc publisist və musiqiçi, bəstəkar Üzeyir bəy Hacıbəyov göstərilirdi. Məqalədə deyilirdi: "Leyli və Məcnun" - tanınmış türk yazıçısı və şairi Molla Məhəmməd Füzulinin fantastik poemasıdır. İndiyə qədər bu mövzuya müraciət edən olmamışdır. Gənc bəstəkar Füzulinin şerlərindən istifadə edərək bu mövzuya opera yazmışdır. Məqalənin sonunda böyük bir uzaqgörənliklə qeyd edilirdi ki, "Çox maraqlı olacağı gözlənilən bu operada Şərq motivlərindən zövqlə istifadə edilmişdir. "Nicat" artıq şəxsən müəllifin və Şərq

musiqisinin bilicilərinin rəhbərliyi altında opera artistlərindən ibarət truppa yaratmışdır. Bu truppa artıq tamaşaya hazırlaşmaqdadır. Operanın hazırlanması üçün xeyli xərc çəkilmişdir. Ümidvarıq ki, musiqini ürəkdən sevən müsəlman tamaşaçıları tatar (türk) dilində ilk dəfə yazılmış operanı diqqətsiz qoymayacaqlar".

Təkcə musiqi və mədəniyyət tariximizin deyil, Azərbaycan tarixinin bu əlamətdar hadisəsi haqqında 95 ildir ki, hər yeni nəsil öz sözünü demiş və uzun əsrlər boyu deyəcəkdir də. Həm də öz vətəninə, öz xalqına müqtədir müəllim, istedadlı publisist, yazıçı, dramaturq Azərbaycan milli operasının banisi, milli musiqi məktəbimizin dahi yaradıcısı kimi Üzeyirbəy hər an anılacaq, ondan öyrəniləcək, onun yolunu davam etdirməyə namus və qeyrətlə səy ediləcəkdir.

"Leyli və Məcnun" operasının tamaşaya qoyulmasının 95-illiyini qeyd edərkən Üzeyir bəyin istəkli qardaşı onunla birlikdə bu böyük tarixi hadisənin, yaradıcılıq işinin həyata keçirilməsində bilavasitə və yaxından iştirakçısı olmuş Ceyhun Hacıbəylini də xatırlamaq vicdani borcumuzdur. 1918-ci il dekabrın sonu və yanvarın əvvəllərində Ə.M.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin tərkibində müşavir kimi Fransaya, Versala yola düşən Ceyhun bəyə bir daha sevimli qardaşı Üzeyir bəylə görüşmək, vətənə dönmək məlum səbəblər üzündən qismət olmadı. Lakin hər ikisi xalqa, vətənə sədaqətlə xidmət etmək nümunəsi göstərdilər. Mühacirət həyatı yaşayan Ceyhun bəy də "Leyli və Məcnun" operasının ilk tamaşası haqqında xatirələrini qələmə almışdır. Bu xoş gündə həmin xatirə ilə keçən tanışlıq da məncə faydalı olar. Təkcə Azərbaycanı deyil, bütün Şərqin ilk operasını yazan, dünyaya gətirənlə yanaşı, onu ərsəyə gətirən, tamaşaya qoyan sənətkarlarımızı, səhnə ustalarımızı, tamaşanı alqışlayan, hətta Şamaxıdan tamaşaya gələn Abbas Səhhəti və onun ziyalı dostlarını yad etməyə borcluyuq.

Azərbaycanda "Leyli və Məcnun"la başlayan opera sənətkarlıq məktəbi yaranmış və davam etməkdədir. Bu tarixi gündə onları təbrik edir. Üzeyir bəy ənənələrini müstəqil Azərbaycanda daha böyük əzm və fədakarlıqla davam etdirmələrini arzulayırıq.

## MÜSƏLMANLARIN HƏYATINDAN VƏ MƏTBUATINDAN

Müsəlmanların "Nicat" Maarifçilik Cəmiyyətinin teatr seksiyası, eşitdiyimizə görə tatar dilində ən yaxşı dram və opera əsərləri üçün müsabiqə elan edir.

Bu günlərdə həmin seksiya gənc publisist və musiqiçi Ü.b.Hacıbəyovun bəstələdiyi tatar dilində olan "Leyli və Məcnun" operasının nəşri və tamaşaya qoyulması hüququnu almışdır. Müsəlman həyatında ilk opera olan bu əsər ilk dəfə şənbə günü yanvarın 12-də(25-də) Tağıyev teatrında göstəriləcəkdir. Operanın son dərəcə maraqla qarşılanacağı gözlənilir.

"Leyli və Məcnun" - tanınmış türk yazıçısı və şairi Molla Məhəmməd Füzulinin fantastik poemasıdır. İndiyə qədər bu mövzüya müraciət edən olmamışdır.

Gənc bəstəkar Füzulinin şerlərindən istifadə edərək bu mövzuda opera yazmışdır. Operanın librettosu belədir: "Gənc Qeys hələ məktəbdə oxuyarkən yerli hökmdarlardan birinin Leyli adlı qızına dəlicəsinə aşiq olur. Leyli də ona meyl edir, lakin onun Qeysə ərə getməsinə icazə vermirlər. Qeys ağlını itirib Məcnun (dəli) ləqəbi alır. Çölləri, çəmənləri, meşələri gəzib dolaşmağa, heyvanlarla ünsiyyət saxlamağa başlayır. Qeysin atası oğlunun yanına gəlib onu dilə tutur, özü ilə Məkkəyə aparır, lakin bu güclü məhəbbətin qarşısında Kəbə də aciz qalır. Məcnun yenidən meşəyə, öz vəhşi dostlarının yanına qayıdır.

Leyli İbn-Səlama ərə gedir. Zeyd bu xəbəri Məcnuna çatdırır, lakin Məcnunun məhəbbəti dönməzdir. O hətta bu xəbəri eşidəndə gülümsəyir.

Bir dəfə iş elə gətirir ki, Leyli meşədə karvandan geri qalır və hədsiz dərəcədə arıqlamış, bədənini tük basmış Məcnunla rastlaşır. Leyli ona öz gözəlliyindən zövq almağı təklif edir, lakin Məcnunun cavabı belə olur: "Məgər Leyli mənim qəlbimdən çıxmışdırmı ki, o mənim qarşımda dayansın?" Məcnunun bu cavabı Leylini mat qoyur və o çıxıb gedir.

Məcnun heyvanların böyüyü ayıdan xahiş edir ki, onu əvəz etsin. Ayı razılaşır və Məcnunun boynuna zəncir bağlayıb onu şəhərə apararaq camaata göstərir. Leyli Məcnunu bu halda görəndə onun iztirablarına dözməyib hönkürə-hönkürə üstünə atılır.

Leylinin əri ölür. O, atasının evinə qayıdır, Qeysə bəslədiyi hissləri açıb anasına söyləyir və az sonra qüssədən ölür. Leylinin ölüm xəbəri

meşədə yaşayan Məcnuna da çatır. O, hönkürə-hönkürə Leylinin qəbri üstünə cumur və özü də oradaca ölür.

Dahi yazıçının rəmzi ifadələri burada da təzahür edir. Leylinin və Məcnunun ölümündən sonra Zeyd yuxuda görür ki, onlar cənnətdə qol-qola gəzirlər.

Çox maraqlı olacağı gözlənilən bu operada Şərq motivlərindən zövqlə istifadə edilmişdir. "Nicat" artıq şəxsən müəllifin və Şərq musiqisinin bilicilərinin rəhbərliyi altında opera artistlərindən ibarət truppa yaratmışdır. Bu truppa artıq tamaşaya hazırlaşmaqdadır. Operanın hazırlanması üçün xeyli xərc çəkilmişdir. Ümidvarıq ki, musiqini ürəkdən sevən müsəlman tamaşaçıları tatar (türk) dilində ilk dəfə yazılmış operanı diqqətsiz qoymayacaqlar.

**"Kaspi" qəzeti,**
**9 (22) yanvar 1908-ci il, №7**

## MÜSƏLMAN DİLİNDƏ OPERA

### *H.Z.A.TAĞIYEV TEATRI*

Şənbə günü, 1908-ci il yanvarın 12-də "Nicat" cəmiyyətinin teatr seksiyasının opera artistləri müəlliflərin müşahidəsi və həvəskarların iştirakı ilə müsəlman səhnəsində ilk dəfə opera göstərəcəklər.

5 pərdəli, 6 səhnəli "Leyli və Məcnun" operası Füzulinin poeması əsasında Ü. və C.Hacıbəyov qardaşları tərəfindən musiqiyə köçürülmüşdür.

Qurbanın idarə etdiyi "Şərq" orkestri. Məxsusi bu pyes üçün tikilmiş yeni kostyumlarda və tam tərtibatda çıxış edəcək.

Müsəlman qadınlar üçün örtülü lojalar vardı.

Tamaşa düz axşam saat 8. 1/2-də başlanacaqdır.

**Rejissor Ərəblinski.**

## *İLK AZƏRBAYCAN OPERASI NECƏ YARADILDI*

*(CEYHUN HACIBƏYLİNİN XATİRƏLƏRİNDƏN)*

Mən və qardaşım Üzeyir (o məndən üç yaş böyükdür) lap gənc yaşlarımızdan musiqiyə böyük həvəs göstərirdik. Qarabağın öz təbiəti, xüsusən onun mənzərəli paytaxtı Şuşa başdan ayağa romantika ilə dolu olub lirika və poeziya sahəsində yaradıcılıq ilhamının mənbəyi idi.

Ən istedadlı müğənnilər və sazəndələr Qarabağda yetişmişdi. Xanəndələrdən Hacı Hüsü və Qaryağdıoğlu, tarzən Sadıqcan əsl dahi adlandırılmağa layiqdirlər. Bunlardan əlavə peşəkar olmayan çoxsaylı müğənnilər və tarzənlər də olmuşdur. Onların səsləri və çalğıları hər hansı başqa xanəndədən və sazəndədən heç də geri qalmır.

Bizim ana tərəfdən qohumlarımız arasında dörd müğənni və üç tarzən çox hörmətli şəxslərin xahişi ilə çıxışlar edirdi. Onların arasında dayılarım, dayı oğlanlarım və başqaları vardı.

Mənim də, qardaşım Üzeyirin də yaxşı xoşagələn səsimiz vardı. Tezliklə biz yalnız məşqlər hesabına nəinki təsniflərin (ritmik oxumaların), hətta klassik musiqinin (muğamatın və ya dəstgahların) da incəliklərini öyrəndik.

Deməliyəm ki, səsin qorunub saxlanması üçün zəruri olan vokal təmrinləri bizə bir qədər çətin gəlirdi, çünki atamızın və xüsusən çox zabitəli bir insan olan, üstəlik şəxsi həyatının uğursuzluğu üzündən şənlənməyə əsası olmayan dayımızın yanında oxumağa çəkinirdik...

O ki qaldı teatra, biz hələ məktəb skamyasında oxuyarkən Əbdürrəhim bəy Haqverdiyevin məşhur "Dağılan tifaq" pyesinin ilk tamaşasında iştirak edərkən (vokalçı kimi) teatrla ilk dəfə tanış olmuşduq. Bu tamaşa Şuşadakı rus-tatar məktəbinin baxıcısı Haşım bəy Vəzirovun yorulmaz əzmkarlığı və təşəbbüskarlığı sayəsində həvəskarların (əsasən müəllimlərin) qüvvəsi ilə hazırlanmışdı. Yeri gəlmişkən, biz ilk təhsilimizi həmin məktəbdə almışıq.

Bizim rolumuz o qədər də mürəkkəb deyildi: biz meşədə gəzə-gəzə aşağıdakı sözlərlə başlanan bir mahnı oxumalıydıq:

***Əsmə badi-səba,***
***Dəymə tellər, o tellərə,***
***Şanə vurma o tellərə,***
***Dad əlindən...***





Biz səhnə arxasında oxuyurduq. Səhnəyə çıxanda isə Nəcəf bəyin oğlunun meyidini görüb qışqıra-qışqıra qaçmalı idik: vay, burda bir ölü var!

Bütün bunlar o qədər də çətin deyildi və biz öz rolumuzun öhdəsindən uğurla gəldik (bizi çox tərifədilər), lakin bu epizod bizi teatra yaxınlaşdırdı.

Elə həmin yorulmaz təşəbbüskar Haşım bəy Vəzirovun sayəsində istər məktəbin özünün binasında (Xan sarayının ilk cinahı), istərsə də həmin zonada yeganə olan Xandəmirovun teatr salonunda yay mövsümlərində tamaşalar hazırlanırdı. Müəllimlərin əksəriyyəti yay istirahətinə gəldiyi dövrdə Mirzə Fətəli Axundzadənin, Tolstoyun, Mədətovun və başqalarının pyesləri tamaşaya qoyulurdu. Bir dəfə musiqili-vokal gecələrinin birində iki nəfər tələbənin ifasında Məcnun ilə Leylinin idillik musiqili-vokal dialoqu səsləndi. Füzulinin bu romantik poemasının süjeti ilə biz hələ məktəb yaşına çatmamışdan tanış idik, elə buna görə də o gecənin proqramındakı bu qısa nömrə bizə çox dərin təsir bağışladı.

Bu, bizim tamaşaçılar üçün nə qədər mövzü idi! Lakin o vaxtlar biz hələ könlümüzdə yetişməkdə olan ideyanı ifadə edə bilmirdik.

Sonradan biz Bakıda olarkən rus və italyan truppalarının opera tamaşalarını öz gözümüzlə görəndə bu ideya daha real forma kəsb etdi.

"Romeo və Cülyetta", "Tristan və İzolda", "Traviata", "Toska" - bütün bunlar "Leyli və Məcnun" mövzusuna çox yaxın olduğuna görə bizə daha dərin təsir bağışlayır.

Sentimentalizm romantikaya meyl edən qarabağlıların təbiətinə xas olan cəhətdir. Onu da deməliyəm ki, biz hələ Şuşadan Bakıya köçməmiş qardaşım Üzeyir Qori müəllimlər seminariyasında skripka çalmağı və not sistemini öyrənmişdi. Tətil vaxtı Şuşaya gələndə o, cidd-cəhdlə öz çalğısını təkmilləşdirir, bu isə mənə Avropa musiqisinin elementləri ilə tanış olmaq, operalardan ayrı-ayrı motivləri və ya romansları öyrənmək imkanı verirdi. Mən də öz tərəfimdən qardaşıma doğma musiqimiz sahəsində baş vermiş yeniliklərdən söhbət açır, yaxud muğamların bu və ya digər formaları barədə onun yaddaşını təzələyirdim.

* * *

Biz hələ Şuşada olarkən qəlbimizdə dolaşıq şəkildə yaranmış ideya Bakıda opera tamaşaları ilə daha yaxından tanış olandan sonra daha real forma kəsb etməyə başladı. Şuşada olduğu kimi Bakıda da təşəbbüskarlıq göstərən qardaşım oldu. O, mənimlə fikir mübadiləsi edir, əvvəlcə ümumi şəkildə, sonradan isə yaradıcılıq işinin təfsilatı ilə bu ideyanı gerçəkləşdirmək üçün mənim fikrimi soruşurdu.

Nə isə, 1907-ci ilin baharında biz işə başladıq. Şərait çox münasib idi: mən Üzeyirlə birlikdə "İslamiyyə" mehmanxanasında yaşayırdıq, ailəmiz isə böyük qardaşım Zülfüqarla birlikdə əyalətə getmişdi. Biz lirik nömrələrin əksəriyyətini Füzulidən götürməklə mətn tərtib edir və həmin nömrələri özümüzün yaratdığımız tam mətnə "yapışdırırdıq".

Ayrı-ayrı vokal nömrələri üçün biz muğam janrını seçmişdik (məsələn, Məcnunun atası üçün Rast və Çahargah, Məcnunun özü üçün - Şikəsteyi-fars, Bayatı-Şiraz və Segah və i.). Bundan əlavə xalq musiqisindən və ya orijinal motivlərdən ibarət təsniflərdən də istifadə edirdik. Bu sonuncu elementləri qardaşım nota köçürürdü. Tədricən o, xor ilə ifa üçün polifonik əsərlər yazmağa meyl edirdi.

Məlumdur ki, bizim musiqidə, əslində elə bütün Şərq musiqisində polifoniya olmamışdır, bizim ifaçılar unisonla və oktava ilə kifayətlənirlər. Sonradan qardaşım polifoniyanın tətbiqini təkmilləşdirdi. Beləliklə o, bu mühüm islahatın pioneridir.

Bizim təşəbbüsümüzdən xəbərdar olan dostlarımız çox deyildi. Məşhür dramaturq Əbdürrəhim bəy Haqverdiyevin bu işdə iştirakı xüsusilə qiymətli idi. O özü Avropa musiqisinə və not sisteminə bələd olduğu üçün bizə dəyərli məsləhətlər verirdi. Sonradan o hətta pyupitr arxasında Üzeyiri də əvəz etmişdi.

Özümüz də hiss etmədən iş irəliləyirdi. Bir neçə aydan sonra partitura hazır idi. İndi tamaşa barədə fikirləşmək, münasib orkestr və

artistlər seçib tapmaq lazım idi.

Üzeyir öz keçmiş seminariya yoldaşlarından ibarət simli orkestr yaratdı. Bu həvəskar skripkaçılar səylə məşq edərək öz çalğı alətlərindən əzəli "dınqıltıdan" fərqli olan əsl musiqi səsləri çıxarmağa nail oldular.

Şərq orkestrində əvvəlcə bir tar ("uzun" Zeynal), bir kamança (erməni Oqanezşvili) və bir qaval vardı. Sonradan Üzeyir Şərq çalğı alətləri əsasında not sistemini tətbiq etməklə böyük simli orkestr yaratdı.

Artistlər sarıdan məsələ çox mürəkkəb idi. Opera üçün güclü səsə malik artistlər axtarıb tapmaq lazım idi. Beləələri isə hələ yox idi. Dram və komediya tamaşalarında çıxış edən artistlərin heç səsi yox idi. Əsl müğənniləri axtarmaq da asan məsələ deyildi, çünki bizdə heç bir xanəndə (müğənni) səhnədə çıxış etmirdi. Halbuki Məcnun rolu heç də sadə deyildi. Bu rolun ifası çox mürəkkəb idi.

Münasib Leyli tapmaq məsələsi daha qəliz idi - o vaxtlar müsəlman qadınlar səhnədə çıxış etmirdi. Nəhayət uzun axtarışlardan və dostlarımızla məsləhətləşəndən sonra bu qərara gəldik ki, şəhər upravasında işləyən Məmmədhüseyn Sarablı bu məqsəd üçün yarayar. Onun çox xoşagələn səsi vardı və dram tamaşalarında həvəskar kimi bir neçə dəfə çıxış etmişdi. Bir sözlə, səhnədə özünü aparmağı bacarırdı.

Leyli rolunu biz öz yaxın qohumumuz Əhməd Bədəlbəyliyə tapşırdıq. Onun incə beli və bəstə boyu, üstəlik də cingiltili səsi bir qədər qadın məlahəti illüziyası yarada bilərdi (əlbəttə, ona qadın libası geyindirilmişdi).

Üzeyirin təkidli xahişi ilə Leylinin adaxlısı İbn-Səlam rolunu mən ifa etdim. Hərçənd, səhnədə rol oynamaq üçün özümdə heç bir hazırlıq hiss etmirdim (Doğrudan da, sən demə, mən səhnədə yalnız oxuyurammış. Yaxşı ki, bu rolun ifası elə bir aktyorluq məharəti tələb etmirdi).

Məcnunun atası rolu üçün isə biz çox "cəlbedici" bir adam tapdıq. Əslən Qarabağdan olan, muğam sənətini əla bilən və haçansa malik olduğu zəngin səsinin bir qismini hələ də qoruyub saxlamış müəllim Mirzə Muxtar bu işi öz öhdəsinə götürdü. Muğamla tanış olması onun özünə güvənməsinə əsas verirdi. Əslində zavallı qoca bu hesaba öz acizliyini gizlətmək istəyirmiş. Buna görə də o çox şıltaq və dəymədüşər olmuşdu. Çox vaxt məşqlərdə öz nömrəsini ifa edərkən o, "özündən çıxaraq" zilə qalxır, lakin elə dərhal yeni, bitib tükənməz improvizasiyalarla yaxasını qurtarmağa məcbur olurdu.

Tarzən "uzun" Zeynal da tündxasiyyət adam idi (təsadüfi deyil ki, o, Qarabağda ən sərrast atıcılardan biri sayılırdı). O, tarın simlərini son həddə qədər gərəndə Mirzə Muxtar sanki təzədən başlayır, bu isə uzun Zeynalı əsəbiləşdirirdi. O deyirdi: "Ay mirzə, qurtar da".

Mirzə isə acıqlı halda etiraz edirdi: "Rəhmətlik oğlu, qoymazsan musiqini tamam eləyim!"

Bir sözlə, Mirzə Muxtar çox baməzə adam idi. Elə onun zahiri görkəminə baxmaq kifayət idi ki, adamlar gülümsəyib onu şərh etməyə başlasınlar.



Mirzə Muxtarın azərbaycanlı uşaqlar üçün rus dili dərsliyi çox populyar idi. Dərsliyin rusca mətnində belə bir cümlə vardı: "V teçeniye vekov v Sibiri svirepstvovala prokaza". Mirzə həmin mətni sözbəsöz tərcümə etmişdi: "V - içində; teçeniye - axa-axa; vekov - qərinələr ilə; Sibiri - Sibirin; svirepstvovala - dabidad edirdi; prokaza - dəcəldəcəl uşaqlar ("prokazniki").

Bu cür narahatlıqlara baxmayaraq deməliyəm ki, Mirzə Muxtar öz rolunun öhdəsindən pis gəlmədi. Hər-halda sonradan da bu rolu ona tapşırırdılar. İbn-Səlamla Leylinin toyunda o, "özündən toqquşdurmağa" başladı: Bir klassik melodiyanı ərəb dilində ifa etməklə tamaşaçılara çox güclü təsir etdi.

Leylinin atasının rolu o vaxtlar hələ gənc həvəskar olan İmran Qasımova tapşırılmışdı. Peşəsi podratçılıq olan bu adam bizim təşəbbüsümüzdə çox fəal iştirak edirdi. Onun çox cingiltili səsi vardı (elə buna görə də bizim antreprizimiz onun ürəyincə olmuşdu), lakin Şərq musiqisinin qanunlarına bələd olmadığı üçün bəzən muğamata aludə olur və yüksək notlara üstünlük verirdi.

Xoreoqrafiya (balet) mənim məktəb yoldaşlarımdan birinə - Bəhram Vəzirova tapşırılmışdı. Onlar beş qardaş idilər. Bəhram

ortancıl qardaş idi. Onların barəsində deyirdilər: "Əgər Vəzirov qardaşlarının başları da ayaqları kimi qabiliyyətli olsa, onlar Qarabağda birinci olardılar".

Hər-halda Bəhramın improvizasiyası xeyli uğurlu oldu və o vaxtadək heç vaxt ərəb rəqsi görməmiş tamaşaçılar vəcdə gəlmişdilər. Təsəvvür edin ki, baletmeyster özü də heç vaxt ərəb rəqsi görməmişdi.

Personajların sayı artdıqca məşqlər üçün münasib bina barədə fikirləşmək lazım gəlirdi, çünki bizim mehmanxanadakı otağımıza bu qədər adam yerləşməzdi. "Leylinin atası" İmran Qasımov öz evini təklif etdi. Bu evin böyük zalı vardı və biz məşqlərimizin bir neçəsini orada təşkil etdik. Lakin İmranın böyük qardaşı Hacı Qasımov köhnə fikirli adam idi. O, bu məsələyə şübhə ihə yanaşır, bütün bu əhvalatları yabançı və qəribə hesab edirdi. O, başını bulayaraq deyirdi: "Bundan heç nə çıxmayacaq". (O vaxt bu skeptisizm və yeniliyə qarşı inamsızlıq mənim "Kaspi" qəzetində "Cey Dağıstani" təxəllüsü ilə dərc etdirdiyim "Müsəlmanın qeydləri" adlı silsilə məqalələr üçün ilk mövzü olmuşdu).

Ona (təkcə onamı?) elə gəlirdi ki, biz əlçatmaz, fantastik, qeyri-təbii bir sahəyə, adi müsəlman gerçəkliyi ilə bir araya sığmayan, pislənilməyə layiq fenomenə can atırıq.

Hər-halda gah burada, gah orada məşqlərimiz davam edirdi. Əvvəlcə ifaçılar arasında çox ciddi fərq vardı. Hər kəs səhnə intizamının və ifa dəqiqliyinin ziyanına fərqlənməyə çalışırdı. Xüsusən Mirzə Muxtar lap "enfant terrible" imiş. O, partituranın tələblərini bir kənara qoyub özünü böyük bir bilici kimi gözə soxmağa çalışırdı. "Leylinin atası" İmran Qasımov isə Şərq musiqisinin mürəkkəb incəliklərinə lazımınca bələd olmadığı halda bu qüsuru öz səs diapazonunun hədsiz dərəcədə geniş olması hesabına (o, üç oktavada oxuya bilirdi) ört-basdır etməyə çalışırdı, bu isə çox tez-tez detonasiyaya səbəb olurdu. Üzeyir və mən onu köhlən ata bənzədirdik: atlının səsi gəlməmiş yerindən cuman, cilovu gəmirən, ox kimi şığıyan bu at hər anda uçuruma yuvarlana bilərdi. Onu ipə-sapa yatırtmaq bizə çox çətinliklə müyəssər oldu.

Xorun üzvlərini də öz nömrələrini hamar ifa etməyə öyrətmək asan deyildi. Döyüşkənlər isə (beləlri də vardı) tamaşanın döyüş səhnələri zamanı ifrata vararaq öz zərbələrini musiqinin tempinə uyğunlaşdıra bilmirdilər.

Qeyd etməliyəm ki, bütün bu əziyyətin çox hissəsi qardaşım Üzeyirin üstünə düşürdü. Bəzən o, gecə saat ikiyə-üçə qədər oturub

işləyir, hədsiz hövsələ və inadkarlıqla səhnədə vokal musiqi ifasının harmonik ansamblını yaratmağa çalışırdı. Mən də öz imkanım daxilində ona kömək edirdim.

Azərbaycan səhnəsinə ilk milli opera gətirmək təşəbbüsümüz "Nicat" maarifçilik cəmiyyətinin ətrafında birləşmiş bəzi mütərəqqi elementlərin marağına və rəğbətinə səbəb olmuşdu (Əbdürrəhim bəy Haqverdiyev öz yerində). Cəmiyyətin bəzi üzvləri bizim fikrimizin ciddi olmasını yəqin edəndən sonra ilk milli operanın taleyində daha yaxından iştirak etməyə başlamışdılar.

Bu müəssisənin rəhbərləri arasında İsa bəy Aşurbəyov bizim təşəbbüsümüzün baş tutması üçün xüsusi fəallıq göstərirdi. Varlı və nüfuzlu bir nəsil kimi tanınmış Aşurbəyovlar ailəsinin nümayəndələrindən olan İsa bəy "İrşad" qəzetini maliyyələşdirən xeyriyyəçi idi. Bu qəzetin redaktoru, tanınmış Azərbaycan-türk publisisti və siyasi xadimi Əhməd bəy Ağa oğlu sonradan Türkiyə Milli Məclisinin deputatı seçilmişdi.

Mənim qardaşım Üzeyir "İrşad" qəzetinin əsas əməkdaşlarından biri idi (mən özüm də jurnalistlik fəaliyyətinə həmin qəzetdə başlamışam), İsa bəy isə həmin qəzetin naşiri idi. İsa bəy Üzeyirlə dost olduğu üçün bizə əlindən gələn köməyi etməyə çalışırdı.

Nəhayət, o əlamətdar gün, daha doğrusu, əlamətdar axşam gəlib çatdı. Hamımız həyəcanlanırdıq, müəlliflər isə hamıdan çox. Tamaşanın demək olar ki, bütün çətinliyi Üzeyirin üzərinə düşürdü. O, hələ də yorulmaq bilmədən məşqlər keçirirdi.

Bu hadisənin hansı gün və hətta hansı fəsildə olduğu yadımda deyil. Bircə onu bilirəm ki, 1908-ci il idi...

Üzeyir dirijor çubuğunu qaldırdı və Tağıyev teatrının tamaşaçı ilə dolu zalı gərgin bir maraqla tamaşanın başlamasının şahidi oldu.

Adətən teatrda səs-küy salan tamaşaçılar bu dəfə bütün tamaşa boyu "hermetik" şəkildə susurdu, onlar hətta aktyorları alqışlamağa da cəsarət etmirdilər. Təkcə xüsusilə sentimental tamaşaçıların gözlərindən axan yaş diqqəti cəlb edirdi. Leylinin atası öz qızını Məcnuna ərə verməkdən qəti imtina edəndə bütün tamaşaçılar həyəcanlanmışdı. Yalnız tamaşanın sonunda alqış sədaları eşidildi və əvvəldən axıradək özünü təmkinli aparmış tamaşaçılar nəhayət məmnunluq duyğularını, bu vaxtadək görmədikləri tamaşadan aldıqları ləzzəti ifadə etdilər.

Kvazihəvəskarların quruluşunda ilk Azərbaycan operasının tamaşası belə başlandı və belə qurtardı...

**"Günay", N4, 25 yanvar 2003**

## NARGİNDƏ DƏ SOYQIRIMI MUZEYİ YARADILA BİLƏR

"Günay" qəzeti çox mühüm bir məsələ qaldırıb. Nə üçün Azərbaycanda bu vaxta qədər soyqırım muzeyi yaradılmayıb? Neçə illərdir ki, bu barədə kitablar yazılır, sənədlər çap olunur. Elə bu yaxınlarda Türkiyə Cümhuriyyəti Başbakanlıq Dövlət Arxivləri Genel Müdirliyi Cümhuriyyət Arxivi Dairə Başkanlığı "Azərbaycan bölgələrində erməni sorunu (1918-1920)" adlı sənədlər məcmuəsini nəşr etmişdir. 682 səhifəlik bu fundamental sənədlər toplusuna Azərbaycan Cümhuriyyəti Baş Arxivlər İdarəsi müdiri Ataxan Paşayev 14 səhifəlik dəlilli-sübutlu elmi-tarixi bir "giriş" yazmışdır. Sənədlər var, öldürənlər və ölənlər məlum, muzey yaratmaq üçün yerlər də az deyil. Mən belə bir muzeyin ölüm düşərgəsi - Nargin adasında da yaradılmasını təklif etmək istəyirəm. Gəlin "Hümmət" qəzetinin 1917-ci ilin noyabr-dekabr nömrələrində N.Nərimanovun Nargin səfərində gördükləri barədə yazdıqları ilə tanış olaq. Bu tarixi sənədlər adını çəkdiyimiz kitabda yoxdur. Məlumdur ki, 1914-1917-ci illərdə Rusiya qoşunları Sarıqamış, Ərzurum və Trabzon cəbhələrində Türkiyə sərhəddini keçmiş və xeyli ərazi tutmuşdular. Rusiya qoşunları ilə yanaşı daşnakların təşkil etdikləri hərbi dəstələr də bu əməliyyatlarda fəal iştirak edirdilər. Daşnak hərbi quldur dəstələri birinci növbədə dinc əhaliyə divan tutur, minlərlə, on minlərlə türkü - qoca, qadın, uşağı öldürəni öldürür, yerdə qalanları hərbi əsirlərə qataraq ölüm düşərgələrinə gətirirdilər. Gözdən uzaq belə ölüm düşərgələrindən ən irisi Nargin adası idi. 1917-ci ilin noyabrında N.Nərimanov St.Şaumyan və digər bolşevik libası geymiş daşnakların ciddi müqavimətinə baxmayaraq, Nargina getməyə, ordakı vəhşiliyi öz gözlərilə görməyə müvəffəq olmuşdu. "Hümmət" qəzetindəki yazılar bilavasitə bu müşahidənin nəticələri idi. Bu tükürpədici, nifrət doğuracaq soyqırımı mənzərəsi ilə siz də tanış olun, görün Nargində də soyqırımı muzeyi yaratmaq olar, ya olmaz! Qeyd edim ki, daşnak bolşeviklərin keçən əsrin 20-30-cu illərində Azərbaycanda həyata keçirdikləri genosid vaxtı da Nargin ölüm düşərgəsi olaraq qalmışdı.

## *GÖZ YAŞI TÖKDÜRƏN CƏZİRƏ*

Kaş mən bu cəzirəyə getməyəydim. Kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş "əfəndim, su!", "əfəndim, yemək!", "əfəndim, paltar!", - sözlərini eşitməyəydim. Kaş çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış, atasız-anasız balaca balalarla söyləşməyə idim. Kaş xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim!

Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır. Tifmi, vəbamı və ya bir qeyri sirayətedici mərəzmi bunları cəzirəyə qurban edəcəkdir?

Yox! Yox!

Aclıq! Susuzluq və soyuq!

Müsəlmanlar: "əfəndim, su!" Almanlar, avstraliyalılar, "su", deyib gözlərinizə baxdıqda guya demək istəyirlər: siz insanmısınız? İnsaniyyətə dair qanunlarınız varmı? Siz millət balasısınızmı? Zavallı millət balalarına cavabınız nədir?

Sizə baxan, sizi mühakiməyə çağıran bu gözlərdə siz bu sözləri oxuyursunuz? Oxuyub da ürəyiniz sıxılır, gözləriniz ixtiyarsız yaşarır.

Mən ağladım... Mən gündə mərəzlər arasında gün keçirən, gündə dürlü-dürlü xəstələrin ah-naləsini eşidən, onların axır dəqiqələrinə öyrənmiş - tab gətirə bilməyib ixtiyarsız ağladım...

Ağlamamaq mümkünmü? Vaxtında ata-ananın göz işığı və sonra uşaqlar pərəstdarı və daha sonra vətən qəhrəmanı bir insan - indi ilanlar məskəni olan susuz bir cəzirədə can verirkən, quru, partlamış dilini çıxarıb deyir: əfəndim, su! Əfəndim, yemək! İndi mən də qulaqları eşidənlərə, vicdanları oyanmışlara üzümü tutub da o zavallı cəzirə əsirlərinin sözlərini təkrar edirəm: əfəndim, su! Əfəndim, yemək! Paltar! Bu göz yaşı tökdürən cəzirə sizi gözləyir, sizə ümid bağlayır. Əmin olunuz, siz də mən gördüyümü görsə idiniz və bir şey əlinizdən gəlməməyini düşünsəydiniz, siz də mənim kimi deyərdiniz: kaş bu cəzirəyə getməyəydim.

**N.Nərimanov**
***"Hümmət" qəzeti, №21,***
***28 noyabr 1917-ci il.***

## *NARGİN CƏZİRƏSİ BARƏSİNDƏ YOLDAŞIMIZ N.NƏRİMANOVUN DUMADA DEDİYİ SÖZLƏR:*

"Cəzirənin halı hər tərəfdən fənadır. Buradakı evlər adamlar üçün tikilməyibdir. Bu evlər qaranlıq, üfunətli, soyuq daxmalardan ibarətdir. Bunların soyuqluğuna səbəb nəinki yandırılmamaqdır. Xeyr! Burada heç vaxt peç yandırmazlar. Çünki odun yoxdur, bu daxmaların soyuqluğuna səbəb taxtaların aralarında olan deşiklər və damların üstəki şişəsiz pəncərələrdir... On dəqiqədən artıq bu evlərdə qala bilmədik. Əsirlərin halları ağır, vəziyyəti təsvirolunmazdır...

"Mən sağlamlar üçün bişən şorbanı gördüm: itini sevən kişi bunu itinə verməz... Su da burada çox vaxt tapılmır... burada insanlar susuzluqdan can verirlər...

Bu zavallı əsirlərin hallarını daha aşkar nəzərə gətirmək üçün burada bir neçə sifralar söyləmək istərdim:

| Aylar | adamdan | adam | ölübdür |
|---|---|---|---|
| keçən mayda | 660 | 1 | |
| iyunda | 900 | 18 | |
| iyulda | 1700 | 20 | |
| avqustda | 1000 | 39 | |
| sentyabr | 1000 | 64 | |
| oktyabr | 2700 | 267 | |
| noyabr | 2300 | 617 | |

Hazır hər gün 40-45 adam ölməkdədir.

Nə isə, bu cəzirə bir məzardır. Bu məzarın kənarında hazır min adam növbədə durubdur və 7 min sağlam adam da bu növbəyə hazırlaşır. Gərəkdir daş ürəkli olasan da bu vicdansızlığa davam edəsən. Acıqlı, hirsli halında insan insan barəsində bu dərəcə vicdansızlığa meydan versə, bəlkə də təbii ola. Fəqət, mürur ilə hər saat, hər gün, həftələr, aylar, illərlə bu hərəkətdə bulunmaq insanlıq hərəkəti deyildir. İnsan balası ilə bu tövr rəftar nəinki azad Rusiyada gərəkdir görünməsin, hətta vəhşilər arasında görünməyibdir...

***"Hümmət" qəzeti, №23, 11 dekabr 1917-ci il.***

## *NARGİN CƏZİRƏSİ*

14-cü lazaret əsirlərə yardım edən komitənin ixtiyarına verilmiş. İki gündən sonra bu lazaret Nargindən 130 uşaq götürəcəkdir. Bunların xərci camaatdəndir.

***"Hümmət" qəzeti №25,***
***1 yanvar 1918-ci il.***

## İDARƏYƏ MƏKTUB

"Ay Bakıda yaşayan türk və islam qardaşlar! Sizdən bir qaç verst məsafədə bulunan qanlı Nargin ölüm cəzirəsində bir çox türk əsirləri olur, öldürülür. "Hümmət" və "Bəsirət" qəzetlərində doktor Nərimanov və Hacı Qasım cənabları tərəfindən bu cənabların yazdıqlarını oxuyan sevgili və möhtərəm oxucular əllərindəki və ovuclarındakı pullarını "köməkçi cəmiyyəti"nə verdilər, bu məzlum və məsum din və qan qardaşlarına köməkdən geri durmayacaqlarını əhd və peyman etdilər"...

Bir gün soldat paltarında ölüm cəzirəsinə getdim. Bir çox əsirlərlə görüşdüm, dərdləşdim. Öyrəndiklərimi iştə yazıram: "Orada türk olan 3500 soldat, 85 zabit var. Bir neçə dəfə Hacı cənabları tərəfindən min beş yüz manatlıq ət, çörək, düyü... əsgərlərə yetirilmişdir. "Köməkçi cəmiyyəti" tərəfindən zabitlərə bir miqdar noxud, lobiyə, makaron, un, fındıq, pendir, hər 3 zabitə bir funt tabaq... və s. göndərilmişdir".

Sonra məktubda deyilir: "Ey bakılılar, biz ilan yatağında, ölüm cəzirəsində, qartal pəncəsində can veririk, su! Su! Acam! Üşüyürəm! - deyə çağıran dindaşların, qardaşlarınızın yardımına dəvət edirik". "Bir ay ərzində bütün əsirlər öləcək, məhv olacaqdır. O zaman Nargin türk əsira qərargahı deyil, türk məzarı olacaqdır. O zaman isə Nargin cəzirəsi deyil, qanlı ada, ölüm cəzirəsi, türk məqbərəsi olacaqdır".

**Ağa Gündüz**
***"Hümmət" qəzeti, №27,***
***16 yanvar 1918-ci il.***

**"Günay", N5, 1 fevral 2003**

# "QARTAL"

## *F.M.DOSTAYEVSKİDƏN DİLİMİZƏ İLK TƏRCÜMƏ*

Bir əsrdən artıqdır ki, Qərbdə mürəkkəb, ziddiyyətli, bəzən anlaşılmaz, əsrarəngiz rus həyat və düşüncə tərzini, idarəetmə və davranış mahiyyətini duymaq, öyrənmək istəyənlər ilk növbədə F.M.Dostayevskinin (1821-1881) əsərlərinə müraciət edirlər. Bu təcrübə bizim günlərimizdə də davam etməkdədir. Yazırlar ki, ABŞ prezidentliyinə iddialı olan kiçik Corc Buş da Rusiyanı öyrənmək üçün F.M.Dostayevskinin əsərlərini mütaliə edirmiş. Çox faciəli 60 illik ömür sürmüş bu dahi sənətkar bəşəriyyətin mübtəla olduğu bəlalardan çıxış yolunu insanların mənəvi təkamülündə görürdü. Onun rəğbəti xalqı soyan, əzən, düşünən başları məhv edən mələk simasına girən hakimlərə deyil, sadə, cəfakeş insanlara idi. Əsərlərinin adlarına diqqət yetirin: "Yoxsul insanlar", "Alçaldılmış və təhqir edilmiş insanlar", "Ölü evdən məktublar", "Cinayət və cəza", "İdiot", "Şeytanlar" və s.

Rusiyanın hakim dairələri, o cümlədən Sovet rəhbərliyi Dostayevski yaradıcılığına qərəzli yanaşmış, onun geniş təbliğinə hər vəchlə maneçilik törətməyə çalışmışdı. Lakin vətənpərvər rus ziyalıları və L.N.Tolstoy kimi nəhəng yazıçılar Dostayevski irsinə çox böyük qiymət vermiş, onun araşdırılması və nəşri işinə böyük əmək sərf etmişdilər. Bəs Azərbaycanda F.M.Dostayevski yaradıcılığına münasibət necə olmuşdur? Bu suala ətraflı cavab vermək ədəbiyyatşünaslarımızın işidir. Lakin öyrəndiyim budur ki, rus klassiklərinin əsərlərini ana dilimizə tərcümə edənlərdən heç biri 1914-cü ildə M.Ə.Rəsulzadənin tərcümə edib "İqbal" qəzetində dərc etdirdiyi "Qartal" hekayəsi istisna edilməklə keçən əsrin 50-ci illərinə qədər Dostayevskinin tərcüməsilə məşğul olmamışlar. 1956-cı ildə "Alçaldılmış və təhqir edilmiş insanlar", 1960-da "Cinayət və cəza", 1971-də onun "Seçilmiş əsərləri" ana dilimizdə nəşr olunmuşdur. Bu böyük söz ustasının əsərlərini dilimizə B.Musayev, Y.Əzimzadə, C.Cahanbaxş, T.Ələkbərov, Q.İlkin və başqaları tərcümə etmişlər. Lakin göstərdiyimiz kimi, Dostayevskini dilimizə ilk tərcümə edən M.Ə.Rəsulzadədir. Bu təsadüfdürmü? Böyük öndərimiz, milli istiqlal hərəkatımızın lideri, milli dövlətçiliyimizin yenidən bərpası və dirçəldilməsinə başçılıq edən bir tarixi şəxsiyyətin yaradıcılığını uzun illər boyu tədqiq edib öyrənən qələm əhli kimi cavab verirəm ki, yox! "Qartal" hekayəsi onun qəlbini riqqətə gətirən çox böyük sənət nümunəsi kimi diqqətini cəlb

etmişdi. Həm də bu M.Ə.Rəsulzadənin ilk tərcüməsi deyildi. Onun müəyyən etdiyimiz ilk tərcüməsi 1905-ci ildə "Həyat" qəzetinin 109-cu nömrəsində dərc olunmuş Cəlil Məmmədquluzadənin "Kavkazski Raboçi listok" (XI-XII.1905) qəzetinin 3-cü nömrəsindən götürülmüş "Obezdolennıe" məqaləsidir. Məqalə "Binəsiblər" sərlövhəsilə dərc olunmuşdur. M.Ə.Rəsulzadənin fars dilindən ana dilinə ilk tərcüməsi isə "İrşad" qəzetinin felyeton qismində "Hafizdən tərcümə" sərlövhəsilə verilmiş şerdir. Bununla əlaqədar "Həyat" qəzetində qəzetin redaktoru Əlibəy Hüseynzadənin "İntiqad" (tənqid) sərlövhəli yazısı da çıxmışdır. M.Ə.Rəsulzadə 1907-ci ildə Ü.Hacıbəyovun hazırladığı "Türk-rusi və rusi-türk lüğəti"nin redaktoru və naşiri idi. Hətta bu lüğətə "Naşir tərəfindən" adlı bir söz də yazılmışdı. Bu faktların sayını artırmaq da olar. 1909-cu ilin fevralında M.Ə.Rəsulzadə Rusiyanın ən nüfuzlu qəzetlərindən hesab olunan "Russkoye slovo" (1895-1917) qəzetinin xüsusi müxbiri, tanınmış jurnalist Tardov və onun xanımı ilə (Q.P.Tardov - 1919-20-ci illərdə III kominternin İrandakı İnformasiya Bürosunun rəhbəri oldu) birlikdə, həm onların tərcüməçisi (fars-rus, rus-fars, rus-türk, türk-rus) və həm də "Tərəqqi" qəzetinin xüsusi müxbiri kimi İrana getmişdi. 1909-1911-ci illərdə Tehranda fars dilində gündəlik "İrani-növ" qəzetinin baş redaktoru kimi, həm də tərcüməçi kimi böyük və gərgin fəaliyyət göstərmişdir. 1913-cü ilin yazında İstanbuldan Bakıya qayıdarkən onun Türkiyədə tərcüməçiliklə də çox ciddi məşğul olmasına dair faktlar vardır. Mən bu haqda az da olsa yazıldığından onların üzərində dayanmıram. Bakıya qayıtdıqdan sonra qəzetlərdə M.Ə.Rəsulzadənin L.N.Tolstoy, A.M.Qorki, M.Y.Lermontov, fransız yazıçısı Alfons Dode və b. etdiyi tərcümələri də məlumdur. Bəs "Qartal" hekayəsini M.Ə.Rəsulzadə F.M.Dostayevskinin hansı nəşrindən götürüb tərcümə etmişdir? Sən demə, bunu müəyyən etmək də o qədər asan məsələ deyilmiş.

Mən M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxasının biblioqrafiya şöbəsinin Arifə xanım başda olmaqla üç nəfər təcrübəli işçisi ilə F.M.Dostayevskinin bu vaxta qədər nəşr olunmuş biblioqrafiyasını necə deyərlər, ələk-vələk elədik, "Oryol" adlı hekayəyə, əsərə rast gəlmədik. F.M.Dostayevskinin 1904-1906-cı illərdə nəşr olunmuş 14 cildlik, 1911-ci ildə çıxmış əsərlərinin 23 cildlik tam nəşrini nəzərdən keçirdik. "Oryol" adlı hekayəyə rast gəlmədik. Qeyd edim ki, keçən əsrin 40-cı illərinə qədər ümumiyyətlə, F.M.Dostayevskinin heç bir əsəri ("Qartal" istisna olmaqla) Azərbaycan dilinə tərcümə edilməmişdir. Bəs M.Ə.Rəsulzadə hekayəni hardan götürmüş və tərcümə etmişdir? Azərbaycan Dövlət Slavyan Universitetinin rus ədəbiyyatı

**müəllimlərinə müraciət etdim. Onlar dəqiq deməsələr də, bir ip ucu göstərdilər: "Ölü evdən məktublar" (1861-1862) əsərini nəzərdən keçirdim, "Oryol" sərlövhəsinə rast gəlmədim. Əsəri başdan-ayağa oxudum. Məlum oldu ki, onun "Katorjnie jivotnıe" fəslinin sonunda məlum hekayə sərlövhəsiz nəql edilib. Bu əsər F.M.Dostoyevskinin 1914-cü ilə qədər nəşr olunmuş cildlərində də var. Beləliklə, M.Ə.Rəsulzadənin "Qartal" adı ilə tərcümə etdiyi rus dilində mətnini müəyyən edə bildim. İndi əsərin hər iki rus və Azərbaycan dilində tərcümə edilmiş mətnlərini "Günay"ın oxucularına təqdim edirəm. Bu Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi ərəfəsində onun təməl daşını qoyanlardan birincisi olan M.Ə.Rəsulzadənin mənalı həyat və yaradıcılıq yolundan bir örnəkdir.**

## *QARTAL*

Dostayevski F.M.

Qartal cinsindən "qara quş" dəxi bir müddət bizim məhbəsin (həbsxananın) dairəsində yaşadı. Kim isə onu məcruh (yaralı) və əzilmiş bir halda dairəyə (həyətə) gətirmişdi. Zavallı uça bilmirdi, sağ qanadı yerdən sürünür, bir ayağı da arxasından gəlirdi. Ətrafındakı izdihamı necə dönərək qorxunc bir baxışla seyr etdiyini və öz həyatını baha bir qiymətə satmaq üçün dimdiyinin necə bir tövr təhdid olaraq açılıb-yumulduğunu indi də xatırlayıram.

İzdiham onu seyr və tamaşadan fərağət edincə qara quş bir ayağı üzərində tullanır, bir qanadı ilə çırpınır, axsaya-axsaya qoşur və dairənin bir bucağına sıxışıb qalırdı. Bu sürətlə qara quş üç ay tamam dairədə qaldı və heç zaman öz bucağını tərk etmədi. Əvvəlləri tez-tez gəlir, ona tamaşa edir və "Şarik" köpəyi dəxi üstünə qısqırdırlardı. "Şarik" də cəsarətlə atılır, fəqət pək yaxın getməyə qorxurdu. Bu isə məhbusların keyfinə gəlirdi.

- Vəhşi təslim olmur! - deyirdilər.

Sonra "Şarik" də qartala artıqlaması ilə əziyyət verməyə başlamışdı. Köpəyin qorxusu da artıq götürülmüş, qısqırıldığı zaman zavallı quşun yaralı qanadından yapışırdı. Qartal dimdiyi, caynağı və var qüvvətilə çırpınır, mütəəzzimanə (əziyyətli) bir halda müdafiə olunur, yaralı bir padşah kimi ona tamaşa edənləri acılı bir baxışla süzürdü. Axırı hər kəs yorulur və qara quşu unudurdular.

Məəmafih (bundan sonra) hər gün quşun yanında bir parça təzə ətlə bir qab su görmək olardı. Kim isə qartalı sevir və ona göz yetirirdi. Əvvəlləri o yemək də istəmirdi. Hətta bir neçə gün yemədi

də. Nəhayət, yeməyə başladı. Fəqət, hər halda əldə və yaxud insan hüzurunda verilən yeməkləri qəbul etməzdi. Çox kərə oldu ki, mən onu uzaqdan seyr və tədqiq etdim. Özünü yalqız hesab elədiyi zamanlar, bəzən bucağından dişarı çıxır və iyirmi qədəm bir məsafə təbilə təkrar yerinə dönür. Yenə mövqeyindən çıxır, təzədən ovdət edirdi (geriyə dönürdü).

Məni görür-görməz qartal zaman yerinə qoşur, başını arxaya ataraq dimdiyini açır və tüklərini ürpədərək hərbə hazırlanırdı. Mən onu hər cür bir təltif və nəvazişlə özümə ram edə bilmirdim, dimdikləyir, çırpınır. Əlimdəki əti almır və daima qorxunc gözlərini gözlərimə dikib baxır, bir an qəflət etmirdi. Əvət, o kimsəyə etimad göstərmir, kimsə ilə sülh etmir, barışmaz bir düşmən qalaraq ölümünü gözləyirdi.

Artıq iki ay oldu ki, kimsə qara quşu xatırlamır, onu düşünmürdü. Fəqət son günlərdə hər kəsdə ona qarşı bir mərhəmət hissi oyandı, qartalı dairədən xilas etməyə qərar verdilər.

Məhbuslardan bəzisi - ölsə də barı dairədə - məhbəsdə ölməsin - dedilər.

Başqaları - demək azad və xəşin (sərt) bir quşdur, məhbəs dairəsilə tələttüfi (rəftar) - qəlb edə bilmir - deyə bəyan etdilər.

- Bizim kimi deyil - demək, - deyə bir başqası əlavə elədi.

- Bəs görmürsən ki, o quşdur, biz adamıq.

- Qartal bilmirsiniz arkadaşlar, ormanların padşahıdır... deyə boşboğaz Skuratov başladı... Fəqət bu kərə ona qulaq asan olmadı.

Bir kərə nahardan sonra idi ki, təbil vuruldu.

İşə girmək zamanı gəlmişdi. İşə yenə qartalı aldılar. Dimdiyini sıxdılar - çünki o müdhiş bir surətdə hücum edirdi. Hasara irdilər, quşu yola salan 20 kişi fövqəladə bir maraqla quşun haraya gedəcəyini görmək istəyirdi. Qəribə şey: hər kəs məmnun və müstərih (rahatlanmış) kimi nəzərə gəlirdi. Elə bil ki, bir dərəcəyədək özləri azad olurdular. Quşu aparmaqda olan məhbus:

- Əcayib şey, nə yaman məxluq, nə yaxşılıq edirsən də dimdikləyir! - deyə kəmali-şəfqətlə qorxunc quşa baxmaqda idi.

- Mitqa, haydı burax getsin!

- Sən o şəfqətli baxışdansa, ona hürriyyət ver, hürriyyət, o mərhəmət düşgünü deyil.

Qartalı hasarın üzərinə çıxardılar və oradan çölə buraxdılar. Bu, payız günlərindən soyuq və tutqun bir gündə idi. Saralmış payız səhrasında külək acıqlı fışqırıqlar veriyordu. Qartal sağ olan qanadı ilə çırpınmağa və olanca qüvvətilə qaçmağa başladı. Elə bil ki,

bizdən uzaqlaşmağa fövqəladə əcələ edirdi (tələsirdi). Məhbuslar maraqla baxır və haraya getdiyini təqib edirdilər.

Birisi mütəfəkkiranə: - Görüyormusan - dedi;

- Heç dönüb baxmır da - deyə o biri əlavə etdi;

- Heç bir dəfə də olsun, dönmədi, qaçır.

- Sənə dönüb təşəkkürmü edəcək - zənn etdin. - deyə üçüncüsü sordu...

Məlum! Hürriyyət!, azad olmuş!

- Demək Svaboda!

- Artıq görünməyir qardaşlar...

- Haydı, nə duruyorsunuz!!! - deyə müstəhfizlər (mühafizəçilər) bağırdı və hamısı sükut edərək işə başladılar.

**Mütərcimi: M.Ə.RƏSULZADƏ,**
*"İqbal" №546, 3 yanvar, 1914.*

**TƏRCÜMƏ**
*F.M.Dostayevskinin məqalədə adı çəkilən əsərləri*

**"Günay", N6, 8 fevral 2003**

## KÖHNƏ DÜNYANIN YENİ DÜZƏNİ BAŞ TUTACAQMI?

Yaşamağa başladığımız əsrin ilk ciddi sarsıdıcı 11 sentyabr hadisəsi dünyanın siyasi atmosferində tufan yaratdı. 19-cu yüzilliyin sonlarından öz iqtisadi, elmi-texniki, sənaye potensialı və maliyyə qüdrətilə dünyanın əsas güc mərkəzlərindən birinə çevrilməyə başlamış, keçən əsrin 90-cı illərindən isə dünyanın ikinci fövqəldövləti SSRİ-nin süqutundan sonra yeganə fövqəldövlət statusunu qazanmış ABŞ beynəlxalq terrorizmin hücumuna məruz qaldı. Əgər bu misli görünməmiş "ustalıqla" həyata keçirilmiş təcavüz əməli ABŞ-a yox, digər bir ölkəyə qarşı törədilsəydi, əlbəttə ki, bu reaksiyanı bu ölçüdə, bu əndazədə doğura bilməzdi. Özünü əsas konflikt və çarpışmalar meydanından çox-çox kənarda hiss edən, qüdrətinə və təhlükəsizliyinə inanan Amerika sarsıntı keçirdi, ətrafına və dünyaya yenidən başqa nəzərlə baxmağa başladı. Corc Buşun prezidentlik illərinə düşən bu siyasi fırtına indi təkcə onun ölkəsində

deyil, dünyanın hər tərəfində hiss edilməkdədir. ABŞ ona qarşı yönəldilmiş hücumu, təhlükəni bütün dünyaya, dünya demokratiyasına qarşı təhlükə və hücum kimi təsvir edir, əsaslandırmağa çalışır. Belə bir şəraitdə də, təhlükəni hiss edən hər bir dövlət yeni dünya düzəninin formalaşmasında öz yerini müəyyənləşdirmək məcburiyyətindədir.

Tarixdən az-çox xəbəri olanlar dünyada bu növ fırtına və müharibə alovuna səbəb olmuş hadisələrə təsadüf edildiyini bilirlər. Yeni dünya düzəni məsələsi də yeni deyil. Elə keçən 20-ci əsrdə Avropada nasional-sosialistlərin "ordine-nuovo" (yeni qayda), Rusiyada bolşeviklərin "bəşər tarixində yeni era" açmaq planları, birinci və ikinci dünya müharibələrilə dünyanı yenidən bölüşdürmək və formalaşdırmaq cəhdləri də hafizələrdə və tarixdə yaşamaqdadır. Bu cəhdlərin bəşəriyyətə necə baha başa gəldiyi də məlumdur. Köhnə dünyanı bünövrəsindən dağıdıb yeni tərzdə tikmək meylləri ilk baxışda cazibəli, lazımlı və mütərəqqi səciyyəli görünsə də əslində çox ağrılı, bəzən fəlakətlə nəticələnən proses kimi də qarşıya çıxır. Əfqanıstanda taliblərin rejimi silah gücünə devrildi, onminlərlə əfqan həlak oldu, ölkə yenidən dağıdıldı, bəs yerinə nə qurulur, nə vaxtadək əfqanlar yenidən müstəqil milli dövlətin fəaliyyətinə nail olacaqlar? Minillər boyu formalaşmış həyat tərzini Amerika və Avropasayağı həyat tərzilə əvəz etmək asanmı olacaq? Güc sahibləri saydıqlarını saysınlar, amma görək fələk nə sayacaq?

Elə indi qarşılaşdığımız İraqla bağlı hadisələrin ilk variantını nəzərdən keçirək. Türkiyənin aylıq akademik siyasi-kültürəl "Tanıtım" jurnalında 1990-cı ilin avqust tarixli 133-cü nömrəsində 1-ci səhifədə "İsti günlər" sərlövhəli baş məqalə və iki şəkil verilmişdir: Səddam Hüseyn və Corc Buşun şəkilləri. 1-ci şəklin altında "Səddam, - hiddətli", ata Buşun şəkli altında isə "Buş gerçək müttəfiq sözünü ağzından düşürmür..." sözləri yazılmışdır. Baş məqalə bu sözlərlə başlayır: "Keçən bir ay savaş ssenarilərilə keçdi, önümüzdəki günlərdə 1 sentyabrla dünya barış gününə girəcəyik. Bəlkə də savaş ssenariləri bu gündə həyata keçirilməyə başlayacaq. Çox təəssüf!...

Küveyt böhranı, ya da Ortadoğu atəş çəmbəri yalnız yerli olmaqdan çıxmış. Dünyanın təkcə artıq uzaq olmayan o biri ucundan - ABŞ-dan deyil, isti savaşın zəruriliyi ssenarilərinə dəstək verən ölkələr tərəfindən də oyun içində oyunlar həyata keçirilməyə başlanmaq üzrədir...

Dünya bölgələri tam yenidən şəkillənməyə başlanır. Həm də əvvəlcə qansız, davasız ikən - İraq lideri Səddam Hüseyn daxili

hesablamaları nəticəsində qüvvət tətbiq edərək Küveyti işğal etdi. Dövlətlər və beynəlxalq qanunları heçə sayan və insanlıqdan kənar girovlar məsələsi ortada ikən bir də gördülər ki, işğal iki cəbhəli bir səciyyə alır. Şərq-Qərb qarşıdurması yerini Şimal-Cənub qarşıdurmasına buraxır. Bu mənzərəyə hər kəs indi öz pəncərəsindən baxır. Böyük güc olmaq həvəsliləri yeni bir imperialist strategiya və taktikası şövqündədir. Bu arada onlar öz ssenarilərinə tərəfdar toplamaq üçün əllərindən gələni edirlər. Elə ssenarilər həyata keçirmək istəyirlər ki, nə bu ssenariləri hazırlayanlar, nə də onu həyata keçirmək istəyən dövlətlər ipin ucunu tapa bilmirlər. İraq isə haqsız və beynəlxalq qayda-qanunları heçə sayan bir dövlət olur.

Məqalədə Türkiyəyə ABŞ və Qərb dövlətlərinin münasibətində də yeni bir dövrün başlandığı qeyd olunur. O vaxtkı ABŞ prezidenti ata Buşun şəkli altında yazılmış "gerçək müttəfiq ifadəsi onun ağzından düşmür" sözləri də bu münasibətlə yazılmışdı. Məqalədə oxuyuruq: "Güclü müttəfiq, gerçək dostlar bir anda xatırlandı. Bölgəyə şimaldan baxan Türkiyə birdən kəşf edildi. Cənubdan Səudiyyə Ərəbistanı cəbhəsində problem yoxdu, üstəlik millətlərarası hüquq və insanlıq adına işğalı qınayan bir "Şimal dostu"da varkən birdən Türkiyənin bu vəziyyətindən yararlanma məsələsi gündəliyə gəldi. Güclü bir telefon diplomatiyası, türk daxili siyasətinin ənənənəvi xəttinin başqa bir istiqamətdə müzakirəsinə səbəb oldu. Vətən yolunda ölməklə ABŞ yolunda ölmək məsələsi qarışıq salındı... Türkiyədə müharibəyə girmək atmosferi yaradıldı. Tam müstəqillik "ölkədə sülh, dünyada sülh" prinsipinə "daha fəal rol oynamaq" prinsipi əlavə edildi. Bir də baxdıq ki, biz də savaşa qoşuluruq".

Birinci İraq müharibəsinin bölgə ölkələrinə və xüsusilə, Türkiyəyə necə baha başa gəldiyi məlumdur. Türkiyənin son 11 ildə çəkdiyi zərərin miqdarı 100 milyard dollardan artıq olub. Türkiyə ABŞ-ın İraqa birinci müdaxiləsində hər şeydən əvvəl çox böyük ehtiyacı olan İraq neftindən məhrum oldu. İndi də belə bir təhlükə gözlənilir.

Göstərək ki, ABŞ və onun müttəfiqləri BMT vasitəsi ilə İraqın Küveyti işğal etməsinin yolverilməz olduğuna və onun qarşısının alınması zəruriyyətinə beynəlxalq ictimaiyyəti inandırmaqda çətinlik çəkmədilər - "Səhrada fırtına" hərbi əməliyyatı müvəffəqiyyətlə başa çatdı. Ancaq Səddam rejimi böyük itkilər və dağıntılara baxmayaraq süqut etmədi, salamat qaldı, embarqo və məhrumiyyətlər onu sarsıda bilmədi. Küveyt isə yenidən öz müstəqilliyinə qovuşdu. ABŞ-da yeni əsrdə ata Buşu oğul Buş əvəz etmişdir. İndi atanın başa çatdıra bilmədiyi işi oğul başa çatdırmaq, Səddam rejimini silah gücünə

devirmək fikrinə düşmüşdür. 11 sentyabrla yaranmış atmosferdən bu planı həyata keçirmək üçün maksumum istifadə etmək istəyir. Bəs indi İraqa qarşı hansı ittiham irəli sürülür: güya İraqda kütləvi qırğın silahları istehsalı qaydaya salınıb, o cümlədən bioloji, kimyəvi və hətta atom silah növləri ehtiyatı mövcuddur. Güya İraq həm ABŞ, həm də öz qonşuları, hətta bütün dünya üçün qorxu törədir. İndi bu ittihamları əsaslandırmaq, faktlar və sənədlərlə isbat etmək gündəlikdə durur. BMT müfəttişləri İraqda şübhələndikləri yerləri alt-üst edirlər, hələlik bir şey tapmamışlar. Bu vəziyyət dünya ictimaiyyətində, BMT-nin Təhlükəsizlik Şurasında belə çaşqınlıq yaratmışdı. ABŞ-ın rəsmi dairələri çox xoşagəzlməz vəziyyət qarşısında qalmışlar. Onlar israr edirlər ki, İraq dünyanı, BMT-ni aldadır. Onun kütləvi qırğın silahları var. Amma boynuna almır. Bu Amerika məntiqi keçən əsrin 30-cu illərində SSRİ-də "xalq düşmənləri" axtarışı vaxtı tətbiq edilən bir "məntiqi" yada salır. O vaxt həbsi vacib sayılan bir şəxsə deyərdilər ki, sən "xalq düşmənisən", o dəlil-sübut, fakt tələb etdikdə deyərdilər: biz niyə sənə dəlil-sübut, fakt təqdim etməliyik, sən isbat et ki, sən xalq düşməni deyilsən.

Mən ABŞ-ın müdafiə nazirinin Fransa və Almaniya rəhbərliyini "köhnə, qocalmış ölkələrin rəhbərləri" hesab etməsi fikrini heç cür başa düşə bilmirəm. Deyəsən indiki ABŞ rəhbərliyi öz strateji İraq və Yaxın Şərq problemini silah gücünə həll etmək planlarına qarşı çıxanlara hər cür təzyiq göstərməyə və hətta köhnəlik damğası vurmağa da hazırdır. Almaniya və Fransa Türkiyə deyil, hətta Şərqi Avropa ölkələri də deyillər ki, Vaşinqtonun hər mahnısına oynasınlar.

Türkiyə icmalçıları yazırlar ki, "İndi ABŞ artıq müharibə tonqalını yandırıb, hamını da tonqal ətrafında rəqs etməyə məcbur edir".

Köhnə dünyanın yeni düzəni baş tutacaqmı? Bu suala birmənalı cavab vermək çətindir. Amma böyük ustadımız Üzeyir bəyin 85 il bcndan qabaq "Azərbaycan" qəzetində yazdığı bir cümlə ilə yazını tamamlamaq istəyirəm: "Xudavəndi-aləm harda istibdad varsa onun evini yaxsın!.."

**"Günay", N7, 15 fevral 2003**

## AÇILMAMIŞ SƏHİFƏLƏRİN İZİ İLƏ

Neçə vaxtdır ki, bu sərlövhəyə tez-tez rast gəlirik. Əsası və haqqı olan da onu seçir, oxucuya təqdim edir, olmayan da. Nə edəsən, keçid dövrüdür. Amma başqa sahələrdə olduğu kimi keçmişimizi öyrənmək, dərk etmək, ondan faydalanmaq və ibrət dərsi götürmək baxımından da çoxdan açılmış səhifələri yeni kimi təqdim etmək meylləri də görünməkdədir. Yalanla-həqiqəti, doğru ilə oğrunu, elmlə-elm adına təlqin edilən hədyanı seçmək məsələsi də hərcmərclik dövründə çox çətin olur. Həm də son zamanlar digər bazar sahələri kimi, kitab və nəşriyyat bazarı da zay məhsul istehsalına güc verib. Kim nə istəsə çap edir. Atasına-babasına, özünə, kəndinə və rayonuna, qohum-qardaşına kitab həsr edənlərin sayı da çoxalıb. Milçəkdən dəvə düzəldənlər, adicə bir məmuru "dahi" kimi təqdim edənlər də peyda olub. Bu üzdəniraq tendensiya kütləvi informasiya vasitələri: qəzet-jurnal, radio və televiziyaya da sirayət edib. Qərəzsiz, operativ, peşəkar tənqidin həddən çox zəifliyi şəraitində indi adi nizamiləri Nizami Gəncəvi zirvəsinə yüksələn Nizami kimi təqdim edirlər. "Dahi", "böyük", "ulu", "dünya şöhrətli", "dünyaca tanınmış" ifadələri də dəbdədir. Mizan yox, tərəzi yox, nə istəyirsən yaz, nə istəyirsən de. Təki pulunu ver və ya pulunu versinlər. Bu vəziyyət elm sahəsinə də sirayət edib. Bu günlərdə BDU-nun rektoru "Müdafiə olunacaq namizədlik və doktorluq dissertasiyalarının ilkin müzakirəsi haqqında" xüsusi əmr verib. Orada deyilir: "Respublikamızın müstəqillik yolu ilə addımladığı çətin bir dövrdə nəyin bahasına olursa-olsun elmi ad və alimlik dərəcəsi almaq iddiasında olanların, əsas etibarilə elmlə bilavasitə əlaqəsi olmayan şəxslərin inadlı səyləri təəccüb doğurur".

Bax belə bir qeyri-müəyyənlik və hərc-mərclik şəraitində həqiqətən qiymətli tarixi-mənəvi xəzinəmizin açılmamış səhifələrini səriştəli, dəlilli-sübutlu, yerli-yataqlı açan bir müəllifə, onun uzun və gərgin zəhmət bahasına ərsə yetirdiyi əsərə rast gələndə sevinməyə bilmirsən. Söhbət respublika Baş Arxiv İdarəsinin rəisi, tarix elmləri namizədi Ataxan Paşayevin "Azərbaycan" nəşriyyatı tərəfindən buraxılmış "Açılmamış səhifələrin izi ilə" məqalələr toplusundan gedir. Kitab 3 əsas bölmədən: Azərbaycan Xalq Cümhuriyyəti tarixindən, ermənilərin xalqımıza qarşı soyqırımı və deportasiya tarixindən, tarixdən səhifələr bölmələrindən ibarətdir. Birinci bölmə 85 illiyini qeyd edəcəyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, cümhuriyyətin parlamentinin və hökumətinin fəaliyyətinin əsas sahələrinin tədqiqinə həsr edilmişdir. Burada həmçinin Bakının

düşmən hücumlarından qorunması, Azərbaycanın ilk təhlükəsizlik orqanlarının yaradılması, "Azərbaycan" qəzetinin nəşri tarixindən və nəhayət, müstəqil Azərbaycanın ilk hökumət başçısı Fətəli xan Xoyskidən bəhs edilir. Müəllif kitaba yazdığı ön sözdə haqlı olaraq göstərir ki, 1918-ci il mayın 28-də çox mürəkkəb tarixi şəraitdə yaradılmış müstəqil Azərbaycan Xalq Cümhuriyyətinə "uzun illər əksinqilabi burjua-mülkədar damğası vurularaq yalnız tənqid hədəfinə çevrilmişdi". Lakin yenidən müstəqillik əldə etdiyimiz son illərdə "Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyətinin öyrənilməsinə maraq xüsusilə artmışdır", "adamlar 70 il xalqdan gizli saxlanmış və yalnız tənqid hədəfi olmuş cümhuriyyət hökuməti haqqında daha çox bilmək istəyir". Məhz bunu nəzərə alaraq, arxiv sənədləri əsasında bu tələbatı ödəmək və tarixi həqiqəti ortaya çıxarmaq üçün bu məqalələr yazılmış və işıq üzü görmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatının, bu cümhuriyyətin yaradılması və bütün fəaliyyətinə başçılıq etmiş ilk parlamentimiz - Azərbaycan Milli Şurasının sədri - deməli ilk dövlət başçımız M.Ə.Rəsulzadə irsinin tədqiqatçısı kimi bütün məsuliyyətimlə demək istəyirəm ki, 1918-1920-ci illər dövrünə həsr olunmuş əsərlər içərisində Ataxan Paşayevin yazdıqları sənədli, elmi dəqiqliyi və məziyyətlərilə seçilir. Bəzi orta məktəb dərsliklərində mövzu ilə əlaqədar baş-ayaq yazan, dövlət başçısı ilə hökumət başçısını fərqləndirməyi bacarmayan, rəhbərlə-rəis anlayışını qarışdıranlara məsləhət görərdim ki, bu kitabda yazılanları diqqətlə oxusunlar.

Kitabın ikinci bölməsində müəllifin son 10 ildə qələmə aldığı "Ermənilərin xalqımıza qarşı soyqırımı və deportasiya tarixinə" aid məqalələri də çox böyük əhəmiyyəti və dəyəri olan tədqiqat işləridir. Burada Bakıda 1918-ci il mart faciəsi, Şamaxı faciələri, Quba qırğınları, Qarabağ bölgəsində erməni vəhşilikləri və s. dair, həmçinin "Bu genosid, yoxsa deportasiya idi?", "Deportasiya", "Tarixi həqiqətlər və erməni uydurmaları" kimi xüsusi yazılar verilmişdir. Bu məqalələrə xas olan ən qiymətli dəyərli cəhət doğrudan da uzun illər tədqiqatlardan gizlədilən, məxfi arxiv seyflərində saxlanılan və tarixi həqiqətləri doğru və olduğu kimi əks etdirən materiallardan istifadə əsasında yazılmasıdır. Onlarda ucuz, populist, ritorik ittihamlara, mülahizələrə rast gəlmək çətindir. Diqqəti çəkən digər mövzular içərisində son 10 illiklərin mərkəzində duran Dağlıq Qarabağ probleminə dair yazılar xüsusi yer tutur. "Ermənilər Dağlıq Qarabağa muxtariyyatı necə verdiriblər?", "Ermənilərin ərazi iddiaları necə yaranmışdır?", "Erməni xisləti. Bu da bir həqqiətdir", "Erməni məkri" sərlövhələrilə verilmiş məqalələrdən adlarından da göründüyü kimi

çox mühüm və bizim üçün tarixi və həm də aktual olan problemlərdən söhbət gedir. Bu yazıların xarici dillərə tərcümə edilib geniş yayılması da məncə çox gərəkli olardı.

Nəhayət, kitabda mədəniyyət tariximizə dair yenə də açılmamış və bəzən də dövr və zamanla bağlı deyilməsi və açılması mümkün olmayan məqamlardan, hadisə və şəxsiyyətlərdən söhbət açılır. "Üzeyir dühası", "Mirzə Cəlil haqqında yeni sənədlər", "De Qoll Bakıda", "Xeyirxahlıq mücəssəməsi", "Azərbaycan xeyriyyə cəmiyyətləri", "Milli arxivlər: yeni strategiya", "Əlyazmalar fondu necə yaranıb", "Əzizimiz, müəllimimiz" bu qəbildəndir.

A.Paşayevin "Açılmamış səhifələrin izi ilə" kitabında maraq doğurmayan, yeni bir fakt və sənəd nümayiş etdirilməyən yazı demək olar ki, yoxdur. Onları diqqətlə oxuyarkən tariximizi ilk qələmə alanlardan biri, böyük mütəfəkkir-alim və ziyalı Abbasqulu ağa Bakıxanovun məşhur "Gülüstani-İrəm" əsərinə yazdığı giriş sözü yadıma düşürdü: "Təbiətimiz hər şeydən artıq tarixə maildir... Bu elm insanı gözəl əxlaqlı və bilikli edir, ona dolanacaq və yaşayış işlərini öyrədir. Buna görə onu mənəvi elmlərin qiymətlilərindən hesab edib demək olar: tarix hökmsüz və zülümsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir. Onun təlim məktəbində dünyanın müəllimləri əlifba oxuyan bir uşaqdırlar... Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır, gələcəkdə törəyə biləcək əhvalatları keçmişin libasında insanların ibrət nəzərinə çatdırır..."

Ataxan Paşayevi - respublikamızın baş arxiv idarəsinin rəisi kimi mən çoxdan tanıyıram, az danışan, çox iş görən, təvazökar, nəfsinə hakim, bütün varlığı ilə vətəninə, işinə bağlı vətəndaş, alim kimi tanıyıram. Onun son 30 ildə yazdığı əsərləri, nəşr etdiyi sənədlər topluları, yardım etdiyi müəlliflərin nəşrlərini yığsan bir kitabxana olar. Böyük bir tarixçilər kollektivinin gördüyü və hətta görə bilmədiyi və gücü çatmadığı işi Ataxan müəllim səssiz-səmirsiz görür. Hətta bəzən özünü yadından çıxarır. Onunla müqayisəyə heç cür gəlməyəcək ortabab tarixçilər çoxdan doktorluq dərəcəsi almış, professor və hətta daha yüksək adlara layiq görülmüşlər. Ümid edirəm ki, zəngin mənəvi xəzinəmizin keşiyində duran, ondan istifadəyə çox gözəl şərait yaradan və özü də açılmamış səhifələri açıb tariximizin öyrənilməsinə böyük xidmət göstərən A.Paşayevin zəhmətinə də qiymət verənlər tapılacaq.

**"Günay", N8, 22 fevral 2003**

# İNQİLABLAR, ÇEVRİLİŞLƏR, İSLAHAT TƏŞƏBBÜSLƏRİ

## *BƏS NƏTİCƏ?*

Son iki əsrlik tariximiz Şimal qonşumuz Rusiya ilə bağlı olmuşdur. Minilliklər tariximiz isə Yaxın və Orta Şərq, islam və türk dünyası, əlbəttə ki, əbədi məskənimiz Qafqazla bağlıdır. Avropa və dünyanın digər qitə və ölkələrilə də təmasımız az-çox olub. XXI yüzillik zirvəsindən keçilmiş tarixi yola nəzər salmağa bəzən ehtiyac duyulur. Məsələn: İslam-türk dünyası nə üçün indiki böhranlı vəziyyətə düşüb? Və yaxud Rusiya kimi ərazi və təbii sərvətlərlə böyük və zəngin, istedadlar və əməksevərlikdə dünyanın heç bir xalq və millətindən geridə qalmayan bir ölkə nə üçün zaman-zaman böyük dövlət, fövqəl dövlət statusunu itirir? İnqilablar, çevrilişlər, əsaslı islahat təşəbbüsləri hər 25-30 ildən bir yuxarılardan və bəzən də aşağılardan ölkəni sarsıdır?

Bu qlobal suallar üzərində düşünən böyük alim və mütəfəkkirlər, dövlət və siyasət adamları da Rusiyada az olmayıb.

Böyük rus yazıçı və tənqidçisi, demokrat-filosof N.Q.Çernışevski (1828-1889) Rusiya həyatının qədim cizgiləri barədə mühakimə yürüdərək bu qənaətə gəlmişdir: "Bizim əsas anlayışımız, bizim ən inadkar rəvayətimiz ondan ibarətdir ki, biz hər şeyi taleyin qisməti ilə izah edirik. Hüquqi formalar və şəxsi səylər bizdən ötrü aciz və hətta gülməli görünür. Biz hər şeyi gözləyirik, istəyirik ki, hər şeyi nəzarətsiz qərarların gücü ilə etsinlər... Hətta ədalətli və xoş niyyətlərlə bağlı uğurun bizdən ötrü ən birinci şərti ondan ibarətdir ki, başqaları bu niyyətlərə kor-koranə və danışıqsız tabe olsunlar. Bizlərdən hər birimiz özünü kiçik Napoleon və ya belə desək daha yaxşı olar, kiçik Batı hesab edir. Lakin əgər bizlərdən hər birimiz Batıdırsa, onda başdan-ayağa batılardan ibarət olan bu cəmiyyətin başına nələr gələcək? Onlardan hər biri başqalarının gücünü ölçür və hər yerdə, hər bir işdə öz aləmində elə bir arxiBatıya çevrilir ki, baskaklar adi batılara necə danışıqsız itaət edirlərsə bu adi batılar da öz növbəsində arxiBatıya eləcə danışıqsız tabe olurlar. Uzun əsrlər boyu yaranmış bu vərdişdən əl çəkməyimiz Qərb xalqlarının öz adət və anlayışlarından əl çəkmələrindən yəqin ki, çətin olmaz".

Çernışevski qeyd edir ki, bu cür adətlərin məcmusu - ucları çox möhkəm olan və bir-biri ilə çox sıx bağlanmış dəmir libas kimi bir şeydir. Bu libasın pas atıb köhnəlməsi və sivil adamlar üçün abırlı sayılan hisslərin bizim qəlbimizdə də üzə çıxması üçün Allah bilir hələ

neçə nəslin həyatı lazım gələcək.

M.Y.Saltıkov-Şedrin (1826-1889) yazırdı: "Mağaralardan qışqırıq qopanda lazım olan ivanovlar oradan sürünüb çıxırlar. Həmin məqamda lazım olmayanlar isə elə mağaralarda gizlənirlər". Fəal, müstəqil, məğrur mütəfəkkirlər, inzibatçılar, ziyalılar kölgəyə çəkilir, istefa verir, "artıq adamlara" çevrilirlər.

K.S.Aksakov (1817-1860) yazırdı: "Hakimiyyət öz imkanlarının qeyri-məhdudluğuna baxmayaraq həqiqətə və namusluluğa nail ola bilmir. İctimai fikir azad edilmədən buna nail olmaq mümkün də deyildir. Hamı bir-birinə yalan satır, hamı bunu görür, amma yalan satmaqda davam edir və bu işin hansı dərəcəyə çatacağı məlum deyildir. Hamılıqca əyyaşlığa uymaq və ya cəmiyyətdə mənəvi dəyərlərin qiymətdən düşməsi həddini aşmışdır. Necə deyərlər, çölü bəzək - içi təzəkdir".

Məşhur rus tarixçisi S.M.Solovyov (1820-1872) I Nikolayın Rusiyada 30 illik diktaturası dövrünə qiymət verərək yazmışdı: "30 illik yalana, 30 il ərzində bütün canlıların, bütün mənəviyyatın əzilməsinə, xalq qüvvələrinin əzilməsinə görə cavab vermək lazım gəlirdi..."

Liberal publisist M.A.Melqunov 1855-ci ildə yazırdı: "Bir var rəsmi sədaqət, rəsmi yaltaqlıq, rəsmi yalan, rəsmi məmnunluq, rəsmi rifah, rəsmi görüşlər, rəsmi intizam, rəsmi gərgin əmək... Bunlar hamısı hər şeyə qadir olan hökmdarın ətrafında yaranmış sabun köpüyüdür, öz al-əlvan rəngi ilə onun gözünü qamaşdırır, xalq isə öz həyatını yaşayır, onun söz deməyə haqqı yoxdur, o mütidir, amma nə xoşbəxtdir, nə də razı".

XVI əsrdən başlayaraq Rusiya tarixində bir neçə dəfə "Avropa" və "Asiya" yollarının alternativləri yaranmışdır. Bəzən mürəkkəb "qarışıq" vəziyyətlər yaranırdı, lakin çox vaxt, əfsus ki, ağalıq və despotluq zəfər çalırdı, bu cür zəfərlərin hər biri xalqın və ölkənin tarixi faciəsi idi, onların hər biri yüzminlərlə, milyonlarla insanın həyatı bahasına başa gəlirdi, sağ qalanlar isə təhqir edilir, onların mənəviyyatı oğurlanır, qəlblərinə vahimə düşür, köləlik ruhu yaranırdı. İndi gözümüzün önündə daha bir böyük cəhd göstərilir. Yenə xalqın qüvvəsindən və iradəsindən öz mənafeləri üçün istifadə etməyə çalışırlar: bürokrat demokratik ənənələrin qıtlığından, qorxu hissindən, kütlələrin yorğunluğundan, onların müxtəlif xurafat xarakterli əhvalından istifadə edir. İslahatçı inqilabçılar sağlam düşüncə iddiasındadırlar, onlar xalqın azadlıq istəyindən, qürurundan, onun yalançı, yırtıcı, əclaf bürokratik nəzəriyyə və praktikaya nifrətindən istifadə etməyə çalışırlar. Bürokratiya, aparat, xüsusən əsrlər boyu davam etmiş mərkəzləşmə, demokratik müqavimət qüvvələrinin və ənənələrin olmaması şəraitində çox qüdrətli bir

təbəqəyə çevrilmişdir. Aparatın və "mürtəce varlıların" müqaviməti davam edir. İnqilabçı və islahatçı cəhdlərə yuxarıların bürokratik müqavimətinin formaları çox rəngarəngdir: sabotaj, təhrikçilik, qorxutma, ağ terror, dövlət çevrilişi və i.a.

86 il bundan əvvəl 1917-ci il fevralın sonu və martın əvvəllərində Avroasiyanın ən güclü imperiyası, xalqlar həbsxanası və beynəlxalq jandarm titullarını qazanmış Rusiyada 304 il hökm sürmüş çarlıq rejimi - Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Rusiyada burjua-demokratik inqilabı qələbə çaldı. Əsasları çürümüş rejim cəmi 10 gün ərzində çökdü, süqut etdi. Rusiya Respublika elan edildi. Demokratik azadlıqlar: söz, mətbuat, ittifaq, yığıncaq azadlığı, siyasi təşkilat və partiyaların azad fəaliyyəti elan və təmin edildi. Siyasi məhbəslərin qapıları açıldı. Yüzminlərcə istiqlal mücahidi ölkəni bürümüş katorqa və sürgündən xilas oldu. Demokratik seçgilərin, dövlət quruluşunu müəyyən edəcək Məclisi-müəssisana seçkilərin keçirilməsi gündəliyə gəldi. O dövrkü mətbuat bunu böyük inqilab kimi təqdim edirdi. 1917-ci il martın 5-də "Açıq söz" qəzetində həbs və sürgün təhlükəsindən yenicə can qurtarmış "Musavat" partiyasının lideri M.Ə.Rəsulzadə "Böyük inqilab" sərlövhəli məqaləsində yazırdı: "Hürriyyətpərvər Rusiyanın ümid məşəlinə yağ tökən bu hadisənin xəbəri vilayətlərə yayılınca hər tərəfdə adətən bir bayram başladı. Bilafərq millət və məzhəb, silk və sinif bütün camaət bir-birini təbrikə başladı... çağrılması təklif olunan məclisi-müəssisan geniş, ümumi, müsavi və müstəqim seçki əsası ilə yığışacaq həqiqi millət nümayəndələrindən ibarət olub təzə Rusiyanın nə kimi əsaslarda qurulacağını təmin edəcəkdir".

Azadlıq aşiqi Mirzə Cəlil "Molla Nəsrəddin"in martın 23-də işıq üzü görmüş 7-ci nömrəsindəki vətəndaşlara müraciətində yazırdı: "Şükür Allaha, qurtardıq! Qurtardıq Peterburq vəzirlərinin zülmündən, qurtardıq qubernatorların zülmündən, qurtardıq naçalnik və pristavların və bunlardan aşağıkı pillə qurdlarının zülmündən. Qurtardıq kənd yüzbaşılarının tatarından, qurtardıq strajniklərin şallağından, xilas olduq min-min zalımların zorbazorluğundan. Şükür Allaha ki, qurtardıq".

Mirzə Cəlil inqilabın ilk günlərində "Qeyrət" mətbəəsində nəşr olunub yayılmış "Cümhuriyyət" (respublika) sərlövhəli intibahnaməsində Rusiyada elan edilmiş Cümhuriyyətin mə'nasını, mahiyyətini şərh edərək yazırdı ki, "padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri, o cümlədən də biz müsəlmanları məşğul edən tək bircə məsələdir: həmin məsələ Cümhuriyyət məsələsidir... Cümhuriyyət, yəni latınca "respublika" elə bir hökumətə

deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn Firəngistan, İsveçrə və qeyriləri".

1917-ci ildə Rusiyada cərəyan edən hadisələrə Sovet dövründə verilən qiymətlə bizim indiki- yə'ni bu dəfə şər imperyası- Sovet İttifaqı dağılandan sonrakı illərdə verilən qiymət arasında çox böyük fərq görünməkdədir. Əvvəla son rus imperatoru II Nikolaya "bəraət" verildi; təntənəli surətdə özündən əvvəlki çarların yanında - Peterburqda dəfn edildi. İndi istər 1917-ci ilin fevral, istərsə də oktyabr inqilablarına yeni baxış var. Məsələn bizim günlərin rus tarixçisi N.Sydelman yazır:

"İkinci və üçüncü rus inqilabları köhnə dünyanı yer üzündən silib aparan, aşağıdan qalxmış çox güclü bir dalğadır. Lakin burada da, tamamilə yeni tarixi şəraitdə bir sıra qədim tarixi ənənələrdən yaxa qurtarmaq, əlbəttə, mümkün deyildi... 1917-ci ildə inqilaba başlamaq asan idi, lakin Rusiyada bu işi davam etdirmək və axıra çatdırmaq Avropa ölkələri ilə müqayisədə daha çətin idi. "

Rusiyanın geriliyinin ən mühüm səbəbini ölkənin ən böyük islahatçısı hesab edilən I Pyotr belə sadə bir şəkildə ifadə etmişdi: "Qərbi Avropa qədim dünyanın bu ibrət dərslərini bizdən daha tez mənimsəmiş və buna görə də bizi qabaqlamışdır. Biz də öz növbəmizdə həmin elmləri mənimsəyəndən sonra Qərbi Avropaya çatacağıq".

Lakin Pyotrdan sonra gələnlər onun bir kəlamını yadda saxladılar. Pyotr demişdi:"Avropa hələ bir neçə onillik ərzində bizə lazımdır, sonra isə ona arxamızı çevirə bilərik".

Pyotrın bu vəsiyyətinə Stalin və bolşeviklər 70 il ərzində artıqlaması ilə əməl etdilər. Nəticəsi isə göz qabağındadır. Nəhayət yazımı qədim yunan tarixçisi Fukiddin 2 min 400 il bundan əvvəl dediyi sözlərlə bitirmək istəyirəm. Çünki onlar bizim günlərə də şamil edilə bilər: "Kimin düşüncəsi zəif idisə, adətən, o, üstün gəlirdi: onlar özlərinin uzaqgörməzliyini və əleyhdarlarının güclü sövq-təbiliyə malik olmasını dərk etdikləri üçün qorxurdular ki, düşmənin vəziyyətdən daha asanlıqla çıxa bilməsi onlara çox baha başa gələ bilər, buna görə də onlar işə çox qətiyyətlə yanaşırdılar. Guya hər şeyi qabaqcadan nəzərə aldıqlarını və ağılla hərəkət etmək lazım olan yerdə qüvvəyə ehtiyac olmadığını güman edənlər isə həmişə və hər yerdə bu qayğısızlıqları üzündən məhv olurdular."

Bax keçmişin bu ağır yükü bizi, həmçinin biz vəziyyətdə olanları irəliləməyə qoymur.

**"Günay", N9, 1 mart 2003**

## HƏQİQİ VƏ YALANÇI VƏTƏNPƏRVƏRLİK

Tanınmış jurnalist, siyasi şərhçi, teleaparıcı, Rusiya Televiziya Akademiyasının prezidenti Vladimir Pozner iki gün paytaxtımızın qonağı oldu. Həmkarları ilə faydalı görüşlər keçirdi, fikir və təcrübə mübadiləsi etdi, müsahibələr verdi. Zəngin beynəlxalq jurnalistika təcrübəsinə malik V.Pozner kimi bir səriştəli, xeyirxah mütəxəssisin müstəqil Azərbaycanın qələm əhli və elektron informasiya vasitələri əməkdaşları ilə görüşlərini təşkil edənlərin təşəbbüsünü alqışlamaq lazımdır. Teledebatlardan da gördüyümüz kimi V.Poznerin dedikləri bəzən qarşı tərəfdən tam şəkildə anlaşılmırdı və bu şəkildə də efirə verilir, qəzetlərdə dərc olunurdu. Məsələn, onun müxbirlərin "İfşa mövqeyi tutmaq (lap ədəb - ərkan çərçivəsində olduqda belə) ölkənin imicinə bir növ kölgə salır. Bəs, vətənpərvərlik hissləri necə olsun?" - sualının cavabına diqqət verin! "-Məni bağışlayın, mənim fikrimcə, vətənpərvərlik - əclafın son sığınacağıdır. Mənim vətənpərvərliyim - öz tamaşaçılarımı məlumatlandırmaqdır". V.Pozner böyük rus şairi, Rusiyanın ən böyük vətənpərvər vətəndaşı M.Y.Lermontovun " Əlvida, Rusiya, əlvida ey natəmiz diyar, ağalar-qullar ölkəsi" sözlərini misal gətirdi.

Bu qısa mühakimədə çox böyük bir qlobal məsələyə, problemə toxunulmuşdur. Məlumdur ki, uzun əsrlər boyu vətənpərvərlik anlayışı çox müxtəlif mənalarda və çalarlarda işlənmişdir. Məsələn, Seyfəddin Altaylının İstanbulda nəşr olunmuş "Azərbaycan türkcəsi sözlüyü"ndə oxuyuruq:

"Vətənpərvərlik- vətənsevərə xas olan sifət, xalqına və vətəninə sədaqət və sevgi", "Vətənpərvər - vətənini çox sevən, xalqına və vətəninə sadiq olan, onların yolunda canını fəda etməyə hazır olan kimsə". Professor D. Uşakovun redaktorluğu ilə nəşr edilmiş "Tolkovıy slovar russkoqo yazıka" kitabında yazılır ki, "Vətənpərvər - (yunanca patriotes - həmyerli sözündəndir) öz xalqına sadiq, öz vətənini sevən, öz vətəninin mənafeləri naminə qurban verməyə və qəhrəmanlıq etməyə hazır olan insan".

Sovet dövrü ədəbiyyatı və məlumat kitablarında vətənpərvərlik məfhumu sinfi, ideoloji mövqedən izah və şərh edilirdi. Burjua vətənpərvərliyi və proletar vətənpərvərliyindən söhbət açılırdı. Birincinin öz mütərəqqi keyfiyyətini itirdiyi qeyd olunur, sovet vətənpərvərliyi ön plana çəkilirdi. İndi biz yenidən minilliklər boyu təcrübədən keçirilmiş və planetdə hakim olan köhnə quruluşa keçirik. Deməli, vətənpərvərliyin də əsrlərcə formalaşmış anlayışına

qayıtmalı, ən azı ondan xəbərdar olmalıyıq. Bu məqsədlə mən mötəbər, elm aləmində tanınan və sayılan bir mənbəyə müraciət etdim. "Günay"ın oxucularını da onunla tanış etmək istəyirəm.

F.A.Brokqauz (Leypsiq) və İ.A.Uefronun (S.-Peterburq) 1898-ci ildə nəşr olunmuş ensiklopedik lüğətində (cild XXIII, səh. 36-37) vətənpərvərlik məfhumu belə şərh olunur: "Vətənpərvərlik - vətənə məhəbbət deməkdir. Bəşəriyyətin toplu şəkildə həyatı ayrı-ayrı kiçik qrupların üzvləri arasında qan qohumluğuna əsaslanan dövrdə ictimai həmrəylik hissi, ailə hissi ilə üst-üstə düşürdü. Bu cür qəbilə və ya tayfaların ilkin vətənpərvərliyi köçəri həyata xas olan məişətə də uyğundur. Qəbilələr oturaq əkinçilik məişətinə keçəndə vətənpərvərlik spesifik məna kəsb edir və doğma torpağa sevgiyə çevrilir. Təbii ki, şəhər məişətində bu hiss bir qədər zəifləyir, lakin burada vətənpərliyin yeni bir elementi - öz mədəni mühitinə və ya öz vətəndaşlığına bağlılıq elementi inkişaf edir. Vətənpərvərliyə xas olan təbii hissiyyat kimi əsaslarla yanaşı, onun vəzifə və xeyirxahlıq kimi əxlaqi mənaları da yaranır. Hər bir insanın öz valideynlərinə minnətdarlıqdan ibarət olan əsas vəzifəsi həcm etibarilə genişlənsə də, onun təbiəti dəyişmir və elə ictimai ittifaqlara münasibətdə vəzifəyə çevrilir ki, həmin ittifaqlar olmasa, insanın valideyləri yalnız fiziki şəkildə mövcud olar, lakin onun insana yaraşan ləyaqətli mövcudluq üstünlüklərini təmin edə bilməzdilər. Vətənə münasibətdə öz vəzifələrinin aydın dərk edilməsi və onlardan düzgün istifadə edilməsi vətənpərvərliyin xeyirxah cəhətlərini təşkil edir və bu cəhətlər tarixən həm də dini əhəmiyyət kəsb etmişdir. Vətən məfhumu təkcə coğrafi və etnoqrafik termin olmayıb, xüsusi bir "allahın" idarə etdiyi ərazini ifadə edirdi. Çox ehtimal ki, bu "allah" - həmin qəbilənin vəfat etmiş banisinin bu və ya digər dərəcədə mücərrədləşdirilmiş bir transformasiyası idi. Beləliklə, vətənə xidmət - fəal ibadət və şərəfli vətənpərvərlik idi. Sitayiş vətəndən asılı deyildir, vətən isə bir növ sitayiş obyektinə çevrilirdi. Vətən - ataların allahlarının yaşadığı diyar idi, buna görə də həmin allahları da özləri ilə aparan qaçqınlar onların vasitəsilə yeni vətən bina edirdi. Başqalarının allahlarını onların əlindən almaq yadelli torpaqları işğal etmək üçün ən qüsurlu vasitə idi. Romalılar bu vasitədən istifadə edirdilər... Vətənpərvərlik hissi xalis milli şəkildə XV əsrin əvvəllərində Fransada Janna D'Arkın şəxsində təzahür etdi. Xalqa yabançı xarakter daşıyan daimi görüşlər fransızlarda tədricən öz xalqına qısqanclıq hissi oyadır və nəhayət, milli ideyanın oyanmasına səbəb olurdu. Janna D'Ark xalis milli vətənpərvərliyə birinci olaraq

sadə və aydın şəkildə tərif verdi: öz torpağında yadellilərdən asılı olmamaq və öz aralarında özlərinə rəhbərə malik olmaq. Bu hadisələrdən yüz il sonra Almaniyada milli vətənpərvərlik hissləri yadelli kilsə hakimiyyətinə qarşı mübarizədə üzə çıxdı və bu hakimiyyətin prinsipial dini mənasının təsiri ilə zəifləyib mürəkkəbləşərək çox adamın milli tələbatını üstələdi. Almaniyada milli vətənpərvərlik yalnız XIX əsrdə bərqərar ola bildi. Avropanın mütərəqqi ölkəsi olan Fransada millətin əksəriyyəti üçün vətənpərvərlik dini əvəz edirdi. İlk dövrlərdə vətən - xalqın özünün əsl allahının ərazisi kimi müqəddəs sayılırdı. İndi isə vətən özü nə isə mütləq məna daşıyan bir məfhuma çevrilir, yeganə və ya ən azı ən uca sitayiş və ibadət predmeti olur. Tarixi prosesdə bəşəriyyəti birləşdirən qüvvələrin təsiri get-gedə daha çox üzə çıxır. Buna görə də müstəsna milli məxsusilik fiziki cəhətdən qeyri-mümkün olur. Hər yerdə şüur və həyat yeni, həqiqi vətənpərvərlik ideyasını mənimsəmək üçün hazırlanır.

V.Poznerin "vətənpərvərlik- əclafın son sığınacağıdır" kəlamında söhbət "kvasnoy patriotizm" -dən -köhnəliyə pərəstişdən, təəssübçülükdən, riyakarlıqdan, ölkədə baş alıb gedən korrupsiya və rüşvətxorluğu, özbaşınalığı, yerliçilik və regionçuluq bəlasını malalamaqdan, demokratiya pərdəsi arxasındakı oyunlardan diqqəti yayındırmaq təşəbbüslərindən, ölkənin beynəlxalq imicini saxlamaq xatirinə xalqı fəlakətə düçar edənlərin əməllərindən danışmağı "vətənpərvərlik" şüarları ilə yasaqlamaqdan gedir. Doğrudan da bu qəbildən olanlar üçün millət, vətən, müstəqillik, xalq adından danışmaq mühüm bir riyakarlıq vasitəsinə çevrilmişdir. Əsl vətənpərvərlik, o cümlədən jurnalistlərin müqəddəs borcu bu tələyə düşməməkdir. V.Pozner haqlı olaraq deyir ki, "Müstəqilliyin 15 ili ərzində adamlar hələ başa düşə bilməyiblər ki, total nəzarət nə deməkdir və bu nəzarətlə əlaqədar xoşagəlməzlikləri hələ indi-indi unutmağa başladığımız bir vəziyyətdə Sovet İttifaqının millətlərini elitar genefonddan məhrum edən qaydalara yenidən qayıtmaq nəyə gətirib çıxara bilər". Düz sözə nə deyəsən? Vəzifə düz sözə, fikrə qulaq asmaqdan ibarətdir. Yalançı vətənpərvərliklə uzağa getmək olmaz!

**"Günay", N10, 8 mart 2003**

# FÖBQƏLDÖVLƏT AMERİKA VƏ DÜNYANIN NARAHATÇILIĞI

*(SİYASİ İCMALÇININ QEYDLƏRİ)*

Dünyanın indiki iqtisadi, ictimai-siyasi, ekoloji, hərbi və mədəni-əxlaqi durumu yenə də ciddi həyacan və narahatlıq doğurmaqda davam edir. Qloballaşma qitələrarası, regional və milli problemlərə beynəlxalq səciyyə verir. Xarici icmalçılar yeni dünya düzəni ilə əlaqədar yaranmış beynəlxalq şəraiti şərh edərək yazırlar ki, tarixdə heç vaxt elə bir bu gün Amerika Birləşmiş Ştatlarının malik olduğu dərəcədə planetar miqyasda qüdrətli fövqəldövlət olmamışdır. Bu fikri rəqəmlərin köməyi ilə sübut etməyə ehtiyac yoxdur. Dünyada heç bir ölkədə ÜDM, daxili bazarın həcmi və hərbi-siyasi qüdrət ABŞ-da olduğundan çox deyil.

Üstəlik, Birləşmiş Ştatlara birbaşa meydan oxumaq və Qərb ilə SSRİ arasında soyuq dünya müharibəsi təcrübəsini təkrar etmək iqtidarında olan geosiyasi vahid yaxın gələcəkdə də çətin ki, tapılar. Amerikanın qüdrəti qarşısında potensial rəqiblər kimi, adətən Rusiyanın, Çinin, İslam dünyasının və germanosentrik Avropanın adlarını çəkirlər. Lakin bu gün ABŞ-la müqayisədə Rusiya nə deməkdir? Moskva nəinki indi, hətta yaxın 10-20 ildə də yalnız keçmiş Sovet İttifaqından ona miras qalmış çəkindirici silahlara malik olacaqdır. RF-nin strateji nüvə silahlarının həcmi ilbəil azalsa da, bu silahlar hələ uzun müddət onun böyük dövlət, regional dövlət statusunu saxlamasına təminat verəcək, lakin hələ 13 il bundan əvvəlki fövqəldövlət statusuna əsla təminat verməyəcəkdir. Üstəlik, bəzi hallarda ABŞ elə indidən Rusiyanın bir dövlət kimi mövcud olmasının, qüdrəti azalmış dövlətin buna müvafiq olaraq kiçilmiş milli mənafelərinə riayət edilməsinin qarantıdır.

Məlumdur ki, ABŞ yüksək texnologiyaların hərbi tətbiqləri sahəsində də hələlik liderdir.

Beynəlxalq miqyasda ABŞ-ın rəqibləri sırasında Rusiyadan sonra Çinin adı çəkilir. Çin Xalq Respublikası iqtisadi baxımdan sürətlə inkişaf edir. Kosmik tədqiqatlar sahəsində də ciddi irəliləyiş nəzərə çarpır. Çin kosmik fəzaya 50-dən artıq süni peyk çıxartmışdır. Yaxın zamanda kosmik fəzaya Çin astronavtlarının çıxacağı, göndəriləcəyi planlaşdırılır. Lakin mütəxəssislərin hesablamalarına görə Çinin ABŞ-

la rəqabətə girişməsi, onunla ayaqlaşmaq imkanları hələ çox uzun müddətli məsələdir.

ABŞ-ın rəqibləri sırasında yer ala biləcək güclər sırasında İslam dünyasının adı üçüncü yerdə çəkilir. Söhbət iqtisadi, elmi-texniki, hərbi potensialdan getmir, mənəvi, əxlaqi dəyərlərdən, ən çox isə təbii yanacaq ehtiyatlarından, ən birincisi isə İsraillə münasibətlərdən gedir. Ərəblərlə, xüsusilə Fələstinlə-İsrail arasında uzun illər davam edən qarşıdurma, səngiməк bilməyən hərbi münaqişə Amerika ilə İslam dünyasını qarşı-qarşıya qoymaqdadır. ABŞ bu münaqişəyə son qoya bilmir. Çünki İsraili müdafiə edir, onun Fələstin ərəb xalqının başına açdığı faciələrə göz yumur. ABŞ-da hər cəhətdən çox güclü olan yəhudi lobbisi ölkənin xarici siyasətini müəyyən etməkdə həlledici rol oynayır. İsrailin Yaxın Şərq problemini ABŞ-ın hərtərəfli köməyi ilə silah gücünə həll etmək istəyi, qətiyyəti əlacsız qalan fələstinlilərin, ərəb-islam radikal dairələrinin genişmiqyaslı terrorçuluq əməllərinə rəvac verməsinə səbəb olmuşdur. 11 sentyabr da belə radikalizmin təzahürü idi. Əlbəttə, heç kəs bu növ vəhşiliyə haqq qazandıra bilməz. Lakin məsələnin mahiyyətinə varmaq, onun başvermə səbəblərini də araşdırmaq vacibdir. İsrail-Fələstin problemi ədalətli şəkildə həll edilməyincə ABŞ-islam dünyası münasibətlərini nizama salmaq çətin ki, baş tutsun. Təəssüflə qeyd etməliyik ki, indiki Vaşinqton rəhbərliyi də yeganə fövqəldövlət statusundan istifadə edərək ərəb dünyasını silah gücünə diz çökdürmək yolunu seçmişdir. Beynəlxalq terrorizmlə, islam radikalizmi ilə mübarizə və müharibə siyasətinin arxasında məhz bu qayə durur. Elə İraqa qarşı son aylar qaldırılan hərbi isteriyanın əsasında bu durur. Yoxsa, ABŞ-ın öz qonşuluğunda neçə-neçə diktatorluq rejimləri, ABŞ-a hər cəhətdən "təhlükə" törədə biləcək qüvvələr mövcuddur. Diqqət verilesi cəhət budur ki, indiki Vaşinqton rəhbərliyinin bu təhlükəli xəttinə qarşı çıxan rəqiblər sırasında, onun ən yaxın müttəfiqləri Fransa və Almaniya mühüm yer tutur. Onlar İraq probleminin sülh yolu ilə BMT çərçivəsində həll edilməsi xəttini israrla müdafiə edirlər.

İqtisadi tənəzzül, terrorizm, müharibə ABŞ-da ənənəvi fərdiçiliyi arxa plana keçirmiş, yeni vətənpərvərlik meyllərini gücləndirmişdir. Doğrudur, 21-ci yüzilliyin bu ilk genişhəcmli müharibəsində, hələlik cəbhə dəqiq müəyyən edilməmiş, əsas düşmən ələ keçirilməmişdir. Amma qoşun hərəkətdədir. Əfqanıstan işğal olunmuş, İraq ətrafına güclü qoşun hissələri cəmləşdirilmişdir. Digər tərəfdən Amerikanın KİV-ləri "soyuq müharibə" illərində olduğu kimi təbliğati və psixoloji hücumu da xeyli gücləndirmişlər. Həm də vaxtilə "propaqanda"nın

əleyhinə çıxan, onu kommunistlərin, sovetlər birliyinin icadı, vasitəsi hesab edənlər indi özləri bu vasitəyə əl atmalı olmuşlar. Onu beynəlxalq terrorizmlə mübarizə əməliyyatının ayrılmaz tərkib hissəsinə çevirmişlər. 11 sentyabrda prezident Corc Buşun "islam terrorizminə qarşı "xaç yürüşü" elan etməsi ABŞ təbliğatına yeni bir yön vermişdir. Sonralar nə qədər səy göstərilsə də deyilmiş bu sözlərin təsirini, doğurduğu təşvişi aradan tam şəkildə qaldırmaq mümkün olmamışdır və yəqin ki, olmayacaqdır da. Çünki "xaç yürüşü", "islam təhlükəsi" və s. bu kimi anlayışları, informasiyaları amerikalılar tarix dərsi kitablarından öyrənmişlər və öyrənirlər. Xatırladım ki, təxminən 100 il bundan əvvəl məşhur şərqşünas alim, Moskvadakı Lazarev adına Şərq Dilləri İnstitutunun professoru A.Y.Krımski (1871-1942) "Müsəlmanlıq və onun gələcəyi" ("Мусульманство и его будущность") adlı kitab yazmışdı. Fransanın məşhur Sorbonna Universitetinin ilahiyyat fakültəsinin məzunu, islama və digər dünya dinlərinə dərindən bələd olan həmyerlimiz, böyük mütəffəkir, qüdrətli qələm sahibi Əhmədbəy Ağayev "Kaspi" qəzetində bu əsər barədə geniş bir tənqidi rəy dərc etdirmişdir. İslam haqqında tədris kitablarında şagirdlərə birtərəfli, həqiqətdən uzaq, düşmənçilik hissi təlqin edən yazılara öz münasibətini belə şərh edirdi: "Biz - gələcək "ziyalılar" və "publisistlər" yeniyetmə olanda bizim hələ yetkinləşməmiş ağlımız və qəlbimizlə "Məhəmmədə", "Səlib yürüşlərinə", "Fələstinə" həsr edilmiş kitabların səhifələrindən və sərlövhələrindən saçılan zəhəri acgözlüklə udur və "basurmanların xristianlara verdiyi işgəncələrə görə" iztirab çəkirdik. Bu zəhər hələ uzun müddət bizim gözümüzü qapayacaq, hisslərimizi təhrif edəcəkdir. Bu zəhər hələ neçə-neçə nəslə təsir edəcəkdir".

Əhmədbəy Ağayev qeyd edirdi ki, "bu cür sərlövhəli kitab çox şirnikləndirici olur: siz həmin kitabda islamın əsasları, onun vaxtilə bəşəriyyətin taleyində oynadığı rol və müasir həyata münasibəti barədə çoxsaylı sualların cavabını tapacağınızı gözləyirsiniz... Biz onun "əsərlərini" diqqətlə oxuyaraq bu qənaətə gəldik ki, möhtərəm alim bu işə girişərkən qarşısına qərəzli bir məqsəd qoymuşdur - nəyin bahasına olursa-olsun, "müsəlmançılıq və onun gələcəyi barədə" məlum nəticələrə gəlmək məqsədi. C-b Krımskinin ərəb dilini və şərq tarixini lazımınca bilməməsindən irəli gələn bu qərəzlilik, bizim fikrimizcə, onun "əsərində" nəzərimizə çarpan, kitabçanın müxtəlif yerlərində rast gələn qüsurları, ziddiyyət və uyğunsuzluqları, eybəcər hala salınmış, dolaşdırılmış, düzgün şərh edilməmiş, bəzən isə qəsdən təhrif edilmiş tarixi faktlar şəklində qüsurları bununla izah etmək lazımdır".

Deyirlər, tarix təkrar olunmur. Əlbəttə eynən təkrar olunmur. Lakin təsadüf etdiyimiz oxşar cəhətlər də az deyil. İslam şərqini bilməyənlər, hər şeyi öz qərb arşınları ilə ölçənlər çox təəssüf ki, indi də bəzən suyu bulandırır, "səlib yürüşlərindən" söhbət açırlar. Amerikanın hələ fövqəldövlət olmadığı vaxtda Ə.Ağayev yazırdı: "Həqiqi islam, həqiqi müsəlman təhsilsiz və maarifsiz təsəvvürə gətirilə bilməz, nadanlıq və islam anlayışları bir araya sığışmır", "bizim nicat yolumuz elə özümüzün ayılmağımızdadır, qərəzli ideyalardan və hisslərdən əl çəkməkdədir. Nicat yolumuz yalnız budur! Doğrudan da ayılmaq vaxtı yetişib!"

Çox yaxşı və gərəkli məsləhətdir, nəzərə alan olsa!

**"Günay", N11, 15 mart 2003**

## NOVRUZ DÜŞÜNCƏLƏRİ

Milli bayramlar tarixi həqiqət, tarixi yaddaşla bağlıdır. Əsl bayram yalnız adi sevinc, ötəri təntənə deyil. Onun kökləri çox dərin olur. Xalq o hadisəni, o günü hafizəsində saxlayır, nəsildən-nəsilə verir ki, onun varlığı, taleyi, cəsarət və rəşadəti, qeyrəti və namusu, birliyi və xeyirxahlığı, bir sözlə gələcəyi həmin hadisə və günlə bağlı olsun. Xoş günlər xalqa öz qara günlərinin də səbəblərini və mahiyyətini anlamasına kömək edir, nəinki öz qüvvələrini tam dolğunluğu ilə dərk etməsinə, həm də irəliləyişinə mane olan cəhətlərin tarixi köklərini görməsinə yardım göstərir. Milli bayramı, deməli tarixi yaddaşı olmayan xalqa - bəsit xalq deyirlər.

"Baharın birinci ayı olan mart Şərq millətlərinin adətən bayram ayıdır. Bu ayda təbiət təzələnir. Təbii aləmə yaxın olan Şərq aləmi də bu təzəlikdən bir zövq alır, təzələnir. Çöllər, çəmənlər çiçəklənir, gül-çiçək içində yaşayan insanlar da təzələnir, ruhlanırlar" - 1917-ci il martın 15-də "Açıq söz" qəzeti "Bahari-hüriyyət" sərlövhəli baş məqaləsini bu sözlərlə başlayırdı. Qəzet yazırdı ki, əski iranlılar mart ayında Hürmüzün Əhrimənə qələbə çaldığını bayram edirdilər. Günəş Hürmüzün əlaməti idi. Bahar onun səltənəti idi. Qış - Əhrimənin vətəni, dondurduğu soyuq libas idi. İşıqlı Hürmüz üzünü, camalını göstərincə Novruz olurdu. Novruz demək - ruhu olan insanın, bitkilər

və heyvanlar aləminin hamısının azadlığı demək idi.

"Açıq söz" yazırdı ki, iranlıların bayram kimi qeyd etdikləri mart ayı turanlılarca da qurtuluş ayı hesab olunur. Əsatirə görə türklər bir zaman keçilməz bir dağ arxasında "Gönəqunda" mühasirəyə düşmüş, dünya üzünə çıxmaq imkanı bulamamışlardı. Abadlıqdan uzaq düşən bu yolazmışlara bir keçi tapılmış, süd vermişdi. Nagah hardansa gözlərinə keçinin dalınca gəlmiş bir qurd görünmüş, onu qovmuş və açıq dünyaya keçmişlərdi. Deməli, əsarətdən qurdun köməyilə qurtarmışlardı. "Qurtuluş" sözü də rəvayətə görə haman "qurt olmaq" - deməkdir. Bu əhvatlar guya da martın 20-də baş vermişdir. Beləliklə, Şərqin ki böyük milləti Novruz ilə qurtuluşunu mart ayında bulmuşdur.

Qəzet yazırdı ki, martda və ya apreldə saxlanan xristian pasxası da xristianlıqdan əvvəlki Qərb aləminə biganə deyildir. Bahar Qərbdə Şərqdən bir az gec düşdüyü üçün Qərbin "Novruzu" bir az sonra gəlirdi.

Göstərək ki, Novruz bayramını azərbaycanlılarla birlikdə bu torpaqda yaşayan və işləyən digər millət və xalqların nümayəndələri də birgə qeyd etmişlər. Dəqiq desək azərbaycanlılar öz sevinclərini onlarla bölüşdürürdülər. Birgə iməcliklər keçirilir, təmizlik işləri görülür, tamaşalar verilirdi. "Bir fincan çay" mərasimi xeyriyyə cəmiyyətlərinin fəaliyyətində əsas yer tuturdu. Məsələn "Kaspi" qəzetinin yazdığına görə 1917-ci il martın 20-də "İsmailiyyə"də keçirilən belə mərasimdə 7500 manat pul toplanmışdı. Yığılan pulu inqilabda, azadlıq yolunda ölən fədailərin ailələrinə vermək qərara alınmışdı.

Millətlərarası münasibətlərin, həm də səmimi insani münasibətlərin möhkəmlənməsi baxımından birgə tədbirlərin keçirilməsinin əhəmiyyəti böyük idi. Bu təcrübədən indiki, müstəqillik dövründə də istifadə etmək məncə faydalı olardı.

Azərbaycanda Novruz milli bayram kimi heç vaxt iş günü olmamışdır. Sonralar, yəni sovet dövründə bu ənənə pozuldu. Lakin şükür ki, biz bu ənənəni indi davam etdiririk. Qeyd edim ki, Azərbaycan Xalq Cümhuriyyətinin varlığı müddətində xalqımız Novruzu iki dəfə 1919 və 1920-ci illərin mart aylarında çox böyük şənliklərlə qeyd edib. Bu barədə o dövrün mətbuatında, xüsusilə "Azərbaycan" qəzetində maraqlı məlumatlara rast gəlmək olur.

Qəzet yazılarında diqqəti cəlb edən bir cəhət də mart ayında tarixdə baş verən azadlıq hərəkatlarına dair faktlarında nəzərə çatdırılmasıdır. "Nə təsadüfdür ki, Fransa Cümhuriyyətinin istiqrarı da

marta təsadüf eləmiş, siyasi bahar təbii bahara rast gəlmişdir. Fransa inqilabından sonra Avropa hökumətlərindən əksərində inqilablar çıxmış, hökumətlər qismən cümhuriyyətlə əvəz olunub, qismən də məşrutiyyətli hökmdara razı olmuşlardı...

Bu surədə məzkur inqilabların hankı ayda baş tutduqlarını araşdırmaq mümkün olmasa da inqilablardan bir neçəsinin haman mart ayında olduğu xəyalə gəlir. Məsələ, Amerika inqilabı və amerikalıların ingilis səltənətindən qurtarması martda vaqe olmuş, Sultan Əbdülhəmid martın 31-də həlhələ edilmiş, İran inqilabı da martda zühur eləmiş, sair bir çox inqilablar dəxi mart və ya apreldə, yəni bahar aylarında başlamış və ya qurtarmışdır" - "Açıq söz" qəzetindən gətirdiyimiz bu sözlər fikrimizi təsdiqləyə bilər.

Novruz - bahar bayramı həmişə xalq şənlikləri ilə müşayiət olunmuşdur. Əlbəttə, bu hər zaman üçün deyilə bilməz. İlk dəfə ürəkdolusu bayram 1917-ci ilin martında keçirilmişdir. Mütləqiyyət rejiminin devrilməsindən- sonra bu haqda qəzetlərdə dərc olunmuş bir yazıda oxuyuruq "minlərlə müxtəlif cins, dil və sinfə mənsub olan xalq Birja meydanına toplanmış və bu xalq bütün günü şəhər küçələrində dolaşmışdır. Bu qədər izdiham içində sabiq polis idarəsi zamanında bir teatr qabağında yığışan cüzi xalq arasında görülməsi təbii olan qovğalar belə yürüyərmiş. Orada əli qırmanclı, ağzı söyüşlü, üzü zəhrimarlı nizam saxlayanlar olmadığı halda nümunəyi-qovm misal bir nizam və qayda bərpa olmuşdu. Bu gün nə "von otsyuda", nə "idi çort qlojubi", nə "daloy von salyonnı", nə də "provalivay von" sözləri eşidilir, nə də qamçılarla, tüfəng qundaqları xalqın boynu ardında işləyirdi. Bu gün eşidilən sözlər - vətəndaş, qardaş, yoldaş sözləri olub, hər kəs özünü ağa hesab eləmiş və sairlərilə bərabər olduğunu dərk edərək qardaşca, yoldaşca yola getmiş, odur heç bir ixtilaf, heç bir intizamsığlığa məhəl qalmamışdı".

İşsizliklə, ümidsizliklə, maddi sıxıntılarla bayram əhvali-ruhiyyəsi yaratmaq çətindir. Əhalisinin yarısı kasıblıq həddindən də aşağı səviyyədə yaşayan bir məmləkətdə ümumi milli sevincdən necə danışmaq olar? Mən bu sözləri də hətta bayram günündə belə yazmaya bilmərəm. Amma bir mühüm cəhət də var ki, bu vətən bizimdir. Müstəqil, dünyaca tanınmış dövlətimiz var. Onun varlığı, tərəqqisi, rifahı, müdafiəsi üçün hamımız məsuliyyət daşıyırıq. Əgər hamı bir nəfər kimi bu həqiqəti dərk etsə , iş görsə, fəaliyyət göstərsə ümumi, hamı üçün bayram günlərini, illərini də yaxınlaşdırar.

**"Günay", N12, 20 mart 2003**

# "ŞƏRQİ - RUS" - 100

Sabah- martın 30-da XX yüzilliyin ana dilində nəşrə başlayan ilk mətbuat orqanı "Şərqi-rus"un ilk nömrəsinin işıq üzü görməsinin 100 ili tamam olur. Bu günün, bu hadisənin əzəmətini, tarixi əhəmiyyətini, o günün həyəcan və sevincini təsəvvür etmək, canlandırmaq, qələmə almaq çətindir. 1891-ci ilin oktyabrından nəşri dayandırılmış "Kəşkül" (1883-1891) qəzetindən sonra 1903-cü il martın 30-dək olan müddətdə Azərbaycan ziyalıları, oxucuları ana dilində müntəzəm mətbu sözdən məhrum idilər. Bu yolda canü-dildən səy göstərənlər, rəsmi dairələrə müraciət edənlər az deyildi. Lakin istənilən nəticə alınmırdı. Halbuki, 1900-cı ildə Qafqazda rus dilində 33, gürcü dilində 9, erməni dilində 5 adda mətbuat orqanı çıxırdı. 1903-cü ildə yəni "Şərqi-rus" nəşrə başlayanda isə vəziyyət belə idi: Qafqazda rus dilində 40, gürcü dilində 7, erməni dilində 6 adda qəzet və jurnal nəşr olunurdu. Əhmədbəy Ağayev "Şərqi-rus" da dərc olunmuş "30 milyon bir cəmaət" sərlövhəli məqaləsində yazırdı: "Rusiyada müsəlmanların ədədi 30 milyona qədər hesab olunur. Rus provoslavnı millətindən sonra Rusiyada ən böyük qovm, ən cəsim millət müsəlman millətidir. Lakin böyüklüyü ilə, bu çoxluğu ilə belə bu 30 milyon cəmaət guya heç yoxdur. Guya bir mühüm şey kimi adı var, özü yoxdur... Əgər biz varıq isə niyə özümüzü izhar etmiyoruq? ...Hanı bizim danışan dilimiz? Cümlə Rusiyada sakin tayfa və millətlərə bir nəzər atalım. Cümləsi yüz-yüz qəzetə, jurnallar, risalələr, kitabçalar vasitəsilə mübahisəyə məşğul olub öz dərdlərinin və ehtiyacatlarının fikrindədirlər. Hər kəsin dövlətdən istəməli şeyləri var istəyir, hər kəsin öz aralarında niza (mübahisəli) məsələ var və ya bir qüsuru var onları həll etməyə və ya təshih etməyə sərfi-vaxt edirlər. Tənha bir müsəlmanlar xamuş və sakit əyləşiblər".

12 illik fasilədən sonra keçilməz görünən maneə və sədləri yarıb yeni yüzilliyin ilk anadilli mətbuat orqanını nəşr edən Məhəmmədağa Şaxtaxtlı oldu. "Şərqi-rus" nəşrə başlayanda onun redaktoru və naşirinin 57 yaşı vardı. Şaxtaxtlı zəngin bir həyat yolu, böyük təcrübə məktəbi keçmişdir. Əvvəla mükəmməl təhsil görmüşdü. Naxçıvan Şəhər Məktəbini və Tiflis Klassik Kişi Gimnaziyasını qurtarmış (1863), Peterburqda müstəqil yolla alman dilini öyrənmiş, Almaniyanın məşhur Leypsik Universitetinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmiş (1869), Parisdə Şərq Dilləri Məktəbində mühazirələr dinləmiş, fransız və ingilis dillərini öyrənmişdi. Türk, ərəb, rus və fars dillərində də mükəmməl bilən və bu dillərdə olan

ədəbiyyatdan və dövri mətbuatdan faydalanan Şaxtaxtlı dövrünün tanınmış ziyalılarından idi. Onun məqalələri, elmi əsərləri, qaldırdığı məsələ və problemlər o dövrki mətbuatda ciddi maraq doğururdu.

Tanınan və sayılan M. A. Şaxtaxtlı istedadlı publisist və jurnalist kimi də fəaliyyət göstərirdi. O bir müddət mühafizəkar və nüfuzlu "Moskovskie vedomosti" (1756-1917) qəzetinin əməkdaşı və İstanbulda xüsusi müxbiri olmuşdu. XIX əsrin 90-cı illərinin əvvəlində Bakıda "Kaspi" qəzetinin müvəqqəti redaktoru da işləmişdi. 1898-ci ildə Şaxtaxtlı yenidən Avropaya üz tutur. Parisdə Fransa kollecində və Ali Təcrübi Təhsil məktəbində şərq dillərindən dərs deyirdi.



XX yüzilliyin başlanğıcında dünyanı bürüyən iqtisadi-siyasi, mənəvi-əxlaqi böhran, cərəyan edən hadisələr, milli oyanış və s. nəticəsində Şaxtaxtlı Rusiyaya, oradan Tiflisə dönür və görür ki, əvvəlki illərdə olduğu kimi ana dilində mətbuat orqanı yenə çıxmır. 1902-ci il aprelin 2-də Rusiyanın mətbuat işləri üzrə Baş İdarəsinə "Şərqi-rus" adlı qəzet nəşr etmək üçün müraciət edir, belə bir mətbuat orqanının vacibliyini və özünün bu işdə səriştəli olduğunu əsaslandırır. Şaxtaxtlı qəzeti ana dili ilə yanaşı rus və fars dillərində də əlavələr şəklində nəşr etdirməyə icazə verilməsini xahiş edirdi. Əvvəlcə yenə də 1896-cı ildə olduğu kimi rədd cavabı olan Şaxtaxtlı çox böyük səy nəticəsində "Şərqi-rus"un nəşrinə icazə ala bildi. Qafqaz Senzor Komitəsi Peterburqa icazə ilə əlaqədar göndərdiyi məktubda yazırdı: "M.A.Şaxtaxtinski tərəfindən tatar dilində qəzet nəşrinə icazə verilməsi haqqında məsələ qaldırılarkən, komitə ona görə buna müsbət rəy verdi ki, tatar dilində mətbuat orqanı olmadığından


شرق روس

Türkiyədən osmanlı dilində qəzetləri yazdırıb almaq zərurəti qarşısında qalmış Zaqafqaziya müsəlmanları arasında bu ehtiyac zərərli panislamizm məfkurəsinin ölkədə yayılmasına səbəb olurdu".

"Şərqi-rus" Tiflisdə nəşr olunurdu. Maddi cəhətdən çətinlik çəkən, bu barədəki səyləri, o cümlədən Bakı səfərində bir nəticə əldə etməyən Şaxtaxtlı Naxçıvandakı ata mülkündən ona düşən hissəni 18 min manata satıb Tiflisdə mükəmməl bir şəxsi mətbəə təşkil edib qəzetin nəşrini həmin mətbəəyə köçürmüşdü. Sonralar "Qeyrət" mətbəəsi adı ilə məşhur olan bu mətbəədə məşhur "Molla Nəsrəddin" jurnalı çıxmağa başlamışdı.

Qəzetin 1-ci nömrəsində yazılırdı ki, "Şərqi-rus" "cəmiyyət işlərinə və ədəbiyyata məxsus caharşənbə, cümə və bazar günləri çıxan türk qəzeti"dir. Tarix kimi Məhərrəm ayının 13-ü 1321-ci il 30 mart 1903-cü il göstərilmişdir. Qəzetin 1905-ci il yanvarın 15-dək 392 nömrəsi çıxmışdır. 1904-cü il 262-ci nömrəyədək redaktor M. A. Şaxtaxtinski, sonrakı nömrələrin "müvəqqəti redaktoru Cəlil Məmmədquluzadə" olmuşdur. Qeyd edək ki, "Şərqi-rus" sonralar "siyasi, elmi, ədəbi, ticari və sənai hər gün çıxan türk qəzeti" kimi fəaliyyət göstərmişdir. 1905-ci ilin 15 yanvar tarixli axırıncı nömrəsi də beləcə çıxmışdır.

M.A.Şaxtaxtlı kimi dünyagörmüş, Qərbi və Şərqi, Qafqazı və vətəni Azərbaycanı hər tərəfli tədqiq etmiş, xalqının, Rusiya və müsəlman dünyasının qarşılaşdığı problemlərə aşina olan bir ziyalının nəşr etdiyi mətbuat orqanı rəğbətlə qarşılanmaya bilməzdi. Və belə də oldu. Anadilli qəzet ətrafına xeyli qələm əhli toplandı. M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Nəzmi, A.Səhhət, H.Cavid, M.Lə'li, Ə.Qəmküsar və başqa görkəmli şairlər "Şərqi-rus" qəzetini şerlə təbrik etdilər. O zamankı dövri mətbuatda qəzetin nəşrilə əlaqədar xeyli yazı verildi.

"Şərqi-rus"un qaldırdığı məsələlər, toxunduğu problemlər hədsiz dərəcədə çox, rəngarən... və həyati əhəmiyyətli idi. Qəzetin istedadlı jurnalist və publisistləri uzun əsrlər davam edən süstlük və ətalətin aradan qaldırılması yolunu maarif, elm və savadda, bilikdə görürdülər. Bu sahədə M.F.Axundov və "Əkinçi" ən'ənələrini davam etdirir, yeni tarixi şəraitə uyğun əməli yol və vasitə arayırdılar. Qəzet 1903-cü il 29-cu nömrəsində yazırdı: "Dilsizlikdən və fikirsizlikdən özünün sağlığına belə şəkki gələn rus təbəəsi - türk və tatarlar "Şərqi-rus"u görəndə vücudlarında milli qanın oyanmağını hiss edib "həmd olsun biz də sağıq deyirlər".

"Şərqi-rus"da Azərbaycan jurnalist və publisistlərinin yeni bir qüdrətli nəsli təcrübə məktəbi keçdi. Böyük və qüdrətli yazıçı, "Molla Nəsrəddin" satirik məktəbinin yaradıcısı Mirzə Cəlil, onun məslək və

əqidə həmkarı O.F.Nemanzadə məhz bu qəzetdə əməkdaşlıqla mətbuat aləminə gəlmişdilər. Qəzetdə ilk yazıları dərc olunan cavanlar da az deyildi. Onların sırasında 19 yaşlı M.Ə.Rəsulzadəni də göstərə bilərik.

"Şərqi-rus" qəzetinin məsləkinə gəldikdə onu deyə bilərəm ki, məlum bir şeydir ki, o əsrdə və o şərait içində heç bir kəsin cürəti ola bilməzdi ki, qələmi ilə azad olsun və əsrin hökümətinin istibdadı ilə mübarizə aparsın, yaxud ehtiyatla da olmuş olsa, hökümət ilə oppozisiyada ola bilsin. Və təbiidir ki, bir belə azadi-tələb cəridəyə (qəzetə) heç bir vəchlə icazə də almaq mümkün ola bilməzdi. Onun üçün xah Məhəmməd Ağanın, xah onun biztək qələm köməkçilərinin məsləki və ideyası məhz müsəlman camaatını maarif və mədəniyyətə təklif və tərğib eləməkdən (həvəsləndirməkdən) başqa bir şey ola bilməzdi"-"Şərqi-rus"un fəal əməkdaşı, üç aydan artıq redaktoru olmuş, öz obyektivliyi, düzgünlüyü və dürüstlüyü ilə seçilən Mirzə Cəlilin qəzet haqqında bu fikirlərinə, verdiyi qiymətə əlavə etməyə haqqımız yoxdur.

M.A.Şaxtaxtlı müasir qəzet çıxarırdı. Orada Azərbaycan, rus və dünya ədəbiyyatı klassiklərinin yaradıcılığına imkan daxilində xeyli yer verilmişdir. Digər tərəfdən Rusiyanın türk-tatarlar, müsəlmanlar yaşayan şəhər və vilayətlərinin ziyalı və qələm əhlilə də redaksiya yazışır, onların yazılarına qəzet səhifələrində yer verirdi. Qəzetin bir sıra xarici ölkələrlə də əlaqəsi vardı. Qəzetin ümumi tirajının cəmi 1500 nüsxə olduğunu nəzərə alsaq bu əlaqələrin bəzi tədqiqat əsərlərində hədsiz dərəcədə şişirdilməsilə də razılaşmaq olmaz.

"Şərqi-rus"dan danışarkən Tiflisdə çıxan qəzetlə Bakıda fəaliyyət göstərən qələm əhli, xüsusilə "Kaspi" qəzetinin aparıcı publisist və jurnalistlərilə çox ciddi səciyyə alan polemikanı da qeyd etməyə bilmərik. Bu barədə mövcud ədəbiyyatda birtərəfli, əsassız iddialar irəli sürülür. Bu vaxta qədər dəqiq və hərtərəfli araşdırma aparılmayıb. "Şərqi-rus" qəzetinin, onun redaktorunun "Kaspi" və "Tərcüman" qəzetlərində dərc olunmuş yazılara geniş yer verildiyi halda adı çəkilən qəzetlərdə dərc olunmuş yazılardan, onların irəli sürdükləri məqamlardan əsaslı danışılmır. Ə.M.Topçubaşov, Ə.Ağayev, İ.Qaspiralı, H.Zərdabi və b. haqda irəli sürülən ittihamların hamısımı əsaslı və düzgün idi?! "Burjua qəzetləri" "barışmaz əqidə düşmənləri" kimi ifadələrlə həqiqət ortaya çıxmaz. Hər iki tərəfin sonrakı əməkdaşlığı da bunları rədd edir.

1904-cü ilin yayında "Şərqi-rus"un, M.Şaxtaxtlının maliyyə vəziyyəti xeyli pisləşdi. 1904-cü il iyunun 8-dən qəzet gündəlik çıxmağa başladı ki, vəziyyəti düzəlsin. Lakin düzəlmədi. Qəzeti

bağlanmaq təhlükəsi gözləyirdi. Belə bir vəziyyətdə ana dilində yeganə qəzeti xilas etmək üçün Əhmədbəy Ağayev Tiflisə gəldi. M.Şaxtaxtlı ilə şərikli qəzetin nəşrini davam etdirmək, hətta mümkün olsa nəşrini Bakıya köçürmək imkanı var idi. M.Şaxtaxtlı qəzetin Bakıya köçürülməsinə icazə almaq üçün Peterburqa getdi. "Şərqi-rus"da Ə.Ağayevin məqalələri dərc olunmağa başladı. Bu məqalələr haqqında sovet dövrü tədqiqatlarında yazılan birtərəfli mülahizələrlə razılaşmaq olmaz. "Şərqi-rus" öz əvvəlki istiqamətindən çıxaraq Ə.Ağayevin diktə etdiyi məfkurəvi yol ilə getməyə başladı" - kimi sözlər əsassız iddialardır. Əhmədbəy "Şərqi-rus"a şərik olandan sonra qəzet maddi cəhətdən dirçəldi. Lakin Qafqaz Senzor Komitəsi qəzetin nəşrinin Bakıya köçürülməsinə izin vermədi.

"Şərqi-rus"un axırıncı 1905-ci ilin 15 yanvar tarixli 14-cü nömrəsində 1-ci səhifədə verilmiş "İdarədən elan" da deyilirdi: "Bakıda ədib və sahibi-qələmimiz məşhur Əhmədbəy Ağayev cənabları "Şərqi-rus"a şərik olub mühərrirliyini üstünə götürməyi ilə belə bundan sonra bu qəzetə nə yolda çalışıb iş görəcəyini qəzetimizin 256-cı nömrəsində bəyan etdi. Təzə yoldaşımızın məqalə və bəndlərini və Bakıdan göndərdiyi haman şəhərin gündəlik əhvalatını bundan sonra qarelərimiz (oxucularımız) İnşaallah oxuyacaqlar. Bakıdan idarəmizə təb üçün göndəriləcək bəndləri (sətirləri) xahiş edənlər Əhmədbəy cənablarına verə bilərlər. Cənab Əhmədbəy Ağayev həzrətləri Bakıda Əlahəddə kontor güşad edib müştərilik (podpiska) və həm e'lan qəbul etməyə mübaşirdir. Nəinki, tənha Bakıda bəlkə hər tərəfdən müşari ileyhə idarəmiz kimi müraciət etmək olar".

Bu elan dərc edilən nömrənin, yəni "Şərqi-rus"un axırıncı nömrəsinin "müvəqqəti redaktoru:Cəlil Məmmədquluzadə" idi. Bu nömrədə Əbdülrəşid İbrahimovun "Uçitelski şkol" yaxud müsəlmanlara məxsus darülmüəllimin" "Felyeton" rubrikası altında təbib Hüseyn Ağayevin tərcümə etdiyi "Tənbəki (tütün) çəkmək" sərlövhəli iri bir yazı, "Təbrizdən yazırlar", "Rusiyada "Ayı" kəndində əsir yapanlar", "Ədəbiyyat" başlığı altında Abdullabəy Əfəndizadənin tərcümə etdiyi "Mübahisə" adlı şer və s. verilmişdir.

Əhmədbəy Ağayevin "Şərqi-rus"un təkcə 1905-ci ilin yanvarında çıxan 14 nömrəsində 6 yazısı dərc olunmuşdur: "30 milyon bir cəmaət" (№3), "Qəribə bir halət" (№5), "Badkubə cəmaətinin şayini-tovsif bir binagüzarlığı" (№7), "İran" (№8), "Cəmiyyəti-xeyriyyə" (№10) və b.

"Şərqi-rus"la Azərbaycan jurnalistikasının Tiflis dövrünün mühüm bir mərhələsi bitmiş oldu.

**"Günay", N13, 29 mart 2003**

# ALLAH UZAQDA, ABŞ YAXINLIQDADIR

İraqda döyüşlər bütün şiddətilə davam etməkdədir. Pentaqonun - dünyanın bu nəhəng və tarixdə misli görünməmiş güclü hərb maşınının işə düşməsi planetin ictimai-siyasi atmosferini dəyişməkdə, çox ciddi həyəcan, narahatlıq, ümidsizlik hissi yaratmaqdadır. 2001-ci ilin 11 sentyabrında ABŞ prezidenti Corc Buşun Üçüncü Dünya müharibəsinin başlanmasını elan etməsini hədə-qorxu və təbliğat hesab edənlər, martın 20-dən, yəni İraqa qarşı geniş həcmli hərbi əməliyyatlar başlanandan sonra, həm də Əfqanıstandan fərqli olaraq BMT Təhlükəsizlik Şurasının rəyi, qərarı olmadan başlanmasından sonra Vaşinqton rəhbərliyinin çox ciddi rəydə olduğunu görməyə başladılar. Politoloqların bir qismi 11 sentyabrı deyil, martın 20-sini yeni dünya düzəninin amerikasayağı başlanğıcı hesab edirlər.

Məlumdur ki, ABŞ 11 sentyabrdan sonra əvvəlcə geniş miqyaslı informasiya müharibəsinə başladı, beynəlxalq terrorizmlə, bu terrorizmə rəvac verən, onu dəstəkləyən, ABŞ-a tənqidi münasibət bəsləyən ölkələrə qarşı efir müharibəsi geniş vüsət aldı. Dünyanın inkişaf etmiş və ABŞ-dan bu və ya digər cəhətdən asılı olan ölkələri bu psixoloji səciyyəli kampaniyaya qoşuldular. ABŞ-da hərtərəfli hərbi-vətənpərvərlik isteriyası gücləndirildi. Ölkənin təhlükəsizliyi üçün ciddi düşmən qüvvələrin mövcudluğu əsaslandırılmağa başlandı. Ölkələr, şəxslər, ilk hədəflər müəyyən edildi. Əfqanıstan, İraq, İran, Şimali Koreya, Usama Ben Laden, Səddam Hüseyn və. b., son günlər Suriyanın adı da hallandırılır.

İnformasiyalı cəmiyyət və qloballaşma dövründə psixoloji, efir müharibəsi aparmaq, dünya ictimaiyyətini inandırıb öz tərəfinə çəkmək, həm də haqq olmayan siyasi və hərbi əməliyyatlara insancıl, humanitar don geyindirmək asan məsələ deyil. Özünə həddindən artıq güvənən Vaşinqton rəhbərliyi elə xəyal edirdi ki, İraqı qısa, bir neçə gün ərzində diz çökdürəcək, yeni texnalogiyaya əsaslanan kontaktsız, təmassız müharibə istənilən nəticəni verəcəkdir. Məlumdur ki, ABŞ rəhbərliyi İraqa qarşı ittihamlarla uzunmüddətli geniş kampaniyaya başladı. 1-ci, yəni 1991-ci ilin körfəz müharibəsi zamanı ata Buşun görə bilmədiyi "işi" oğul Buş həyata keçirmək xəttini Vaşinqtonun strateji xəttinə çevirdi: İndi İraqda 300 minlik ABŞ - İngiltərə koalisiya ordusu "İraqı azad etmək" uğrunda şəhərləri dağıdır, dinc əhalini qırır. Bu əməliyyata hazırlıq dövründə Pentaqon 500-yə yaxın Amerika jurnalistinə 3 aylıq təlim məşqi keçmiş, onları

hərbi hissələrə təhkim etmişdir ki, hərbi əməliyyatları Pentaqonun istədiyi kimi işıqlandırsınlar. ABŞ-ın kütləvi informasiya vastələrinin əksəriyyəti onların verdikləri məlumatları ictimaiyyətə çatdırır. Verilən xəbərlərə görə bu vaxtadək ABŞ təyyarə və vertolyotları İraq şəhərləri və yaşayış məntəqələrinə 27 milyondan artıq vərəqə tullamışlar, ABŞ, İngiltərə və onlara həmrəy olan ölkələrin radio və televiziya stansiyaları İraq rejimini sarsıtmaq üçün təbliğat kampaniyasını genişləndirmişlər. Digər tərəfdən, İraqın kütləvi informasiya vasitələri, binaları və mərkəzləri şiddətli hücumlara məruz qalır, dağıdılır. Hətta telefon stansiyaları binaları da bombardmana məruz qalır. Hərbi cəhətdən ABŞ - İngiltərə müttəfiq qüvvələrinin üstünlüyü göz qarşısındadır. İraqlıların öz vətənlərinə, torpaqlarına müdafiə əzmi və qətiyyəti də göz qarşısındadır.

Bəs dünya, beynəlxalq sülhün təminatçısı hesab edilən BMT bu açıq təcavüzə necə baxır? İcmalçıların bir qismi bu rəydədir ki, ABŞ-ın hakim dairələrində BMT-yə qarşı inamsızlıq hissi hökm sürməkdədir. Vaxtilə Millətlər Cəmiyyətinin İkinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində iflasa uğradığı, lazımsız, gücsüz bir təşkilata çevrildiyi kimi Üçüncü Dünya müharibəsinin başlanması ilə BMT-ni də eyni aqibət gözləyir. Lakin dünyada yeganə beynəlxalq sülh qurumu kimi BMT-ni saxlamağın, rolunu artırmağın tərəfdarı olan ölkələr və regionlar da çoxdur. BMT-nin aqibətini yaxın gələcək müəyyən edəcəkdir. Bu planetin yeganə fövqəldövləti Amerikanın istəyindən və onun dünya ictimaiyyətinin tələbi və istəyinə olan reaksiyasından asılı olacaqdır. BMT Nyu-Yorkda məskunlaşıb. Onun illik büdcəsinin 25 faizini təkcə ABŞ verir. Amerika rəhbərliyi istəyir ki, BMT onun yeni dünya düzəninə legitimlik versin, zorla "demokratiya ixracına" yardımçı olsun.

Təkcə BMT-də, Təhlükəsizlik Şurasında deyil, İraq müharibəsi bütün beynəlxalq təşkilat və qurumlarda parçalanmaya səbəb olmuşdur. Böyük dövlətlər xüsusilə Fransa, Rusiya, Çin, Almaniya ilə ABŞ - İngiltərə arasında ziddiyyətli baxışlar və münasibətlər birdən-birə gərgin səciyyə almışdır. RF prezidenti V. Putinin sözlərilə desək soyuq müharibənin başa çatmasından sonra keçən 13 il ərzində ən ciddi böhranlı vəziyyət yaranmışdır. Müharibə təkcə İraqla məhdudlaşıb qalana oxşamır. ABŞ-ın müdafiə naziri Donald Ramsveldin Suriya və İrana dair irəli sürdüyü ittihamlar, Rusiyanın İraqa müasir silah növləri satması barədə onun söylədikləri təsadüfi deyil.

Doğrudur ki, İraq hərbi cəhətdən əsasən təklənib. Onun yeganə ümidi beynəlxalq ictimayyətin rəyi, informasiya müharibəsində onun

qazandığı nisbi üstünlük, iraqlıların döyüş əzmi və qətiyyətidir. Vaxtilə ABŞ-ın təcavüzündən qorxan latın amerikalılardan birinin dediklərini icmalçılar zaman-zaman təkrar edirlər: Axı biz nə edə bilərik, Allah uzaqdadır, ABŞ isə yaxınlığımızda. Dünya isə seyrçilik mövqeyində. Yüz il bundan əvvəl Rusiyanın tanınmış dövlət və siyasət adamı qraf S.Y.Vitte yazmışdır: "Dünyada çox kədərli, gərgin, sarsıdıcı vəziyyət yaranmışdır", "Hökmdar özündən daha səfeh saydıqlarından başqa heç kəsi qəbul etmir".

**"Günay", N14, 5 aprel 2003**

<u>YENİ KİTAB</u>

## "HAKİMİYYƏT VƏ XALQ. AZƏRBAYCANDA MÜHARİBƏDƏN SONRAKI STALİNİZM"

XX yüzillik tədriclə bizdən uzaqlaşır. Gördüklərimiz, yaşadığımız, şahidi olduğumuzçox-çox hadisələr artıq tədqiq olunur, qələmə alınır, tarixə çevrilir. Mütəxəssislər XX yüzilliyi bəşər tarixinin ən zəngin, ən keşməkeşli, həm də ən qanlı və faciəli yüzilliyi adlandırırlar. Minillik imperiyalara bu əsrdə son qoyuldu, yüzlərcə xalqın və millətin arzu və istəyi bu əsrdə həyata keçdi. Müstəqil dövlətlərin sayı qat-qat artdı. Elmi-texniki tərəqqi planetin ümumi mənzərəsini, yaşayış tərzini, adamların dünya görüşünü əsaslı surətdə təkmilləşdirdi, dəyişdi. Bir əsrdə dünya əhalisinin sayı 3 dəfə artdı, orta ömür iki dəfədən çox uzandı. Bəşəri inkişafın sosial ədalət, insancıl, demokratik məcrasını axtarmaq, sınaqdan keçirmək təşəbbüslərinə rəvac verildi. Sistemlərin, ideologiyaların çarpışması da yeni tövr aldı. İki dünya müharibəsinin şahidi olduq, yüz milyondan artıq insan qanlı döyüşlərin, siyasi, milli, dini, etnik təqiblərin qurbanı oldu. Əvvəlki diktatorlara, cəlladlara "rəhmət" oxudan XX əsr diktatorları peyda oldu. Bu il martın 5-də ölümünün, daha dəqiq ifadə etsək, son versiyalara görə öldürülməsinin 50 illiyi tamam olan və xarici kütləvi informasiya vasitələrində az-çox qeyd edilən İ.V.Stalin də onlardan, dünya miqyasında tanınanlardan biri idi.

Tarix və tale elə gətirmiş ki, Gürcüstanın Qori şəhərində doğulmuş, ruhani məktəbdə təhsil görmüş Stalin böyük siyasət meydanına yolu həm də Bakıdan keçmişdir. Bu barədə çox yazılmışdır, hətta həddindən çox, bəzən də şişirdilib yazılmışdır. Amma Azərbaycanda stalinizm mövzusu lazımınca işlənilməmiş, əsaslı tədqiq olunmamışdır. Mən bu işin çətinliyini bilirəm. Mərhum akademik Ziya Bünyadov "Qırmızı terror" kitabında yazırdı: "Bizim Sovet Azərbaycanına başçılıq edənlər tərəfindən neçə yüz min şəxsin həyatının məhv edildiyini hesablamaq çətin və bəlkə də qeyri-mümkündür". Stalinizmin ruhunun yeni tərzdə yaşadığı, azlığın mütiləşdirilmiş, diz çökdürülmüş çoxluq üzərində hakimiyyətini tə'min etmək təcrübəsinə son qoyulmadığı bir şəraitdə stalinizmin anatomiyasının tam şəkildə açılması və araşdırılması da çətindir. Lakin ilk təşəbbüs və onun nəticəsi göz qabağındadır. Mən BDU-nun tarix fakültəsinin professoru, tarix elmləri doktoru Eldar İsmayılovun "Hakimiyyət və xalq. Azərbaycandakı müharibədən sonrakı Stalinizm. (1945-1953)" monoqrafiyasını nəzərdə tuturam. Göstərək ki, müəllif stalinizmi, o cümlədən Azərbaycan stalinizmini bir ideologiyanın, bir mülkiyyət formasının, bir partiyanın diktaturası, totalitar idarə sistemi kimi araşdırır, tədqiq edir. Sistemin bütün yükünü, varlığını və faciəli nəticələrini bir tarixi şəxsiyyətin üstünə qoymaq meyllərini doğru-düzgün saymır. Doğrudur ki, müəllifin də qeyd etdiyi kimi "Tiran ölmüşdür, onun barəsində mif puç olmuşdur, onun cəsədi mavzoleydən çıxarılmışdır... Qan və qorxu min qat azalmışdır" - kimi fikirlərə ədəbiyyatda tez-tez rast gəlmək olur. Bir həqiqət də var ki, Stalinin hakimiyyətdə olduğu 30 ilə yaxın müddətdə Azərbaycanda hakimiyyət canişinlik səciyyəsi daşımışdır. Onun əsas vəzifəsi Sovet İttifaqı adlandırılan imperiya dövlətin mənafelərini qorumaq və müdafiə etməkdən ibarət olmuşdur.

E.İsmayılov kitaba ön sözündə yazır: "Stalin dövründə yazılmamış Qaydalar yazılmış Qanunlardan daha üstün tutulurdu. Qeyri-rəsmi Qanunlar ranqına ucaldılmış bu Qaydalar yerli canişinlərin əməllərinin əsas zəmini idi. Bu halda Moskvadakı mərkəz yerlərdəki canişinlərinə xüsusi səlahiyyətlər verirdi. Amerikan tədqiqatçısı V.Şlyapentox haqlı olaraq yazırdı: "Mərkəzlə əyalətlər arasında münasibətlər xeyli mürəkkəb olduğuna baxmayaraq, sovet totalitar sistemi respublikalar üzərində birbaşa nəzarəti əldə saxlamağa çalışırdı. Bütün respublikalarda hakimiyyət partiyanın birinci katibinin əlində cəmləşmişdi, o, respublikanın sahibi kimi hərəkət edir və respublikadakı bütün təsisatlara nəzarət edirdi. Birinci katibin şəxsiyyətinə pərəstiş çox güclü idi". Hər halda, Şlyapentoxun çıxardığı nəticə Azərbaycan SSR-nin tarixinə tətbiq edilə bilər".

E.İsmayılov bütövlüklə Sovet totalitar sisteminin ümümi mənzərəsi fonunda Azərbaycanın II Dünya müharibəsindən sonrakı tarixinin təxminən 7 illik- 1945-1953-cü illər dövrünü tədqiq edir. Prfessor C.Həsənlinin də geniş və əhatəli elmi rəyində göstərildiyi kimi "Kitabda müharibədən sonrakı dövrün mürəkkəb hadisələri, soyuq müharibə dövrünün ideoloji istiqamətləri, həmin illərin aprtiya elitası haqqında maraqlı məlumatlar, mərkəz və respullika arasında qarşılıqlı münasibətlər, ən başlıcası isə dövrün ağırlığını yaşamış insanların taleləri son dərəcə maraqlı formada, tarixi prosesin haman zaman üçün səciyyəvi olan şərtləri daxilində araşdırılmışdır".

Məlumdur ki, sovet dövrü tarixi tədqiqatlarında əsas diqqət partiya sovet təşkilatlarına, statistik rəqəmlərə, rəhbərlərin fəaliyyətinə və onların kəlamlarına verilirdi. Xalqdan və zəhmətkeşlərdən ümumiyyətlə danışılırdı. Tarix insanlasız yazılırdı. E.İsmayılov bu xroniki xəstəliyi, çatışmazlığı aradan qaldırmağa çalışmışdır. 1945-1953-cü illərdə Azərbaycanda vəzifə və söz sahibi olanların taleyüklü məsələlərin qoyuluşu və həllindəki rolu və mövqeyi haqqında məlum olan və gizli saxlanılan sənədlərlə söhbət açır, qiymət verir. Bunların sırasında biz 20 illik bir dövrdə respublika partiya təşkilatına rəhbərlik etmiş M.C.Bağırovu, hökümət başçısı T.Quliyevi, rəhbər vəzifələr tutmuş N.Heydərov, M.B.Qasımov, İ.Mustafayev, M.İbrahimov, M.Seyidov, Ə.Əliyev və b. görürük.

Məlumdur ki, 1945-1953-cü illərdə böyük quruculuq işləri həyata keçirilir, sənaye şəhərləri salınır, elmdə, sənətdə, maarif və mədəniyyət sahələrində əməli tədbirlər görülürdü. Bunlar inkar edilməzdir. Digər tərəfdən "Soyuq müharibə"nin başlanması ilə əlaqədar demokratik meyllərin, milli oyanışın, Qərbi Avropa həyat və idarəçilik təcrübəsinə olan marağın qarşısının alınması üçün də təqib və axtarışlar da artırılırdı. Müharibədən əvvəlki illərdə inqilabdan əvvəlki tarixi hadisələrə baxışlarda da ciddi dönüş özünü göstərməyə başlamışdı. Rusiya İmperiyası az qala genişlənməkdə olan Sovet İmperiyasının sələfi kimi təqdim olunurdu. Qərb qarşısında pərəstiş, kosmopolitizmlə mübarizə, irsiyyət nəzəriyyəsinin ifşası, sovet həyat tərzinin ideallaşdırılması və s. kimi geniş miqyaslı kampaniyalar və bununla bağlı ifşalar, təqib və həbslər də geniş yayılmışdır. Kitabda bununla bağlı Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixi" əsəri liə bağlı qaldırılmış geniş miqyaslı təqiblərə geniş yer verilmişdir.

"Hakimiyyət və xalq" kitabında diqqəti cəlb edən fəsillərdən biri "Ayıqlar və sayıqlar haqqında"kı (O bditelnıx i bditelnosti) fəsildir. Məlumdur ki, 20-30-cu illərdə həyata keçirilən qətllər, sürgünlər, təqiblər, özbaşınalıqlar haqqında çox yazılmışdır, hətta qətlə

yetirilənlərdən bir hissəsinin siyahısı da dərc olunmuşdur. Amma 1945-1953-ğü illərdə həyata keçirilən represiyalar, həbs və sürgünlər barədə açıqlanmamış məqamlar çoxdur. Bununla əlaqədar söhbət gedən fəsildə xeyli yeni fakt və sənədlər açıqlanır, konkret şəxslərin başına gətirilən özbaşınalıqlar barədə tutarlı mə'lumat verilir. Bununla əlaqədar kitabın 183-cü səhifəsində təsvir edilən bir fakta diqqəti cəlb etmək istəyirəm. Burada oxuyuruq: "1950-ci ildə partiyanın üzvü, "Azərbaycan müəllimi" qəzetinin redaksiyasının məsul katibi Ələkbər Gülüzadə həbs edilmişdi. Bununla əlaqədar Yemelyanovun arayışında göstərilirdi ki, Gülüzadə "şəxsən öz əli ilə kəskin antisovet məzmunlu bir sıra anonim məktub və sənədlər yazmış və yaymışdır. Həmin məktub və sənədlərdə o, sovet gerçəkliyinə böhtan atmağa cəhd göstərmiş..., sovet dövlətinin rəhbərləri barədə kəskin təhqiramiz sözlər işlətmişdir". Gülüzadə 25 il azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdu".

Mən 1948-1949-cu illərdə BDU-nun filologiya fakültəsi jurnalistika şöbəsində oxuyur, həm də "Azərbaycan müəllimi" qəzetində ədəbi işçi işləyirdim. Qəzetin məsul redaktoru Rüstəm Hüseynov, redaktor müavini Nürəddin Babayev, məsul katibi Ələkbər Gülüzadə idi. Redaksiyada mötəbər, sakit, yalnız öz işilə məşğul olan Ələkbər Gülüzadənin çox böyük hörməti və nüfuzu vardı. Müharibə iştirakçısı idi. Uzaq Şərqdə yaponlara qarşı əməliyyatlarda iştirak etmişdi. Onun həbsi bizim hamımız üçün gözlənilməz oldu, bu KQB tərəfindən uydurulmuş bir əməliyyat idi. Ə.Gülüzadə Stalin, Beriya - M.S.Bağırov - Emelyanov dəstəsi məhkum edildikdən sonra bəraət aldı, qayıtdı. Ancaq həyatı, taleyi məhv edildi.

Mənim E.İsmayılovun kitabı haqqında qeydlərin oxucu qeydləri, həmin dövrü yaşamış, zülmün sonunu görmüş, imperiyanın dağılmasının şahidi olmuş adi bir vətəndaşın mülahizələridir. Stalinizmin kökünün kəsilməsi, tarixə qovuşmağı haqqında danışmaq da tezdir. Hadisələrin gedişi göstərir ki, totalitar rejimləri avtoritar rejimlər əvəz edir. KQB-nin vaxtilə istifadə etdiyi izləmə, donosçuluq, təqib, qara siyahılar, süni ittihamlar, şirnikdirmə üsulları yeni libasda, forma və rəngdə geniş vüsət almasa da qalmaqdadır. Yəqin ki, kommunist-sovet məktəbi və təcrübəsi keçmiş kadrları yeni nəsil əvəz etdikcə bu bəlalardan da xalqın, millətin canı qurtaracaqdır.

Professor E.İsmayılovun monoqrafiyası rus dilində az bir tirajla nəşr olunmuşdur. Onun ana dilində mümkün qədər nisbətən daha çox tirajla nəşr olunması faydalı olardı. Tarix müəllimlərinin və sovet dövrü tarixini öyrənən tələbələrin buna çox böyük ehtiyacı var.

**"Günay", N15, 12 aprel 2003**

## İRAQ FACİƏSİNƏ QISA TARİXİ BİR BAXIŞ

XXI yüzilliyin əsas hadisələri İslam Şərqində cərəyan edir. Artıq "super, super, super dövlət" adlandırılan ABŞ planetin yeganə söz sahibi rolunda çıxış etməyə başlayıb. Heç kəslə hesablaşmaq istəmir. "Kim mənimlə deyilsə, yeni dünya düzənində söz sahibi ola bilməz" tezisi artıq doktrina səviyyəsi alır. Heç kəs inkar edə bilməz ki, neçə yüz ildir ki, Amerika demokratiya yolu ilə inkişaf edib indiki qüdrət və qüvvətə, rifah və sabitliyə nail olmuşdur. Lakin iki okeanla dünyanın digər qitələrindən ayrılmış, qonşuluğunda onunla rəqabət aparmaq imkanı olmayan dövlətlərin əhatəsində özünü alınmaz qala hesab edən ABŞ-ın qarşısında dünyanın digər qüdrətli dövlətləri də mövcud idi.

Son onillikdə vəziyyət əsaslı surətdə dəyişmişdir. 11 sentyabrdan sonra Buş administrasiyası yeni əsrin ABŞ əsri olacağı qənaətinə gəlmişdir. Belə görünür ki, nə BMT, nə NATO artıq ABŞ-a elə bil lazım da deyil.Vaşinqtonun bu siyasətinə cüzi etiraz edənlər belə həqarətlə qarşılanır. Fransa, Almaniya və Rusiyanın İraqda vəziyyətin hərbi yolla deyil, BMT çərçivəsində, siyasi danışıqlar yolu ilə həll edilməsi təkliflərini və bu üç dövlətin başçılarının görüşlərini Vaşinqtonda "Kiçik Antanta" kimi təhqiramiz şəkildə dəyərləndirirlər. Dünyada 500-ə yaxın hərbi bazası, ildə 400 milyarda çatan hərbi büdcəsi, ən yeni texnologiyaya malik, ən müasir silahları olan və onu təkmilləşdirib sınaqdan keçirən bir özündənrazı dövlətin qarşısına kim çıxa bilər? ABŞ da özündən əvvəlki Qərb dövlətləri kimi gücünü Yaxın Şərqdə, İslam dünyasında sınaqdan keçirir, nümayiş etdirir. Bizdən əvvəlki nəsillərin qələm əhli də vaxtilə bunları görmüş, yazıb tarixə həkk etmişlər. Üzeyir bəy Hacıbəyov "Həyat" qəzetində (1905, №62): "Bədbəxt türklər! Böhtan, gizb və iftira altında qol çalan türklər! Biinsaf və bimürvət və bivicdan mühərrirlər qələminin oynağı olmuşsunuz. Hər əli qələm tutan sizin barənizdə bir iftira yazmasa olmaz!" Haşım bəy Vəzirov "Təzə həyat" qəzetində (1907, №2) "Yazıq ərəblər! Bir vaxtında qorxunuzdan öz evlərində tir-tir titrəyib əsən firənglər indi gəlib sizin evinizə girirsə, namusunuza, əyalınıza, malınıza əl uzadırsa - dinməyin, haqqınızı paymal edən zalımları öldürməklə yaxanızı qurtarmayın!". Əhməd bəy Ağayev "Şərqi-Rus"da (1905, №3)

**"Bizim varlığımız nədən görünür, nədə təzahür edir? ...Bizim bu qədər elmdən, hünərdən, fənnidən, namusu-milliyyətdən, şərəf, izzət, hörmətdən bibəhr olmağımızdanmı?... Bizlər cəmi qüvvət və gücümüzü ancaq özümüzün sərnigün və xar olmağımıza işlədib axırda meyit kimi düşmüşük ki, hər gələn basıb keçir. Bu yolda heç kəsə məzəmmət yoxdur. Özümüz-özümüzə etmişik!" yazırdılar.**

**İndi isə, hörmətli oxucular, haqqında az yazılmış, irsi lazımınca öyrənilməmiş görkəmli naşir, jurnalist və publisist Haşım bəy Vəzirovun mövzu ilə əlaqədar tarixi baxımdan maraqlı hesab etdiyim "Günçıxan (Şərq) ilə Günbatan (Qərb)" sərlövhəli məqaləsilə tanış olun. Nəzərə alın ki, bunlar 96 il bundan qabaq yazılıb.**

## *GÜNÇIXAN İLƏ GÜNBATAN*

Hər necə düşübsə siyasət aləmində o gündən ki, Avropa dövlətləri bir az zor və qüvvət kəsb edib özlərin qalan aləmin hamısına sahiblik etmək fikrinə düşüblər; cəmi yer üzün ki, beş qitədən ibarətdir, öz lüğət və istilahlarında iki hissəyə bölüb birinə günçıxan, o birinə günbatan adı qoyublar; günçıxan deyilən məmləkətlərin çoxusu elmi, fənni tərəfdən vaqiən (həqiqətən) günçıxan deyilsə də və günbatan deyilən qitələrin çoxusu qeyri məmləkətlərə nisbətən, günbatanda deyilsə də, bu ad özü bir növlə mərifətli və mərifətsiz ləfzlərin, daha doğrusu isəvi (xaçpərəst) və qeyri isəvi mənasın andırır; cəmi Avropa qitəsi və Amerika özlərin günbatan (Qərb) adlandırıb qalan qitələrə: Asiya, Afrika və Avstraliyaya günçıxan (Şərq) deyiblər.

Səkkiz, doqquz qərinə (əsr) bundan qabaq yarımvəhşilikdə ömür keçirib Asiya və Afrika əhalisi əlində dəstgir (əsir) olan Avropa ənva əqsam (müxtəlif) şərait sayəsində tərəqqi etdi, elmə, fənnə qeyrilərdən yaxın oldu. Demək ki, ayıldı. Ayılan gündən Şərq ilə rəqabət etməyə, bacarsa - bu insanın əsl beşiyi, əvvəlinci xilqət tapdığı yeri kökündən, binasından götürüb üzüqoylu çevirmək fikrinə düşdü. Şərq əhalisinin zatən tənbəl, biqeyd olmağından istifadə edib, Avropanın ən balaca dövlətləri özündən neçə kərə böyük qitələri (ölkələri) tutmağa, zəbt etməyə şüru elədi. Avropanın öz əhalisi də kamalınca əhli-mərifət olmamağına görə onları Şərq davalarına çəkmək üçün Avropa işgörənləri öz həmvətənlərində əvvəlinci

dəfələrdə alladıb məzhəb rəvacı üçün Şərq torpaqlarında dava elədiklərin ortaya tulladılar və bu vasitə ilə cəmaət zorən, cəmaət qoşunları hər yerə, hansı məkanə istədilərsə, çəkdilər. Həqiqətdə isə bu davalara, bu uzun səfərlərə, bu qorxulu işlərə avropalıları çəkən bilmərrə (qətiyyən) məzhəb və din qeydkeşliyi deyildi. Onlardan ötrü İncil hökmünün, isəviyyət əqidəsinin bir o qədər də əhəmiyyəti yox idi. Onları Hindistanın ilanlı, əjdahalı cəzirələrinə, Afrikanın səmum yelinin, pələnglərinin kaminə (pəncəsinə), isti qumlarının, dərindələrinin meydanına çəkən bilmərrə məzhəb və etiqad hissləri deyildi. Onlardan ötrü hər bir əqidə və ədyandan (dinlərdən), hər bir din və imandan müqəddəm (əvvəl) Hindistanın cəvahiratı və qızılı, Afrikanın şirmayısı və şütür mürğ (dəvəquşu) qanadları idi. Məzhəb adına avam cəmaətin vasitəsilə gəlib Şərq torpaqlarında özlərinə yuva tikən qərblilər (avropalılar) tutduqları yerlərdən o ki lazımdı istifadə etdilər. Dürüst hər yerin cövhərin çəkdilər, hər nəki yük tutmalı idi tutdular. Ondan sonra qalan işləri onların hiyləsinə allanıb, dallarına düşüb gələn avamlara qoydular: "buyurun, indi siz məzhəb və din davası eyləyəcəksiniz - eyləyin, biz öz işimizi gördük" - deyib, çəkildilər qırağa.

İndi növbət gəldi ikinci "məzhəbçi, mübəlliq (təbliğatçı) firqəsinə. Amma oyunlar da dəyişildi: əvvəlincilər tutduqları yerlərin nəqd mənfəətin götürdülərsə də gələcəkdə yenə mənfəət gözlənməsin nəzərdə tutub, bu dəfə özləri öz öhdələrinə köpəklik vəzifəsini götürüb mübəlliğlərə, məzhəbçilərə qaravul çəkmək binasın qoydular. Məbada özgə bir köpəklər gəlib burdan sümük ummaq fikrinə düşər - deyib, gecə-gündüz yatmadılar, qıraqdan bir köpək göründükdə də dişlərin taqqıldadıb, mırıllamağa başladılar. Şərqlilərin özlərində bu hərəkət yuxudan oyadıb, bir gərnəşmək əlaməti göründükdə onların üstünə atılıb onları boğmağa və sair yatanları oyatmamış oyananları bir-bir tələf etməyə, yox etməyə can atdılar.

Hər bir yatmağın axırında bir oyanmaq mülahizəsin də yaddan çıxarmayıb, ayıq avropalılar həmişə hazırlanmağa, həmişə amarə (hazır) olub, hər kəs öz növbət yerində durmağa, nizami tamamilə boynuna qoydular. Odur ki, heç bir ay, il, bəlkə gün deyil ki, Şərq torpağının bir tərəfindən top, tüfəng, dava, mərəkə səsi gəlməsin. Bir gün yoxdur ki, "ziyalı","mərifətli", "insaniyyətpərəst" - Şərqin bir qitəsində məhəlli "vəhşiləri" sakit etməyə, "insaniyyət və isəviyyət" yoluna çəkməyə cəhd etməsinlər və bunun nəticəsi olaraq yüzlərcə, minlərcə əlsiz-ayaqsız, bacarıqsız əhalini oda tutub top-tüfəng nişanəsi etməsinlər. Bu günahların, bu şəqavətlərin (quldurluqların)

hamısına da insaniyyət, ürfaniyyət rəngi verilir. Vay insaniyyət və ürfaniyyətə - hərgah onlar bu növ vəhşiliyə razı olurlarsa!

Fas (Mərakeş) sultanı bu günlər məcburən məscidlərdə, minbərlərdə iki firəngi öldürüb, bir neçəsini də yaralayan ərəblərə lənət oxutdururdu. Yazıq ərəblər! Bir vaxtında qorxunuzdan öz evlərində tir-tir titrəyib əsən firənglər indi gəlib sizin evinizə girirsə, namusunuza, əyalınıza, malınıza əl uzadırsa - dinməyin, həqqinizi paymal edən zalımları öldürməklə yaxanızı qurtarmayın. Zira ki, sizin sultanlarınız vaxtında ayıq olmaqdan özlərinə sair həmcins və həmməzhəblərindən kömək və müttəfiq əllər qayırmaqdan çəkinməyi sayəsində bugünkü gün o qədər zəif, o qədər acizdir ki, evinə girən oğrunu da qorumağa qüdrəti yoxdur. Yüzlərcə ərəb qanı tökən firənglərin ikisi ölməklə "Ucda" səhrasın firəng dövləti tutub, onu qurtarmaq üçün öz evində özgəyə təməllüq (yaltaqlıq) etməyə məcburdur. Amma bir siz deyilsiniz, cəmi məşriqi-zəmin (şərq ölkələri) müsəlmanları siz halətindədir. Zəngibar müsəlmanları ilə ingilislərin Cava müsəlmanları ilə hollandların rəftarı sizinkindən də hövlənak (dəhşətli), ondan da artıq müəssirdir (təsirlidir). Böylədə olacaq, nə qədər ki, siz ayılıb, birləşib, tərəqqi yoluna düşməmişsiniz. Haman qərbliləri onları özlərinə silah qayırdığı elm və fənn ilə irəli getməyində bir dəqiqə təxir etməyin. Qərblilərin döşündən itələyib "dəxi bəsdir, dəxi kifayətdir" deməlisiniz, indi bizə qəyyum lazım deyil, öz torpağımıza, öz dövlətimizə özümüz də sahib ola bilərik deməlisiniz, onların üzündə o həya, o insaniyyət olmayacaq ki, sizin yarım xarabə, viranəliyə yaxınlaşmış vətəninizdən əl çəksinlər!

**Haşım bəy VƏZİROV**

*"Təzə həyat" qəz. 2 aprel 1907-ci il, № 2.*

**"Günay", N16, 19 aprel 2003**

# ƏZAB ÇƏKƏN VƏ ÜMİDLƏ YAŞAYANLAR NƏSLİ

1920-ci il aprelin 27-si günü, milli müstəqilliyimizə qarşı daxildən və xaricdən uzun müddət hazırlanıb həyata keçirilən silahlı çevriliş və onun 70 illik fəsadları haqqında hələ də lazımınca indiki nəslə tutarlı, inandırıcı, sistemli bir əsər təqdim olunmamışdır. Bu illərdə hakimiyyətdə olan siyasi partiya və şəxslərə, onların əhatəsinə



M.Ə.Rəsulzadənin məzarı önündə.
*Ankara. "Əsri" qəbristanlığı. 1988-ci il*

münasibətə görə tədqiqatlar, yazılar işıq üzü görmüşdür. Sovet dövrünün qlobal düşüncə baxımından təhlili, qiyməti tarixçilərdən çox yazıçılar tərəfindən verilmiş və verilməkdədir. Hətta bu postsovet dövrü tarixinə də aiddir. Böyük ümumtürk mütəfəkkir yazıçısı Çingiz Aytmatovun dediklərinə diqqət edin: "Əgər biz günahkarları axtarmaq yolu ilə getsək, çox az mətləbləri izah edə bilərik. Cavabı - səbəb və proseslərin daha dərinliyində, ilk növbədə cəmiyyətin hələ də formalaşmamasında axtarmaq lazımdır. Bizdə sözün əsl mənasında, iqtisadiyyat heç vaxt olmayıb. Sənaye müəssisələri və kənd təsərrüfatı olub, amma ağıllı, tarazlaşdırılmış iqtisadiyyat mövcud deyildi. Başlıca məqsəd bütün dünyada üstünlüyə çatmaq üçün lazım olan qədər

silah istehsal etmək idi", "Rusiyanın tarixi işğalla əraziləri genişləndirmək tarixi idi", "İnsan həyatını da bu problemə tabe etdirib ölkəni dağıtdılar", "Bizim cəmiyyət iqtisadi, sosial, siyasi inkişafı baxımından hələ müasirliyə qədərki cəmiyyətdir", - hətta indi də "hakimiyyət get-gedə sadə adamlardan daha çox uzaqlaşır, siyasəti azca dəyişməyə isə eyham belə yoxdur".

Maraqlıdır ki, sovetlərin, bolşeviklərin bu xislətini, gələcək məğlubiyyətini bu hakimiyyətin lap ilk illərində də görən, buna inanan uzaqgörən dövlət və siyasət adamlarımız olub. Doğrudur, neçə-neçə nəslin bu irsdən xəbəri olmayıb, onları xalqa "düşmən" kimi təqdim ediblər. Əsərlərini, adlarını belə dilə gətirməyə qoymayıblar. Yadınıza salın, 15 il bundan əvvəlki meydan hərəkatının ilk aylarını. Üç rəngli Azərbaycan bayrağını, milli istiqlal hərəkatımızın lideri və ideoloqu, böyük öndərimiz M.Ə.Rəsulzadənin nurlu simasını yeni nəsil ilk dəfə bu aylarda gördü, tanıdı. 1989-cu il dekabrın 24-də mətbuat və mədəniyyətimizin fədakar tədqiqatçısı, qocaman müəllimimiz Qulam Məmmədli mənə xəbər verdi ki, "Azadlıq" adlı qəzet nəşrə başlayıb, 1-ci nömrəsi çıxıb, onu al saxla. Həm də məsləhət gördü ki, senzurasız buraxılan qəzet, vərəqə və çap məhsullarını əldə edib saxlamağa çalış, onlar bizim tariximiz üçün dəyərli sənədlərdir. Hətta qeyd etdi ki, 1941-ci ilin avqustunda Sovet qoşunları Cənubi Azərbaycana girəndən sonra o da bir qrup azərbaycanlı jurnalistlə Təbrizdə olarkən cənubdakı milli azadlıq hərəkatının lideri Seyid Cəfər Pişəvəri eyni sözləri, məsləhəti ona vermişdi. Qulam müəllimin mənə verdiyi "Azadlıq" qəzetinin həmin 1-ci nömrəsi məndədir. Tanınmış, istedadlı həmkarımız, cavan ikən dünyasını dəyişmiş, lakin tariximizdə və qəlbimizdə yaşayan Nəcəf Nəcəfovun baş redaktorluğu ilə 200 min nüsxə tirajla nəşr olunmuş qəzetin bu nömrəsində M.Ə.Rəsulzadənin 1920-ci ilin iyulunda - 27 aprel faciəsindən sonra Bakını tərk edib siyasi mühacirətə getmək qəsdilə Lahıcdakı müvəqqəti sığınacaq dövründə qələmə aldığı "Əsrimizin Səyavuşu" əsərindən bir parça da dərc olunmuşdur. Ç.Aytmatovun Sovet imperiyası dağılandan sonra dediklərini M.Ə.Rəsulzadə uzaqgörənliklə bu hakimiyyətin lap ilk illərində görmüş və yazmışdır. "Haqsız qan yerdə qalmaz" sərlövhəsilə verilmiş bu klassik yazını siz də oxuyun! Cümhuriyyətimizin 85 illik yubileyi ərəfəsində, məncə, çox mətləblərdən agah olmaq üçün də vacibdir.

## *HAQSIZ QAN YERDƏ QALMAZ*

...Yazıqlar olsun ki, biz daha yerləşməyən etiqadımızla - "Bir kərə yüksələn bayraq bir daha enməz!" idealına etdiyimiz afərinləri unutduq, canımız və malımız qorxusundan bu istiqlal bayrağını qırmızı bir bezə dəyişdirdik. İntriqaçı və zalım bir qüvvət tərəfindən susdurulduq. Dilim varmır... Təslim olduq!

Fəqət, bu "təslim" bizi qurtardımı?

Canımız, malımız, namusumuz qurtuldumu?

Xeyr! İlk zərbə ilə yerlə bir olanlar yenə təslim fikrinin fədailəri oldular.

Fəqət, bütün bu fəlakətlərə rəğmən bir şey qazanıldı. Bir təcrübə meydana çıxdı. Elə bir təcrübə ki, intiqamçı gözləri daima bir Dəmirçi arayır (müəllif vaxtilə İranı xilas etmiş Dəmirçi Gavəni nəzərdə tutur - Ş.H.) və elə bir xalq ki, hər ağacın ucunda bir Bayraq görmək istəyir.

Azərbaycanlılar Mehdi zühuruna (bir zaman zühur edib müsəlmanları bəlalardan xilas edəcək 12-ci imama - Ş.H.) inanırlar. Bolşeviklərin bütün sərvət və zənginliyi dağıdaraq hər kəsi bir loxma çörəyə möhtac etmək siyasətinin, bir əlində silah, bir əlində çörək tutan bu şeytani politikanın xalqı nə kimi vasitələrlə bolşevik etdiyini görüncə Azərbaycan xalqı Dəccalın (qondarma Mehdi, yalançı, fırıldaqçı məxluqun - Ş.H.) gəldiyini görür, bundan sonra, təbii ki, Mehdinin gəlməsini gözləyir.

**Azərbaycan Mehdisi (xilaskarı) xalqının idealından, milli istiqlalından ibarətdir.**

Bolşevik Dəccalının müdhiş məzalimindən (haqsızlıqlarından) bezən xalq, duyuram, yanıq bir ürəklə: "Ah, bu Mehdi nə vaxt gələcək?" deyə soruşur.

Can qulağımla (qəlbimlə) dinləyirəm, yuxarıdan ilahi bir səs cavab verir ki, Azərbaycan bayrağı təkrar açıldığı, təkrar dalğalandığı gün!

Bəli, o gün, o böyük gün!

Fəqət, indilik biz ümidimizi qırmayaq, o bayrağı qaldıracaq sərdənkeçdi (başından keçməyə hazır olan - Ş.H.) Dəmirçiləri hazırlayaq. Bunun üçün hər şeydən əvvəl yalan söyləmənin ruhumuza verdiyi qorxunu, "iş düzəldən yalan fitnə çıxaracaq doğrudan daha yaxşıdır" fəlsəfə əxlaqının xarakterimizə verdiyi xoşgörülüyü ölüm qorxusunun iradəmizə verdiyi mütiliyi uzaqlaşdıraq və bədbəxt olmayaq!

Qalileyə "Ah, nə edim ki, bu lənətlənmiş dünya dönür (fırlanır)" ideasını başı üzərində duran cəlladlardan qorxmayaraq söylədən,

Sokrata imkanı varkən doğal (təbii) ölümü mənəvi ölümə tərcihlə (ölümdən üstün tutaraq) həlail (təsirli) zəhərini içirdən, Həzrəti Hüseynə bütün dost və qoruyucularını qeyb etdiyi halda təslim olmamaq cəsarətini verən və nəhayət, Anadolu hərbinin o şanlı qəhrəmanı Fətih bəyə komandanının əmrini bir neçə dəqiqə ertələdiyi üçün qalib ikən intihar etmək igidliyini göstərən bir vəzifə hissi ilə silahlanaq! Bilək ki, çoxdan öldürülmüş zənn olunan millətlərin birər-birər diriliyi bu böyük məşhərdə (çaxnaşmada) ölmək istəməyən millətləri diri-diri gömmək (basdırmaq) qətiyyən mümkün deyildir.

Bunun ən böyük misalı qardaşımız Türkiyədir.

Bəli, ey vətəndaşlar! Və dolayısıyla sizlər - ey gələcək nəsil! Ey gənclik! Ey əsrimizin Səyavuşunun böyümüş oğlu! Sənin öhdəndə böyük bir vəzifə var: Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min bir müşkülatla yüksəldərək dedi ki:

**- Bir kərə yüksələn bayraq bir daha enməz!**

Bunu deyərkən, o, bugünkü öksüzanə (yetimcəsinə) mənzərəni hesaba qatmamış deyildi. Bu onun tərəfindən təsəvvür olunmuşdu. O sənin o zaman bu bayrağı gənc omuzlarına (çiyinlərinə) alıb məsumanə bir tövrlə küçə-küçə dolaşaraq: "İrəli, irəli, Azərbaycan əsgəri!" - deyə əsgərcə addım atmalarını görmüşdü və bu sözü cəsarətlə söyləmişdi.

Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıqlı türkülərinə (mahnılarına) mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək, böyük Dəmirçinin geri dönüşünü görüncə onun tərəfinə keçəcək, ya qazi və ya şəhid olacaqsan!

***Lahıc, iyul 1920***

**M.Ə.RƏSULZADƏ**

**"Günay", N17, 26 aprel 2003**

## TİFLİSDƏ 26-28 MAY HADİSƏLƏRİNİN BAKIDA ƏKS-SƏDASI

1918-ci ilin 28 may İstiqlal Bəyannaməsi ilə xalqımızın tarixi və taleyinin yeni dövrü başlamışdır. Milli müstəqillik, dövlətçiliyimizin yenidən bərpa edilməsi uğrunda mübarizə tarixinin tədqiqi və öyrənilməsi sahəsində görüləcək işlər hədsiz dərəcədə çoxdur. Son vaxtlar hətta bu sahəyə aid xüsusi bir cildlik ensiklopediya nəşrinə hazırlıq haqqında da söhbət gedir. Təşəbbüsü alqışlamaq lazımdır. Amma gərək söhbət müəyyən siyasi məqsəd və müvəqqəti müəyyən dəstənin sifarişi və istəyindən getməsin. Tariximizi saxtalaşdırmaq, hakimiyyətdəkilərə uyğunlaşdırmaq meyllərinə də son qoymaq vaxtı gərək ki, gəlsin. Bunun üçün də tərəfsiz, sistemli, geniş, hərtərəfli tədqiqat üsulu bərqərar olmalıdır. Mən mətbuat tariximizi öyrənirəm. Bildiyimiz kimi dövri mətbuat dövrün kollektiv yaddaşıdır, hadisələrin yazılı salnaməsidir. 1918-1920-ci illərdə Azərbaycanda və onun sərhədlərindən kənarda ana dilində 60-a yaxın adda mətbuat orqanı çıxmışdır. Məncə müxtəlif istiqamətli, mənsubiyyətli, qayəli bu mətbuat orqanlarını nəzərdən keçirmək bir çox mətləbləri aydınlaşdırmaq baxımından vacib və lazımdır. Məsələn, 1918-ci il mayın 26-28-də Tiflisdə Zaqafqaziyada üç müstəqil dövlətin yarandığı elan edilmişdir. Bu tarixi hadisələr o dövrki mətbuatda necə qiymətləndirilmiş, oxuculara, geniş kütləyə necə çatdırılmışdır? Maraqlı deyilmi? Məncə maraqlıdır!

Məlumdur ki, 1918-ci il martın sonu və aprelin ilk günlərində bolşevik rus, erməni daşnak qüvvələri Bakı şəhəri və quberniyasını azərbaycanlılardan təmizləyib Sovet Rusiyasına ilhaq etmək məqsədilə yerli müsəlman əhalisinə qarşı kütləvi qırğın-genosid siyasətinə əl atdılar. On minlərcə günahsız dinc əhali qətliama məruz qaldı. Canını qurtarmaq cəhdilə çoxları şəhəri və kəndləri tərk etməyə məcbur oldu. Azərbaycanlılara məxsus evlər, iş yerləri, dükanlar, ictimai binalar yandırıldı, yağmalandı. İlk hücum hədəfləri sırasında istiqlal mücahidlərinin milli qərargahına çevrilmiş "Açıq söz" və "Kaspi" qəzetləri redaksiyaları və mətbəələri də tar-mar edildi. Şəhərdə hakimiyyəti ələ keçirmiş Bakı komissarları müxalifət qəzetlərinin nəşrini qadağan etdilər. Ana dilində əsas mətbuat orqanı kimi N.Nərimanovun redaktorluğu ilə "Hümmət", bir də aprelin 4-dən rəsmi "Bakı ətrafı fəhlə, əsgər və matros şurasının əxbarı" adlı sovet qəzeti çıxmağa başladı. Beləliklə, 1918-ci ilin aprelindən Azərbaycan istiqlal mücahidləri mətbu orqansız qaldılar. Bu vəziyyət 1918-ci il sentyabrın 15-nə, yəni C.Hacı-

bəyli və Ş.Rüstəmbəyovun redaktorluğu ilə Gəncədə rəsmi hökumət qəzeti "Azərbaycan"nın nəşrinə qədər davam etdi.

1918-ci ilin mayın 26-28-də Tiflisdə və bütünlüklə Qafqazda cərəyan edən hadisələrə anadilli mətbuatda münasibət necə idi? Bu barədə "Hümmət" qəzetində ilk yazıya mayın 30-da, onun 77-ci sayında rast gəlirik: "Müstəqil Gürcüstan", "Ramişvilinin nitqi", "Gürcüstanın istiqlalının elanı", "Seratelinin nitqi" bu qəbildəndir.

Zaqafqaziya Seyminin son iclasında gürcü menşeviklərinin rəhbərlərindən biri İ.G.Seretelinin qəzetdə dərc olunmuş nitqində oxuyuruq: "Menşevik sosial-demokrat firqəsi həmişə qabaqda olaraq inqilab və birlik cəbhəsində mübarizə etmişdir. Bu qüvvə Rusiyada olduğu zaman, menşevik firqəsi Qafqaziyada Qafqaz demokratiyasını birləşdirməyə başladı. Seym çağırıldı və müstəqil Zaqafqaziya Cümhuriyyəti binasının qoyulması elan edildi. Menşevik firqəsinin yaxşılıqla işə girişməsinə baxmayaraq məəttəəssüf qanlı müharibə meydanlarında üz verən müşkül hallardan naşi Qafqaz Cümhuriyyəti dəxi pozuldu. Belə ki, çox xəsarətlərə düçar olmuş erməni milləti bizdən ayrıldı. Bədbəxt müsəlman cəmaəti isə qara mübəlliğlərin təşviqatı sayəsində demokratiyanın amalı və sülh müzakiratı üçün mübarizə etməkdən imtina etdi. Gürcü milləti yalqız qaldı. Vaxt oldu ki, sosial-demokrat firqəsi öz varlığını mühafizə etmək üçün ən ciddi, ən lazımlı binagüzarlıqda bulunmasını düşündü. Yevropa demokratiyasının böyük müəllimi demişdir: "Həmişə politika zamanı işin gedişinə layiqincə qiymət qoymalıdır". Cəmaət bilməlidir ki, həmişə xəyalat ilə yaşaya bilməz. Zaqafqaziya cəmaətinin arasında birlik yoxdur. Onların müxtətif tələbatından anlaşılır ki, birləşə bilməzlər. Seym dəxi bütün Zaqafqaziya əhalisinin orqanı olduğu üçün bundan sonra daha davam edə bilməz.

Gürcü tayfasının hökumət təşkilatı yoxdur və onların Batumda rəsmi nümayəndələri yoxdur. Belə olduqda gürcülər bu ağır və müşkül bir halda məcburdurlar ki, özlərinə - Gürcüstana muxtariyyət elan edərək demokratik amalına yetişmək üçün mübarizə edənlərin pişdarı (avanqardı) olsunlar. Gürcülər öz varlıqları üçün çalışmaqla bərabər qonşuları olan millətlərin dəxi qardaşlıq və birliklərinə xidmət edəcəklər. Gürcü demokratiyası ümumindir. Və buna görə də bütün demokratiya ona kömək etməlidir".

"Hümmət" qəzetinin yenə həmin 77-ci nömrəsində "Tiflis. 27 may. Gürcüstan istiqlalının elanı" sərlövhəli teleqram-yazıda deyilirdi ki, "Zaqafqaziya Seymi qapanandan sonra, dvoretsin Ağ zalında gürcü Milli Komitəsinin üzvləri Jordaniyanın sədarəti altında bir iclas yapdılar. Jordaniya öz nitqində Gürcüstan istiqlalını təbrik edərək dedi ki,

gürcü milləti özünün keçmiş padşahlıq zamanında Gürcüstan nahiyyəsində olan sair millətlər nümayəndələri ilə gözəl əlaqədə bulunduqları kimi indi də o gözəl məsləki təqib edəcəklərdir. Sayca az olaraq Gürcüstanda yaşayan millətlər dəxi gürcülər ilə bir hüquqda olacaqlardır".

Qəzetdə oxuyuruq ki, mayın 26-da saat dördə 55 dəqiqə işləmiş Gürcüstanın istiqlaliyyət elanı oxunmuşdur. İstiqlal Bəyan-naməsində deyilirdi:

"Bu gündən sonra gürcü milləti özünə məxsus ixtiyarata malikdir.

Gürcüstan dövlətinin şəkli-idarəsi demokratik cümhuriyyətdir.

Beynəlmiləl ixtilaflar olduqda Gürcüstan həmişə bitərəfdir.

Gürcüstan Cümhuriyyəti ümumbeynəlmiləl qəvaidinə (qanunlarına) razı olaraq bütün qonşuları ilə hüsn (yaxşı) əlaqədə bulunacaqdır.

Gürcüstan cümhuriyyətində bilafərq din və məzhəb hamı müsavülhüquqdur".

Maraqlıdır ki, Gürcüstanın dövlət müstəqilliyinin elan edilməsinə geniş yer ayırmış "Hümmət" qəzeti "Azərbaycanın istiqlaliyyəti" sərlövhəli yazısında, xəbərində xəsislik etmiş, bu mühüm tarixi hadisəyə çox az yer vermişdir. Xəbər bütünlüklə belədir:

"Tiflis. 29 may. Müsəlman Milli Şurası bütün xariciyyə nazirlərinə belə bir fərman ilə müraciət ediblər: "Zaqafqaziyanın mavərasından (tərkibindən) Gürcüstan ayrılan kimi Şura dəxi Azərbaycanı Cümhuriyyəti ənam (xalq cümhuriyyəti) üzrə müstəqil elan edir. O cümlədən Şərqi-Cənubi Qafqaziyanın Azərbaycan istiqlaliyyəti Bakı, Gəncə və Yerevan quberniyalarından ibarətdir".

"Hümmət" qəzetinin dərc etdiyi bu tarixi sənədlər bəzi məsələlərin anlaşılması və təhlili baxımından maraq doğurur. Bu barədə növbəti yazımızda.

**"Günay" 10, şənbə, 3 may 2003**

# İLLƏRİN FƏLAKƏTİ, GÜNÜN SEVİNCİ

22 iyun 1941 - 9 may 1945. Bu günlərin şahidi olanlar yəqin ki, az qalıb. Müharibə fəlakətdir, faciədir, hər ailənin, hər kəndin və şəhərin, hər məmləkətin, hər bir xalqın və millətin faciəsidir. Bu minilliklərin bəlası, bəşər övladını təqib edən əsrlərin, nəsillərin bəlasıdır. Müharibələr, onu doğuran səbəblər haqqında çox yazılıb, hətta statistika da var. Mütəxəssislər hesablamışlar ki, indiyədək bəşəriyyət təxminən 14 min müxtəlif səciyyəli və həcmli müharibənin şahidi olmuşdur. Bu müharibələrdə ən azı 3 milyard insan tələf olmuşdur. Nəinki planetimiz müharibəsiz bir əsr, hətta bir onillik dinc yaşayış dövrünü belə keçirməmişdir.

1941-1945-ci illərin Böyük Vətən müharibəsi bəşəriyyətin gördüyü və yaşadığı ən qanlı, ən dağıdıcı, ən tələfatlı müharibə sayılır. Təkcə müharibə meydanı olmamış Azərbaycanın bu müharibədə itkisi yarım milyona yaxın idi. Bircə statistika rəqəmi: 1941-ci ildə Azərbaycan əhalisi - 3 milyon 331 min 800 nəfər idisə, 1945-ci ildə 2 milyon 703 min 600 nəfər olmuşdu. Deməli, 628 min 200 nəfər azalmışdı.

Mən müharibə dövründə gördüyüm, şahidi olduğum fədakarlıq və qətiyyəti, qəhrəmanlıq və şücaəti, birlik və mübarizə əzmini, dözümlülüyü, səbir və səbatı heç cür unuda bilmərəm. Əlbəttə, aclıq və səfalət, min cür çətinlik və məşəqqət də mövcud idi. Gün ərzində işləyən hər bir şəhərli vətəndaşa 500 qram, uşaqlara isə 300 qram çörək verilirdi. Kənddə çox vaxt bu da yox idi. Cəbhədən göndərilən "qara kağızlar" ölüm xəbərləri adi hal idi. Ağlamaqdan çox anaların, ataların, arvadların göz yaşı qurumuşdu.

Deyirlər ki, məhv olmağa hazır olmayan bir xalq azad ola bilməz. Faşizmə qarşı müharibə və mübarizə devizi də belə idi "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!"

Mühüm bir cəhəti də qeyd etmək vacibdir. Məlumdur ki, çar Rusiyası dövründə müsəlmanları, o cümlədən azərbaycanlıları əsgəri xidmətə çağırmırdılar. Bunun nəticəsində biz əsrlər boyu qazandığımız hərbi təcrübəni, düşmənlə vuruşmaq əzmini demək olar ki, itirmişdik. Yalnız 1918-1920-ci illərdə, yəni müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildikdən sonra çox mürəkkəb və çətin şəraitdə milli ordumuzu yarada bildik, torpaqlarımızı və xalqımızı düşmənlərin hücumlarından qorumağı bacardıq. Milli ordu hissələrimiz sovet dövründə də müəyyən müddət saxlanıldı. Böyük Vətən müharibəsində Azərbaycan diviziyaları yaradıldı. Hərb elminə və döyüş təcrübəsinə yiyələnmiş kadrlar yetişdi. Müəyyən müddət bu

sahəyə ciddi diqqət yetirilməsə də, bu təcrübə hədər getmədi.

Mayın 9-u tarixi gündür. Dünya ağalığına can atan faşizm üzərində qələbə günüdür. Lakin bu tarixi gündən 58 il keçməsinə baxmayaraq, bəşəriyyət üzərindən total müharibə təhlükəsi sovuşmur ki, sovuşmur. Təcavüzkar, davakar, başqalarının torpaqlarına və təbii sərvətlərinə göz dikən, işğalçılıq və təcavüzkarlıqla məşğul olan ölkələr də mövcuddur, dairələr də. Yəqin ki, hələ uzun illər və əsrlər belə də davam edəcək. Bunu nəzərə almaq və belə təhlükələrə hazır olmaq gərəkdir. Məncə, 9 mayın dərsləri bunu tələb edir.

**"Günay", N19, 10 may 2003**

## SONUNCU DƏRS

*(Fransa yazıçısı A.Dodenin dilimizə tərcümə edilmiş ilk əsəri)*

**Azərbaycan-Fransa ədəbi əlaqələri geniş tədqiqata ehtiyac duyulan mövzulardan biridir. Bu barədə tarixi faktlar və sənədlər də az deyil. Dramaturgiyamızın banisi M.F.Axundovun "Hekayəti-Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" (1850) əsəri elə-belə yazılmamışdır. Məşhur fransız yazıçısı Aleksandr Dümanın 1858-ci ildə Qafqazda, o cümlədən Azərbaycanda olması, hətta Tiflisdə M.F.Axundov və Bakıda şairə X.Natəvanla görüşləri və bu barədəki yazıları da məlumdur. 1924-cü ildə Dümanın "Qanlı qala" pyesi Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur. XIX əsrin 60-70-ci illərində Türkiyədə Fransanın görkəmli sənət və fikir adamlarının kitabları türk dilinə tərcümə edilir və nəşr olunurdu. Məsələn, V.Hüqonun "Səfillər" (1862), D.Defonun "Robinzon Kruzo" (1864), A.Dümanın "Qraf Monte-Kristo" (1871) və s. Bundan əlavə Molyer, Rasin, Lamartin, Jilber, Beranje, Svift, Menteskye, Volter, Russo və b. əsərlərinin də həmin illərdə türk dilində nəşr olunduğu məlumdur. Həmin əsərlərin Azərbaycana gətirilməsi barədə də sənədlər-xüsusilə poçt və gömrük sənədləri mövcuddur.**

**XX yüzilliyin əvvəllərində Fransa ilə Azərbaycanın iqtisadi-ədəbi əlaqələri daha geniş vüsət almışdı. Fransada təhsil alan azərbaycanlıların sayı da artmışdı. Dövri mətbuatda Fransa ədəbiyyatına dair nümunələrə də az da olsa rast gəlmək olurdu. Məsələn,**

1914-cü il fevralın 18-də "İqbal" qəzetində vətənpərvər fransız yazıçısı Alfons Dodenin (1840-1897) "Sonuncu dərs" hekayəsi dərc olunmuşdur. Əsəri rus dilindən M.Ə.Rəsulzadə tərcümə etmişdir. Birinci Dünya müharibəsi ərəfəsində bu hekayənin ana dilinə tərcüməsi və gündəlik qəzetdə işıq üzü görməsi təsadüfi xarakter daşımırdı. Oxucuların da görəcəkləri kimi vətən torpağına, ana dilinə, milli təhsilə bağlılıq hekayənin məğzini təşkil edir. Bu hisslər milli istiqlal mücadiləmizin böyük öndəri M.Ə.Rəsulzadənin də həyat və mübarizə qayəsi idi. Göstərim ki, Azərbaycan Sovet Ensiklopediyasında A.Dode haqqında verilmiş yazıda onun dilimizə tərcümə edilmiş bu ilk əsərinin "Axırıncı dərs" sərlövhəsilə 1942-ci ildə ayrıca kitabca halında nəşr olunduğu göstərilir. Mən həmin kitabça ilə M.F.Axundov adına Respublika kitabxanasının kitab arxivi şöbəsində tanış oldum. Kitabçada tərcüməçinin kim olduğu göstərilməmişdir. Redaktoru isə jurnalist-tərcüməçi-redaktor İbrahim Novruzov olduğu yazılmışdı. Mən bu məsələni aydınlaşdırmaq üçün bir neçə il bundan əvvəl İbrahim müəllimlə əlaqə saxlamışdım. Onun cavabı bu oldu ki, əsərin tərcüməçisi ya tanınmış mütərcim Əsəd Zeynalov, yaxud da müharibə dövründə "Pioner" məcmuəsinin redaktoru işləmiş Məmmədəli Əliyev idi.

Əlbəttə, əsəri 1914-cü ildə tərcümə və nəşr etdirən M.Ə.Rəsulzadədən 1979-cu ildə nəşr olunmuş ensiklopediyada söhbət gedə bilməzdi.

## *SONUNCU DƏRS*

### Alfons Dodedən - Elzaslı bir uşağın dilindən

Sabahkən məktəbə gecikmişdim. Müəllimin sərzənişindən (danlağından) qorxurdum. Müəllimimiz Müsyo Hamel bu gün bizdən qəvaidi feli (feli sifətləri) soracaqdı. Mən bu dərsi yaxşı bilmirdim. Hələ əvvəlinci kəlmələri tamamilə yadımdan çıxmışdı. Əqlimə gəldi ki, bu gün əslində məktəbə getməyib gəzməyə qaçım. Hava da bu fikrimə müsaid, olduqca saf və isti idi. Çayın kənarından tutub meşəyə qədər sərilən çəmənlik yamyaşıl idi. Çəmənlikdə oxuyan qumruların gözəl bir musiqisi, vəcdə gətirən nəğmələri də adamı başdan çıxarırdı. Taxta kargahının o biri tərəfindəki Riper çəmənzarından dəxi san görən Prusiya əsgərinin marşı ətrafa inikas edirdi. Təbiətin mühəyya elədiyi (yaratdığı) bu mənzərə əlbəttə ki, təsrifi əfal (felləri zamana görə dəyişdirmək) qaydasından daha ziyadə xoşuma gəlirdi. Məəmafih (bununla belə) bir az tərəddüd

etdim... Məktəbdən qaçmaq fikrindən vaz keçib doğruca məktəbə tərəf yollandım.

Kəndxudanın evi yanından keçirkən bir çox camaatin elan taxtasının qabağında yığıldığını gördüm. İki ildən bəri bütün qara xəbərlər bu taxta vasitəsilə bizə yetişirdi. Sınıqlıq, məğlubiyyət, təhmilat (vergilər) və sair dövlət əhkamı (hökmləri) hamısı buradan nəşr olunurdu. Öz-özümə dedim ki,

- Görəsən, yenə nə var?

Bu anda dəmirçi Vaxter ilə şagirdini gördüm ki, elanı oxuyurdu. Məni görcək çağırdı və dedi ki:

- Balaca, çox da tələsmə, məktəbə vaxtında çatarsan!

Mən xəyal etdim ki, dəmirçi mənim gecikdiyimi görüb istehza edir. Binaən-ileyh (buna görə) ayaq saxlamadım. Haman qaçaraq, yüyürək özümü məktəbin həyətinə yetirdim.

Dərs başlamamış olsaydı hərgünkü kimi uşaqların səsini ta küçədən eşitməli idim. Çünki həmişə dərsin ibtidasında uşaqların qilü-qalı küçəyə qədər gedir, mizlər açılıb-qapanır, dərs üstündə mübahisələr olunar, bunlara arabir müəllimin səttarə (xətkeş) ilə masa üzərinə vurub:

- Bir az sakit olun! - deyə bağırması da əlavə olunardı. Halbuki indi nə səs vardı, nə səda. Məni artıq xof götürmüşdü. Madam ki, səs-səda yoxdur, deməк ki, dərs başlanmışdır. İndi bütün qeyrətim buna münhəsir idi ki, bir tövr ilə özümü dərs otağına salım ki, müəllim xəbər tutmasın. Məktəb adətən yekşənbə günləri kimi sakit və samit idi.

Pəncərədən görürdüm ki, yoldaşlarım öz sıralarında əyləşmişlər. Müsyö Hamel də dəhşətli səttarəsini qoltuğuna vurub o tərəf-bu tərəfə gəzir. İndi gərək ki, qapını açıb bu sükuti-tam içində öz sırama oturam. Artıq nə dərəcədə qorxub və nə əndazədə qızardığımı özünüz təsəvvür ediniz.

Nəticədə öylə olmadı. Müsyö Hamel acıqlanmadan mənə baxdı və mülayimətlə dedi ki:

- Tez ol, balaca Frans, yerini tut, az qalmışdı ki, sənsiz dərsi başlayaq!

Mən haman yerimi tutdum, bir az qorxum götürüldükdən sonra baxdım ki, müəllimimiz qəşəng göy mundirini geymiş, yaxasına zərif bir qalstuk taxmış və tovzifi-mükafat (vəzifə mükafatı), bayram və sair böyük günlərə məxsus qızıl sürməli qara papağını başına qoymuş, bunlardan başqa desək dərs otağının da başqa bir cilvəsi və mənzərəsi vardır. Hər şeydən ziyadə nəzər diqqəti cəlb edən bir şey vardı ki, o da kənd əhalisindən bir cəmin adətən boş qalan dal sıralarda oturmuş olduqları idi. Onlar da bizim kimi sakit və samit oturmuşlardı. Hauzer özünün o üçkünclü papağı ilə mədrəsənin sabiq

müəllimi, qədim posta məmuru və sair şəxslər dəxi burada idilər. Onların hamısı olduqca mütəəssir və qəmgin idilər. Hauzer özü ilə bərabər kənarları didilmiş köhnə bir əlifba kitabçası da gətirmiş və açıb dizlərinin üstə sərmiş, gözlüyünü də onun üstə qoymuşdu.

Gördüyüm bu fövqəladə əhvalatdan təəccübdə idim ki, müəllimimiz müsyö Hamel özünəməxsus olan mövqeə çıxıb, məni qəbul elədiyi mülayim və mətin səslə başladı:

- Uşaqlarım, bu sonuncu dərsimizdir. Berlindən əmr gəlmişdir ki, Elzas və Lorren məktəblərində almancadan başqa heç bir şey öyrədilməsin... Təzə müəllim sabah buraya varid olar, bu gün sizin sonuncu fransızca dərsinizdir. Xahiş edirəm ki, lazımınca diqqət edəsiniz.

Bu neçə kəlmə məni münqəlib etdi (dəyişdi). Ah, zavallılar! Kəndxudanın qapısında elan olunan bu imiş!...

Mən indi-indi yazı öyrənməyə başlamışdım. Demək ki, artıq heç bir şey öyrənə bilməyəcəyəm. Ah, o tələf etdiyim vaxtlar! Ah, o dərsdən qaib olub da quş yuvalarını axtarmağa və yaxud Saar meydanında fırfıra fırlatmağa getdiyim saatlar!... Sizin üçün nə qədər mütəəssirəm! O vaxt sərf-nəhvim (qrammatikam), tarixi müqəddəsim və başqa kitablarım mənə ağır bir yük olub nəzərimdə mənfur idilər, indi onlardan ayrılmaq məndən ötrü qədim dostlardan ayrılmaq qədər çətindir. Bu kitablar da müsyö Hamel kimidirlər. Müəllimimiz gedəcək, artıq onu görə bilməyəcəyəm, təsəvvür etdiyim səttarələrin acısını unutdururdu.

Yazıq kişi!

Bu sonuncu dərsin ehtiramına imiş ki, müəllimimiz yekşənbələrə məxsus olan yaxşı paltarlarını geyinmiş. İndi anladım ki, kəndin qoca kişiləri nə üçün buraya gəlmişdilər və nə üçün dal sıralarda oturmuşlar. Bu hərəkətlər ilə onlar özlərinin bura gəlmədiklərindən mütəəssir olduqlarını göstərirlərdi. Bu qırx ildən bəri indi əlimizdən gedən vətənimizə xidmət edən müəllimimizə qarşı bir növ təşəkkür idi.

Mən bu xəyallarla sərgərm (məşğul) idim ki, öz adımı eşitdim. Cavab vermək növbəti mənə çatmışdı. Fəqət, mən uca səslə qələtsiz olaraq tamam bir surətdə qəvaidi-feli izah edə bilmədim. Haman əvvəlinci kəlmələrdə həvasım (hisslərim) qarışdı, sıranın kənarına dayandım. Bir neçə dəqiqə titrədim, başımı qalxızmağa utanırdım.

Müsyö Hamel halımı böylə görüncə dedi:

- Balaca Fransım, mən səni məzəmmətləmirəm. Çünki özünün nə qədər müəzzəb (əzab çəkmiş) olduğunu görürəm... Bax, gör nələr oldu. Hər gün deyirdiniz ki, vaxt var, dərsimi sabah öyrənərəm. Fəqət, gördünüz ki, sabah nələr olur, sonra nə gəlir... Ah!... İştə bu təlim işini sabaha qoymaqdır ki, Elzasımızın bədbəxtliyinə səbəb oldu. İndi

onların haqları var bizə desinlər ki, fransız olduğunuzu iddia edirsiniz. Halbuki nə öz dilinizi danışa bilirsiniz, nə də öz dilinizdə yaza bilirsiniz. Biçarə Fransım, bu işdə müqəssir olan yalnız sən deyilsən. Bu məzəmmətlər bizim hamımıza variddir. Böyüklərimiz sizi lüzumunca oxutdurmadılar. Bir neçə qəpik qazanmağı sizin oxumağınıza tərcih verdilər. Sizi məktəbdən alıb əkinə apardılar, fabrikalara göndərdilər. Mən özüm də məlamətdən (danlaqdan) xaric deyiləm. Çox vaxt olmurdu ki, mən sizi oxumaq əvəzinə bağımı suvarmağa vadar edirdim, başıma balıq ovu düşəndə sizi bica yerə dərsdən azad etmirdim?!

Sonra müsyö Hamel mövzunu dəyişdirdi, Fransa dliindən bəhs açıb bizə deyirdi ki:

- Fransa dili dünyanın ən şirin, ən fəsih və ən mətin bir dilidir. Biz gərək ki, həmişə bu dilimizi saxlayaq və onu hərgiz yadımızdan çıxarmayaq! Zira əsarətə keçən bir millət öz dilini əlində saxlamış olarsa, düşdüyü zindanın açarına malik olmuş deməkdir.

Bədən (axırda) müəllim sərf-nəhv kitabını götürüb dərsimizi oxudu. Mən özümün bu qədər yaxşı anladığıma heyrət edirdim. Müəllim nə deyirdisə haman anlayırdım. Sanki ömrümdə bu yaxşılıqda dərs eşitməmiş və sanki müəllimimiz bu dəfəki kimi heç bir zaman dərs deməmişdi. Zavallı adam getməkdən əvvəl sanki bütün bildiklərini bir anda bizə vermək və bir dəfədə bütün məlumatını beynimizə soxmaq istəyirdi.

Şifahi dərs tamam oldu. Yazı dərsi başlandı. Müsyö Hamel bu günə məxsus sərməşqlər (nümunələr) hazırlamış, onların üzərində gözəl bir xətlə yazmışdı:

"Fransa, - Elzas! Fransa, - Elzas!"

Sıraların kənarlarına asdığı bu sərməşqlər damlar üzərində yellənən bayraqlara bənzəyirdi. Uşaqların necə bir həvəslə bu sərməşqləri istinsax etdiklərini (üzünü köçürdüklərini) görməliydi. Otaqda tam bir sükut vardı. Hər şey samit idi. Ancaq kağız üzərində cızıllıyan qələmin sədası idi ki, bu sükutu pozurdu. Küçədən zərinpər arılar otağa daxil olurlardı. Ayrı vaxt olsaydı uşaqların zehnini özlərinə cəlb edən bu cücülərə düzcizgi məşqilə məşğul olan xırda uşaqlar belə əhəmiyyət vermirlərdi. Onlar da var səslərilə Fransa yazısı zənn etdikləri bu cizgiləri təkrar etməklə məşğul idilər.

Göyərçinlər dəxi məktəbin damında oturub qəmli-qəmli oxuyurlardı. Mən onların səsini eşitdikdə öz-özümə dedim ki:

- Görəsən, onlar bunları da almanca oxumağa məcbur edəcəklər? Arabir başımı qabağımdakı kağızdan qalxızdıqda görürdüm ki, müsyö Hamel oturmuş öz masasının şeylərini götürüb qoyur. Sanki bu mühəqqər (təhqir olunmuş) dərsxanəsinin bütün şeylərini zehninə

tapşırmaq istəyir. Bir təsəvvür ediniz. Bu zavallı adam qırx ildən bəri bu otağa mənus olmuş (öyrənmiş), həmişə bu pəncərənin qabağında oturub həyətə baxmış və bu qırx ilin ərzində eyni mənzərə və eyni tərtibləri görmüş, yalnız təğyir tapan (xarab olan) bir şey varsa, o da məktəb sıralarının sürtülüb köhnəlməsi ilə həyətdəki qoz ağaclarının böyüyüb qol-budaq atmasından və öz əlilə əkdiyi gül ağaclarının pəncərə boyunca qalxıb damın kənarına qədər uzandıqlarından ibarət idi. Bunların hamısından ayrılmaq məcburiyyətinin təsəvvürü və yuxarı otaqda səfər sandıqları ilə çamadanları bağlayan bacısının hənirtisi zavallı adama nə kimi fəna təsir icra edə biləcəyini də bir kərə düşününüz. Düşününüz bu adamın hüzn və kədərini ki, ələlsabah buradan daimi surətdə ayrılacaqdır.

Bütün bu ruhəzici təsirlərlə bərabər müəllimimizin yenə qüvvəti vardı ki, dərsini axıra yetirsin. Məşqdən sonra tarix dərsi gəldi.

Kiçik uşaqlar bir ağızdan əlifbeyi (əlifbanı) oxuyurlardı. Otağın dal sıralarında oturub da əlifba kitabını əlinə almış olan qoca Hauzer də eynəyini gözünə vurub kiçik uşaqlarla bərabər təhəcci edirdi (höccələyirdi). Görünürdü ki, bu qoca kişi də çalışırdı. Qocanın iztirab təsirindən səsi titrəyirdi. Bir dərəcədə ki, hamımızı gülmək, eyni zamanda ağlamaq tuturdu.

Ah!... Bu sonuncu dərsi heç bir vaxt unutmam!... Nagah kilsə saatı on ikini vurdu. Günorta çağı idi. Dua oxundu. Bu əsnada idi ki, məşqdən qayıdan Prusiya əsgərlərinin şeypurlarının səsi ucaldı. Müsyö Hamel müztərib (həyəcanlı) idi. Rəngi qaçmış bir halda kürsü üzərinə çıxıb ayaq üstə durdu (müsyö Hamel heç bir zaman bu qədər böyük görünməmişdi) və dedi:

- Dostlarım! Dostlarım mən... mən... mühüm bir söz demək istəyirdi. Fəqət, boğazı mingirləşir, sanki bir şey onu danışmaqdan mən edirdi (qabağını alırdı).

Nagah müəllim üzünü məktəbdəki qara lövhəyə çevirdi. Əlinə ağ bir təbaşir parçası alıb bütün qüvvət və bacarığını sərflə böyük hərflərlə yazdı:

- Yaşasın Fransa!

Sonra haman yerindəcə qaldı. Başını divara dayadı. Artıq bir söz demədən əlilə bizə işarə etdi ki:

- Bitdi... Mürəxxəssiniz...

**Mütərcimi: M.Ə.Rəsulzadə**

*"İqbal" qəzeti, 18 fevral 1914-cü il, №581*

**"Günay", N20, 17 may 2003**

## BİRİNCİ RESPUBLİKAMIZIN QISA, ŞƏRƏFLİ VƏ ÇƏTİN YOLU

1918-ci ilin 28 may fütuhatından 85 il keçir. Cümhuriyyətin varlığının 23 ayı ərzində cəmisi 1.952.200 nəfər əhalisi, 62 nəfər ali təhsilli mütəxəssisi, Qori müəllimlər seminariyasını bitirmiş 250 nəfər ibtidai sinif müəllimi, bir o qədər texniki məktəb məzunu, orta və ali məktəbsiz, barmaqla sayıla biləcək peşəkar siyasi xadimləri, dövləti idarə etmək təcrübəsi lazımınca olmayan məmurları və s. olan bir müstəqil cümhuriyyətin gördüyü işlər, həyata keçirdiyi islahatlar, yaratdığı dövlət atributları, milli ordu quruculuğu, torpaqlarını qorumaq rəşadəti - bütün bunlar iftixar və heyranlıq hissi doğurmaya bilməz. Buraya 100 illik əsarət, zülm və haqsızlıq yükünü, 1917-1918-ci illərin faciələrini də əlavə etsək bu tarixi, nəhəng məsuliyyəti öhdəyə götürən və onu ləyaqət və qətiyyətlə həyata keçirən nəslin fədakarlığı daha uca və əzəmətlə nəzərimizdə canlanar. Əlbəttə istiqlaliyyət, milli dövlətçiliyimizin yenidən bərpası xalqımıza asan başa gəlməmişdi. Bircə fakt: əgər 1917-ci ildə rəsmi statistikaya görə Azərbaycan əhalisinin sayı 2.353.700 nəfər idisə - 1920-ci ildə o, 1.952.200 nəfər olmuşdu. Deməli, qısa bir müddətdə əhalinin sayı 400 mindən çox azalmışdı. Təkcə 1918-ci il martın sonu və aprelin əvvəllərində Bakıda və ölkənin digər şəhər və qəzalarında daşnak-bolşeviklərin həyata keçirdikləri qətliam sayəsində 30 mindən çox azərbaycanlı qətlə yetirilmişdi. 1918-ci ilin mayında Türkiyənin Zaqafqaziya hökumətinə verdiyi nota barədə qəzetlərdə dərc olunmuş məlumatlardan birində oxuyuruq: (Bax: "Bak. Rab. " 1918. №100) "Türkiyə Zaqafqaziya hökumətinə ultimatum təqdim etmişdir... Yeri gəlmişkən, Türkiyə notasında göstərilir ki, Bakıda və onun ətrafında 100 min türk və müsəlman inqilabçı adlanan quldurların törətdikləri dəhşətlərə məruz qalır. Bu notaya cavab vermək üçün mayın 26-da axşam saat 8-dən başlanaraq 72 saat vaxt verilmişdir, bundan sonra hər iki hökumət arasında münasibət aydınlaşacaqdır".

Bakıda hakimiyyəti silah gücünə ələ keçirmiş S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak dəstəsi Seymin dağılması və müstəqil cümhuriyyətlərin elan edilməsi xəbərini nifrətlə qarşılamışdılar. Mayın

29-da Şaumyan Bakıda "Seymin siyasəti və Zaqafqaziyanın vəziyyəti haqqında"kı çıxışında (Bax: "Bak. Rab." №102, iyun 1918) müstəqillik elanını "avantüra" hesab edir, "əksinqilab yuvası" Yelizavetpolu (Gəncəni) dağıtmağa çağırırdı. V.İ.Leninə göndərdiyi teleqramda isə yazırdı ki, "Bakı məğlub olarsa, şübhəsiz, yanıb viran olacaqdır". Şaumyanların ümidi kimə idi? Birinci növbədə daşnaklara. Mayın 29-dakı çıxışında Şaumyan elan etdi ki, "daşnaksakanların əlində 30 min cəbhəçi erməni əsgəri var", "bu qüvvə ilə dağı-dağ üstə qoymaq olar", "elə təkcə onlar türklərin də, Zaqafqaziyadakı bütün əksinqilabçı qüvvələrin də öhdəsindən gələ bilərlər".

Bəs niyə gələ bilmədilər? Hələ Sovet Rusiyasının əsgəri və digər güclü köməyi və yardımı da, ingilislərin əvvəllər göstərdikləri yardım da vəziyyətlərini xilas etmədi. Həqiqət naminə göstərmək lazımdır ki, elə həmin Şaumyan özü bu sualın cavabını da müəyyən mənada vermişdi. Elə 1918-ci il mayın 29-da Bakı Sovetinin təntənəli iclasındakı çıxışında o deyirdi: "Zaqafqaziyada ən zəif siyasi partiya olan, bu inqilab zamanı təşkil edilən, heç bir təşkilatı, heç bir partiya ənənəsi, heç bir hakimiyyəti olmayan, inqilabın əvvəlində heç bir rol oynamayan "Müsavat" ikinci ilin əvvəllərinə yaxın Zaqafqaziyada ən güclü siyasi partiyaya çevrilmişdir... bütün Zaqafqaziyanın taleyini həll edir".

Bu necə olmuşdu? Qısa bir müddətdə belə güclü bir siyasi partiya yaratmaq, xalqın böyük çoxluğunu, bütün vətənsevər, qeyrətli, namuslu kişiləri öz ətrafında cəmləşdirib vətəni, torpağı, milləti, müstəqilliyi qorumaq və xilas etmək kimi bir siyasi xətt ətrafında cəmləşdirmək asanmı iş idi? Tarixdə çox az təsadüf edilən fenomen! Mən çox təəssüf edirəm ki, məhz bu tarixi təcrübə hələlik lazımınca öyrənilməmiş, araşdırılıb üzə çıxarılmamışdır.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargah nəşriyyatı "Birinci Dünya hərbində türk hərbi, Qafqaz cəbhəsi, 3-cü ordu hərəkatı" adlı çox sanballı bir sənədli tədqiqat əsəri çap etmişdir. Bu qiymətli kitabda 1914-1920-ci illərdə Qafqaz və Azərbaycanda cərəyan edən hadisələrə dair zəngin tarixi material verilmişdir. Bunların sırasında "Türkiyənin Azərbaycana əsgəri yardımı" bölməsi xüsusi maraq doğurur. Məsələn, kitabda qeyd edilir ki, "Cənubi Qafqaz respublikasında "Seym" yalnız ermənilərin və gürcülərin mənafeyini qoruyan bir təşkilat idi. Seymin əsas yerləri ermənilər və gürcülər arasında paylaşdırılmış, azərbaycanlılar yalnız sosial yardım kommisarlığında təmsil olunmuşdular.

Türklərin müttəfiqi olan Almaniya Qafqaz siyasətində türklərin

müttəfiqi deyildi. Qafqazın təbii ehtiyatlarından istifadə etmək istəyən Almaniya, xüsusilə Bakı neftində mövqeyi ələ keçirmək istəyirdi.

Almanların təminatı ilə gürcülər 26 may 1918-ci il tarixdə Cənubi Qafqaz Respublikasından ayrılaraq müstəqillik elan etdilər... Türkiyə 31 may 1918-ci il tarixdə Batumda ermənilərlə, 3 iyun 1918-ci il tarixdə gürcülərlə sülh müqaviləsi imzaladı... 28 may 1918-ci ildə Azərbaycan da müstəqilliyini elan etdi. Buna baxmayaraq, Azərbaycan torpaqlarının hamısına hakim deyildi".

Məlumdur ki, Batumda 1918-ci ilin may-iyun aylarında cərəyan edən bu mühüm danışıqlarda Azərbaycan Milli Şurasının - ilk parlamentimizin sədri - deməli, ilk dövlət başçısı M.Ə.Rəsulzadə fəal iştirak edir və iyunun 4-də, hərbi yardım haqqında Türkiyə hökuməti nümayəndə heyəti ilə çox böyük tarixi əhəmiyyəti olan müqavilə imzalamışdı. 28 may istiqlal Bəyannaməsinin Tiflisdə imzalanması mərasimində iştirak etməməsinin səbəblərini bilməyən, anlamayan bəzi qələm gədalarının M.Ə.Rəsulzadəyə bu bəhanə ilə "hücum" etməsi ikrah doğurmaya bilməz.

Şahidi olduğumuz indiki istiqlal dövründə belə nə üçün kommunist partiyası iflasa uğradıqdan sonra "Müsavat"a bərabər yeni bir siyasi partiya yaradıla bilmədi? Torpaqlarımızın 20 faizi daşnaklar tərəfindən işğal olundu, bir milyona yaxın vətən övladı, azəri türkü qaçqın və köçkün vəziyyətinə düşdü? Əlbəttə, obyektiv və subyektiv səbəblər arayanlar çoxdur. Amma mən mərhum dostum akademik Ziya Bünyadovun şərhi ilə şərikəm. Budur onun yazdığı: "Müsavatçı ziyalılar meydana mərdanə girmişdilər, mədəni səviyyələri, siyasi əqidələri, dünyagörüşləri, imkanları, məsləkləri uca idi, saf idi, insanlıq naminə idi. "Ayır-buyur" siyasəti ilə, "necə olursa-olsun" hökmü ilə, aldatmaqla, oyunbazlıqla, yalanla, böhtanla, sıxma-boğma ilə, hədə-qorxu gəlməklə, qan-qada ilə Azərbaycanı ayaqlayanlar isə buqələmun kimi min dona girirdilər və indi də donlarını tez-tez dəyişirlər".

Bunlar 1993-cü ildə yazılmışdır. Artıq 10 il də keçib. İndiki vəziyyətimiz göz qarşısındadır. Onun əlavə şərhə ehtiyacı isə hələlik yoxdur və yaxud mən o fikirdə deyiləm.

28 may tariximizin və taleyimizin əlamətdar günüdür. Bu şübhəsizdir. Azərbaycan istiqlalı isə əbədidir. Əsas olanı budur.

**"Günay", N21, 24 may 2003**

## TARİX
## OBYEKTİVLİK VƏ DƏQİQLİYİ SEVİR

28 may İstqiqlal gününü yaxşı qeyd etdik. Yeni yüzillikdə hadisələrin mürəkkəb cərəyanı, beynəlxalq miqyasda baş verən təbii, ictimai-siyasi proseslərin ön plana çıxması, güclü informasiya axını daxili, milli məsələ və problemləri bəzən arxa plana çəkir. Demokratiya və siyasi mədəniyyət yoluna yenicə qədəm qoymuş ölkələrdə ağrılı keçən proseslər ümumi atmosferi daha da gərginləşdirir, bayramlar da əvvəlki təravətini, ənənəvi şəklini dəyişir. Əlbəttə bunlar təbii və qanunauyğun proseslərdir. Hələlik bunlara dözməyə məcburuq.

Tariximizin möhtəşəm, unudulmaz 28 May istiqlal gününü artıq 12 ildir ki, bayram kimi qeyd edirik. 70 il hücuma, böhtan və iftiraya, saxtakarlıq və təhrifə məruz qalmış Azərbaycan Xalq Cümhuriyyəti dövrü tariximizi bu müddətdə yenidən dirçəltmək, oxucuya, xalqa obyektiv, elmi tərzdə, bütün əzəmətilə çatdırmaq sahəsində xeyli iş görülüb, cümhuriyyət dövrü tədqiqatçılarının yeni nəsli yetişib və yetişməkdədir. Cümhuriyyətin 85 illiyi münasibətilə keçirilən elmi-nəzəri konfranslar, toplantılar bunu əyani şəkildə nümayiş etdirir.

Bu il də 28 May İstiqlal günü ilə əlaqədar respublikanın aparıcı mətbuat orqanlarında bir sıra maraqlı yazılar dərc olunmuşdur. Respublika Arxivlər idarəsinin müdiri, tarix elmləri namizədi Ataxan Paşayevin "Xalq qezeti"ndə dərc olunmuş (21 may) "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilkin mənbələrdə", Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Ramiz Abutalıbovun "525-ci qəzet"də verilmiş (17 may) "Fransa arxivlərindəki Azərbaycanla bağlı sənədlər" sərlövhəli məqalələri bu qəbildəndir. Hər iki yazı obyektivliyi, sənədliliyi, elmi səviyyəsi, faydalılığı ilə seçilir, tədqiqatçılara, mütəxxəsislərə, geniş oxucu kütləsinə yeni informasiya verir, həm də qarşıya vacibli problemlər, məsələlər qoyur. Məsələn, A.Paşayev yazır ki, "1919-cu ilin yayında Azərbaycana qarşı Denikin ordularının hücumu gözlənildiyi bir vaxtda - iyun ayının 9-da AXC hökumətinin tərkibində yaradılmış Dövlət Müdafiə Komitəsinin də sənədləri... Hansısa bir xain, xəbis qüvvə tərəfindən bilərəkdən və ya bilməyərəkdən tamamilə məhv edilmişdir". Biz əlavə edirik ki, bəlkə oğurlanmışdır. Axtarmaq, araşdırmaq lazımdır. A.Paşayev tədqiqatçılara cümhuriyyətlə bağlı dövlət arxivində saxlanılan fondlarla əlaqədar məlumat verir, onları bir növ fəaliyyətə səsləyir. Bu, çox yaxşıdır.

Uzun müddət Fransada YUNESKO-da işləyən Ramiz Abutalıbovun bu ölkədə siyasi mühacirət həyatı keçirən həmvətənlərimizin həyatı və fəaliyyəti barədə apardığı araşdırmalar, yaratdığı canlı əlaqələr, topladığı materiallar elmi ictimaiyyətimizə məlumdur. Vaxtilə çox

böyük risk tələb edən belə bir fəaliyyətlə məşğul olmaq hər kəsin işi deyildi. Az danışan, çox iş görən, hədsiz dərəcədə təvazökar, vətənpərvər bir diplomatın gördüyü işin qiyməti ölçüyəgəlməzdir. "525-ci qəzet"də dərc olunmuş yazısı da bunu nümayiş etdirir. Bir qəzet məqaləsində adamı heyran edəcək dərəcədə fakt var, informasiya var, düşünüləsi məqamlar var, görünməsi vacib olan təkliflər, mülahizələr var. Məsələn, Ramiz müəllim qeyd edir ki, Parisin mərkəzində Ə.Topçubaşinin yaşadığı Dekamp küçəsi 37 nömrəli binaya onun xatirə lövhəsi vurulub. Sonra yüksək ziyalı mədəniyyətilə yada salır ki, "İndi Bakıda da Azərbaycanın müstəqilliyi uğrunda ilk mübarizələrin yaşadıqları binaların, evlərin divarlarına da belə xatirə lövhələri vurulması ədaləti olardı". Həm də xatırladır ki, Əlimərdan bəyin Bakıda yaşadığı iki dəqiq ünvan ona məlumdur. İndi biz gözləyək görək hörmətli şəhər icra başçısı Hacıbala Abutalıbovun bu təklifə reaksiyası necə olacaq? Rəsmi dairələr ona imkan verəcək, yardım edəcək, şərait yaradacaqlarmı ki, bu vacib tədbiri həyata keçirsin?!"

"525-ci qəzet"də diqqətimi çəkən digər bir yazı, Gümhuriyyət dövrü tədqiqatçılarından, Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya elmləri namizədi Asif Rüstəmlinin "Cümhuriyyət dövründə milli mətbuat" məqaləsi oldu. Qəzetin iki nömrəsində (№69, 70) dərc olunmuş tədqiqat səciyyəli yazıda maraqlı faktlar, mülahizələr çoxdur. Müəllif haqlı olaraq yazır ki, "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ənənəvi ağ ləkələrini aradan qaldırmaq, həyat həqiqətlərini real əks etdirmək, əsl gerçəkliyi göstərmək üçün 1918-1920-ci illərdə çıxan mətbuat orqanlarımız bu gün müstəsna əhəmiyyət kəsb edən mötəbər mənbələr, təkrarsız məxəzlərdir".

Bütövlükdə maraqlı hesab etdiyim bu məqalədə təəssüf ki, bəzi ciddi xətalara da yol verilmişdir. Məsələn, məqalədə yazılır ki, "Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsindən sonra ilk yaranan qəzet 1918-ci ilin iyununda Gəncədə fəaliyyətə başlayan "Azərbaycan" olmuşdur. "Azərbaycan"ın Gəncədə 4 nömrəsi çıxmış, qəzetin ilk redaktorları Üzeyir Hacıbəyov və Şəfi bəy Rüstəmbəyov olmuşdur."

Əvvəla, "Azərbaycan" qəzetinin ilk nömrəsi 1918-ci ilin iyununda deyil, sentyabrın 15-də Gəncədə nəşr olunmuşdur. Hicri-qəməri tarixilə 1336-cı ilin zilhiccə ayının 8-i - 1918-ci il sentyabrın 15-dir. Qəzetin 1336-cı il zilhiccə ayının 26-da Bakıda nəşr olunan (1918-ci il oktyabrın 3-də) 5-ci nömrəsində C.Dağıstaninin (Ceyhun Hacıbəylinin) "Tarixi gün" sərlövhəli məqaləsinin ilk cümləsi belədir: "8 zilhiccətülhəram 15 eylül (sentyabr) bütün türk və islam aləminin ən səadətli və ən şövkətli günlərindənədd olunacağı şübhəsizdir. Haman gün türk və islam tarixində zərin (qızıl, zərli) bir səhifə işğal edəcəkdir. Haman gün Bakı süqut etdi".

İkincisi - "Azərbaycan" qəzetinin redaktoru Üzeyir Hacıbəyov deyil, Ceyhun Hacıbəyli idi. Məlumdur ki, 1918-ci ilin martında Üzeyir bəy tamaşa vermək üçün aktyor heyətilə bərabər İrana getmişdi. Qulam Məmmədlinin də "Üzeyir Hacıbəyov 1885-1948" adlı salnaməsində göstərildiyi kimi (bax.səh.237) Bakıya yalnız 1918-ci il oktyabrın son günlərində qayıtmışdı. Daha da dəqiqləşdirsək, "Azərbaycan" qəzetində dərc olunmuş informasiyaya görə oktyabrın 23-də gəmilə Ənzəlidən Bakıya gəlmişdi.

A.Rüstəmli məqaləsində yazır ki,

"1918-ci ilin mart faciəsinə qədər Azərbaycanda on beşədək türk dilində (o zaman "Azərbaycan dili" ifadəsi işlədilmirdi - A.R.) qəzet və jurnal çap olunurdu. Bunlardan "Açıq söz", "ittihad", "Millət", "Hümmət" gündəlik... qəzetlər idi".

Dəqiq deyil. "Hümmət" qəzeti 1918-ci ilin martında gündəlik nəşr olunmurdu, günaşırı çıxırdı. 1918-ci il aprelin 17-də qəzetdə 1-ci səhifədə belə bir xəbər dərc olunmuşdu: "Hümmət qəzetəsinin möhtərəm oxucularına xəbər veririz ki, onların hüsni-təvəccöh, etina və məhəbbətlərini nəzərdə tutub bir-iki günə kimi qəzetəmizi gündəlik edəcəyiz".

Bu elandan bir gün sonra - 1918-ci il aprelin 18-dən "Hümmət" 44-cü nömrəsindən iki səhifə həcmində gündəlik nəşr olunmağa başladı.

Göstərim ki, bu xətalar yalnız A.Rüstəmlinin deyil. "Azərbaycan dövri mətbuatı 1832-1920. Biblioqrafiya" (Bakı, 1987) və məlumat kitablarında da bu qəbildən olan xətalar çoxdur. Məsələn, yuxarıda göstərdiyimiz Biblioqrafiya kitabında yazılır ki, (bax.səh,56) "Azərbaycan" qəzetinin 1-4-cü nömrələri 1918-ci ilin iyununda Gəncədə çıxmışdır, qəzetin əsas redaktoru Ü.Hacıbəyov olmuşdur" və s.

Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyilə əlaqədar respublika qəzetlərində cümhuriyyət dövrünün görkəmli siyasi xadimlərinə, hökumətin fəaliyyətinin ayrı-ayrı sahələrinə dair verilmiş yazıları da oxudum, Əsasən tendensiyalı, müəyyən siyasi və şəxsi məqsədlər naminə qələmə alınmış bu yazılarda nəzərə çarpan ümumi bir cəhəti qeyd etmək istəyirəm. Bu yazılarda cümhuriyyətin lideri, yaradıcısı M.Ə.Rəsulzadə unudulur, "Müsavat partiyasının bəzən adı belə çəkilmir. Elmi-nəzəri konfranslar, cümhuriyyətin yubiley tədbirləri barədəki rəsmi və qeyri-rəsmi materiallarda da bu müşahidə olunur. Bəzən belə bir təsəvvür yaradırlar ki, guya AXC-ni müsavatçılar deyil, "bitərəflər" yaratmış və idarə etmişlər. Bu cür sovet-bolşevik dövründən qalma saxtakarlıqlar təəssüf doğurmaya bilməz. Tarix obyektivlik və dəqiqlik tələb edir. Onu nadan və səriştəsizlərin "siyasi oyun meydanına" çevirmələrinə yol vermək olmaz.

**"Günay", 22, şənbə, 31 may 2003**

# 300 İLLİK MƏSAFƏ: DƏYİŞƏN NƏ, QALAN NƏ?

"Rusiya tarixini oxuyanlara məlumdur ki, məşhur Pyotri-Kəbir Peterburqun binasını qoymaq istədikdə Neva çayının kənarında kol-kosluq və bataqlıq yerdə durub dedi ki, "mən burdan Qərbə pəncərə açacağam". Sözünə əməl eləyən və dediyində sabit-qədəm olan imperator dediyini elədi və Qərbə pəncərə açaraq Peterburqu bina elədib, onun əhəmiyyəti-siyasiyyə və ticariyyəsi münasibətilə bəzi Avropa nizamını ruslara göstərib öyrətdi".

Bu sözlər 96 il bundan əvvəl M.Ə.Rəsulzadənin 1907-ci il sentyabrın 1-də "Yoldaş" qəzetində dərc olunmuş məqaləsindəndir. Böyük rus tənqidçisi Q.V.Belinski 1847-ci il noyabrın 22-də dostu K.D.Kavelinə yazdığı məktubda I Pyotru belə səciyyələndirirdi: "Məndən ötrü Pyotr - Rusiya ilə bağlı hər şeydə mənim fəlsəfəm, dinim, ilham mənbəyimdir. Bu şəxs nə isə etmək istəyən, nəyə görəsə faydalı olmaq istəyən bütün böyük və kiçik adamlar üçün nümunədir".

300 illiyi təntənə ilə qeyd edilən şəhər I Pyotrun adını daşıyır, onun əsəridir. Tarixçilər yazırlar ki, Pyotrun dövründə 20-30 il ərzində Rusiyada sənayenin həcmi 7-10 dəfə artmış, tezliklə metal istehsalına görə Rusiya dünyada birinci yeri tutmuşdur; Avropada ən iri nizami ordu, artilleriya, müasir donanma yaradılmış, "Avropaya pəncərə" açılmış, müxtəlif diplomatik və ticarət əlaqələri yaradılmış, ölkəyə yüzlərlə mütəxəssis dəvət edilmiş, yeni paytaxt tikilmiş, üstəlik, ölkənin müxtəlif yerlerində şəhərlər salınmış, kanallar çəkilmiş, məktəblər, Elmlər Akademiyası, qəzetlər açılmış, yeni təqvim tətbiq edilmişdir. Bir sıra başqa yeniliklər də olmuşdur: dövlət hakimiyyətinin strukturu, "yuxarı təbəqələrin" məişəti, ölkənin zahiri görkəmi dəyişmiş, bəzən hətta başqa dillər tətbiq edilməyə başlanmışdır...

Əlbəttə, ictimai quruluş, siyasi sistem dəyişməmişdir, lakin dünyanın heç bir yerində bu qədər qısa müddət ərzində belə inqilabi dəyişikliklər eşidilməmiş şey idi, heç yerdə belə şey olmamışdır.

Dünyanın 44 ölkəsinin dövlət və hökumət başçılarını Sankt-Peterburq şəhərinin 300 illik yubiley şənliklərinə gətirən səbəblər içərisində bu amil də vardır. Məlumdur ki, 1712-1917-ci illər ərzində, yəni 205 il Sankt-Peterburq Rusiya imperiyasının rəsmi paytaxtı olmuşdur. Bu müddətdə Rusiya taxtında I Pyotrdan sonra 13 çar hökmranlıq etmişdir. Onların içərisində I Pyotrun daşıdığı "böyük" (velikiy) adına yalnız II Yekaterina layiq görülüb. Çünki 34 il çarlıq edən (1762-1796) Yekaterina dövründə məşhur rus tarixçisi V.O.Klyuçevskinin də (1841-1911) yazdığı kimi "Yeni torpaqların tutulması hesabına imperiyanın

əhalisinin sayı 1762-ci ildəki 19 milyon nəfərdən 1796-cı ildə 36 milyona çatmış, 162 minlik ordunun heyəti 312 minə çatdırılmış, dövlət gəlirlərinin məbləği 16 milyon rubldan 69 milyon rubla qədər, yəni 4 dəfədən çox artmışdı, sənaye sahəsindəki uğurlar fabriklərin sayının 500-dən 2 minə çatmasında ifadə olunmuşdur..."

Rusiya tarixində heç vaxt torpaq itirən, məğlubiyyətlə barışan dövlət və siyasət adamına "böyük", "dahi" ləqəbləri verilməyib.

Rusiyanın XIX əsrin sonu və XX əsrin əvvəllərinin tanınmış dövlət və siyasət adamlarından qraf S.Vitte (1849-1915) öz "Xatirələr" əsərində yazır ki, "Bizim onilliklər boyu yeritdiyimiz siyasətin bütün yanlışlığı ondan ibarətdir ki, biz hələ də bir şeyi dərk etməmişik: böyük Pyotr və böyük Yekaterina dövründən bəri Rusiya yoxdur, Rusiya imperiyası var. XIX və XX əsrlərdə əhalinin təqribən 35 faizi başqa xalqların nümayəndələrindən ibarət olduğu şəraitdə Rusiya imperiyasına daxil olmuş digər millətlərin milli xüsusiyyətlərinə, onların dininə, dilinə və başqa məsələlərə məhəl qoymadan siyasət yeritmək mümkün deyildir".

Sankt-Peterburq və bütövlükdə Rusiya tarixinin son 300 illik tarixinə son vaxtlar xüsusi yeni baxış da nəzərə çarpmaqdadır. "Rusiya da Avropadır" - deyənlər çoxdur. Lakin müasir inkişaf və yaşayış, ictimai-siyasi və mədəni səviyyə baxımından Rusiya ilə Qərbi Avropa arasındakı əsaslı fərqlər də göz qarşısındadır.

Nədir bunun əsas səbəbləri? Tarixçilər bu barədə müxtəlif mülahizələr söyləyirlər. Məsələn, qeyd edirlər ki, "Yüzilliklər boyu Rusiya tarixinin iki fərqləndirici cəhəti olmuşdur... Əvvələn, burjuaziyanın nisbi sayının az olması. Bu, tarixin, iqtisadiyyatın, siyasətin, hətta milli xarakterin də ən mühüm cəhətidir. Burada Rusiyaya xas olan səxavətlilik, ürəkaçıqlıq, xırdaçılıqdan, xəsislikdən uzaqlıq kimi keyfiyyətlər üstünlük təşkil edir - ...Bu, Qərblə müqayisədə nifrət bəslənilən meşşanlığın olmaması deməkdir...

Eyni zamanda təsərrüfatsızlıq, haqq-hesab aparmağı istəməmək və bunu bacarmamaq, çox vaxt normal, cansıxıcı adi gündəlik həyat əvəzinə qəhrəmanlıq, qiyamdan köləliyə asan keçid, özbaşınalıq, hüquqi şüurun lazımi səviyyədə olmaması nəzərə çarpır.

İkincisi, dövlətin rolu çox yüksəkdir, mərkəzləşmə ifrat dərəcəyə çatmışdır.

Rusiyada hər hansı başqa ölkə ilə müqayisədə daha çox məsələləri minlərlə, milyonlarla insan deyil, fəal azlıq həll edir. Buna görə də bu ölkədə "partlayışlar" yolu sanki normaya çevrilir.

Digər tərəfdən, Rusiya tarixinin bilicisi P.N.Milyukovun yazdığı kimi, "Rusiya müflisləşmə bahasına Avropa dövləti ranqına ucaldılmışdı. Bu işin əvvəli mütərəqqi, işıqlı təsir bağışlayırdı, bununla yanaşı,

avamlıq və vəhşilik hökm sürür. Rusiya seçmə adamlar üçündür. Qanunlar yazılarkən zəifləri deyil, güclüləri nəzərdə tuturlar. Duma "seçkili" deyil, "seçilmişdir". Belə bir vaxt yetişib ki, ictimai rəy əsasən ciblərin mənafelərinə reaksiya verir".

Yuxarıda adını çəkdiyimiz "Xatirələr" kitabında qraf S.U.Vitte Rusiya tarixini qısaca təhlil edib belə bir nəticəyə gəlirdi: "İvan Qroznı, böyük Pyotr və II Nikolay dövründə Rusiyanın xəritəsinə baxan kimi görmək olar ki, dünyada hər hansı başqa ölkə belə bir zaman fasiləsində xarici əlaqələr sahəsində bu cür nəhəng addımlar atmamış, bu cür qələbələr qazanmamışdır. II Nikolayın çarlığı dövründə bu sahədə çox böyük səhvlər edilmişdi. Allah eləsin ki, bu cür səhvlər daha təkrarlanmasın..."

Bu sətirlərin müəllifi 1915-ci ildə dünyasını dəyişdi. 1917-ci ildə Rusiya imperiyası və romanovlar sülaləsinin 304 illik hakimiyyətinə son qoyuldu. Lakin imperiya təfəkkürü qaldı. Yeni daha dəhşətli - sovet-bolşevik imperiyası yaradıldı, genişləndi, lakin XX əsrin 90-cı illərində o da süqut etdi. Bu tarixi hadisələr fonunda XXI əsrin ilk illərində Rusiya Federasiyasının şimal paytaxtının 300 illiyi əvvəlki illərin, əsrlərin təntənəsi, əzəməti və xərcləri ilə qeyd edildi. Bu şənliklərdə Rusiyanın avropalaşması, Avropa Birliyi ilə inteqrasiyası ön plana çəkilmişdir. Hətta Pyotrun "Qərbi Avropaya pəncərə açması" müqabilində, bu dəfə "Qərbi Avropanın Rusiyaya pəncərə açması"ndan söhbət getdi. Biz də bu prosesin reallaşmasını ürəkdən arzu edirik. Həqiqi demokratik, sülhsevər, rifaha qovuşmuş Rusiya bizim üçün də nümunə ola bilər. Axı biz də hələlik uzun onilliklər bir yerdə olduğumuz Rusiya ruhu ilə yaşayırıq.

**"Günay", N23, 7.06.2003**

## BÜROKRATİK BƏHANƏ, YAXUD RƏSMİ DEZİNFORMASİYA

ABŞ-Britaniya koalisiyasının İraqa hərbi müdaxiləsinin üç ayı tamam olmaq üzrədir. Geniş miqyaslı hərbi əməliyyatlar başa çatıb, ölkə işğal edilib, Səddam rejimi devrilib. Bəs yerində nə qurulur, İraq xalqını nə gözləyir? Bu suala cavab vermək çətindir. Məlum olanı budur ki, iqtisadi və siyasi həyatda hərc-mərclikdir, ölkədə qeyri-sabit vəziyyət davam etməkdədir, əhalinin vəziyyəti hədsiz dərəcədə ağırdır, işsizlik, yolsuzluq, təhlükəsizlik problem olaraq qalır.

İraqda hakimiyyətə iddialı dairələr, qüvvələr və hətta ayrı-ayrı şəxslər belə az deyil. Vaşinqtona onları saf-çürük etmək üçün vaxt lazımdır. İraq kimi uzun illərin avtoritar rejim dövründən sonra demokratik sistem formalaşdıra biləcək qüvvələr tapmaq da asan olmayacaq. Həm də milli, dini etnik cəhətdən müxtəlif olan ölkədə çoxluğun rəğbətini qazana biləcək iqtidar formalaşdırılmalıdır.

İslam dünyası, beynəlxalq ictimaiyyət iraq hadisələrini diqqətlə izləməkdədir. Əfqanıstan təcrübəsi də hələ ki, istənilən nəticəni vermir. İşğal qüvvələri ölkəyə nəzarət etsələr də əhalinin vəziyyətini minimum səviyyədə belə yaxşılaşdırmaq sahəsində faydalı bir iş görə bilmirlər. İraqda da demək olar ki, vəziyyət oxşardır.

Son günlər İraqla bağlı həm Vaşinqton və həm də Londonda yüksək səviyyələrdə mübahisə və münaqişə özünü göstərməkdədir. Məlumdur ki, İraqa qarşı müharibədə əsas qüvvə kimi iştirak edən ABŞ-Britaniya koalisiyası bu ölkədə kütləvi qırğın silahının olduğunu və məhz bu səbəbə görə müharibəyə başladıqlarını bildirirdilər. Lakin müharibə 2 aya yaxındır bitib, İraq işğal olunub, lakin İraqda heç bir kütləvi qırğın silahı tapılmayıb. BMT hərbi ekspert qrupunun başçısı Hans Bliks son müsahibələrindən birində açıqca bildirib ki, onun başçılıq etdiyi missiya İraqda xeyli obyektlərdə axtarış aparıb, amma şübhəli nəyəsə rast gəlməyib. Bliks ABŞ və Britaniya kəşfiyyatının iddialarını rədd edərək deyib: "Əgər kəşfiyyat tərəfindən verilən məlumatlar nəticəsində biz nəsə tapmırıqsa, onda qeyri-rəsmi məlumatlardan nə gözləmək olar?"

Prezident Buş və Britaniyanın baş naziri Toni Bler İraqda gütləvi qırğın silahının aşkar edilməməsindən çox böyük narahatlıq keçirməkdədirlər. Onlar öz iddialarında israrlıdırlar. Bler qısamüddətli Bəsrə səfərində Britaniya əsgərləri qarşısındakı çıxışında da bu məsələyə toxunmuşdur. Corc Buş da qatarda Doha şəhərində 2500 Amerika

hərbçisi qarşısında çıxışı zamanı iddia etmişdir ki, İraqda kütləvi qırğın silahı tapılacaq. Eyni fikri daha böyük qətiyyətlə Pentaqonun başçısı Donald Ramsfeld təkrar etməkdədir.

Maraqlıdır, iyunun 30-da vəzifəsindən istefa verməyi planlaşdıran Bliks Təhlükəsizlik Şurasındakı son çıxışında bir daha qeyd etdi ki, İraqda kütləvi qırğın silahı tapılmadı. Bəs bu versiyanı əvvəlcədən rəsmi dairələrə kim ötürüb, dünya ictimaiyyətini kim aldadıb? İndi bu məsələ su üzünə çıxmaqdadır. Məsələn, Demokrat Partiyasından olan konqresmen Denis Kisinc bildirib ki, bir qrup Amerika qanunvericiləri bu məsələ ilə əlaqədar araşdırmanın aparılması tələbilə konqresə qətnamə irəli sürmək niyyətindədirlər. Eyni məsələ Britaniya parlamentində də qaldırılmaqdadır. Hətta Blerin başçılıq etdiyi leyborist deputatlardan bir qrup ölkə ictimaiyyətini və qanunvericiləri İraqda kütləvi qırğın silahı olması haqqında həqiqətə uyğun olmayan informasiyalar verməkdə təqsirkar olanları aşkara çıxarmaq tələbilə tədqiqat başlanmasını tələb edir.

Deyirlər yalan ayaq tutar, amma yeriməz. Vaşinqton və Londonun indiki hakimləri, deyəsən, əsrlərin sınağından keçmiş bu kəlamı yadlarından çıxarmışlar. İcmalçıların bir qismi bu fikirdədir ki, bu yalan və dezinformasiya Buş və Blerə baha başa gələ bilər. Xəbər verirlər ki, əgər konqres tərəfindən belə bir təhqiqat başlanarsa, Corc Buşun seçkiqabağı ərəfədə xalqı aldatmaqda ittiham olunması, əlbəttə ki, onun növbəti dəfə prezident seçilmək şansını azaldacaq. Məhz buna görədir ki, Ağ Ev administrasiyasının hazırda qarşısında duran əsas məsələ İraqda kütləvi qırğın silahı tapmaqdır. Əgər bu tip silahlar və onun istehsalı aşkar edilərsə, tapılarsa, ABŞ-Britaniya koalisiyasının müharibəyə başlamaq üçün bəhanəsi doğrula bilər.

Lakin Corc Buş və Toni Bler irəli sürdükləri rəsmi səbəbi dünya ictimaiyyətinə inandırmağa çalışdıqları bir vaxtda Amerika müdafiə nazirinin müavini Rol Volfoviç sensasiyalı bir açıqlama ilə çıxış etdi. Sinqapurda təhlükəsizlik məsələləri ilə bağlı Asiya sammiti ərəfəsində Volfoviçin İraqla əlaqədar verdiyi bəyanat Vaşinqton və Londonun rəsmi dairələrini çox pis vəziyyətə salıb. Volfoviç deyib: "Səddam Hüseyn rejiminə qarşı hərbi müdaxilənin əsas səbəbi neft amili olub", "Müharibəyə əsas səbəb İraqın neft içində "üzməsi" idi. ABŞ-ın neftə nəzarət etmək istəyi onun kütləvi qırğın silahını tapmaq istəyindən daha çox idi".

Mənim qənaətimcə, kütləvi qırğın silahı axtarışı, bəhanəsi, yaxud neft amili diqqəti bir sıra köklü məsələlərdən yayındırmaq üçün düşünülmüş və işə salınmış versiyalardır. Qərbin ərəb dünyasına, islam

aləminə uzun əsrlər boyu tətbiq etdiyi strategiyanı yaddan çıxarmaq olmaz. İsrail amili indi xüsusi çəkiyə malikdir. Buşun Yaxın Şərqə səfəri, onun İsrailin mövqelərini möhkəmlətmək üçün etdiyi təşəbbüslər təsadüfi səciyyə daşımır. İsrailin "düşmənlərini" bir-bir, silah gücünə də olsa, sıradan çıxarmaq Vaşinqtonun əsas qayəsidir. Əfqanıstan və İraqdan sonra növbə deyəsən İranındır. Burada da növbəti bəhanə tapılıb. İranın atom silahına yiyələnmək istəyi bəhanəsi.

21-ci yüzilliyin yeganə fövqəldövləti olan ABŞ görək, dünyanı hansı səmtə yönəldəcək? Müəmmalı məsələ budur.

**"Günay" 24, 14.06.2003**

<u>Ü.HACIBƏYOV</u>

## BİZ İLƏ YEVROPALILARIN TƏFAVÜTÜ

22 iyun 1909-cu il

Yevropalılar ağappaq və tərtəmiz bir libas kimidirlər. Biz də kirdən rəngi məlum olmayan mündəris (köhnəlmiş) bir patlar kimiyik. Odur ki, haman ağ və tərtəmiz paltarın üstə bir balaca ləkə düşəndə, o saat məlum eləyir, amma kirli paltarın üstünə min o qədər ləkə düşsün, məlum eləməz. O səbəbdəndir ki, məsələn Firəngistanda birisi ildə, ayda bazarda bir güllə atanda qəzetələr bir həftə o barədə danışırlar, camaat böyük həyəcana düşür... Halbuki bizim yerdə gündə beş-altı adam öldürülür, heç kəsin qulağına girmir...

Ağappaq qar kimi təmiz bir pencəyin üstünə bir damcı mürəkkəb düşərsə, yarım verstdən məlum eylər, amma bizim bədənimizdəki çirkin paltarın üstünə bir girəvənkə mazut tök, bir addımdan məlum eləməz.

### *İKİNCİ TƏFAVÜT*

Bu halda, yəni bu iyirminci əsrdə yevropalılar səy edirlər ki, quş kimi havada uça bilsinlər. Amma biz bədbəxtlər hələ indi çalışırıq ki, adam kimi dünyada yaşaya bilək...

Şer:

*Onlar əvvəl adam imişlər ki,*
*indi də quş olmaq istəyirlər,*
*Bəs biz əvvəl nə imişik ki,*
*İndi adam olmaq istəyirik?*

## İNDİ KEÇƏK BAŞQA MƏSƏLƏLƏRƏ

Təkəbbür və lovğa adamdan hamının zəhləsi gedir, amma hamı da o cürə adamlardan çəkinir və həmişə onlara yol verməyə məcbur olur. Hər halda, bu məsələ ki - ağac bar gətirdikcə başını aşağı tutar - hamının xoşuna gəlir. Amma burasını unutmaq olmaz ki, barı çox olan ağacın başını o qədər də aşağı tutması ağacın özü üçün zərərdir, çünki sınar.

O səbəbdəndir ki, ağacın qədir və qiymətini bilən bağbanlar o cürə ağaclara bir dayaq qayırırlar ki, bu "başıaşağılıq"dan ona, bir zərər və sədəmə (bəla) yetişməsin. Halbuki, bizdə tək-tək tapılan barlı "ağaclar" bar verib başıaşağı olduqları halda, onun barından mənfəət aparanlar daha da başından basırlar ki, binəva puç olsun!

**Filankəs (Ü.Hacıbəyov)**
**"Tərəqqi" qəzeti, 22 iyun 1909, N-137**

## ƏSRLƏRİN QLOBAL PROBLEMİ

94 il bundan əvvəl iyunun 22-də "Tərəqqi" qəzetində hələ 24 yaşı bitməmiş, lakin ağlı, zəkası, böyük istedadı, milli qeyrəti və heysiyyatı ilə artıq tanınan Üzeyirbəyin "Biz ilə yevropalıların təfavütü" sərlövhəli felyetonu işıq üzü görmüşdür. Həcmcə kiçik bir yazıda əsrlərin həyatı önəm daşıyan və bizim günlərimizdə də qlobal əhəmiyyət kəsb edən problemlərinə toxunulmuşdur. Əlbəttə bu 94 il ərzində çox məsafə qət edilmişdir. Bunlar inkaredilməzdir. Üç respublika dövrünü yaşamış və yaşamaqdayıq. Lakin Avropa ilə aramızdakı köklü, əsaslı fərqlər qalmaqdadır. Həm də biz tək deyilik. Bu yaxınlarda Rusiya Federasiyasının prezidenti V.Putin istedadları ilə seçilən yuxarı sinif şagirdlərindən bir qrupunu qəbul etmişdir. Ölkə prezidenti ilə gənclər arasında mehriban və açıq fikir mübadiləsi oldu. Diqqətimi gənclərdən birinin verdiyi

"Rusiya neçə əsrdir Avropa səviyyəli yaşayış səviyyəsinə, tərəqqiyə can atır, lakin nail ola bilmir, əsas səbəbi nədə görürsünüz?" sualı cəlb etdi. V.Putin dedi ki, əsas maneə bürokratiya və korrupsiyadır. Yaxşı, kəsərli qanunlar qəbul edilir, ancaq korrupsiya və rüşvətxorluğa qurşanan bürokratiya onları tam şəkildə yerinə yetirilməyə qoymur. V.Putinin bu sözləri Üzeyirbəyin adını çəkdiyim felyetonu işıq üzü görməmişdən 3 il əvvəl Rusiya Dövlət Duması tribunasından İsmayılxan Ziyadxanovun dediyi sözləri yadıma saldı: "Bizdəki idarə sistemi tənqid xaricindədir. Belə ki, əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahilləri olaraq düşünülərsə, bu dənizlə sizə gərəkli olmayan nə qədər boş və səfil adam varsa, hamısını bizim Qafqaz sahillərinə fırıldadıb atırsınız. Və bunlar da əslən, əxlaqsız olan bir idarənin məmur kadrlarını tamamlamağa yaramış olurlar. Bizim ölkəmizdə dövlət idarəsinin idealı: rüşvət almaq və xalqa əziyyət verməkdir. Kim 90 yaşlı bir qocanın əlindən loxmasını qoparıb alırsa, o, bizdə ən yaxşı məmur sayılır. "Gözü çıxarılmış müsəlmanlar" üçün bundan dəhşətli nə ola bilər?"

V.Putinin dilə gətirdiyi "bürokratiya və korrupsiya" İ.Ziyadxanovun dediyi "bizim ölkəmizdə dövlət idarəsinin idealı rüşvət və xalqa əziyyət verməkdir", Ü.Hacıbəyovun məcazi mənada yazdığı "Bizim bədənimizdəki çirkin paltarın üstünə bir girvənkə mazut tök, bir addımdan məlum eləməz", "biz bədbəxtlər hələ indi çalışırıq ki, adam kimi dünyada yaşaya bilək..." kəlamları öz məna və əhəmiyyətini saxlamaqdadır. Bəs bu bəlaların səbəbi, onların daşıyıcıları kimlərdir? Bu suala Üzeyirbəy belə cavab verirdi: "Təkəbbür və lovğa adamdan hamının zəhləsi gedir, amma hamı da o cürə adamlardan çəkinir və həmişə onlara yol verməyə məcbur olur". Belələri isə düz danışanların, iş görənlərin, namuslu və qeyrətli bar verənlərin "başından basırlar ki, binəva puç olsun!"

Adam kimi dünyada yaşaya bilmək arzusu böyük, mən deyərdim ilahi arzudur, istəkdir. "Əslən əxlaqsız olan" bir idarənin, bir quruluşun əsiri olmaq dəhşətdir.

Bürokratiya, korrupsiya, rüşvətxorluq bəlası bizim əxlaqımızı, mənəvi dünyamızı kor qoyub, o bütün dövlət aparatını, təsərrüfat və ticarət sistemini, inzibati orqanları ağzına alıb. Görülən tədbirlər, verilən göstərişlər bürokratik səddə dəyib kəsərini itirir. Belə bir şəraitdə demokratik Avropa ilə bizim aramızda olan və Üzeyirbəyin təsvir etdiyi fərqlər, təfavüt bu və ya başqa şəkildə qalmaqdadır. Əsrlərin qlobal problemlərini həll etmək üçün zaman daralmaqdadır. Məhz bunu nəzərə alaraq Üzeyirbəy yazırdı ki, "biz də indi adam olmaq istəyirik!" Amma əsas məsələ arzunu, istəyi həyata keçirmək əzmidir.

**"Günay" 25, şənbə, 21 iyun 2003**

# QLOBAL ƏDALƏTSİZLİK NƏ QƏDƏR DAVAM EDƏCƏK?

Sosioloqların qənaətincə, dünyada qlobal ədalətsizlik, başqa deyimlə inkişaf etmiş və dünya iqtisadiyyatı mexanizmini ələ keçirmiş, öz ölkələrində yüksək həyat şəraiti yaratmış Şimalla, yoxsulluq, antidemokratik totalitar və avtoritar rejimlərin hakim olduğu Cənub arasındakı uçurum aradan qaldırılmayınca, qlobal təhlükəsizlik haqqında danışmaq mümkün olmayacaq. Bu həqiqətin dərk edilməsi sahəsində həyəcan təbili çalanlar az deyil. Həm də bu, dünənin və indinin problemi deyil. Bu getdikcə dərinləşən uçurumun aradan qaldırılması uğrunda hələ keçən əsrdə xeyli müsbət addımlar da atılmışdı. Məsələn, iqtisadiyyatda Yaponiya, Almaniya və Fransa möcüzəsilə yanaşı, Hindistan, Braziliya, Pakistan möcüzəsi də baş vermiş, sonralar Cənubi Koreya, Malayziya, Sinqapur, son vaxtlar Çin və Cənub - Şərqi Asiyanın bir sıra ölkələrinin adları da bu siyahıya daxil edilmişdir. Bu qlobal prosesdə ərəb ölkələrinin, türk-islam dünyası ölkələrinin adlarının çəkilməsi də diqqəti cəlb edir. Bu günlərdə xarici icmalçılardan biri heyrətverici bir fakt dedi ki, bütün ərəb ölkələrinin iqtisadi gücü tək İspaniyanınkından azdır. Zəngin təbii sərvətlərə, bolluca işçi qüvvəsinə malik türk-islam dünyasının bu geriliyinin bəs əsas səbəbi nədir? Bu qlobal suala da cavab vermək o qədər asan deyil. Bununla əlaqədar mən, böyük-böyük alim, mütəxəssislərin deyil, 18 il Rusiya kommunist taxtında oturmuş Brejnevin "məlum" və "məşhur" qızı Qalinanın deyimini xatırlatmaq istəyirəm. O, vaxtilə müxbirlərlə müsahibəsində demişdi: "Rusiyada bütün işlər beyinlə yox, əzələ ilə görülür. Buna görə də Rusiya heç vaxt həqiqi tərəqqiyə nail ola bilməyib. O, dünyanı yalnız kosmos, musiqi, balet və idmanla heyran qoya bilər".

Qeyd: Brejnev məktəbini keçmiş Azərbaycanda da kosmosla və digər sahələrdə olmasa da, idmanla dünya səviyyəsinə çıxmağa önəm verilir. Alimlərin fikrincə, isə yəziyyət belə səciyyələndirilir.

"2002-ci ildə insanların inkişafı haqqında məruzədə qeyd edilir ki, varlılar və yoxsullar arasında, Şimal və Cənub arasında fərqlər, həmçinin bir ovuc adamın həddən artıq sərvət toplaması müqabilində, xüsusən ərəb ölkələrində yoxsul təbəqənin öz daxilində fərqlər bir az da artmışdır. Qeyd edilir ki, dünya siyasətində və iqtisadiyyatında hakimiyyətin son dərəcə qeyri-bərabər bölgüsü siyasi siniflərin aradan qaldırılması və alçaldılması təsəvvürü yaradır. Qeyd edilir ki, Qərbin iqtisadi, hərbi və siyasi üstünlüklə bahəm, mədəni hegemonluğu, hər şeydən əvvəl, İslam dünyasında güclü reaksiya doğurmuşdur."

Alimlər belə bir nəticəyə gəlirlər ki, "qlobal ədalət olmadan qlobal təhlükəsizlik ola bilməz". Lakin Vaşinqtonun indiki rəhbərliyi bu həqiqəti lazımınca dərk etmək istəmir. Qlobal ədalətsizliyin doğurduğu, lakin heç kəsin haqq qazandırmadığı beynəlxalq terrorizmi silah gücünə aradan qaldırmaq səylərinin də istənilən nəticəni verməyəcəyi göz qarşısındadır. Əfqanıstan və İraq işğal edilib, Fələstin dağıdılır, Çeçenistanda antiterror kampaniyası neçə illərdir davam etdirilir. Nəticə nədir? İraqın işğal edilməsinin 11 həftəsi tamam olur. İndi də orada qarşıdurma davam etməkdədir. Açıq şəkildə öz hüquqlarını tələb edən nümayişçilər işğal qüvvələrini daşa tutur, onlarsa odlu silahla cavab verirlər. Eyni vəziyyət neçə illərdir İsraildə davam edir. Nümayişçilərin silahı daşdır, hərbçilərinki avtomat silah, zirehli texnika, vertolyot və təyyarələr. Belə qeyri-bərabər şəraitdə canlı bombalar intiqam alır, işə düşür. Niyə? Çünki problem ədalətli şəkildə həll edilməmiş qalır. Orta əsrlərin silaha əsaslanan siyasi doktrinası, öz yerini ədalətli siyasət doktrinasına vermək istəmir. Vədlər və yaxşı, ümidverici sözlər və planlar çoxdur, real nəticə isə azdır.

Həm də imperializm və imperiyalar dövründə geniş kütləni aldatmaq, yalan informasiya və uydurulmuş bəhanələrlə müharibələrə sövq etmək asan idi. İndi vəziyyət qlobal səviyyədə dəyişmişdir. İnformasiya axını qlobal səciyyə almışdır. İraq müharibəsilə əlaqədar ABŞ və İngiltərədə cərəyan edən hadisələr və araşdırmalar bunu bariz şəkildə göstərir. İraqda kütləvi qırğın silahının tapılmaması Buş və Bleyeri çətin vəziyyətdə qoymuşdur.

Ədalətsizliyin bütün formalarına qarşı mübarizə demokratik inkişaf yoluna qədəm qoymaq əzmində olan ölkələr üçün vacib şərtdir. Sosial ədalət, insan hüquqlarına qayğı, çoxluğun ədalətli seçki yolu ilə hakimiyyəti və azlığın hüquqlarının gözlənməsi prinsiplərinin bərqərar olunması yolunu seçməkdən başqa yol hələlik müəyyən edilməyib. İnsaf dinin yarısıdır - deyiblər.

**"Günay" 26, 28.06.2003**

# MÜƏLLİM
# DƏRS DESİN, YOXSA DƏRD ÇƏKSİN?

"Müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir", "hər millətin tərəqqi dərəcəsi müəllimlərinin dərəcəsilə bilinər. Deməк ki, müəllimlər millətlərinin canlı "qradus"larıdırlar". Yeni Avropa üsulu ilə Azərbaycanda dərs deyən ilk müəllimlərdən sayılan Ömər Faiq Nemanzadə bu sözləri 97 il bundan əvvəl dilə gətirmiş, "İrşad" qəzetində yazmışdı (1906, N-88). Bu meyarla müəllimlərimizin bugünkü vəziyyətinə nəzər salsaq mənzərə o qədər də ürəkaçıcı görünməz. Bu barədə söhbət açan kimi iqtidar sahibləri bir ağızdan: "keçid dövrüdür, dünyanın əksər ölkələrində vəziyyət bizdəkindən yaxşı deyil, dözmək lazımdır, yavaş-yavaş hər şey düzələcək" və s. bu kimi mülahizələrlə problemin əsaslı müzakirəsindən diqqəti yayındırırlar. Müəllimin və məktəbin, tədris və təlimin nüfuzu isə lazımi səviyyəyə qalxmır ki, qalxmır. İnkişafdan söz düşən kimi şəhərdə ucaldılan uca binaları, hər yanda tikilən və tikilməkdə olan bahalı villaları, bahalı xarici maşınların miqdarını, mobil telefonların sayının sürətlə çoxaldığını nümunə kimi göstərir, statistik inkişaf rəqəmlərini sadalamağa başlayırlar. Biz belələrilə mübahisəyə girmək fikrində deyilik. 60 ilin müəllimi kimi mənim müşahidə etdiyim budur ki, görülən işlər, tədbirlər görülməsi vacib olanlardan çox-çox azdır. Əgər 97 il bizdən əvvəlkilər "müəllim məsələsi, hər bir millətin ölüm-dirim məsələsi" olduğunu dərk etmişdilərsə, biz niyə məsələni bu cür qoymayırıq. Ö.F.Nemanzadədən 9 il sonra - 1915-ci ilin oktyabrında, yəni I Dünya mübarihəsi dövründə müəllimlərin tərkibi və yaşayış səviyyəsi probleminə mahir pedaqoq, xalq maarifinin gözəl bilicisi və qayğıkeşi Üzeyir Hacıbəyov da xüsusi yazı həsr etmişdir. İndi həmin yazını oxuculara təqdim edirəm. Üzeyir bəy yazırdı: "Bu bahalıqda dolanmaq olmur, olmur, bir də olmur!", "dolanacaq üç qat baha olub, məvacib çatışmır, müəllim nə etsin, dərs desin, yoxsa dərd çəksin!". Üzeyir bəy müəllimlik sənətinə təsadüfi gələnləri də kəskin atəşə tutur, məktəbləri belələrindən təmizləməyi də vacib sayırdı.

## ORDAN-BURDAN

"Gəlir guşimə (qulağıma) dəmbədəm beylə səs", filan müəllimi çıxartdılar, çünki uşaq döyübdür.

Nəki müəllim var - hamısı "nervinni"dir. Bunun da üç səbəbi var. İkisi xüsusi, biri ümumi.

Xüsusi səbəbin birisi budur:

Müəllim: - Ax! Sən yenə dərsini bilmirsən! A gədə, sən mənim ciyərimi yandırdın! (ürəyində) Mən bu cürə uşaqlar ilə başıma nə daş salım. Bir yanda deyirlər ki, gərək, uşaqların doxsan prosenti yaxşı oxusun, (şagirdə) ədə düz otur, yoxsa bir şapalaq çəkərəm ki, dörd saat fırlanarsan.

Şagirdlər: - Pah atonla yeri. Dörd saat ha! Uçitel cinlənibdir, ləzzəti vardı...

Müəllim: - Mən burda sizdən ötrü can çürüdürəm, siz qulaq asmırsınız! Pəs, haçan siz adam olacaqsınız!

Dələduz şagird: - Heç vaxt.

Müəllim: - Yüz kərədir ki, bu dərsi mən sizə qandırıram, amma siz heyvan kimi heç-zad anlamırsınız! Di qulaq asın, bir də tazədən deyim... (ürəyində). Ax, bu uçitellik nə çətin şey imiş! Adamı lap öldürür, canını alır..

Bu cürə müəllimlərə demək lazımdır ki:

- İş ustadından qorxar, nəinki, ustad işdən!

Xüsusi səbəbin ikincisi budur:

Müəllim: - Hə, kim dərsini bilir, düz otursun, bilməyənlər də yavaş-yavaş əzbərləsinlər! (ürəyində) Daha bu uçitellikdən murdar bir sənət bir də uçitellikdir!

Şagird: - Mirzə bəs tazə dərs verməyəcəksən?

Müəllim: - Verəcəyəm, sonra... (ürəyində) Rəhmətlik oğlu, məndə tazə dərs vermək həvəsi var ki, bir tövqi-lənətdir (lənətəgəlmiş boyunduruqdur -Ş.H.) keçib boynuma, əlacım olsa, günü bu gün uçitelliyi tullaram cəhənnəmə rədd olsun!

Şagird: - Mirzə, bu uşaq mənə yumruq vurur...

Müəllim: - Sən də ona vur əvəz olsun! (ürəyində) izvanok vurulsaydı, çıxıb bir nəfəs alardıq, canımız qurtarardı (Bu əsnada pəncərədən inspektor görünür. Müəllim cəld qalxır). Açın kitablarınızı, kim dərsini bilir, durub əzbərdən oxusun. (ürəyində) Birdən inspektor içəri girər, vay halıma! Dəftərlər üç gündür ki, düzəlməyibdir, jurnal bir həftədir ki, yazılmayıbdır!

Eh, bir tez izvanok olaydı... - hə, oxu görüm... Axı mənə nə düşübdür ki, uçitel olum, inspektordan qorxum...

Bu cürə müəllimlərə demək lazımdır ki, cəbrlə iş görmək olmaz; çıx get, könlün istəyən sənətə gir!

Ümumi səbəb də budur:

Müəllim: - Qulaq asın: Kərim atasından pul alıb yolçuya verdi... (ürəyində) Görünür ki, onun atası mənim kimi ayda 68 manat almırmış ki, nəinki yolçuya, hətta öz yeməyinə də pulu çatmasın. Kərim sevinə-sevinə evə qayıtdı... (ürəyində) - ev... ev kirayəsi; ... daha bu gün xozeynə nə cavab verəcəyəm - bilmirəm! Daha lap abırım getdi... oxu görüm!

Şagird: - Nahar vaxtı idi...

Müəllim (ürəyində): - Nahar dedi, yadıma düşdü, bilmirəm dükançı ət verdi, vermədi... O da pul istəyir, suçu da pul istəyir, neftçi də pul istəyir...

Şagird: Atalar sözü: yorğana görə ayağını uzat...

Müəllim: (ürəyində) - Belə o atalara mən nə deyim ki, ürəyim soyusun! Mən nə tövr yorğana görə ayağımı uzadım ki, heç yorğan belimi də örtmür. Daha bundan artıq qısılmaq, bundan artıq bükülmək olmaz ki, mən edirəm! Belə, 68 manat ilə bu bahalıqda dolanmaq olmur, olmur, bir də olmur! - Ədə, düz otur, yoxsa gəlib meyidini salaram! Keyfimin xarab vaxtı məni cinləndirmə! Qulaq asın görək: xozeyn necə oldu?

Şagird: - Mirzə, hansı xozeyn?

Müəllim: - Əşi, dilim dolaşdı... çıxardın dükançını,.. yox, fikrim lap dağıldı... Qənd-çay varmı? ...Tfu! Qələm-mürəkkəb götürün, hesab yazaq, görək suçunun pulu nə qədər... Ədə, düz otur, yoxsa vuraram ağacla başın dağılar!

Bu cürə müəllimlərə... Yox, upravaya demək lazımdır ki, axı bu yazıq müəllimlər nə etsinlər ki, acıqlı olmasınlar? Dolanacaq üç qat baha olub, məvacib çatışmır, müəllim nə etsin, dərs desin, yoxsa dərd çəksin?!

**FİLANKƏS (Ü.HACIBƏYOV),**
*"Yeni iqbal" qəzeti, 15 oktyabr, 1915, N-142*

**"Günay" 27, şənbə, 5 iyul 2003**

## YENİ TƏHLÜKƏ ERASI BAŞLANIBMI?

Avropa inqilabları dövrünün əks-sədası olan azadlıq, bərabərlik və qardaşlıq şüarları neçə əsrdir ki, dünya üzərində səslənməkdədir. Bu bəşəri idealın, arzu və istəyin daşıyıcıları insanlığın şərəf və ləyaqət timsalı olan sənətkarlar, siyasət və dövlət adamları, millət fədailəri olmuşlar. Bir həqiqət də var ki, onların bir qismi ayrı-ayrı şəxsiyyətlərə iman gətirmiş, onlara inanmış, bəziləri isə xalq, tarix və tale haqqında düşünmüşlər. Məsələn, yazırlar ki, bəşəriyyətin pərəstiş etdiyi iki dahi bəstəkardan "Motsart yalnız ayrı-ayrı şəxsiyyətlər üçün cavabdehlik daşıyırdı... Bethovenin işi-gücü isə tarix barədə və bütün bəşəriyyət barədə düşünmək idi".

Bu bölgü, bu münasibət meyarı bizim indiki demokratiya əsrində də özünü bütün təzadları ilə göstərməkdədir. Ayrı-ayrı şəxslər ətrafında fikir və siyasət formalaşdırmaq, yoxsa xalq və millət mənafeyini, tarixi inkişaf meyllərini ön plana çəkmək! Bu günün "olum ya ölüm" şüarı budur.

ABŞ prezidenti Corc Buş ölkənin istiqlaliyyət günü münasibətilə xalqa müraciətində "yeni təhlükə erası" ifadəsini işlətdi. Əfqanıstan və İraq üzərində hərbi qələbəni öydü. O, yeni dünya düzəni strateji planını qətiyyətlə davam etdirəcəyini bildirdi. Son onillikdə dünyanın yeganə superdövlətinə çevrilmiş ABŞ prezidentinin bu cür bəyanatlarla çıxış etməsi təbiidir. Lakin dünyada hadisələrin gedişinə başqa meyarla yanaşanlar da az deyil. "Sən saydığını say, amma görək fələk nə sayacaq" əsrlərin sınağından çıxmış xalq kəlamı da yeri gəldikcə təkrar edilir, yada salınır.

Dünyanı bir və ya bir qrup adamın arzusu ilə yenidən düzəltmək istəyi yeni deyil. Belə təşəbbüslər əvvəllərdə də olmuşdur. Tarixdən azçox xəbərdar olanlar bunu bilir. Elə yola saldığımız son yüzilliklərdə ABŞ prezidentləri Monro, Vilson, Ruzvelt, Trumen, Conson və başqalarının elan etdikləri fəlsəfi-nəzəri təlimlərə əsaslanan siyasi proqram xarakterli doktrinalar məlumdur. Tarixçilər və politoloqlar "Monro doktrinası" prezident Ceyms Monronun 1823-cü il dekabrın 2-də Konqresə göndərdiyi məktub-müraciətini, yəni Avropa dövlətlərinin Amerika ölkələrinin işlərinə qarışmasının yolverilməz olmasına dair proqramını tez-tez xatırlayırlar. Keçən əsrin 60-cı illərinin əvvəllərində Kuba böhranı da bu doktrina səbəbli yaranmış və dünyanı istilik nüvə müharibəsi həddinə çatdırmışdı. Yadda qalan doktrinalar sırasında prezident Trumenin adı ilə bağlı olanı da var.

1947-ci il martın 12-də prezident Trumen ABŞ konqresinə məktub-müraciətində kommunist təhlükəsilə qarşı-qarşıya duran Yunanıstan və Türkiyəyə 400 milyon dollar yardım edilməsini, kapitalist ölkələrinin və quruluşunun varlığının qorunmasına dair siyasi proqramın hə-

yata keçirilməsi məsələsini qoymuşdu.

Bütövlükdə ABŞ prezidentləri belə doktrinaların hazırlanması və geniş təbliğini sevirlər. Əlbəttə, elmi əsası və həyati gücü olan, reallıqlara əsaslanan doktrinalar dünyanın iqtisadi, ictimai-siyasi mənzərəsini dəyişməkdə, demokratik əsaslar üzərində qurulmasında çox böyük tarixi rol oynamışdır. Lakin hər atasının gözünü çıxardan Koroğlu olmadığı kimi hər doktrina irəli sürən dövlət adamı da tarixə düşmür. Yeni dünya düzəni doktrinası da zamanın sınaqlarından çıxmalıdır. Bununla əlaqədar fikir ayrılıqları da mövcuddur.

Bəzi mütəxəssislərin fikrincə "gələcəyi proqnozlaşdırmaq asan məsələdir və söhbət nə qədər uzaq gələcəkdən gedirsə, onun proqnozlaşdırılması bir o qədər asandır. Axı bu məşğuliyyət heç bir məsuliyyət tələb etmir: əvvələn, sizin proqnozlarınızın gerçəkləşdirilməsi vaxtı yetişəndə sizin proqnozlarınız heç kəsin yadına belə düşməyəcək; ikincisi, siz həmişə günahkar görkəm alıb səhvlərinizi etiraf edərək dəqiq öncəgörmənin mürəkkəb olmasından gileylənə bilərsiniz; üçüncüsü, öncəgörmələri ən dolaşıq formada söyləmək lazımdır. Məsələn, Nostradamusun dediklərini indiyə qədər heç kəs nə anlaya, nə də təkzib edə bilir".

Bu yaxınlarda dünyasını dəyişmiş dünyaca tanınmış yazıçı Vasil Bıkov 2002-ci ilin martında Almaniyada dərc olunmuş bir məqaləsində yaşadığımız dünya haqqındakı görüşlərini ifadə edərək yazmışdı: "Azadlıq - hər bir canlı varlığa anadangəlmə bəxş edilmiş ən başlıca mənəvi və fiziki dəyərdir. Bütün canlılar təbii mövcud olduqları bu mürəkkəb və qarmaqarışıq aləmdə nə qədər mümkündürsə, bu dəyərdən istifadə edirlər. Yalnız insan istisnadır: ona anadangəlmə bəxş edilmiş bu dəyər azlıq edir. İnsan bu dəyərin zəruriliyini tam anlayıb hiss edə bilməsi üçün o, həyat labirintinin dolanbaclarından keçməli, bəzən də bu labirintin datanlarının birində çaşıb-qalmalı olur. Belə halda o, elementar bioloji mövcudluq məqsədləri naminə bu vəziyyətlə barışır, təbiətin ona bəxş etdiyi azadlığı itirib, mövcud reallığa uyğunlaşır. Beləliklə, o, kütlənin, cəmiyyətin, elektoratın başqalarından heç nə ilə fərqlənməyən bir hissəsinə çevrilməli olur".

Corc Buş bəyan edir ki, müttəfiq qoşunlara qarşı hücumlara baxmayaraq Vaşinqton İraqda demokratik dövlət qurmaq barədə vədinə sadiqdir, tiran rejimi bir daha İraqa qayıtmayacaq, İraqdakı yenidənqurma uzunmüddətli və davamlı olacaq.

Yeni dünya düzəni yeni təhlükə erası şəraitində həyata keçirilməyə başlayır. Proqnoz vermək bizim gücümüz çatan iş deyil. Amma deyəsən bu xəmir də çox su aparacaq - onu indidən söyləmək olar, çünki köhnə dünya düzəni o qədər dərin kök atıb ki, onu istənilən səmtə yönəltmək üçün el gücü-sel gücü lazımdır. Bəşəriyyət buna hazırdırmı?!

**"Günay" 28, şənbə, 12 iyul 2003**

## C.HACIBƏYLİNİN JURNALİSTLƏRİMİZƏ TÖVSİYƏSİ

**1912-ci il noyabrın 28-də "Kaspi" qəzetində 21 yaşlı Ceyhunbəy Hacıbəyovun "Həsənbəy Məlikovun xatirəsi" sərlövhəli iri bir məqaləsi dərc olunmuşdur. Bu vaxtadək məlum səbəblər üzündən Həsənbəy Zərdabinin tədqiqatçıları bu qiymətli, hər cəhətdən maraqlı yazıya diqqət verməmişlər. Son tədqiqatlarda, xüsusilə C.Hacıbəyli irsini araşdıranlar bu yazı barədə ötəri məlumatla kifayətlənmişlər. Amma nahaq. H.Zərdabi haqqında bu vaxta qədər yazılanlar içərisində C.Hacıbəylinin bu məqaləsi dərinliyi, elmi-nəzəri səviyyəsi, vətənpərvərlik ruhu və milli mətbuat və jurnalistikamızın yaradıcısına plan böyük və hədsiz məhəbbətilə seçilir. İyulun 22-i yəni "Əkinçi"nin nəşrə başladığı gün indi müstəqil Azərbaycanda mətbuat günü kimi qeyd edilir. Bu bayramla əlaqədar C.Hacıbəylinin adı çəkilən məqaləsini oxuculara təqdim edirəm.**

### *HƏSƏN BƏY MƏLİKOVUN XATİRƏSİNƏ*

Bu gün, noyabrın 28-də Qafqaz müsəlmanlarının Həsən bəy Məlikovu itirdikləri gündən beş il keçir.

Hər bir müsəlman jurnalisti hər il bu əlamətdar tarixi ictimai şüurun, ictimai ruhun bir növ oyanışına çağırış günü kimi qeyd etməyə borcludur.

Əsrarəngiz bir misteriya olan ölüm, insan psixikasını bu və ya digər səmtə yönəltmək üçün müxtəlif mənbələrə malikdir. Bəzən bir rəhbər öləndə onun qoşunları sanki yetim,köməksiz qalır, ağciyərlik hissi sağlam şüuru üstələyir və əsgərlər qaçmağa başlayır; lakin bəzən də elə olur ki, rəhbərin ölümü əsgərləri vahiməyə salmır, əksinə, onları gümrahlaşdırır: rəhbərlərinin onlardan ötrü müqəddəs sayılmalı bir ideya naminə həlak olmasını dərk etmələri, qoşunda ruh yüksəkliyi yaradır və o, psixi ekstaz vəziyyətində, uğrunda rəhbərin həlak olduğu işi başa çatdırır.

Biz müsəlmanlar öz rəhbərlərimizi itirəndə bu iki hissdən hansının bizə hakim kəsilməsi barədə danışmayacayıq. Bu, həddən artıq aydındır. 28 noyabr tarixi bizdən ötrü təkcə itirdiyimiz Həsən bəy Məlikovun matəm günü deyil, lakin bu tarix bizə sanki nəyisə xatırladaraq göstərir ki, bu hadisə bizim zehni duyğularımız, mənəvi vəzifələrimiz,

üçün həyəcan təbili olmalıdır.

Buna görə də bir daha təkrarlayıram, hər bir müsəlman jurnalisti hər il bu 28 noyabr tarixini qeyd etməyə, Həsən bəyin xatirəsini heç olmazsa, onun aşağıdakı fikrini rəhbər tutaraq öz sözləri ilə yad etməyə borcludur:

"Cüzi su şırnağı zaman keçdikcə onun altına qoyulmuş böyük daşı dəldiyi kimi, haqq söz də tədricən insanın beyninə yeriyərək nəhayət, onun şüuruna təsir göstərir".

Həsən bəy bütün həyatını öz xalqının tərəqqisinə həsr etdiyi üçün bu ən ictimai hərəkatın bir sıra cəhətləri də onun xatirəsi ilə bağlıdır. Mərhumu yad etmək - onun adı ilə sıx bağlı olan bir sıra ictimai məsələlərə toxunmaq deməkdir.

Biz - mədəniyyətsiz ataların indi mədəni olmuş övladları hər hansı



***Hər il 22 iyul tarixində Azərbaycan jurnalistləri milli mətbuatımızın banisi H.B.Zərdabinin Bakıda Fəxri xiyabandakı qəbrini ziyarət edirlər.***

nəcib ictimai məqsədlər naminə çıxış edərkən qarşımıza ən cüzi bir maneə çıxdıqda dərhal arxamızı çevirib, ağzı yanmış adam görkəmi alaraq tələsik oradan uzaqlaşırıq. Başladığımız işləri başa çatdırmaq üçün hər hansı şəraitdə zəruri olan əzmkarlıq, ruh yüksəkliyi bizdə yoxdur. Biz yalnız ilk maneə ilə, istər zahiri, istərsə də daxili maneə olsun, ilk maneə ilə üzləşənə qədər işləyə bilirik. Bundan əlavə, bizim bütün əməllərimizdə şəxsi "mənlik" bütün başqa təşəbbüsləri üstələyir. Bu "mənliyin" xatirinə biz şücaət də göstərə bilərik, birtəhər qaydaya düşməkdə olan kollektiv işin bütün səmərəsini heçə də endirə bilərik.

Cəmiyyətin rifahı naminə bizim verdiyimiz qurbanlar bundan artıq olmur.

Buna görə də biz hətta bir dəfə yaratdığımız, düzəltdiyimiz şeyləri də axıra çatdırıb, inkişaf etdirə bilmirik. Hələlik yaradılmamış yeni şeylər barədə isə heç danışmağa dəyməz, çünki bundan ötrü təşəbbüs və bu təşəbbüsün özünün həyata keçirilməsi üçün daha bəzi şeylər lazımdır.

Belə bir halda həm zəngin təşəbbüsə, həm də ən namünasib dövrdə, ən hazırlıqsız, ən qeyri-mədəni cəmiyyətdə həmin təşəbbüsü həyata keçirmək üçün kifayət qədər əzmkarlığa malik olan bu adam bizim nəzərimizdə necə böyük bir dahi olmalıdır! Bu dahi özü həmin cəmiyyəti belə səciyyələndirmişdi: "Çağırıram -gəlmir, göstərirəm - görmür, deyirəm - eşitmir".

Müsəlmanlar arasında öz imkansız qardaşlarına, yoxsullara, yetimlərə və ən başlıcası, elm və maarif axtaranlara hər hansı ictimai yardım təşkilatı yaratmağın zəruriliyini görən Həsən bəy başqa qonşu xalqlardan nümunə götürərək xeyriyyə cəmiyyəti yaratmaq fikrinə düşmüşdü.

Bəs, nəticəsi nə oldu? O, öz niyyətini həyata keçirmək üçün nizamnamə işləyib hazırladı və onu təsdiq etməyə nail olduqdan sonra qəbz kitabçasını qoltuğuna vurub Şuşa bəylərinin və xanlarının, Şamaxı mollalarının, Dərbənd tacirlərinin, Nuxa kəndlilərinin mənzillərinə gedərək hər bir qapını döyüb, Qafqaz müsəlmanlarının bu ilk övladına köməyə gəlməyi təklif etdi.

Şübhəsiz, bu nəcib missioner öz müasiri olan cəmiyyətə həddən artıq yaxşı bələd idi ki, belə bir qəribə piliqrimi görəndə çoxlarının bundan daha qəribə təklif eşidəndə sifətlərinə onun halına acımaq və ya nifrət ifadəsi verəcəklərinə əmin olmayaydı. Özü də o, nə isə xahiş edən hər bir canlını özündən qat-qat aşağı hesab edən feodal quruluşunun insanları tərəfindən bu cür kobudluqla dəfələrlə qarşılaşmışdı; lakin insanların bu cür imtinasında, onların soyuq münasibətlərində, nifrətli təbəssümlərində indi bizim düşündüyümüz kimi, öz mənliyinin təhqir edilməsini deyil, mədəniyyətsizliyin qurbanları olan bu adamların özlərinin halına acıyan əsl intiligent kimi bunu edirdi. Onun zehnini məşğul edən məqsəd o qədər nəcib, o qədər uca idi ki, şəxsi narazılıqları onu başladığı missiyadan üz döndərməyə məcbur edə bilməzdi.

Və cəmiyyətin bu münasibətinə, bizlərdə "heysiyyət" məsələsi adlana biləcək məsələyə xalis həyati əhəmiyyətli bir tikə çörək məsələsi də əlavə ediləndə Həsən bəy yenə öz həyati mənafelərini ictimai mənafelərə qurban vermək üçün özündə cəsarət tapa bildi. Mahalda onu qəti seçim qarşısında qoyaraq təklif edəndə "ki, ya Yekaterino-

darda, yəni Qafqazın hüdudlarının kənarlarında xidmət etsin, ya da istefa versin, Həsən bəy bunlardan ikincisini üstün tutdu.

Çünki öz xalqından kənarda yaşaya bilməzdi.

* * *

O vaxtdan bəri bizim müsəlmanların həyatında çox şey dəyişib. Adamlar ətraf aləmə daha real nəzərlə baxmağa başlayıblar, fanatizm öz yerini dini dözümlülüyə və sağlam düşüncəyə vermişdir. Lakin insanların dünya baxışlarında və ictimai münasibətlərdə bu dəyişikliklərə baxmayaraq biz əsası Həsən bəy tərəfindən bu qədər əziyyət və məhrumiyyətlər bahasına qoyulmuş müqəddəs həyat proqramlarını şərəflə yerinə yetirə bilmişikmi?

Zənnimcə, yox!

30-40 il bundan əvvəl Həsən bəyin şəxsiyyəti timsalında təkamül qanunu bizi məcbur etmişdi ki, həyatın bəzi yeni şərtlərini qəbul edək, ictimai proqrama yeni bəndlər daxil edək.

Bəs nə üçün elə həmin təkamül qanunu bizim aramızda onun tələb etdiyi islahatları həyata keçirmək üçün yeni layiqli missionerlər yetişdirmir? Əgər 30-40 il bundan əvvəl xeyriyyə və maarifçilik cəmiyyətlərinə, teatra və mətbuata ehtiyac vardısa, bəs indi nəyə görə nəinki yeni tələbatlar üzə çıxmır, hətta bu cür ehtiyaclar hiss də edilmir, heç olmazsa, cəmiyyətin mədəni həyatında inkişafa müvafiq olaraq bu təşəbbüsləri bir qədər əsaslı şəkildə inkişaf etdirməyə, genişləndirməyə nə üçün ehtiyac duyulmur?

* * *

Mən mərhum Həsən bəyin şəxsiyyətinə, onun tərcümeyi-halına aid məlumatlardan danışmayacağam, bütün həyatını öz vətəninə və öz vətəninə və öz xalqına həsr etmiş bu insanın hansı vəziyyətdə bizi tərk etməsindən danışmayacağam; müsəlman cəmiyyətinin bu insanın xatirəsinə və onun ailəsinin aqibətinə heyrətamiz münasibəti barədə danışmayacağam; Həsən bəyin xatirəsini, heç olmazsa, məzarı üstündə kiçik bir xatirə lövhəsi vurmaqla əbədiləşdirmək barədə yalnız bir dəfə fikir söyləmiş ziyalılarımızın nümayəndələrindən soruşmayacağam ki, sizin o fikrinizin axırı nə oldu? Nə üçün o fikri unutdunuz?

Bütün bu suallardan yan keçəcəyəm, çünki şəxsi məmnunluğunun rəhnini yalnız ictimai səadətdə görən mərhumun özünün baxışlarından geri qalmaq istəmirəm.

Əksinə, mərhumun xatirəsinin bu cür unudulmasını mən Bibliyada təsvir edilən müvafiq bir ucalıq hesab edirəm. Bu unutqanlıq əsasın-

da bütün həyatını öz xalqına xidmətə həsr etmiş və əvəzində istər sağlığında, istərsə də ölümündən sonra heç bir haqq almamış insan barəsində gözəl bir rəvayət yaratmaq olar.

Həsən bəyin həyatı kimi onun ölümü də cəmiyyətə qurban verilməli imiş.

Bu vəziyyətdə nə isə mistik bir məqam var. Müsəlman xalqının böyük əksəriyyəti, öz xalqını xanların və hökmdarların özbaşınalığından xilas etmiş cəngavər oğullarının şərəfinə mədhiyyələr qoşan xalq hələ Həsən bəyin qədrini bilməz. Kütlə bu cür xadimləri qiymətləndirməyə hələ hazır deyil.

Xalq kütlələri daha mədəni olanda, onlar bəşər mövcudiyyətinin mənəvi sahəsində göstərilmiş şücaətləri də qiymətləndirmək iqtidarında olanda, heç şübhəsiz, bu böyük cəfakeşin xatirəsi lazımınca yad ediləcəkdir.

Mən isə 28 noyabr tarixini xatırladanda bizim cəmiyyətin diqqətini yalnız buna cəlb etmək istərdim ki, bizim həyatımızın mədəni cəhətlərinin pionerinin xatirəsini əbədiləşdirməyin ən yaxşı üsulu - uğrunda mərhum Həsən bəyin bütün ömrü boyu mübarizə apardığı ideyanı inkişaf etdirib başa çatdırmağa cəhd göstərmək olardı.

İndi bizim müşkül hesab etdiyimiz məsələlər, islahatlar, əslində tamamilə mümkün şeylərdir. Həsən bəyin dövründə teatr, mətbuat və ictimai xeyriyyəçilik nə qədər çətinidisə, bu məsələlər də eyni ilə o cür xarakter daşıyır. Lakin Həsən bəy bunu edə bilmişdi.

Bir də, sizə elə gəlmirmi ki, bizdə şəxsi həyatın inkişaf və tərəqqisi ictimai həyatı çox-çox qabaqlayıb? Bu isə heç də normal hal deyil, çünki şəxsi həyatın əsası laxlamışdır. Buna görə də şübhə yoxdur ki, yalnız o xalq, o cəmiyyət tərəqqi edir ki, onlar bir-birinə möhkəm arxa durmaqla, sarsılmaz təməl əsasında mənəvi cəhətdən sıx birləşərək yaşayır.

30-40 il bundan əvvəl Həsən bəy mədəni həyatın tələblərini nəzərə alaraq cəmiyyəti-xeyriyyə, mətbuat və teatr yaratmağın zəruriliyini bəyan etmişdisə, indi həmin mədəni həyat əvvəlkiləri təkmilləşdirməklə bərabər yeni tələblər təqdim edir.

Əlamətdar 28 noyabr tarixi bizə bunları göstərir.

**Dağıstani (Ceyhun HACIBƏYLİ)**
*"Kaspi" qəzeti, 28 noyabr, 1912-ci il, N-269*

**"Günay" 29, şənbə, 19 iyul 2003**

## AZƏRBAYCANDA NEÇƏ QAÇAQ NƏBİ OLUB?

1915-ci il sentyabrın 30-da Bakıda gündəlik çıxan "Yeni İqbal" qəzetinin 131-ci nömrəsində "Qaçaq Nəbinin qətli" sərlövhəli bir yazı dərc olunmuşdur. Yazıda deyilir: "Uzun müddət təqib olunduqdan sonra bu günlərdə Qaçaq Nəbi qətl edilmişdir. Nəbi Gəncə quberniyası Mingəçevir kəndi yaxınlığında öldürülmüşdür. Nəbi 10 ildən artıq qaçaqlıq edib, böyük bir dəstə düzəldərək Gəncə quberniyasında neçə dəfə polis tərəfindən göndərilən dəstələr ilə atışmalı olmuşdur. Atışmaların birində pristav Bağdasovu qətl etmişdir. Nəbinin meyitini bacısı tanımışdır".

Azərbaycan Sovet Ensiklopediyasında Qaçaq Nəbi (Nəbi Alı oğlu) haqqında verilmiş yazıda isə oxuyuruq ki, o, təqribən 1854-cü ildə Zəngəzur qəzasının Aşağı Mollu kəndində (Qubadlı rayonunda) anadan olub, 1896-cı il martın 12-də qətlə yetirilmişdir, 1897-ci ildə isə onun dəstəsi dağıdılmışdı. Görünür, söhbət gedən xalq qəhrəmanı Qaçaq Nəbi ilə yanaşı, sonralar bu adla fəaliyyət göstərən qaçaq dəstələri də olmuşdur.

Hər halda mütəxəssislərin nəzərinə bu faktı da çatdırmaq istəyirəm.

**"Günay" N-130, 26.VII. 2003**

## "BAŞ ÜSTƏ"LƏR NƏ QƏDƏR OLAR?

Vəzifəli şəxslərin keçirdikləri və sonra televiziya ilə verilən yığıncaqlarda ən çox işlənən ifadə "baş üstə"dir. Mən bu "baş üstə"lərə adətən əhəmiyyət vermirdim. Lakin elə ki, Üzeyir bəyin "Yeni İqbal" qəzetinin 1915-ci il oktyabrın 11-ci nömrəsindəki "Sonra görüşərik..." sərlövhəli felyetonunu oxudum, gördüm ki, bu da köhnə adət, köhnə xəstəlik imiş. "Baş üstə" ruslardan bizim dilimizə keçmiş "sabah gəl" ifadələri ilə birləşib qatı bürokratik səciyyə almış, riyakarlıq, yalan, yaltaqlıq və məddahlıq rəmzinə çevrilmişdir. Üzeyir bəyin atəş açdığı bu bəla indi də yaşayır, cəmiyyətin və vətəndaşların həyatını zəhərləməkdə davam edir. İlk baxışda adi görünən bu növ bəlalardan can qurtarmadan sivilizasiyalı yaşayışa nail olmaq mümkün deyil. Məhz bunu nəzərə alaraq həmin felyetonu oxumağı və düşünməyi sizə də məsləhət bilirəm.

## *ÜZEYİR HACIBƏYOV "SONRA GÖRÜŞƏRİK...*

İşlərimizin çoxunu çətinə salan və axırda min cürə əngəl törədən kəlamın biri də budur: "Sonra görüşərik..."

Hamıya məlumdur ki, qaranlıq pisdir, amma işıq yaxşıdır...

İşlərimiz - istər ümumi, istər xüsusi - gərək aydın olsun.

* * *

- Kərbəlayı Nəsir, bizə mal göndər.
- Baş üstə.
- Balam, bəs qiyməti?
- Əşi, sonra görüşərik.

Sonra görüşərlər: mal alan ürəyində, məsələn, beş manat tutub, mal satan on beş manat. Sonra ki bunlar filvaqe (doğrudan) "görüşürlər".

- İş dolaşığa düşür: iki ürək bir-birini tutmayır, cəncəl əmələ gəlir, əngəl törədir. Axırda da dava-şava çıxır. Səbəbi də nədir? Qaranlıq iş: "Sonra görüşərik".

## *"EYİBDİR"*

Biri də budur.

Müsəlman tayfası ələlümüm eyibi gözləyəndir. Ancaq bu xasiyyət bizdə alahı cürədir, qeyri-tayfalarda olan kimi deyildir.

Məsələn, yevropalı bir adam boynunda "qalstuk" adlanan boyunbağı olmasa - arvad hüzuruna çıxmaz. Amma bizdə şalvarbağı sallana-sallana arvad məclisindən keçməyin eybi yoxdur.

Bunun əvəzində bizdə də bir adamın təklifini rədd etmək eyibdir.

Gərək hər bir təklif olunsa deyəsən ki: "Baş üstə!"

İndi sonra bu "baş üstə"yə əməl edəcəksən, ya etməyəcəksən - o başqa məsələdir.

Məsələn, birisi gəlib sənə deyir ki, mənim üçün filan yerdə filan qulluq tap.

Gərək cavab verəsən ki: "Baş üstə". Çünki özgə cürə cavab versən eyib olar.

Sonrasın heç qulluğu da axtarma, heç axtarmaq fikrinə də gəlməsin, onun zərəri yoxdur. Sonra gəlib desə ki, "bəs qulluq necə oldu?" Denən ki, "hazırdır, sabah gəl".

Sabah ki, gəldi, nökərə denən, desin ki, evdə yoxdur. Bir həftə boylə keçsin. Birdən işdir, adamdır, bazarda görüşsən, denən ki, mən o səfər sizə dedim ki, sabah zəhmət çəkin gəlin, siz də gəlmədiniz. Qulluq əldən çıxdı.

Cavab versə ki, gəldim evdə yox idiniz, denən ki, görünür ki, axmaq oğlu nökər səni tanımayıbdır. Sonra da yenə "eyib" olmamaq üçün denən ki, zərər yoxdur, yenə qulluq axtarıb taparam. Qərəz, bu nəhv (sayaq) ilə dolanarsan o zamana qədər ki, axırda ya sənin əcəlin tamam olar və ya səndən qulluq təvəqqe edənin.

Hər halda "eyib" iş görüb deməzsən ki, balam, mən qulluq tapa bilmərəm. Yoxsa ki, təvəqqe sahibi inciyər və "eyib" olar.

**Filankəs (Ü.Hacıbəyov)**
"Yeni İqbal" qəz., 11 oktyabr 1915, N-138

**"Günay", N31, şənbə, 2 avqust, 2003**

## DİN BÖYÜK BİR İCTİMAİ AMİLDİR, YOXSA DİL?

**Bu yaxınlarda tele-verilişlərdən birində cavan bir jurnalist bəzi nadanların M.F.Axundov, H.Zərdabi, Ü.Hacıbəyov kimi milli iftixarlarımız sayılan tarixi şəxsiyyətlərimiz haqqında yazdıqları və dedikləri hədyanlara haqq qazandıraraq iddia etdi ki, demokratiya şəraitində hər bir kəsin istənilən adama, kim olmasından asılı olmayaraq öz münasibətini bildirmək haqqı var. Demokratiya və aşkarlığın bayağı şəkildə şərhi və anlamı meyli yeni deyil, necə ki, inkarçılıq meyli. Bolşeviklərin SSRİ-də, kommunistlərin Çində həyata keçirdikləri "mədəni inqilabların" məhvedici, dağıdıcı nəticələri və fəsadları məlumdur.**

**Müşahidə etdiyimiz digər bir meyl məddahlıq azarına tutulub dövlət və siyasət adamlarını gözdən salmağa çalışan alimnümaların iddialarıdır. Məsələn, dilçi bir alim M.Ə.Rəsulzadəni gözdən salmaq üçün yazır ki, onun ali təhsili olmamışdır, universitet qurtarmamışdır və buna görə də böyük siyasi xadim hesab edilə bilməz. Belə çıxır ki, dahiliyin ilkin şərti universitet diplomudur. Bəs onda L.N.Tolstoy, Q.V.Belinski, İ.V.Stalin, Mao Tze Dun, M.F.Axundov, Ü.Hacıbəyov, C. Məmmədquluzadə, M.Ə.Sabir - bu**

**siyahını artırmaq da olar - necə olsun? Həm də görünür bələlərinin təhsil, o cümlədən ali təhsil tarixindən xəbərləri yoxdur. Bu sahənin ən yaxşı tədqiqatçılarından mərhum professor Əlyar Qarabağlı yazırdı: "Azərbaycanda ilk məscid məktəbləri VII əsrdən inkişafa başlamışdır. O zamanlar bütün islam ölkələrində, o cümlədən Azərbaycanda ibtidai və ali təhsil sahəsində fərdi təhsil sistemi əsas yer tutmuşdur. O zamanlar riyaziyyat, fəlsəfə, tibb, məntiq, əxlaq, coğrafiya, nəhv, musiqi və s. fənnlər üzrə müxtəlif dillərdə elmi əsərlərdən geniş istifadə olunurdu".**

**M.Ə.Rəsulzadə haqqında əsassız iddialar irəli sürənlərə məsləhətim budur ki, onun yazdıqlarını diqqətlə oxusunlar. Məsələn, 90 il bundan əvvəl -1913-cü il avqustun 10-da "Şəlalə" jurnalının 27-ci nömrəsində onun "Dil ictimai mühüm bir amil" məqaləsini. Elmi-nəzəri, ictimai-siyasi baxımdan, tarixlik nöqteyi-nəzərindən, öz dövründə və sonralar ikinci belə mühüm bir yazıya rast gəlibləsə, göstərsinlər. Biz də oxuyaq. Tarixi şəxsiyyətlərə qiymət vermək hər nadanın işi deyil.**

## *DİL İCTİMAİ MÜHÜM BİR AMİL*

İnsanlar arasında cameiyyət (birlik) vücuda gətirən iki mühüm amil vardır. Bunlardan biri din, digəri də dildir. Məlum olduğu üzrə din müxtəlif dillərlə mütəkəllim (dini ehkam mütəxəssisləri) və müxtəlif cinsdən olanları birləşdirdiyi halda, dil ancaq bir növdən və bir cinsdən olan insanları birləşdirir.

Dinmi böyük bir amili-ictimaidir, yoxsa dil? Daha vazeh (aydın) təbirlə - dinmi mətin bir cameiyyət (toplum) vücuda gətirə bilər, yoxsa dil? Buna özümüz bir cavab verməzdən əvvəl islam aləmində məşhur olan Şeyx Cəmaləddin Əfğaninin bir mütaliəsini (müddəasını) nəql edəcəyiz. Dövri-inhitat (tənəzzül dövrü) keçirməkdə olan aləmi-islamda əksəriyyətlə məqbul görünən bir nəzəriyyəyə rəğmən mərhum Şeyx siyasi ittihadi - islam (islam birliyi) məsləkinin məbdəi (başlanğıcı) olmaq həsbilə dinə və onun ictimai qabiliyyətinə ən çox əhəmiyyət verənlərdən olduğu halda, hindistanlılara xitabən yazmış olduğu bir məqaləsində deyir ki: "İnsanlar arasında daireyi-şümuli - vase olub (əhatə dairəsi geniş olub) bir çox əfradi (fərdləri) bir-birinə bağlayan iki rabitə vardır: biri dil vəhdəti (vəhdətilisan) digər təbirlə cins və ya cins birliyi (vəhdəticinsiyyə) (Şeyx cins kəlməsilə irq və ya milliyyət mənasını qəsd edirlər), digəri din. Dil birliyinin və yəni vəhdəti-cinsiy-

yənin (irqin, milliyyətin) heç şübhə yoxdur ki, dünyadakı bəqa (varlıq) və nəbati (bitkiyə aid olan) dindən daha davamlıdır, çünki az bir zamanda dəyişməz. Halbuki, ikincisi böylə deyildir. Bir dil üzrə danışan irqi görürük ki, minillik bir müddət əsnasında dil vəhdətindən ibarət olan cinsiyyətə bir xələl gəlmədiyi halda, iki-üç dəfə din dəyişir. Deyə bilərik ki, dünya işlərində dil birliyinin təsiri din birliyindən daha qüvvətlidir. Bunun üçündür ki, xristian bir yunanlı bütpərəst Əflatun, Ərəstun və Sokratla mərbutiyyətindən (bağlılığından) naşi təfaxür (fəxr) edir. Halbuki, hindi bir xristianin din birliyindən naşi (səbəbli) xristian Nyuton və Qaliley ilə iftixar etməsi heç də yaratmaz".

Əvət dil təbiidir, ona görə əsildir, millətlə bərabər hasil olur. Dilsiz bir millət olmadığı kimi, millətsiz bir dil olmaz.

Dil bir milliyyətin yeganə rüknü (istinadgahı) deyildir. Bir millət vucuda gəlmək üçün dili ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bunların ən mühümmüdür. Dil milliyyət həyatının ən mütəkamil bir şəklidir. Dil bir millətin ən qiymətli sərvəti, həyatının ən fəyyaz (son dərəcə feyz və bərəkət verən) mənbəini təşkil edir. Bir milləti dildən yaxşı təmsil edən olmaz. Bugünkü milliyyət məfhumuna dillə bərabər din, tarix və ənənat da (ənənələr də) daxildir. Qədimdə isə "dil" demək "millət" demək hökmündə idi. Məhəlli qəzetlərin birisində (rusca qəzetlərdən biri) Dil milliyyətin üç rübünü təşkil edir" - deyə dilin milliyyət təşkil edən amillər miyanında (ortasında) əhəmiyyəti - fövqəladəsi təyin olunurdu. Bu həqiqətən böylədir. Yenə məzkur qəzetə mühərririnin təbirini işlədirəm:

"Dil - bu bir millətdir, millətin üç rübü dildir". Milliyyət naminə vaqe olan mübarizələr bir kərə tədqiq olunarsa, görünər ki, ən çox müdafiə olunan dildir. Milliyyət və mədəniyyəti-milliyyə naminə icra olunan mübarizələrin dil və dilə məçbut olan (bağlı olan) məktəb, ədəbiyyat, mətbuat uğrunda olduğu aşkardır.

Həqiqətən dil milləti hər şeydən daha gözəl təmsil edir. Millət dil vasitəsi ilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilir. Adəm oğlunun sözü bəzi riyazi və fənni məfhumları andıran əlcəbr və ya kimya əlamətləri kimi ölü hərflər deyildir. Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar, tərəqqi edər. "Esperanto" və "volopok" təbii bir dil deyildir və heç bir zaman da bir ola bilməyəcəyini iddia edən mütəfənninlər (elm adamları) çoxdur. Bir dil bir alimin xüsusi surətdə ixtira elədiyi bir şey deyildir. Dil milyonlarla insanların və bir çox nəsillərin müştərək vucuda gətirdikləri bir mövhibədir (nemətdir). Dil qanlı və canlı, adətən üzvi və zihəyaf (diri) bir vücuddur. Dil millətin canıdır. Dil millətin məntiqi, ruhi və onun şəxsiyyəti - müş-

tərəkəsidir.

İştə bunun üçündür ki, bir dili öldürmək, bir milləti öldürmək deməkdir. Və yenə buna görədir ki, hər bir təmsil həmin dili təzyiq etməklə başlar. Dil durduqca, millət də durar, öldümü, millət də canını bağışlar. Dillərini unutmağa başlayan millətlər axırı qəti bir ölüm olan fəlakətli bir yola girmişlərdir.

Bu qədər bir əhəmiyyətə malik olan dilin mühafizəsi təbii dil sahiblərinə ən çox lazım olan şeylərdən biri, bəlkə də birincisidir. Çünki o, dindən daha qüvvətli bir amili - ittihad və millətin ən doğru bir mümessili (təmsil edəni) olduğu kimi, millətlərin yeganə vəsileyi-tərəqqisidir də. Millətləri maddi cəhətdən yüksəltmək, mədəni və mütərəqqi qılmaq üçün dinlərindən deyil, dillərindən istifadə edilir. Hətta dinin tərvici (tətbiqi) üçün belə dilə ehtiyac vardır.

**Bir millətin həyatında maddətən və mənən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə idik. Tamamilə farslaşdığımız bir zamanlar vardı. Türk ədəbiyyatı bilməzdik. Türkcə avama məxsus bir dil ədd olunur, xass (seçilmişlər) farsi və ərəbi bilməsilə iftixar edərdi. Sonra Füzuli əleyhirrəhmənin təsiri-fəyyazı təhtində yetişən bir çox azərbaycanlı türk şairləri bu təhlükəli nisyanın (unutqanlığın) önünü aldılar, "yaman-yaxşı" bir ədəbiyyat vücuda gətirdilər.**

Türkçülük edən bugünkü cavanlarımız "İran məhsulu" ədd etdikləri (saydıqları) azərbaycanlı raciləri, dilsuzları, qumru və dəxilləri bir nəzəri-istixfaf (saymamazlıq) ilə görürlərsə də, əminəm ki, irəlidə Azərbaycan türklərinin gərək milli tarixi-intibahlarını və gərək tarixi-ədəbiyyatlarını yazmaq sədədinə (fikrinə) düşən ciddi mühərrirlər lazım gələn təqdiratı onlardan əsirgəməyəcəklərdir.

Fəqət mövzumuzdan ayrılaraq: dilin mühüm bir amili-ictimai olmasını isbat etmək sədədində idik. Təbii ki, bu xüsusda daha ziyadə söz söyləmək olardı. Fəqət məqaləmiz ona müsaid deyildir.

Yalnız imzanı atmadan əvvəl fövqəladə əhəmiyyət verdiyimiz bir şeydən daha bəhs etmək istəyirik.

Məlum olduğu üzrə dillər daimən iki mühüm çənbərə (doğanağa) malik olmuşlardır. Biri danışıq (əvam) dili, digəri də ədəbi yazı (xass) dili.

Qanun təkamüli-ictimaiyyətə də şamildir. İctimaiyyətdə hər bir şeyin müəyyən bir təkamülü vardır. Məsələn, bü gün cümhuriyyət şəklini almış olan hökumət üsuli-idarələri dövri-bədavətdə (köçərilik dövründə) mövcud əşirət (qəbilə) atasının iqtidar və hökuməti-mütləqəsinin mütəkamil bir şəklidir. Təməddünün (tərəqqinin) asar (əsərləri) və

füyuzatı, xüsusən, mənəviyyat əvvəlcə məhdud əllərin inhisarında qalmış, sonra get-gedə vüsətlənmiş və qəbilələrə, bütün millətə təmsil olunmuşdur. İdareyi-hökumətdə əvvəl bir şəxsin haqqı ədd olunarkən, sonra bütün millətin də bu haqqa şərik olduğu əsas qəbul olundu. Din də, elm də, qismən dil də (dilin yazı qismi) böylə olmuşdur. Bir zaman vardı ki, din rəyasəti, elm, fənn və təhlir ancaq "kahinlər"ə məxsus idi. Onların inhisarında idi. O zamanların mədəniyyətinə "kahinlər mədəniyyəti" deyilir. Sonra siyasətdə olduğu kimi sairə xüsuslarda da demokratizm (inamiyyət) hüsula gəldi. Əvvəlcə yalnız kahin vasitəsilə Allaha mütəvəssil olmaq qabil ikən, sonralar hər kəs özü Allahına müraciət edə bildi və nəhayət din şəxsi və vicdani bir əmr olaraq tələqqi olundu. Öylədə yazı, əvvəlcə kahinlərə məxsus ikən, sonra ümumiləşdi. Və hətta olduğu üzrə bəzi mütərəqqi məmləkətlər də maarifi-ibtidaiyyə təhsili qanunla məcburiyyət təhtinə belə alındı.

Bunun üçündür ki, bədəvi bir halda yaşayan bəzi tayfalara təsadüf olunur ki, danışıq dilləri olduğu halda, yazı dilləri yoxdur. Və yenə lüzumi dərəcə tərəqqi etməyən millətlər vardır ki, onlarda yazı dili varsa da, danışıq dilindən çox fərqlidir.

Türkcənin indiki halı da təəssüf ki, böylədir. Yazı dilinin danışıq dilindən fərqi sairə mədəni dillərdə olan fərqdən çoxdur. Dilimizi həqiqətən də millətimizin ruhu və onun vasiteyi-beçası məqamında görmək istəyirsək və onu cameiyyəti - milliyyəmizdə ən mühüm bir ittihad və tərəqqi amili hesab edirsək, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyız. Bu xüsusda da başqa bir vaxt.

**M.Ə. RƏSULZADƏ,**
*"Şəlalə" jur. 10 avqust 1913, N- 27*

**"Günay" 32, şənbə, 9 avqust 2003**

# ZAMANIN İMTAHANI -16 SƏHV SÖZ, MİN BİR YALAN

Çox əsrarəngiz bir dövrdə yaşayırıq. Sürətlə inkişaf etməkdə olan informasiya texnologiyası dünyada cərəyan edən hadisələri elə anındaca seyr etmək imkanı yaratmışdır. Bu proses dünyanın həqiqi demokratik informasiyalı cəmiyyət ölkələri sakinləri üçün qlobal səciyyə daşımaqda, şəxsi və ictimai həyatın ayrılmaz vəhdəti kimi formalaşmaqdadır. Dünyada şəffaflıq, aşkarlıq, ictimai nəzarət getdikcə real gücə çevrilir. Yalan, aldatmaq, kələk, dezinformasiya kimi neqativ hallara qarşı ictimai rəy kəskinləşir. Qısası 21-ci yüzillik öz hüquqi, mənəvi-əxlaqi, insani prinsiplərini irəli sürməkdədir. Bu prosesdə kütləvi ünsiyyət vasitələrinin rolu və imkanları da hədsiz dərəcədə artmaqda və yüksəlməkdədir. Belə bir informasiyalılıq və aşkarlıq şəraitində dövlət və siyasət adamlarının keçən əsrlərin riyakarlıq, uydurma, yalan üsul və metodikalarından, əvvəlcədən düşünülmüş saxtakar fakt və sənədlərdən istifadə ilə ictimaiyyəti, xalqı aldatmaq vasitələrinə əl atmaları getdikcə çətinləşməkdə, alt-üst olmaqdadır. Yalanın və saxtakarlığın ömrü qısalmaqda, imkanları daralmaqdadır. Əlbəttə, söhbət totalitar və avtoritar rejimlərdən, diktatorluq üsul-idarəsindən, demokratiya adına müxtəlif formalı inzibati-amirlik sistemlərindən getmir. ABŞ və İngiltərədə İraq əməliyyatı ilə əlaqədar 16 sözdən ibarət bir "səhvin" ABŞ prezidentinin bu il yanvarın 21-də xalqa ənənəvi illik "ölkənin vəziyyəti haqda"kı müraciətində səslənməsindən gedir. ABŞ prezidenti Corc Buş söhbət gedən müraciətində bildirmişdi: "Britaniya hökuməti son dövrlər Səddam Hüseynin Afrikadan böyük həcmdə uran almağa çalışdığı barədə informasiya əldə edib".

Bu iddia, bu 16 sözdə ifadə edilən fakt indi məlum olur ki, prezidentə məruzə hazırlayanlar tərəfindən, daha doğrusu, Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən yoxlanılmadan mətnə daxil edilib. Prezident də 11 sentyabr hadisələrindən sonra kütləvi qorxu və xofa düşən amerikalıları inandırmağa çalışıb ki, əgər İraqa hərbi müdaxilə edib Səddam Hüseyn rejimini devirməsək, İraq atom silahına malik olub ABŞ-a hücum çəkə bilər. Əlbəttə, İraqda kütləvi qırğın silahının digər kimyəvi, bioloji və s. növlərinin olduğunu da bura əlavə edərək hərbi-psixoz kampaniyasına xüsusi kəskinlik və inandırıcılıq verilmişdi. İndi İraq işğal olunub. Ölkəni ələk-vələk edib, nə uran tapırlar, nə də ki, kütləvi qırğın silahı. Ayaq tutan yalan indi nəinki yerimir, hətta onu uy-

duran və işə verənlər çox çətin vəziyyətə düşmüşlər.

Verilən məlumatlara görə, Mərkəzi Kəşfiyyat İdarəsi indi günahkar olduğunu etiraf edir. Elə Corc Buş da buraxılmış səhvə görə həmin idarəni ittiham etməyə başlayıb. 16 sözdən ibarət "səhvin" ABŞ-da yaratdığı həyəcan ibrətamizdir. Demokratlar partiyasından gələn il keçiriləcək prezident seçkilərində mümkün namizədlərdən sayılan Hovard Dik isə yaranmış vəziyyətlə bağlı açıqlamasında bildirmişdi ki: "indi hər şeydən əvvəl bir məqamı aydınlaşdırmaq lazımdır ki, prezident İraqın Migeriyadan uran almasının yalan olduğunu nə vaxt öyrənib".

İraqla bağlı "səhv" açıqlamalar İngiltərənin yuxarı dairələrində və kütləvi informasiya vasitələrində çox böyük əks-səda doğurmuşdur.

Bütün bu mənzərəni müşahidə edərkən istər-istəməz yaşadığımız mühiti, qarşılaşdığımız kütləvi, rəsmi və qeyri-rəsmi min bir yalan və saxtakarlığa necə tab gətirməyimiz adamı çaş-baş salır. 70 illik sovet dövrü vəd və yalanı, saxtakarlıq və riyakarlığı həyatımızda elə dərin kök salmışdır ki, ondan can qurtarmaq üçün görünür uzun məsafə və zaman qət etmək lazım gələcək. Bununla yanaşı, Qərbdə gördüklərini, demokratik dəyərləri formal olaraq, gözə kül üfürmək üçün bizim həyatımızda bərqərar edilməsi barəsindəki növbəti yalanları müşahidə edəndə rəhmətlik Üzeyir bəyin keçən əsrin 20-30-cu illərində qarşılaşdığı mühüm bir məsələni yadıma saldı. Mədəni inqilab dövründə xalqın min illər ərzində formalaşmış milli musiqi ənənələrindən imtina edib qərb və rus üslubunu kor-koranə qəbul etdirmək istəyənlərə cavabla Üzeyir bəy deyirdi: "Avropa oxuması hələ ki, bizim qulaqlarımız üçün nə isə qəribədir, xoşagəlməzdir, hətta bəzən elə xoşagəlməz hallar olur ki, dinləyicilər teatrı tərk edib gedə bilərlər, ona görə mən opera üzərində işləyərkən heç də istəmirəm ki, operanın elə ilk səsləri eşidiləndə camaatın bir hissəsi teatrdan getsin".

Milli ehtiyac və dərdlərimizin tərcümanlarından olan Ömər Faiq Nemanzadə Birinci Dünya müharibəsinin ilk ilində - 1915-ci ilin martında "İqbal" qəzetində "İmtahan" sərlövhəli çox dəyərli bir məqalə dərc etdirmişdi. Yazıda oxuyuruq: "Bugünkü Cahan müharibəsi eynilə məktəblilər imtahanına bənzəyir. Ancaq bu imtahan yalnız şagirdlərin deyil, ümumcahan millətlərinindir. Amma bu cahan imtahanı o qədər qorxunc, o qədər fəlakətlidir ki, indidən: əcəba, bu cahan imtahanında kim qazanacaq, kim itirəcək - sualı hər kəsi rahatsız etmədə, hər kəsin ağzında dolanmaqdadır. Hər kəs bu imtahanın axırını səbirsizliklə gözləmədədir". Faiq əfəndi öz xalqının, öz vətəninin "cahanın bu qan sellərindən, bu atəş tüğyanından" necə çıxa biləcəyi məsələ-

sini ön plana çəkir və yazırdı ki, "bu imtahan hər bir millətin var-yoxunu meydana qoydu: dərəcəyi-qeyrət və namusunu, mərtəbeyi-qüdrət və mədəniyyətini aşkar etdi... Bu imtahan bizim imanlı görünən dövlətlərimizin imansızlığını, rusca bilən ziyalılarımızın qaranlıqlarını, ruhani başçılarımızın ruhsuzluqlarını, milli tərbiyə görənlərimizin əskikliklərini, camaatimizin naxoşluqlarını üzümüzə çırpdı".

Eyni problem üzərində düşünən gənc Ceyhun Hacıbəyli mühüm bir qlobal məsələyə toxunaraq yazırdı: "Bizdə şəxsi həyatın inkişaf və tərəqqisi ictimai həyatı çox-çox qabaqlayıb. Bu isə heç də normal hal deyil, çünki şəxsi həyatın əsası laxlamışdır. Buna görə də şübhə yoxdur ki, yalnız o xalq, o cəmiyyət tərəqqi edir ki, onlar bir-birinə möhkəm arxa durmaqla, sarsılmaz təməl əsasında mənəvi cəhətdən sıx birləşərək yaşayır".

İndi gəlin, 20-ci yüzilliyin əvvəllərində müdrikcəsinə deyilmiş bu fikirlər və düşüncələrlə yaşadığımız günlərə, şəxsi və ictimai həyatımıza nəzər salaq. Bu gün biz tariximizin çox çətin, işıqlı və eyni zamanda faciəli günlərini yaşayırıq. Əgər cəsarət, qeyrət, fədakarlıq və məsuliyyət, uzaqgörənlik və müdrikliklə yanaşı, onları həyat və davranış qaydasına çevirməsək ağır ictimai-siyasi və iqtisadi-mənəvi böhrandan müzəffər çıxa bilmərik.

Şəxsi həyat və ictimai həyat. Dünya təcrübəsi göstərir ki, bunların üzvü vəhdəti ilə tərəqqi, birlik, sürətli inkişaf və ümumxalq rifahı təmin edilə bilir. Ciblərinə hücum edildikdə özlərinə gəlib dad-fəryad edənlər millət və dövlət heysiyyatı çəkə bilərlərmi?

**"Günay" qəzeti, 33, şənbə, 16 avqust 2003**

## İNSANI YAŞAT Kİ, MİLLƏT YAŞASIN, DÖVLƏT YAŞASIN!

"Günay" qəzeti redaksiyası indiki qlobal inkişaf və həm də hərc-mərclik dövründə çox faydalı və lazımlı, xeyirxah bir iş görür, müntəzəm yaddaş səhifələri verir. Xalqımızın varlığını hifz edən, adını-sanını ucaldan, vətənə təmənnasız övladlıq xidməti göstərən şəxsiyyətlər haqqında verilən bu səhifələr maraqla qarşılanır, diqqətlə oxunur. "Günay"ın bu təcrübəsindən indi bir sıra mətbuat orqanları da istifadə etməyə başlamışlar. Bu diqqətəlayiq işdir. Göstərim ki, yaddaş səhifələrini hazırlayan qələm dostlarımızın zəhməti də xüsusi qeyd edilməlidir.

Məncə, indi bu yazıların coğrafiyasını, əhatə dairəsini genişləndirməyə ehtiyac vardır. Təkcə paytaxt çərçivəsi, respublika miqyaslı elm, mədəniyyət, sənət, siyasət və dövlət xadimləri haqqındakı səhifələrlə kifayətlənmək olmaz. Respublikamızın ayrı-ayrı şəhər və bölgələrində də vətənə sədaqətlə xidmət edən istedadlı, cəfakeş, xeyirxah ziyalılarımız, iş adamları, sənət fədailəri də az olmamışdır, onlardan az da olsa indi də vardır. Deyim ki, bu sahədə də ilk addımlar atılmaqdadır. Məsələn, "Tural" Nəşriyyat-Poliqrafiya Mərkəzi Şəkidə öz xeyriyyəçilik və xeyirxahlığı ilə tanınan, bacarıqlı təşkilatçı Məmməd Cabbarov haqqında xatirələr toplusunu nəşr etmişdir. Ramiz Orsərin tərtib etdiyi, professor Nizaməddin Şəmsizadənin redaktorluğu ilə işıq üzü görmüş kitabda ilk xatirə-yazı xalq şairi Bəxtiyar Vahabzadəyə məxsusdur. El ağsaqqalı "İşıqlı adam" sərlövhəli xatirəsində yazır: "Əlişir Nəvainin bir sözü var. O deyirdi ki, əgər insan oğlusansa, bunun mənasını yaxşı bil. Bil ki, öz xalqının qayğısına qalmayan, insan deyil. Gözəl sözdür. Zamanın süzgəcindən süzülüb keçən sözdür. Bu sözlər Məmməd Cabbarovun (Mamayın) boynuna, əməllərinə biçilən sözlərdir. Məmməd kişi sözün həqiqi mənasında öz xalqının qayğısına qalan əsl insan idi".

İndi mən də yaxşı tanıdığım Məmməd kişi haqqında qısa xatirələrimi "Günay"ın oxucularına təqdim edirəm. Məmməd Cabbarov (onu şəkililər vaxtilə SSRİ-də məşhur olan şaxtaçı Nikolay Mamaya oxşadaraq - Mamay deyə çağırırdılar) kim idi, nə üçün dünyasını dəyişəndən sonra belə hörmət və məhəbbətlə yad edilir? Bəxtiyar Vahabzadə bu suala belə cavab verir: "Varlı adam olmaq yaxşı şeydir. Ancaq iki cür varlı var: biri Hacı Zeynalabdin kimi varlı, həm mənəvi, həm də maddi cəhətdən varlı, maarifə, mədəniyyətə, elmə varını məsrəf edən... Ona görə Hacı Zeynalabdin xatırlanır, yaddaşlarda zaman-za-

man yaşayır və yaşayacaq; bir də var təkcə maddi cəhətdən varlı. Beləlləri dünyasını dəyişən kimi də unudulur, heç yada da düşmürlər. Ona görə də gərək hər millətin öz burjuaziyası yarana. Sovet dövründə isə bu mümkün deyildi. Ancaq sovet dövründə də varlılar, imkanlılar yox deyildi. Onları da camaat tanıyırdı. Onların içərisindən bəziləri yardım əlini xalqa uzadırdı. Ancaq təəssüf ki, hamı Mamay kişi kimi deyildi".

Uzun müddət Şəki ət-süd kombinatının direktoru işləmiş Məmməd Cabbarov sovet dövründə elədiyi yaxşılıqları Bəxtiyar müəllimin də qeyd etdiyi kimi "gizlin-gizlin, yuxarılardan çəkinə-çəkinə etmirdi", xeyrə-şərə yarayırdı, əl açana əl uzadırdı, istedadlı kasıbların təhsil almalarına yardım edirdi, tarixi abidələrin qorunması və bərpasına xeyli köməklik göstərirdi. Bir neçə nümunə.

## *AYDINA KÖMƏK ƏLİ*

İstedadlı alim və qeyrətli vətən övladı Aydın Məmmədov elmi axtarışlar üçün Moskvaya elmi məzuniyyətə getməli idi. Lakin maddi imkanı yox idi. Mən, Bəxtiyar Vahabzadə, Süleyman Əliyarov, Mahmud İsmayılov, iş adamı Cabir Xəlifəzadə ilə danışdım ki, hərəmiz hər ay müəyyən məbləğ bir yerə cəm edib Aydına göndərək ki, şumerlərə dair vacibli elmi işini başa çatdırsın. Razılaşdıq, Aydın Moskvaya getdi. Mən hər ay vədimizi yerinə yetirir, Aydının pulunu göndərirdim. Yayda bu məsələni Mamay kişi bildi. Məni yana çəkdi, Aydının ünvanını istədi. Tapşırdı ki, siz onsuz da çətin dolanırsınız. Pulu mən göndərəcəyəm, amma ünvan sizinki olacaq. Bu işi bir sən, bir mən, bir də Allah biləcək! Qoy indi bu xeyirxahlığı hamı bilsin, tarix də bilsin!

## *RƏŞİD BƏYİN EV MUZEYİ ƏHVALATI*

Bəxtiyar müəllimin həyətində oturmuşduq. Milli oyanış çağları idi. Məscidlərin, dini məbədlərin açılması, müqəddəs ocaqların taleyi, o cümlədən böyük maarifpərvər Rəşid bəy Əfəndiyevin anadan olduğu və ömrünün son illərini yaşadığı binanın - evin uçmaq təhlükəsi olduğu barədə söhbət getdi. Sonuncu mövzunu gündəliyə mən gətirdim. Bu əsnada Mamay kişi gəldi. Söhbətə qulaq asdı. Təklif etdi ki, maşınlara minib Rəşid bəyin evinə gedək. Getdik, baxdıq. Mamay kişi dedi ki, o evin təmiri üçün lazım olan materialların böyük bir qismini

alıb verməyi öhdəsinə götürür. Digər xeyirxah imkan sahibləri də bu təşəbbüsə qoşuldular. İndi mən hər il Şəkiyə gedərkən Rəşid bəyin ev muzeyini abad və səliqəli görərkən Mamay kişi də yadıma düşür. Ona min rəhmət oxuyuram!

### *HEÇ OLMAZSA SİZ TƏMİZ QALIN!*

Mamay kişi ilə çox mövzularda fikir mübadiləsi edərdik. Onun mənə qarşı xüsusi münasibətini hiss edir, ancaq səbəbini, doğrusu, bilmirdim. Axı mənim nə vəzifəm vardı, nə də ki səlahiyyətim. Adicə müəllim baba idim. Bir də televiziyanın siyasi icmalçısı idim. Siyasi məsələləri də Allaha şükür Mamay kişi yaxşı bilirdi. Dünyagörüşü, savadı, mütaliəsi yerində idi. 1995-ci ilin avqustunda Bəxtiyar müəllimin 70 yaşı tamam olurdu. Bu münasibətlə şair yubiley ərəfəsi xudmani bir məclis düzəltmişdi. Məclisi idarə etməyi şair mənə tapşırmışdı. Növbəti sağlıq millətin xeyirxah adamlarının, o cümlədən Mamay kişinin ünvanına deyildi. Mən çoxdan bəri ürəyimdə, qəlbimdə dolandırdığım bir fikri açıqladım. Dedim ki, neçə illərdir biz bir qrup ziyalı Şəkiyə gəlirik və hər dəfə də Mamay kişi hardansa bizim gəldiyimizi bilir, özü görünməsə də lazım olan hər cür maddi köməkliyi edir, özü də təmənnasız və qərəzsiz natural yardım olur.

Mamay kişi ona xas olan təvazökarlıq və hətta utancaqlıq hissi ilə mənə cavab verdi: Şirməmməd müəllim, mən bilirəm ki, siz və sizin əqidə və məslək dostlarınız cəmiyyətimizə xas olan bir sıra xəstəliklərə yoluxmamısınız. Mən istəyirəm ki, öz nəfslərinə hakim olub ləyaqətlərini saxlamağı bacaran adamların ehtiyac yükünü bir az azaldım. Heç olmazsa siz təmiz qalasınız.

Mamay kişi haqqında çox xatirələr yazmaq olar. Lakin elə bu 3 epizod da onun şəxsiyyəti, ləyaqəti haqqında ümumi təsəvvür yaradır.

**"Günay" 34, şənbə, 23 avqust 2003**

# DOĞRU YOL TAPMAQ ASANMI?

Yazırlar ki, dünyanın ən qədim xalqlarından olan çinlilərdə belə bir qarğış var: "səni görüm keçid dövründə yaşayasan". Əlbəttə, çinlilər bu ifadələri bizim indiki anladığımız siyasi-iqtisadi sistemlərin dəyişilməsi mənasında işlətməyiblər. Onlar ailə başçısının, yerli hakimlərin, iş adamlarının və s. bu qəbildən olan dəyişikliklər zamanı yaranın qeyri-müəyyənliyi nəzərdə tutublar. Hər halda mənim öyrəndiyim belədir. Qeyri-müəyyənlik isə həqiqətən çox ağrılı prosesdir.

Bizim nəslin payına və qismətinə düşən keçid dövrü xüsusi tarixdə o qədər də əmsalı görünməyən bir səciyyə daşıyır. Bir əsrdə bir neçə ictimai formasiya dəyişmək bizim üçün əzablı-əziyyətli olsa da, bütövlükdə mütərəqqi proses kimi qiymətləndirilir. Çünki bu proses ümumbəşəri yeniləşmə prosesinin ayrılmaz tərkib hissəsidir. Əlbəttə, cəmiyyətin hər bir üzvünü ilk növbədə "Yolumuz hayanadır?" sualı maraqlandırır. Bu sual da yeni deyil. Mətbuatımızın 128 illik tarixi boyu düşünənlərimiz, qələm əhlimiz bu aktual və həm də məchul suala cavab tapmağa çalışmışlar. Milli istiqlal hərəkatımızın böyük öndəri M.Ə.Rəsulzadə bu münasibətlə məqalələrindən birində yazırdı: "Bu hal daimi deyildir, müvəqqəti olan bu halın istilahı öz əlimizdədir. Bunun üçün də hər şeydən əvvəl münəvvər (ziyalı) qismimiz birləşməli, bəsirətə gəlməli, öhdəsinə düşən böyük vəzifəni və onun ifasındakı qüsurun böyük məsuliyyətini xatirinə gətirməlidir".

Yeni minillik və 21-ci yüzilliyə müstəqil bir dövlət kimi qədəm qoymuşuq. Bir həqiqət də var ki, müstəqillik həqiqi azadlıq, demokratik üsuli - idarə ilə, sosial ədalət prinsipləri ilə üzvü surətdə tamamlandıqda xalq ondan fayda görür, insancasına yaşayış tərzinə qovuşur. Hələlik bu qlobal, strateji məqsəd yolunda atılan addımlar çox cüzidir, natamamdır. Türk jurnalistlərindən biri bu yaxınlarda yazmışdır ki, "bir avtoritar rejimdən başqa bir avtoritar idarəyə keçid türk cümhuriyyətlərində müşahidə edilməkdədir".

Qeyd edək ki, bizə xilas yolu göstərmək istəyənlərin sayı-hesabı da yoxdur. Bunları seyr etdikdə "Molla Nəsrəddin" jurnalının (94 il bundan əvvəl dərc etdiyi "Yol" sərlövhəli kiçik bir felyetonu yadıma düşür. Xalqa "gülüstan" vəd edib, yol göstərənləri, vaxtını keçirmiş inzibati-amirlik sisteminə haqq qazandırmaq istəyən və həqiqi qayələrini gizlədənləri tanımaq sarıdan faydalı olacaq bu yazını oxuculara təqdim edirəm.

## YOL

Yadındadırmı, əzizim ki, həmişə mən sənə deyirdim: "Dayan qardaş, o yol ilə getmə, qayıt geri, peşman olarsan!"

Sən mənə cavab verərdin ki, "Yox, yox, gərək bu yol ilə gedəm. Bu yol məni aparıb çıxaracaq gülüstana".

Mən deyərdim : "Getmə, qayıt geri. O yol ki, sən gedirsən, gülüstan yolu deyil. O yol səni aparıb çıxardar qamışlığa, orada qabanlara rast gəlib puç olarsan".

Yadımdadır, sən mənim üstümə hirslənib istəyirdin ki, hələ məni vurub öldürəsən də.

Mən deyərdim: "Getmə", sən deyirdin "Gedəcəyəm".

Əzizim, o vədə sənin haqqın var idi mənim üstümə hirslənməyə; o səbəbə ki, sən o yolu "gülüstan" yolu bilirdin və bunu da yəqin eləmişdin və çünki bunu yəqin eləmişdin, yoldan geri durmaq istəmirdin. O vədə sənin haqqın var idi. Amma indi gəlib çıxdın qamışlığa. Dəxi indi sözün nədir?

* * *

Nəsihəti-hükəma: heyvan heyvanlığı ilə bir yoldan keçib yıxılanda dəxi bir də o yoldan keçmir.

Sən ki, Allaha şükür, insansan!

**Dəli**

**"Molla Nəsrəddin",**
14 iyun 1909, №24

**"Günay" N35, 30 avqust 2003**

## AKTUAL SƏSLƏNƏN ÇAĞIRIŞ

Tariximizin mürəkkəb, keşməkeşli günlərini, aylarını yaşayırıq. Elə dünya da bu gündədir. Deyəsən, "yeni dünya düzəni" planeti əhati etməkdə, hər yerdə müxtəlif formalarda, məzmun və keyfiyyətdə özünü biruzə verməkdədir. Müstəqillik və azadlıq arzuları real vəziyyətlə, həyatla bəzən uyğun gəlmir. Vaxtilə bu sahədə düşünən dövlət adamlarından biri uzaqgörənliklə yazmışdı ki, "yalnız maarif azadlığa gətirib çıxarır; maarif olmayan yerdə isə azadlıq yalnız anarxiya və hərc-mərclik doğurardı".

Kağız üzərində, mətbuat səhifələrində, mavi ekranda hər şeydən yazan və danışanlara, yol göstərənlərə, həyata keçirilməsi mümkün olmayan vədlər verənlərə vaxtilə real düşünən siyasət və dövlət adamlarından biri belə cavab vermişdi: "Siz kağız üzərində işləyirsiniz. Kağız hər şeyə dözür: o, hamardır, yumşaqdır və sizin istər təxəyyülünüzə, istərsə də qələminizə heç bir çətinlik törətmir". İctimai inkişafın Qərb modelinin bizim real vəziyyətimizdə ciddi maarifçilik tədbirləri həyata keçirmədən, cəmiyyətdə siyasi mədəniyyətin bərqərar olmasına nail olmadan həyata tətbiqinə çalışmaq, istənilən nəticəni verə biləcəyini düşünmək, sadəlövhlük olardı.

Bizdən əvvəlki nəsillərin düşünənləri də bu mühüm qlobal probleme öz münasibətlərini bildirmişlər. Onların müraciətləri çox vaxt ritorik səciyyə daşısa da, hər halda cəmiyyətin diqqətini cəlb etmişdi: "Hər şey elm ilə, bilgi ilə olmalıdır", "döyüşdən fəlakət və əzab, barışıqdan sərvət və əmniyyət törəyər", "həyatın mənayi-əslisi şəfqətdir, məhəbbətdir", "həpimiz bir Günəşin zərrəsiyiz, həpimiz bir ana pərvərdəsiyiz" - vaxtilə demokratik mətbuat səhifələrindən bu çağırışlar eşidilirdi. İndi çox təəssüf ki, bu çağırışlar əvəzinə söyüş və təhqir, böhtan və iftira sədaları eşidilməkdə, vətəndaş qarşıdurması yaradılmaqdadır.

Yaddan çıxarmaq lazım deyil ki, həqiqi demokratiya və azadlığın yolu maarifçilikdən, sosial ədalətə arxalanan demokratik üsul-idarədən, milli birlik və insan haqlarına sayğıdan, nəhayət bütün bunların canı, kökü və mayası olan Vətənə, torpağa, insana məhəbbətdən keçir. Krımda Baxçasarayda çıxan "Tərcüman" qəzetinin vaxtilə yazdığı kimi "sevə bilsək", çox dərdlərimizin əlacını tapa bilərik. Oxuyun bu yazını. "İqbal" qəzeti 1914-cü ilin noyabrında - I dünya müharibəsinin ilk aylarında onu "Tərcüma"dan götürüb dərc etmişdi. Biz də "Günay"ın 10 illik yubileyi ərəfəsində onu təqdim edirik!

## SEVƏ BİLSƏK

İnsanlığın tarixini, qanlı səhifələrini, çəkişmələrini və bugünkü ictimai səfalətlərini, zavallılıqlarını göz yaşları ilə, dərin təsirlərlə tədqiq edərkən ən acı yasları, ən qara matəmləri duyan böyük Tolstoy məncə bütün məsləkini, əməllərini şu cümlədə topladı:

"Ağacları, otları yaşadan, göyərdən, bəzəndirən ziya isə, insanları güldürən, səadətləndirən də sevgidir".

Sarbon darülfünu müəllimlərindən və Tolstoyun Fransadakı şagirdlərindən Osip Lurye: "Səadət və zəka" adlı kitabında səadətlə zövqü ayırıb hər birini doğuran qüvvətləri təhlil və tərit etmişdir:

"İnsanlar ömürlərində iki hədəfə gedirlər. Birisi hisslərimizdən doğaraq ani və arizi (təsadüfi) olan təmayüllərimiz, istəklərimizdir ki, yapılmalarından "zövq"ləniriz, ...digəri fikrimizin, zəkamızın uzun araşdırmaları ilə bizim biliyimizi, mənəviyyatımızı bağladıqları hədəf, idealdır ki, bizim bütün amallarımız orada parlar... və onun parıltıları bizim həyatda irəliləməyə, çalışmağa təşviq edər və kəndisinə (ona) yaqlaşmamızı görməmizdən səadətimizi duyarız".

Fikrimcə, Osip Luryenin bu təqsim və tərifi bizə açıq bir surətdə nəyi sevməkdən, səadətlərimizi toplayacağımızı anlatıyor və insanı digər heyvanlardan ayıran şeyin ancaq "fikr"i olduğunu düşünürsək, bizi yüksəldəcək qüvvətin də ancaq fikir və fikrimizin çizdiyi yollara getməyə qeyrət etdirəcək sevgilərimizin olduğunu da qəbul edəriz... hisslərimizə tapınmaq bizi zövqləndirər... Fəqət yüksəltməz... Çünki, bizdən daha qəvi, daha kəskin duyğulu heyvanları kəndi (öz) hisslərinə tapınmadan meydana nə gətirə bilərlər: sürünmək...

O halda səadət sevgilərimizin fikirdən doğan amallarımıza, arzularımıza olan yaxınlıqları dərəcəsilə ölçülür, deyə biləriz...

Demək ki, məsud ola bilməmiz üçün fikrimizdə bizi həyata bağlayan bir məslək, bir amal yaşatmamız nə qədər lazım isə, ruhlarımızda da bizi o arzumuza yaxlaşdıracaq, çalışdıracaq qəvi - sevgilər yaşatmamız əlzəmdir. Həyatda ən ziyadə kim qəvi düşüncələrlə məsləkini təyin edər və kim onu qəlbilə, ruhu ilə, bütün mənası ilə sevərək ruhunda ona doğru hər şeyə rəğmən gedə biləcək bir arada doğura bilirsə, o müvəffəq olur... Çünki, o böyük sevgi onu hər kəsdən ziyadə düşündürür, artırır, çalışdırır...

Əvət sevgi: lokomotivlərin istimlərinə bənzər... istimlər nə qədər qüvvətli olsa da, lokomotivlərin təkərlikləri də o nisbətdə fəzlə çevrilir və gedilmək istənilən hədəfə də o qədər tez yanaşılır. Sevgi də nə qədər yüksəlsə, nə qədər əsaslı bir surətdə fikirlərimizdə, ruhlarımızda

yerləşirsə o nisbətdə bizi amalımıza yetişdirir...

Ah! Sevgi, bizim qəlb və ruhlarımızı da bərkitsəydi!

Ah! Para üçün, parasının açdığı yoldan getmək üçün oxumaqdan ziyadə qəlbində, ruhundakı elm, bilgi sevgisi ilə hər yuxusuzluğa qatlanaraq elmin dərinliklərinə gömülə-gömülə yüksələn gənclərimiz bulunsaydı, çox olsaydı! ...Ah! Bizdə də adi mənfəətlərinə vəqf yağmaçılığa tapınaraq yüzlərlə, minlərlə millət balasının... zavallı qardaşlarımızın fikirlərini, zəkalarını söndürən "mədrəsələr" yerinə ancaq elmə, ancaq onun dərin və sarsılmaz həqiqətlərini anlamaq və anlatmaq sevgisi ilə titrəyən əsil ruhlu, nəcib vicdanlı müəllimlər yerləşsəydi, onların nurlu dimağlarından səpilən həqayiqi-elmiyyə ilə gənclərimiz nurlanaraq xidmətlərinə çox möhtac olan millətə faydalar gətirə bilsəydilər!

Ah! Bizdə dəxi ailələr alım-satım ilə deyil, qəlbləri bağlayan, üzləri nurlandıran, qüsurları silən, qəbahətləri gördürməyin məhəbbət-sevgi ilə qurulsaydı da, bu çəkişmələrlə, bu söyüşmələrlə qadınlarımız xorlanacaq yerdə rahət və məsud ümum arkadaşla yaşasaydılar...

Ah! Bütün cəmiyyətimiz nifaqla, çəkişmələrlə yerlərdə sürünməkdən ziyadə bir-birimizi düşündürən, bir-birimizə yardım etdirən və sürətlə həpimizi yüksəldən sevgi ilə idarə olunsaydı...

Ah! Mühitimizin heç bir tərəfində görülməyən o səadət nuru, hər tərəfdə, hər ocaqda, hər işdə parlasa, bir-birimizi nurlandırsa, isitsəydi...

Ah, sevə bilsə, sevə bilsəydik!....

**Cəfər Seyyid Əhməd,**
*"Tərcüman". "İqbal" N-801, 30 noyabr 1914*

**"Günay" 36, şənbə, 6 sentyabr 2003**

# BAKININ AZAD EDİLMƏSİNİN 85 İLLİYİ

## *BİR İL BAYRAM, 70 İL BÖHTAN, 14 İL ÇƏK-ÇEVİR*

Hər bir xalqın tarixinin onun varlığını, mövcudiyyətini təhlükə altına alan anları olur. Millət də, torpaq da ölüm-dirim savaşı verir. Bu mənada neçə əsrdir ki, tarix və tale bizi imtahana çəkir. Böyük vətənpərvər alim və vətəndaş Ziya Bünyadov 10 il bundan əvvəl bu "tale yazısını" şərh edərək yazmışdı: "Tarixən dəyirman daşını həmişə bizim başımızda fırladıblar. Əvvəl-əvvəl bizi çək-çevirə salıblar, siyasət ipini bizim boğazımıza keçiriblər... "Ayır-buyur siyasəti" ilə, "necə olursa-olsun" hökmü ilə, aldatmaqla, oyunbazlıqla, yalanla, böhtanla, sıxma-boğma ilə, hədə-qorxu gəlməklə, qan-qada ilə Azərbaycanı ayaqlayanlar buqələmun kimi min dona girirdilər və indi də donlarını tez-tez dəyişirlər".

1917-1918-ci illər də Azərbaycan tarixinin belə çox ciddi təhlükə ilə qarşılaşdığı dövr idi. 1917-ci il fevralın sonunda 304 illik Romanovlar sülaləsinin hökmranlığına son qoyuldu. Rusiya cümhuriyyət elan edildi. Xalq sevindi, bir an azad nəfəs almağa macal tapdı. Bu münasibətlə C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında yazırdı: "Şükür Allaha, qurtardıq! Qurtardıq Peterburq vəzirlərinin zülmündən, qurtardıq qubernatorların zülmündən, qurtardıq naçalnik və pristavların və bunlardan aşağıdakı pillə qurdlarının zülmündən. Qurtardıq kənd yüzbaşılarının tatarından, qurtardıq strajniklərin şallağından, xilas olduq min-min zalımların zorbazorluğundan, şükür Allaha qurtardıq!".

Mirzə Cəlilin və xalqın sevinci uzun sürmədi. 1917-ci ilin oktyabrında Ziya müəllimin təbirincə desək "bolşevik kələkbazları, gizli qəsbkarlıq siyasəti yürüdənlər" Peterburqda hakimiyyəti ələ keçirdilər. Bakıda da daşnak-bolşevik güruhu fəallaşdı. 1918-ci ilin martında milli vətənpərvər qüvvələrə, torpağın əsl sahiblərinə qarşı vəhşicəsinə qətliam həyata keçirilməyi başladı. Azərbaycanın varlığı sual altına alındı. Bakını qəsb etmiş bolşevik-daşnak güruhu sovet Rusiyasının hərbi və hərtərəfli yardımı ilə öz hökmranlığını bütün Azərbaycanda və Zaqafqaziyada bərqərar etmək məqsədilə silahlı təcavüzə başladı. Lakin 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan istiqlalının elan edilməsi, M.Ə.Rəsulzadənin başçılığılə Milli Şuranın - ilk parlamentimizin təşkili və F.X.Xoyskinin sədrliyi ilə milli hökumətin yaradılması və Gəncəyə gəlməsi düşmənlərin riyakar planlarını alt-üst etdi. Çox çətin hərbi, iqtisadi-siyasi durumda olmasına baxmayaraq, qardaş

Türkiyə Silahlı Qüvvələri Azərbaycan xalqına "xilaskarlıq əlini uzatdı. On minə yaxın türk əsgəri bolşevik-daşnak quldur dəstələrindən Azərbaycan torpaqlarını təmizləmək əməliyyatına başladı. Onların hərtərəfli yardımı ilə Azərbaycanın milli ordu birləşmələri yaradıldı. Birgə əməliyyatlar nəticəsində 1918-ci il sentyabrın 15-də - Qurban bayramı günü Azərbaycan paytaxtı - müqəddəs hesab etdiyimiz Bakı azad edildi. Bu, tariximizin ən önəmli günlərindən biridir. Bəs bu böyük hadisə və həlledici gün sonralar necə yad edildi, anıldı?

1919-cu il sentyabrın 15-də Azərbaycan parlamentinin Bakının azad edilməsinin bir illiyinə həsr olunmuş təntənəli iclası keçirildi. Həmin gün Qafqaz İslam Ordusunun Bakını azad etməsinin birinci ildönümü münasibətilə Çəmbərəkənd (sonralar Dağüstü park edilmiş) qəbiristanlığında şəhid olmuş qəhrəmanların xatirələrini yad etmək üçün böyük mərasim keçirildi, xatirə abidəsinin təməli qoyuldu. Sentyabrın 15-i iş günü deyildi. Parlamentə sədrlik edən doktor Həsən bəy Ağayev elan etdi ki, "... mayın 28-də istiqlalımız elan edilmişdir. Sentyabrın 15-də isə haqq yerinə varmış, Bakı azad edilmişdir... qan bahasına, türklük və islamçılıq uğrunda şəhid verilmişdir...". 1919-cu ildə təməli qoyulmuş "Bakıda şəhidlər abidəsi"nin maketi sonralar Azərbaycan mühacir mətbuatında bir neçə dəfə dərc edilmişdir (1928, 1933). Lakin 70 il bu tarixi hadisə böhtan, iftira, saxtakarlıq və riyakarlıqla tənqidə, ifşaya, təhrifə məruz qalmışdır. Onlarca məddah və saxtakar, yaltaq və simasız bu mövzuda "elmi" iş yazmış, dərəcə, rütbə və "ad-san" sahibi olmuşdur. Bəs müstəqilliyimizə qovuşduğumuz son illərdə vəziyyət necə, dəyişmişmi? Əlbəttə, sovet hakimiyyəti illərinə nisbətən sentyabrın 15-nə münasibət xeyli dəyişmişdir. Lakin Cümhuriyyət dövrünün ab-havası səviyyəsinə çatmağa hələ çox var. Cümhuriyyət dövrü tariximizin görkəmli tədqiqatçılarından Ataxan Paşayev 5 il bundan əvvəl - Bakının azad edilməsinin 80 illiyi münasibətilə dərc etdirdiyi "Bakını necə qorudular (tariximizin təhlükəli anlarından bir soraq)" sərlövhəli dəyərli məqaləsini aşağıdakı sözlərlə bitirirdi: "Əziz yurddaşlar! Bu gün -istiqlalımızı yenidən əldə etdiyimiz bir vaxtda o zaman qoyulması nəzərdə tutulan belə abidələrin gerçəkləşdirilməsi vaxtı çatmayıbmı? Əlbəttə, çatıb. Unutmayaq ki, bu, şəhidlərimizə qədirdanlıqdan başqa, iki qardaş türk arasında etibar və sədaqətin artmasına da böyük kömək göstərərdi".

Sentyabrın 15-ni, mayın 28-i səviyyəsində ümummilli bayram kimi qeyd etmək ənənəsini bərpa və davam etdirmək lazımdır. Bu məsələni çək-çevirə salmağa lüzum yoxdur.

**"Günay" qəzeti, N37, şənbə, 13 sentyabr 2003**

## ÜZEYİR BƏYİ ANARKƏN DÜŞÜNDÜRÜCÜ BİR SORĞU

**Dərs dediyim iki ali məktəbin III və IV kurs tələbələri arasında şifahi bir sorğu keçirdim. Ü.Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", "Arşın mal alan", "Əsli və Kərəm", "Məşədi İbad" əsərlərinin canlı tamaşasına baxan bir nəfər belə tələbəyə rast gəlmədim. Bu əsərlərin bəzilərinin mətnlərini də oxuyan tək-tək oldu. Gənclər yalnız televiziya və radio tamaşaları, kinofilmlər ilə Ü.Hacıbəyovun yaradıcılığı ilə tanış olurlar. Yeni nəsil isə latın qrafikası ilə Üzeyir bəyin əsərlərinin nəşrini gözləyir.**

**Siyasətbazlıq ali məktəblərin əvvəllər olduğu kimi çox vacib maarifçilik, mədəniyyət inciləri ilə gəncləri tanış etmək, kollektiv surətdə teatr tamaşalarına baxmaq, görkəmli sənətkarlarla görüşlər keçirmək, xatirə gecələri təşkil etmək kimi vacib tədbirləri arxa plana keçirmişdir. Çox təəssüf!**



### *FƏXRİ XİYABANDA BİR BOŞ YER*

Hər il BDU-nun jurnalistika fakültəsinin I kurs tələbələri sentyabrın 1-də ilk məşğələdə milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin Fəxri xiyabandakı abidəsi önünə yığışırlar. Bu, hələ sovetlər dövründən, jurnalistika fakültəsi yaranandan bir qayda olaraq belədir. Bütün universitet Lenin və Kirovun abidələri qarşısına əklil qoyurdu, biz isə Həsən bəy Zərdabinin.

Həm də elə həmin gün Fəxri xiyabanın girəcəyində solda Ü.Hacıbəyovun məzarını ziyarət etmək ənənəsi də var. Bu il diqqətimi belə bir vəziyyət cəlb etdi. Üzeyir bəyin məzarının sol tərəfində onun həyat yoldaşı Məleykə xanım dəfn olunmuş, abidəsi qoyulmuşdur, sağ tərəfdə necə deyərlər bir adamlıq yer buraxılmış, onun yanında isə Üzeyir bəyin böyük qardaşı Zülfüqar Hacıbəyov dəfn olunmuş, abidəsi qoyulmuşdur. Sanki bu boş yeri Ceyhun Hacıbəyli üçün saxlamışlar. Məlumdur ki, 1919-cu ilin yanvarında Bakını tərk edib Azərbaycanın dövlət nümayəndə heyəti tərkibində Fransaya, Versal sülh konf-

ransına yollanan və burada Azərbaycanın beynəlxalq miqyasda müstəqil dövlət kimi tanınmasında mühüm rol oynamış Ceyhun bəy 1962-ci llədək mühacirət həyatı yaşamış və Fransada dəfn olunmuşdur. Dövlət müstəqilliyimiz uğrunda fədakar mübariz, görkəmli jurnalist və publisist Ceyhun bəyin iki qardaş arasındakı yeri tutması məncə, həm millətimizə, həm də Allaha xoş gələr. Xalqımızı, torpağımızı şöhrətləndirən Hacıbəyov qardaşları bir yerdə olsa hamımızın müqəddəs səcdəgahına çevrilər.

## 120 İLLİK YUBİLEYƏ İNDİDƏN HAZIRLAŞMAQ LAZIMDIR

Üzeyir bəy kimi böyük bir istedad, nəhəng bir sənətkar və şəxsiyyətə hücum çəkməyə, onu ləkələməyə və müsavatçı kimi aradan götürməyə təşəbbüs edənlər olsa da, onu müdafiə edənlər, arxasında duranlar daha çox olduğundan onlar öz çirkin məqsədlərinə nail ola bilməmişdilər. Lakin altdan-altdan "iş görənlər", onun milli simvola çevrilməsinə mane olanlar da həmişə olmuşdur. Təsəvvür edin ki, bu böyüklükdə nəhəng bir istedadın, xalqını, millətini, torpağını dünyada tanıdan bir sənətkarın 30, 40, 50 illik yubileyləri qeyd edilməmişdir. Əsərlərinin nəzərdə tutulmuş 10 cildindən 1964-cü ildən bəri cəmi 4 cildi buraxılmışdır. Niyə? Gəlin düşünək! Vəziyyəti düzəldək. Doğrudur, "Azərbaycan" nəşriyyatı Nazim İbrahimovun səyi nəticəsində 1 cildlik Üzeyir Hacıbəyov ensiklopediyasını səlis şəkildə hazırlayıb nəşr etmişdir. Bu günlərdə həmin cild rus dilində də işıq üzü görmüşdür.

Lakin Üzeyir bəyin əsərlərinin 10 cildlik akademik nəşrinin hazırlanması və latın qrafikasında işıq üzü görməsini reallaşdırmaq vacibdir. Həm də bu cildlərin bir neçə xarici dildə də buraxılması məqsədəuyğun olardı. 2005-ci ilin sentyabrında milli müqəddəsimiz Üzeyir bəyin anadan olmasının 120 ili tamam olacaq. Məncə buna indidən hazırlaşmaq lazımdır. Özü də həm dövlət, həm də qeyrətli işgüzar adamlarımız bu sahədə birgə, əlbir fəaliyyət göstərməlidirlər.

**"Günay" 38, şənbə, 20 sentyabr 2003**

# 300 İL VƏ "QOVUB ÇATMA" TİPLİ İNKİŞAFIN PARADOKSLARI

Rusiyalı həmkarlarımız rus dövri mətbuatının yaranmasının 300 illiyini təntənəli surətdə qeyd edirlər. Rusiya imperiyası kimi rus dövri mətbuatının da yaradıcısı I Pyotr sayılır. Avropaya pəncərə açan Birinci Pyotr 300 il bundan əvvəl qəzet nəşri təcrübəsini də məhz Avropadan öyrənmiş və Rusiyaya gətirmişdi. Rusiya dövri mətbuat nəşri sahəsində Avropadan ən azı bir əsr geri qalmışdı. Pyotrun 1702-ci il dekabrın 16-da Moskvada nəşr etdiyi "Vedomosti" qəzetinin ilk nömrəsi hələlik tapılmamışdır. Əldə olan 1703-cü ilin yanvarın 2-ci nömrəsidir. Məhz buna görə, mətbuat tarixçiləri bu günü rus dövri mətbuatının yaranması tarixi kimi qəbul etmişlər. Qeyd edim ki, Almaniyada ilk qəzet 1609, İngiltərədə 1622, Fransada isə ilk həftəlik qəzet 1631-ci ildə işıq üzü görmüşdür.

Rusiyada rəsmi hakimiyyət orqanları tərəfindən yaradılan və ona qulluq edən mətbuat uzun müddət dövlət inhisarında olmuşdur. Yalnız XVIII əsrin ikinci yarısından xüsusi nəşrlərə icazə verilmişdir. Qaba mütləqiyyət rejimi və özbaşınalığın hökm sürdüyü Rusiyada mətbuat və jurnalistika, söz və mətbuat azadlığı çox böyük çətinlik və güclü maneələrlə qarşılaşmışdır. Rusiyanın uzaqgörən demokratik qüvvələri ölkənin iqtisadi-siyasi və ictimai-mədəni inkişafında mətbuatın mühüm rolunu görmüş və bu sahədə çox böyük fədakarlıq göstərmişlər. XIX əsr rus jurnalistikası bu baxımdan xüsusilə diqqəti cəlb edir.

İkinci minilliyin ən böyük kəşfi hesab edilən nəşriyyat və çap işinin ixtirası bəşəriyyətin indiki informasiyalı cəmiyyət quruculuğunun təməlini təşkil etmişdir. Mütəxəssislər belə bir fakta diqqəti cəlb edirlər ki, əgər gündəlik qəzetlərin oxucu auditoriyasının 50 milyon nəfərə çatması üçün 236 il vaxt sərf edilmişdisə, radio kəşf edildikdən sonra bu miqdar dinləyici auditoriyası üçün 50 il, televiziya tamaşaçısı üçün 13 il, internetdən istifadə edənlər üçün isə cəmi 4 il vaxt lazım gəlmişdir.

Kütləvi informasiya vasitələri inkişafının Avropa və Amerika təcrübəsindən faydalanmaq, müəyyən obyektiv və subyektiv səbəblər üzündən Rusiyada, xüsusilə rəsmi dairələrdə birmənalı qarşılanmışdır. Həm də bu təkcə KİV-ə aid olmayıb, birinci növbədə iqtisadi, ictimai-siyasi, dövlət quruculuğu, demokratikləşmə prosesləri ilə bağlı proses olmuşdur. Bununla əlaqədar məşhur iqtisadçı professor I.Osadçiy yazır ki, Rusiyanın tarixi taleyi elə gətirmişdi ki, onun iqtisadi tərəqqisini müəyyənləşdirən "qovub çatma" inkişafı deyilən trayektoriya olmuşdur. XVIII əsrin əvvəlindən, I Pyotr kimi güclü bir şəxsiyyətin hakimiyyəti dövründən başlayaraq Rusiya həmişə Qərbi "qovub çatmağa" çalışır. Lakin, hakimiyyət, hüquqi münasibətlər, mülkiyyət münasibətləri sahələrində ciddi dəyişikliklər edilmədən, xalq kütlələri əməlli başlı savadlandırılıb tərbiyələndirilmədən bu "təqib" tez-tez qırılır, çox böyük itki və məsrəflər bahasına başa gəlirdi. Nəticədə

geriləmə aradan qaldırılmaq əvəzinə, yalnız yeni səviyyəyə keçirdi".
Göstərək ki, bu proses bizim günlərdə davam etməkdədir.
Məlumdur ki, Azərbaycan mətbuatı və jurnalistikası da Rusiya mətbuatının tərkib hissəsi kimi meydana gəlmişdir. Lakin Rusiyadan fərqli olaraq ilk dövri mətbuat orqanımız "Əkinçi" xüsusi, H.B.Zərdabiyə məxsus, həm də demokratik mətbuat orqanı kimi fəaliyyət göstərmişdir. Üç il bundan əvvəl biz "Əkinçi"nin nəşrinin 125 illiyini bayram etdik.
Qərbi Avropa və ABŞ ilə müqayisədə Şərqdə, xüsusilə Yaxın və Orta Şərqdə nəşriyyat və mətbuatın inkişafına mane olan səbəblər üzərində düşünənlər, bu barədə mülahizə söyləyənlər də az olmamışdır. Məsələn, 1899-cu ildə "Kaspi" qəzetində Fransada ali təhsil almış, Qərb mətbuat təcrübəsini də gözəl bilən Əhmədbəy Ağayevin "Şərq jurnalistikası xülasəsi" ("Obzor jurnalistiki na Vostoke") sərlövhəli iri-həcmli bir məqaləsi dərc olunmuşdur. Məqalədə deyilirdi: "Uzun müddət Avropa sivilizasiyasına biganə qalan Şərq son 20-30 ildə bu sivilizasiyanı qəbul etməyə, onu məktəblər, hökumət müəssisələri və ticarət-sənaye fəaliyyəti formaları şəklində tətbiq etməyə başlamışdır. Bütün bunlar bəzən elə həmin Avropanın təzyiqi altında, Avropa sivilizasiyasının üstünlüklərini əməli şəkildə çətin sınaqlardan keçirdikdən sonra, bəzən isə könüllü şəkildə baş verirdi. Lakin, Avropa sivilizasiyasının bütün formalarından müsəlman Şərqinə ən çətin nüfuz edən formalar - jurnalistika və mətbuatdır. Bu, heç də ondan irəli gəlmir ki, müsəlmanlar mətbuatın və jurnalistikanın əhəmiyyətini və zəruri olmasını hələ dərk etmirlər; əksinə, Hindistandan başqa Mərakeşə qədər hər yerdə mütərəqqi adamlar bunun tərəfdarıdırlar. Şərq faktları arasında dövri mətbuatın inkişafına mane olan səbəblər daha dərin köklərə malikdir və çox güman ki, həmin səbəblər, ümumiyyətlə, Şərqin təbiətinə xasdır və o cümlədən, müsəlman həyatının bəzi xüsusiyyətləri ilə bağlıdır. Məlum olduğu kimi, dövri mətbuat və xüsusən, gündəlik nəşrlər işdə yüksük dəqiqlik, çeviklik və səliqə tələb edir. Bu isə, əlbəttə, Şərqin mürgülü təbiəti ilə heç cür uyuşmur".
XXI əsrdə bəşəriyyətin bir hissəsi istehsal sahəsində iqtisadi əlaqələrin və əməyin xarakterinin dəyişməsi, bunun nəticəsində informasiyanın hakimiyyətin həyata keçirilməsi üçün daha sanballı vasitəyə çevrilməsi ilə səciyyəvi olan informasiya cəmiyyətində yaşayır. Kompüter mədəniyyəti təfəkkürün və təhsilin yeni tipidir, bu mədəniyyətin başlıca xüsusiyyəti insanın müstəqil inkişafına səmtlənmiş olmasıdır. Kompüter demokratiyası vətəndaşların informasiyadan istifadə etməsi üçün qeyri-məhdud imkanlar yaradan yeni texnologiya ilə bağlıdır.
Yubileylər yalnız keçmişə baxmaq, olanlar haqqında söhbət açmaq üçün deyil, dünyadakı reallıqları görmək və tərəqqi yolunu seçmək baxımından faydalı olur.

**"Günay" qəzeti, N39, 27.09.2003**

## SIRALARIMIZDAN BİR ALİM, BİR SƏNƏT FƏDAİSİ DƏ GETDİ



Ağdamın Sarıhacılı Kəndində dünyaya göz açan və bütün ömrü boyu xalqı ilə birgə nəfəs alan alovlu şair, vətəndaş insan, böyük ziyalı, alim və müəllim, respublika jurnalistlər ordusunun ağsaqqallarından biri olan Famil Mehdi dünyasını dəyişdi. Bu itki onun uzun illər boyu işlədiyi Bakı Dövlət Universitetinin kollektivi, jurnalistika fakültəsinin tələbə və müəllimləri üçün, 30 ilə yaxın başçılıq etdiyi kafedranın əməkdaşları üçün ağırdır, ağrılıdır. Fakültə ixtisas üzrə yeganə elmlər doktoru, professordan məhrum oldu. Respublikamızın ziyalıları məddahlıq, yaltaqlıq, şərəfsizlik, yerlipərəstlik nə olduğunu bilməyən, iyirmiyə qədər müxtəlif dillərə tərcümə edilmiş şerlər kitabının, onlarca monoqrafiya və dərsliyin, yüzlərcə elmi və publisistik məqalənin müəllifini itirdi.

Mən isə ən istəkli, ən istedadlı əqidə və məslək dostumu itirdim. F.Mehdini mən keçən əsrin 50-ci illərində tələbə ikən tanıdım. Həm də təkcə auditoriyada deyil, məcburi göndərildiyimiz pambıq yığımı zamanı tanıdım. Sadə, əməksevər, elmə, biliyə, öyrənməyə can atan, ləyaqət və mənliyini saxlamağı bacaran, sözündə və əməlində bütöv, ən əsası isə Vətənini, millətini sonsuz məhəbbətlə sevən, onun yolunda hər cür fədakarlığa hazır olan bir gənc fədai kimi tanıdım, sevdim. Həm də.50 illik bir müddət ərzində onu bu müqəddəs yoldan, amaldan bir an belə sapılan görmədim.

Famil Qarabağ həsrətilə dünyadan köçdü. Qarabağ harayı onun varlığına hakim kəsilmişdi. Famili düşünərkən vaxtilə Əhmədbəy Ağayevin milli müqəddəslərimizdən Həsənbəy Zərdabinin dəfn mərasimində dediyi sözlər yadıma düşür: "Dünyadan cümləmiz böyləcə gedəcəyiz! Heç bir şeyi aparmayacağız! Bizdən qalan fəqət o insanlıq, o öz millətimizə, öz taifəmizə və ümuminsaniyyət qulluq və xidmət qalacaq ki, əlan Həsən bəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor".

Millət fədaisi Famil Mehdi! Sənin də ruhun bizim üçün həmişə əziz və möhtərəm olacaq!

**"Günay" qəzeti, 40, 4/X.2003**

## BİZİM TƏQVİM

### *TƏZƏ İL, TƏZƏ MEYDAN*

Pəncşənbə günü Qəməri il, cümə günü də Şəmsi il təzələndi. Köhnə il bizə nə verdi, təzə il nə verəcəkdir?

Bu sualı edənlər o adamlardır ki, özlərini zaman nəhri (axar çayı) içində cərəyan edən hadisələrə tabe buraxıb, nə mövclər (dalğalar) ilə mübarizə etmək, nə də ki, sıhıla-səlamətə çıxmaq fikrində deyildirlər.

Cərayanı-havadis (hadisələrin cərəyanı) bunları nerəyə (haraya) sövq edəcəksə etsin, heç fərqi yoxdur.

Lakin belə olmaq yaxşı deyildir. Çünki hər bir nəhrdə şiş-şiş daşlar, qayalar olmaqdan başqa bir çox nəhrin də axarı dəryanın qəri-niyabıdır (dərin dibidir).

Doğrusu, biz belə sual verməliyik: köhnə ildə nə qazandıq, təzə ildə nə qazanılmalıdır?

İnsan ildən-ilə böyüyür, irilənir. Lakin bu böyüməklik yalnız bir bədənimizin cismani böyüməkliyi deyildir. İnsan mənən də böyüyür. Hər bir insanın təcrübəsi artır, biliyi çoxalır, daireyi-nəzəri (dünyagörüşü) genəlir. Əvvəlcə inanmadığı bir çox şeylərə inanır, əvvəlcə inanmış olduğu bir çox şeylərdən soyuyur, bir çox qaranlıq şeylər onun üçün işıq olur, belə olmaqla bərabər, hər bir təzə il hülul etdikdə (daxil olduqda) köhnə il insan üçün bir ibrət dərsi olur...

Huşyar (ağıllı) insan təzə ilə qədəm qoyduqda köhnə ildə başına gələn qəziyyələri (hadisələri), giriftar olduğu fənalıqları, o fənalıqları nədən və nerədən (haradan) əmələ gəldiklərini xatirinə gətirib səy edir ki, təzə ildə özünü belə fənalıqlardan qorusun, o fənalıqların zühuruna mane olsun. Vay o adamların halına ki, köhnə ilin ibrət dərslərini nəzəri-etibara almayıb fəramuş edələr! (xatırdən çıxaralar!) Keçən ilin dərslərini dürüst öyrənməmiş şagird təzə ildə cürbəcür çətinliklərə düşən kimi, bunlar da təzə ildə müxtəlif məşəqqətlərə düçar olub, belə məşəqqətlərdən xilas olmaq yolunu bilməyəcəklər və özlərini şaşırıb onsuz da ağır olan məişətlərini daha da müşkülata salacaqlar. Belə olan surətdə yaxşı deyilmidir ki, hər bir il özümüzü təzə il üçün hazırlayaq, yəni məişətimizi yüngül edəcək, özümüzü ağıllandıracaq və tərəqqi olan hər bir yaxşını inadlıq etməyib öyrənək və özümüzə zərər yetirən hər bir fənalığın dəfinə çalışaq, zühuruna razı olmayaq!

Heç kəs istəməz ki, bir dəfə düçar olduğu məşəqqət, fənalığı bir də təkrar etsin. Lakin onu istəməyən şəxs haman o bollu məşəqqət və fə-

nalığın dəfi yolunu da bilməlidir. Bilmək üçün də öyrənmək lazımdır. Öyrənmək də məlum olduğu üzrə elmi və təcrübə ilə nəşvü nüma (inkişaf) edər.

O adamlar ki, onların "günü keçibdir", yalan-doğru təcrübələr sayəsində bir növ gün keçirdilər. Lakin o insanlar ki, onların gələcəyi qabaqdadır və hal-hazırda qəyyumlar əli altında yaşamağa məcburdurlar, onlarıdamı elmsiz, biliksiz buraxmalıdırmı! Xeyr, onları, o balaca insanları gələcək həyat üçün hazırlamamaq insaf deyildir. Və illa (ancaq) gələcəkdə onların işinə hər nə fənalıq gəlsə, hər nə məşəqqət üz versə hamısının məsuliyyəti indiki qəyyumlarının üzərindədir. Allahtaala birisinə bir övlad kəramət etdikdə, onun qəlbinə övladına qarşı bir hiss-məhəbbət qoyur ki, o məhəbbət onun üçün balanı baldan şirin edir. Lakin balaya yalnız bir quru məhəbbət göstərmək azdır, çünki əgər iş yalnız məhəbbətə qalsa, onda bala öz valideynindən heç bir mənfəət görməz. Halbuki, valideyn isə haman hissi-məhəbbətindən ruhani ləzzət almağa başlar. Balanın canını sevən ata, ana, onun qeydinə də qalmalıdır ki, bu şirin və əziz bala dünyada sərbəst yaşamağa qədəm qoyduqda məişətinin tikanlı yolundan qorxmasın, mübarizeyi-həyatiyə meydanında qorxudan bağrı yarılmasın. Mübarizəyə girişməyə məcbur olduqda hadisələrin birinci zərbəsi altında tələf olmasın... Qərəz...

Hər bir təzə il insan üçün təzə bir meydani-mübarizə təşkil edir. Bu meydanda həyat mübarizəsi vaqe olur. İnsanlar, ilk meydana axdığı cərəyan-həvidisi (hadisələri) ilə mübarizə və müharibə eliyirlər. Vay o adamın halına ki, bu meydani-mübarizəyə əvvəl dəfə qədəm qoyduqda nə qılıncı ola, nə qalxanı.

**Üzeyir (Hacıbəyov)**
*"Həqiqət" qəzeti,*

***3 yanvar 1910-cu il N-2***

**"Günay" N1, 3 yanvar 2004**

## ƏVVƏL NƏ İDİKSƏ, YENƏ BİZ HAMANIZ!

2005-ci ilin sentyabrında 20-ci yüzillikdə Azərbaycanın yetirdiyi ən görkəmli şəxsiyyətlərdən birinin Üzeyir bəy Hacıbəyovun anadan olmasının 120 illiyi tamam olacaq. Bu il yanvarın 31-də Üzeyir bəyin məslək və əqidə dostu, onunla yanaşı durmağa layiq digər bir tarixi şəxsiyyətimiz - Milli İstiqlal hərəkatımızın lideri, türk və islam dünyasında ilk həqiqi demokratik cümhuriyyətin yaradılması işinə və fəaliyyətinə başçılıq etmiş görkəmli dövlət və siyasi xadim M.Ə.Rəsulzadənin anadan olmasının 120 illiyi tam olur. Hələlik baş bərk qarışıqdır. İkinci - hətta sayı məlum olmayan növbəti keçid dövrünü yaşayırıq. Digər tərəfdən daha mühüm və vacib yubiley "tədbirləri" var. Məsələn, keçən ilin noyabrında Milli Elmlər Akademiyasının rəhbərliyi "ictimai xadim" Mirmöhsün Ağanın (Ətağanın) anadan olmasının 120 illiyinin qeyd edilməsinə hazırlıqla əlaqədar xüsusi yığıncaq keçirdi (ətraflı bax. "Elm" qəzeti, N-39-40, 21 noyabr 2003-cü il). M.Ə.Rəsulzadənin anadan olmasının 120 illiyinin rəsmi qeyd edilməsi barədə danışmaq artıqdır. Amma Üzeyir bəyin yubileyilə əlaqədar indidən söhbət açmağın vaxtıdır. Məsələn, keçən il dekabrın 25-də, yəni 16 gün bundan əvvəl Üzeyir bəyin müstəqil nəşr etdiyi, müdir və redaktoru olduğu "Həqiqət" qəzetinin nəşrə başlamasının 95 ili tam oldu. Bu qəzet bir çox keyfiyyətlərilə özündən əvvəlki mətbuat orqanlarından fərqlənirdi. "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində jurnalistika və publisistika məktəbi keçmiş, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev kimi mütəfəkkir ustadlardan dərs almış Üzeyir bəyin "Həqiqət" qəzetindəki redaktorluq, jurnalistlik və publisistik fəaliyyətinin çox geniş və hərtərəfli öyrənilməsinin nəinki tarixi və hətta bugünkü günlərimiz üçün də əhəmiyyəti və faydası böyükdür. Qəzetin ilk nömrəsində "İdarə" imzası ilə verilmiş "Bəyanı-məslək" sərlövhəli baş məqalə bu baxımdan səciyyəvidir. Üzeyir bəy yazırdı: "Hər bir qəzetin müəyyən bir məsləki olmalıdır", "Həqiqət" adlı nəşrinə başladığımız qəzetənin məsləki nədən ibarət olacaqdır?" Müəllif bu suala cavab vermədən əvvəl "məslək nədir?" - məsələsini aydınlaşdırırdı. O, yazırdı: "Məslək - hər kəsin etiqad etdiyi bir yoldur, ümumin xoşbəxtliyini, asayiş və aramını, rifahin-halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəs ədd (hesab) olunmalıdır. Belə bir məsləkə xidmət edən şəxs haman məsləkə xəyanət etməməlidir". "Bizim məsləkimiz odur ki, millətimizin tərəqqisinə bais olan hər bir həqiqi vasitə və məsələlərə yol verməli və millətimizi cəhalətə və yaxud tərəqqiyi-məkusə (ziddinə) sövq edən şeyləri dəf və izalə etməkdir". Üzeyir bəy onun "məsləkinə müvafiq olmayan" yazılar sırasına "fitnə və fəsad qovzayan, qərəz-şəxsi ilə yazılmış olan, bir şəxsin heç kəsə zərəri olmayan və mənfəəti-amməni xələldar etməyən hərəkatını tənqid edən və yaxud heysiyyəti-şəxsiyyətinə toxunan, insanlıq heysiyyatını təhqir edən məqalələri" şa-

mil edirdi.

Üzeyir bəy "Həqiqət" adlı ilk müstəqil qəzetini nəşrə başlayanda H.Zərdabi artıq dünyasını dəyişmişdi, 1908-ci ildə Ə.Hüseynzadə, 1909-cu ilin yayında Ə.Ağayev vətəni tərk edib İstanbula köçməyə məcbur olmuşdular, təqiblərə məruz qalan "Molla Nəsrəddin" Tiflisdə çıxırdı. M.Ə.Rəsulzadə Tehranda fars dilində ilk Avropa tipli gündəlik "İrani-növ" (Yeni İran) qəzetinin baş redaktoru idi. M.S.Ordubadi qoçuların qorxusundan Bakıya gəlməyə cürət etmirdi. M.Ə.Sabir 1910-cu ildə ehtivac və təqib üzündən Şamaxıdan iş dalınca Bakıya gəlmişdi. Mətbu söz və fikir meydanı bir növ başlamış, cəhalətpərəst və qələm dəllallarının əlinə keçmək təhlükəsi yaranmışdı. Özlərinə "yeni", "təzə" ləqəb qoyanlar dəstəsi üzə çıxırdı: "Təzə həyat", sonralar "Yeni İrşad", "Yeni Füyuzat", "Yeni həqiqət" və s.

Üzeyir bəy bu "yeni"lərin milli mətbuatı necə nüfuzdan sala biləcəklərini, bu səbəbdən də ictimaiyyətin laqeydsizliyini "Həqiqət" qəzetinin elə birinci nömrəsində görün necə kəskin satira atəşinə tuturdu:

**Oyan-buyan**

"Birdən fərz elə, Avropada bir məmləkətdə, məsələn, Firəngistanda qəzetlərin hamısı durduğu yerdə bağlandı.

Onda nə olar?

Onda tamam Firəngistan bir-birinə dəyər. Kişi, arvad, uşaq hamısı bir-birinə qarışıb, bir çığır-bağır salarlar ki, qonşular dəli olarlar.

Biri çığırar ki:

- Ay kor oldum!

O birisi:

- Ay kar oldum!

Bir başqası:

- Ay lal oldum!

Banklar dayanar, birjalar sönər, fabrikalar batar, dəmiryol işləməz, paraxodlar dayanar, məclislər pozular, bazar-dükan bağlanar, teatrlar boş qalar - qərəz, zəlzələ olar, tufan qopar, hamı kar olar, kor olar, lal olar.

Bəs bizim qəzetlərimiz bağlansa nə olar?

- Heç zad!"

Bu vəziyyətin səbəbini Üzeyir bəyin "Həqiqət" qəzetində tez-tez öz satirik şerləri ilə çıxış edən M.Ə.Sabir 1910-cu il iyunun 14-də qəzetdə dərc olunmuş məşhur "Dindirir əsr bizi, - dinməyiriz" adlı şerində çox tutarlı şəkildə şərh etmişdir. Sabirin bir məşhur kəlamı da var ki, indi də öz qiymətini saxlayır: əvvəl nə idiksə, yenə biz şimdi hamanız!

**"Günay" N2, 10 yanvar 2004**

# AZADLIQ VƏ RİFAH YOLU MAARİFÇİLİKDƏN KEÇİR

Neçə yüz ildir ki, Şərqin uzaqgörən elm, maarif və mədəniyyət xadimləri yaşadıqları şəraiti, onun hədsiz çətinlik və məşəqqətlərini Avropa ilə müqayisə edir və çıxış yolunu məhz elm: maarif və mədəni tərəqqidə görürdülər? "Bir yerdə ki, elm və maarif olmadı, orada zülm və istibdad hökmfərma olar", "İstibdad olan yerdə istibdaddan törəyən hər nə murdar şeylər varsa, məsələn donosbazlıq, bir-birini şeytanlamaq, yalan söyləmək, quyruq bulamaq, əl-ayaq öpmək və hər cür rəzalət dəxi hökmfərma olar".

Vaxtilə Üzeyir bəy məqalələrindən birində soruşurdu: "Nədəndir ki, Yevropada hədsiz adamlar çıxır ki, öz ağıl, fərasət və qabiliyyətləri ilə yalnız öz millətlərinə deyil, bəlkə ümuminsaniyyətə həm maddi və həm mənəvi mənfəət yetirirlər, amma bizim içimizdən elələri çıxmayır?", "Məgər Allah-Təala bizi qabiliyyətsiz, istedadsız yaradıbdır? Xeyr! Bizim hamımızın xilqəti birdir. Ancaq mühitimiz, olan şərait bizim dahilər üçün müsaid deyildir, bizdən də ümuminsaniyyət dahiləri çıxmağa yol vermirlər və işıq gələn yerləri bərk-bərk bağlayırlar", "Belə bir ağır şərait içində yaşadığımız halda bizim içimizdə ingilislərin şekspirlərinə müqabil adamlarımız olmadığı təbiidir, lakin orasını unutmamalıdır ki, bizim millətimiz üçün də indi və ya gələcəkdə şekspirlər istedadında yaradılmış adamlar yox deyildir. Vardırlar və bədbəxtlik burasıdır ki, biz öz cəhalətimizlə o dahilərin zühuruna mane oluruq".

Bu cəhalət və nadanlıq nə vaxta qədər davam edəcək? - əsas məsələ budur!

Vəziyyətimizi ağırlaşdıran mühüm cəhət oxumuşların bir qisminin nadanlığı və cəhaləti aradan qaldırmaq uğrunda mübarizədə nəinki iştirak etməmələri, hətta onu müxtəlif vasitələrlə müdafiə etmələridir. Vaxtilə Həsən bəy Zərdabi bu milli xəstəliyi də görmüş və bu barədə ilk dəfə açıq-saçıq yazmışdı: "Bəziləri məktəbxanalara məhz bu qəsd ilə giriblər ki, oxuyub bəy (yəni, vəzifə sahibi) olsunlar, yəni basıbkəsmək ixtiyarını kəsb eləsinlər. Əlbəttə, belə bəylik axtaran kəs xalqın xoşbəxtlik fikrini çəkməz. Onun üçün pul gərəkdir ki, kef-damağa məşğul ola və millət əvəzinə heyvan gərəkdir ki, ona hamilik edib, öz bəyliyini zahir edə. Bu səbəblərə zikr olan şəxslər ol məktəbxanalarda elm təhsil etmək acı olduğuna onu heç dadmayıb, ancaq adətlərin

dəyişdiriblər, yəni yeyib-içib geyib, durub-oturmaqda özlərini xaricilərə oxşadıb, əslən elmdən bixəbər qalıblar". ("Əkinçi", N-6, 1877)

Yeri gəlmişkən qeyd edək ki, hər şeyi elmi məntiq, qanun və inandırıcılıqla deyil, zorla, sıxma-boğmaya salmaq, iqtisadi, mənəvi-psixoloji təzyiq yolu və kütləvi-sürü instinkti vasitələrilə həll etmək, həyata keçirmək kimi bədnam təcrübə Rusiya və digər müsəlman Şərq ölkələrində də uzun müddətdir davam etməkdədir. Bu yaxınlarda Sankt-Peterburqda nəşr olunmuş "Ot Rasputina do Putina" kitabının əsas tarixi qəhrəmanlarından biri - qraf S.Y.Vitte öz xatirələrində yazırdı: "Təbliğat inandırma yolu ilə deyil, zorakılıq yolu ilə aparılmalıdır: ya mənə itaət et, ya da sən mənim düşmənimsən... Mən belə düşünürəmsə, deməli, bu, belədir. Mən belə istəyirəmsə, deməli bu, həqiqətdir. Həqiqət - mənim dediyimdir. Müti lakeylər və araqızışdıranlarla əhatə olunmuş belə psixoloji ab-havada çox asanlıqla hər cür yanlış yollara düşmək olar".

XX əsr tariximizi və başımıza gətirilən bəlaları xatırlayarkən bu vaxta qədər adına və əsərlərinə rast gəlmədiyimiz, rəsmi və elmi dairələrin üstündən sükutla keçdikləri məşhur bir rus mütəfəkkir yazıçı və publisisti Konstantin Nikolayeviç Leontyevin (1831-1891) vaxtilə uzaqgörənliklə yazdıqlarının yenidən həyata qaytarılmasıdır. Bir çox elmi və publisistik əsərlərin, o cümlədən "Orta avropalı dünyanı bütünlüklə dağıtmaq idealı və vasitəsi kimi" ("Средний европеец как идеал и орудие всемирного разрушения"), "Şərq, Rusiya və slavyanlıq" ("Восток, Россия и славянство"), "Türkiyədə yaşayan xristianların həyatından" ("Из жизни христиан в Турции"), "Milli siyasət dünya inqilabının vasitəsi kimi" ("Национальная политика как орудие всемирной революции") və s. əsərlərin müəllifi XIX yuzilliyin ortalarında Avropa üzərində kommunizm kabusu dolanırkən yazmışdı: "Əgər kommunizm küləyi Rusiyadan yan keçməsə, hələ dərd yarıdır. Ölkə bu vəziyyətdən çıxmağa başlayanda əsl fəlakət olacaq".

K.N.Leontyev yazırdı: "Yer üzündə haqq və ədalətə nail olmaq mümkün deyil - bu, həyatın özünü, bir-birinin tam əksi olan mahiyyətlər arasında mübarizə və təzadın mahiyyəti olan gözəlliyi məhv edər".

Son illər keçmişə, insanlığın tarixi və taleli problemlərinə dair yeni baxışlar, fərziyyələr səslənməkdə, ümunni və fərdi əsərlər işıq üzü görməkdədir. Qloballaşma reallaşdıqca, ünsiyyət vasitələri sahəsində yeni kəşflər ortaya çıxdıqca, bəşəriyyəti riqqətə gətirən və həyəcanlandıran təbii fəlakətlərin masştabı genişləndikcə dünyamız haqqında əvvəlki nikbinlik atmosferi bəzən öz yerini pessimist meyllərə verir.

Planetin sürətlə istiləşməsi prosesi, günəş enerjisinin qeyri-bərabər bölgüsü nəticəsində baş verən tufanlar, daşqınlar, görünməmiş fəsadlar və s. elm adamlarını hədsiz dərəcədə düşündürür. Bununla əlaqədar hətta yeni, bu vaxta qədər təsadüf etmədiyimiz fərziyyələr belə səslənməkdədir. Məsələn: "Bütün mövcudiyyətin parçalanmasının kosmik qanunları" və s. kimi. Əlbəttə, yadda saxlamaq lazımdır ki, "maarifçilik azadlığa doğru aparır, maarifsiz azadlıq isə hərc-mərcliyə, anarxiyaya, fanatizmə gətirib çıxarır".

Biz, diqqət verilsə məhz bu dövrü yaşamaqdayıq, ancaq nə vaxta qədər?

**"Günay" N4, 24 yanvar 2004**

M.Ə.RƏSULZADƏ – 120

## HƏR BİR XALQ ÖZ TALEYİNƏ LAYİQDİR, VİCDANIMIZ NECƏSƏ, VƏTƏNİMİZ DƏ ELƏDİR!

**Bu gün Ü.Hacıbəyovun "vətən övladı" adlandırdığı M.Ə.Rəsulzadənin anadan olmasının 120 illiyi tamam olur. indiki nəsil türk və islam dünyasında ilk həqiqi demokratik respublika nəzəriyyəsini, onu həyata keçirməyin strategiya və taktikasını işləyib hazırlayan və reallaşdıran mücahidlər və mübarizlər ordusunu yaradan və heç bir vəzifə iddiasında olmayan bu tarixi şəxsiyyəti lazımınca tanıyırmı? Bu suala müsbət cavab vermək çətindir! M.Ə.Rəsulzadənin adını eşidənlər, onun haqqında bəzi yazılan səthi məlumatları oxuyanlar az deyil. Lakin sözün həqiqi mənasında ilk milli, həqiqi demokrat, dövlət və siyasət adamını tanımaq üçün onun qoyub getdiyi tarixi, mənəvi irsi öyrənmək, tədqiq etmək gərəkdir. Bu sahədə qardaş Türkiyə tədqiqatçılarının səyləri, araşdırmaları, nəşrləri bizə nisbətən daha əhatəli, geniş və hərtərəflidir. M.Ə.Rəsulzadə və milli dövlətçiliyimizi bərpa etmiş digər siyasət və dövlət xadimlərinə qarşı 70 il davam edən böhtan, iftira, saxtakarlıq təbliğatına hələ indi də son qoyulmamışdır. İctimai, iqtisadi, siyasi sistem dəyişsə də, keçmiş müsavat düşmənçiliyi bütün dəhşətilə davam etməkdədir. İstiqlalımızın ilk illərindən - 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində**

Azərbaycanın müstəqilliyi uğrunda gedən ölüm-dirim savaşında üzə çıxmayan, meydanda görükməyənlər indi özlərini əsrin "qəhrəmanları" elan edirlər. Vaxtilə rus dilində nəşr olunan qəzetlərdən biri yazmışdı: "Biz çətin dövr yaşamışıq. Amma bu dövr geridə qalıbmı? Tariximizin müharibədən başlayan, nisbətən qısa dövründə nə qədər səhvlərə yol vermişik, nə qədər cinayətlər törətmişik, öz üzərimizə nə qədər ağır məsuliyyət götürmüşük... Hələ müharibə özü! Onun səbəbləri, gedişatı, nəticələri... Məgər biz bu müharibədə qalib gələ bilməzdikmi? ...İndi Vətənin "xilaskarları" çoxdur. Onlar bütün dəlmədeşiklərdən çıxırlar. Bəs o vaxt harada idilər? Axı, məlum olduğu kimi, Vətənin xilas edilməyə nə qədər az ehtiyacı varsa, belə anlarda bu cür "xilaskarlar" bir o qədər çox olur. Belələrinin çoxu o vaxt barrikadanın hansı tərəfində dayanmağı özləri üçün qət etməmişdi... Bəşər mühakiməsi artıq gecikib. Tarixin mühakiməsi isə hələ başlamayıb! "

M.Ə.Rəsulzadə bir milli mücahidin vida mərasimilə əlaqədar çıxışında demişdi:

"Ölülərimizi xeyirliyə yad etmək mədəniyyətimizin və ictimai tərbiyəmizin tələbidir.

Məzarları başında məziyyətlərindən bəhs etmək vida mərasimlərinin ənənəsidir.

Vətənin hürriyətilə istiqlalı lehinə yapılan milli mücadilənin qurbanları olan azərbaycanlıları təqdirlə anmaq borcumuzdur.

Siyasət və hər hansı digər bir sahədə fərqlənmiş vətəndaşların həyatını obyektiv bir qavrayışla təsvir etmək tarixçilərin vəzifəsidir".

İndi isə bu yubiley günündə M.Ə.Rəsulzadənin bizim günlərdə də öz dəyərini və əhəmiyyətini saxlayan bəzi kəlamları ilə tanış olaq! Nəzərə alın ki, bunlar 1909-1914-cü illər ərzində yazılanlardır. Hələ müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına 4 il qalmışdı. Bu demokratik cümhuriyyətin nəzəri əsaslarını M.Ə.Rəsulzadə məhz bu illərdə müəyyənləşdirirdi. Tarixçilik etmək, M.Ə.Rəsulzadə barədə fikir söyləmək iddiasında olan bəzi şair, yazıçı, dilçi və digər diletantlar, artistlik edən bəzi tarixçilər qoy onun bu dövr yazdıqlarını və tərəfimizdən xüsusi cild halında nəşr olunmuş əsərlərini diqqətlə oxusunlar. M.Ə.Rəsulzadənin məslək və əqidə dostu Ü.Hacıbəyov yazırdı: "Amal və yüksək fikir sahibləri mübarizə əsnasında böyük bir mənəvi qüvvəyə malik olurlar ki, o mənəvi qüvvət onların cismani qüvvəsini ikiqat artıracaq dərəcədə əhəmiyyətli və mənidardır". Yadda saxlayaq ki, M.Ə.Sabir demişkən vicdanımız necəsə, vətənimiz də elə olacaqdır!

"Əgər Avropa bu gün gözqamaşdıracaq qədər tərəqqi etmiş, parlamış isə, ancaq mütəxəssisləri sayəsində parlaya bilmişdir. Avropada hər kəs edadi (orta) dərəcəsində ümumi məlumata dara olduqdan sonra özünə müəyyən bir bilik xətti seçir və o yolda ixtisas peyda edir. Avropalı yalnız bir şey öyrənər. Fəqət öyrənmək kimi öyrənər. Onu tamamilə təkmil edər.

Halbuki, Şərqdə, ələlxüsus biz müsəlmanlarda bu böylə deyildir. Biz Krılovun ördəyi kimi dənizdə üzmək, yerdə gəzmək və havada süzmək istəriz. Çox peşə ediniriz. Fəqət bilgimiz pis olur. Halbuki avropalılarca "çox peşə, pis bilik nə hacətdir, birini yaxşı bil, kifayətdir".

**"Bəsirət", 3 may 1914, N-4**

"Heç bir mərifət və fəzilətə bir mənqur qiymət qoymayan Bakının pullu ruhunun təzyiqi altında olanlar milyonları güdürlər! Güdsünlər! Heç eybi yoxdur!"

**"Bəsirət", 12 aprel 1914, N-1**

"Bir zaman vardı ki, biz daima Qərbə bənzəmək istər, sənət ilə və musiqimizdə avropalıları kor-koranə təqlid edərdik. Fəqət bu təqlid məəttəəssüf tamamilə avropalılar içində münhəm olub da (əriyib də) yox olmaqdan ibarət olardı. Hətta indi bir çox hallarımız böylədir... Avropalılardan sənətə race (aid) olan xüsuslarda ancaq şəkil və tərtibi almalıyıq, məna və ruh milli qalmalıdır".

**"İqbal", 13 mart 1914, N-599**

"XX əsrdə dinclik və rahatlıq barədə düşünmək olmayacaq. Bir qovğa qurtarmamış, ayrı bir inqilab başlayır, siyasət aləmi günbəgün dəyişir...

Dövlət başçılarından başqa ölkə üçün dost və düşmən təsəvvür etmək olmaz. Millət əgər öz vəzifəsini yerinə yetirsə, düşmənlər də dost olacaqlar. Əgər öz vəzifəsini yerinə yetirə bilməzsə, dostlar da düşmən olarlar".

**"İrani-nov",**
**26 avqust 1909, N-4**

"Cari vəsilələr (vasitələr) ilə müdafiələrini mümkün görməyənlər həmişə qalibiyyəti möcüzələr və xariqələrdən gözləmişlər. İslamda dəxi hikmət və elm etiqada mərbut (bağlı) qaldığından hərəkətsiz və atil (ətalətli) qalmışdır. Fikir hürriyyəti ilə fikir fəaliyyəti lüzumsuz görünmüşdür. Bu səbəblə də islam aləmi ətalət və durğunluq keçirməyə məcbur olmuşdur".

**"İqbal",**
**24 noyabr 1914, N-796**

"Əqidə, amal və məsləki yolunda ölümünə razı olub da nəfsini fəda edən kim olursa-olsun böyükdür".

**"İqbal",**
**14 noyabr 1914, N-790**

"Özünü bilməyən, milli vicdanı, inkişaf və həyatı qayəsini təyin etməyən insan qruplarını bir millət kimi qəbul etmirlər və gələcəkdə də qəbul etməyəcəklər".

**"İqbal",**
**12 oktyabr 1914, N-761**

"Müsəlman aləmini bərbad edən ən böyük illətlərdən (xəstəliklərdən) biri də ayrı-ayrı fikirlərə hürriyyət verməsiyi və yeni fikir və ictihadları (səyləri) eşitməyə təhəmmül etmədiyidir (dözməməsidir).

Bizdə təzə bir fikir meydana qoyuldumu haman arı yuvasına çöp uzadılan kimi hamısı yerindən qalxar, hay qoymayın - deyə küy qopar. Bu günə xilaf oldu, o mövcud olan əsaslara müqabil çıxdı. O biri kafir oldu, digəri bilməm nə oldu - deyə hücum olunar. Nəticədə, isə zərər çıxaran həqiqət olar ki, bunun sonunda həqiqətdən məhrum qalan camaat cəzasını çəkər. Halbuki fikirlərin toqquşmasından həqiqət qığılcımı parlar!"

**"Bəsirət", 7 iyun 1914, N-9**

### *"MİLLƏT VƏKİLLƏRİ"*

Ey millətin seçilmişləri! Siz bu gündən böyük məsuliyyət qarşısındasınız. İranın bütün məzlumları, yoxsulları, evləri dağılanlar, avara qalanlar, yiyəsizlər, yetimlər, darda qalanlar hamısı gözlərini sizə dikiblər. Bu torpaqda doğulmuşlar - yuxarılar və aşağılar, ağıllılar və cahillər hamılıqla sizin qanunlara müvafiq kifayət qədər vətənpərəst tədbirlərinizə ümid bəsləyirlər. Ölkə böhran odunda yanır, onu söndürmək lazımdır. Vətən uçurum qarşısında qalıb və gözləyir ki, ona nə vaxt kömək əli uzanacaq. Siz də həmin vəzifəni icra etmək üçün seçilmişsiniz və onun həllinə məsulsunuz.

Təkcə İran gözünü sizə dikməyib, bu gün bütün mədəni ölkələr dörd gözlə sizin görəcəyiniz işlərə diqqət yetirir.

Sizi bu yüksək məqama qaldırmış vətən şəhidləri indi torpaq altından, qəbirlərdən torpaqla dolmuş gözlərini sizə və sizin qeyrətinizə, himmətinizə dikiblər... Bütün xalqın yanıqlı baxışları sizə dikilmişdir, siz onların ümidisiniz... Sizin gördüyünüz işlər vətən şəhidləri, azadlıq mücahidləri" və vətən istiqlalı yolunda canından keçənlərin ruhunu şad edəcəkdir".

***"İrani-nov", 15 noyabr 1909, N-67***

**"Günay" N5, 31 yanvar 2004**

## STOLIPİN YENİ ƏSRDƏ KİMLƏRƏ LAZIM OLUB?

Rusiya Federasiyasında həyatın bütün sahələrində cərəyan edən görünən və görünməyən proseslər, hadisələr dünyanın diqqətini cəlb etməkdədir. 20-ci yüzilliyin sonunda böyük dövlət statusunu itirmiş, iqtisadi, ictimai-siyasi cəhətdən yüksək inkişaf etmiş Qərb və bəzi Şərq ölkələrindən geridə qalmaqda davam edən Rusiya 21-ci yüzillikdə necə bir yol və dövlət idarə forması seçəcək, bu və ya buna bənzər suallara cavab axtaranlar çoxdur. Həm də qeyd edək ki, bu məsələlər elə indinin də problemləri deyil.

XIX əsrin məşhur islahatçı xadimi A.İ.Koşelev yazırdı: "Bürokratiya Rusiyanın əvvəlki, indiki və hələ gələcək bəlalarının da mənbəyidir". Başqa bir tarixçi isə bu barədə yazmışdır: "Rusiyada əsas məsələləri hər hansı başqa ölkədə olduğundan daha artıq dərəcədə aktiv azlıqlar həll edir, onlarca və yüzlərcə qəzalar deyil, minlərlə və milyonlarla

insanlar deyil, hakimiyyətin cəmləşdiyi Peterburq, sonralar isə Moskva həll edir".

Rusiyanın gələcək taleyi, onun vətəndaşları, qonşuları və dünya xalqları və dövlətləri ilə münasibətləri məsələsi də yenidən gündəmdədir. Bu işə təkcə dövlət və siyasət adamları deyil, son vaxtlar mədəniyyət xadimləri, tarixçi və humanitar peşə sahibləri, hətta bəzi texniki və dəqiq elm xadimləri də qoşulmuşlar. Keçən il Peterburqda "Rasputindən Putinə qədər və ya XX əsrin 50 peterburqlusu" ("От Распутина до Путина или 50 петербургцев XX века") adlı kitab nəşr edildi və sürətlə yayıldı. Diqqəti cəlb edən təkcə indi Rusiyada hakimiyyətdə olan peterburqluların regionçuluq, yerliçilik meylləri deyil, həm də bəzi tarixi hadisə və şəxslərə uzun müddət ədəbiyyat və rəsmi sənədlərdə verilmiş qiymətə yenidən baxılmasıdır. Məsələn, bu kitabda Stolıpin haqda oxuyuruq: "Pyotr Stolıpin imperator Nikolayla təsadüfən -imperator Saratov quberniyasından keçib gedərkən, bu diyarın qubernatoru kimi tanış olmuşdur. 1906-cı ilin baharında Stolıpin aqrar iğtişaşları bacarıqla ram edəndə isə çar 42 yaşlı bu qubernatoru ölkənin daxili işlər naziri təyin etdi. 2 aydan sonra isə o, DİN şefi vəzifəsini arxada qoyaraq, Nazirlər Sovetinin sədri oldu". Müəlliflər bildirirlər ki, "Stolıpin təkcə iqtidarın qüvvəsində deyil, həm də ölkə əhalisinin rəyində özünə dəstək tapa bilmişdi, ölkədə onu həyatın qurucusu və qarışıqlıqdan müdafiə edə biləcək bir şəxs hesab edirdilər. Onun devizi belə idi: "Əvvəlcə ram etmək, sonra islahatlar aparmaq lazımdır". Pyotr Stolıpin öz siyasətinin əsas məqsədini Rusiyanın bütövlüyünü və böyük dövlət statusunu qoruyub saxlamaqdan ibarət hesab edirdi".

Stolıpini "Rusiyanın ən görkəmli islahatçısı" hesab edənləri cəlb edən ilk növbədə məhz bu ideyadır. Bəs vaxtilə onunla bir vaxtda yaşayanlar, onun zülmünü görənlər nə fikirdə idilər? Bir neçə xarakterik nümunə:

## ÜZEYİR HACIBƏYOV:

"Hamıya məlumdur ki, məmləkətdə inamsızlığın törəməsinə səbəb Rusiyada mütləqiyyət idarəsinin davamıdır və bunun, bu çürümüş və "dəbdən" düşmüş idarənin davamına səbəb dəxi stolıpinlərin özləri və öz havavü həvəsləridir. Stolıpinin sözlərindən bu məna anlaşılır ki, mütləqiyyət idarəsinə qarşı etiraz olunmasa idi, divani-hərblər (hərbi məhkəmələr) dəxi qurulmazdı, biz isə deyirik ki: "Bu doğrudur, amma nə eyləmək ki, idareyi-mütləqiyyənin silqətinə əhalinin dəxi tab edəcək qədər qüvvəti və səbri yoxdur; halbuki, hamısından gözəl burası idi ki, əgər həqiqi qanuni-əsasi verilib qayda

üzrə idareyi-məşrutə bərpa olunsa idi, həm camaat üçün səadət olardı, həm intizamsızlıqlar olmazdı və buna görə də divani-hərblərin dəxi qurulmağı lazım gəlməzdi"...

**"İrşad", 22 mart 1907, N-50**

**M.Ə.RƏSULZADƏ:**

"Stolıpinin ağlına çox şeylər gəldi: məsələn, voyenni polevoy sudlar, cəza qoşunları, qəzetləri bağlamaq, top, tüfəng, xülasə Stolıpinə layiq çox şeylər"...

**"Təkamül",**
**23 dekabr 1906, N-2**

"Millət yolunda baş və canından keçən, hüquq və həqqaniyyətə özünü qurban verməyə müstəid olanları seçin! Seçin belələrini və bunun ilə göstərin ki, siz müsəlmanlar da Stolıpin idarəsinin "sakitedici" politikasından bezarsınız!"

**"Təkamül", 11 yanvar 1907, N-4**

**ƏLİBƏY HÜSEYNZADƏ:**

"Baş vəkil bulunan Stolıpinin tədbiri ilə qurulan divani-ürfi əsgəri mühakiməsi ilə hər gün beş-on adam vurulub asılıyor, edam olunuyor. Bu, yuxarıdan aşağı olan terrordur... Stolıpin cənabları diyor ki, "əvvəl cəbr və şiddət sayəsində asayiş və sükunət, sonra nizami-məşrutiyyət və hürriyət"... Əksini iddia edənlərin məsləkinə görə "Əvvəl nizami-məşrutiyyət və həm də parlamentarizm" qaydası ilə məşrutiyyət və hürriyyət təqərrür edərsə, sonra asayiş və sükunət öz-özünə peyda olar"...

**"Füyuzat", 8 dekabr 1906, N-4**

Rusiya Federasiyası prezidentliyinə namizədlərdən biri -İrina Hakamada bu günlərdə jurnalistlərlə görüşündə demişdir: "Məgər siz görmürsünüz ki, ölkədə nələr baş verir, görmürsünüz ki, hakimiyyətə "bozlar" gəlmişdir, onlardan sonra isə, məlum olduğu kimi, "qəhvəyilər" gələcəklər".

Azərbaycanın indiki bəzi qəzetlərində də Stolıpinin müasir tərəfdar və təbliğatçılarına rast gəlirik. Deyəsən, onun ölkəni idarə etmək təcrübəsi onların da ürəyincədir. Stolıpinin cəhdləri boşa çıxdı. Rusiya imperiyası dağıldı. Onun yolu ilə gedən sovet rejiminin də aqibəti bəllidir. Həqiqi demokratiya, çoxluğun hakimiyyəti və azlığın hüquqlarının qorunması prinsiplərinə əsaslanan sistemin alternativi yoxdur.

**"Günay" qəzeti, N6, 7 fevral 2004**

## RUSİYA YAPON MÜHARİBƏSİ və "SKVOZNYAK" ƏHVALATI

Bu ilin fevralın 9-da Rusiya-Yaponiya müharibəsinin başlamasının 100 ili tamam oldu. Rusiya hərbiçiləri bu müharibədə qəhrəmanlıq göstərmiş öz sələflərini - ata-babalarını yad edir, yaponlar tərəfindən batırılmış hərb gəmilərinin ("Baryaq", "Koreyets") adlarını yeni gəmilərə qoyur, vuruşların cərəyan etdiyi rayonlara səfərə çıxırlar. Bu hərbçilərin işidir. Bəs tarixçilər nə yazırlar, Rusiyanın bu müharibədə məğlubiyyətinin səbəblərini nə ilə izah edirlər? İmperializm dövrünün bu ilk müharibəsinin Rusiyanın gələcək taleyində oynadığı rol barədə nə fikirdədirlər? 100 ildən sonra Rusiya və Yaponiyanın müasir dünyadakı rolu və mövqeyi necədir? Hər iki ölkə əhalisinin günü-güzaranı nə vəziyyətdədir?

Müharibənin başlanmasının səbəbi tarixçilərin yazdıqları kimi Koreya və Çin torpaqlarını bölüşdürmək, vaxtilə M.Ə.Rəsulzadənin yazdığı kimi "Camaat tərəfindən özlərinə bir "etibar" qazanmaq üçün Qərbdə işləyə bilməyib, Şərqə pəncərə açmaq istədilər...". Müharibə dövrünün görkəmli dövlət və siyasət xadimi qraf S.Y.Vitte öz "Xatirələr"ində bu fikri belə ifadə edirdi: "Polyaklar, finlandiyalılar, almanlar, latışlar, gürcülər, ermənilər, tatarlar və sair və ilaxır bizə azlıq etdi, biz, üstəlik monqolların, çinlilərin, koreyalıların yaşadıqları əraziləri də özümüzə birləşdirmək istədik. Rusiya imperiyasını sarsıtmış müharibə bu səbəbdən başlandı".

1905-ci il yanvarın 6-da müharibə və onun nəticələrilə əlaqədar Bakıda gizli nəşr edilib yayılmış bir vərəqədə deyilirdi: "Port-Artur süqut etdi. Hökumət 100 milyonluq xalqın başını hələ dünənə qədər qataraq deyirdi: "A.M.Stessel qəhrəmandır, Arturdakı azuqə hələ yarım il də bəsdir. Qoşunların əhvalı əladır. Yaponlar isə milçək kimi qırılırlar".

Və bütün bunlar ağ yalan imiş. Biz əsl həqiqəti yalnız indi bilmişik. Müharibə çar hökumətini yaman yerdə yaxalamışdır. Port-Arturda lazımlı sayda top, döyüş sursatı yox idi, ehtiyatlar kifayət qədər deyildi. Əsgərlər arasında aclıq və sınqa xəstəliyi tüğyan edirdi. Port-Arturun 50.000 müdafiəçisindən 25.000 nəfəri qətlə yetirilmişdir. Sağ qalan 25.000 nəfərdən isə 14.000 nəfərinin yaralı və 10.000 nəfərinin sınqa xəstəliyinə tutulmuş olması aşkar edilmişdir. Onların arasında bircə nəfər də sağlam adam yoxdur.

Hökumətin düzgünlüyü belə imiş".

Rusiyanın XX əsrin əvvəllərində özündən ərazi, iqtisadi və hərbi

potensial cəhətdən o qədər güclü olmayan Yaponiyaya biabırcasına məğlub olması, ölkədə hökm sürən dərəbəylik, özbaşınalıq, əsasları sarsılmış mütləqiyyət rejimi ilə bilavasitə bağlı idi. Tarixçilərdən biri yazırdı: "Bu mənfur və biabırçı müharibə Rusiyanı uzun müddətə taqətdən salmış, onun qəlbini xoşagəlməz hiddət hissləri ilə doldurmuşdur. Hökmdarın özündən daha səfeh hesab etdiyi adamlardan başqa heç kəsi görməyə gözü yox idi, vəziyyət isə çox kədərli, gərgin və sarsıdıcı idi, çar bu yalan və hiylə bataqlığında üzmək istəyirdi". Böyük dövlətçilik xülyaları ilə yaşayan rus millətçiləri özünə məxsus bir vətənpərvərlik prinsipi irəli sürmüşdür. Bu prinsipə görə, "öz vətəninin - böyük Rusiya imperiyasının sədaqətli oğlu və hökmdarın etibarlı təbəəsi olmaq istəyirsənsə sənin familiyan "ov" şəkilçisi ilə bitməlidir, sən özün pravoslav olmalı və Rusiyanın mərkəzində doğulmalısan".

Rus-yapon cəbhəsində Rusiyanın məğlubiyyəti ölkəni inqilab qarşısında qoydu. M.Ə.Rəsulzadənin yazdığı kimi "Qərbə bir pəncərə varkən, Şərqə də bir pəncərə açıldı. Pəncərə açıldı, nə açıldı... Hürriyyət "skvoznyak"ı bu başdan vurub o tərəfdən çıxdı. Tufan eləyib bu vaxta kimi yığışan "nizam və qayda"ları vurub dağıtdı. Camaatı da Avropadan götürdüyü "azarlara" mübtəla edib, böyük-böyük iddialara saldı". O vaxtkı qəzetlərdən biri yazırdı: "Bizim əsl düşmənimiz Uzaq Şərqdə deyil - bizim düşmənimiz halal zəhmətlə qazandığımız qəpik-quruşları əlimizdən alıb havaya sovuranlardır, bizim düşmənimiz - bizi qəsdən zülmətdə saxlayanlardır, bizim düşmənimiz - küçələrdə köməksiz insanları güllələyənlərdir", "bizim evimizdə - Rusiyada qayda-qanun yoxdur, xalq illərlə ac qalır, xalq dilənçi vəziyyətindədir, hər bir polis məmuru bizə zülm edir, saysız-hesabsız rəislərin özbaşınalığı, qəyyumluğu bizim əl-qolumuzu bağlayıb".

Rusiya-Yaponiya qarşıdurması bütün XX əsr boyu davam etdi. 1945-ci ilin sentyabrında Yaponiya müttəfiqlərə təslim oldu. II Dünya müharibəsi Yaponiya üçün çox böyük facia ilə nəticələndi. Müharibədən 59 il keçib, lakin hələ də əvvəlcə Sovet İttifaqı, sonra isə Rusiya Federasiyası ilə sülh müqaviləsi imzalanmayıb. Səbəb, ərazi məsələsidir. Bəs hər iki ölkənin - qalib Rusiya ilə məğlub Yaponiyanın indiki vəziyyəti necədir? Rusiyadakı indiki vəziyyət oxuculara məlumdur.

Bəs Yaponiya haqqında mövcud məlumatlar necədir?

Mütəxəssislər yazırlar: Qısa müddətdə bu ölkə çox böyük yol keçmiş, elmdə. texnikada təhsildə sənayedə və ticarətdə böyük uğurlar qazanmışdır. Yaponiya dünyada əsas kreditora çevrilmişdir.

Elm üçün ayrılan xərclərin nisbi payına görə, Yaponiya inkişaf etmiş ölkələr arasında birinci yeri tutur, elmi işçilərin sayı isə birlikdə

götürülmüş AFR-də, Böyük Britaniyada və Fransada olduğundan çoxdur. Yapon fəhləsinin peşəkar hazırlığı Amerika fəhləsinin hazırlığından yüksəkdir.

Yaponiyada kənd təsərrüfatı sahəsində də məşğul əhalinin sayı cəmi 4 milyon nəfərdir, becərilən torpaqların sahəsi isə ölkə ərazisinin cəmi 14 faizinə bərabərdir, lakin onlar ölkənin ərzaq məhsullarına tələbatının əsas hissəsini, o cümlədən düyüyə və tərəvəzə tələbatı tam həcmdə təmin edirlər.

Yaponiya təsərrüfatının beynəlxalq iqtisadi əlaqələrə müstəsna dərəcədə sıx cəlb olunması onun çox mühüm xüsusiyyətidir.

Yaponiyada təhsil, peşə hazırlığı, əməksevərlik, işçilərin özlərinin intizamı, onların daim texniki cəhətdən təkmilləşməyə can atması çox yüksək səviyyədədir.

Yaponiya sağlam insanlar diyarıdır. Burada uşaq ölümü göstəricisi ən aşağı, orta ömür müddəti isə ən yüksəkdir: kişilərin orta ömrü 79,9 il, qadınların orta ömrü isə 84 ildir. Ölkə əhalisinin 99 faizi yaponlardır.

Yaponiya yüksək mədəniyyət və başdan-başa savadlılar ölkəsidir. Yaponiyadakı universitetlərin sayı bütün Qərbi Avropadakından çoxdur.

90-cı illərin axırlarında dünyada 450 nüvə - enerji bloku işləyirdi. Bu sahə Yaponiyada da çox inkişaf etmişdir. Orada 30 AES vardır.

Təsadüfi deyildir ki, mütəxəssislər get-gedə daha çox hallarda XXI əsri "Sakit Okean yüzilliyi" adlandırırlar.

Rusiya M.Ə.Rəsulzadənin vaxtilə yazdığı kimi "skvoznyak"dan hələlik canını qurtara bilməyib. Çünki rus şovinizminin əsasını qoyanlar bu fikirdə olublar ki, guya "Rusiya və Avropa - iki müxtəlif mədəni-tarixi aləmdir, onlar siyasi, dini, milli məişətin və xarakterin əsaslarına görə bir-birindən prinsipial şəkildə fərqlənirlər". Bu Şərqə də aid edilir.

İnkişaf və tərəqqinin Yapon təcrübəsi öyrənilməyə, təqlidə və tətbiqə layiqdir. Həyat bunu deyir.

**"Günay" qəzeti, N7, 14 fevral 2004**

# TƏNBƏLLİK VƏ ƏTALƏT BƏLASINA QARŞI HƏYƏCAN TƏBİLİ

**Neçə-neçə əsrlərdir ki, həyatın bütün sahələrində sürətlə inkişaf etməkdə olan Qərblə, ətalətdən yaxa qurtara bilməyən İslam Şərqi arasında qarşıdurma müxtəlif səviyyə və formalarda davam etməkdədir. Bəşəri inkişafın ümumi gedişinə əngəl törədən islam ölkələri və xalqlarının giriftar olduqları və izahı anlaşılmaz görünən ətalət, fanatizm bəlasının aradan qaldırılması yollarını və vasitələrini axtarıb-arayanlar az olmamışdır. Bunların sırasında Fransanın Sarbonna Universitetinin məzunu, ilahiyyatçı alim-mütəfəkkir, yazıçı-publisist Əhməd bəy Ağayevin adını da iftixarla çəkmək olar. 100 il bundan əvvəl, 1904-cü ildə "Kaspi" qəzetinin 195-ci nömrəsində onun "Mikrobı leni" ("Ətalət, tənbəllik mikrobları") adlı yazısı dərc olunmuşdur. Ə.Ağayev yazırdı ki, tənbəllik, ətalət mikrobları bəzən bütün bir xalqı, irqi xəstələndirir, bu mikroblar atalardan-oğullara - keçib uzun əsrlər boyu yaşayır. Amerika alimləri bu yoluxucu xəstəliyə qarşı aşı üzərində işləyirlər ki, islam dünyasını bu bəladan xilas etsinlər. Əlbəttə, söhbət məcazi mənadan gedir. Məlumdur ki, bizim günlərimizdə də Vaşinqton və onun müttəfiqləri bu işi silah gücünə həyata keçirməyə üstünlük verməkdədirlər. Əhməd bəyin qələmə aldığı mikrob məsələsi də elə-belə, təsadüfi deyildi. Məsələn, Ginnesin Rekordlar kitabının 1999-cu il nüsxəsində "Poleznıe mikrobı vnutri nas" bölməsində oxuyuruq: "İnsanın bədənində təqribən 100 trilyon hüceyrə var, lakin onların yalnız onda-bir hissəsi insan hüceyrələri, qalanlar isə mikroblardır".**

**Göründüyü kimi, öyrənilisi, tədqiq edilisi problemlər az deyil. İndi isə adı çəkilən məqaləni oxuculara təqdim edirəm. Məncə, diqqətlə oxuyub düşünülisi məqamlar az deyil. Həm də Əhməd bəyin çaldığı həyəcan təbili indi də aktual səslənirmi?**

## *TƏNBƏLLİK MİKROBLARI*

"Amerikalı alimlərdən biri tənbəllik mikrobları kəşf etmişdir. Sən demə bu mikroblar da, bütün başqa mikroblar kimi eyni üzvi səbəblər nəticəsində yaranır. Bəzən bütövlükdə müəyyən xalqlar, müəyyən irqlər bu mikroblara yoluxur və o, uzun əsrlər boyu irsən valideynlərdən övladlara keçir.

Amerikalı alim yankilərə xas olan ciddiyyətlə, əsla zarafat etmədən bu mikrobun formasını və həyat tərzini təsvir edir. Lakin təəssüf ki,

alim hələlik həmin mikrobun kulturasını tapa bilməmişdir və bu xəstəlikdən əziyyət çəkən adamları, məsələn, quduzluğa tutulmuş adamların müalicəsində olduğu kimi, peyvənd yolu ilə sağaltmaq üçün tənbəllik zərdabı hazırlayır.

Lakin məyus olmağa dəyməz. Başqa mütəxəssislər də amerikalıların köməyinə çatacaq və onlar bu xilaskar zərdabı kəşf edəcəklər.

Həmin günü bizim müsəlmanlar özlərinin dirçəliş günü kimi bayram etməlidirlər. Onlar tənbəllik mikrobunun tədqiq edilməsi təşəbbüsünü irəli sürən və bu mikrob əleyhinə zərdab kəşf edən alimə bütün ictimai yerlərdə möhtəşəm abidələr ucaltmalı və həmin abidənin üzərinə "Müsəlmanları dirçəldənlərə" sözlərini yazmalıdırlar...

Ola bilsin ki, müsəlmanlar hələ uzun müddət, bir neçə nəslin həyatı boyu gözləməli olacaqlar. Amma eybi yoxdur, onlar tənbəllik mikroblarını o qədər uzun müddət öz bədənlərində daşıyıblar ki, gözləməyi, dözməyi, tələsməməyi, irəliyə doğru heç bir addım atmamağı bacarsınlar! Bu nəcib zərdab kəşf ediləndə heç olmazsa, bizim nəvə-nəticələrimiz çiçək xəstəliyinə qarşı peyvənd edilən kimi, bu zərdabla da özlərini peyvənd etdirəcək və nəhayət, müsəlmanları pis günə qoyan tənbəllikdən xilas olacaqlar.

Lakin xoş ümidlər səmasında yenə bəzi qara şübhələr oyanır; qorxuram ki, o vaxt müsəlmanlar bu xilaskar zərdabla özlərini könüllü peyvənd etdirməyib, dədə-babadan qalma tənbəlliyi üstün tutsunlar. Buna görə də mən elə indidən təklif edirəm ki, o dövrün hökumətləri müsəlmanları ciddi cəza ilə qorxudaraq bu zərdabla peyvənd etdirməyi müsəlmanlar üçün zəruri tələbə çevirsinlər.

Doğrudan da, adi inandırma tədbirləri müsəlmanlara təsir etmir. Onlar öz ətrafında baş verənlərin hamısına, ətrafındakı insanların hamısına münasibətdə kar və kor olaraq qalmaqdadırlar. Məsələn, elə həmin tənbəlliyi götürün. Müsəlmanlar bütün qüsurların ən birinci səbəbi olan tənbəlliyin onları haraya apardığını, onları məhv etməyə hazırlaşdığını aşkar görə-görə bütün xalqların, bütün bəşər tarixinin adi sınaqları, tənbəlliyə qarşı mübarizə vasitələri elə bil həmin müsəlmanlara yaramır. Başqa xalqlar əzm və səy göstərərək, adicə ümumbəşəri hörmət yoluna qədəm qoymaq arzusu sayəsində tənbəllikdən xilas ola biliblər. Təkcə müsəlmanlar qəflət yuxusunda qalmaqdadır. Özü də belə bir vaxtda ki, müsəlmanlar bu mürgüləmə üzündən hər hansı başqa xalqla müqayisədə daha çox zərbə almış, daha çox sarsıntı keçirmişlər.

Müsəlmanların yaxınlığındakı bütün başqa adamlar da mürgüləyəndə və qızınanda, münbit torpaq və bərəkəlli günəş şüaları bizim əcdadlarımızın və ümumiyyətlə, bütün bəşəriyyətin adi qidası olan bir ovuc düyü və bir dəstə göyərti yetişdirməyə kifayət edəndə günəşin qabağında rahatca uzanıb mürgüləmək və hətta qızınmaq heç də pis deyildi.

İndi isə həyat şəraiti tamam dəyişmişdir, indi mürgüləməyə, günün altında uzanmağa vaxt yoxdur. İndi həyat çox geniş və dəhşətli bir döyüş meydanına çevrilmişdir. Burada hər gün, hər dəqiqə mübarizə aparmaq lazımdır, bir tikə çörəyə onlarca adam göz dikib. Aşkardır ki, kim daha çox güc və məharət göstərsə, biliklərə daha yaxşı yiyələnmiş və həyata daha yaxşı hazırlaşmış olsa, o çörək tikəsini həmin adam götürəcəkdir.

Müsəlmanlar isə məktəblərin köməyi ilə müdafiə və mübarizə vasitələrinə yiyələnməyə can atmamaları bir yana, hətta mürgüləyən əcdadlarımızın bütün atributlarını ciddi-cəhdlə qoruyub saxlayırlar.

- Küçədə lovğa-lovğa, tələsmədən, özündən çox razı halda gedən kimdir?
- Müsəlman.
- Öz qüsurları və hətta əzabları barədə dinib-danışmayan kimdir?
- Müsəlman.
- Bu günün işini sabaha qoyan kimdir?
- Müsəlman.
- Əlini ağdan-qaraya vurmadan yalnız tanrıya ümid bəsləyən kimdir?
- Müsəlman.
- Müsəlmanın heç ağlına da gəlmir ki, küçədə onu qabaqlamış cənab bununla bir tikə çörəyi müsəlmanın lap burnunun qabağından götürmüş olur. Onun heç ağlına da gəlmir ki, başqa dərnək və yığıncaqlarda adamlar ciddi, qızğın söhbətlər aparır, özlərinin əqli, mənəvi və maddi ehtiyacları barədə mübahisə aparır və elə bunun sayəsində həyat uğrunda mübarizədə geridə qalmış müsəlmanları qabaqlayırlar.

Müsəlmanın heç ağlına da gəlmir ki, məsələn, məktəbə ərizə verilməsini sabaha saxlamaqla çox vaxt öz uşaqlarını həmin məktəbdəki vakansiyadan məhrum edir və bu vakansiyanı dərhal rəqiblər tuturlar,

Onun heç ağlına da gəlmir ki, bütün göy cisimləri bütün insanlar üçün eyni dərəcədə şəfəq saçır və başqalarının ziyanına müsəlmanlar barədə qayğıları öz üzərinə götürmək üçün nə bəhanə var, nə də əsas.

Belə getsə, müsəlmanlar bu həyat tərzi ilə amerikalı və ya avropalı alimlərin onlardan ötrü tənbəllikdən xilasedici zərdabın ixtira ediləcəyi dövrü görməyəcəklər. Bu tənbəllik onların evini yıxacaq və müsəlmanlar bir də o vaxt ayılacaqlar ki, daha heç bir peşmançılıq onlara kömək etməyəcək"...

***Ə.AĞAYEV***

***"Kaspi" qezeti, 1904-cü il, N495***

**"Günay" qəzeti, N-8, 21 fevral 2004**

# FEVRALIN DƏRSLƏRİ, DÖVRÜN TƏLƏBLƏRİ

**1917**-ci il fevralın 27-dən 28-nə keçən gecə Rusiyada cərəyan edən hakimiyyət dəyişikliyi məsələsi, başqa deyimlə, fevral-burjua demokratik inqilabının qələbəsi və bunun nəticəsi olaraq II Nikolayın taxt-tacdan əl çəkməsi, sonra Rusiyanın respublika elan edilməsi XX əsr tarixinin əlamətdar hadisələrindən sayılır. Hadisələrin bu cür gedişini Azərbaycanda da əvvəlcədən hiss edən, uzaqgörən siyasət adamları vardı. 1917-ci il yanvarın 11-də "Açıq söz" qəzetində M.Ə.Rəsulzadənin "Böyük vüquat (hadisələr) qarşısında" sərlövhəli baş məqaləsi dərc edilmişdi. Məqalədə deyilirdi: "Bir zamandan bəri gəlməkdə olan xəbərlər və hənuz bir taqım kənar əhvallar - irəlidə müdhiş və qitali böyük vüquat baş göstərəcəyinə dəlalət edirlər. Bu vüquatın pək yaxındamı, yaxud bir müddət sonramı zühur edəcəyi xüsusda mütəxəssislər belə açıq bir şey göstərmirlər... Lakin bəyanatlar və xəbərlər bəşər dünyasının irəlidə əqləgəlməz dəhşətli və qanlı bir mənzəreyi-vüquat qarşısında olduğunu göstərirlər... Baxalım yaxın günlər nə gətirəcək".

Rusiyada fevral inqilabının qələbəsi xəbəri Qafqaza, o cümlədən Bakıya martın 2-də gəlib çatdı. Qəzetlər 304 il hakimiyyətdə olan Romanovların müstəbid mütləqiyyətinin süqutunu - böyük inqilab kimi səciyyələndirdilər. Vəd olunan azadlıqlar və əsaslı islahatlar uzun illər zülm və işgəncə altında ömür sürən vətəndaşlarda çox böyük ümid və inam hissi yaratmışdı. İki il bir ay məcburi qapandıqdan sonra yenidən nəşrini bərpa etmiş "Molla Nəsrəddin" jurnalında Mirzə Cəlil bu münasibətlə yazırdı: "Şükür Allaha, qurtardıq! Qurtardıq Peterburq vəzirlərinin zülmündən, qurtardıq strajniklərin şallağından, xilas olduq min-min zalımların zorbazorluğundan. Şükür Allaha ki, qurtardıq!"

İnqilab eyforiyası cəmi 8 aya yaxın davam etdi. 1917-ci ilin oktyabrında bolşeviklər əvvəlcə Petroqradda, sonra isə Rusiyanın digər şəhər və vilayətlərində aldatmaq və yağlı vədlərlə silahlı yolla hakimiyyəti ələ keçirdilər. Xalq əvvəlkindən də qəddar və dəhşətli bir rejimdə yaşamaq məcburiyyətində qaldı. Bir ideologiya, bir partiya və bir mülkiyyət formasının diktaturası dövrü başladı. Bəziləri sovet hakimiyyəti illərində maarif, səhiyyə, elm və iqtisadiyyat sahəsində əldə edilən nailiyyətləri önə çəkərək sovet-bolşevik rejiminin varlığına haqq qazandırmaq istəyirlər. Əlbəttə, tarixi keçmişi mühakimə etmək iddiasına düşmək yolverilməzdir. Lakin nəticə çıxarmaq, ibrət götürmək, bu cür qüvvələrin yenidən baş qaldırmasına imkan verməmək də lazım-

dır. Belə meyllər və cərəyanlar isə artıq özünü göstərməkdədir. Birpartiyalı sistemlərin yavaş-yavaş formalaşması yeni müstəqillik qazanmış keçmiş sovet respublikalarında, o cümlədən Rusiya Federasiyasında aydınca görünür. Birpartiyalı sistemlərin, o cümlədən, uzun illər hakim Sov.İKP-nin nə mahiyyət daşıdığını səciyyələndirən faktlar deyəsən unudulur. Müxalifətsiz, daha doğrusu hakimiyyətə gəlmək imkanına malik qüvvələrin, siyasətçilərin zərərsizləşməsi prosesi genişlənməkdədir.

Sov.İKP MK-nın Baş katibi və SSRİ-nin sonuncu prezidenti M.S.Qorbaçov oktyabr inqilabının 80 illiyi ilə əlaqədar "Trud" qəzetinin müxbirlərilə müsahibəsində etiraf etdi ki: "Sov.İKP sovet adamlarının bir neçə nəsli üçün yalançılıq məktəbi, prinsipsizlik və yaltaqlıq universiteti, siyasətdə, mənəviyyatda, etikada... ikili standartlar akademiyası olmuşdur..." (bax. "Trud", 6/XI-1997).

Milyonların gözünə kül üfürən, öz həqiqi yaşayış və həyat tərzlərini gizlədən, zəhmətkeşlərə düzlükdən, sosial ədalətdən dəm vuran kommunist rəhbərlər, əslində, necə yaşayırdılar? Bir nümunə. "Arqumentı i faktı" qəzetinin 1995-ci il, 33-cü nömrəsində "Stepan Mikoyan xatırlayır" sərlövhəli müsahibə dərc olunmuşdur. "Rosinform"un baş redaktoru Y.Jirnovun - Stepan Anastasoviç, siz kommunizmi görmüş azsaylı həmvətənlərimiz qisminə mənsubsunuz. O dövrdə siz necə yaşayırdınız? - sualına onun cavabı belə idi:

- Siyasi Büro üzvlərinin ailələri həqiqətən "Hər kəsdən öz qabiliyyətinə görə, hər kəsə - tələbatına görə" prinsipi üzrə yaşayırdılar. Nemətlər çox idi və başqalarından seçilməmək, sadə həyat tərzi keçirmək arzusu olsa belə, bu nemətlərdən istifadə etməmək mümkün deyildi. Mən evlənənə qədər atamın evində yaşayırdım. Orada yemək pulsuz idi... Ailəmiz yemək üçün ümumiyyətlə, pul vermirdi, yemək sarıdan heç bir məhdudiyyət yox idi. Nə sifariş versək, hamısını alırdıq. Ərzaq məhsullarını nəinki evimizə, hətta bizim və qohumlarımızın yaşadığı, həmişə çoxsaylı dostlarımızın olduğu bağ evinə də gətirirdilər. Biz bağ evindən, qida məhsullarından və qulluqçuların xidmətlərindən pulsuz istifadə edirdik... Ev qulluqçusunun və aşpazın əməkhaqqını Dövlət Təhlükəsizliyinin Mühafizəsi İdarəsi ödəyirdi. Mənim uşaqlarım və qardaşlarımın uşaqları üçün dayələri də elə həmin idarədən göndərirdilər. Biz buna görə də haqq ödəmirdik. Əgər atamla birlikdə istirahət etməli olsaq, bu da pulsuz idi... Mən evlənəndə "tanışlıqla" "Naberejnayadakı" evdə mənzil aldım".

Pulsuz, ən yüksək səviyyəli istirahət evləri, xüsusi səhiyyə müəssisələri, nəqliyyat vasitələri, ən sonda fəxri xiyabanlar -partnomenkla-

tura deyilən xüsusi təbəqənin istifadəsində idi. Bunların bir qismi indi də mövcuddur.

Demokratik dövlət adlanmaqla iş bitmir. Əslində demokratik dövlət olmur. Demokratik cəmiyyət olur. Bu isə yalnız siyasi mədəniyyətin nəticəsində yaranır, formalaşır. Əsl müxalifətsiz, birpartiyalı demokratiya da illyuziyadır. XX əsr inqilablar və əksinqilabların, avtoritar və totalitar rejimlərin, demokratiya oyunları və tərəqqinin qabağını kəsən irticaya qarşı cəsarətlə vuruşan qüvvələrin, qanlı çarpışmalar və müharibələrin şahidi olmuşdur. 1917-ci ilin fevralı da bunlardan biri idi. 1917-ci il fevral hadisələrinin fəal iştirakçısı, hökumət üzvü P.N.Milyukov sonralar yazırdı: "Dövlətin siyasi tərəqqisi yenə onun iqtisadi inkişafını qabaqlamış oldu... Rusiya müflisləşmə bahasına Avropa derjavası ranqına ucalmışdı". Stolıpin isə bir dəfə Dövlət Dumasında demişdi: "Allaha şükür ki, bizdə parlament yoxdur!"

Deyəsən, bu şüarı bizim günlərdə də eşidəcəyik. Demokratik cəmiyyətin yaranması prosesini asan bir iş hesab edənlər yanılırlar. Fevralın dərsləri və dövrün tələbləri bunu aydın göstərir.

**"Günay" qəzeti, N 9 şənbə 2004**

## MƏTBUATIMIZIN İBRƏTAMİZ SƏHİFƏLƏRİ

### *DOSTLUQ FANATİZMİ VƏ MİLLİ MƏNAFE*

**Səyyahlar və əcnəbi tarixçilər Qafqazı təkcə təbii gözəlliklərinə görə deyil, həmçinin milli-etnik, dini, mənəvi-əxlaqi xüsusiyyətlərinə görə qeyri-adi muzeyə bənzətmişlər. Minilliklər boyu bu cənnət məkanın sahibləri yan-yana, iç-içə yaşamış, ömür sürmüşlər. Zaman-zaman da daxili naxələflərin və xarici dairələrin təhriki və fitvası ilə qarşıdurma yaratmış, dini və milli ədavət salmağa çalışmışlar. Əlbəttə, belə bir mürəkkəb məkanda öz milli varlığını, heysiyyatını, əcdadlarının vətənə döndərdikləri torpağı, dilini, dinini, mədəniyyətini hifz edib saxlamaq, zamanla ayaqlaşmaq asan olmamışdır. Xarici təcavüz və qanlı çarpışmalar Qafqazı bəşəri inkişafın məcrasından da xeyli müddət ayırmışdı. Belə bir tarixi məkan və zaman şəraitində millətin uzaqgörən dövlət və siyasət adamlarından, ziyalılarından çox böyük səy, bacarıq, iradə və cəsarət tələb etmişdir. 20-ci**

**yüzillik bu baxımdan xüsusilə əlamətdar olmuşdur. Erməni şovinizmi, ona dəstək verən Rusiya müstəmləkəçilik rejimləri, xristian missionerləri müsəlmanlı bir ölkə olan Qafqazı bir an belə sakit qoymamışlar. Millətimizin şərəfini, müqəddəs torpaqlarını qorumaq namus və şərəf işinə çevrilmişdi. Milli mətbuatımızın səhifələri bu prosesi əks etdirən yazılarla da zəngindir. Həm də bu yazılarda təkcə böhtançı və iftiraçı qəsbkarlar deyil, milli birliyimizə mane olan bəzi adət və görüşlər də çox ciddi tənqid və ifşaya məruz qalırdı. Dostluqda fanatizm də bu qəbildən idi. Belə yazılardan birini - Ömər Faiq Nemanzadənin 1917-ci il yanvarın 18-də "Açıq söz" qəzetində dərc olunmuş "Gürcü politikaçıları" sərlövhəli yazısını oxuculara təqdim edirəm.**

## *GÜRCÜ POLİTİKAÇILARI*

Bəradərim doktor Xosrov bəy Sultanovun gürcü politikaçıları xüsusunda "Açıq söz"də yazdıqları məktubu oxuyanlardan bəziləri ola bilər ki, doktorun özünü günahsız çıxarmaq üçün yazılarında, düşüncələrində ifrata getdiyini sanarlar. Çünki bizdə, bizim xasiyyətimizdə özgələrlə olan dostluğun davamı üçün, özümüzün mənfəətini, özümüzün təhlükədə olduğunu düşünməmək adəti var, həm çoxdan var.

Bu xasiyyət yalnız tək-tək kişilərin beyinlərində deyil, millətimizin ruhunda, əxlaqi-ictimaimizdə köklənmiş, möhkəmlənmişdir.

Dostluq xəncərilə yaralanmaq və o yaranın acısını duymamaq igidliyi (?) bizdə çoxdan milli əxlaq yerini tutmuşdur.

İştə bu yaman adət və xasiyyətimizin zərəri bu gün elə arımış, dostluq yolu ilə milli mənfəətimizə endirilən baltanın acısı bu gün öylə şiddətlənmişdir ki, artıq onu duymamaq, anlamamaq aşkar bizim qabalığımızı, qəvi cahilliyimizi bildirir.

Milli vücudumuzda açılan bu yaranı sağaltmaq isə yalnız bir "doktor" hünəri deyil.

Bu gün gürcülərin müsəlman gürcülərini islamlıqdan tamamilə uzaqlaşdırmaq, gürcü yerlərindəki türkləri gürcüləşdirmək azarı öylə bir yolda artmaqdadır ki, ona bir deyil, beş-on doktor da olsa çarə edəmməz. Bu işdə hamımızın, bütün millətin əlbirliyi ilə yardımı, çalışması lazımdır. Çünki bu iş yalnız 5-10 gürcü politikaçısının işi olsaydı, bəlkə bu qədər rahatsız olmazdıq. Lakin bu politika uğrunda sərf edilən pulların çoxluğundan, çalışanların sabitəsindən (möhkəmliyindən), dairənin genişliyindən anlaşılır ki, bu iş beş-onun karı (işi) deyil, bəlkə böyük cəmiyyətlərin çoxlu tərəfdarlarının köməklərilə görülən böyük fikir və idealın nəticəsidir.

Gürcülər qəzetlərilə apaydın çağırırlar ki, müsəlman gürcü mollalarının ürəklərindən "türklük" duyğusunu, ağızlarından türk dilini gərək nə cür olsa çıxaraq və hər yol ilə qoymayaq ki, Gürcüstanda türklük nişanəsi qala.

Keçəndə Batumdakı gürcü yetimlər yurdundan şikayət edilərdi. Bu şikayətdən anlaşılır ki, hələ bir çoxlarımızın Axalsikdə türk və gürcülər arasındakı yetimlər yurdlarından, Axalkələkdə türk kəndlərindən, Palavendovların ianə və təşviqi ilə açılan gürcü məktəbindən xəbərləri yoxdur. Uzağa getməyə nə hacət: Bakıda, öz yanımızdakı gürcü yetimləri yurdunda kimlərin olduqlarına və hansı gün tətil etdiklərinə baxalım!

Çoxdan deyil, bir gün bir gürcü keşişi Axalsik müsəlmanlarından kimin evi yanmış, malı qırılmış, toxumu əskik isə onları bilib cəmiyyəti-xeyriyyələrindən ianə gətirtmək istəyirdi. Danışıq arasında:

- Keşiş baba Məlo, Artvin, Çoru səmtlərindən minlərcə insanlar, həm də gürcülər aclarından ölürlər, onları buraxıb da bu rahat və tox yerlərdə ac və yoxsulları aramanızı, Acaradakı müsəlmanlar içində gecəli-gündüzlü çalışıb, böyük pullar xərc edib məktəblər açmaqdakı tələsmənizi qanmıram - dedim. '

Keşiş baba qəsdimi qanıb güldü, mən də onunla bərabər güldümsə də onun niyyəti, qanacağı beynimi dəlməyə, ürəyimi didməyə başladı.

Bu kimi həqiqətlər çoxdur. Belə misallar çox söyləmək olar. Fəqət mən indi ancaq millətin qanacaqlılarına, türklərin müsəlmanlıq qeyrətini çəkənlərə, millət mənafeyini hər dürlü hiss və xüsusi mənfəətlərə fəda etməyənlərə müraciət edib demək istəyirəm ki:

Dəxi bəsdir! Gürcü politikaçılarının azğınca rəftarına gərək yol verməyək!

Yol verməyək ki, gürcü müsəlmanlarını islamçılıqdan uzaqlaşdıralar!

Yol verməyək ki, türk balalarını birər fəndlə yığıb bəsləmək bəhanəsi ilə gürcüləşdirələr!

Yol verməyək ki, dumanlı havadan istifadə edib millətimizin quzularını tələf edələr!

Yol verməyək ki, Ərdahan və başqa yerlərin türk və kürd balaları üçün Axalsikdə və ya özgə yerlərdə yetimlər yurdu açıb və onu da keşişlərin idarəsinə verib balalarımızın dinlərini, milliyyətlərini çevirələr!

Sanmayınız ki, bunun üçün çox şey lazımdır. Xeyir! Xeyir! İki zad bəsdir:

Həmiyyət və kömək!

Yada gəlməsin ki, bunun üçün qonşumuz və dostumuz gürcülər ilə pozuşmaq lazım.

Niyə bu fikirlərə düşək! Üsul və yol ilə öz din və cinsdaşımıza edəcəyimiz yaxşılığa kimin nə deməyə haqqı vardır?

Əgər bizim də cəmiyyətimiz, bizim də pulumuz, bizim də təşəbbüsümüz olub, Axalsikdə və qeyri yerlərdə yetimlər yurdları açsa idik, öz balalarımıza özümüz sahib olsa idik, əlbəttə ki, balalarımız gözümüz görə-görə qurban olmazlardı.

Əgər bizim də Rusiyada 30 milyonluq, biz türklərin də milli varlıq, dini borc, mədəni həyat, həqiqi tərəqqi nişanəsi olan "köməkləşmək" xasiyyətimizi itirməyib bu gün cəmiyyəti-xeyriyyəmizin bir-iki milyonu, on-on beş doktoru olsaydı, əlbəttə ki, ərdəhanlı türk oğlu türk olan Əli oğlu beş-on manat üçün öz ləqəbini-familiyasını "Əlidze" etməyə məcbur olmazdı.

Əgər bizim də axundlarımız, əfəndilərimiz hər cümə xütbəsində oxuduqları: "İnnəl-lahəyəmuru bitədli vəl-ihsani lil-yətəmə vəl-məsfəkini" (Allah yetimlər və miskinlərlə ədalət və yaxşılıqla rəftar etməyi əmr edir) əmrini, əmri-ilahisini, quru ərəbcə olsun deyə boş-boşuna məxrəc ilə, təcəvvidi ilə oxumaqla kifayətlənib, mənasını, hikmətini və vaxta görə olan ehtiyac və köməkliyi anlatsaydılar, əlbəttə ki, bu gün yüz illərdə bir düşən - bu qədər böyük milli fəlakət və ehtiyac üçün yığılan ianə beş-on minlikdə, yəni ehtiyacın mində birində dayanıb qalmazdı.

Əgər bizdə də doğrudan dini-iman, möminlik əsəri, millət qeyrəti, türklük hissi, ehtiyacın şiddəti, möhtac olanların hal və mövqeləri qanılsaydı, əlbəttə ki, məsələn, Ağdaş və Şəki kimi şəhərlərin dövlətliləri öz qanacaqlılarının, qazılarının həmiyyəti ilə özləri üçün ianə yığdıqları vaxt bu gün aclıqdan tələf olan, əldən gedən din və millət qardaşlarını da yaddan çıxarmazlardı.

Əgər bizdə də ədalət, düşüncə, insaf olsaydı "bizim öz fəqirlərimiz varkən, uzağa nə hacət!" cəfəngilə, avam fəlsəfəsilə bu gün suda boğulan millət balalarını, millət analarını öz başlarına buraxıb ölümə məhkum etməz, qurtulub sağ qalan yarıcanlı biçarələri də yadların pəncəsinə buraxmazdı!

Ümid edirəm ki, bundan sonra olsun ayılaq. Bugünkü cahan müharibəsinin "nə üçün" və "nə demək" olduğunu qanaq! İanələrimizi tezliklə kəsməyək, öz balalarımızı bundan sonra olsun yadların tor və tələlərinə buraxmayaq! Biz də lazım olan yerlərdə yetimlər yurdları açaq! Balalarımızı dinlərindən, milliyyətlərindən çevirməyə qoymayaq! Analarımızın yadların, səfehlərin ayaqları altına düşməsinə məhəll (imkan) verməyək! Bacılarımızın bir loxma əkmək (çörək) üçün namuslarını satmağa razı olmayaq! Və razı olmayaq ki, gələcək nəslimiz millətimizin bu ağır günlərindəki qansızlığımızı, həmiyyətsizliyimizi, imansızlı-

ğımızı, yalançılığımızı mühakimə edib bizə lənət oxuyalar!

Dostluq, səmimiyyət qara günlərdə bəlli olur. Bir millətin yaşamağa istedadı fəlakətli günlərində anlaşılır. Bir millətin qələbəsi halidəki çıxışından, tərpənişindən aşkar olur. Bir millətin, xüsusilə məhkum bir millətin insanca yaşaya biləcəyi, tərəqqi edə biləcəyi, mədəni bir ünsür halına keçə biləcəyi köməkləşməsinin az və çoxluğu ilə ölçülür. Bir millətin bəqası (varlığı) o millətdən olanların öz millətini tanıması ilə, onu öz anası kimi sevməsi ilə, onun şanını, namusunu, diriliyini, mənfəətini öz namusu, öz mənfəəti kimi bilməsilə olar.

Bir din və əqidənin doğruluğu ona iman edənlərin rəftarı ilə, mərhəməti ilə, insanlığı ilə qiyas edilir (ölçülür).

Vaxtdır ki, biz də bu həqiqətləri qanıb yaşamağa layiq olduğumuzu, millətimizin şərəfini, dinimizin səlamətliyini - quru söz və lovğalıqla yox, əməlimizlə, köməyimizlə göstərək!

**Ömər FAİQ,**
*"Açıq söz" qəzeti,*
*18 yanvar, 1917, N- 380*

**"Günay" qəzeti, N10, şənbə 6 mart 2004**

## DEMOKRATİK NİYYƏT, QABA QÜVVƏT

ABŞ prezidenti Corc Buşun elan etdiyi yeni dünya düzəni doktrinası çox ciddi maneələrlə qarşılaşmaqdadır. Əslində Vaşinqtonun dünyada demokratik dəyişikliklərin həyata keçirilməsi niyyəti, arzusu öz-özlüyündə mütərəqqi meyl kimi qiymətləndirilməlidir. 21-ci yüzillikdə iqtisadi inteqrasiya, qloballaşma bəşəri inkişafın əsas istiqamət və mahiyyətini təşkil edəcək. Bu isə öz növbəsində çox geniş və əhatəli bir şəkildə demokratik dəyişikliklərin həyata keçirilməsini tələb edir. Bu strateji, qlobal prosesin həyata keçirilməsi işinin ağırlığını, dünyanın yeganə super dövləti olan ABŞ rəhbərliyi öz öhdəsinə götürmüşdür.

ABŞ-ın indiki rəhbərliyi bu yolda qarşılaşdığı ən ciddi maneəni beynəlxalq terrorizmdə görür. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Vaşinqton vətəni, məskəni, dini-məzhəbi bilinməyən terrorizmə qarşı ümumi səlib yürüşü elan etmişdir. Ölkə ictimaiyyəti, geniş xalq kütləri bu qorxu hissi ilə yatıb-durur, bir-birinin ardınca müharibə dövrünə xas olan qayda-qanunlar tətbiq olunmağa başlayır. Gözlə görünmə-

yən düşmənə qarşı nifrət hissi aşılanır. Bəzən terrorçular ilə onların mənsub olduqları xalq və ölkə eyniləşdirilir. İcmalçılardan bəziləri ABŞ-da geniş vüsət alan bu düşmən obrazını, vaxtilə Sovet İttifaqında yaradılmış "imperializm" xofu ilə də müqayisə edirlər. Əfqanıstan və İraqa hərbi müdaxilə də belə bir geniş kampaniya ilə müşayiət olunur.

Prezident seçkiləri ərəfəsində Vaşinqtonda yeni - "Böyük Orta Şərq" layihəsi ortaya çıxıb. Yazırlar ki, ilk dəfə bu ideyanı "Vaşinqton post" qəzeti gündəmə gətirib. ABŞ dövlət katibinin müavini Mark Qrossman isə bu layihəyə dəstək axtarmaq üçün region ölkələrinə səfərə çıxıb. Layihədə ərəb ölkələrindəki müxalifət hərəkatlarına, vətəndaş cəmiyyətinin inkişafma dəstək verilməsi, bu ölkələrdə azad və ədalətli seçkilərin keçirilməsinə yardım göstərilməsi, bir sözlə, avtoritar və totalitar rejimlərdən demokratik dövlətçilik sistemlərinə keçilməsinə təkan verilməsi nəzərdə tutulur.

Vaşinqton layihəsinin zəruriliyini onunla əsaslandırır ki, əgər region ölkələrində demokratik dəyişikliklər həyata keçirilməsə, Orta Şərq yaxın 10 ildə dünya üçün ciddi təhlükə mənbəyinə çevriləcək. Başqa deyimlə desək, dünyanın əsas neft və yanacaq mənbəyi olan ərəb ölkələrində ABŞ və Qərbin mövqeləri təhlükəyə düşə biləcək.

Bəzi müşahidəçilər hesab edir ki, əgər ərəb ölkələri demokratik islahatlara könüllü razılıq verməsə, bu halda ABŞ və onun müttəfiqləri İraqda olduğu kimi hərbi müdaxilə yolu ilə demokratiya qurmağa çalışacaqlar. Əlbəttə, bunun istənilən nəticəni verə biləcəyi də sual altındadır.

Vaşinqtonun Orta Şərq siyasəti əslinə baxsan hələlik lazımınca formalaşmayıb. Hələ XIX əsrin sonlarında dünyanın sənaye və iqtisadi potensial cəhətdən ən qüdrətli dövləti - Böyük Britaniyanı ötüb keçən və yüz ildən artıq bir zaman ərzində birinciliyi əldən verməyən ABŞ I Dünya müharibəsi illərində əsas diqqətini Latın Amerikası və Avropada cərəyan edən hadisələrə yönəltmişdi. Həmin dövrün prezidenti Tomas Vudro Vilsonun milli məsələyə dair çıxışları hətta o dövrki Azərbaycan mətbuatında belə çox böyük əks-səda doğurmuşdu. Məsələn, "Açıq söz" qəzeti 1917-ci il yanvarın 16-da "Vilsonun nitqinin ikinci cəhəti: "İnsan mələk olsa idi, cahan cənnət olardı" sərlövhəli baş məqalə vermişdi. Qəzet yazırdı ki, "bu günə qədər bəşər övladı arasında "əzməyən-əzilir" düsturu hökm sürür". Vilson isə "heç bir kimsə əzməsin-əzilməsin" düsturunu hökmranlıq etməyə" çağırır. "Açıq söz" qəzetinin 1917-ci il 19 yanvar tarixli nömrəsində "Millətlərin təmin hüququ" (hüquqlarının təmini) məsələsi" sərlövhəli baş məqaləsində göstərilirdi ki, guya indiki müharibədən məqsəd, bir çox digər gözəl mətləblərlə bərabər Avropada ufaq (sayca az) millətlərin hörmət və hüququnu təmin etməkdir" - deyə zikr edilməkdədir. Bu

"məqsədi" bütün Avropa diplomatları ilə bərabər, son günlər sülh təklifi ilə meydana çıxan Amerika rəisi - cümhurisi Vilson dəxi ətrafı ilə təkrar və təklif elədi və hətta Polşa haqqında açıqdan-açığa sərt məxsusda "ifadeyi-lisan" edərək" Lehistanın İstiqlalı tamamilə təmin olunmalıdır" - dedi. Bu gözəl söz və arzuların bir tərəfdən məhkum millətlər və xüsusən polyaklar üçün nə qədər müqəddəs və ali bir mətləb təşkil edəcəyi və buna görə onlarda nə qədər məhzuziyyət (sevinc) və ümid doğuracağı məlumdur".

Bununla əlaqədar "Açıq söz" yazırdı ki, eyni bəyanatla Avropanın bəzi dövlətləri və Yaponiya da çıxış etməkdədir. Fəqət "bu bəyanatların, nitqlərin ibarəsinə, məzmununa diqqət edilsə görülər ki, burada millət "Avropa" kəlməsilə qeyd olunmaqdadır. Müharibə ibtidasından (başlanğıcından) bəri söylənən nitqləri mütaliə ediniz, mütləqa arada bu kəlmənin qeyd edildiyini, bu dəfə də "Avropa mədəniyyəti, Avropadakı ufaq millətlərin hürriyyəti və hüququ" mövzusu pək olduğunu görəcəksiniz. Vilsonun nitqinin dəxi bu meyldə olduğu, xüsusilə Polşa haqqında sərahət (açıq) bəyan edildiyi məlumdur. Lakin fövqəladə diqqət ediləcək burasıdır ki, bütün bu qədər nitqlər və sözlərdə "Şərq əqvami (millətləri)" və xüsusən "Orta Şərq millətləri" haqqında bu günə qədər bir kəlmə ilə olsun "ifadeyi-məram" edilməmişdir.

Bu qədər təkrarlanan nitqlərdə, bəyanatlarda bu nöqtəyə aid bir kəlmə olsun söz tapılmayacaqdır... Bundan yalnız Yaponiya baş vəzirinin Çin haqqında söylədiyi bəyanat və təminatı müstəsnadır. "Orta şərqlilər" haqqında bu da bir kəlmə zikr etməmişdir.

Əcəba, bu diplomatlarca Orta Şərqdə hüquq və hürriyyəti mədəniyyəsi təminə möhtac bir millət yoxdurmu?...

Bu sözlərin yazılmasından 87 il keçir. Orta Şərq xalqları müstəmləkəçilik rejimlərindən xilas olsalar da, onların himayəsinə arxalanan diktatura rejimlərindən xilas ola bilmirlər.

Ağ ev diktatura rejimlərinin Amerika və dünyanın təhlükəsizliyi üçün necə ciddi təhlükə mənbəyi olduğunu dərk etməyə başlayır. "Böyük Orta Şərq" layihəsi də məhz bu məqsədlə işlənib ortaya çıxmışdır. Əlbəttə, uzun müddət üçün nəzərdə tutulmuş, icrası real görünməyən bu layihənin necə nəticələr verə biləcəyini gələcək göstərəcək! İndiki ikili standartlarla, Orta Şərq ölkələri xalqlarına yuxarıdan-aşağı baxmaqla real nəticə əldə etmək isə asan olmayacaq. Qaba hərbi qüvvə ilə demokratik cəmiyyət qurmaq təcrübəsi də hələ ki, təsadüf edilən şey deyil.

**"Günay" qəzeti, N-11 şənbə, 13 mart 2004**

## HÜRRİYYƏT BAHARI - NOVRUZ BAYRAMI

1917-ci il martın 9-u. Bakının əzəmətli "İsmailiyyə" binasında müsəlman xeyriyyə cəmiyyəti Novruz bayramı münasibətilə əzəmətli və faydalı bir bayram mərasimi keçirmişdi. Dəvətliləri, məclisə gələn qonaqları Azərbaycanda xeyriyyəçilik işinin böyük memarlarından olan Hacı Zeynalabdin Tağıyev, onun yolunun davamçıları, məşhur iş adamları Mirzə Əsədullayev, İsmayıl bəy Səfərəliyev və başqaları qarşılayırdılar. Mərasimə şəhərin rəsmi dairələrindən şəhər başçısı L.L.Bıç, ictimai Təşkilatlar İcraiyyə Komitəsinin sədri V.İ.Frolov və başqaları təşrif gətirmişdilər. Novruz mərasimi quberniya qazisi Hacı Mirməhəmməd Kərim ağanın duası və nitqi ilə başlamışdı. Qəzetlərin verdiyi xəbərə görə, onun nitqini Fətəli xan Xoyskinin kiçik qardaşı Rüstəm xan Xoyski rus dilinə tərcümə edirdi. Sonra söz Məhəmməd Əmin Rəsulzadəyə verilir. M.Ə.Rəsulzadənin bu nitqi "Açıq söz" qəzetinin 1917-ci il martın 14-ü nömrəsində "Bahari-hürriyyət (Novruz şənlikləri münasibətilə)" sərlövhəsi ilə baş məqalə yerində dərc olunmuşdur. M.Ə.Rəsulzadə yazırdı: "Baharın birinci ayı olan mart Şərq millətlərinin adətən bayram ayıdır. Bu ayda təbiət təzələnir. Təbii həyata yaxın olan Şərq aləmi də bu təzəlikdən bir zövq alır, təzələnir. Çəmənlər çiçəklənir, gül-çəmən içində yaşayan insanlar da təzələnir, ruhlanırlar. Əski iranilər mart ayında "Hürmüzdün Əhrimənə qələbə çaldığını bayram edərdilər. Günəş Hürmüzdün əlaməti idi. Bahar onun səltənəti idi. Qış Əhrimənin vətəni, dondurucu soyuq onun libası idi. İşıqlı Hürmüzd didarını (üzünü) göstərincə Novruz olurdu".

M.Ə.Rəsulzadə 1917-ci ilin Novruz bayramının Rusiyada mütləqiyyət rejiminin devrilməsi ilə yeni bir məna kəsb etdiyini qeyd edir və yazırdı ki, "bu kərə vaqe olan böyük Rusiya inqilabı dəxi bahara təsadüf eləmiş və bütün Rusiyada təntənəli surətdə bayram saxlanılmışdır - Hürriyyət bayramı! 150 minə qədər müxtəlif cins, dil və sinfə mənsub olan xalq Birja meydanına toplanmış və bu xalq bütün günü şəhər küçələrində dolaşmışdır. Bu qədər izdiham içində sabiq polis idarəsi zamanında bir teatr qabağında yığışan cüzi xalq arasında görülməsi təbii olan qovğalar bu dəfə yox idi: yürüş vaxtı orada əli qırmanclı, ağzı söyüşlü, üzü zəhirmarlı nizam saxlayanlar olmadığı halda nümuneyi-imtisal (nümunə olacaq) bir nizam və qaidə bərpa olmuşdu.

Hürriyyət günəşi doğmuş, azadlıq baharı gəlmiş... Yaşasın bahari-hürriyyət!".

M.Ə.Rəsulzadədən sonra məclisdə Fətəli xan Xoyski rusca nitq söyləmişdi. Onun nitqini də Azərbaycan dilinə qardaşı tərcümə edirdi. Fətəli xan Xoyski öz nitqində demişdi: "Bu gün millətimiz hürriyyət və azadlığın həqiqi bir rəmzi (simvolu) olan Bahar bayramını həqiqi surətdə, səmimi qəlblə icra edir".

Qəzetlərdə verilən məlumatlara görə, "İsmailliyə"də keçirilən Novruz bayramı mərasimində xeyriyyəçilik də yaddan çıxarılmamışdı. İnqilab və azadlıq yolunda ölən fədailərin ailələrinə verilmək üçün 7 min 500 manat vəsait yığılmışdı.

Öyrəniləsi təcrübə, ibrətamiz nümunə deyilmi? Məncə, tarixi "İsmailliyə" binasına əvvəlki adını, əvvəlki fəaliyyət ənənələrini yenidən qaytarmaq lazımdır. Bu bina ilə tariximizin çox mühüm hadisələri və şəxsiyyətlərinin fəaliyyətləri sıx surətdə bağlı olmuşdur. Məsələn, indi də Novruz günlərində həmin binada Azərbaycanın qanuni yolla varlanmış, öz xeyriyyəçilik fəaliyyətləri ilə seçilən iş adamlarının toplaşması, bir yerdə olması, rəsmiyyətdən uzaq, lakin milli həmrəylik və birliyə xidmət edən məclislərin təşkil edilməsi faydalı olmazmı? Düşünək!

**"Günay" qəzeti, N-12, 20 mart 2004**

## 31 MART SOYQIRIMI HAQQINDA ƏSL HƏQİQƏTLƏRİ BİLİRİKMİ?

**86 il bundan əvvəl - 1918-ci il mart ayının sonlarından aprel ayının ortalarınadək Azərbaycanda insanlığa qarşı tarixdə misli görünməmiş cinayət törədildi. Erməni daşnak qüvvələri bolşeviklərlə birləşərək Bakıda, Şamaxıda, Qubada, Göyçayda və Azərbaycanın digər ərazilərində on minlərlə dinc əhalini qanına qəltan etdilər. Gəmi üç gün ərzində təkcə Bakı şəhərində 12 min nəfərdən çox günahsız azərbaycanlılar vəhşicəsinə qətlə yetirildilər. Ümumiyyətlə, həmin il martın 31-dən aprelin ortalarınadək Qafqazda, o cümlədən Azərbaycan ərazisində 30 min nəfərə yaxın insan ən vəhşi, qəddar üsullarla məhv edildi.**

**Sovet hakimiyyətinin mövcudluğu dövründə tariximizin digər qanlı səhifələri kimi bu dəhşətli soyqırımı hadisəsini də yaddaşımızdan silməyə çalışdılar. Lakin Azərbaycan müstəqillik qazandıqdan**

**sonra tarix boyu mənfur düşmənlərimizin və onların havadarlarının xalqımıza qarşı törətdikləri qanlı cinayətlər tərkzibedilməz tarixi faktlar, arxiv materialları əsasında üzə çıxarıldı. Təsadüfi deyildir ki, ümummilli liderimiz, Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanına uyğun olaraq hər il martın 31-də bu hadisə soyqırım günü kimi qeyd olunur.**

**31 mart soyqırımı günü ərəfəsində tariximizin həmin dövrünün görkəmli araşdırıcısı, tanınmış alim, professor Şirməmməd Hüseynovla görüşməkdə məqsədimiz belə bir suala cavab tapmaq idi: biz 31 mart soyqırımı haqqında bütün həqiqətləri bilirikmi? Bəri başdan qeyd edək ki: Şirməmməd müəllim söhbət zamanı tariximizin o məşum dövrü ilə bağlı bir çox qaranlıq mətləblərə aydınlıq gətirdi.**

**- Şirməmməd müəllim, siz necə fikirləşirsiniz: 86 il əvvəl xalqımıza qarşı həyata keçirilmiş soyqırımı aktı təsadüfi münaqişənin nəticəsi idi, yoxsa?..**

- 1918-ci ilin martında baş vermiş qanlı hadisələrin əsl mahiyyətini anlamaq üçün həmin dövrün ictimai-siyasi mənzərəsinə, azərbaycanlılara qarşı törədilmiş dəhşətli soyqırımı aktını şərtləndirən amillərə nəzər salmaq vacibdir. Bilirsiniz ki, 1917-ci ilin oktyabr inqilabından sonra Rusiyada əsl hərc-mərclik başlamışdı. Bunun səbəbkarı çevriliş yolu ilə hakimiyyətə gələn bolşeviklərin özləri idilər. Bolşeviklərin lideri Vladimir İliç Lenin hələ hakimiyyətə gəlməmişdən əvvəl bəyan etmişdi ki, Rusiya imperiyasının tərkibində olan bütün millətlər hətta ayrılıb müstəqil dövlətlərini yaratmağa qədər öz müqəddəratlarını təyin etmək hüququna malikdirlər. Bununla bağlı Rusiya xalqlarının hüquq bəyannaməsi deyilən bir sənəd də ortaya çıxmışdı. Məhz bu imkandan istifadə edən bir sıra müstəmləkə subyektləri hərəkətə keçdilər. Finlandiya Rusiyadan ayrıldı. Estoniya, Latviya, Litva, Polşa və Ukrayna öz müstəqilliklərini elan etdilər. Təbii ki, Rusiyanın parçalanması ilə müşayiət olunan bu proses Qafqaza da öz təsirini göstərməli idi. Məlumdur ki, hələ oktyabr inqilabından əvvəl, müvəqqəti hökumət dövründə Zaqafqaziya Komissarlığı adlanan bir qurum yaradılmışdı. Bu şəraitdə həmin siyasi qurum Zaqafqaziyanı idarə etmək iqtidarında olmadı. Bundan sonra yaradılmış Zaqafqaziya Seymi də heç bir əməli addım ata bilmədi. Nəticədə Qafqaz xalqlarının istiqlaliyyət məsələsi gündəmə gəlməli oldu.

Lenin hökumətinin zəifliyi, Rusiyada vətəndaş müharibəsinin başlanması bu prosesi xeyli sürətləndirdi.

Qafqaz cəbhəsində müharibə dayandı və burada vuruşan ordu Rusiyaya qayıtmağa başladı. Bilirsiniz ki, çar Rusiyası dövründə azər-

baycanlıları hərbi xidmətə aparmırdılar. Bunun əksinə olaraq, həmin vaxtlarda Qafqaz cəbhəsində türklərə qarşı vuruşan çoxlu erməni əsgəri vardı. Rusiyada vətəndaş müharibəsinin başlanmasından, ordunun Qafqazdan çıxmasından məharətlə istifadə edən 4 minə yaxın silahlı erməni həmin vaxtlar milli münaqişələrin və daxili çəkişmələrin zəiflətdiyi Bakıya gətirildi. Həmin vaxtlar Lenin erməni Stepan Şaumyanı faktiki olaraq Zaqafqaziyanın valisi təyin etmişdi. Bu faktın özü də erməni daşnak qüvvələrini Azərbaycanda hakimiyyəti ələ keçirməyə sövq edirdi.

Təbii ki, bir çox vətənpərvər ziyalılar daşnakların və onlara havadarlıq edən bolşeviklərin əsl niyyətlərini başa düşürdülər. Bilirdilər ki, gec-tez Bakıdakı silahlı ermənilər yaranmış hərc-mərclikdən istifadə edib dinc müsəlman əhalisinə divan tutacaqlar. Ona görə də milli ruhlu vətənpərvər qüvvələr, xüsusilə Rusiyada təhsil alan azərbaycanlı tələbələr Bakıda silahlı dəstələr yaratmağa başladılar. Həmin dəstələrin tərkibində Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyev də vardı. Bu tələbələr gizli yollarla qayıqlarla Nargin adasına gedib orada əsirlikdə saxlanılan bir qrup türk zabitini azad etmişdilər. Həmin türk zabitləri azərbaycanlı gənclərə hərbi təlim keçirdilər. Bu təlimlər əvvəlcə "İsmailiyyə" binasında, sonralar isə Salyan kazarmasının yanındakı məktəbdə keçirilirdi. Çox keçməmiş məlum oldu ki, artıq Bakı Soveti və şəhərdəki rus-erməni hərbi birləşmələri bu təlimlərdən xəbər tutublar. Ona görə də proses Lənkəranda davam etdirildi. Hətta Lənkəranda təlim keçən tələbələr türk zabitləri ilə birlikdə burada çar Rusiyası dövründən qalmış bir hərbi gəmini nəzarətə götürdülər və onun içərisindəki külli miqdarda silahı da ələ keçirdilər.

Bu əsnada silahla ehtiyatsız davranan H.Z.Tağıyevin oğlu Məhəmməd həlak oldu. Onun cənazəsini silahlı dəstənin müşayiəti ilə Bakıya gətirdilər. Bu hadisədən xəbər tutan başda S.Şaumyan olmaqla Bakı Sovetinin rəhbərləri müsəlmanların qoşun yaratmasına imkan verməmək məqsədilə gəmidəki silahlı dəstəni tərksilah etmək barədə göstəriş verdilər. Gəmidəki hərbçilərin tərksilah edilməsi əməlli-başlı konfliktə səbəb oldu. Azərbaycanlı hərbçilərin tərksilah olunmasına etiraz əlaməti olaraq Bakının müsəlman əhalisi küçələrə çıxıb nümayiş keçirməyə, "İsmailiyyə"də, məscidlərdə dinc aksiyalar təşkil etməyə başladılar. Bundan istifadə edən erməni daşnak birləşmələri S.Şaumyanın göstərişi əsasında dinc əhaliyə tarixdə misli görünməmiş vəhşi üsullarla divan tutdular. Hətta azğınlaşmış silahlı daşnaklar qadınları, uşaqları lüt soyundurub Bakının küçələrində gəzdirir, sonra isə məscidlərə və digər binalara doldurub diri-diri yandırırdılar. Üç gün ərzində, yəni martın 30-u, 31-i və aprelin 1-də erməni-daşnak və bolşevik-sovet qoşun hissələri Bakıda sözün əsl mənasında, milli qır-

ğın həyata keçirdilər. 12 mindən artıq günahsız insan dəhşətli işgəncələrlə qətlə yetirildi. Şəhərdə müsəlmanlara məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, milli teatr binaları, məktəblər, xəstəxanalar, məscidlər, hətta əzəmətli "İsmailiyyə" binası yandırılıb yerlə-yeksan edildi, soyqırımın dalğası bütün Azərbaycanı bürüdü.

Stepan Şaumyan başda olmaqla bolşevik-rus qruplaşmalarının söz və şüarlarına inanan N.Nərimanov sonradan həmin qüvvələrin əsl niyyətini anladı. N.Nərimanovun "Hümmət" qəzetində S.Şaumyana və A.Çaparidzeyə ünvanlanmış məktubunda deyilirdi: "Siz vətəndaş müharibəsini milli qırğına çevirdiniz". Hətta S.Şaumyan Leninə göndərdiyi məktubunda etiraf etməyə məcbur olmuşdu ki, həqiqətən bu münaqişə sonralar milli xarakter aldı. Bununla belə, Şaumyan öz mənfur erməni xislətinə sadiq qalaraq "əsaslandırmağa" çalışırdı ki, guya biz bu addımı atmağa məcbur idik.

**- Bəs, 31 mart soyqırımının əks-sədası necə oldu?**

- Bu dəhşətli soyqırımı aktı azərbaycanlıları milli ideya ətrafında birləşdirdi və proses 1918-ci il mayın 28-də həmin dövrün ən böyük, ən mütəşəkkil siyasi partiyası olan Müsavatın rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyəti elan edilməsi ilə nəticələndi. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını və sonra Azərbaycanı daşnak-bolşevik dəstələrinin işğalından azad etdi. 1918-ci ilin avqustunda Azərbaycan hökuməti Gəncədə erməni soyqırımını araşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaratdı. 1919-cu ilin mart ayında soyqırımın birinci ildönümü ərəfəsində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 31 martı ölkənin hər yerində milli matəm günü kimi qeyd etmək barədə qərar qəbul etdi. Həmin gün hökumətin qərarına uyğun olaraq, Bakı şəhəri matəm libası geyinmişdi. Heç bir idarə, müəssisə işləmirdi. Qəbiristanlıqlarda soyqırımı qurbanlarının xatirəsi yad olundu, onların ruhlarına dualar oxundu. Matəm münasibətilə milli hökumətin xalqa müraciəti bəyan edildi və s. Lakin çox təəssüflər olsun ki, milli hökumətin süqutundan sonra bütün faciələrimiz kimi 31 mart qırğını da unutduruldu.

**- Şirməmməd müəllim, sizcə, Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra 31 mart soyqırımı ilə bağlı əsl həqiqətlərin xalqa çatdırılması istiqamətində görülən işləri qənaətbəxş saymaq olarmı?**

- Təəssüf ki, yox. Sizə bir faktı deyim, 90-cı illərin əvvəllərində biz Qulu Məhərrəmli ilə birlikdə Azərbaycan televiziyasında "7 gün" adlı veriliş aparırdıq. 1995-ci ilin fevral ayının ilk günlərinə təsadüf edən verilişlərin birində mən 31 mart soyqırımının bir illiyini Cümhuriyyət hökumətinin necə qeyd etməsi barədə söhbət açdım. "Azərbaycan" qəzetinin o vaxtkı nömrələrində dərc olunmuş materialları - hökumətin qərarını, M.Rəsulzadənin "Böyük faciə" adlı məqaləsini efir vasitəsilə tama-

şaçılara çatdırdım. Sən demə, mərhum prezident Heydər Əliyev həmin verilişə baxırmış. Veriliş başa çatdıqdan sonra humanitar məsələlər üzrə dövlət müşaviri Hidayət Orucov məni yanına dəvət etdi və bildirdi ki, Heydər Əliyev verilişə baxıb və mənə göstəriş verib ki, bu məsələni araşdırım. Təbii ki, ermənilərin qondarma soyqırımının 80 illiyinə hazırlaşdıqları bir vaxtda bu məsələnin üstündən elə-belə keçmək olmazdı. Ona görə də Azərbaycanın tanınmış tarixçiləri və bu sahə ilə məşğul olan mütəxəssislər bir yerə toplaşıb 31 mart soyqırımının qeyd edilməsi haqqında fikir mübadiləsi apardıq. Bu müddətdə baş verən hadisələr, xüsusilə bəzi üzdəniraq tarixçi-alimlərin qəribə davranışları barədə ətraflı söhbət açmağa imkan olmadığına görə qısaca demək istəyirəm ki, bundan sonra üç il ərzində görülən işlərin yekunu olaraq Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin həmin o məşhur 26 mart 1998-ci il tarixli "azərbaycanlıların soyqırımı haqqında" fərmanı meydana çıxdı. Bu fərmanın hazırlanmasında R.Mehdiyev, H.Orucov, A.Paşayevin xidmətlərini xüsusi qeyd etmək istəyirəm.

**- Sizcə, haqqında söhbət açdığınız fərmanda nəzərdə tutulan bütün tədbirlər həyata keçirilibmi?**

- Müəyyən işlər görülsə də, bütün tədbirlərin həyata keçirildiyini demək olmaz. Çünki hələ də bütün Azərbaycanda, ondan kənarlarda 31 mart, sözün əsl mənasında, Milli matəm günü kim qeyd olunmur. Bizdən fərqli olaraq, ermənilər 1995-ci ildə qondarma soyqırımın 80 illiyi ilə əlaqədar dünyanın bütün parlamentlərinə müraciət edərək bu yalançı "aktı" tanımağa çağırdılar və az da olsa niyyətlərinə çatdılar. Bilirsiniz ki, artıq bir neçə nüfuzlu dövlət bu yalançı soyqırımını tanıyıb və hazırda həmin proses davam edir. Amma biz hələ də yatmışıq. Deyin görüm, Bakıda Soyqırımı Muzeyi açılıbmı? 31 mart qurbanlarının şərəfinə nəhəng bir abidə ucalıbmı? Həmin qanlı hadisə zamanı ermənilərin yerlə-yeksan etdikləri tarixi abidələrimizin yerində xatirə lövhələri vurulubmu? Bizim ruhani idarələri Eçmiədzin kilsəsindən nümunə götürərək ermənilərin başımıza gətirdikləri müsibətlər barədə təbliğat aparırlarmı? Həlak olanların siyahısı tutulubmu?... Nə qədər ki, bu suallara müsbət cavab verilməyib, tarixi yaddaşımızın bərpa edilməsindən söhbət gedə bilməz. Mən yenə də təkrar edirəm: 31 mart Azərbaycanda əsl matəm günü kimi qeyd olunmalıdır. Nəhayət, xalq öz dostunu və düşmənini tanımalıdır.

**- Şirməmməd müəllim, maraqlı müsahibəyə görə sizə təşəkkür edirik.**

**Söhbətləşdi:**
Əhməd QURBANOĞLU

**"Günay" qəzeti, N13, 27 mart 2004**

# ƏQİDƏ VƏ AMAL SAHİBİ

70 illik sovet hakimiyyəti dövründə Azərbaycan şair və nasir sarıdan korluq çəkməyib. Dövri mətbuat və jurnal səhifələrini vərəqlədikcə bunun şahidi olmaq mümkündür. Hakimiyyətdə olanlar xalqın söz sənətinə, sənətkarlara uzun əsrlik məhəbbətini, rəğbətini, yaxşı bilirdilər. Buna görə də onlar yeni kommunist ideologiyasının təbliği və təşviqi işində sənət sahiblərindən maksimum istifadə etməyə çalışırdılar. Min illik həyat tərzini, adət və ənənəni, inam və inancı dəyişdirmək vəzifəsi asan deyildi. Məlumdur ki, inqilab hər şeydən əvvəl keçmişi rədd etmək üzərində qurulur, həyata keçirilir. Əlbəttə, mövcud quruluş üçün "təhlükə" təşkil etməyən klassik şair və yazıçılar onların yaradıcılığını və dünyagörüşünü məhdud etmək və saxtalaşdırmaqla yad edilir və xatırlanır, hətta, əzəmətli yubileylər də keçirilirdi. Hər şeyi alt-üst etmək üzərində qurulmuş və yeni insan tərbiyə etmək kimi ağlasığmaz məqsədi öhdəyə götürmüşlər, öz istəklərinə müəyyən mənada nail də olurdular. Lakin əslini-nəslini itirməyən, milli ənənələrinə sadiq qələm sahibləri də yetişirdi. Dövrün, hakimiyyətin təzyiqləri, sığalları bu növ şəxsiyyətləri korlaya bilmirdi. Bu təbiətli sənətkarlar içərisində İsmayıl Şıxlının adını iftixarla çəkmək olar.



Qazax mahalının Şıxlı kəndində köklü bir ailədə dünyaya göz açan İsmayıl ilk cümhuriyyət dövrümüzün - 1919-cu ilin vətəndaşı idi.

İsmayıl Şıxlı 75 il ömür sürdü. Onun ömrünün sonu da yenə Azərbaycanın müstəqillik dövrünə təsadüf etdi. Hər adama qismət olan tale deyil. İsmayıl Şıxlı ilə mənim aramda yaş fərqi cəmi 5 ildir. Mən onu çox yaxından tanıyır, əsərlərini mütaliə edir, onun şəxsiyyətinə, savadına, dünyagörüşünə, əxlaqına həmişə hörmət və qibtə ilə yanaşmışam. Mən ədəbiyyatşünas deyiləm. Odur ki, onun bədii yaradıcılığı haqqında geniş söhbət açmaq istəmirəm. Amma, bir publisist, alim və müəllim kimi, bəzi fikirlərimi söyləyə bilərəm. Xüsusilə, bir müəllim kimi. İsmayıl Şıxlı Azərbaycan Dövlət Pedaqoji İnstitutunda uzun müddət rus və Avropa ədəbiyyatı fənnindən dərs deyirdi. Onun müəllimləri respublikamızın müəllim-alim ziyalıları Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə, Əli Sutlanlı, Mikayıl Rəfili və başqaları idi. İ.Şıxlı öz müəllimlərinin mənəvi-əxlaqi, elmi-pedaqoji təcrübəsinin və

**irsinin ən yaxşı və nadir davamçılarından idi. APİ-də namuslu, nəfsinə hakim, savadlı, ədalətli, humanist müəllim söhbəti düşəndə ilk növbədə İ.Şıxlının adını çəkirdilər və çəkirlər. Keçən əsrin 50-ci illərindən başlayaraq Azərbaycan ali məktəblərinə nüfuz etmiş neqativ hallara sinə gərən müəllimlər sırasında da İ.Şıxlı ön cərgədə dururdu. Tələbələri İ.Şıxlını onun "Dəli Kür" əsərindəki Cahandar ağa ilə çox vaxt eyniləşdirirdilər. Vətəninə, elminə, torpağına sonsuz məhəbbət, onun qayğısına qalmaq İ.Şıxlının həyat qayəsi idi.**

**Hər bir ziyalının, sənətkarın kimliyi, millətin, vətənin dar günündə aşkar olur. Keçən əsrin 80-ci və 90-cı illərin əvvəllərində sovet imperiyasının dağılması ilə əlaqədar xalqımıza, torpağımıza qarşı erməni təcavüzü günlərində, illərində mən İ.Şıxlının necə böyük fəaliyyət və fədakarlıq göstərməyinin şahidi olmuşam.**

**İ.Şıxlı dünya görmüş, geniş təfəkkürə malik, uzaqgörən bir sənətkar və siyasət adamı idi. Onun öz baxışı, hadisələrə milli münasibəti var idi. Yəqin ki, bu barədə mütəxəssislər hələ uzun müddət araşdırmalar aparacaq, yazacaqlar. Mən İ.Şıxlının mətbuatda dərc olunan yazılarını diqqətlə izləyirdim. Qeyd edim ki, o da mənim yazdıqlarım və televiziya çıxışlarım barədə bəzən öz mülahizələrini mənə bildirərdi. Bir nümunə üçün İ.Şıxlının 1991-ci il iyulun 24-də yazdığı və həmin il avqust ayının 2-də "Azadlıq" qəzetində dərc olunmuş "Əqidə və amal vəhdəti lazımdır" sərlövhəli məktubunu oxuculara təqdim edirəm. Tariximizin bu dövr hadisələrini anlamaq baxımından, həmçinin indinin özündə belə davam etməkdə olan ideya hərc-mərcliyinin səbəblərini görmək mənasında bu məktub qiymətli sənəddir.**

## *"ƏQİDƏ VƏ AMAL VƏHDƏTİ LAZIMDIR"*

Hörmətli redaktor!

Qəzetinizin 12 iyul 1991-ci il tarixli nömrəsində "Ziyalı sözünə ehtiyac var" adlı məqalə-xülasəni ürək ağrısı və təəssüflə oxudum. Ürək ağrısı ilə oxudum ona görə ki, AXC-ni təşkil edən, ona dayaq duran, belə bir hərəkatın yaranması üçün hər şeydən keçən ziyalıları AXC liderləri sıxışdırıb kənara atdılar.

İndi nə oldu, ziyalı sözünə ehtiyac duydunuz? Ziyalı sözünə ehtiyac duyan yoldaşlar, siz hansı işgüzar, hörmətli məclisinizə bizi dəvət edirsiniz? Hansı məsələ üçün bizlə məsləhətləşməyə ehtiyac duymusunuz? Yaxud demokratik blok adlandırılan deputatlar dəstəsi hansı ciddi məsələ ilə bağlı sessiyalararası, yaxud sessiyanın özündə "sözünə ehtiyac duyduğunuz" ziyalılarla məsləhətləşib, fikir mübadiləsi aparmışdır? Bir neçə gün bundan əvvəl keçirdiyiniz qurultaya bir qo-

naq, ya müşahidəçi kimi hansı fədakar, sözükeçən ziyalını dəvət etmisiniz? Bunun əvəzinə pulunuz olmaya-olmaya xaricdən 184 nümayəndə çağırdınız, onlar da sizi əməlli-başlı yuyub-sərdilər, təhqirə, qara-qışqırığa keçdilər. Bax bunlar - xalqın inandığı güclü bir hərəkatın süqutu - adamın ürəyini ağrıtmaya bilmir.

Məyus oldum ona görə ki, yadıma Prosper Merimenin "Tamanqo" əsəri düşdü. Zəncilər okeanın ortasında üsyan edərək ağları qırır və gəmini ələ keçirirlər. Qələbədən sonra aydın olur ki, gəmini idarə etmək iqtidarında deyillər. Bax məni məyus edən budur. Rəsmi dairələrin, Mərkəzin, irtica qüvvələrinin hücumu bir yandan, Xalq Cəbhəsi liderlərinin çəkişməsi, ümumən hərəkat iştirakçılarının səviyyəsinin aşağı olması, qüvvələrin parçalanması da bir yandan. Yazıq xalq neyləsin?

İkincisi, bildirmək istəyirəm ki, mən heç bir blokun üzvü deyiləm. Nə kommunist, nə antikommunist, nə demokratik, nə də antidemokratik qruplaşmalar məni cəlb edir. Bunlar hamısı oyundur. Uzun illərin müşahidələrindən sonra bu qənaətə gəlmişəm ki, xalqın böhranlı, ağır günlərində birlik əvəzinə blok düzəldənlərin çoxu xalqın mənafeyindən ziyadə özlərini düşünürlər. Beləəri ilə birləşmək çətindir. Çünki birlik üçün əqidə və amal vəhdəti lazımdır.

Həmin məqalədə Etibar Məmmədov qeyd edir ki, demokratik blokda birləşən deputatlar sessiyanı tərk edərkən İsmayıl Şıxlı zalda qaldı. Əvvəla, heç kəs mənə göstəriş verə bilməz, mən heç kəsin iradəsinə tabe deyiləm. Öz ağlım, öz qənaətim var. İkincisi, mən demokratik blokla birlikdə zalı tərk edə bilməzdim. Ona görə ki, sessiyanın gedişindən narazı olduğumdan, orijinal, yeni qanunlar əvəzinə Moskvanın qanunlarını tutuquşu kimi təkrarlayıb nöqtə-vergülünə qədər tərcümə etdiyimizdən, Ali Sovetin sədr və müavininin hər dəqiqə sessiyanın reqlamentini pozduğundan, zalda oturan deputatların doxsan faizinin onların səsinə səs verəcəklərini bilə-bilə yerlərdən edilən təkliflərin heç birini (heç olmasa formal şəkildə) səsə qoymadıqlarından, beləliklə, sessiyanın mənasız oyuncağa döndüyünü dərk etdiyimdən, nəhayət, Ali Sovet Məclisinin sessiyadan daha çox Mərkəzi Komitənin plenumuna oxşadığından və bir bitərəf kimi belə bir məclisdə iştirak etməyə hüququm olmadığını başa düşdüyümdən, demokratik blokdan xeyli əvvəl sessiyanın iclasını tərk edib, salondan getdim.

Hörmətlə,

**İsmayıl ŞIXLI 24.07.91**

*"Azadlıq" qəzeti, 2 avqust 1991-ci il*

**"Günay" qəzeti, N14, 3 aprel 2004**

# HƏYAT SƏVİYYƏSİ, İNSAN HÜQUQLARI VƏ "MƏZHƏB AZADLIĞI" MƏSƏLƏSİ

Dünya nəinki yeni minillik və yeni yüzilliyə, hətta yeni bir cəmiyyətə - informasiya cəmiyyətinə qədəm qoymuşdur. İqtisadi, elmi-texniki, ictimai-siyasi, hərbi-mədəni birlik və birləşmələr qlobal səciyyə daşımaqdadır. Yeni informasiya texnologiyası Yer kürəsi adlanan gəminin sakinlərinin həyat tərzini, düşüncə və baxışlarını əsaslı surətdə dəyişməkdədir. Planetin istənilən guşəsində baş verən hadisələr anındaca beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır. Bu qlobal prosesin təkanverici qüvvələri, memarları yüksək inkişaf etmiş ölkələr, onların yüksək həyat səviyyələri, insancasına yaşamaq üçün geniş imkanları olan xalqlardır. Onların sayı o qədər də çox deyil. Bu yüksək inkişaf etmiş ölkələr və xalqlar sırasında biz nədənsə islam dünyası adlanan ölkə və xalqların adlarına rast gəlmirik. Nə üçün? Hətta Türkiyənin tanınmış ilahiyyatçısı, hazırda ABŞ-da müalicə olunan Fətullah Gülən əfəndi bu yaxınlarda "Samanyolu" teleşirkəti müxbiri ilə müsahibəsində açıqca bəyan etdi ki, indi nə islam dünyası var və nə də islam aləmi. 2001-ci ilin 11 sentyabr hadisələrindən, islamın beynəlxalq terrorizmlə əlaqələndirilməsindən sonra qlobal səviyyədə islam və onun gələcəyi məsələsi yenidən ön plana çıxarılmışdır.

Əslində indi yenidən gündəmə gətirilən bu problem, bu siyasət və kampaniya da yeni deyil. Məsələn, XIX əsrin sonlarında məşhur şərqşünas alim, Moskva Lazarev adına Şərq Dilləri İnstitutunun professoru, A.Y.Krımski (1871-1942) "Müsəlmanlıq və onun gələcəyi" (Мусульманство и его будущность) adlı bir əsər yazmış və çap etdirmişdi. Azərbaycanın ilahiyyatçı alimi, görkəmli şərqşünas və islamşünas Əhməd bəy Ağayev bu kitabı diqqətlə oxumuş və "Kaspi" qəzetində eyni adlı iri həcmli analitik-tənqidi bir rəy-məqalə dərc etdirmişdi. Əhməd bəy bir tərəfdən islamı dəyərləri, digər tərəfdən onu xurafat, fanatizm, mühafizəkarlıq, cəhalət, yalnız axirət dünyası ilə bağlı bir məfkurə təlimi kimi təlqin edənləri ciddi tənqid edir, həmçinin onunla rəqabət aparmaq iddiasına düşənlərə də lazımi cavab verildi.

Ənməd bəy Ağayev "Müsəlmanlıq və onun gələcəyi" ("Мусульманство и его будущность, ("Kaspi", 1899, N259)) adlı məqaləsində yazırdı: "Belə bir sərlövhəli kitabdan çox şey gözləmək olar: Siz gözləyirsiniz ki, həmin kitabda islamın əsasları barədə, onun keçmişdə insanların taleyində oynadığı rol və müasir həyata münasibəti barədə bir sıra suallara cavab tapacaqsınız. Lakin ümidləriniz doğrulmayacaq, oxucu! Çünki bu adlı kitabın müəllifi, Lazarev institutunda ərəb

dili və ədəbiyyatından dərs deyən cənab Krımski özünün bu yaxınlarda çapdan çıxmış əsərini yalnız bu cür ümidverici adla bəzəmişdir"...

"...Biz onun "əsərlərini" diqqətlə oxuyaraq bu qənaətə gəldik ki, hörmətli alim bu işə girişərkən "müsəlmanlıq və onun gələcəyi barədə" nəyin bahasına olursa-olsun, məlum nəticələrə gəlmək üçün öz qarşısına qərəzli məqsəd qoymuşdur. Bu qərəzlilik cənab Krımskinin ərəb dilini və Şərqin tarixini yaxşı bilməməsi ilə bağlıdır və bizim fikrimizcə, onun "əsərində" nəzərimizə çarpan qüsurlar, kitabçanın müxtəlif yerlərində rast gəlinən ziddiyyətlər və uyğunsuzluqlar, həmçinin eybəcər hala salınmış, dolaşdırılmış, düzgün şərh edilməmiş, bəzən isə açıq-aşkar təhrif edilmiş tarixi faktlar da özünü göstərir".

Daha sonra Ə.Ağayev yazırdı: "Həqiqi islam, həqiqi müsəlman savadsız və maarifsiz təsəvvür edilə bilməz, nadanlıq və islam - bir araya sığışmayan anlayışlardır". Və daha sonra: "Məhəmməd peyğəmbər buyurur ki, Allah hər şeydən əvvəl ağılı yaratmışdır".

Üzeyir Hacıbəyov islama qarşı min illər boyu xristian dünyasının, müstəmləkəçi dövlətlərin həyata keçirdikləri təfriqə, təzyiq və ayrı-seçkilik siyasətini xüsusi qeyd edir və "Dərin quyular" sərlövhəli məqaləsində yazırdı: "Rusiya mütləqiyyətinin quyuqazan alətləri... biz müsəlmanların içində quyu qazılmağa qabil olan yerlər tapdı... Rusiya hökuməti bir o qədər zəhmət çəkmədi. Çünki bizim aramızda yaramaz əllər əvvəldən quyu qazıb hazır qoymuşdular, o quyunu ancaq bir o qədər də dərinləşdirmək və lazım olsa, digər bir quyu qazmaq kifayət idi. Rusiya hökuməti onu da elədi, bunu da. Əvvəlcə bizim gözümüzü yumdu və ondan sonra başlayıb "Şeyxülislam təyini, müfti nəsbi (qoyulması), "Ömər" şkolası güşadı (açılışı), "Əli" şkolası təsisi, şiə zakon uçiteli, sünni zakon uçiteli təyini ilə bərabər, sair fəsadlar ilə bizim aramızda əvvəlcədən qazılmış olan şiə və sünni quyusunu daha gen və daha dərin bir hala salıb ləzgi, tatar, müsəlman ibarələri ilə dəxi digər bir quyu qazıb, rahat və arxayın oturdu".

Üzeyir bəy yazırdı ki, islamların zahiri və batini ittifaq və ittihadı (birliyi) "mövcud olan gen və dərin quyuların aradan qaldırmasını tələb edir. Bunun üçün isə "üç yol vardır: 1. Quyuları dolanıb, kənardan bir yol aramaq... 2. Quyular üzərindən bir körpü salmaq... 3. Quyuları doldurub bilmərrə basdırmaq, bu məsələnin aradan birdəfəlik götürülməsinə qeyrət etmək".

Bəs neçə minillik islam-xristian münasibətlərinə, XX əsrin lap əvvəllərindən bu probleme "Molla Nəsrəddin" jurnalı və Mirzə Cəlilin baxışları necə idi? Bunun üçün indi də aktuallığını itirməmiş "Məzhəb azadlığı" məqaləsini oxumaq məncə kifayətdir.

## MƏZHƏB AZADLIĞI

*(Müsəlman vəkillərinə nəsihət)*

Ay Dumada olan müsəlman vəkilləri, and verirəm sizi öz insafınıza, bircə dəqiqə mənim bu sözlərimə qulaq verin və qoca Mollanın nəsihətlərini qəbul edin.

Eşitmişəm ki, Duma çalışır Rusiyada məzhəb azadlığı olsun; yəni hər bir kəs hansı məzhəbdən hansı məzhəbə istəsə keçə bilsin və eşidirəm ki, hökumət də istəyir buna razı olsun və bunu da eşidirəm ki, siz, yəni müsəlman vəkilləri də buna razısınız. Amma mən bircə bunu bilmirəm ki, siz bu işə razılıq verəndə ağlınız harada idi?

Kişi, nə qayırırsınız?!! Sizin ki, dünyadan xəbəriniz yoxdur, nə ixtiyarınız var özünüzü müsəlman vəkili hesab edib, bu dərəcədə bizə xəyanət edəsiniz?! Yəni bilirsinizmi ki, məzhəb azadlığı nədir?

Məzhəb azadlığı odur ki, Həsən istəsə gedib kilsəyə girib xaçpərəst olsun, İvan da istəsə məscidə girib, müsəlman olsun.

Ay müsəlman vəkilləri, heç bilirsinizmi ki, bu işlərin axırı hara gedib çıxar? Əgər bilmirsiniz, mən indidən sizə xəbər verim: axırda elə olar ki, bir az müddətdə müsəlmanların hamısı müsəlmançılığı ötürüb, gedib xaçpərəst olar. Mənim əqidəm bunadır və əgər istəsəniz, sözümü sübuta da yetirə bilərəm.

Mən deyirəm ki, bir müsəlman bir müddət qala, məsələn, Bakıda və sonra gedə bir müddət də qala, məsələn, Şvetsariyada, bakılıların da rəftar və kirdarına baxa, Şvetsariya əhlinin də əxlaq və ətvarina (vəziyyətlərinə) baxa, - axırda haman müsəlmanın etiqadı və əfkarı xarab olar.

Yaponiyadan bir bütpərəst gələ Gəncə şəhərinə və görə ki, bir boyaqçı dükanının qabağında yeddi-səkkiz nəfər arvad qucaqlarında uşaq durublar və bir qırmızısaqqal boyaqçı qollarını çərmiyib, uşaqları bir-bir alıb, küpə soxub, qara boyuyur, sonra analarının hər birindən uşağa bir manat alıb yola salır və deyir: "Gedin, dəxi qorxmazlar" - bir belə yaponiyalı bu işləri görən kimi tez başmaqlarının dabanını bərkidib, qaçar Yaponiyaya.

Amma bir gəncəli gedə, Yaponiyanın adamlarını görə, qorxuram axırda işlər xarab ola.

Əgər Amerikadan bir murdar xaçpərəst gələ irəvana və görə ki, bir müsəlman durub bir əttar dükanının qabağına və qırmızısaqqal və mömin dükançı, təsbih əlində, müştəriyə deyir: "Dünən Xoydan mənə 60 put it qarısı (qursağı) göndəriblər, hər kəs bir xörək qaşığına çalıb

içsə, hər dərdü-bəladan qurtarar və bundan başqa 200 pişik pətənəsi bu günlərdə gələcək, yamanı, çibanı, qara yaranı, şirin yaranı o saat qaytarar". Əgər amerikalı bu əhvalatdan xəbərdar olsa, hər yanda bir müsəlman görsə, ondan iyrənər. Amma bir irəvanlının Amerikaya yolu düşsə, dəxi İrəvana gəlməz, müxtəsər...

... Əgər bir yəhudi gələ müsəlman içinə və görə ki, üləmamız (ziyalılarımız) bir-birindən hökumətə danos yazırlar, bakılı rəislərimiz Dumada şarları oğurlayıb, əvəz edəndən sonra gedib hökumətə qol yazıb, iqrar edirlər ki, təqsir müsəlmandadır, əgər haman yəhudi bizim cəmiyyəti - xeyriyyələrimizi görə, qumarxana və qiraətxanalarımızı görə, pirlərimizi və qız məktəblərimizi görə, dövlətli hacılarımızı və kefli cavanlarımızı görə, xülasə, əgər bizim işlərdən yaxşıca baxəbər ola, haman yəhudi bir də qələt elər ki, müsəlman içinə ayaq basar.

Amma bir müsəlman əvvəl gedib görə ki, yəhudi qızları qoltuqlarında kitab gedirlər darülfununa elm oxumağa, əgər gedib görə ki, rus qızları Mancuriya çöllərində qışın şiddətli soyuğunda yapon gülləsinin qabağında öz rus qardaşlarının yaralarını bağlayırlar və əgər haman müsəlman sonra baxıb görə ki, bizim Gülçöhrə xanımlar, Xanpəribəyimlər, Gülsənəm xatunlarımız burunlarının suyunu arxalıqlarının qolu ilə və çarqatlarının ucu ilə təmizləyirlər, əgər müsəlman bu işləri görsə, gedib yəhudi olar və yəhudi qızı alar. Yox, yox, bizə məzhəb azadlığı lazım deyil. Hər kəs öz məzhəbində qalmağı bizim üçün hamısından məsləhətdir. Biz əzrailin uşaq paylamağını istəmirik.

Aman günüdür, ay müsəlman vəkilləri! Ağsaqqal və dünyagörmüş Molla Nəsrəddinin bu bir neçə sözünü çıxartmayın yadınızdan.

**MOLLA NƏSRƏDDİN**
"Molla Nəsrəddin" jurnalı,
***31 mart, 1907, N-13***

**"Günay", N15, 10 aprel 2004**

## QARABAĞ FACİƏSİ
## MİRZAĞA ƏLİYEVİN SƏFƏR TƏƏSSÜRATI

Tariximizin və taleyimizin böyük salnaməçisi Mirzə Cəlil keçən əsrin ilk on illiyi dövründə Azərbaycanın şimal və cənubunda cərəyan edən qanlı hadisələri, millətin başına gətirilən faciələri bir cümlə ilə ifadə edərək yazırdı: "Qarşımızda bir Azərbaycan matəmgahı durur!" Bu çağırışa, bu milli həyəcan təbilinə qanında, canında millət namusu olan minlərcə, on minlərcə vətən övladı cavab verdi, ayağa qalxdı. Hərəkatın ön sırasında silah tutan igidlər gedirdi. Onlarla yanaşı, xalqın ziyalıları, sənət adamları, din xadimləri, işgüzar dairələrin nümayəndələri vahid bir səfdə birləşməyə səy göstərir, azğın erməni-daşnak güruhu və ona himayədarlıq edən çar üsuli-idarəsinə qarşı ağıllı, təmkinli mübarizə aparırdılar. Lakin satqınlar da az deyildi.

Azərbaycan Rusiya imperiyası tərkibinə zorla qayıtdıqdan sonra ilk kütləvi silahlı qırğın kampaniyasına birinci rus inqilabı illərində məruz qaldı. 1905-1907-ci illər yeni yüzillikdə tariximizin ilk faciələr dövrü idi. Məhz bu illərdə Qarabağda, Zəngəzurda, Bakıda, Tiflisdə, İrəvanda - Qafqazın türklər yaşayan hər yerində kütləvi təqib, talan və qırğın həyata keçirilirdi. Belə bir təhlükəli şəraitdə xalqın imdadına yetişən sənət xadimləri sırasında böyük sənətkar və vətəndaş Mirzağa Əliyev də vardı. Bu böyük səhnə ustasını oxuculara təqdim etməyə ehtiyac yoxdur. Bu barədə teatrşünaslar çox qiymətli əsərlər yazmışlar. Lakin M.A.Əliyevi cəsarətli vətəndaş, ictimai-siyasi xadim kimi tanıyırıqmı? Onun dövri mətbuatda dərc olunmuş yazıları barədə yazılıbmı? Onlar çap edilibmi? Mən bu suallara müsbət cavab verə bilmirəm. Həm də onun yazıları kəskinliyi, dəqiqliyi, konkret faktlarla zənginliyi baxımından diqqəti cəlb edir.

1906-cı ilin payızında 24 yaşlı, artıq müqtədir artist-sənətkar kimi tanınan M.A.Əliyev Gəncə quberniyası fəlakətzədələrinə ianə yığan komitənin üzvü kimi Qarabağ və Zəngəzur mahallarına səfərə çıxmışdı. O, gördüklərini, müşahidə etdiklərini qələmə almış, M.Ə.Rəsulzadənin redaktoru olduğu "Təkamül" qəzetinin 1907-ci il 20 yanvar tarixli nömrəsində dərc etdirmişdir.

M.A.Əliyevin müşahidə etdiyi vəziyyət, əhvalatlar təəssüf ki, bizim şahidi olduğumuz illərdə və günlərdə də təkrar olunmaqdadır. Onun gəldiyi nəticəyə diqqət verin: "Qarabağ camaatının neçə düşmənləri varsa, ən əvvəlincisi bu (söhbət vəzifə və imkan

**sahiblərindən gedir - Ş.H.) vicdansızlardır". Yaxşısı budur ki, M.A.Əliyevin məktubunu özünüz oxuyub düşünəsiniz. Ermənilərin soyqırım barədəki hay-küy kampaniyası günləri ərəfəsində tarixi şahidlərin bu rəzil qonşuların Azərbaycan torpağında törətdikləri cinayətləri, həmçinin bu cinayətləri görməzliyə salıb, öz canlarını və var-dövlətlərini qoruyan vicdansızları da tanımaq vacibdir. İndi də bu qəbildən olanlara rast gəlmək mümkündür.**

İDARƏYƏ MƏKTUB

## QARABAĞ AĞALARI

Gəncə quberniyasının fəlakətzədələrinə ianə yığan Mərkəzi Komitənin tərəfindən olaraq Qarabağ və Zəngəzur mahallarını təftişə çıxan heyət cümləsində olub, oraların əhvali-ictimaiyyəsinə bir növ bələdiyyət yetirdim. Və bələdiyyətimin nədən ibarət olmasını vəchi (səthi) ixtisadilə də olsa, ümummillətə mətbuat vasitəsilə yetirməyi özümə vacib hesab edirəm.

Hər yerdə, hər bir məmləkətdə ümumi bir qanun olan kimi, burada da biçarə camaat, yazıq amməyə (kütləyə) nainsaf xanların, bimürüvvət mülkədar və bəylərin yədmüstəbidələrində (zülmkar əllərində) giriftar qalıb əziyyət çəkməkdədirlər. Həmişə öz ciblərini güdən bu vicdansızlar biçarə camaatı belə bir vəhşətli fəlakətə sövq edib, onları məişət meydanında birəhmanə (rəhmsizcəsinə) buraxmışlar.

Camaat əlinin rənci (zəhməti) və əl-alnının təri bərəkətindən keyfə baxan bu xanlar yazıq məxluqu "daşnaksionların" əlindən qurtarmamış, bihəya kazakların qarət və talanına giriftar olan zaman cənab generallarla dostanə qədəh-qədəhə vurub sərməstlik (sərxoşluq) edirlərmiş, "canları çıxsın rəiyyət olmasınlar", -deyirlərmiş. İndi də həmin "dostluqlar" və "qədəhlər" nəticəsi olan ümumi aclıq zamanında, İsgəndər bəy kimi ağalar isti otaqlarda "proferans" vurmağa məşğul olub, qonşusunda zırıltı ilə deyilən "ana mənə çörək!" - naleyi-cangüdazını (ürək dağlayan naləsini) eşitməyir və daha doğrusu eşitmək istəmirlər. Əsnayi-səyahətimdə bir nəfərdən "ağaların" onlara nisbətən göstərdikləri əlaqəni sorduqda gözlərindən qanlı yaş tökərək məzlumanə bir sayaqla dedi: "Xoş günümüzdə bizdən mənfəət görüb, məşəqqətimiz ucundan anbarlarını ağzına kimi doldurub, isti otaqlarda keyfə məşğul olan ağalar, bir daha bizi tanımaq, səsimizi belə eşitmək istəməyirlər. Bizlərə insan deyil, heyvan qədəri də qiymət qoy-

mayırlar. Əkinini qurtarmış bir rəncbər (əkinçi) qış zamanını sərasər öküzlərini saxlar, tainki gələn bahara çıxıb yenə də işləməyə qadir olsunlar. Bu bimürüvvətlər bizlərə öküz qədər də qiymət qoymayırlar".

Fövqdə (yuxarıda) adına işarə edilən İsgəndər bəy kimi bir neçələri var ki, istəsələr öz varları və məkənnətləri (dövlətləri) ilə - Qarabağ mahalını tamam bir il aclıqdan saxlaya bilərlər. Lakin yolçuluğa razı olub anbarlarının və ciblərinin ağzını bərk-bərk bağlayıb bu barədə heç bir fikir belə etməyirlər.

Xülasə, yazıq biçarə rəiyyət bəy və xanlardan çəkdiyi əziyyət və zülmü heç bir kəsdən çəkməmişlər - zənn edirəm. Qarabağ camaatının neçə düşmənləri varsa, ən əvvəlincisi bu vicdansızlardır.

Mən də gəzdiyim və səyahət elədiyim zamanda onu bilib təsdiq etdim ki, hər kəs Qarabağ zərərdidə camaatına həqiqi bir kömək etmək istəyirsə, lazım gəlir ki, bu binəvaları o zalımların çəngəli-müstəbidanə və qəddəranələrindən... azad eləsin!

Mirzağa Əliyev

İdarədən: Bu məktubu dərc edib də Mirzağa cənabları ilə müvafiqəti-tammadə (tam şərik) bulunub, onun camaata, rəiyyətə xidmət etmək üçün göstərdiyi yolu təsvib edib (bəyənib) təhsinləməyə (əhsən deməyə) məcburuz.

*"Təkamül" qəzeti,*
*20 yanvar, 1907-ci il, N-5*

**"Günay" N16, 18 aprel, 2004**

# CİNAYƏTKAR SİYASƏTƏ XİTAM VERİLMƏLİDİR

Ağlagəlməz saxtakarlıqlara, avantürist niyyət və hərəkətlərə, qatı millətçilik və irqçiliyə əsaslanan erməni-daşnak təcavüzü fitnəkar səciyyəsi ilə bir əsrə yaxındır ki, Orta Şərqin, o cümlədən Qafqaz və Türkiyənin başını ağrıtmaqdadır. Erməni təcavüzündən ən çox zərər çəkən, ziyan görən isə Azərbaycan və azəri türkləridir. Bu işə rəvac verən, şərait yaradansa ilk növbədə Rusiyanın imperiya maraqları, ermənilər tərəfindən satın alınan dairələri olmuşdur. Bu üzdəniraq himayədarlıq siyasəti indi də davam etməkdədir. Keçən əsrin əvvəllərində, Birinci Dünya müharibəsi dövründə ermənilər öz avantürist "böyük Ermənistan" planlarını həyata keçirmək üçün nələrə əl atmadılar? Terror, silahlı quldur dəstələri, qarət və qətliamlar, siyasi oyunbazlıqlar, böhtan və iftira kampaniyaları, genosid harayı və s. bu qəbildəndir. Türk-islam dünyasına qarşı qərəzli mövqe tutan Qərbin bəzi hakim dairələrində daşnakların yalan və uydurmalarına, təcavüzkar hərəkətlərinə rəvac verdilər, tarixi həqiqətlərə göz yumdular. Bu qərəzli siyasət də davam etməkdədir. Maraqlıdır ki, hələ 87 il bundan əvvəl ermənilərin fəlakətli xətasını bütün çılpaqlığı ilə görənlər, ifşa və tənqid edənlər vardı. Bizim bir xətamız da bu tarixi sənəd və faktları vaxtında toplayıb beynəlxalq ictimaiyyətə onların başa düşəcəyi dildə çatdırmağa laqeyd münasibət bəsləməyimizdir. Məsələn, 1917-ci il dekabrın sonunda "Vozrojdenie" qəzeti (Tiflis 1917-1918-ci il) "Ermənilərin yeni fəlakətli xətası" sərlövhəli analitik bir yazı dərc etmişdi. M.Ə.Rəsulzadənin redaktorluğu ilə çıxan "Açıq söz" qəzeti həmin məqaləni ana dilinə tərcümə edərək dərc etmişdi. N.Nərimanovun nəşr etdiyi "Hümmət" qəzeti həmin yazını "Açıq söz"dən götürüb 1918-ci il yanvarın 10-u tarixli nömrəsində vermişdi. "Hümmət" bolşevik qəzeti idi. Bakı bolşeviklərinin rəhbərlərinin böyük bir qismi isə Stepan Şaumyan başda olmaqla ermənilər idi. Daşnaklara münasibətdə Müsavatın "Açıq söz" və "Hümmət" qəzetlərinin mövqeləri bəzi ciddi fərqlərə baxmayaraq, üst-üstə düşürdü.

Daşnakları ifşa etmək baxımından maraq doğuran həmin məqaləni oxuculara təqdim edirəm. O ki qaldı "Hümmət" idarəsinin rəyinə, tarix "Açıq söz"ün, yoxsa "Hümmət"in, M.Ə.Rəsulzadə, yoxsa N.Nərimanovun haqlı olduğunu bizə göstərdi. Təhlükə isə qalmaqdadır.

## ERMƏNİLƏRİN YENİ FƏLAKƏTLİ XƏTASI

Bu ünvan ilə "Vozrojdenie" qəzetəsi yazan məqaləni "Açıq söz" təcrümə ediyor. Bu məqaləni biz eynilə qəzetəmizdə çap etməyi məsləhət bildik.

Avropa müharibəsi ibtidasında hələ Rusiya dövləti Türkiyə ilə hali-hərbdə olmayan zaman erməni millətinin başçıları bir fəlakətli xəta işlədilər. Qraf Voronsov-Daşkov ilə vəzir Sazonovun şirin nitqlərinə və vədlərinə aldanaraq onlar Türkiyəyə elani-hərb etdilər və erməni könüllüləri Türkiyə torpağına soxuldular.

O vaxt biz bir sıra məqaləmizdə erməniləri belə xətalı iqdamətdən sakındırmağa çalışaraq xırda bir millət üçün belə təcavüzkaranə hərəkətin fəlakətli olduğunu isbat, bir qədər durbin (uzaqgörən) olmalarını tövsiyə etdik və milli təəssüb alovlandıran başçılar əleyhinə çıxdıq. Fəqət tövsiyələrimiz hədər olub daha da bizdən acıqlandılar və erməni qəzetələrində üzümüzə "haya git" - /erməni yiyən/ ləqəbi qazandıq. Bizim ən müqəddəs hissimiz təhqir edildi. Zira səmimiyyətimiz ədavət tələqqi edildi və xeyirxahlığımız bütün məzlum erməni milləti haqqında provokasiya kimi göstərildi.

Fəqət tarix öz sözünü söylədi. Bir az keçmədi Rusiya Türkiyəyə elani-hərb etdi və xariciyyə vəziri Sazonov Dövlət Duması kürsüsündən ermənilər namindən də rəsmi surətdə Türkiyəyə dava elan və erməniləri Rusiyaya müttəfiq hesab etdi. Bununla da Türkiyədəki erməni millətinə iti bir bıçaq vurdu. Fəqət bu işlərin həpsi erməni başçılarının izzəti-nəfsini oxşadı və onlar artıq müzəffəriyyət şadlığı etdilər. Məlum oduğu üzrə Rusiya ermənilərinin ağılsız siyasəti nəticəsində Türkiyə Ermənistanı əzildi, məhv oldu. Voronsovların - Rusiyaya ermənisiz Ermənistan lazımdır, - siyasəti tamamilə əmələ gəldi. Türk-rus qoşunları erməniləri qırıb doğma yurdlarından qovdular.

Erməni başçıları çar bürokratlarının hiyləgər siyasətinə alət edildiklərini görmədilər.

Lehistan (Polşa), Litva, Belorusiya dəxi dava meydanı olaraq Qafqaziya səmti kimi deyil, daha müdhiş vuruşmalar meydanı oldu. Fəqət Lehistan, Litva və Belorusiya səlamət qaldılar. Bəs nə üçün Ermənistan məhv oldu? Hamının etiraz etdiyi üzrə dava edən millətlərdən heç birisi türk əsgərləri qədər alicənabanə dava etmiyor.

Bununla bərabər Ermənistan məhv oldusa səbəbi budur ki, süni surətdə Gilyotin (boyun vuran makina) altına salınmışdı. Polyaklar nə Rusiyaya xəyanət etdilər, nə Almaniyaya. Onlar heç bir dövlətə elani-hərb etməyərək gücsüzlüyünü etirafla mümkün olan qədər bitərəf qaldılar. Fəqət kiçik Ermənistan təcavüzkaranə siyasət yürüdərək hərbi bir dövlət kimi müttəfiqlər sırasına girdi. Bizə məlumdur ki, Türkiyə er-

menileri öz vətənləri olan Türkiyəyə əsla xəyanət etməyib bitərəf qalmaq istəyirdilər.

Fəqət Rusiya ermənilləri onların əvəzinə dövlətlərinə xəyanətə qol çəkməyə tələsdilər. Belə ağılsız siyasətin nə qədər müdhiş nəticə verdiyini müfəssəl yazmayacağıq. Fəqət bu fəlakətdən dəxi onlar ibrət almadılar.

İndi biz yenidən səsimizi ucaltmalıyız, biz kənardan daha yaxşı görüyoruz, indi erməni başçıları yeni bir xəta işləyirlər.

Rusiya Türkiyə ilə barışır. Rus qoşunları cəbhədən gedirlər. Ümumqafqaziya millətləri müharibənin qurtarmasını arzu edirlər. Ermənilər isə yenə müstəqilən Türkiyə ilə müharibəni davam etdirmək istəyir. Onlar səfərbərlik elan etmişlər. Rus qoşunu tərəfindən tərk edilmiş Türkiyə cəbhəsini müdafiəyə hazırlaşırlar. Bitmək üzrə olan Rusiya-Türkiyə müharibəsi əvəzinə Türkiyə - erməni müharibəsi başlanır. Voronsovlar ilə Sazonovlar rolunu indi də İngiltərə diplomatları ifa edir və ermənilər macaracuq yoluna düşürlər.; Səmimi olalım! Ermənilər nəyə xatircəm ola bilərlər?

İngilislərin kömək verməleri xəyaldır. Onlar öz mənafeləri üçün ermənilərdən istifadə edəcək və özləri üçün əlverişli dəqiqeyi-hal edincə erməniləri öz müqəddəratlarına buraxacaqlardır. Ola bilər ki, ermənilər öz qoşunlarının köməyinə ümid bağlayırlar. Hazırda Rusiya hökuməti başında duran Lenin erməniləri az düşünür. Rus soldatları heç vaxt Ermənistan, yaxud Rusiyanın sair bir qismi üçün müharibəni təzədən başlamaq istəməyəcəklərdir.

Türkiyə ilə mübarizədə Qafqaziya türk, dağıstanlı və gürcülərdən də kömək gözləmək ağılsızlıqdır. Səbəbləri də çoxdur və məlumdur. Gürcü demokratiyası müharibənin davamını istəmir, heç dürlü macaraculuğa getməz. Bilxassə ki, ermənilər Gürcüstanın xüsusi əyaləti olan ən yaxşı torpaqlarını əllərinə almağa çalışır. Gürcülər həqqində əski siyasətlərini də davam etdirir və etirasati-milliyəni alovlandırıyorlar.

Aşkardır ki, bu yeni müharibədə ermənilər tək qalacaqlar və ancaq öz qüvvələrinə xatircəm olmalıdırlar. Bu qüvvənin isə azlığı və müharibəyə hazır olmadığı ermənilərin özlərinə bizdən yaxşı məlumdur.

Vaxtdır ki, öz millətlərinin müqəddəratına daha ayıq göz ilə baxaraq onu qabaqcadan itlafa məruz olan məqsədsiz fəlakətlərə salmasınlar. Vaxtdır ki, hərbcuyanə siyasətin yaxşı nəticə verməyəcəyi və hamı ilə dava etmək mümkün olmadığı dərk edilsin. Belə siyasət erməniləri dəhşətli bir hala saldı. Türkiyə Ermənistanını məhv etdi. İndi isə Qafqaziya ermənilərinin də istiqbalını puç edə bilər. Belə müdhiş bir vəziyyətdən çıxmaq üçün ancaq bir çarə var:

Ümumi siyasət kursunu əsasından dəyişmək, hərbcuyanəliyi sülhcuyanə siyasətə mübəddəl etmək və hər şeydən qabaq yaxın qonşu

millətlərlə əl-ələ getmək lazımdır.

Bu yazını oxumaq ağırdır. Fəqət mərdanəliklə acı həqiqəti dinləməlidir".

İdarədən: Erməni millətpərəstləri, yəni daşnaklar zavallı zəhmətkeş erməniləri nəinki düz yoldan azdırırlar, hətta bu hərəkətlərlə inqilaba böyük bir zərbə vururlar. Bunlar və müsəlman millətpərəstləri inqilabi dərinləşdirmək məsələsində ancaq milliyyəti nəzərdə tuturlar. İnqilabın belə bir şiddətli gedişində bu hərəkət əksinqilab meydana gətirər. Hətta bu xəta hərəkət iki millətin bir-biri ilə vuruşmasına səbəb ola bilər. İnqilabi dərinləşdirmək və möhkəmləşdirmək üçün sinif mübarizəsinə meydan verməlidir. O vaxt iki millətin zəhmətkeşləri birləşib ümumi düşmənə bir yerdə hücum edərlər. O vaxt hər millət öz milli məsələlərini asudə və rahat həll edib də məqsədinə çatar. indi erməni millətpərəstləri təzədən müharibəyə hazırlaşırlar, bununla nə demək istəyirlər? Yenə də milli qan?

*"Hümmət" qəzeti, N-26,*
*10 yanvar, 1918-ci il*

**"Günay" N-17, 24 aprel 2004**

TARİXİMİZİN İBRƏTAMİZ SƏHİFƏSİ

## QARA BİR MAY!

**1886**-cı il mayın 1-də ABŞ-ın Çikaqo şəhərində fəhlələrin 8 saatlıq iş günü tələbi ilə təşkil etdikləri tətil və nümayişi polislər vəhşicəsinə dağıtdılar. Bu hadisə təkcə ABŞ-da deyil, Avropanın sənaye şəhərlərində, fəhlələr və mütərəqqi dairələr arasında da ciddi əks-sədaya səbəb oldu. II internasionala daxil olan sosialist partiyaları 1889-cu ilin iyulunda Parisdə keçirilən konqresdə hər il mayın 1-ni fəhlələrin ümumdünya həmrəyliyi günü kimi bayram etmək barədə qərar verdi. 1890-cı ildə ilk dəfə ABŞ və sənayecə inkişaf etmiş Avropa ölkələrinin bir qismində mayın 1-i fəhlələrin həmrəylik günü kimi qeyd edilməyə başlandı.

Azərbaycanda ilk dəfə 1 may toplantısı 1900-cü ildə, 104 il bundan əvvəl Balaxanı-Sabunçu rayonunda gizli tərzdə qeyd edildi. Sonrakı illərdə Bakı sosial demokratları hətta şəhərin mərkəzi meydanlarında belə icazəsiz toplantı və nümayişlər təşkil etməyə başladılar. Radikal

şüarlar, inqilabi vərəqələr, mitinq və nümayişlər polis tərəfindən təqib və təzyiqlə qarşılanırdı. Bakıda ilk izdihamlı 1 may 1917-ci ildə - çar üsuli-idarəsi süqut etdikdən sonra geniş bayram edildi. Lakin bir il sonra, 1918-ci ilin 1 mayı Azərbaycanda Qara bayram oldu. Martın sonunda daşnak-rus şovinist güruhunun törətdiyi qətliam şəraitində bayram əhval-ruhiyyəsi yaratmaq mümkün deyildi. Bolşevik-daşnakların 1918-ci ilin 1 may tədbirləri azərbaycanlıların böyük əksəriyyəti tərəfindən boykot edildi.

1920-ci il aprelin 28-də Azərbaycan sovet Rusiyası qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycanda "28 aprel inqilabı bayramı" ilə 1 mayı hibrid etdilər. Bu hibrid 70 il davam etdi.

1918-ci ilin 1 may günündə "Hümmət" qəzetində "Rəncür" imzası ilə "Nə üçün qəmginsən" - deyənlərə" sərlövhəli bir şer dərc olunmuşdur. Dövrün ruhu, xalqın əhvalı şairin qələmilə tarixə həkk olunmuşdur. Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəmətilə unudulmur. Bunları da bilmək vacibdir. Axı həqiqi bayram günlərini unutdurub, yaxud saymazlığa salıb, qondarma bayram günləri icad edənlər həmişə olmuşdur. "Rəncür"ün şeri bu baxımdan ibrətamizdir.

## "NƏ ÜÇÜN QƏMGİNSƏN" DEYƏNLƏRƏ

Ey müğənni lal olub kəs nəğməni,
Qəmgindir könlüm mənim sevmir fərəh.
Oynama qarşımda çəngi ol kənar,
Saqi qaldırma - könül sevməz qədəh.

Mən necə dilşad olum, el yasdadır,
Guşimə hər xanədən əfqan gəlir.
Heç olarmı ağlaya el, mən gülüm,
Yanğılı ağlaşmalar qəlbi dəlir.

Bax gəlir ordan sədayi "vay bala",
Bu tərəfdən "vay cavan qardaş" - səsi.
Dinlə yumşalsın o daş qəlbin sənin,
Ağladar çünki bu şivən hər kəsi.

Birsinin ölmüş əri hamısı yox,
Digərinin qardaşından yox xəbəri.
Bəzisinin oğlu yanmış yanğıda,
Biri düşmüş xanəsindən dərbədər.

Bir çoxunun qardaşı, oğlu, əri,
Həpsi ölmüş qarət olmuş var-yoxu!
Bir nəfər yox ki, ona etsin kömək,
Can verir tinlərdə aclıqdan çoxu.

El yaşarkən belə bir bədhali də,
Heç gülərmi, şad olarmı bir nəfər.
Ağladıqca el könül də ağlayar,
El ki, şad oldu o dəm ruhum gülər.

**Balaqardaş, "Rəncür"**
*(Balaqədəş Səttar oğlu),*
***"Hümmət" qəz., 1 may 1918, N53***

**"Günay" N18, 1 may 2004**

## TATAR ALİMİNİN TARİXİMİZƏ DAİR DƏYƏRLİ TƏDQİQATI

Uzun əsrlər Rusiya imperiyası və sonralar sovet sistemində təqib, təzyiq və hər cür sıxıntı və çətinliklərə məruz qalmalarına baxmayaraq, öz milli varlıqlarını mühafizə edib saxlamağa müvəffəq olmuş Rusiya tatarları ilə Azərbaycan arasında çox mehriban, tarixdən və qan yaddaşından gələn münasibətlər mövcud olmuşdur. Bu, Rusiyada yaşayan digər müsəlman xalqlarına da aiddir. Keçən əsrin əvvəllərində, xüsusilə I rus inqilabı nəticəsində yaranmış nisbi əlverişli şərait illərində bu münasibətlər xüsusilə genişlənmiş, yeni məzmun və forma kəsb etmişdi. Milli mətbuat mübadiləsi, gediş-gəlişin artması, iqtisadi münasibətlər, qurultay, toplantı, Dövlət Dumasında yaradılmış müsəlman fraksiyasının fəaliyyəti bu yaxınlaşma prosesində mühüm rol oynamışdır. Görkəmli ziyalılar, yazıçı və jurnalistlər, ictimai-siyasi xadimlər qardaş xalqlarının vəziyyətilə yaxından maraqlanmış, müsəlman türk xalqlarının həyatından bəhs edən xeyli əsərlər, məqalələr yazmışlar. Məsələn, 1905-ci ilin iyununda Bakıda "Həyat" qəzetinin nəşrə başlamasını alqışlayan Baxçasarayda çıxan "Tərcüman" qəzeti "Yeni qəzet"ə sərlövhəli təbrikində yazırdı: "Təsisinə müsaidə edildiyi müqəddimcə (qabaqcadan) xəbər verdiyimiz "Həyat"

nam qəzetinə iyunun 7-dən etibarən meydani-intişarə qoyuldu. Hər işi-iş edən məsləkdir. Nov zühur rəfiqimizin məsləki- "həyat" məsləkimizə xidmətdir. Bu xidmətin əsası qovmi və dini qəvaiddir (qaydalardır) və ehtiyacımız ilə Rusiya dövlətinə tabeətimiz iqtizasına (tələbinə) müvafiq bina ediləcəkdir. Bu məslək böyük və xalis bir məsləkdir. işin başında Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadə kimi bəradəri-əzizlərimizin (əziz qardaşlarımızın) bulunduqlarından "Həyat"ın həyata təsiri olacağına əmniyyətimiz tamdır. Bu cəhətdən rəfiqimizi təbrik edərkən maəda (bundan savayı) bu dəfə "Tərcümani"miz yalnızlıq, arkadaşsızlıq ağrılığından qurtardığı üçün ayrıca təşəkkürdə bulunuruz. Bir neçə milyon müsəlmanlardan ötrü lap yalqız söylənmək, 30-40 vilayətin hal və gərəklərinə göz-qulaq olmaq vəzifəsi vicdanımızı pək, rahatsız ediyar idi. Bu halda yaxşı bir rəfiqə nail olmaq böyük bəxtiyarlıqdır. Məvaddi (maddələri) məcəlləsi müzakirəyə dəha-dəha (istedadla) açılır. Cənab haqq rəfiqimizə qüvvət versin".

Göstərək ki, Rusiyanın müxtəlif şəhərlərində türk-tatar dillərində nəşr olunan mətbuat orqanlarının əksəriyyəti az miqdarda olsa da Azərbaycana və Zaqafqaziyanın azərbaycanlılar yaşayan digər şəhərlərinə müntəzəm olaraq gətirilir və diqqətlə oxunulurdu. Onların nəşri və abunə şərtləri barədə yerli qəzetlərdə müntəzəm elanlar verilir, "Müsəlman mətbuatı" rubrikası ilə xülasələr dərc olunurdu. Hətta Bakıda nəşr olunan "Kaspi" qəzeti, ümumiyyətlə Rusiyada müsəlman mətbuatının vəziyyətinə həsr olunmuş analitik yazılar belə verirdi. Ceyhun Hacıbəylinin "Kaspi"nin 1912-ci il oktyabrın 7-si tarixli nömrəsində "Qəzet işləri haqqında" (O qazetnıx delax) sərlövhəli yazısı bu qəbildəndir. Ceyhun bəy yazırdı: "Xalqın mədəniyyət səviyyəsi onun mövcud mətbu orqanlarının sayı ilə müəyyən edilir... Amma biz müsəlmanlar hələ o dərəcədə inkişaf etməmişik... Fikirləşəndə adama gülməli gəlir, Rusiya imperiyasında məskunlaşmış 20 milyon müsəlman üçün hazırda cəmi 8 qəzet (onlardan yalnız dördü gündəlik çıxır) və 3 jurnal düşür. Budur həmin qəzetlər: Kazanda -"Yulduz" və "Bəyanül-haqqo", Orenburqda - "Vakt", Həştərxanda - "İdil", Peterburqda - "Nur", Baxçasarayda - "Tərcüman", Bakıda - "Sədayi-haqq" və "İqbal". Vəssalam, budur bizim mətbuat. 2,5 milyon adama bir qəzet və təqribən 7 milyon adama bir jurnal!"

1917-ci ildə Rusiyada çarlıq üsuli-idarəsinə son qoyulduqdan sonrakı dövrdə Rusiyanın müsəlman-türk xalqları arasındakı münasibətlərdə də yeni bir mərhələ başlandı. 1917-ci ilin mayında Moskvada Rusiya müsəlmanlarının növbəti qurultayı keçirildi. Bu və bundan sonra-

kı sovet dövrü haqqında qardaş Tatarıstan tarixçiləri son illər çox dəyərli tədqiqat işləri aparmış və qiymətli əsərlər nəşr etmişlər. Bunlarda Azərbaycanla, onun görkəmli şəxsiyyətləri ilə də bağlı maraqlı faktlar, sənədlər, fikir və mülahizələr vardır. Məncə onları da əldə etmək, xeyirli və faydalı olanlarından bəhrələnmək lazımdır. Məlumdur ki, yaxın illərdə Azərbaycan Milli Ensiklopediyasının nəşri nəzərdə tutulmuşdur. Əvvəlki, sovet dövrü ensiklopediyamız əvvəlcə "yüksək ideoloji səviyyə", sonra isə elmi prinsiplər əsasında hazırlanmışdı, başqa deyimlə əsl tarix siyasətə və siyasətbazlara qurban verilmişdi. İndi isə Tatarıstan respublikasının tanınmış tarixçisi, əməkdar elm xadimi Bulat Feyzrəhmanoviç Sultanbəyovun Kazanda çapdan çıxmış "История Татарстана: Сталин и "татарский след" kitabından - "Обозвать Азербайджанским погромщиком... (Судьба бакинского друга Сталина Расулзаде)" sərlövhəli parçanı oxuculara təqdim edirəm.

## "AZƏRBAYCAN TALANÇISI ADLANDIRMAQ..."

***STALİNİN BAKILI DOSTU***
***RƏSULZADƏNİN TALEYİ***

Stalinin şəxsi fonunda ilk baxışda qəribə görünən, rəhbərin inqilabaqədərki həyatının bəzi sirli məqamlarını işıqlandıran bir sənəd var. Stalinin həyatının bu dövrü sonralar onun rəsmi tərcümeyi-halında əks olunmayıb. Söhbət onun "ekslər"dəki apokrifik iştirakından və təhlükəli şahidlərə çevrilə biləcək yaxınlarını məhv etməsindən getmir. Hal-hazırda böyük maraq doğuran bu mövzu ən sərt qanqster savaş filmləri ruhunda təqdim edilir. Onun nə dərəcədə real olması isə başqa məsələdir. Lakin, rəhbərin xasiyyətinə bələd olduğumuz üçün bütün bunların həqiqətən də baş verdiyini ehtimal etmək olar. Yalnız ehtimal! Burada isə söhbət doğruluğu sənədlər əsasında sübuta yetirilmiş əhvalatdan gedir. Doğrudur, burada da atışmalar, təqiblər və qəhrəmanların qəribə şəkildə xilası olacaq, lakin əsas məsələ bu deyil.

Stalinin həyatının "Bakı" dövrü kifayət qədər yaxşı öyrənilsə də, bir çox məqamlar hələ də müəmmalıdır: Vışinski ilə ilk əlaqələr, iranlı döyüşçülərlə görüşlər və s. (1) Yeri gəlmişkən, Bakıdakı gizli fəaliyyəti zamanı onun tatar bolşeviklə ilk və yeganə görüşü olmuşdu. Stalin bunu yalnız inqilabdan sonra yazılı surətdə etiraf etdi (2). Bu yazıda təhlil edəcəyimiz sənəd də həmin dövrə aiddir. Beləliklə, 1923-cü il sen-

tyabrın 16-da RK (b) MK-in baş katibi ilk makina vərəqində aşağıdakıları bəyan edir (əvvəlcə bu cür sənədlərə xas olmayan başlıq gəlir): "Rəsulzadənin mürtəce kitabçasına dair Musabəyov, Mirzoyan, Axundov, Kirov, Oraxelaşvili yoldaşlara məsləhətim". Ola bilsin Kirovdan savayı digər soyadlar müasir oxucuya tanış deyil. Onlar haqqında qısa məlumat verək: Q.Musabəyov Azərbaycan Xalq Komissarları Sovetinin sədri, M.Oraxelaşvili Zaqafqaziya Federasiyası Xalq Komissarları Sovetinin sədri, L.Mirzoyan - Ermənistan Kommunist Partiyası MK-nın sədri, R.Axundov - Azərbaycan MİK-in sədri. O zaman Kirov Azərbaycan KP MK-nın katibi idi. Onlardan ikisi - Kirov və Oraxelaşvili - MK-nın üzvləridir. Onlar 1934-38-ci illərdə cavan yaşlarında həlak olacaqlar. Adları çəkilən şəxslər, ayın 20-nə təyin olunmuş, lakin 23-də keçirilmiş MK Plenumunda iştirak etmək üçün Moskvaya gəlmişdilər. Nəhayət sonuncu ad: Məmmədəmin Rəsulzadə - kitabçası mürtəce adlandırılmış, bir ildən artıq Türkiyədə mühacirətdə yaşayan demokratik Azərbaycanın ilk prezidenti.

Görəsən, Baş katibi bu dərəcədə narahat və bir qədər əvvəl SSRİ-ni təsis etmiş başlıca Qafqaz respublikaları rəhbərliyinə bəndlər üzrə təlimat verməyə vadar etmiş bu kitabçada nələr yazılmışdı? Söhbət 1923-cü ildə İstanbulda türk dilində nəşr edilmiş "Azərbaycan Respublikası" adlı kiçik kitabdan gedir. Burada Rəsulzadə son dərəcə emosional, lakin doğru şəkildə böyük dövlətlərin sövdələşməsi nəticəsində məhv olmuş bu dövlətin dramatik tarixini yazmışdır. Bu respublika müsəlman regionları arasında islama əsaslanan dünyəvi demokratik dövlət yaratmağa müvəffəq olmuş ilk dövlət idi. "İdil-Ural" Respublikası, Validinin Başqırd, Bukeyxanovun Alaş-Orda respublikaları dövlət strukturlarının özünəməxsus "tədarükləri" kimi tarixə düşdükləri halda, Azərbaycan digər ölkələrlə tammiqyaslı diplomatik və iqtisadi əlaqələrə malik olan suveren dövlət kimi təxminən iki il mövcud oldu... Onun prezidenti Rəsulzadə hökumət sarayını sonuncu tərk edərkən respublika bayrağını öz bədəninə sarıdı. O, bu bayrağın, qənimət kimi Bakını "azad etmiş" Qızıl Ordunun əlinə keçməsini istəmirdi. Bütün bunlar 1920-ci ildə baş verəcəkdi.

---

1. ***Müxtəlif çalarlı Bakı bolşeviklərinin fəaliyyətinə dair bəzi az məlum olan faktlar 1985-ci ildə Oksfordda dərc olunmuş "Panturanizm haqqında" kitabın Rəsulzadə haqqında bioqrafik məlumatında verilmişdir.***

2. ***Söhbət tatar bolşeviki Sibqat Qafurovdan gedir.***

**"Günay" N19, 8 may 2004**

## "AZƏRBAYCAN TALANÇISI ADLANDIRMAQ..."

### *(STALİNİN BAKILI DOSTU RƏSULZADƏNİN TALEYİ)*

Bəs bundan əvvəl nələr olmuşdu? 1884-cü ildə Bakıda doğulmuş Məmmədəmin Rəsulzadənin həyat yolunun başlanğıcında bu regionun ziyalı müsəlman ailələrində yetişmiş gənclər üçün qeyri-adi heç nə yox idi. Onlar da müsəlman fundamentalizmindən uzaqlaşıb Avropa mədəniyyəti, sosializm ideyaları ilə tanış olurdular. Hesab edirdilər ki, özünün "bal ayı"nı yaşayan sosializm cəmiyyətin bütün ağrılı problemlərini həll edəcək. Bakı və onun ətrafının Rusiyanın sürətli sənaye inkişafı yoluna qədəm qoymuş ilk müsəlman anklavı olduğunu da unutmaq olmaz. XIX əsrin sonunda neft sənayesinin sürətlə inkişaf etməsi nəticəsində bir qədər əvvəl yoxsullaşmış feodal mərkəzi olan Bakı bir növ Rusiya "klondaykı"na çevrildi. Geridə qalmış əyalətin dünənki sakinləri isə sənaye inkişafı burulğanına atıldılar. Bir tərəfdən neft sənayeçilərinin saray və malikanələrinin cah-cəlalı, digər tərəfdən isə neft mədənlərində dözülməz şəraitdə 12-14 saat çalışan fəhlələrin yoxsulluğu sinfi mübarizə ideyalarının yayılması üçün əlverişli zəmin idi. Bundan əlavə, Bakı Rusiyanın digər quberniyalarından, o cümlədən Volqaboyunun müsəlman regionlarından işləmək üçün gəlmiş və burada məskunlaşmış bir çox insanın cəmləşdiyi yer idi. Regionun ictimai-siyasi həyatının sürətli inkişafı, əhalinin siyasi baxışlar spektrinin rəngarəngliyi (ənənəvi monarxist və feodal-paternalist görüşlərdən tutmuş, ən çox dəbdə olan sosialist baxışlara qədər) bununla izah olunur.

Artıq 1900-cü illərin əvvəllərində Rəsulzadə sosialist təmayüllü ən populyar publisistə çevrilir. O, XX əsrin əvvəlində regionun əksər bolşevik liderləri üçün start meydançası olmuş, Azərbaycanda sosial-demokratik hərəkatın əsasını qoymuş "Hümmət" təşkilatının təşkilatçılarından biri olmuşdur. O zaman Rəsulzadənin silahdaşları arasında Nəriman Nərimanov, Məcid Əfəndiyev, Məşədi Əzizbəyov, Əsədulla Axundov və b. xüsusilə seçilirdi. Sonralar onlar "xalqın xoşbəxtliyi uğrunda" mübarizlər "panteon"una daxil edildi. Adları şəhərlərə, sənaye müəssisələrinə, mədəniyyət idarələrinə verildi, onlara poema və romanlar həsr olundu. Həmin dövrdə Bakının siyasi mənzərəsində şübhəsiz ən böyük və istedadlı şəxsiyyət olan Rəsulzadənin taleyi isə fərqli oldu.

Bolşevizm ideyalarına müvəqqəti olaraq maraq göstərdikdən sonra o, tədricən gələcək cəmiyyətin mötədil-millətçi modelinə üstünlük

verməyə başlayır. Rəsulzadə bu cəmiyyəti islam mentalitetli dünyəvi respublika kimi təsəvvür edirdi. Azərbaycanın Rusiya imperiyası tərkibindəki yeri məsələsi o zaman onun üçün hələ aydın deyildi. Görünür söhbət milli-mədəni muxtariyyətdən gedirdi. O zaman Xəzərin sahillərində olan Zaqafqaziya siyasətinin "yüksələn ulduzu" İosif Stalinlə şəxsi əlaqələr məhz həmin dövrə təsadüf edir. Onların dostluq münasibətləri haqqında çoxlu versiya var. Bu versiyaların sayı xüsusilə-1956-cı ildən sonra çoxaldı. Bu məlumatların toplandığı bəlkə də ən dolğun mənbə hesab olunan Manaf Süleymanovun "Oxuduqlarım, eşitdiklərim, gördüklərim" kitabına əsasən Rəsulzadə Stalini həbsdən, ola bilsin ki, ölümdən də dəfələrlə xilas edib. (3) Bir neçə epizodu nəzərdən keçirək: Stalini jandarmaların əlindən qurtaran Rəsulzadə iki həftə onu atası molla Ələkbərin axundu olduğu məscidin "minbərində" gizlətmişdi. Gələcək rəhbər təxminən iki ay molla Ələkbərin Novxanıdakı bağında gizlənib. (4) 1923-cü ildə tərtib olunmuş sənədin məzmunu göstərir ki, Stalin "mürtəce kitabça"nın müəllifinin siyasi tərcümeyi-halı ilə yaxından tanışdır. Görünür, onları təkcə siyasi məsələlər bağlamırdı.

Rəsulzadənin 1917-ci ilə qədərki ictimai-siyasi tərcümeyi-halı kifayət qədər yaxşı öyrənilib. Bircə onu əlavə etmək istərdim ki, onun bir sıra rusdilli nəşrlərlə əməkdaşlıq edən bakılı jurnalistlərin biri ilə yaxın, hətta məhrəmanə münasibətləri var idi. Qafqazın digər xadimi Əhməd bəy Salikov və Qayaz İshaqi ilə birlikdə Rəsulzadənin bu jurnalistin 1917-ci ilin yazında müsəlman ictimai-siyasi hərəkatında və Rusiya paytaxtının siyasi elitasında nüfuz qazanmasında böyük rolu olub. Bu bakılı jurnalistin soyadı Sultan-Qaliyev, adı Mirsəid idi. O zaman onun "üçüncü dünya" ölkələrində milli hərəkatın ən görkəmli nəzəriyyəçilərindən biri olacağı heç kimin ağlına belə gəlməzdi. Tezliklə onların yolları ayrıldı. Bolşevik təmayüllü sabiq sosial-demokrat Rəsulzadə demokratik Azərbaycanın qurulmasına rəhbərlik etmiş "Müsavat"ın banilərindən biri oldu. 1917-ci ilin yayından etibarən bolşevik olmuş Sultan Qaliyev isə vətəndaş müharibəsi illərində dünya inqilabının Lenin variantının ən ehtiraslı tərəfdarlarından birinə çevrildi. Hələ 1917-ci ildə Sultan-Qaliyev onu milli, müsəlman işinə xəyanətdə ittiham edən opponentlərinə belə cavab verirdi - mənim görüşlərim haqqında Əhməd bəydən və Məmmədəmindən soruşun! O zaman onlar milli-müsəlman hərəkatında böyük nüfuza malik idilər. Lakin bu Sultan-Qaliyevə Rəsulzadənin bəzi jurnalist fəndlərinə olduqca tənqidi yanaşmasına mane olmurdu. Məsələn, 1916-cı ildə o, həqiqi müəllifi göstərilmədən Sədri Maqsudovun məqaləsini redaktoru olduğu

"Açıq söz" qəzetində yenidən çap etdirdiyinə görə, Rəsulzadəyə irad tutmuşdu.

Vətəndaş müharibəsi illərində Rəsulzadənin siyasi taleyi "Müsavat" Partiyası ilə sıx bağlı idi. O dövrdə bu partiya Azərbaycan cəmiyyətinin lideri idi. Gənc müsəlman demokratiyasının şərəfli yolunu Rəsulzadə bu partiya ilə birlikdə keçmişdi. Təxminən üç il ərzində partiya müxtəlif daxili və xarici qüvvələrlə dəfələrlə toqquşmuş və müvəqqəti ittifaqlar bağlamışdı. Hər bir xarici qüvvənin zəngin Xəzəryanı ölkə ilə bağlı öz planları var idi. Türklər və ingilislər, almanlar və daşnaklar, ağqvardiyaçılar və bolşeviklər Bakıda möhkəmlənməyə çalışırdılar. Bakı nefti onları cəlb edirdi. Bəzən hakimiyyət və oriyentasiyalar sürətlə dəyişirdi. Regionda ən qüdrətli hərbi və siyasi qüvvə olan Türkiyə Antanta ilə çətin qarşıdurma şəraitində Sovet Rusiyasının dəstəyini qazanmaq naminə faktiki olaraq Azərbaycanı sovet qoşunlarına verməyə məcbur oldu (5).

---

*3. M.Süleymanov "Oxuduqlarım, eşitdiklərim, gördüklərim". Bakı, 1990. səh,335-338*

*4. Stalinin rəsmi tərcümeyi-halına əsasən o, ilk dəfə Bakıya sosial-demokratların liderlərindən biri kimi 1903-cü ilin iyununda gəlmişdi. Bax: Stalin İ.V. Əsərləri. M., 1946, t,1. səh.421*

*5. Əhməd bəy Salikov bu qəribə İttifaq haqqında belə deyirdi: "Bolşeviklər türk quşunun quyruğunda oturdulublar. Bu quş onları özü ilə gəzdirməyə başlayır. Quşun qonduğu yerlərdə bolşevik parazitləri özəklərini yaradırlar". - QARF.F.5871, Op.2, Sənəd 889, vər.89*

**"Günay" N20, 15 may 2004**

## "AZƏRBAYCAN TALANÇISI ADLANDIRMAQ..."

*(STALİNİN BAKILI DOSTU RƏSULZADƏNİN TALEYİ)*

Aprelin sonunda yerli bolşeviklərin və bolşevikyönümlü ünsürlərin dəstəyi ilə 11-ci ordu Bakını ələ keçirdi. Bununla Azərbaycan Respublikasının siyasi faciəsinin sonuncu aktı başa çatdı. Şamaxı yaxınlığında yerləşən Lahıc qəsəbəsində gizlənən Rəsulzadə 1920-ci il iyulun əvvəlində yaxalanaraq Bakıdakı Bayıl həbsxanasının ümumi kameralarının birinə salındı.

Onun işini yerli Fövqəladə Komissiya (ÇK) aparırdı. Eks-prezidentin sağ qalmaq şansı az idi. Lakin gözlənilmədən Rəsulzadə xilas oldu. 1920-ci ilin oktyabrında Stalin Bakıya gəldi. Bu onun inqilabi karyerasının başladığı yerlərə bir növ təftiş xarakterli səfəri idi. Azçekanın Bayıl həbsxanasının məxfi işləri ilə məşğul olan rəhbər işçilərindən biri sonralar xatırlayırdı: "Azçeka rəisinin müavini məni yanına çağırdı. O, mənə dedi: Məmmədəmin Rəsulzadəni vağzala apar, Stalin onu vaqon-salonda gözləyir. Mən həbsxanaya yollandım. M.Ə.Rəsulzadənin saxlandığı kameraya daxil oldum. Buradakı şərait dözülməz idi. İsti, təmiz havanın olmaması, darısqal kamera. Məhbusun görkəmi acınacaqlı idi - paltarı cırılmış, üzünü tük basmışdı. O özünü təmkinlə, ləyaqətlə aparır, bir söz demirdi. Özümlə iki əsgər götürüb məhbusu faytona mindirdim və şəhərə apardım. Mühasibat mənə pul ayırmışdı. Bu pula onun üçün alt paltarı, kostyum, çəkmə, üst köynəyi, şlyapa və digər ləvazimat aldım. O, yuyunub, üzünü qırxıb, yeni kostyumunu geyinib küçəyə çıxdıqdan sonra əvvəlcə onu tanımadım. Sanki başqa insan idi - ucaboylu, vüqarlı. İri gözlərində ağıl duyulurdu, alnı böyük, üzünün ifadəsi qətiyyətli idi. O, çox möhtəşəm görünürdü. "20-ci illərin sonlarında yazılmış bu sadədil xatirədən daha sonra aydın olur ki, müəllif Rəsulzadəni vaqon-salona çatdıraraq Stalinə məruzə etdi. Çekistin şahidi olduğu dialoq maraq doğurur: "Stalin ona yaxınlaşdı, bərk-bərk qucaqladı və üzündən öpdü. Sonra Stalin birdən soruşdu: "Məmmədəmin, bir il yarım ərzində sizin hakimiyyət xalqa nə verdi? Siz nə edə bildiniz?" Məmmədəmin bir qədər susduqdan sonra cavab verdi: "İosif, biz az iş görə bildik. Vəziyyətin nə cür olduğunu özün bilirsən... Lakin hesab edirəm ki, əsas məqsədlərə nail olduq. Milli azadlığın və müstəqilliyin ləzzətini daddırdıq... Bir kərə yüksələn bayraq bir daha enməz". Xatirələrinin sonunda müəllif maraqlı bir məqama toxunur: bir neçə saatdan sonra çekist məhbusun

həbsxanaya qayıtmalı olduğunu xatırlatdıqda, Stalin əmrnaməni götürüb üzərinə bunları yazdı: "Məhbus Məmmədəmin Rəsulzadəni qəbul etdim. Stalin". Lakin qanun qanundur, bərk qorxmuş mühafizə əsgəri ÇK-ya qayıdarkən yolüstü fotoqrafxanaya girərək üzərində xalq komissarı və Siyasi Büro üzvünün dərkənarı yazılmış əmrnamənin bir neçə surətini çıxartdırıb əsgərlərə imzalatdırdı. Sənədi həbsxana işinin arasına qoyub surətini hər ehtimala qarşı özündə saxladı. Lakin heç bir töhmət olmadı - Stalinin kim olduğunu və nəyə qadir olduğunu o zaman hamı, xüsusilə Qafqaz da çox yaxşı bilirdi: inqilabi romantika dövrü hələ davam edir və hər şey sərt qaydalarla müəyyən olunurdu. Rəhbərlər təlimatda nəzərdə tutulmayan geniş jestlər edə bilirdilər. Təlimatların sayı da hələ ki, çox deyildi. Bunu Hərbi Şuranın keçmiş rəhbəri və başqırd qoşunlarının qərargah rəisi İlyas Alkin də təsdiq edə bilərdi. 1920-ci ilin şaxtalı dekabr axşamında Butırski həbsxanasından çıxan Alkin kamera yoldaşı Ubaydullah Xocayevlə birlikdə Kremlə, Stalinin yaşadığı mənzilə yollanmışdı. Stalin onları qəbul etdi, yedirdi, hər ikisini işə düzəldəcəyini bildirdi və öz avtomobilində onları Narkomnatsın (Milli Məsələlər üzrə Xalq Komissarlığı) Preçistenkadakı yataqxanasına yola saldı. Lakin sonralar repressiya maşını işə düşəndə bu himayə olunmuşlara da aman verilmədi.

Məmmədəmin Rəsulzadənin sovet Rusiyasındakı sonrakı həyatını bir neçə sətirə yerləşdirmək olar. Stalinlə birlikdə Moskvaya gəldikdən sonra o, "Şərq" nəşriyyatında işə düzəlir. Bu nəşriyyat Kominternin müstəmləkələrdə inqilabi ədəbiyyatın yayılması ilə məşğul olan özünəməxsus filialı idi. Redaktə işini aparan Rəsulzadə bir neçə məqalə dərc etdirmişdi. Lakin sərt senzuranı və məqalələrinin redaktə olunmasını qətiyyətlə rədd edirdi. "Жизнь национальностей" ("Millətlərin həyatı") qəzetində dərc etdirdiyi məqaləsinə "Bütün dünyada yaşasın Sovet hakimiyyəti" ibarəsi əlavə edildikdən sonra Rəsulzadə köhnə dostu, Narkomnatsın kollegiya üzvü Sultan-Qaliyevə şikayət etdi. O, heyrətlənərək bildirdi ki, bu MK-nın göstərişi olduğu üçün heç bir şey edə bilməz (6).

1922-ci ildə Rəsulzadə Finlandiyaya getdi. Onun getməsinin iki versiyası var. Birinci versiyaya görə, kağız almaq üçün Helsinkiyə ezam olunan Rəsulzadə elə həmin gün xəzinə pullarının hamısını səfirliyə verdikdən sonra burada qalacağını bildirir. O, xalqın pulunu götürüb xaricə qaçmaqda ittiham olunmaq istəmirdi. Sultan-Qaliyevin yaxınlarına söylədiyi ikinci versiyaya görə isə həmin dövrdə Petroqrad məscidinin axundu olmuş Musa Bigiyev Finlandiyadakı tatar icmasının yardımı ilə Məmmədəmini sərhəddən keçirmişdi. Bu versiya

doğru ola bilər. Çünki bir qədər əvvəl, 1920-ci il ilin avqustunda Kazan yaxınlığındakı həbs lagerindən qaçmış tanınmış tatar jurnalisti və ictimai xadimi Bari Battal da Bigiyevin yardımı ilə təxminən eyni sxem üzrə "fin dəhlizi"ndən istifadə etmişdi. Tezliklə Rəsulzadə İstanbula, oradan da Ankaraya gəldi. Kamal onu qəbul etdi.

Görünür, Rəsulzadə vətəndaş müharibəsi illərində gördüklərini qələmə almağa tələsirdi. Burası da var ki, Bakıdakı hadisələr sovet və sovetyönümlü mətbuatda birtərəfli işıqlandırılırdı. Kremlin dəhlizlərində çaxnaşmaya səbəb olmuş kitabça belə meydana gəldi. Üstəlik burada sovet hökumətinin Kamal Türkiyəsinə münasibətdə apardığı ikili oyunun faktları göstərilirdi. Baş katibin "məsləhətləri" "münasib olmayan" faktların rədd edilməsi "texnologiyası"nı kifayət qədər inandırıcı şəkildə nümayiş etdirir. Sonralar Stalin ölkə daxilində və xaricdə bu "texnologiya"dan müvəffəqiyyətlə istifadə edirdi. Bu gün də onları yalnız tarixi "yadigar" kimi deyil, ümumiyyətlə, oxumaq maraqlıdır. "Məsləhətlər"in əvvəlində Stalinin qərarı qətidir: "Rəsulzadəyə qarşı yönəlmiş kitabçanın ümumi tonu hücum xarakterli olmalıdır. Özümüzə qətiyyən bəraət qazandırmamalı" onu aşağıdakılarda ittiham (araverme mənimdir - B.S.) etməklə hücuma keçməliyik:

1. Satqınçılıqda. O, bolşevik idi, lakin onlara xəyanət etdi.

2. Türklərin maraqlarına xəyanətdə. Çünki o və onun "Müsavat" Partiyası türklərə yardım etməkdə və Bakının tutulmasında Qızıl Orduya mane olurdu.

3. Azərbaycan xalqına xəyanətdə. Torpağın kəndlilərə verilməsinə və bəy malikanələrinin ləğv edilməsinə mane olurdu.

4. Şərqin bütün xalqlarının maraqlarına xəyanətdə və müsəlmanlar üzərində müstəmləkə ağalığını saxlamaqda İngiltərəyə yardım etməkdə.

5. Erməni-tatar qırğınını təşkil etməkdə. Stalin dərhal kəskin təbliğat xülasəsi verir - "Azərbaycan Purişkeviçi adlandırmaq".

6. Şamxor qırğınının təşkilində ittiham etmək - "onu Azərbaycan talançısı adlandırmaq".

Daha sonra "qiyamçı"nın ideoloji biliklərinin təhlili verilir və o, "orta əsr səviyyəli cahil utopist" adlandırılır. "Məsləhətlər"in sonunda rəhbərə xas olan təvazökarlıqla bu sözlər yazılıb: "Düşünürəm ki, bu tezislər nəzərə alınsa kitabça tamamilə qənaətbəxş olacaq. Salam. İ.Stalin" (7).

Görünür, "məsləhətlər"in meydana gəlməsindən əvvəl Stalin adresatlarla və ya onların bəziləri ilə söhbət aparıb. "Arqumentləri və faktları" unudub qarışıq salmamaq üçün (yalnız Kirovun kiçik əyalət repor-

tyoru təcrübəsi var idi) onlara siyasi rəqibi ifşa edən bu təlimat verilmişdi. Sənədin sonunda "məsləhətlər"in yerinə yetirilməsi üzrə işin başlandığını göstərən yazı var: "Yoldaş Ratqauzer, xahiş edirəm yoldaş Stalinin tezisləri əsasında kitabça hazırlamaq üçün inqilab muzeyindəki materialları mənə verəsiniz. Musabəyov". Beləliklə, ifşaçı rolunda Azərbaycan XKS-in sədri çıxış etməli idi.

---

***6. Ola bilsin bu, "R-de" təxəllüsü ilə 1921-ci il 13 yanvar tarixli 1-ci (99-cu) nömrədə dərc olunmuş məqalə idi.***

***7. RSXİDNİ. F.558. Op.1. D.4491. Vərəq 1-2.***

**"Günay" 21, 22 may 2004**

***B.F.SULTANBƏYOV***

## "AZƏRBAYCAN TALANÇISI ADLANDIRMAQ...

*(STALİNİN BAKILI DOSTU RƏSULZADƏNİN TALEYİ)*

Rəsulzadənin çox gözəl dil üslubuna və opponentini "küncə sıxışdırmaq" bacarığına yaxşı bələd olan Kirov onunla polemikaya girməkdən çəkindi. Mənə məlum olan ədəbiyyatda Musabəyovun kitabçasına rast gəlməmişəm (8). Güman etmək olar ki, onun yazısı aşağı səviyyəli olduğu üçün oponenti ondan istifadə edə bilməyib. Axı "məsləhətlər"i həyata keçirmək lazım idi. Bu gün də faktlara malik olanların heç də hamısı onları maraqlı və inandırıcı şəkildə təqdim edə bilmir. Arxivlərdə oturmaqdan savayı, görünür başqa şeylər də lazımdır.

Oxuduğumuz sənəd unikal və özünə görə sensasiyalıdır. İnqilabın qələbəsindən sonra ilk dəfədir ki, faktların və arqumentlərin açıq-aşkar çatışmadığı və ya onların siyasi məqsədə zidd olduğu bir şəraitdə təbliğat kampaniyasının metod və üsullarının belə səmimi və kənar şəxslər üçün nəzərdə tutulmayan izahının şahidi oluruq. Stalin özününkülərin yanında "adlandırmaq", "bəraət qazandırmamaq", "hücuma keçmək" ifadələrini işlətməkdən çəkinmir, baş sındırmamaqdan ötrü kəskin damğalar təklif edirdi (9). 1923-cü il idi. Tezliklə belə əsaslandırmanın və ləkələmə üsullarının bütün "şiddəti"ni Stalinin silahdaşla-

rı hiss edəcək: əvvəlcə Trotski, sonra Zinovyev və Kamenev, daha sonra isə onların baş ifşaçısı olan Buxarin.

Bu əhvalatın müəmmalı bir aspekti var. Ona dair mənim öz versiyam var. Lakin versiya o dərəcədə gözlənilməzdir ki, onu tamamilə ifadə etməkdən çəkinirəm. Əyalət "Yulianı"na çevrilmək istəmirəm. Təxminən sözügedən hadisələr zamanı Moskvada gözlənilmədən Qalimcan İbrahimovun "Qara mərhələlər" adlı kitabı çap olundu. Kitabda tatar mühacirəti, xüsusilə də Q.İshaqov və Z.Validov ifşa olunurdu... Burada Rəsulzadə haqqında da bölmə var. Maraqlıdır ki, onun görüşlərinin və fəaliyyətinin tənqidinin əksər üsulları Stalinin qafqazlı xadimlərə verdiyi "məsləhətlər"lə səsləşirdi. Vətəndaş müharibəsi illərində Stalin və İbrahimov çox yaxın münasibətdə olsalar da, inanmıram ki, bu bölmə birbaşa "təlimatlandırma"nın nəticəsi olsun. Əgər belə bir təlimat verilsəydi bir qayda olaraq sənədləşdirilməyəcəkdi. Kirov və digərlərinə verilən "məsləhətlər" istisna təşkil edir. Adətən heç bir iz buraxılmırdı.

Tanınmış mədəniyyət tədqiqatçısı, ədəbiyyatşünas akademik M.Həsənov da İbrahimovun tərcümeyi-halını hamıdan yaxşı bilən bir adam kimi Stalinin birbaşa sifarişi haqqında versiyanı qəbul etmədi. Yəqin ki, bu belədir. Lakin mühacirəti ifşa etmək ideyaları ətrafı bürümüşdü. Üstəlik mühacirət ən azı öz yazıları ilə ölkədə baş verən ictimai-siyasi proseslərə fəal şəkildə müdaxilə edirdi. Ona görə də, Q.İbrahimov sadəcə olaraq sosial sifarişi yerinə yetirə bilərdi. Bizim münasibətimizdən asılı olmayaraq o, bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirdi.

Lakin gəlin Məmmədəmin Rəsulzadə və onun mühacirətdəki həyatına qayıdaq. O, ömrünün sonuna qədər otuz il xaricdə yaşamalı olacaq. Rəsulzadə Rusiya mühacirətinin ictimai-siyasi həyatında fəal iştirak edir. Kitablar və məqalələr yazır, Rusiya mühacirətinin milli hərəkatları bolşeviklərə köməklik etməkdə ittiham edən nümayəndələri ilə polemika aparırdı. 20-ci illərin sonu, 30-cu illərin əvvəlində yazılmış məqalələr bu polemikanın epizodlarından biridir. SSRİ-də millətçi-uklonizmə qarşı aparılan amansız mübarizə dövrü idi - Krımda Vəli İbrahimovun, Moskvada və Volqaboyunda Sultan Qaliyevin işləri və siyasi prosesləri, Azərbaycanda "müsavatçılar"ın kütləvi həbsləri totalitar rejimin milli hərəkatlara qarşı mübarizəsinin yeni mərhələsini ifadə edirdi. Onlar hələ də inanırdılar ki, bolşeviklər vətəndaş müharibəsi illərində verilmiş "veksellər"in əvəzini ödəyəcəklər. Bu kampaniyalar mühacirətin nəzərindən qaça bilməzdi. Nəticədə xeyli yazı dərc olundu. "Sultanqaliyevşina" xüsusi fəallıqla müzakirə olunurdu. Rəsmi orqanlar onu bir tərəfdən imperializmin agenturası, digər tərəfdən isə "Turan imperiyasını" yaratmaq cəhdi kimi təqdim edirdi. Müəyyən mə-

qamda Stalindən tutmuş Kerenskiyə qədər "millətçi-uklonizm" əleyhdarlarının qəribə "ittifaq"ı yarandı.

Əlbəttə, söhbət Kremlin Rusiyanın ilk demokratik baş nazirinə birbaşa tapşırıqlar verməsindən getmir. Lakin arxivlər açıldıqca biz ilk baxışda qeyri-məntiqi və ziddiyyətli görünən məqamlarla tanış oluruq (10). Şərh vermədən bir neçə fakt göstərək. 1930-cu ildə Kerenski OQPU-nun SSRİ-də ifşa etdiyi millətçi-uklonist qruplar haqqında "Dni" qəzetində talançı məqalə dərc etdirir. Məqalənin adı - "Rus xalqı üzərində diktatura" - OQPU-nun milli hərəkatları ifşa etməsinin doğruluğunun çox dəyərli "təsdiq"i idi. "Sultanqaliyevçilər"in rus torpağını keçmiş Rusiyanın guya əzilmiş xalqları arasında bölüşdürmək istədiyi ibarəsi çox şeyə dəyər. Məhz bu cür - "guya əzilmiş". Vəziyyəti gərginləşdirərək Kerenski davam edir: sultanqaliyevçilər tələb edirlər: "Qafqaz gürcülərə, dağlılara və azərbaycanlılara verilir. Malorossiya - ukraynalılara, Sibir - yakutlara, buryatlara və digərlərinə". Ən dəhşətlisi isə məqalənin sonu üçün saxlanılıb: "Orenburqdan və Sibirdən tutmuş Türküstandakı Pamirə qədər Volqa arxasında yerləşən bütün Rusiya -pantürkçülərə - yəni Kazan tatarlarının kamalçılarla ittifaqına". Bu bütün dünyaya elan olundu. Erməni mühacirləri Kerenskinin mövqeyini dəstəklədilər (11). Rəsulzadənin ən prinsipial "Panturanizm və Qafqaz problemləri" məqaləsinin də daxil olduğu məqalələr silsiləsində Rusiyanın mühacir və ilk növbədə "demokratik" mətbuatında aparılan SSRİ-dəki milli hərəkatları nüfuzdansalma kampaniyası ətraflı təhlil olunur. Rəsulzadə təəssüflə etiraf edir ki, Kerenski və silahdaşlarının demokratik görüşləri "vahid və bölünməz" Rusiya fikrini örtbasdır edən "kamuflyaj"dan başqa bir şey deyil. Şərait və iştirakçılar fərqli olmaqla bu cür nöqsanlar zamanımızda da təkrarlanır. Lakin bu başqa söhbətin mövzusudur. Rəsulzadənin sonrakı mühacir həyatı əmin-amanlıq şəraitində keçdi. Lakin o, doğma torpaqdan qoparıldı və suveren Azərbaycan haqqında arzusunun gerçəkləşməsini görə bilmədi. Hal-hazırda çətin günlərini yaşayan Azərbaycan Respublikasında Rəsulzadənin adı xalqa qaytarılıb. 1918-ci ildə əsasını qoymaq istədiyi Bakı Universiteti onun adını daşıyır.

Göründüyü kimi, Stalin qiyamçını aradan götürmək üçün hər hansı fövqəladə tədbirə əl atmırdı. Yəqin hesab edirdi ki, bir-birlərinin həyatlarını xilas etməklə hesablaşmışlar. Həm də xaricdəki əleyhdarlar arasında daha təhlükəli şəxslər var idi. Trotski, Bajanov, qaçmış sovet diplomatları, müxtəlif səbəblər üzündən Stalinin və sovet hakimiyyətinin düşmənlərinə çevrilmiş OQPU və NKVD generalları və ağ muhacirətin nümayəndələri. Onlarla ciddi şəkildə məşğul olurdular. Lakin həmişə müvəffəqiyyət qazanmaq olmurdu. Başqa, sırf psixoloji məqam da ola bilərdi. Rəqibi məhv etdikdən və ya zərərsizləşdirdikdən

sonra Stalin şəxsən ona xüsusi nifrət bəsləməyə də bilərdi. Məlumdur ki, ömrünün sonuna yaxın Stalin yaxınları ilə keçmişi xatırlayarkən Nikolay və Alekseyi yad edir və bu zaman əsəbiləşmirdi. Lakin Buxarin və Rıkovdan fərqli olaraq Lev haqqında sakit danışa bilmirdi.

Azərbaycan komsomolu MK-nın katibi belə xatırlayır: 1930-cu ildə Qafqaz respublikaları partiya və komsomol MK katibləri ilə birlikdə o, Soçi yaxınlığında Stalinin qəbulunda olub. Bakılılarla görüşü zamanı (Hüseynovun yazdığına görə, Stalin onlarla Azərbaycan dilində danışırdı) Stalin gizli inqilabi fəaliyyət zamanı tanıdığı bəzi bolşeviklər haqqında onları sorğu-suala tuturdu. Stalin Rəsulzadənin də adını çəkmişdi. O, Rəsulzadəni ən yaxın dostlarından biri adlandırmışdı. Dönüklərə qarşı amansız olduğunu göstərməklə rəhbərin xoşuna gəlmək istəyən Hüseynov Məmmədəminin alçaq və satqın olduğunu bildirdi. Cavab hər kəsi heyrətləndirdi: Stalin qaşqabaqla yavaşca, lakin sözləri bir-birindən ayıraraq dedi: "Səfər, heç vaxt tanımadığın insan haqqında pis danışma. Əgər bu insan bizimlə birlikdə deyilsə, bu onun alçaq olduğuna dəlalət etmir". Bu hadisəni soyuq vidalaşma əvəz etdi (12).

Bu epizod 1930-cu ildə baş verib. Hələ gələcəkdə yuxarıdakı sözlərlə qətiyyən uzlaşmayan 1934-cü, 1937-ci və növbəti illər var idi.

Məmmədəmin əsrin ən böyük, qəddar və ziddiyyətli şəxslərindən biri olmuş bakılı dostunun ölümündən iki il sonra vəfat etdi. Sonda Rəsulzadənin 30-cu illərdə söylədiyi iki fikrini nəzərinizə çatdırmaq istərdim: "Müasir dünyanın real vəziyyəti və onun əsrlərdən bəri beyinlərdə və xasiyyətlərdə möhkəmlənmiş ümumi şəraiti və amilləri bizə siyasətdə utopist olmağa imkan vermir". "Biz hesab edirik ki, yeganə aydın və real siyasət milli siyasətdir. Tarixin mənası budur. Elmin, zəkanın və məntiqin tələbi belədir". Bu gün də bu sözlər üzərində düşünməyə dəyər. Məlumdur ki, müdrik fikirlər yalnız qısa zaman ərzində istifadə edilmək üçün söylənilmir. Bəzi fikirləri dərk etmək üçün zaman lazımdır.

---

*8. Rəsulzadəni ifşa edən ilk kitabçalar 1926-cı ildə meydana gəldi.*
*9. RSXİDNİ. F.558. Op.1.D.4451.Vər.2.*
*10. Söhbət sovet hakimiyyətinin bəzi qatı düşmənlərinin xaricdə OQPU-nun muzdlu agentləri olmasından getmir. Lakin 1924-cü ildə Siyasi Büronun tam məxfi qərarla "Nakanune" mühacir qəzetinin nəşri üçün 15 min dollar ayırmaq qərarını necə qiymətləndirmək olar?*
*11. 1936-cı ildə NKVD "İdil-Ural" adlı böyük istintaq işini başladı. Bundan belə bir nəticə çıxardı ki, tatarların və başqırdların əksəriyyəti bu fikri dəstəkləyir. Yəqin Kerenskinin çap edilmiş yazıları onların karına gəldi.*
*12. Süleymanov M. Adı çəkilən əsər. S.339*

**"Günay" N22, 30 may 2004**

## “ZAMAN”IN VAXTİLƏ YAZDIQLARI, BU GÜNÜN REALLIQLARI

**ABŞ başda olmaqla Qərbin və hətta Şərqin də bir sıra ölkələrinin “beynəlxalq terrorizm” ilə mübarizə şüarı altında islam ölkələrinə, birinci növbədə Əfqanıstan və İraqa qarşı həyata keçirdikləri silahlı müdaxilə, bu müdaxilə əsnasında hərbçilərin törətdikləri ağlasığmaz cinayətlər beynəlxalq miqyasda çox ciddi təşviş və narahatlıq hissi yaratmışdır. Vaşinqton və Londonun nəyin bahasına olursa-olsun öz iradələrini bu ölkələrin xalqlarına qəbul etdirmək cəhdləri ciddi müqavimətə rast gəlmişdir. Deyilənlərlə hərəkətlər arasında təzadlar getdikcə əsl qayəni üzə çıxarmaqdadır. Artıq bu həqiqətləri hətta ABŞ və Böyük Britaniyanın kütləvi informasiya vasitələri belə qeyd etməkdədir. ABŞ prezidenti C.Buşun “Böyük Orta Şərq layihəsi”nə inananların sayı da gün keçdikcə azalmaqdadır. Məsələ bundadır ki, indiki informasiyalı cəmiyyətdə müxtəlif bəhanələrlə işğalçılıq, yeni müstəmləkəçilik siyasətinə haqq qazandırmaq, onu örtbasdır etmək o qədər də asan iş deyildir. Bəs dünyada qüvvələr nisbətini öz xeyirlərinə dəyişmiş Amerika və onunla həmrəy olan xristian Qərb dünyasının əsl qayəsi, strateji məqsədləri nədir? Bu qlobal suala cavab vermək də asan deyil. Qeyd edim ki, hələ 13 il bundan əvvəl, 1991-ci il sentyabrın 6-da Türkiyənin nüfuzlu “Zaman” qəzetində bu qlobal problemlə əlaqədar “İslama qarşı şər ittifaqı” sərlövhəli bir yazı dərc olunmuşdu. Diqqətimi cəlb etdiyinə görə onu saxlamışdım. Hadisələrin gedişi qəzetin diqqət verdiyi problemin aktuallığını indi artıq göstərməkdədir. Həmin məqaləni oxuculara da təqdim edirəm.**

### *İSLAMA QARŞI ŞƏR İTTİFAQI*

SİYASİ İQTİDARLAR VƏ KİLSƏ DÜNYANIN DƏYİŞƏN MÜVAZİNƏTİNDƏN İSTİFADƏ ETMƏK ÜÇÜN BİRLƏŞİRLƏR

Siyasi iqtidarlar və kilsə dünyanın dəyişən müvazinətindən faydalana bilmək üçün birləşirlər.

1989-cu ildən başlayaraq Şərqi Avropada kommunizmin çökməsində və ən son olaraq sovet rejiminin süqutunda cəlbedici güc olaraq ortaya çıxan xristian kilsəsinin niyyətlərinin arxasında klassik Avropa Birliyi, bu birliyin xüsusilə İslam və Türk dünyası üzərində bütün xristian məzhəblərinin ittifaqına əsaslanan suverenlik arzusu olduğu kəskinliklə anlaşılır.

Bir müddət əvvəl Avropada-Almaniya və Fransada tələm-tələsik toplanmış olan Katolik və Protestant kilsə toplantıları sırasında alınan qərarların, indi sovet ölkələrindəki ortodoks rəhbərliyi ilə anlaşma müzakirələrinə başladığını bildirən Qərb jurnalistlərindən Con Barrel, Praqadan verdiyi xəbərdə bunları bildirirdi:

"Kilsənin orta əsrlərdəki hökumətləri idarə edən iqtidarlarını yenidən təsis etmək mümkün deyildir, amma kilsənin çətiri altında bütün Avropanı Atlantikadan - Ural dağlarına və Sakit okeana qədər uzanan ölkələrdəki insanları bu dəlilə görə tək bir hədəfə yönəltmək mümkündür və hazırlıqlar budur".

Qısa bir müddət əvvəl Dortmundda özü ilə görüşdüyümüz Yevangelist (protestant) Orta Avropa kilsəsinin baş keşiş köməkçisi İoaxim Şüdler, bu mövzudakı sorğumuza belə cavab verdi:

"Avropa siyasi fəlsəfəsinin kilsənin nəzarəti altına girməsi artıq mümkün deyildir. Bu orta əsr reallığıdır və tarixdə qalmışdır. Ancaq Avropadakı siyasi iqtidarların, Qərb Şərq arasındakı ticari rəqabətdə, xüsusilə yeni bazarlar üzərində hakimiyyət qurarkən məzhəb ixtilaflarını "İslam dünyası üzərində nüfuzunu artırmaq" baxımından istifadə etmələri aşkardır".

Fransada katolik kilsəsinin ən yaxın jurnalisti və fikir sahiblərindən Marie Bonnet isə bunu qabaqcadan görərək demişdir: "Əgər Avropa mövcud olacaqsa, hər şeydən əvvəl bir milyardlıq İslam dünyasının Avropa nifrətini, xristian məzhəblərinin ittifaqı ilə yox etməsi vacibdir. Qərblilərin Şərqdəki və Rusiyadakı üsyanları dəstəkləməsinin və yardımı kilsələrin himayəsi altında verməyə başlamasının əsl məqsədi 2000-ci ildə yeni Avropa düzəninin belə bir ittifaqla bəhrələnmək arzusudur və mərkəzi İstanbulda olan ortodoks kilsəsinin bu barədə təşkil edilərək istiqamətləndirilməsi İslam dünyasının və türklərin nüfuzunu heç olmasa azaltmaq məqsədini güdür".

Alman Federal Məclisində və Strasburqdakı Avropa parlamentində hakim olan qənaət aşağıdakılardan ibarətdir:

"Çökmüş kommunist rejimlərini əvəz edəcək siyasi iqtidarlar arasındakı anlaşmazlıq ehtimallarının qarşısını heç olmasa 2000-ci ilə qədər almaq lazımdır. Bunun səbəbi iqtisadi nöqteyi-nəzərdən güclü olmaq məcburiyyətində qalan Avropanın özü üçün bazar və həyat sahələrini ələ keçirə bilməsidir. Əsas səbəb isə Avropaya qarşı müqavimətin mənəvi qüvvəsi hesab olunan İslam dünyasını və bu dünyanın ən qabaqcıl və təcrübəli ölkəsi olan Türkiyəni neytrallaşdıra bilməkdir. Belə bir neytrallaşdırma da ancaq İstanbulda yerləşən ortodoks kilsəsinin başqa məzhəblərlə razılığa gəlməsindən asılıdır.

Son olaraq ortaya çıxan vəziyyət isə belədir:

Avropa siyasi paytaxtları iqtidar və müxalifəti ilə Urala qədər uzanan Avropa evinin təməllərini, islam dünyasına qarşı birləşmədə görür. Bunun üçün çökən rejimlərin hakim olduğu ölkələrdə protestantlıq-katoliklik və özəlliklə ortadoksluğun iş birliyi və ittifaqının siyasi rejimlərin təsbit edəcəyi yöndə qəbul olunmasına ehtiyac vardır.

### *TÜRKİYƏDƏ ORTODOKS YOXDUR, AMMA...*

Belə bir ehtimala rəğmən, Türkiyədə təxminən on min Rum ortodoksun varlığını ona xatırlatdığımız Maiçiçe Cahvel bunları bildirdi:

"Belə olsa Fener ortodoks rəhbərliyi indiki şəraitdə dəyişdirilməsi mümkün olmayan Lozanna anlaşması ilə İstanbulda qanuni iqtidar Xəlic rayonundadır. Rusiya, Afina və digər yerlərdəki ortodoks kilsələrinin qəbul etdikləri qərarın İstanbul tərəfindən bəyənilməsi üsulunu nəzərdə tutur. 1982-ci ildə Papanın Türkiyə ziyarətində və daha sonra Patriarxın Roma ziyarətində bu mövzuda iki anlaşma zəmini hazırlanmışdı.

Nəticə bu şəkildə bildirilməkdədir:

Çökən kommunist rejimi üzərində bina ediləcək olan siyasi sistem hədəf olaraq ilk növbədə Avropanın mənafelərini güdməlidir. Bu mənafelərin təşkil edilməsi isə kilsələr ittifaqına və bunların siyasi iqtidarları dəstəkləməsinə bağlıdır. Bu ittifaq təmin edilsə, 2000-ci ilə qədər müsəlman dünyası öz ölkələrində və Avropada passivləşdiriləcəkdir. Kilsələrin ittifaqına qatılacaq ortodoks kilsəsi ilə müsəlman Türkiyənin neytrallaşmasında siyasi qüvvəyə malik olacaqdır. Kipr münaqişəsinin qərblilər tərəfindən 2000-ci ilə qədər davam etdirilmək istənilməsinin bir səbəbi də budur.

***"Zaman" qəzeti, 6 sentyabr, 1991***

**"Günay" N23, şənbə 5 iyun 2004**

## BU GÜN ÜÇÜN DƏ AKTUAL OLAN BİR POLEMİKANIN 100 İLLİYİ

**1901-ci ildə məşhur vətənpərvər iş adamı Hacı Zeynalabdin Tağıyev Həsən bəy Zərdabi başda olmaqla mütərəqqi ziyalıların tövsiyəsi və yaxından iştirakı ilə Azərbaycanda ilk dünyəvi qız məktəbinin yaradılmasına nail olmuşdu. Rusiyada hələ 1764-cü ildə ilk dəfə Peterburqda fəaliyyət göstərməyə başlayan belə məktəblərdə rus dili, riyaziyyat, fizika, tarix, coğrafiya, təbiətşünaslıq, gigiyena, latın, fransız, alman dilləri, əl işi, rəsm, hüsnxət tədris olunurdu. Bakıda isə yerli uşaqlar üçün Azərbaycan dili təlim edilirdi. Məktəblərdə ilahiyyat dərsləri də mühüm yer tuturdu. Tağıyevin qız məktəbində ilahiyyat dərslərinin tədrisi vəziyyəti 1904-cü ildə Tiflisdə ana dilində nəşr olunan "Şərqi-rus" qəzetində mübahisə və polemikaya səbəb olmuşdu. Ticarətlə məşğul olan Səfərəli adlı bir tacirin bu barədə qəzetdə dərc olunmuş məktubuna qız məktəbinin müəllimi, ilahiyyatçı alim və qüdrətli qələm sahibi Əhməd bəy Ağayev "Kaspi" qəzetində "Xarakternaya polemika" ("Səciyyəvi polemika") sərlövhəli yazı ilə cavab vermişdi. Ə.Ağayev cavabında mübahisənin çərçivəsini, mövzunun əhatə dairəsini xeyli genişləndirmiş, ümumiyyətlə problemi qlobal tərzdə şərh etmişdir. Bu şərh və müəllifin mülahizələri bu günümüz üçün də aktual səslənir. Ə.Ağayevin 100 il əvvəl "Oxucu, sənin rəğbətin kimin tərəfindədir?" sualına cavabımız, əlbəttə ki, müsbətdir. Bu, mənim mülahizəmdir. Oxucular, sizin mülahizəniz necədir? Yazın biləki!**

### *SƏCİYYƏVİ POLEMİKA*

Rus-tatar qız məktəbinin keçmiş şagirdlərindən biri ilə Səfərəli adlı bir tacir arasında çox səciyyəvi və bizim müsəlmanlar üçün çox maraqlı bir polemika başlanmışdır. Tiflisdə tatar dilində çıxan qəzetin səhifələrində, necə deyərlər, "atalar və oğullar" arasında başlanmış bu polemika iki nəslin sadiq qaldığı tendensiyaları, əhval-ruhiyyəni, zehni və mənəvi vəziyyəti tam müəyyən edir. İndən belə bu nəsillər müsəlmanlar arasında həm özlərinin həyata baxışlarına, həm də məişətlərinə, mənəviyyatlarına və meyllərinə görə bir-birindən əsaslı şəkildə uzaqlaşırlar. Buna görə də onların arasında başlanmış mübahisələr indən belə günbəgün güclənəcək və böyüməkdə olan gənc nəsil öz ideallarının və tendensiyalarının üstünlüyünü əyani şəkildə sübut

edənlərə get-gedə daha kəskin xarakter göstərəcəklər. Başlanmış polemikanın güclü maraq doğurmasına səbəb də elə budur.

Bunu əlavə etməyə tələsirəm ki, polemikanın elə ilk sətirlərindən oxucuların rəğbət hissi gənc nəslin tərəfində olur, çünki siz dərhal onun hisslərinin nəcibliyini, ağlının və sağlam düşüncəsinin üstünlüyünü hiss edəcəksiniz.

Siz bir işə baxın, taciri narazı salan fakt budur ki, əsası cənab Tağıyev tərəfindən qoyulmuş məktəbdə ilahiyyat fənninin tədrisi onun zövqünə uyğun gəlmir. O istərdi ki, həmin məktəbdə oxuyan qızlar da həm özlərinin, həm də zabitəli məktəbdarın (müəllimin) ciddi nəzarəti altında həm özünün əzbərlədiyi, həm də ondan əvvəl neçə-neçə nəslin heç bir fərəh hissi keçirmədən çeynədiyi quru, həyatdan əsər-əlamət olmayan formulaları təkrarlayıb əzbərləsinlər. Bədbəxtlikdən, bizim müsəlmanların az qala hamısı bu köhnə dəbli üsul üzrə təhsil almış, öz yaddaşlarını bitib-tükənmək bilməyən, bu anlaşılmayan, naməlum dildə yazılmış yorucu formulaları əzbərləməklə öz yaddaşlarını məşq etdirmiş və yalnız sonradan, üstündən neçə il keçəndən sonra başa düşmüşlər ki, onların qəlbi və zəkası bu cür çalışmalara münasibətdə nə qədər laqeyd imiş. Əminəm ki, tacir Səfərəlinin yüz nəfər yoldaşından doxsan doqquzu vaxtilə onların beyninə zorla və amansızcasına yeridilən formulalar barədə, hətta bu gün də özlərinə hesabat vermirlər. Onları öyrətmirdilər. Sadəcə olaraq anlaşılmaz frazaları avtomatik şəkildə təkrarlamaq üçün onları əhliləşdirirdilər və bu işi adətən çubuq və falaqqa cəzası ilə hədələyərək görürdülər. Bu cür tədrisdən nə nəticə çıxarmaq olar? Təəssüf ki, müəllimin çubuğunun qorxusundan, ən başlıcası isə dinə tamamilə yad olan təsəvvürlər barədə qorxu hissindən təhrif olunmuş, həyat əlaməti olmayan formulaların kütləşdirdiyi zəkalar həm islamın baniləri və təəssübkeşləri barədə, həm də onun əzəli müddəaları barədə təhrif olunmuş təsəvvürlər doğurdu. Belə qaydalar əsasında tərbiyə olunmuş tacir Səfərəli istəyir ki, qızlar üçün rus-tatar məktəbinin şagirdləri Məhəmmədin şəriət dərslərindən islamın əsasını təşkil edən müddəalar barədə sağlam düşüncələr deyil, yalnız təhrif olunmuş şiəlik və sünnilik barədə təsəvvürlər qazansınlar. Hələlik isə müsəlmanlar özləri də islamı və şəriəti öz aralarında bitib-tükənməz düşmənlik mənasında başa düşür və unudurlar ki, Məhəmməd dininin banisi bütün xalqlar və qəbilələrlə, o cümlədən vəhşi qəbilələr və atəşpərəstlərlə dinc yanaşı yaşamağı təbliğ edirdi.

Görəsən, tacir Səfərəli bunu başa düşmək istəmir? Lakin müsəlmanların xoşbəxtliyindən, polemikaya girişmiş tacir qəbilindən olan

adamların ideallarının dövranı keçib. Onların anlayışları gülməli dərəcədə köhnəlmişdir. Onlar zamanın gərdişini bataqlıq vəziyyətində durğunlaşmış, köhnə, hamını bezdirmiş, hamının zəhləsini tökmüş anlayışlar bataqlığında saxlaya bilməzlər. Artıq xeyli vaxtdır ki, müsəlmanların səmasında nur günəşi parlayır. Neçə vaxtdır ki, onun həyatverici şüalarının təsiri altında adamların gözləri açılmış, ürəklərinə hərarət gəlmiş, zəkaları sağlamlaşmışdır.

Görün, bu məktəbin şagirdi olan gənc qız "yazıçı" tacirə necə ağıllı, necə sadə cavab verir:

"Bizdən soruşsalar ki, siz kimsiniz, cavab verərik: "Biz insanıq və müsəlmanıq". Əgər bizdən soruşsalar ki, siz hansı ilahi qüvvəyə etiqad edirsiniz, deyərik: "Biz bütün insanların ümumi Allahına etiqad bəsləyirik". Əgər bizdən soruşsalar ki, siz namazı necə qılırsınız, deyərik: "Peyğəmbər özü namazı necə qılırdısa, biz də onun kimi qılırıq".

Başqa sözlə desək, müsəlmanlar arasında süni şəkildə yaradılmış, qarşılıqlı nifrət hissi oyadan bölgü rədd edilir, onların qarşılıqlı ikrah hissləri rədd edilir. İndi hamını tərəqqiyə məhəbbət, irəliyə doğru hərəkət istəkləri birləşdirməlidir. Köhnə məsələləri Tiflis qəzetinin səhifələrində araşdırmağı təklif edirik. Biz cavanlar isə Allah və insan barəsində işıqlı təsəvvürlərlə irəliləyirik və bizim arzumuz -insanlar arasında ayrı-seçkilik toxumu səpmək deyil, onları birləşirməkdir.

Oxucu, bəs sizin rəğbətiniz bu tərəflərin hansınadır?

**Ə.AĞAYEV**

**"Kaspi" qəzeti,**

*26 avqust, 1904-cü il, N93*

**"Günay" N24, 12 iyun 2004**

# MİRZƏ CƏLİL SOVET DÖVRÜNÜN İLK MİLLƏT VƏKİLLƏRİ HAQQINDA

Xalqımızın zəngin yazılı, mətbu irsini öyrənmək, ondan lazımınca faydalanmaq yolunda müasir gəncliyin qarşısında çox böyük əngəllər, əlifba ilə bağlı maneələr dürmaqdadır. Mənim mənsub olduğum nəsil bu sahədə tarixi faciələrin, müxtəlif eksperimentlərin şahididir. Keçən əsrin 20-ci illərinin əvvəllərində hakimiyyəti silah gücünə ələ keçirmiş bolşevik-sovet başçıları xalqı tarixi kökündən qoparmaq qəsdilə minillik əlifbamızı dəyişdilər. İctimai-iqtisadi və mədəni tərəqqinin əsl səbəb və mənasını dərk etməyib, hər şeyin təqsirini əlifbada görənlər də buna rəvac verdilər. 1929-cu ilin yanvarından tam şəkildə latın qrafikasına keçildi. 30-cu illərin sonunda Moskvanın "tövsiyəsi" ilə gənc nəslin yenicə alışdığı latın əlifbası bu dəfə rus-kiril qrafikası ilə əvəz olunmağa başladı. Hər dəfə də bu əlifba oyununa haqq qazandıranlar dəstəsi peyda olurdu. Əsas qərarı ali hakimiyyət orqanı sayılan Ali Sovet, millət vəkilləri çıxarırdılar. Hər dəfə də yekdilliklə. Kimlər idi bu üzdəniraq seçilmiş millət vəkilləri, deputatlar? Qeyd edin ki, sovet dövrü millət vəkilləri və sovetlər haqqında ilk həqiqi qiyməti Mirzə Cəlil, "Molla Nəsrəddin" jurnalı vermişdir. 1921-ci ildə N.Nərimanov, D.Bünyadzadə, yəni Azərbaycan rəsmiləri tərəfindən Təbrizdən Bakıya dəvət olunan Mirzə Cəlil iyun ayında Bakıya gəldi. Bütün təkidlərə baxmayaraq jurnalı nəşr etməyə tələsmirdi. Yeni hakimiyyətin anatomiyasını diqqətlə öyrənirdi. 17 aydan sonra, nəhayət, "Molla Nəsrəddin" jurnalının Bakıda ilk nömrəsi işıq üzü gördü. 1922-ci il noyabrın 2-dən "Molla Nəsrəddin" jurnalının fəaliyyətinin Bakı dövrü başladı. Bu nömrədə "Şura" sərlövhəli satirik bir yazı verilmişdi. Mirzə Cəlilin yazdığı bu dəyərli tarixi əsər nədənsə bu vaxta qədər onun seçilmiş əsərlərinə daxil edimməmişdir. Doğrudur, yazının ilk cümlələri tədqiqatlarda, dərsliklərdə dönə-dönə sitat gətirilir. Lakin əsl mətləbdən söhbət getmir.

Klassiklərin əsərlərinin yenidən bu dəfə latın qrafikasında nəşr olunması barədə prezident sərəncamı vardır. Zənn edirik ki, sovet dövründə müəyyən ideoloji-siyasi səbəblər üzündən əl gəzdirilimiş, kənarda qoyulmuş, mənası təhrif olunmuş əsərlər bu dəfə oxuculara tam şəkildə təqdim ediləcəkdir. İndi isə "Şura"nı oxuculara təqdim edirəm. "Şura" sözünün mənası, millət vəkillərinin seçimi və məşğuliyyəti, Mirzə Cəlilin bu barədə şərhi məncə, maraqlı və ibrətamizdir. Onu da qeyd edim ki, jurnalın işıq üzü görməsindən 4 gün sonra Bakıda .noyabrın 6-da M.Ə.Sabirə ucaldılan abidənin açılış mərasimi oldu. M.Ə.Sabir yaradıcılığına meydan verən Mirzə Cəlili bu mərasimə dəvət etmədilər. Səbəb "Şura" idi. Görün, indi də bəzən davam edən "ənənələr" nə vaxt və kimlər tərəfindən yaranıb.

## ŞURA

O şey ki, qoca Molla Nəsrəddin qəlbinə və məzağına hər babətdən müvafiqdir - onun adı Şuradır.

Şura üsul-idarəsi!

Şükr elərəm vicdanıma ki, ölmədim və arzu etdiklərimə çatdım.

Şura üsul-idarəsi, məsləhət və məşvərət üsul hakimiyyəti - budur sitayiş etdiyimiz yol, budur təqlid etdiyimiz məslək, budur etiqadımız.

Etiqadımız bundadır ki, vətən və məmləkət orada yaşayan əfradın hamısındadır. Pəs vətən və məmləkətin idarəsinin təəlüqi (mənsubluğu) haman əfradadır. Bunlardır tək bircə hakimlər, bunlardır ancaq.

Məmləkət bunların və məhz bunların məsləhəti və məşvərəti, bunların şurası ilə idarə olunacaq.

Pəs Şura, Şura nədir?

Budur mənanın təfsiri...

Amma...

Bunu bir müxtəsərcə ərz edim ki, keçən yaz fəsli kənddə idim və məlumdur ki, insan bir ovqat şəhərdən kənar düşəndə bir növ yadırğayır, bir para mənaları zehnindən çıxardır, ələlxüsus ki, mənim kimi - bir az ki, adam qocalır, bildiyini başlayır mürur ilə (tədricən) itirməyə.

Odur ki, Şura istilahının mənası zehnimdən bilmərrə çıxıb getmişdi ki, Allah rast saldı vağzalların birində Bakıdan gələn maşın dayandı, mənə dedilər ki, bu vaqonda Bakıdan Şura vəkilləri qayıdıb gəlirlər.

Aha, haman saat xəyalıma gəldi ki, ey dili qafil, gir bunların yanına, haman sözün mənasını bunlardan soruş, sənə bəyan etsinlər.

Bəli, girdim, gördüm - bir neçə əşxas (şəxslər), bir neçəsi kəndli, bir neçəsi şəhərli, bir neçəsi əmələ oturub - xiyar yeyirlər.

- Əssəlamün əleyküm, ey əleyküssəlam, Molla Nəsrəddin əmi, buyur əyləş xiyar tənavül eylə (ye).

- Xeyr, nuşcan olsun, ancaq rica edirəm bircə bunu fərmayiş buyurun görək, deyirlər siz Bakıya Şuraya getmişdiniz, - bəli, Molla əmi getmişdik.

- Xub, nə var, nə yox!

- Nə olacaq? Sağlığın.

- Xub, orada deyirlər, siz Şura etdiniz?

- Bəli, Molla əmi, Şura etdik.

- Xub, pəs orada dəxi nəyə məşğul idiniz?

- Molla əmi, ərz olsun ki, orada biz bir neçə gün avtomobilə min-

dik, gəzdik, sonra da hərəmiz başımıza buxara dərisindən bir təzə papaq qoyduq gəldik. Doğrudur, Molla əmi biz Bakıda Şura etdik, amma biz Şuranı indi burada da eləyirik ki, aya pəs biz orada danışılan sözləri niyə anlamadıq?

- Bəli, indi başa düşdüm, - xudahafiz.

- Xuda nasir.

Pəs, ay mənim əzizim, haman Şuranın mənası budur ki, bir neçə millət vəkili vaqonda oturub öz aralarında Şura edələr ki, aya onlar hara getmişdilər, haradan gəlirlər və nədən ötrü getmişdilər və orada danışılandan nə anlayıblar.

Vəssəlam!...Şura, Şura, - budur, ay mənim əzizim.

**"Molla Nəsrəddin" (M.Cəlil),**
*"Molla Nəsrəddin", 2 noyabr, 1922, N1*

**"Günay" 25, 19 iyun 2004**

## NARGİN
## ÖLÜM DÜŞƏRGƏSİ UNUDULA BİLMƏZ

"Günay" qəzeti səhifələrində Nargində - N.Nərimanovun ifadəsilə desək, "Göz yaşı tökdürən bu cəzirədə" soyqırımı muzeyi yaradılması zəruriyyəti barədə bir neçə yazı dərc olunmuşdur. Əks-sədasını hələlik hiss etmirik. Həm də Nargin təkcə 1915-1917-ci illərdə deyil, sovet repressiya rejimi dövründə də ölüm düşərgəsi kimi qalmışdı. Vaxtilə Nargina verilən "ölüm adası", "ölüm düşərgəsi" adlarına biz nəinki sovet dövrü, hətta müstəqillik dövrü tarix kitablarında da rast gəlmirik. Məsələn, Azərbaycan Sovet Ensiklopediyasında "Nargin" sözünün qarşısında belə bir qeyd var: "bax: Böyük Zirə" (c. VII, səh.160), "Böyük Zirə" sözünün qarşısında - Nargin - Abşeron yarımadasından cənubdadır. Sahəsi 1,4 kv.km, uzunluğu 3,1 km, maksimum eni 0,9 km-dir. Bakı ilə Xəzər dənizinin portları arasında dəniz yolları Böyük Zirənin kənarından keçir. Bitki örtüyü zəif inkişaf etmişdir".

Mən Nargin ölüm düşərgəsi ilə yerində tanış olmaq məqsədilə bir neçə il bundan əvvəl "Zaman" qəzeti redaksiyası rəhbərliyinə müraciət etdim ki, türk jurnalistləri ilə bu dəhşətli adanı ziyarət edək. Onlar rəsmi orqanlara müraciət etsələr də, icazə vermədilər. Nə üçün, - in-

di də mənim üçün anlaşılmaz qalır. Bu gün oxuculara təqdim etdiyim "Kaspi" qəzetinin 1917-ci il 6 dekabr tarixli nömrəsində dərc olunmuş "Ölüm adası" sərlövhəli yazıdan məlum olur ki, İsveç və Danimarka konsulları da bu məsələ ilə əlaqədar tədqiqat işi aparmışlar. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin Nargin hadisələri barədə ətraflı məlumatı olub. Bütün bunları arayıb-axtarıb üzə çıxarmaq lazımdır.

## ÖLÜM ADASI

Türk hərbi əsirləri "Nargin" (orijinalda "Nargen" yazılmışdır. - Ş.H.) adasını indi belə adlandırırlar?

Məlum olduğu kimi, Türkiyə ilə müharibədən sonra buraya gəlmiş şahzadə A.Oldenburqskinin əmrinə əsasən, Nargin adası hərbi əsirlər üçün düşərgəyə çevrilmişdir. Bu vaxtadək bizdə bu ada ilə maraqlananlar az olmuşdur. Yalnız hərdənbir əhlikef bir dəstə qayıqlara minib Nargınə gedirdi. Nargin hərbi əsirlər üçün düşərgəyə çevriləndən sonra isə bu cür səfərlərə son qoyulmuşdur. Beləliklə, artıq 3 ildir ki, hamı Narginin mövcudluğunu unutmuşdur. Bu adaya getmək xeyli çətin idi, lakin çevrilişdən sonra adaya getmək asanlaşmışdır və beləliklə, hərbi əsirlərin vəziyyəti ilə maraqlanan şəxslər vaxtaşırı bu adada olur. Nargində nələr edildiyini heç kəs bilmirdi və hətta bu barədə kiməsə nə isə məlum olandan belə, onlar bu barədə heç kəsə heç nə demirdilər.

Burada mən özümün və yoldaşlarımın Narginlə necə maraqlanmağımız barədə bir neçə kəlmə demək istəyirəm. Bir dəfə küçə ilə gedərkən konvoy altında aparılan əsir türk zabitinə rast gəldik. Onun sözlərindən çox şey öyrəndik. Əsir zabit onların adada hansı vəziyyətdə olmaları və onlara necə baxmaları barədə söhbət açdı. Zabitin sözləri bizi çox mütəəssir etdi və biz Nargınə getmək qərarına gəldik. Heç nə aparmadan əliboş getməyi münasib saymadıq.

Onda biz müsəlman tələbələri və şagirdləri bürosuna müraciət edərək birlikdə pul yığmağa başladıq. Kiçik bir məbləğ toplayandan sonra müxtəlif azuqə aldıq və yola düşdük...

Adanın komendantı kapitan "N" bizi çox lütfkarlıqla qarşıladı və hətta axşama qədər adada qalmağımıza icazə verdi. Həmin gün axşama qədər adada qalıb geri qayıtdıq. Sonra biz tez-tez Nargində olur, hər dəfə də özümüzlə nə isə aparırdıq. Əsirlərə imkan daxilində yardım göstərilməsi işində ən çox canfəşanlıq edən müsəlman tələbələr və şagirdlər bürosu idi.

Vaxtilə mən Qurban bayramı günlərində bu adada kəsmək üçün qurbanlıq aparılması barəsində yazmışdım. Lakin gənclərin bu təşkilatının o qədər də sanballı vəsaiti yox idi. Bu vəsait tükəndi və büro bu sahədə öz işini dayandırmağa məcbur oldu.

Amma hər halda ada ilə əlaqəni kəsmirdik. Axır vaxtlar oradan çox ağır xəbərlər alınırdı. Deyilənə görə, əsirlər susuz və yeməksiz qalıblar və s.

Bu xəbərlər və şayiələr Fəhlə və Əsgər Deputatları Sovetinə, həmçinin isveç və Danimarka konsullarına da çatdı və onlar, öz tərəflərindən, adada təftiş aparılması üçün komissiya təyin etdilər.

Komissiya adaya getdi və orada çox kədərli vəziyyətin şahidi oldu. Bəzən komissiyanın üzvləri özlərini saxlaya bilməyib ağlayırdılar.

İcazənizlə Nargin adasındakı əsirlərin vəziyyəti barədə bir qədər söhbət açmaq istərdik.

Bu yaxınlarda paytaxt qəzetlərinin birində Stokholmda Qırmızı Xaç nümayəndələrinin konfransı barədə məlumat dərc edilmişdi. Rusiyalı nümayəndələr Almaniyada rus əsirlərinin vəziyyəti barədə söhbət açmışdılar. Bunun cavabında hər tərəfdən soruşmuşdular: "Bəs, Nargin adası? Nargin adasında əsirlərin qırılması faktına bəraət qazandırmaq üçün nə deyə bilərsiniz?". Rusiyalı nümayəndələr bir neçə dəfə bu cür cavablar almışdı.

Bu cür cavablar onu göstərir ki, Nargindəki vəziyyət barədə xarici ölkələrdə daha çox bilirlər, nəinki bizdə, Rusiyada, o cümlədən Bakıda.

Komissiya adada olduğu gün 40 nəfər ölmüşdü. Məlum oldu ki, bu vəziyyət təkcə həmin günə aid deyil, artıq 2 həftəyə yaxındır ki, adada hər gün ölənlərin sayı artaraq 30-40 nəfərə çatmışdır. Sual edilir: bunu nə ilə izah etmək olar? Oxucu, özünüz deyin, əgər lazaret 400 nəfər üçün nəzərdə tutulmuşdusa, lakin hazırda orada 1200 xəstə varsa, bu lazaretdə xəstələri necə müalicə etmək olar?

Tavandan su axırsa, şəhərdə külək olanda adada boran qopursa, xəstələrin üstünə salınan şeyi yorğan adlandırmaq mümkün deyilsə, döşəklər çatışmırsa və onlar saman üzərində yatırlarsa, bu xəstələri necə müalicə etmək olar. Mənə belə gəlir ki, bu şəraitdə xəstəni müalicə etmək mümkün deyil və bundan ötrü çəkilən zəhmət hədərdir.

Yemək sarıdan vəziyyətə "pisdir" demək azdır.

Əsir türk həkim mənə deyirdi ki, baraklardan biri dizenteriyalı xəstələrlə doludur. Mənim fikrimcə, bu xəstəlik yeməyə xüsusi diqqət yetirilməsini tələb edir, lakin dizenteriyalı xəstəyə yaxşı bişməmiş çörək ve sup əvəzinə içində iylənmiş ət olan horra verirlər.

Bəzən su çatışmayanda supun içinə dəniz suyu tökürlər...

Bu yeməyin nə demək olduğunu özünüz təsəvvür edin. Özü də bunlar elə bir vaxtda edilir ki, müdiriyyətin sərəncamında dörd barkas və iki paroxod var ("Kuropatkin", "Qorçakov"). Bu çatışmazlıqları müdiriyyətin nəzərinə çatdıranda onun cavabı belə olurdu ki, xəzinə kifayət qədər vəsait vermir. Lakin biz buna inanmırdıq və deyirdik ki, müdiriyyət işinin öhdəsindən gələ bilmir.

İndi lazaretdən çıxıb düşərgədə gəzə-gəzə baraklara girsək, orada başqa mənzərinin şahidi olarıq.

Baraklarda "Yel vurub yengələr oynayır", yuxarı pəncərənin şüşəsi sınmışdır, onun əvəzinə parça asılmışdır, yuxarıdan su damır, əsirləri isladır, güclü külək əsir, barak lazımınca qızdırılmır və nəticədə ertəsi gün onlarca adam xəstələnir və onları da xəstə ilə dolu hospitala aparırlar. Bundan əvvəlki dəfə adada olarkən barakların birində bir neçə yalın ayaqlı əsir gördüm. Onların əyinlərində sanki möcüzə sayəsində salamat qalmış şinel vardı. Bu adamların görkəmi mənə qəribə təsir bağışladı və mən şinelin düymələrini açmalarını xahiş etdim. Gördüm ki, onların əynində şineldən başqa heç nə yoxdur. Üzümü yana çevirib çıxıb getdim.

Paltar sarıdan çox adamın vəziyyəti belədir. Bədənlərini birtəhər örtən bu adamlar özlərini soyuqdan qoruya bilmir.

Əsirlərin başlarının altında balış əvəzinə dörd kərpic varsa, üstlərini əllərinə keçən əski-üskü ilə örtürlərsə, üfunət iyi verən yemək, şor su ilə qidalanmağa məcburdurlarsa, onlar xəstəlikdən qoruna bilməzlər.

Ən dəhşətli vəziyyət isə orada gördüyümüz uşaqlar və qocalarla bağlı idi. Ağsaqqal bir qoca ilə rastlaşdıq. O, əl ağacına söykənərək sizə yaxınlaşır və "bu lənətə gəlmiş adadan" onu götürüb aparmağınızı xahiş edir. Bu adam əsgər deyil - dinc sakindir.

Yolunuza davam edirsiniz. Bu dəfə 4 yaşlı bir oğlanla üzləşirsiniz. Sizin nə üçün burada olmağınızı, buraya nədən ötrü gəlməyinizi başa düşməyən bu oğlanın adı Əhməddir. Onun 4 yaşı var. Anası ilə birlikdə "əsir götürülmüşdür", yazda anası keçinmişdir. İndi Əhməd orada qoca atası ilə qalmışdır. Yaxşı danışa da bilmir, cəmi bir neçə cümlə bilir.

Mən ona yaxınlaşıb soruşdum: "Əhməd, sən burada neyləyirsən?"

Cavabında bu sözləri eşitdim: "Məni bura rus əsgərləri gətirib, amma nə üçün gətirdiklərini bilmirəm..."

Adada ilk dəfə olarkən komendanta demişdim ki, çağırış yaşından aşağı oğlanları adadan çıxarıb aparmaq lazımdır. Cavabında mənə

dedilər ki, onda adadakı hərbi əsirlərin sayı bir nəfər az olacaq.

Məni bağışlayın, heç bilmirdim ki, Türkiyədə 4 yaşlı uşaqları müharibəyə çağırırlar. Bütün bunlar olub keçib, ümidvarıq ki, daha belə şeylər olmayacaq. Komissiyanın adaya gəlişindən və iki-üç gün susuz qalmış əsirlərin vəziyyətini yerində görəndən sonra komissiya bir sıra tədbirlər görmüşdü. Ən başlıcası adanın müdiriyyəti dəyişilmişdir.

Fəhlə və Əsgər Deputatları Soveti yeni komendant təyin etmiş, praporşik "N."..., baş həkim və başqaları vəzifələrindən çıxarılmışdı. Bütün bu vəzifələrə yeni adamlar təyin edilmişdir. Deyilənə görə, bu şəxslər əsirlərin vəziyyəti ilə maraqlanırlar.

Hazırda İsveç və Danimarka konsulları əsirlərə ciddi kömək edirlər. Onların sayəsində iki gün bundan əvvəl 300 nəfərə yaxın adam adadan evakuasiya edilmiş və hazırda 16-cı Qara Şəhər lazaretində yerləşdirilmişdir.

Bu günlərdə uşaqlar da adadan çıxarılacaqdır. Onların saxlanması məsələsini bir həftə bundan əvvəl Bakıda yaradılmış "Mehthərbcir köməgi" (ehtiyacı olanlara kömək) cəmiyyəti öz üzərinə götürmüşdür. Bu cəmiyyət elə ilk günlərdən işə möhkəm girişmişdir və Nargin adasındakı əsirlərə yardım göstərməyə imkanı vardır. Bu cəmiyyətə öz işində uğurlar arzulayaq.

Beləliklə, əsir türklərin Nargin adasına verdikləri ad tamamilə düzgündür. indi o, əsirlərin vəziyyəti yaxşılaşmayınca və Stokholmdakı rusiyalı nümayəndələr Nargində daha gündə 40 adamın ölmədiyini açıq demək imkanına malik olmayınca, "Ölüm adası" adlandırılmalıdır. Yalnız o vaxt, bütün bunlar olmayanda Nargin Nargin kimi qalacaq, hələlik isə o, "Ölüm adası" adlanmalıdır.

**Çingiz Xan**
**"Kaspi" qəzeti,**
*6 (19) dekabr 1917-ci il, N-267*

**"Günay" N26, 26 iyun 2004**

# BİRİNCİ PYOTRUN MƏLUM-MƏCHUL "VƏSİYYƏTNAMƏ"Sİ

1914-cü ilin sentyabrından - 1916-cı ilin sentyabrına qədər Bakıda nəşr olunan "Dirilik" jurnalını vərəqləyərkən 1915-ci ilin iyunun 1-i tarixli 16-cı nömrəsində (səh. 242-243) "Rusiya imperatoru Böyük Petronun "Vəsiyyətnamə"si" sərlövhəli yazıya rast gəldim. "Dirilik" jurnalı I Dünya müharibəsi başlanandan bir ay sonra Bakıda yaradılan, 15 gündə bir nəşr olunan ədəbi, əxlaqi, ictimai, iqtisadi, tarixi, siyasi, şəkilli jurnal idi. Bu vaxta qədərki rəsmi ədəbiyyatda yazılırdı ki, o, guya "Pantürkizm və panislamizm ideyasını təbliğ etmişdir. İslam mədəniyyəti abidələrinin boyalı tabloları (rəssamı Ə.Əzimzadə) jurnala əlavə kimi nəşr olunmuşdur" və s.

Göstərim ki, jurnalın təkcə 1914-cü il sentyabr, dekabr və 1915-ci il yanvarında çıxan 8 nömrəsində M.Ə.Rəsulzadənin "Dirilik nədir?", "Milli dirilik" sərlövhəli silsilə məqalələri dərc olunmuşdur. Maraqlıdır ki, jurnal haqqında verilən yazılarda Birinci Pyotrun adı çəkilən "Vəsiyyətnamə"si haqqında heç bir yerdə adicə informasiyaya belə rast gəlmirik. Nə üçün? Əvvəla, qeyd edim ki, elə indinin özündə belə bu "Vəsiyyətnamə" gizli, məxfi sənəd kimi saxlanılır. Axundov adına Respublika Dövlət Kitabxanasının biblioqrafları bütün mövcud məlumat kitablarını, mənbələri ələk-vələk etdilər. Tapmadılar. Nəhayət, İnternet xidmətinə müraciət etdik. Oradan "İ.P.Lipatov (Ladov) - 2002 - İqor Ladov -20.04.02" imzası ilə "О политическом завещание Петра I" ("I Pyotrun siyasi vəsiyyətnaməsi haqqında") sərlövhəli mətnə (sayta) rast gəldik.

İqor Ladov yazır: "I Pyotrun siyasi vəsiyyətnaməsi" deyilən sənəd barədə dəfələrlə müxtəlif mənbələrdə məlumatla rastlaşmışam. Adətən, bu məlumatların mahiyyəti ondan ibarət olurdu ki, sözügedən sənəd Rusiyanı bütün dünyanı və o cümlədən Qərbi Avropanı fəth etmək istəyinə görə əsassız olaraq günahlandırmaq məqsədilə Qərbdə yaradılmış saxta sənəddir. Qeyd etməliyəm ki, uzun müddət mən həmin sənədin özü ilə tanış ola bilmirdim. İnternetdən istifadə etmək imkanı yarananda bu arzum bir də yadıma düşdü və qısa müddətdə şəbəkədə məni maraqlandıran mənbəni tapdım. Sənəd çox maraqlıdır. Onun həcmi böyük olmadığı üçün bu mətni demək olar ki, tam həcmdə sitat gətirməyi qərara aldım (mənbə: http://inkpulp.narod.ru/zavet.htm).

İQOR LADOVUN ƏLDƏ ETDİYİ "VƏSİYYƏTNAMƏ", yəni rus mətni ilə "Dirilik" jurnalında dərc olunmuş mətni müqayisə etdikdə məlum olur ki, İnternetdə rast gəldiyim mətndə maddələrin sayı eyni olsa da, ixtisar və bəzən də əlavələrə yol verilmişdir.

Onu da göstərim ki, 1991-ci il noyabrın 15-də "Aydınlıq" qəzetində "Azərbaycan parlamentindəki çoxluğun nəzərinə! I Pyotrun "Vəsiyyətnamə"si" ümumi başlığı altında "Dirilik" jurnalına istinadən, həm də çox ciddi ixtisar və səhvlərlə dolu, (hətta "Dirilik" jurnalı, 1916-cı il" yazılıb, halbuki, 1915-ci il 1 iyun 16-cı nömrə olmalıdır) mətn dərc olunub.

I Pyotrun adı çəkilən "Vəsiyyətnamə"si 1725-ci ildə yazılıb, həm də məxfi saxlanılıb. Onu bir müddət sonra xaricə ötürüb əvvəlcə fransızca və sonra digər Qərbi Avropa dillərində nəşr etmişlər. Zənnimcə, 1911-1913-cü illərdə Türkiyədə -İstanbulda mühacirətdə olan M.Ə.Rəsulzadə də onu ələ keçirmiş və Rusiya-Türkiyə müharibəsi başlanması münasibətilə "Dirilik" jurnalında dərc etdirmişdir.

Çarizmin işğalçılıq və dünya ağalığı siyasətini ifşa etmək baxımından bu tarixi sənədin Azərbaycan dövri mətbuatında dərc olunmasının əhəmiyyəti danılmazdır. İndinin özündə də İqor Ladov İnternet səhifəsində görün nə yazır:

- "Mən bu sənədin həqiqi nüsxə olub-olmaması barədə mühakimə yürütməyə hazırlaşmıram. Lakin sənəd bəzi mülahizələrə sövq edir. Əgər bu cür planlar həqiqətən olmuşdursa və vaxtilə həmin planlar həyata keçirilsəydi Rusiya nə qədər bədbəxtliklərdən yaxa qurtara bilərmiş. Əgər Avropa vaxtında fəth edilmiş olsaydı oradan nə qədər yararsız zir-zibil bizə gəlib çıxmazdı. Fransa inqilabının çürüdücü təsiri olmazdı. Napoleon qoşunlarının basqınları olmazdı. Avropadan Rusiyaya inqilabi kommunist və liberal-demokrat ideyaları ixrac olunmaz və bizə bu qədər böyük müsibətlər gətirmiş rus inqilabının özü də olmazdı. Faşizm Rusiya üzərinə basqın etməzdi. Ölkəmiz kommunizm dövründən sonrakı dəyişikliklərə və parçalanmaya məruz qalmazdı. Bir sözlə, çox şeydən yaxa qurtara bilərdik".

Bizim günlərdə, XXI yüzillikdə bunları oxuyur və düşünürsən: bizə müstəqil, həqiqi demokratik cümhuriyyət dövləti yaradanların görün, necə böyük intellektual səviyyələri olmuşdur. Ətrafa baxanda məşhur rus şairi, Nobel mükafatı laureati İosif Brodskinin bu mükafatı alma mərasimindəki çıxışında aşağıdakı sözləri yada düşür: "Əgər bizləri idarə edən dövlət xadimləri bu vəzifədə olduqları müddətdə xalqın mədəniyyət və tarixinə dair ən çoxu 20-yə qədər kitab oxusaydılar, yəqin ki, öz xislətlərini xeyli dəyişərdilər".

İndi isə söhbət gedən "Vəsiyyətnamə"nin hər iki mətnini oxuculara təqdim edirəm.

# I PYOTRUN SİYASİ VƏSİYYƏTNAMƏSİ HAQQINDA

"I Pyotrun siyasi vəsiyyətnaməsi" deyilən sənəd barədə dəfələrlə müxtəlif mənbələrdə məlumatla rastlaşmışam. Adətən, bu məlumatların mahiyyəti ondan ibarət olurdu ki, sözügedən sənəd Rusiyanı bütün dünyanı və o cümlədən Qərbi Avropanı fəth etmək istəyinə görə əsassız olaraq günahlandırmaq məqsədilə Qərbdə yaradılmış saxta sənəddir. Qeyd etməliyəm ki, uzun müddət mən həmin sənədin özü ilə tanış ola bilmirdim. İnternetdən istifadə etmək imkanı yarananda bu arzum bir də yadıma düşdü və qısa müddətdə şəbəkədə məni maraqlandıran mənbəni tapdım. Sənəd çox maraqlıdır. Onun həcmi böyük olmadığı üçün bu mətni demək olar ki, tam həcmdə sitat gətirməyi qərara aldım (mənbə: http://inkpulp.narod.ru/zavet.htm).

"Müqəddəs və bölünməz üçlüyün adı ilə! Biz - ümumrusiya imperatoru və hakimi-mütləqi Pyotr bütün xələflərimizə və taxt-tacda varislərimizə, rus millətinin hökumətinə və s. və i. a.

**Maddə 1.** Rus xalqını fasiləsiz müharibə vəziyyətində saxlamaq lazımdır ki, əsgər döyüşdə bərkisin və dinclik nə olduğunu bilməsin: onu yalnız dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq, ordunu yenidən qurmaq və hücum üçün münasib vaxt gözləmək məqamlarında sakit buraxmalı. Beləliklə, Rusiyanın hüdudlarını genişləndirmək və rifahını yaxşılaşdırmaq naminə sülhdən müharibə üçün və müharibədən sülh üçün istifadə etməli.

**Maddə 2.** Bütün mümkün vasitələrdən istifadə etməklə ən maarifli ölkələrdən müharibə vaxtı sərkərdələri və dinc vaxtda alimləri dəvət etməli ki, rus xalqı özü üçün heç bir itkiyə məruz qalmadan başqa ölkələrin xeyirli cəhətlərindən istifadə edə bilsin.

**Maddə 3.** Fürsət düşən kimi Avropanın, xüsusən Rusiyaya daha yaxın olduğu üçün bilavasitə maraq doğuran Almaniyanın daxili işlərinə və münaqişələrinə müdaxilə etməli...

**Maddə 4.** İngiltərədə, Danimarkada, Brandenburqda İsveçə qarşı kin-küdurət yaratmalı, bu yolla həmin dövlətlərin vasitəsilə bu ölkədə aparıla biləcək işğallara və onun tam fəth edilməsinə barmaqarası baxmalı.

**Maddə 5.** Böyük rus knyazları almaniyalı şahzadə xanımlarla evlənsinlər ki, Almaniyada qohumluq əlaqələri güclənsin, mənafelərimiz qarşılıqlı yaxınlaşsın və bizim Almaniyadakı təsirimizi gücləndirməklə, onu bizim işlərə cəlb edək

(...)

**Maddə 7.** Şimala və Cənuba, Qara dəniz boyunca sərhədləri durmadan genişləndirməli...

**Maddə 8.** Avstriya ilə müttəfiqliyi saxlamalı, onun Almaniya üzərində hökmranlıq planlarını təqdir etməli, özümüz isə əl altından Balkan ölkələrində Avstriyaya qarşı küdurət hissini qızışdırmalıyıq. Çalışmalıyıq ki, onlar hər ikisi kömək üçün Rusiyaya müraciət etsinlər. Gələcəkdə bu ölkələr üzərində hökmranlıq etmək məqsədilə onlara himayədarlıq etməli.

**Maddə 9.** Avstriyada türkləri Avropadan qovub çıxarmağa maraq oyatmalı və bu bəhanə ilə Qara dənizdə daim ordu və donanma saxlayaraq Konstantinopola tərəf mütəmadi irəliləməli.

**Maddə 10.** Macarıstanda, Türkiyədə və Polşada katolik yunanlara, Şərqdən gəlmiş binəsiblərə və sxizmatiklərə dini təsir imkanlarından istifadə etməli və onlara hər cür vədlər verərək öz tərəfimizə cəlb etməli. Bu bəhanə ilə və bu yolla Türkiyə fəth ediləcəkdir.

**Maddə 11.** İsveç darmadağın ediləndə, İran ram olununda, Türkiyə fəth ediləndə, ordular birləşəndə, Qara dəniz və Baltik dənizi bizim gəmilər tərəfindən mühafizə olunanda çox böyük məxfilik şəraitində əvvəlcə Versala, sonra isə Vyanaya yer üzündə hakimiyyəti bölüşdürməyi təklif etməli. Onlardan hansı bu təklifi birinci qəbul etsə o birisinə qarşı mübarizədə ona kömək etməli, sonra isə onlardan sağ qalanına qarşı mübarizəyə başlayaraq onu məhv etməli. Bu mübarizədə hökmən Rusiya qalib gələcəkdir, çünki o vaxtadək Rusiya bütün Şərqi və Avropanın çox hissəsini fəth etmiş olacaqdır.

**Maddə 12.** Bu ümumi amansızlıq şəraitində döyüşən tərəflərdən gah biri, gah digəri kömək üçün Rusiyaya müraciət edəcək, Rusiya isə Avstriyaya kömək etmək bəhanəsi ilə qüvvə toplayıb öz nizami qoşunlarını Reynə tərəf çəkəcək, onun arxasınca da saysız-hesabsız Asiya qoşunları hərəkət edəcək. Yalnız Asiya orduları Almaniyanın içərilərinə soxulandan sonra Azovdan və Arxangelskdən elə bu cür ordularla birlikdə silahlı Qara dəniz və Baltik donanmalarının köməyinə arxalanan iki nəhəng donanma çıxacaqdır. Onlar İtaliyanı, İspaniyanı və Fransanı bürümüş, qənimət hərisi olan bu köçəri xalqları geri oturtmaq üçün qəflətən Aralıq dənizində və okeanda peyda olacaqlar. Onlar sakinlərin bir qismini məhv edəcək, digər qismini əsir götürərək Sibir çöllərinə aparıb orada məskunlaşdıracaq, qalanlarını da Rusiya əsarətini devirmək imkanından məhrum edəcəklər. Bütün bu təxribatlar nizami ordunun var-qüvvə ilə fəaliyyət göstərməsi, Avropanın qalan hissəsinin fəth olunmasında tam qələbə qazanılması üçün geniş meydan açacaqdır".

Mən bu sənədin həqiqi nüsxə olub-olmaması barədə mühakimə yürütməyə hazırlaşmıram. Lakin sənəd bəzi mülahizələrə sövq edir. Əgər bu cür planlar həqiqətən olmuşdursa və vaxtilə həmin planlar həyata keçirilsəydi Rusiya nə qədər bədbəxtliklərdən yaxa qurtara bilərmiş. Əgər Avropa vaxtında fəth edilmiş olsaydı oradan nə qədər yararsız zir-zibil bizə gəlib çıxmazdı. Fransa inqilabının çürüdücü təsiri olmazdı. Napoleon qoşunlarının basqınları olmazdı. Avropadan Rusiyaya inqilabi kommunist və liberal-demokrat ideyaları ixrac olunmaz və bizə bu qədər böyük müsibətlər gətirmiş rus inqilabının özü də olmazdı. Faşizm Rusiya üzərinə basqın etməzdi. Ölkəmiz kommunizm dövründən sonrakı dəyişikliklərə və parçalanmaya məruz qalmazdı. Bir sözlə çox şeydən yaxa qurtara bilərdik".

**İqor LADOV, 20.04.02**

## RUSİYA İMPERATORU BÖYÜK PETRONUN "VƏSİYYƏTNAMƏ"Sİ

*(HİCRİNİN 1138-ci İLİNDƏ VƏFAT ETDİKDƏ ÖZÜ YAZMIŞDIR)*

Cənab həqqin həmd və sənasından sonra tamam övlad və canişinlərim bilməlidirlər ki, görürəm gələcəkdə get-gedə bütün övladım biribirindən sonra Avropanın sair məmalikində (məmləkətlərində) hökmran olacaqlardır. Zira Avropanın bütün riyasət və səltənətləri köhnələnmiş və qocalmışlardır. Rus səltənəti isə ibtidadan vəziyyət və samanca (sərvətcə) tərəqqi nəzm və nəsəqcə (tərtibcə) ləyaqətli və cəmi riyasət (rəislik) və səltənətlərin sərdəftəridir (başçısıdır). Biz ibtida da bu səltənəti əql ilə tapmışıq. Mən əfkarım üzükçüsünün təyidi ilə muradımın gəmisini məqsud sahilinə yetirmişəm. Mən bilirəm ki, mənim canişinlərim ötəkin tədbirləri ilə bu səltənətin tovsinə (irəliləməsinə) çalışıb bəhri-əzəm (ən böyük dərya) misalında edəcəklərdir. Binaənəleyh (bu səbəbdən) onlar üçün bu neçə kəlməni hidayət (rəhbərlik) və vəsiyyət surətində yazıram ki, əllərində dəsturüləməl (göstəriş) olsun:

1) Rus dövləti həmişə müharibə ləvazimatı tədarük edib hazır olmalıdır, zira bu qüvvə Rusiyanın tərəqqisinə səbəb olacaqdır.

2) Mümkün olduqca müharibə zamanında Avropanın ətraf və əknafısında olan dövlətlərdən sər-əsgərlər tələb etməlidir. Müharibə işində

həmişə işləməlidir. Sülh zamanında üləma (alimlər), hükəma (həkimlər) və ərbabi-sənayei (sənaye sahibləri) dəvət etməlidir.

3) Avropa məmləkətləri ilə sair məmləkətin arasında fitnə və fəsad vüqu olduqda (baş verdikdə) yaxşı bir mövqe tutmaq şərti ilə onların birisi ilə şərik olmalıdır. Ələlxüsus alman qovminin (xalqının) arasındakı iğtişaşda. Zira bu hökumət Rusiya dövləti ilə bitişikdir.

4) Lehistana (Polşaya) ixtilal və nifaq salmalı, o məmləkətin əyan və əkabirinə (böyüklərinə) rüşvət verib onların dəyanətini xələldar (pozğun) etməlidir. Moskvadan əsgər gətirdib olduğu kimi Lehistanda qoymalıdır. Əgər sair hökmdarlar müdaxilə edərlərsə filfövr (təcili) Lehistan torpağından bir parça onlara haqqülsükut verməli; iş tamam olduqdan sonra o parçanı da geri almalı, Rusiya səltənətini möhkəm və təkmil etməlidir.

5) Mümkün qədər də İsveç, Norveç məmləkətindən əldə etməli. Amma tədbir ittixaz etməlidir (götürməlidir). Çünki o məmləkətin valisi əlinizdə o məmləkəti fəth və təsxir etməyə bəhanə olmaq üçün sizə hücum edərsə, o vaxt bu məqsədi hasil etmək üçün Danimarka qitəsini İsveç-Norveçdən ayırmalı və bu iki məmləkətin arasında ədavət və xüsumət danəsini əkməlidir.

6) Rus şahzadələri həmişə Almaniya sultanlarının (padşahlarının) böyüklərinin, valilərinin və ali rütbə sahiblərinin qızlarını təzviç etməlidirlər. Bu zəmində böyük fayda təsvir olunar.

7) İngilis hökuməti ilə ittihad (ittifaq) və irtibat (əlaqə), ticarət ümuratında (işlərində) dəxi ittifaq etməli, çünki gəmi qayırmağa gərək olan ləvazimat mumi ileyna (söhbət gedən) hökumətdən alınacaq. Və çoxlu mənfəət hasil olacaqdır. İngilislərlə olan irtibatın səbəbi ilə hərb gəmisi və əsləhələr (silahlar) qayırmaqdan böyük köməklik görüləcəkdir.

8) Rusiya dövlətinin hüdudu Avropada Şimala, Baltik dənizinin Şimalına qədər, Cənuba Qara dənizə qədər vüsətlənməlidir.

9) Rusiya dövlətini o vaxt dövlət adlandırmaq olar ki, paytaxtını bütün Asiya və Avropa xəzinələrinin açarı olan İstanbulda qərar vermiş hənəfül-imkan ola. Əlhal çalışıb İstanbulun Qərb civarına sahib olmalı. Əlbəttə, İstanbula sahib olan padşah aləmdə padşahlar padşahı olacaqdır. Buna görə bu məqsudi nizafelə (mübahisə işinə) çıxartmaq üçün həmişə Türkiyə ilə İran arasında fitnələr törədib dava və dalaşı daimiyyətlə baqi və bərqərar etməlidir. Sünni və şiə məzhəbinin ixtilafi böyük ordu və kəskin silah işini görürsə də Asiyada Rusiya nüfuzunu yürütmək üçün dəxi ən birinci vəsilədir. Bununla bərabər sizə dəxi lazımdır ki, daimülovqat hər vəsilə ilə mümkün olsa onların arasında nifaq, bürudət səbəblərini toplayıb biri-birilərinə xüsumət və

ədavət artırıb onları ülfət və müvanisət məqamına gəlməyə qoymayasınız. Sizi ən çox xoşhal edən şeylərdən biri də sünni, şiə və sairənin arasındakı ədavət, üləmanın (din alimlərinin) ümuri-müsliminə (müsəlmanların işlərinə) müdaxilə və təsəllüt etməyi və onların müsəlmanları Avropa millətləri ilə qarışmağı caiz görməməkləridir ki, islamlar göz açıb quyu ilə açıq yolu tanıyarlar. Bu iki fəqərə (epizod): İslam adının tezliklə Asiyadan bərtərəf olmasına, isəviyyətin (xristianlığın) tərbiyə və mədəniyyətini Rusiya padşahlarının o yerlərdə nəşr və təmim etməyinə kifayət edəcəkdir.

Məxfi qalmasın: Bizim üləmamızın (din xadimlərinin) müdaxilə və təsəllütu idi ki, bu günə qədər Rusiya dövlətinin tərəqqisinə mane olmuşdur. Mən öz qüdrət və istiqlalımı izhar etməklə onları mən (yasaq) etdim. İndi ən adi bir dərəcədə qalmışlardır. Lakin çox zəhmətlər ilə bu cailəni aradan qaldırdım, ruhanilərin dövlət və millət ümuratına müdaxilələrini qısaldıb, onları kilsələrdə mütəqaid elədim. Bundan əlavə, cürbəcür tədbirlər etməli ki, İran məmləkəti günü-gündən pulsuz və ticarətsiz qalsın. Xülasə, İrani həmişə tənəzzülə sövq etməli və hali-ehtizarda (xəstə vəziyyətdə) saxlamalı ki, Rusiya dövləti istədiyi vaxtında zəhmətsiz İranı söndürməyə qadir olsun. Amma Türkiyə dövləti məhv olmadan İranın canını almağınız məsləhət deyildir. Gürcüstan məmləkəti Qafqasiya xittəsi (ölkəsi), İranın şah damarıdı Rusiyanın təsəllüt (hakim olma) neştəri məzkur damara yetişərsə filfövr (dərhal) ürəyindən zəif qanı açılacaq və onu öylə bihal edəcəkdir ki, min Əflatun gəlsə də onu islah edib sağaltmaq mümkün olmayacaqdır. O vaxt İran məmləkəti Rusiya padşahlarına dəvə kimi müti olacaqdır. Və Türkiyənin axırıncı şöləsi sönənə qədər Mayəhtac barkət edib (insanın ehtiyacı olan yükdaşıyan edib) Türkiyənin işini qurtardıqdan sonra İranı müşkülatsız nəhr və zəbh etmək (qurban kəsmək) mümkün olar. Ona binaən sizə lazımdır ki, vəqt fovt etmədən Gürcüstanı və Qafqasiyanı zəbt və təsxir edib İranın daxili hakimlərini özünüzə xadim və müti edəsiniz. Ondan sonra Hindistana qəsd etməli.

Zira o məmləkət çox böyük və vüsətli bir ticarət yeridir. Əgər oranı ələ keçirmiş olsanız İngiltərə vasitəsilə hasil olunan pul əvvəlkindən də ziyadə Hindistandan hasil edilə biləcəkdir. Hindistanın açarı Türkistanın paytaxtıdır. Nə qədər bacarırsınızsa qırğız, Xivə və Buxara səhraları tərəfindən irəliləyiniz ki, məqsudunuz sizə yaxınlaşacaqdır. Lakin təəmmül və fikir etməyi buraxmayınız tələsmək və yeginlikdən ictinab ediniz.

Avstriya dövləti ilə zahirdə dost olmalı, amma öylə bir tədbir etməli ki, alman və Avstriya get-gedə ayaqdan düşsünlər. Bəlkə Avstriya

ilə yoldaş olmalı. Türkiyəni Avropadan çıxarmalı, bu şərtlə ki Avstriya bu yoldaşlıqdan fayda hasil edə bilməsin. Bu işdə iki yol vardır. Biri Avstriyanı başqa tərəfə məşğul etməli və biri də Avstriyaya Türkiyə məmləkətindən öylə bir parça verməli ki, gələcəkdə onu geri alınması asan olsun.

10} Yunanlarla sülh və müsalimət ilə dolanınız, dava vaxtında onlar sizə böyük imdad edərlər.

11) İsveç - Norveçi, Türkiyəni, İranı və Lehistanı (Polşanı) fəth etdikdən sonra, İtaliya və Fransa ilə ittihad və irtibat peyda ediniz. Əgər onlardan heç birisi bizim dostluğumuzu qəbul etməzlərsə, o vaxt bu vəsilə ilə o biri əyalətləri nistü-nabud (yox) ediniz. Ondan sonra o hökuməti də öz təhti-təsərrüfünüzə keçirib hökmran olunuz.

12) Əgər bu iki zikr olunan riyasətlərdən biri müharibəni qəbul etməz isə öylə bir tədbir etməli ki, bu iki hökumətin arasında fitnə və fəsad vaqe olsun. Bu vəchlə get-gedə onlardan biri aradan götürülüb bərbad olacaqdır. O vaxt qalmış hökumətləri tarac edib bir nəfərin zəhmətini çəkmədən bütün Avropa məmləkətinə fərmanfuruluq edərsiniz. İşin axırında sair məmləkətlərin hamısını öz məmləkətinizə ilhaq edib bütün dünyaya sahib olarsınız.

*"Dirilik" jurnalı, 1 iyun, 1915-ci il, N-16*

**"Günay" N27, 3 iyul 2004**

## YAXŞI NİYYƏT, BÖYÜK ZƏHMƏT, TƏƏSSÜFLÜ XƏTALAR

**Müstəqil respublikamızda indi həm kitab bolluğudur, həm də əsl kitab qıtlığı. Kimin maddi imkanı varsa, istədiyini çap etdirə bilir. Nəşriyyatlar da ki, istənilən qədərdir. Digər tərəfdən kitab mağazalarının sayı da xeyli azalıb. Çünki kitab oxumaq dəbdən düşmək üzrədir. Elektron informasiya vasitələri, maddi imkansızlıq, əlifba dəyişiklikləri kitabı sıxışdırmaqdadır. Lakin bu hərc-mərclik şəraitində belə az da olsa, orijinal, lazımlı, faydalı elmi-tarixi, ədəbi-bədii əsərlərə rast gəlmək olur. Bunlar sevindiricidir. Mən filologiya elmləri doktoru Ağarəfi Zeynalzadənin "Şuşa" nəşriyyatı tərəfindən buraxılmış Haşım bəy Vəzirovun jurna-**

listik fəaliyyəti əsərini belələrindən hesab edirəm. Azərbaycan mətbuatı, jurnalistikası və ictimai fikir tarixində öz yeri və xüsusi rolu olan Haşım bəyə münasibət öz dövründə və sovet hakimiyyəti illərində birmənalı olmamışdır. Bircə faktı qeyd edim ki, Haşım bəy haqqında ilk kitabça 1917-ci ildə, vəfatının bir illiyi münasibətilə Mirzə Hüseyn Quliyev tərəfindən tərtib edilib nəşr olunmuşdu. Buraya onun "Keyfim gələndə" başlığı altında dövri mətbuatda dərc olunmuş çoxsaylı felyetonlarının bir qismi, C.Cabbarlının ədibin vəfatına həsr etdiyi şeri, Mirzəbala Məmmədzadənin "Haşım bəy Vəzirovun tərcümeyi-halı" yazısı və müəllifin kiçik müqəddiməsi daxil edilmişdi. 85 ildən sonra bu görkəmli şəxsiyyət haqqında sanballı bir əsər işıq üzü görmüşdür. Yaxşı niyyətin, böyük zəhmətin bəhrəsi olan bu dəyərli əsər haqqında filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovun "Azərbaycan" jurnalında çox geniş, elmi-tənqidi yazısı dərc olunmuşdur (2002, N-6) Mənim məqsədim yazılanları təkrar etmək deyil. Diqqətimi cəlb edən və haqqında ətraflı söhbət getməyən əsərin "Nekroloqlar" fəslidir. A.Zeynalzadə çox faydalı bir iş görüb. 1916-cı il fevralın 4-də 48 yaşında vəfat edən Haşım bəy haqqında N.Nərimanov, Əli Səbri, Ömər Faiq, C.Bünyadzadə, M.Ə.Rəsulzadə, C.Hacıbəyli, C.Cabbarlı, A.Səhhət və b. qələminin və qəlbinin məhsulu olan və dövri mətbuatda dərc olunmuş ürək sözlərini bir bölmədə oxuculara təqdim etmişdir. Bunlar təkcə bizim indi təsadüf etdiyimiz quru, cansıxıcı, anket səciyyəli nekroloqlar deyil, tariximizin və bu tarixi prosesdə fəal iştirak edən bir vətən xadiminin həyat və fəaliyyət salnaməsidir.

Bəs yazımın sərlövhəsində qeyd etdiyim "təəssüflü xətalar" dedikdə nəyi nəzərdə tuturam? Məlumdur ki, mən XX əsr tariximizin ən işıqlı şəxsiyyətlərindən, milli dövlətçiliyimizin yenidən bərpa edilməsində misilsiz xidmətləri olan M.Ə.Rəsulzadənin əsərlərinin növbəti 3-cü cildi üzərində işləyirəm. 1916-cı il fevralın 7-də "Açıq söz" qəzetində M.Ə.Rəsulzadənin "Haşım bəy Vəzirov" haqqında çox sanballı bir yazısı dərc olunub. Bu mətn məndə də var. Mən söhbət açdığım kitabda da həmin yazını gördükdə sevindim. Lakin mətnləri müqayisə etdikdə təəssüfləndim. Yazı çox ciddi səhvlər, ixtisarlar və hətta izahı mümkün olmayan xətalarla oxuculara təqdim olunmuşdur. Nə üçün? Nümunə üçün H.Vəzirovun bəzi yazılarını da orijinalla yoxladım. Ərəb əlifbasından müasir əlifbaya köçürülən mətnlərdə elə ciddi səhvlərə rast gəldim ki, izahı heç cür mümkün deyil. Məsələn: "lüğət" - "ləfz" kimi, "isə-

**vi" (xristian) -"eyni", "isəviyyət" - "heysiyyət", "sümük" -"sevmək", "olmamağına" - "olmağına" və s. (bax: səh. 99-102). Hələ buraxılan söz, ifadə və cümlələri demirəm.**

**Qeyd edim ki, bu növdən olan xətalara ərəb əlifbasından transliterasiya edilmiş digər əsərlərdə də rast gəlmək olur. Yeni nəşrlərdə bunları nəzərə almaq vacibdir. İndi isə M.Ə.Rəsulzadənin adı çəkilən yazısını oxuculara təqdim edirəm. Burada təkcə H.Vəzirov və onun fəaliyyət göstərdiyi dövrü öyrənmək baxımından deyil, hətta bu günümüz üçün də faydalı məqamlara rast gəlmək olur.**

## HAŞIM BƏY VƏZİROV

Dün qafqasiyalı türk qəzetçilərindən sinli bir mətbuat xadimini dəfn etdik. Haşım bəy öldü.

Xalqı "Keyfim gələndə"si ilə təsxir (məftun) etmiş olan "Birisi"nin artıq "keyfi" gələcək olmadı. Haşım bəy fəal, səbatlı, çalışqan, nəfsinə inanmış, qüvvətinə güvənmiş bir əhli-qələm idi.

Qafqasiya mətbuatının az ömründə məmləkətimizin ən qüvvətli sərmayədarları türkcə qəzetə nəşrinə mübaşir (idarə edənlər) oldular, yoruldular, müqtədir qələm sahibi mühərrirlərimiz dəxi bu ağır meydanda davam edə bilmədilər. Əhli-qələmdən yalnız Haşım bəy idi ki, yalqız başına olaraq başladığı işi ölüncəyə qədər davam etdirdi. Haşım bəyin maddətən, mənən iflas etdiyi günlər oldu. Mətbəəsiz qaldı. Min qism müşkülata düçar oldu. Fəqət tutduğunu buraxmadı. Tək başına həm mühərrir, həm müsəhhih (korrektor), həm dəftərdarlıq edərək qəzetəsini dayandırmadı. Bütün ömrünü işinə sərf etdi. Nəhayət, bu qədər ağır məşəqqətə təhəmmül edə bilməyib (dözməyib), yoruldu. Bu yorğunluq dəxi, nəhayət, bu müəssif (təəssüf doğuran) və fəci bir halura mucib (bais) oldu.

Haşım bəy ədəbiyyatımıza, sənayei-nəfisəmizə (incə sənətimizə), yazıçılıq aləmimizə bir çox xadimlər bəxş etmiş olan müəllimlərimiz arasından zühur etmişlərdəndir. Əvvəllər də Şuşa və ətrafı kimi yerlərdə müəllimlik edirdi. Müəllimliyi ilə barəbər Haşım bəy təhrir (yazıçılıq) aləminə də özgə deyildi. Bəzi teatro əsərləri tərcümə edər və arabir Tiflis qəzetlərində rusca məqalələr nəşr edərdi. Nəşr elədiyi məqalələri müsəlman həyatına aid olardı. Sonra 1905-ci il araya gəlir, "Həyat" və "İrşad" qəzetləri təsis olunuyor. Haşım bəy Vəzirovun imzası haman tez-tez gözə çarpmağa başlayır. O sırada bulaşmaqda olan imzalar arasında Haşım bəy bilnəsibə (əsli-nəsəbi olan) nəzər diqqəti cəlb edi-

yor. Nəhayət, Ə.Ağayev cənabları "Həyat"dan ayrılıb da "İrşad"ı təsis ediyorlar. Haşım bəy Vəzirov da bir azdan sonra Bakıya köçüb, məzkur qəzetənin heyəti-təhririyyəsi arasına daxil olur. Daimi surətdə yazıçılığa girişiyor. Sonra Əli bəy Hüseynzadə cənablarının müdiriyyəti və Hacı Zeynalabdin Tağıyev cənablarının naşirliyi ilə nəşr edilməkdə olan "Həyat" dayanıyor. Əvəzinə Əli bəyin idarəsi ilə "Füyuzat" məcmuəyi-ədəbiyyəsi təsis olunuyor. Bir az sonra "Həyat" əvəzinə Haşım bəyin müdirliyi ilə "Tazə həyat" qəzetəsi təsis olunuyor. "Tazə həyat" ilə "irşad" arasında məslək mübarizəsi başlıyır. Nəhayət, "Tazə həyat" da qapandı. Əsl Haşım bəyin səbatkarlıq kimi mətin, səbir xislətə malik olduğu da bu zamandan sübuta yetişməyə başlıyor. O, naümid (ümidsiz) olmuyor. Özü qəzetə təsis ediyor. "İttifaq"ı çıxarıyor, "İttifaq"ı təsis elədiyi zaman bu o mətbəədə basdırıyor, min müşkülatla ruzigar keçiriyor, ağlıyacaq təhəmmül olunmayacaq günlər keçirdiyini qəzetəsini çap etmiş olan mətbəəçilər anlaşıyorlar. Nəhayət, Muxtarov cənablarından indiki mətbəəni icarə ediyor. Sonra icarə ücrətani (haqqını) dolduraraq mətbəəyə yerli-dibli malik oluyor.

1911-ci ildə "İttihadi-İslam" töhməti ilə bütün Bakı türk qəzetəçiləri donos qurbanı olub da həbs və nəfy (sürgün) edildikdə Haşım bəy qələm arkadaşları ilə həmdərd oluyor. Sonra xilas edilib də təkrar işində səbat (mətanət) göstəriyor. "İttifaq" bağlanıyor. Əvəzinə "Səda", onun yerinə "Sədayi-vətən", "Sədayi-həqq", onun əvəzinə də "Sədayi-Qafqaz" çıxıyor. Xülasə çıxarır, çıxarır. Haşım bəy işsiz, yazısız qalmıyor. Qəzetədəki təkbaşına bu qədər işi ilə bərabər Haşım bəy divar təqvimi də tərtib ediyor.

Xülasə bir çalışqanlıq və fəaliyyət mücəssəməsi. Mərufdur ki, makina kibi çalışan adamlar əksərən böyük bir sənət sahibi ola bilməz və xəlaqiyyat (yaradıcılıq) xasiyyəti göstərəməzlər. Fəqət Haşım bəy makina kibi çalışdığı halda bütün oxucularının zövqünü cəlb edən "Keyfim gələndə" kibi yüngül felyeton yazmaqda şöhrət tapmış və bu xüsusda həmqələmləri arasında bir səbqət (öncüllük) qazanmışdı.

Haşım bəy özündən sonra iki yetimindən başqa bir sərvət buraxmamışdı. Zatən zavallı lüt-layimutta keçinərək qəzetəçilərimiz əksərindən ötrü müqəddər (qismət) olan bir müşkülata ömür keçirmişdir.

Qəzetədə bu qədər çalışdığı halda, Haşım bəy maarif işlərində də xidmətsiz deyildir. Camaat xadimləri ilə arasında zühur edən soyuqluq bu xidmət sahəsində çox da fəaliyyət göstərə bilməməsinə mucib olmuşdur. Haşım bəy müəllimlik, camaat xadimliyi və qəzetəçilik elədiyi zamanına nisbətən şübhəsiz ki, görkəmli bir vücud idi. Mərhum "Səfa" cəmiyyətində vaxtilə sədr olub. "Nicat"da da işləmişdir.

Qafqasiya tarixi-mətbuatını birtərəfanə bir tədqiq nəzərilə təhlil edən müdəqqiq (tədqiqatçı) şübhəsiz ki, bu zamanın şərait və əhvalı daxilində mərhumi behəqq təqdir edib ismini layiq olduğu səhifəyə qeyd edəcəkdir.

Dün mərhumun tabutu arxasından həzin-həzin gedərək düşünürdüm. Haşım bəydən cavanlarımıza örnək olaraq nəyi göstərmək olar, - deyə özümə sordum.

İstiqamət: başladığı bir işi əncamə yetirmək əzm və səbatı! - deyə cavab verdim.

İştə ruhlu, məsləkli, qəlbləri atəşin bir əməlpərvərliklə dolu olan cavanlar, iştə sizə dəyərli bir nümunə!

...Məqsəd uğrunda Haşım bəy qədər səbatkar, başladığınız işdə bu mərhum qədər fədakar olunuz!

...Səni də Allah əfv etsin, ey zəhmətlərə qatlanan, ey sıxıntılardan usanmayan qələm arkadaşı!

Allah rəhmət eləsin sənə, ey xidmət qurbanı!

**M.Ə.Rəsulzadə**

*"Açıq söz" qəzeti, 7 fevral, 1916, N-105*

**"Günay" 28, 10 iyul 2004**

## X.SULTANOV VƏ C.HACIBƏYLİNİN İBRƏTAMİZ MƏKTUBLARI

**"Açıq söz" qəzetinin (1915-1918) 1917-ci il yanvar nömrələrini nəzərdən keçirərkən XX əsrin birinci yarısının görkəmli ziyalıları, ictimai-siyasi xadim və qələm əhli Xosrov bəy Sultanov və Ceyhun bəy Hacıbəylinin çox maraqlı və ibrətamiz "İdarəyə məktub"larına rast gəldim. Söhbət çox ciddi bir mövzudan: gürcü və azərbaycanlıların, müsəlmanların qarşılıqlı münasibətlərindən gedirdi. Xosrov bəy Sultanov Gürcüstan müsəlman xeyriyyə cəmiyyətinin, bütövlükdə Gürcüstan müsəlmanlarının ardıcıl, qətiyyətli müdafiəçisi idi. Gürcülərlə səmimi dostluq və qardaşlıq münasibətlərinə ciddi səy göstərən Xosrov bəy, gürcü millətçilərinin türklərə qarşı yönəlmiş qeyri-insani hərəkətlərini də qəti surətdə pisləməkdən və tənqid etməkdən də çəkinmirdi. "Açıq söz" qəzetinin 1917-ci il yanvarın 8-i nömrəsində dərc olunmuş məktu-**

**bundan da bu aydın görünür. Qeyd edim ki, "Kaspi" qəzetində (N287) bundan əvvəl C.Dağıstaninin (C.Hacıbəylinin) Xosrov bəyin bir bəyanatilə əlaqədar "Странное заявление" sərlövhəli bir yazısı dərc olunmuşdu. Ceyhun bəy belə bir mülahizəni rəhbər tuturdu ki, "cüzi şeylərdən ümumi bir soyuqluq törətmək böyük siyasi, ictimai və milli bir xətalardandır". Xosrov bəy isə yazırdı ki, "bizim böyük bir bədbəxtliyimiz var isə o da bizim özümüz üçün daima bədbin olduğumuzdur. Allahdan kəsilib, birisi həm də başqa millətdən bir nəfəri yalan və ya doğurdan bizim bir adamımıza ləkə sürtmək istərsə, bizim işimizi-gücümüzü buraxıb o işə öz adamımızın işi kimi deyil, başqalarının qələmi, yadların gözü ilə tənqid etməyə başlayacağız. Bizim millət nə üçün bir millət ilə dostluq edirkən öz varlığını unudur?".**

**Atalar yaxşı deyiblər ki, indinin kökü keçmişdədir. Xosrov bəyin yazdıqları indinin özündə də yaşamırmı?!**

**Faydalı və ibrətamiz hesab etdiyim iki məktəbu oxuculara təqdim edirəm.**

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm! Bu bir neçə sətirlik məktubun yaxın nömrələrindən birisində dərcini rica edirəm.

Bizim böyük bir bədbəxtliyimiz var isə o da bizim özümüz üçün daima bədbin olduğumuzdur. Allahdan kəsilib, birisi həm də başqa millətdən bir nəfəri yalan və ya doğurdan bizim bir adamımıza ləkə surtmək istərsə, bizim işimizi-gücümüzü buraxıb o işə öz adamımızın işi kimi deyil, başqalarının qələmi, yadların gözü ilə tənqid etməyə başlayacağız.

Bizim millət nə üçün bir millət ilə dostluq edirkən, kəndi (öz) varlığını unudur. Bilməm ki, biz bunun aydın bir timsalını "Kaspi"nin 287-ci nömrəsində oxuduq. Orada "Kaspi" qəzetəsinin mühərrirlərindən C.Dağıstani "Странное заявление" sərlövhəsi ilə Şeyx Sədi kürsüsünə çıxmış, oradan bizə nəsihət etməyə qoyulmuşdur.

Mənim Batumda "Oblastni komitetdə" söylədiyim bir sözə gürcü cəmiyyəti-xeyriyyəsi başqa bir don geydirərək meydana çıxarmışdır. Və bu barədə məzkur cəmiyyətin idarəsi Bakı cəmiyyəti-xeyriyyəsinə bir qaç sualları havi bir məktub göndərmişdi ki, bunun üzərinə Bakı müsəlman cəmiyyəti-xeyriyyəsi buna imtizah yolla bir məktub göndərmişdir. Mən bu məktubu və C.Dağıstani cənablarının məqaləsini ancaq bu ayın (dekabrın) 31-də aldığımdan bu gün onların hər ikisinə də cavab yazıram.

Cəmiyyəti-xeyriyyəyə yazdığım cavab qəzetə idarələrinə veriləcəkdir.

Mənə nə gürcü cəmiyyəti-xeyriyyəçilərinin mühaciməsi (hücumu), nə də cəmiyyəti-xeyriyyənin izahat istəməsi ağır gəlmədi, mənə ağır gələn bir şey var isə o da C.Dağıstani cənablarının əcaib "Странное заявление"sidir.

Bu gün ola bilər ki, gürcülər ilə bizim bəzi şeylərdə mənfəətlərimiz birləşməz. Aramızda bizi ayıracaq səbəblər ola bilər, o cümlədən məsələn, Acara, Lazıstan (Abxaziya) və sair müsəlman türk əhali ilə məskun olduğu halda gürcülər tərəfindən "gürcü" - deyə qəbul edilən yerlər məsələsi və nasıl ki, mən general Talaşınski ilə bərabər Axalsikdə gürcülərin narəva (nalayiq) hərəkətlərini görüb şaşdım. Onlar türk Ərdahan qaçqınlarını gürcüləşdirməkdən başqa bir iş görməmişlərdir. Nasıl ki, bu gün Ərdahanda gürcücə məktəb açırlar, Ərdahanı Gürcüstanın ayrılmaz bir qismi adlandırırlar.

Məsələn, Batumda acarlı, müsəlmanlar üçün açdıqları darülyetimdə (yetimlər evində) cümə günləri yerinə bazarı tətil edib, sənət dərsinin qoxusunu belə qoxutmayırlar. Halbuki o yetimlər evi islam cocuqları üçün açılmışdır. Biz onu da biliriz ki, bəzi gürcü politikanları ancaq gürcü müsəlmanlara yardım edirlər. Burasını da saxlayamayız ki, bunlar türkləri də gürcüləşdirmək fikrinə düşmüşlər. Ona misal olaraq aşağıdakı fəqərəyi (yazını) göstərə bilərik.

Bir qaç vaxt bundan əvvəl gürcü cəmiyyəti-xeyriyyəsi "Artuyun" poçt naçalnikinə min manat para göndərmiş, Naçalnik Sabaşvili cənabları da naçalnikə - Zaxaryana təklif etmişdir ki, məlul (ehtiyacı olan) göylərindən (kəndlərdən) fəqət gürcücə qonuşan (danışan) müsəlmanların siyahısını yazıb təqdim etsin ki, onlara gürcü cəmiyyəti-xeyriyyəsi para versin. Bizim buna bir sözümüz yoxdur. Fəqət iş burasındadır ki, avam türklərdən çoxu (nasıl ki, Axalsikdə olmuşlar) para almaq üçün Əlioğlu olan Əlidze, Vəlioğlu olan Vəlidze yazıldı ki, bəlkə parayı ələ keçirsin. Buna biz nə deyəlim.

Buna da göz yumsaq zənn edərsək millətimizin önündə böyük bir cinayət işləmiş olarız. Bunlar və bu kimi sair bir çox məsələlər də sırası gəlirsə ərz edəriz. Gürcülər ilə aramız olmaya bilir.

Fəqət bizim türk və müsəlman C.Dağıstaniyə nə deyəlim ki, bir sözlə hal və təbiyyətdən çıxıb: çox gözəl və yaxından tanıdığı adamı sual altına almışdır.

Çox yaxşı olardı ki, bu məsələdə mənim cavabımı bəkləyib sonra bizi tənqid edə idi. Bəlkə o vaxt "əcaib" düşməz idi.

**Cəmiyyəti-Xeyriyyə vəkili doktor Xosrov Bəy Sultanov**

***"Açıq söz" qəzeti, 8 yanvar 1917, N:371***

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm! Bakı cəmiyyəti-xeyriyyəsi vəkili doktor Xosrov bəy Sultanov cənablarının bəndədən etdiyi kinayə müqabilində bu bir neçə kəlmənin qəzetənizdə dərc olunmasını rica edirəm.

Əvvəla müəyyən bir qəzetə fəqərəsinə (yazılarına) rəddiyyə (tənqid) yazdıqda haman rəddiyyəni haman fəqərənin nəşr olunduğu qəzetəyə göndərmək və göndərilən rəddiyyəni məzkur qəzetə nəşr etməkdən imtina edərsə, o surətdə digər bir qəzetəyə müraciət etmək qəzetə aləmində qoyulmuş bir qayda olduğu doktor cənablarına yaxşıca məlum olsun gərək. Fəqət doktor cənabları nədən isə mənim "Kaspi"də rusca yazdığım fəqərəyə "Açıq söz"də türkcə cavab verməyi münasib görmüşlərdir. Əgər doktor cənablarının bundan məqsədləri kəndi (öz) ana dilini əziz tutmaq isə - sözümüz yoxdur; lakin onda sual oluna bilər ki, bəs nə üçün doktor cənabları yalnız bir "rus qəzetəsi" mühərririnin yazdığına bu qədər etina edib də həmin məsələ xüsusunda digər iki türk müsəlman qəzetələrində yazılan məqalələrə etina buyurmadılar?

Saniyən, mən də yazdığım məqalədə doktor cənablarını müttəhimedici heç bir şey olmuyub, yalnız həmin məqalə bunu havi idi ki, "əgər doktor Sultanqv Tiflis qəzetələri yazdığı fəqərəyi söyləmiş olursa, onda belə bir mühüm milli işə mübaşir olan şəxsin ağzından böylə bir bəyan çıxdığı bizə təəccüblü görünə bilməz". Vəssalam!

Mühərrirlik vəzifəmizdən nəşət edən belə məsum və heç bir vaxt doktor Sultanov cənablarının şəxsiyyətinə toxunmayan və onların öhdəsində olan milli və ictimai işdə mücahidliyini ləkələndirməyən belə bir fəqərədən (yazıdan) rəncidə olmuş doktor cənabları bəndənin öhdəsində olan vəzifə və höquqa "yüngül" bir nəzərlə baxıb da "C.Dağıstani Şeyx Sədi kürsüsünə çıxmış", bizə "Nəsihət etməyə qoyulmuşdur" - kimi iztehzalarla bizi müftəxir (təkəbbürlü) buyururlar. Fəqət bunun da eybi yoxdur.

Lakin doktor Sultanov cənabları nə buyururlar? Yazdığımız fəqərəyə "rəddiyyə"mi (tənqidmi) yazırlar, ya ki, yalnız kinayəmi ediyorlar? O məhud (məşhur) fəqərəyi söyləmişmi, yoxmu? Söyləmiş isə nə üçün, nə səbəbə söyləmiş? Bunların əvəzində doktor cənabları "Cəmiyyəti-xeyriyyəyə yazdığı cavab qəzetə idarələrinə veriləcəkdir" - deyir. Çox gözəl! Bəs onda piş əz vaxt (bundan əvvəl) mən yazdığım məqaləyə belə bir əcayib "rəddiyyə"yə nə hacəət? Bundan yaxşısı o olmazmıdı ki, doktor cənabları məsələ haqqında vəd elədiyi cavabı qəzetələrdə nəşr etdirməklə camaatı şəkk və şübhədən çıxara idi?

Və əgər çox xahiş etsə idi, yenə məndən kinayə etməyə başlaya idi. Hərçəndi ki, mən özümü həmin məsələdə kinayə-şayan ədd (hesab) etmiyoram. Çünki mən yazdığım fəqərədə Sultanov cənablarını "tənqid" etməmişdim. "Çox gözəl və yaxından tanıdığım bir adamı şübhə altına almamışdım" və bəlkə də həmin səbəbdən isə isnad verilən fəqərə buna "əcayib" görünmüş idi. O ki, qaldı doktor cənabları bəhs etdiyi gürcülərin hərəkətinə, mən yenə də "Sədi kürsüsünə çıxmaqdan" çəkinməyib bunu "nəsihət" edərdim ki, hazırda gürcü və müsəlman münasibəti-dostanəsinə xələl yetirə bilən məsələ xüsusunda ürəfamızın (ziyalılarımızın) böyük ehtiyatlı olması mətlubdur (arzu olunandır). Çünki cüzi şeylərdən ümumi bir soyuqluq törətmək böyük siyasi, ictimai və milli bir xətalardandır. Və bu nöqteyi-nəzər digərlərinin mənafeyi deyil, bəlkə bizim türk və islamlıq nöqteyi-nəzəridir.

**C.DAĞISTANİ**

*"Açıq söz" qezeti, 11 yanvar 1917, N-374*

**"Günay" N29, 17 iyul 2004**

**Frans Fon Verner**

## SƏADƏT DAŞI

*(TƏRCÜMƏÇİLİK TARİXİMİZDƏN)*

### *MARAQLI BİR TƏRCÜMƏ ƏSƏRİ*

**Geniş maarifçilik vəzifəsini həyata keçirən Azərbaycan milli mətbuatı səhifələrində Qərb və Şərq klassiklərinin əsərlərindən tərcümələr mühüm yer tuturdu. Görkəmli yazıçı və jurnalistlərimizin, sənət adamlarının, qələm əhlinin bu mühüm sahədə göstərdikləri səylər barədə az yazılmayıb. XIX əsrin sonu və XX əsrin əvvəllərində nəşr olunan mətbuat orqanlarını vərəqləyərkən bunun şahidi oluruq. Bu sahədə fəaliyyət göstərənlərdən biri də M.Ə.Rəsulzadə idi. Onun L.N.Tolstoy, F.M.Dostoyevski, Alfons Dode, M.Qorkidən etdiyi tərcümələr məlumdur. Bu yaxınlarda "İqbal" qəzetində (1914, N-2 557, 559) onun Vernerdən tərcümə etdiyi "Səadət daşı" hekayəsinə rast gəldim. Frans fon Verner (1836-1881) alman yazıçısı və türk diplomatı idi. Ədəbiyyatda "Murad**

**Əfəndi" adı ilə də tanınır. Türkiyə həyatı və Şərq mövzusunda bir sıra əsərlərin müəllifidir. "Səadət daşı" əxlaqi, Şərq müdrikliyi zəminində qələmə alınmış ibrətamiz hekayədir. Məncə, indi də maraqla oxunar.**

Rəvayət edirlər ki, Əndəlis xəlifələrindən Əl Hakim qocalmış, fəqət dövləti, iqtidar və şöhrəti həddindən ziyadə çoxalmış idi. O bir çox qəsrlər və saraylar tikdirmiş, bir xeyli şəhərlər və gözəl məmləkətlər dəxi onun təsərrüfünə (ixtiyarına) keçmişdi. Xəzinəsi də hədsiz-hesabsız qızıl, mirvari və almaz parçaları ilə dolmuşdu.

Yalqız batini xəzinəsi olan ürəyi biləks (əksinə) boşalır və həyatına səbəb olan şeyi gündən-günə korlanır, quruyur, pər-puç olurdu.

Əvvəla ürəyində bəslədiyi sevgi bir payız gülü kimi tökülüb ancaq vəzifə və etiyalardan (adətlərdən) ibarət olan quru bir bədən qaldı. Sonra dini heysiyyatı da zəiflədi. Namaz üstündən ruhlu və canlı olaraq qalxması nadirləşdi. Bilaxirə kitabları oxurkən duyduğu o pak və münəzzəh (təmiz) şadlıq dəxi əlindən çıxdı. Artıq mütaliədən dünyaya və insanın ürəyinə aid olan həqiqətlərin kəşfini gözləmir, yalqız ülumi-bəşəriyyənin darlığına və əqli-bəşərin məhdudluğuna heyran qalırdı.

Hər gün xəlifənin qəbul otağına sufilər, müctəhidlər gəlir və tamam bir ciddiyyətlə dünya elmlərilə kitablarını məzəmmətləyirlərdi. Vəzirlərin cələsələrində (iclaslarında) dəxi hər gün baş vəzir, hacib (baş vəzir) İbn Əbu Əmir ülum və fününun dini nüfuzdan salmalarından və mütəfənnilərin xalqı irtidadə (dindən dönməyə) çəkdiklərindən şikayət edirdi. Xəlifənin hərəmsərada (hərəmxanada) eşitdiyi sözlər dəxi bu qəbildən idi. Sevdiyi arvadı Səbihə eyni təbirlərlə dünya elmlərini məzəmmətləyirdi, onların əleyhində bulunurdu.

Çox illər keçdi. Xəlifənin iradəsi süstləşdi. Artıq Hacib ilə Səbihənin təşviqatına müqavimət eləmək çətinləşdi. Bir gün xəlifə paytaxtı Qırtəpədə din alimləri ilə dünya mütəfənnilərindən (elm adamlarından) mürəkkəb bir şura məclisi dəvət eləməyi qərara aldı. Bu məclis xəlifənin ürəyini darıxdıran şübhələri rəf edəcəkdi.

Müəyyən gündə Əndəlis, Məğrib, Misir və Şam məmləkətlərindən çağrılan alimlər əlhakimin bağında yığışdılar. Xəlifə bir ağacın kölgəsi altında qurulmuş taxtın üstə uzanmış, qonaqlar da onun qabağında bəzisi xalçalar, bəzisi də döşəklər üstə oturaraq bir nim dairə təşkil etmişlərdi.

Hicazlıların yaşıl əmmaməsi, təbiblərin ağ cübbəsi, məğriblilərin qırmızı fəsi, omanlıların çəhrayı sərpuşları, bəzəkli və əlvan bir kütlə

vücuda gətirmişdi.

Xəlifə üzünü camaata tutub dedi ki:

- Siz, ey müqəddəs bir həyata mənsub olan adamlar ki, tutduğunuz oruc və qıldığınız namazlar sayəsində behişt qapısını dəqqülbab edirsiniz (döyürsünüz). Və sizə ey mütəfənnilər ki, günlərinizi tədqiqat, gecələrinizi də təfəkküratda keçirirsiniz, mənim suallarıma cavab veriniz.

Dünyada iki həqiqət ola bilərmi? - bir həqiqət ki, bizə Quran vasitəsilə göndərilmişdir, bir həqiqət də ki, insanlar kəşf etmişlər - bunların ikisi də bir həqiqətin müxtəlif səhifələri isə, o halda bunlardan hankısı bizi məzkur həqiqətə yetirmək üçün daha əsəhhidir (daha doğrudur): din yolumu? Yoxsa elm?

Cavabını hazırlamaq üzrə, hər kəs başını sallamış, fikrə getmişdi. Məclisin intizamına baxan Hacib bir də baxdı ki, ağacın dibində çağrılmamış birisi durur. Bu adam əyin-başı yırtıq bir dilənçi qiyafəsində idi. Ağacın dalından baxaraq məclisi seyr edirdi. Hacib bu məchul olan adamın üstünə çığırdı:

- Adam, sənin burada nə işin var? Dilənmək üçün gəldin isə mətbəxə get, yemək istə, orada səni doyurarlar, burası sənin yerin deyildir.

- Ya İbn Əbu Əmir, sən bizə qulaq asmaq istəyən bu adamı nahaq yerə qovursan - deyə Əlhakim Hacibin sözünü kəsdi, dilənçini işarə ilə öz yanına çağırdı və yenə Hacibə xitabən dedi ki:

- Sən peyğəmbərimizin sözlərini unutdunmu ki, "Hikmət möminin qaçaq dəvəsidir. Hər yerdə olsa tutmalı, özünə mal etməlidir" - deyərdi.

Xəlifə başına əmmamə əvəzinə çirkli bir əski bağlamış olan dilənçini öz yanında oturtdu. Şərbət masasını onun qabağına çəkdi və öz barmağındakı üzüyü çıxarıb onun qara barmağına taxdı. Sonra dəvət olunmuş alimlərə tərəf dönərək verdiyi suallar haqqında rəylərini istədi. Birinci olaraq dünya alimləri - mütəfənnilər danışdılar.

Memarlar mərmər tikililər ilə günəşin zərin şüalarına bir ayna kimi məks olub da (bir yerdə durub da) par-par parlayan Qurtiyəni, onun böyük məscid ilə qeyri qabil təxrib olan minarə, günbəz və darvazalarını göstərib iftixar etdilər: dedilər ki, bunların hamısını dünya elmlərinin sayəsində tikə bilmişlərdir. Hükəməyun öz kəşflərindən, iksirdən və sair kimya əczalarından bəhs etdilər, peyvənd etdikləri meyvələrdən, Hindistandan gətirdikləri arılardan danışdılar, bu arılar nəbatata müzürr olan həşəratları dəf edirmiş.

Din alimləri bu bəyanatın hamısını sükut və aramlıqla dinlədilər.

Bəzisinin bu sözləri eşitməkdən ürəyi darıxır, bəzisi müstəhzibanə (istehza ilə) gülürdü. Çünki onlarca mütəfənnilər bu surətlə ancaq öz məqsədlərinin nə dərəcədə süfli (qiymətsiz) olduğunu göstərirlərdi.

Fəqət filosofların nitqlərini mollalar başqa cürə tələqqi etdilər. Filosoflardan birisi iqna (hesab) edirdi ki, sözlərdə ecazkar bir xasiyyət vardır. Yunan filosofunun qaydalarına təbən sözlərdən həlqələr və həlqələrdən zəncirlər toxumaq olar. Dəmir zəncirlərlə quyulardan nə cür su çıxarırsa, söz zəncirlərilə də eyləcə insan ürəyinin təkindəki həqiqətləri çəkib çıxarmaq olar.

Sufilər, müctəhidlər və dərvişlər böylə nitqlərə dayana bilmədilər. Çünki onlarca ürək öylə bir məqamdır ki, oraya kimsə nüfuz edə bilməz. Filosofun dediyi kimi, həqiqətin kəşfi üçün böylə sadə bir vəsiləyə inanmaq, onlarca Quranın zaid (ona artırılan) olduğuna inanmaq deməkdi. Bunun üçün də mollaların hamısı yerlərindən qalxdılar, ağız-ağıza verərək bağırdılar:

- Kəzzab (yalançı)! Məlun! Kəlb ibn kəlb (it oğlu it)!... - deyə hər tərəfdən səslər ucaldı.

Başı qırxıq, saqqalı uzun, ucaboylu, qara simalı, afrikalı bir məğribli isə əllərini irəli uzadaraq titrək barmaqları ilə əsəbiyyət əlaməti göstərdi, ağzı köpürdü. Quranın ən müdhiş lənətini haiz olan bu ayəni oxudu: (bax: 111 -ci surə, ayə 1)

- Əbu Ləhəbin əlləri qurusun: qurudu da!

Bu lən (lənətləmə) və bağırtılar xəlifəni hal və təbidən çıxartdı. Əlindəki əsanı mis cama vuraraq, acıqlı bir halda bağırdı:

- Sakit olun! Siz ancaq lən (lənət) etməyi bilirsiniz, inandırmağı deyil. Mən güman elədim ki, təsadüf aranızdan çaxmaq daşı ilə poladın təsadümündən (toqquşmasından) hasil olan kimi, həqiqət qığılcımı parlar! Halon ki, sizin sözləriniz mənim bağımı cəhl və zülmətlə doldurdu.

Qəzəbi soyuduqdan sonra xəlifə üzünü dilənçiyə tutub dedi:

- Sən də öz rəyini de, çox olur ki, sadə bir adamın sözü ömrünü başdan-başa mütalimə ilə keçirən həkimlərin sözlərindən daha aqilanə çıxar.

Dilənçi ahəstə, fəqət aydın bir səslə xəlifəyə böylə cavab verdi:

- Ey xalqa qarşı dəhşətli və iqtidarlı olub, özünə qarşı həlim və zəif olan böyük xəlifə. Bu xüsusda icazə veriniz öz rəy və mülahizələrimi deməkdənsə, sizə bir hekayə söyləyim - "Səadət daşı"na aid bir hekayə, onu mən Yəmən bədəvilərindən eşitmişəm. Bəlkə də bu bir hekayə deyil, millətlərin həqiqət və yuxu ilə qarışıq xatirələrinin əfsanəsidir.

Bir üzü İrana, digər üzü Hindistana baxan Rəsulhəd dağında, əski zamanlarda məşhur bir tayfa yaşayırdı. Bu tayfa pur (çox) qiymətli bir daşdan ibarət tilsimə malik idi ki, buna "Səadət daşı" deyərlərdi. Bu tilsim nə dövlət, nə hökumət, nə də zəfər verirdi. Ancaq məzkur daşdan bir növ yaşıl işıq çıxırdı ki, onun sayəsində görülməz bir çox şeyləri görmək olurdu. Bunun üçün yerdə, göydə və insanların ürəyində bu tayfaya məchul heç bir şey yox idi. Onlar ölümdən də qorxmurlardı. Çünki hər şeyi əvvəlcə bilir və məsud bir təbəssümlə müqəddarata boyun əyirlərdi. Zira ağalarının təsvirini bilən qullar onun əmrlərini asanlıqla ifa edərlər.

Rəsulhəddin qonşuluğunda olan tayfaların səadət daşına malik olan bu tayfaya paxıllıqları tutdu, birləşib Rəsulhəddə hücum etdilər.

Tayfa hücumlara davam gətirə bilməyib dərəyə endi və özünə təzə bir məskən aramaq üzrə Qərbə tərəf yollandı. Tayfa qaçarkən tilsimli daşı da özüylə bərabər götürdü. Fəqət daşı aparan adamlar onun yandırıcı istisinə davam gətirə bilməyib, fəci və ağır bir surətdə tələf olur, kimi yanır, kimisi də yaralanırdı. Çünki "Səadət daşı" hər bir cism və hər bir zərfi əridir, yandırırdı. Digər tərəfdən amansız düşmənin təqibi kəsilmirdi. Bunun üçün də rəsulhədlilər tilsimi bir mağarada basdırıb özləri yola düzəldilər. Fəqət yola düzələrkən bir-birinə söz verdilər ki, hankı bir vaxt olursa-olsun, geri dönüb tilsimlərini aparmaq vəzifələri olsun.

Bunların getdikləri səhra otsuz, ələfsiz, qumsal bir çöldü. Buralarda su tapılmırdı. Ancaq biri-birindən üç günlük fasilə ilə vaqe olan vahələrdəki (oazislərdəki) quyulardan su tədarük edib sirab (sulu) olurlardı. Böyləcə özlərinə bir məskən arayaraq tayfa rəbbülxali Dəhnə və Nəcd səhralarını keçdi, Şamatə çatdıqda bütün yerləri tutulmuş görüb üzünü qibləyə döndərdi, getdi və nəhayət Yəməndə bir yer tapıb dayandı. Tayfanın bu səyahəti on deyil, yüz deyil, tam min il sürmüşdü.

Nəsillər biri-digəri ardından ölürdü. Fəqət tayfa haman ümid və imanı ilə yaşayır, gözləyirdi ki, bir gün gələcək, yenə Rəsulhəddə qayıdacaq və tilsiminə malik olacaqdır. Atalar ölərkən oğullarından söz alırlardı ki, "Səadət daşı"nı axtaracaqlar və bütün təfsilata məzkur daşın harada basdırıldığı və oraya hansı yollardan getmək mümkün olduğu haqqında məlumat verirlərdi.

Yavaş-yavaş bu tayfa inqiraz etdi (dağıldı), nəsillər kəsildi. Onlardan Səna şəhərində Tacəddin adında yalnız birisi qaldı. Tacəddin tacir idi. Allah onu müvəffəq qılmış, ona bir çoxlu mal və mülk əta eləmiş idi. Gəmiləri Hindistan, İran və uzaq cəzirələrlə (adalarla) alış-verişdə idi. Ticarətinin iqtizasınca (tələbincə) iş böylə gətirdi ki, Tacəddin Kəl-

xut şəhərində sakin oldu. Kəlxut da təsadüfən Rəsulhəd dağının ətəyində vaqe olmuşdur. Fəqət Tacəddin buraya gəldiyi zamanlar bu dağın adı Rasiləd deyə tanılırdı. Tacəddin burada şəhərdən xaric böyük bir bağ aldı. Təsadüfən "Səadət daşı" da bu bağda basdırılmışdı.

Tacəddin qocaldı, ölümünün yaxınlaşdığını hiss etdi. "Səadət daşı" basdırıldığı yeri onun və yolunun haqqında ata-babasından eşitdiklərini iki kağız üzərinə təfsili ilə yazdı. Sonra gəmilərini, dükanlarını, şəhərdəki evini, üzüm bağlarını, ətirli ağac meşəsini, hesabsız dəvə və qaramal naxırlarını satdı. Və mal və mülkünün bu surətlə satışından ələ gələn qızılları iyirmi böyük küplərə doldurub şəhər xaricindəki bağ evinin anbarında basdırdı. Sonra iki oğlu Müzəffər ilə Mötəbəri yanına çağırıb yazdıqlarının hərəsini birinə verdi və basdırdığı qızılların yerini onlara göstərib dedi:

- Babalarınız "Səadət daşı"nı tapa bilmədilər, çünki fəqir idilər və öz başlarını dolandıra bilmirlərdi. Allaha həmd olsun ki, bu cəhətdən bizi müstəğni (varlı) etmiş və olduqca dövlət əta eləmişdir. Bizə vacibdir ki, ömrümüzü sərf edək, itirdiyimiz tilsimi tapaq. Mən qocalmışam, bəlkə "Səadət daşı"nın tapılması səadətinə nail olmaram. O sizə nəsib olar. Fəqət oğlanlarım məzkur tilsimi tapanda babalarımızın irtikab (xəta) elədikləri bu böyük xətanı siz daha təkrar etməyiniz. "Səadət daşı"nı özünüzə münhəsir (məxsus) qılmayıb qoyunuz bütün insanlar ondan istifadə eləsinlər.

- Tacəddin öldükdə oğlanları atalarının vəsiyyətlərinə əməl etməyə başladılar. Fəqət Tacəddinin vəsiyyətnaməsi uşaq ifadəsilə bəyan olunan həkimanə bir müsahibə qədər müftləq (havayı) və anlaşılmaz idi. Vəsiyyətnamədə zikr olunan bir çox qəvyular (varidat) əsla mövcud olmayıb müruri-dühur ilə (əsrlərin keçməsilə) qumlanıb örtülmüşdü. Bir çox yerlər və nişangahların adları belə dəyişmişdi. Çünki yerlər başqa dildə danışan tayfalarla iskan (məskən) olunmuşdu.

Müzəffər ki, böyük oğul idi, atəşin bir qəlbə malik olub atasının yazdıqlarına hərfən inanırdı. "Səadət daşı"nı aramağa çıxdı. Yəmənə getdi. Oradan səyahətə başladı. Şamatə və Nəcdə qədər getdi. Burada artıq vəsiyyətnamədə göstərilən yerlər və quyuları tapa bilmədi. Pullar, əməklər sərf elədi. Heyətlər, karvanlar düzəltdi. Ətraf və əknafə (kənar yerlərə) dağıtdı. Fəqət tapmadı ki, tapmadı. Bununla bərabər ümidini də üzmədi, imanına rəxnə (zərər) düşmədi. Biri-digəri adından karvanlar hazırladı, adamlar, badpalar (sürətli qaçan atlar) tutdu, getdi, axtardı və əsl məskəndən yüz günlük bir məsafədə ikən bu gün, ya sabah tilsimi tapacaq - deyə inandı, durdu.

Kiçik qardaşı Mötəbər zəki və iti bir ağıla malik idi. Atasının yazdıq-

larını kəmali-diqqətlə təhlil elədi. Hər bir sətrinə və hərfinə diqqət etdi və onlarda bir çox tənaqüslər (əksikliklər) taparaq qət elədi ki, bunların hamısı qədim adamların sayaqlaması və bihudə şeylərdir. Bunun üçün də getdi başqa faydalı bildiyi işlərlə məşğul oldu. Halbuki, həqiqətdə səadət mağarası Mötəbərin oturduğu otaqdan bir neçə mülk məsafədə idi. Mötəbər əsasən tilsimin vücuduna belə qail deyil idi.

Dilənçi susdu.

Əlhakim hekayətin axırını bir az gözlədikdən sonra səbirsizliklə dedi:

- Ey şəxsi-məchul! Məğribdə buludlar qızarır. Müəzzinlər minarələrə çıxmış azana hazırlanırlar. Bir az sonra hamımız ikindi namazına başlamalıyıq. Binaən-iliyh bizi incitmə, de görək bu hekayətdən məqsədin nədir?

- Ya xəlifə, burada anlaşılmaz bir şey varmıdır?!

Böyük qardaş Müzəffər tilsimi onun üçün tapa bilmir ki, vəsiyyətnamənin hər bir sözünə bilatəsvir inanır. Kiçiyi Mötəbər də onun üçün tapa bilmir ki, əslən bu rəvayətə inanmır. Sən heç düşünməyirsən ki, bunların ikisi birləşib də birisi atasının imanını, o biri də kəskin ağlını bir araya gətirsəydilər, hamımızın axtardığı bu tilsimi mütləq tapardılar?...

Əlhakim başını sallayıb, dilənçinin sözlərini düşünməyə başladı. Başını qaldırdıqda yanında oturan qələndəri (dilənçini) artıq görmədi, ipək balış üzərində ancaq bir az əvvəl dilənçiyə bağışladığı üzük dururdu.

**Mütərcim: M.Ə.Rəsulzadə**

***"İqbal" qəzeti 20 və 22 yanvar 1914, N-557, 559***

**"Günay" N31, 31 iyul 2004**

# TORPAĞA VƏ MİLLƏTƏ SAHİB ÇIXAN "HÜRRİYYƏTİ-MAARİF CƏMİYYƏTİ"

Şəkidə tarixi keçmişimizi tədqiq edən, araşdırmağa səy göstərən az da olsa, ziyalı qalmaqdadır. Bunların sırasında mən vaxtilə mənim dissertantım olmuş və müvəffəqiyyətlə dissertasiya müdafiə edib filologiya elmləri namizədi elmi dərəcəsi almış Sabir Əfəndiyevi, müəllim Həbibulla Manaflını xüsusi qeyd etmək istəyirəm. Birincinin ən son kitabı "Şəki Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti illərində (1918-1920-ci illər) adlanır. 2003-cü ildə Şəkidə işıq üzü görüb. Yalnız 100 nüsxə çıxara biliblər. Təəssüf! İkincinin 2 il bundan əvvəl "Tarixə qayıdış" kitabı Bakıda cüzi bir tirajla buraxılıb. Məlumdur ki, milli tariximizi dəqiq, geniş, əhatəli tədqiq etmək üçün təkcə Bakıda cərəyan edən hadisələrin araşdırılması ilə kifayətlənmək olmaz. Vətənimizin müxtəlif bölgələrində xalq hərəkatını, milli oyanış və milli tərəqqi uğrunda mübarizə aparan və beləliklə ümummilli istiqlal mücadiləsinə güc və qüvvət verən proseslərin də öyrənilməsi vacibdir. Xalq vətənin hər bir guşəsində fəallıq göstərdiyi zaman həqiqi tərəqqi və inkişafa nail ola bilir. Biz bunun bariz nümunəsini 1917-1919-cu illərdə Şəkidə çox geniş fəaliyyət göstərmiş "Nuxa hürriyyəti - maarif cəmiyyəti"nin nümunəsində aydın görürük. 1919-cu ilin 2-ci yarısında adını çəkdiyimiz cəmiyyət öz fəaliyyəti barədə 24 səhifədən ibarət bir hesabat kitabçası nəşr etmişdir. Nuxada "Mədəniyyət" mətbəəsində nəşr olunmuş bu kitabçanın bir-iki nüsxəsi qalmışdır. Kitabçada cəmiyyətin yaranma tarixi, onun nizamnaməsi, 1917-ci ilin aprelindən 1919-cu ilin martına qədər gördüyü işlər, cəmiyyətin 18 nəfərdən ibarət fəxri, 76 nəfərdən ibarət həqiqi üzvlərinin siyahısı, həmçinin cəmiyyətə maddi və mənəvi yardım göstərən 400-dən artıq müxtəlif peşə sahiblərinin adları qeyd olunmuşdur. Maliyyə hesabatı diqqəti cəlb edir. Göstərilən müddət ərzində 11.611 manat vəsait toplanmışdı. Onların məxaric cədvəli də verilmişdir.

Diqqəti cəlb edən bu cəmiyyətin yerli ziyalılar, iş və din adamları, maarif və mədəniyyətin tərəqqisində marağı olan vətəndaşlar tərəfindən könüllü surətdə yaranması və fəaliyyət göstərməsi faktıdır.

Mənim qənaətimə görə, kitabçada cəmiyyət haqqında verilmiş giriş məqaləsi indi də ciddi maraq doğura bilər. Yazını oxuculara təqdim edirəm.

**Şəki, avqust 2004**

## "NUXA HÜRRİYYƏTİ-MAARİF CƏMİYYƏTİ"nin İDARƏ HEYƏTİ

1917 sənəsi aprel ibtidasından 1919 sənəsi mart ibtidasına qədər cəmiyyət idarəsinin heyəti aşağıda zikr olunan şəxslərdən ibarətdirlər:

**1) Fəxri sədr - Nurməhəmməd Əfəndi İmamzadə**
**2) Müavini - sədr və xəzinədar Abdulla Əbdülrəhmanzadə**
**3) Katibi-cəmiyyət - Veysəl Mustafazadə**
**4) Əbdülrəşid Əfəndizadə**
**5) Zahid İbrahimxəlilzadə**
**6) Əsgər Ağaməhəmmədzadə**
**7) Mirhəsən Axundzadə**
**8) Rəcəb Əfəndizadə**

**Bunlara kandidat və idarə köməkçiləri:**
**1) Hacı Qədir Hacı Əhməd oğlu**
**2) Usta Əhməd usta Əziz oğlu**
**3) Hidayət Hacı Əfəndi oğlu**
**4) Yusif Xəlilzadə**
**5) Musa Muradov**
**Təftiş komissiyası:**
**1) Əbdülkərim İmamzadə**
**2) Həsən Əbdülrəhmanzadə**
**3) Cəfərqulu Bəşir oğlu**
**4) Əliəkrəm Hacı Məhəmməd oğlu**
**5) Vahab Sadıqzadə**

Məzkur illərin ərzində cəmiyyətin fəxri əzası (üzvləri) 18, həqiqi əzası (üzvləri) 76 nəfərdir.

Rusiya mənhus istibdad hökumətinin yıxılıb hürriyyət alınması münasibətilə millətimizin maarifcə geridə qalmağı nəzərə alınaraq Nuxa ziyalı cavanlarımızdan bir neçəsinin təşəbbüsü ilə Nuxada 1917 sənə mart ayının axırlarında "Hürriyyəti-maarif cəmiyyəti" namı ilə bir bilgi cəmiyyəti təşkil olundu. 30 nəfər üzvün vücudu ilə ictima ümumidir. İdarə intixab olundu. İdarə fəaliyyətə başlayıb təzə üzvlər cəlb edib ianələr topladı, teatrlar vermək üçün dram heyəti təsis edib teatr və müsamirələr verdi. O zaman Nuxa şəhəri qəzasında bərbad halda bir neçə rus və müsəlman məktəbindən savayı milli məktəblərimiz olmadı-

ğından cəmiyyət ən əvvəl ibtidai milli məktəblərin güşadına iqdam etdi. Ancaq həmin məktəblər üçün müəllimlər yoxluğunu nəzərə alaraq yay mövsümündə müəllimlər kursu açmağa qərar verdi. Müfti və Şeyxülislam həzrətlərinin Şəkiyə vürudində idarə onlara bu fikrini bəyan etdi. Fikir hüsn-rəğbətlə qəbul olundu və müşari-ileyhanın (adı göstərilənlərin - Ş.H.) təşviqatı ilə tarixi bir gecədə şahinişin otağında doqquz min manat həmin məqsəd üçün para toplandı. Lakin həmin paralar cəmiyyətə verilməyib kursa və cəmiyyətə biganə bir neçə ağaların təsərrüfünə keçdi. Hər nə qədər cəmiyyət bu paranın kursa verilməsinə çalışdısa da, nəticədə "maariflə məşğul olmaq zamanı deyil" - cavablar aldı. Hərçənd cəmiyyət bu üzdən böyük müşkülata uğradısa da fəqət yenə məqsədindən əl çəkmədi. Şəhər və bütün kəndlərə kurs açıldığını xəbər verdi. Və müqtədir müəllimlər dəvət edilib 1917 sənə iyun ibtidasında kurs açıldı və dərslər başlandı. Nuxa qəzasının hər küncündən, hətta Şamaxı və Qaryagin kibi uzaq guşələrdən altmışa qədər tələbə toplandı. Tələbələr imtahan ilə qəbul olunaraq dərsə şüru etdilər. Kursda fünundan (fənlərdən), ədəbiyyatdan, təlim və tərbiyə üsullarından hər növ dərs verilərək, bir də tədris üsulunu təcriyyə (təcrübə) ilə göstərmək üçün kursun çənbində bir nümunə ibtidai sinfi təsis olundu. Cəmiyyət tələbələrin qeyri ehtiyaclarını da nəzərə alaraq onlar üçün yatacaq və möhtaclarına aylıq maaş verdi. Həmçinin ərzaq komitəsindən onlar üçün ucuz qiymətlə ərzaq alıb verdi. Tələbələrə zamanın iqtizasına (şəraitinə) görə hərb təlimini öyrətmək üçün bir zabit də dəvət olundu. Üç ay mütəssil təlim tədrisindən sonra imtahanlar verilərək 35 nəfər tələbəyə ibtidai məktəblərə müəllimlik əhliyyətnaməsi verildi. Müəllim hazırladıqdan sonra cəmiyyət milli məktəblər açmağa şüru etdi. O zaman vaxtilə şəhərin ən küzidə məktəblərindən olan ikinci cümə məscidi çənbindəki vətən məktəbi bərbad bir halda idi. Müəllim və maaş yoxluğundan məktəb dağılıb, uşaqlar küçələrə tökülmüşdü. Cəmiyyət bu məktəbə təcrübəli və yeni çıxan müəllimlərdən dəvət edərək onları maaş cəhətdən təmin edib, məktəbi nizama saldı. Bir az vaxtın içində iki yüzə qədər uşaq küçələrdən yığılıb təhsilə başladılar. Cəmiyyət kəndlərdə də məktəblər açmağa mübəlliğlər (təbliğatçılar) göndərib əhalinin köməyi ilə 25-ə qədər məktəb binası qoydu. Bundan başqa cəmiyyət savadsız, sinni (yaşı) böyük cavanlarımızın da qeydinə qalıb onlar üçün vətən məktəbində pulsuz gecə kursu açdı.

Qız balalarının oxuyub tərbiyə sahibi olması cəmiyyətin məqsədlərinin birisi olduğundan maarifcə ən geridə qalan şəhərin yuxarı baş hissəsində yenə pulsuz olaraq bir qız məktəbi güşad etdi. Burada fə-

qir qızların kitab, qələm, dəftər məxaricini də cəmiyyət dəröhdə etdi.

İki sənə müddətində cəmiyyət haman məktəbləri öz xərci ilə idarə etdi. Bununla belə hökumətdən də müavinət gözləməkdə idi. Təşəkkürlər olsun ki, milli hökumətimizin maarifə verdiyi əhəmiyyətdən dolayı cəmiyyət məktəblərinə müavinət göstərdi. Və müəllimlərin maaşını verməyi öhdəsinə aldı.

Cəmiyyət burada Nuxa və Ərəş maarif müfəttişi Abdulla bəy Əfəndizadə cənablarına minnətdardır. Cəmiyyət millətin qeyri ehtiyaclarına da biganə qalmamışdır. Kazanda Ümumrusiya hərbi qurultayına göstərdiyi müavinət, fəqir müsəlman tələbələrinə verdiyi ianə və qeyri bu qəbildəndir. Haman iki hərc-mərc sənələrində xeyli müşkülata uğrayıb, böyük maneələrə təsadüf edən cəmiyyət yuxarıdakı fəaliyyəti göstərə bildiyindən ümid vardır ki, bundan sonrakı zamanda millətin köməyi ilə bütün məqsədlərinə nail olacaqdır.

**"Günay" N32, 7 avqust 2004**

BƏXTİYAR VAHABZADƏ - 79

## ŞƏKİNİN ŞAİR HƏSRƏTİ

Avqustun 3-də axşam saat 11-də mənə mobil telefonla zəng oldu. Neçə aydır həsrətində olduğum doğma səsi eşitdim, 60 illik məslək və əqidə dostum Bəxtiyar Vahabzadənin səsini! Əvvəlcə duruxdum, sonra baxdım ki, özüdür. Hal-əhval tutduq. Dostum və qardaşımın ilk sualı belə oldu: Hələ Şəkiyə getməmisən? Cavab verdim ki, əzizim, mən Şəkidəyəm, sənin yolunu gözləyirik, sənsiz hamı darıxır, hər axşam başına toplaşdığımız güllü-çiçəkli həyətdə, sənin gəlişini gözləyən ev adamları, dostlar, qonşular da, hətta kölgəsinə sığındığımız, əlinlə əkib ərsəyə yetirdiyin cökə ağacları da sənsiz darıxır, gəlişini gözləyirlər. Avqustun 16-sı, sənin anadan olduğun tarix yaxınlaşdıqca bu hiss daha da güclənir. Axı biz 30 ildən artıqdır ki, hər il bu əziz günü Şəkidə birgə qeyd etməyə adətkar olmuşuq. Bu il deyəsən, şair təvəllüdünün 79-cu ildönümünü Şəkidə yox, Bakıda qarşı-

layacaq. Amma biz öz adətimiz üzrə bu tarixi günü bayram edəcəyik! Nə eybi var! Təki canı sağ olsun, inşaallah, gələn il 80 illik yubileyini xüsusi tərzdə qeyd edərik.

Xalq şairinin Şəkiyə gəlişini təkcə onun doğmaları, dostları, pərəstişkarları gözləmir, minlərlə həmyerliləri bu gəlişi həsrətlə gözləyir. Axı, el ağsaqqalı, camaatın dərdinə-sərinə yarayan, ondan kömək umanlara əl uzadan, çoxlarının karına gələn, sözü keçən, ürəyi yanan bir həqiqi millət atası imicini qazanmış, böyük bir millət fədaisinin yolunu gözləyirlər!

79 yaşın mübarək, qardaş! Bilirsən ki, hələ bizim çin olmayan arzularımız var! Onların reallaşması, doğma Vətənimizin qoparılmış hissələrinin birləşdirilməsi uğrunda mübarizə naminə, sosial ədalətin bərqərar olması naminə yaşamağa dəyər. Millətin, Azərbaycanın indi sənə daha çox ehtiyacı var. Yaşa, var ol!

***Şəki, avqust, 2004***

**"Günay" qəzeti, N33,**
**14 avqust 2004**

YENİ KİTAB

## ORİJİNAL BİR NƏŞR

Azərbaycan Milli Elmlər Akademiyası Şəki regional elmi mərkəzi "Şəkidə məhəllə adları, soylar və ləqəblər" adlı iri həcmli, nəfis şəkildə tərtib olunmuş kitab hazırlamış və bu yaxınlarda oxuculara təqdim etmişdir. Qeyd edək ki, uzun illərin axtarış və gərgin zəhməti sayəsində ərsəyə gəlmiş bu əsər Şəkinin yalnız "Qoruq ərazisi"ni əhatə edir. Deməli, növbəti nəşrlər üzərində iş davam etdirilir.

Bu ilin iyul ayında işıq üzü görmüş 374 səhifədən ibarət bu kitab vətənimizin qədim və dilbər guşələrindən biri olan Şəki haqqında bu vaxtadək yazılmış əsərlərdən əsaslı surətdə fərqlənir. Kitabın redaktoru, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı "Dünəni yaşadan, sabahlara isə soraq aparan kitab" sərlövhəli giriş məqaləsində haqlı olaraq yazır ki, "Gərgin və ağır zəhmət bahasına ortaya çıxmış bu əsər həm tarixi-informativ qaynaq, həm də folklor, dil və etnoqrafi-

ya materialı kimi olduqca əhəmiyyətlidir. Burada qorunan, əzizlənən, sevilən, qürur duyulan tarixlə yanaşı, sabahı yüz illərə, gələcək nəsillərə ləyaqətlə təqdim edilən bir elmi ərmağan, əmanət qərarlaşıb. İki cild olaraq nəzərdə tutulan toplama-tədqiqatın birinci hissəsi kimi təqdim olunan bu kitabın indinin özündə də əhəmiyyət və dəyəri misilsizdir. Ancaq onun bir məxəz, unikal qaynaq şəklində yüz, iki yüz il sonra hansı mərtəbəyə və qiymətə yüksələcəyini də düşünmək və görmək də gərəkdir".




Şəkinin "Qoruq ərazi" adlanan qədim mərkəzi hissəsində əsasən 5 məhəllə yerləşir. Yuxarı Baş, Güləhli, Bazarbaşı - Qullar, Gəncəli, Otaq eşiyi. Bu məhəllələrdə 191 yer adı və nəsil ləqəbləri barədə müəlliflər ətraflı tarixi arayış təqdim edirlər. Ən maraqlısı budur ki, bu nəsillərin yetişdirdiyi tarixi şəxsiyyətlər, onların bütövlükdə Azərbaycanın maddi, mədəni-mənəvi inkişafındakı rolları haqqında ətraflı məlumat verilir.

Məlumdur ki, Vətən adlanan torpağın hər guşəsinə əsl-nəcabət gətirən onun sakinləri, adamlarıdır. Müxtəlif sənət və peşə sahələrində öz işinin ustası kimi tanınan, hər işi halallıq üstündə quran insanlardır. Kitabın müəllifləri (mərkəzin rəhbəri, elmlər doktoru Zəkəriyyə Mabud oğlu Əlizadə, kiçik elmi işçi Sevinc Bəharəddin qızıdır) məhz milləti yaşadan, onun varlığını qorumağı, ad-sanını, şan-şərəfini mühafizə etməyi bacaran insanlar, nəsillər barədə söhbət açırlar. Millət və xalq ailələrdən, nəsillərdən təşəkkül tapır. Bu vaxta qədər yazılan tarix kitablarında bu mühüm cəhət həmişə unudulurdu, təkcə hakimlər, xalqı idarə edənlər, bir də ki, məşhur mədəniyyət və sənət xadimləri haqqında az-çox yazılırdı. Halbuki hər bir eldə yaşayan adların, ləqəblərin arxasında tarix içindən gələn sirli-hikmətli mətləblər, folklor, etnoqrafiya materialları, maddi və mənəvi mədəniyyətimizə dair unikal informasiyalar dayanır.

Kitabın dəyəri və məziyyətləri çoxdur. Lakin müəlliflərin özlərinin də qeyd etdikləri kimi qələmə alınanlar heç də ərazini tam-dolğun əks etdirmir, soylara məxsus adların incələnməsində qeyri-dəqiqliyə, bit-

kin olmayan fikirlərə rast gəlmək olur. Məsələn, Şəkinin məşhur iş adamı tacir Hacı Məhəmmədsadıq Əliyev 1917-ci ilin avqustunda vəfat etmişdir. Hətta "Kaspi" qəzeti bu barədə 12 avqust 1917-ci il tarixli nömrəsində xüsusi nekroloq da vermişdi. Mən bu nekroloqu 1990-cı ildə "Şəki fəhləsi" qəzetində Cəlil Xəlilovun tərcüməsində dərc etdirmişəm. Amma kitabın 186-cı səhifəsində yazılır ki, "Şəkidə sovet rejiminə, bolşevizm əleyhinə müsavat hərəkatı güclənəndə, siyahılar tərtib olunub, hərəkatın üzvü kimi qol çəkdirəndə bir çox sahibkarlar, eləcə də Məhəmmədsadıq Əliyev də qol çəkmir... Sovet çekistləri, o siyahıda Əliyevin qolunu görmədikləri üçün var-dövlətini əlindən alsalar da, özünə dəymirlər". 1917-ci ildə vəfat edəni 1920-ci ildə təsvir etmək ciddi xətadır.

Müəlliflər əsas məlumatları, informasiyaları xatirə söyləyənlərdən toplamışlar, "yalnız söyləyicilərin dediklərini qeydə almağa, yazmağa" çalışmışlar. Əlbəttə, təkcə xatirələrlə kifayətlənmək olmaz. Bu xatirələr lazımi arxiv sənədləri, dövri mətbuat və mühafizə edilmiş əlyazmaları ilə də yoxlanmalı və dəqiqləşdirilməlidir. Güman edirik ki, bu mühüm cəhət kitabın gələcək nəşrlərində nəzərə alınacaqdır.

Qeyd edim ki, söhbət açdığımız kitab onun əsas hazırlayıcılarından AMEA-sı Şəki Regional Elmi Mərkəzinin rəhbəri, elmlər doktoru Zəkəriyyə Mabud oğlu (Sevinc Bəharəddin qızı ilə birlikdə) Əlizadənin bu səpkidən birinci əsəri deyildir. Onun "Ulduzlarımızdan qalma öyüd-nəsihət və xeyir-dualar" (2000), "Əcdadlarımızın tibb bilikləri deyimlərimizdə" (Hədiyyə Şəfagül ilə birlikdə) hazırladıqları kitabları (2002) da göstərə bilərik.

Şəki Regional Elm Mərkəzi kollektivinə bu faydalı işdə yeni uğurlar arzulayıram.

***Şəki, avqust 2004***

**"Günay" N34, 21 avqust 2004**

# "YA ÖLÜM, YA TÜRKİYƏ" ADLI MƏNZUM BİR KİTABÇA HAQQINDA

Azərbaycan tarixinin çox mürəkkəb həm faciəli, həm də şərəfli dövrünü təşkil edən 1917-1920-ci illər nə qədər tədqiq edilib öyrənilsə də, yenə də açılmamış səhifələr, diqqətdən yayınan hadisə və cərəyanlar, unudulan şəxsiyyətlər qalmaqdadır. Bu xüsusilə əyalətlərə aiddir. Məlumdur ki, keçən əsrin ilk onilliklərində təkcə Bakı, Gəncə və Şuşada deyil, Azərbaycanın digər bir sıra şəhərlərində də kiçik mətbəələr, nəşriyyatlar fəaliyyət göstərir, maraqlı kitabça, vərəqə və intibahnamələr çap edirdilər. Belə mətbəələrdən biri də Şəkidə təşkil olunmuş "Mədəniyyət" mətbəəsi idi. Göstərim ki, Tiflisdə əsrin əvvəllərindən bu adda, yəni "Kultura" adlı mətbəə fəaliyyət göstərirdi. Bu mətbəədə görkəmli maarif və mədəniyyət xadimi, yazıçı Rəşid bəy Əfəndiyevin bir sıra əsərləri nəşr olunmuşdur. Həmin nümunələr indi də R.Əfəndiyevin Şəkidəki ev muzeyində nümayiş etdirilir. Şəkidəki "Mədəniyyət" mətbəəsinin 1917-1920-ci illərdə nəşr etdiyi kitabçalar içərisində bu vaxta qədər haqqında çox az danışılıb və bəlkə də filologiya elmləri namizədi Sabir Əfəndiyevə qədər yazan və danışan olmamışdır. Həmin kitabça belə adlanır: "Hər ürəkdə səbt olubdur: Ya ölüm, ya Türkiyə!". Onun müəllifi Rəşid bəy Əfəndiyevin kiçik qardaşı Abdulla Əfəndizadədir (1873-1928). Abdulla bəy Şəki, Gəncə və Tiflisdə təhsil görüb.






O, 1899-cu ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunu bitir-

miş və Şəkidə, sonra Bakıda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Digər tərəfdən geniş maarifçilik hərəkatına qoşulmuş, tərcümələr etmiş, dövri mətbuatda xeyli yazıları çıxmışdır. Adını çəkdiyimiz kitabça 1336-cı ildə(1918) işıq üzü görmüşdür.

Abdulla bəy Əfəndizadə 1918-ci ilin noyabrında Şəkidən Azərbaycan parlamentinə deputat seçilmiş, 1919-cu ilin yanvarında Azərbaycan parlamentində yeni bir siyasi təşkilatın "Əhrar" Partiyasının yaranması haqqında bəyanat vermişdi. "Əhrar" Partiyasının proqramı "Müsavat"ın proqramına yaxın idi. Abdulla bəy Əfəndizadənin cümhuriyyət dövrü fəaliyyəti ayrıca bir tədqiqat mövzusudur.

Kitabçada dərc olunan şerlər göstərir ki, Abdulla bəy Türkiyə və bütünlüklə İslam dünyasında cərəyan edən hadisələri diqqətlə izləyir və bu mövzudakı görüşlərini, düşüncələrini nəzm şəklində qələmə alırdı. Onun kitabçada dərc olunmuş "Növhə", "Ümid", "Acı həqiqətlər qarşısında böyük ümid və varlıq", "Qafqaza dəvət!" mənzumələri bu qəbildəndir. I Dünya müharibəsi, Türkiyənin və İslam dünyasının bu dəhşətli müharibəyə qədərki və müharibə dövrü durumunu Abdulla əfəndi diqqətlə izləyir, Azərbaycanın və bütünlüklə Qafqaz türklərinin taleyi ilə bağlı problemlərə öz münasibətini bildirirdi. Kitabçaya o, əvvəlcə "Amallarımız" sərlövhəli qısa bir giriş yazmışdır. Burada deyilirdi: "Amalsız millət yaşayamaz! Amala yetişmək isə qeyrət və çalışqanlıq sayəsində olur. Qeyrətin olmayınca nüsrət (qələbə) bulamazsan. Böyük Türkiyə ilə birləşib əzəmətli və elmli bir səltənət təşkil etməklə bərabər ittihadi-millət və ittihadi-lisan (dil) bizim milli amallarımızdır. Buna görə biz kəmali-məmnuniyyətlə ittihad və tərəqqi firqəsinin proqramını qəbul edirik".

Göründüyü kimi, o vaxt Əhməd bəy Ağayevin Azərbaycanın Türkiyəyə ilhaq edilməsi fikrinin Şəkidə də güclü tərəfdarları vardı. 1918-ci ilin iyununda Nuru paşanın rəhbərliyi altında türk hərbi qüvvələrinin Gəncəyə gəlişilə ilhaqçılar öz fəaliyyətlərini xeyli gücləndirmişdilər. Məhz bunu nəzərə alaraq M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycanın müstəqilliyi tərəfdarları Bakı və Azərbaycan ərazisi daşnak-rus işğalçılarından azad edilənə qədər bu mövzunu gündəlikdən çıxarmağa nail olmuşdular. 1918-ci il sentyabrın 15-də Bakı azad edildikdən sonra ilhaqçıların mövqeyi zəiflədi.

Abdulla Əfəndizadə "Ya ölüm, ya Türkiyə!" şerlər kitabçasına "Bir neçə söz" də yazmışdır. Burada oxuyuruq: "İslam aləmində yaşayan diri millət yalnız osmanlı olub başqaları ölümcül bir halda imrari-həyat etməkdədir.

İçərisində yaşadığımız aləmşümül müharibə burasını dəfaətlə (dəfələrlə) sübuta yetirdi... Mən də müharibədə fəal iştirak etmədimsə də fikrən osmanlı ordusunun dövri-bərində davranmaqda idim. Və ara-sıra hissiyati-millətpərvəranələrimi və başqa düşüncələrimi nəzmən kağız üzərində səbt edirdim. Bu mənzumələr tək mənim deyil, bəlkə cümlə qafqazlı millət qardaşlarımın həyati-milliyələrini havidir (əks etdirir). Zira ki, bunların hər birisi öz vaxtında millət içərisində əldən-ələ keçməkdə və xanəndələr ağzında oxunmaqda idi".

Müəllif sonda yazırdı:

"Şimdi haman əsərləri topladım və ilhaq məsələsi üçün təbliğatda bulunduğum bir çox şəhərlər və vilayətlərin mürəvvəci-əfkarı (fikrinin ifaçısı) olan "Qafqaza dəvət" mənzuməmi Türkiyə ordusu naminə əlavə etdim. Həmin əsərlər bizlərin əski tarixdən bəri ana Türkiyəyə qovuşmaq fikrimiz, yeganə amalımız olduğunu bildirdikləri üçün və məhz bu cəhətdən layiqi-etina oxunar deyə tərəfi-acizanəmdən qəhrəman türk ordusuna təqdim olunmalarına cəsarət etdim. Qəbul olunarsa, kəndimi (özümü) ən böyük bəxtiyarlardanədd (hesab) edərəm".

Abdulla Əfəndizadənin kitabçadakı şerlərindən bəzi nümunələr:

### "NÖVHƏ"dən

*Xüdavənda, hər iqlimə qılıbsan çarə yüz yerdən!*
*Nədəndir bəs bizim millət olub biçarə yüz yerdən?*
*Hesabca milləti-islam üç yüz milyonu keçmişdir,*
*Nə hikmətdir həmin millət olub səd parə yüz yerdən?..*

*Ayə ey milləti-ali! Dönübdür çərxi islamın!*
*Vətən qan ağlayır indi geyinmiş qara yüz yerdən!..*
*Təcavüz eyləyir düşmən sərasər irzi-namusa!..*
*Bizim ümidimiz sənsən buna qıl çarə yüz yerdən!*

### "Qafqaza dəvət!"dən

*Ey nəcib övladın ordusu Şəki və Şirvana gəl!*
*Tiflis, Bakı və Şuşa, Gəncə və Səlyana gəl!..*
*...Hər ürəkdə səbt olubdur: "Ya ölüm, ya Türkiyə!"*

*Hər ağızdan yüksəlir fəryada-şeyda: Türkiyə!..*
*Səbrimiz daha tükəndi, durma gəl, şahana əl!*
*Yurdumuz düşmən əlində olmamış viranə əl!*

Zənnimcə 1917-1918-ci illərdə ictimai-siyasi fikrimizin müxtəlif çalarlarını obyektiv elmi tərzdə oxuculara çatdırmaq baxımından bu nadir, cəmi 16 səhifəlik kitabçanı yenidən nəşr edib heç olmazsa mütəxəssislərə çatdırmaq faydalı olar. Həm də məlum olar ki, 1918-ci ildə qardaş türk islam ordusunu Azərbaycana dəvət edənlərin sıralarında kimlər vardı. Azərbaycan torpaqlarını daşnak-bolşevik rus işğalından, xalqı isə fiziki cəhətdən məhv olmaqdan xilas edənlərin xatirəsini yad etmək vicdanı borcumuzdur.

***Şəki, sentyabr 2004***

**"Günay" N37, 11 sentyabr 2004**

# KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz** ........ 3
**T.Köçərli.** Düz adam, elm fədaisi ........ 4
**B.Vahabzadə.** Ləyaqət mücəssəməsi ........ 5
**C.Məmmədli.** Talisman ........ 7
**H.Hacıyev.** Əvəzedilməz fədakarlıq ........ 10
**Ş.Qurbanov.** Mətbuat tarixinin çətin yollarında ........ 11
Ürək qanı ilə yazılmış sətirlər ........ 15
Əsrlər keçir, problemlər isə qalır, niyə ........ 21
İstiqlal dövrü, təqib illəri, sevincli-əzablı günlərimiz ........ 25
Oxuyaq, düşünək, yad edək ........ 33
Xeyir uzaqlarda, şər qucaqlarda ........ 37
19 iyun Fətəli Xan Xoyskinin qətlə yetirildiyi gündür ........ 41
Mətbuat cəmiyyətin övladıdır ........ 45
Bitən əsrin böyük şəxsiyyətləri ........ 48
Qlobal düşünən böyük mütəfəkkir ........ 52
Gənc türklər, yaxud türkçülük nə deməkdir ........ 56
Paolo Lembonun dedikləri, "Molla Nəsrəddin"in yazdıqları ........ 60
N.Nərimanov və şəxsiyyətə pərəstiş xəstəliyi ........ 63
"Tayms"ın yazısı, Üzeyir bəyin durğu işarələri ........ 65
Həqiqi insan və qəhrəman haqqında mütəfəkkir sözü ........ 68
"Təkliyimizdə narazı, məcmumuzda razı", nə sirridir bu? ........ 72
Şəki: İki müstəqillik dövrü, iki mənzərə ........ 74
15 sentyabr 1918-ci il Bakının azadlıq günüdür ........ 78
Milli intibah: Talantlar, bədxahlar ........ 84
Hal-hazırın kökü keçmişdədir... Keçmiş gələcəyin iynəsidir ........ 89
Müddətsiz keçid dövrü, tanış sistem ........ 92
Altmış yeddi üstəgəl on ........ 95
İnformasiyalı cəmiyyət və təhsil problemi ........ 99
Elm, tərəqqi, rifah və zəlalət ........ 101
Tariximizin diqqətəşayan hadisəsi ........ 103
Şanımız - şöhrətimiz - bayrağımız ........ 107
Ermənilərin türk-islam düşmənçiliyi və İranda ermənı
ərköyünlüyü ........ 111

V.Putinin ABŞ-a "pəncərə" açmaq istəyi və
Hürriyyət "skvoznyakı" .... 114
Nizami Gəncəvi - 860 .... 117
Vətən qayğılı, millət duyğulu, tarixə düşmüş parlamentimiz .... 121
1986-cı il 17 dekabr Alma-Ata hadisələri. Bakıda əks-səda .... 124
Əsrin ikici ili və bəşəriyyətin artım problemi .... 128
Qafqaz-türk xalq şairi .... 130
Elmə zidd qüvvələr bəşəriyyəti yenə də təhdid edir .... 134
Jurnalistə fantastik zəhməthaqqı .... 138
Zaman nə istəyir .... 140
"Soyuq müharibə"dən "Azadlıq" müharibəsinə .... 143
Təhsil: Milli məktəb və milli ruh .... 146
Azadxahlığın qərb və şərq anlamı .... 150
Milli oyanışımızın banisi .... 153
Tarixi inkişaf proseslərinə orijinal bir baxış .... 158
Müstəqillik şövqü, bayram sevinci .... 160
Aşura .... 163
İntellektual mülkiyyət əsri .... 165
Azərbaycan siyasi mühacirətinə dair dəyərli tədqiqat .... 167
Mirzə Ələkbər Sabir - 140 .... 170
Tariximizin qara günlərindən biri - 27 aprel .... 175
Mücahid və fədailəri terrorçularla qarışdırmaq olmaz .... 179
Ə.M.Topçubaşov-140. Nadir şəxsiyyət, qeyri-adi nazir və
parlaman sədri .... 181
Müqəddəslik və paklıq timsalı .... 188
Karrupsiya və rüşvətə dair yeni açıqlama .... 191
M.F.Axundov-190 Böyük filosof, mütəfəkkir sənətkar .... 193
Təcavüzkar və passiv ideyasızlıq .... 198
Qarabağda erməni itaətsizliyi .... 200
Bəşəri dərdlər, qlobal problemlər azalmır ki, azalmır .... 204
Qəddar təcavüzkar, iftira və böhtan qurmaq "ustaları" .... 207
Müqəddəs bir əqidəni kimdən gözləyirik .... 210
Molla Nəsrəddin və qəzeti "Ətiqə"ləri .... 214
Ümumbəşəri insan və torpaq problemi .... 218
Kərbəlayi Məhəmməd Hacı Ağazadə və "Medal" əhvalatı .... 221
Çingiz Aytmatovun xəbərdarlığı, zəmanəmizin reallıqları .... 223

Əyib-əylənən hakimlər, əyilməz nadir şəxsiyyətlər ........................ 226
Yenədəmi səlib yürüşü? ........................................................................ 230
Adi günlər, təhlükəli və ibrətamiz hadisələr ...................................... 232
Neft eyforiysı və real gələcək ............................................................... 234
Con Kennedenin dedikləri, Vaşinqtonun indiki hərəkətləri ............... 237
Bir saniyədə 40 trilyon əməliyyat. Qüdrət və güc elm
və texnikadadır ...................................................................................... 240
Paradoks: Artım da var - uçurum da dərinləşir .................................. 242
Dərdlərimizin tərcümanı Üzeyir bəy ..................................................... 245
Bizdən uzaqlaşan illər, hadisələr ........................................................... 249
Nəyimizin vaxtıdır? ................................................................................ 252
Stalinizmin anatomiyasına dair xatirə- əsər ........................................ 267
7 dekabr parlament günümüzdür .......................................................... 270
Jurnalistika - ortaq dəyərlər, ortaq problemlər .................................... 273
Yeni il arzuları və keçmişə bir nəzər ..................................................... 277
Böhtan və məkrlə dolu bir suala cavab ................................................. 280
Mənəvi və maddi çətinliklər içində çabalayan sənətkar ömrü ............ 282
Tariximizin işıqlı günlərindən biri ........................................................ 285
İnsan təbiət və bəşəriyyət qarşısında məsuliyyət daşıyır .................... 288
"Leyli və Məcnun" operası - 95 .............................................................. 292
Əks-səda. Nargində də soyqırımı muzeyi yaradıla bilər ...................... 298
"Qartal" F.M.Dostoyevskidən dilimizə ilk tərcümə ............................. 307
Köhnə dünyanın yeni düzəni baş tutacaqmı? ....................................... 311
Açılmamış səhifələrin izi ilə ................................................................... 315
İnqilablar, çevrilişlər, islahat təşəbbüsləri. Bəs nəticə? ....................... 318
Həqiqi və yalançı vətənpərvərlik ........................................................... 322
Fövqəldövlət Amerika və dünyanın narahatçılığı ................................. 325
Novruz düşüncələri ................................................................................. 328
"Şərqi Rus"- 100 ...................................................................................... 331
Allah uzaqda, ABŞ yaxınlıqdadır ........................................................... 336
"Hakimiyyət və xalq. Azərbaycanda müharibədən sonrakı
Stalinizm" ................................................................................................. 338
İraq faciəsinə qısa tarixi bir baxış .......................................................... 342
Əzab çəkən və ümidlə yaşayanlar nəsli .................................................. 346
Tiflisdə 26-28 may hadisələrinin Bakıda əks-sədası ............................. 350
İllərin fəlakəti, günün sevinci ................................................................. 353

Sonuncu dərs ........ 354
Azərbaycan Xalq Cümhuriyyəti - 85. Birinci Respublikamızın
qısa və şərəfli yolu ........ 360
Tarix obyektivlik və dəqiqliyi sevir ........ 363
300 illik məsafə: Dəyişən nə, qalan nə? ........ 366
Bürokratik bəhanə, yaxud rəsmi dezinformasiya ........ 369
Ü.Hacıbəyov. Biz ilə yevropalıların təfavütü ........ 371
Qlobal ədalətsizlik nə qədər davam edəcək? ........ 374
Aktual mövzu: Müəllim dərs desin, yoxsa dərd çəksin! ........ 376
Yeni təhlükə erası başlanıbmı? ........ 379
C.Hacıbəylinin jurnalistlərimizə tövsiyəsi ........ 381
Azərbaycanda neçə Qaçaq Nəbi olub? ........ 386
"Baş üstə"lər nə qədər olar? ........ 386
Din böyük bir ictimai amildir, yoxsa dil? ........ 388
Zamanın imtahanı - 16 səhv söz, min bir yalan ........ 393
İnsanı yaşat ki, millət yaşasın, dövlət yaşasın! ........ 396
Doğru yol tapmaq asanmı? ........ 399
Aktual səslənən çağırış ........ 401
Bakının azad edilməsinin 85 illiyi. Bir il bayram, 70 il böhtan,
14 il çək-kevir ........ 404
Üzeyir bəyi anarkən düşündürücü bir sorğu ........ 406
300 il və "qovub çatma" tipli inkişafın paradoksları ........ 408
Sıralarımızdan bir alim, bir sənət fədaisi də getdi ........ 410
Üzeyir Hacıbəyov. Bizim təqvim. Təzə il, təzə meydan ........ 411
Əvvəl nə idiksə, yenə biz hamanız ........ 413
Azadlıq və rifah yolu maarifçilikdən keçir ........ 415
M.Ə.Rəsulzadə -120. Hər bir xalq öz taleyinə layiqdir,
vicdanımız necəsə, vətənimiz də elədir! ........ 417
Stolıpin yeni əsrdə kimlərə lazım olub ........ 421
Rusiya-Yapon müharibəsi və "skvoznyak" əhvalatı ........ 424
Tariximizdən səhifələr: Tənbəllik və ətalət bəlasına qarşı
həyəcan təbili ........ 427
Fevralın dərsləri, dövrün tələbləri ........ 430
Mətbuatımızın ibrətamiz səhifələri. Dostluq fanatizmi və
milli mənafe ........ 432
Demokratik niyyət, qaba qüvvət ........ 436

Hürriyyət baharı, novruz bayramı ........................................................ 439
31 mart soyqırımı haqqında əsl həqiqətləri bilirikmi? ........................ 440
Əqidə və amal sahibi ............................................................................. 445
Həyat səviyyəsi, insan hüquqları və "Məzhəb azadlığı" məsələsi ...... 448
Qarabağ faciəsi, Mirzağa Əliyevin səfər təəssüratı ............................ 452
Cinayətkar siyasətə xitam verilməlidir ................................................ 455
Tariximizin ibrət səhifəsi: Qara 1 may ................................................ 458
Tatar aliminin tariximizə dair dəyərli tədqiqatı .................................. 460
"Azərbaycan talançısı adlandırmaq... ("Stalinin Bakılı dostu
Rəsulzadənin taleyi) ............................................................................... 464
"Zaman"ın vaxtilə yazdıqları, bu günün reallıqları ............................. 474
Bu gün üçün də aktual olan bir polemikanın 100 illiyi ........................ 477
Mirzə Cəlil sovet dövrünün ilk millət vəkilləri haqqında .................... 480
Nargin ölüm düşərgəsi unudula bilməz ................................................ 482
I Pyotrun məlum-məchul "vəsiyyətnamə"si ......................................... 487
Yaxşı niyyət, böyük zəhmət, təəssüflü xətalar ..................................... 494
X.Sultanov və C.Hacıbəylinin ibrətamiz məktubları ........................... 498
Frans fon Verner. Səadət daşı (tərcüməçilik tariximizdən) ................. 502
Tarixi keçmişimizdən. Torpağa və millətə sahib çıxan
"Hürriyyəti-maarif cəmiyyəti" .............................................................. 509
Bəxtiyar Vahabzadə -79. Şəkinin şair həsrəti ..................................... 512
Yeni kitab. Orijinal bir nəşr .................................................................. 513
"Ya ölüm, ya Türkiyə" adlı mənzum bir kitabça haqqında .................. 516

*Buraxılışa məsul:*
Binnət Süleyman

*Kompüter dizaynı:*
Aliyə Qabilqızı

Yığılmağa verilmişdir: 05.11.2004
Çapa imzalanmışdır: 11.12.2004
Kağız formatı: 60x90 1/16
H/n həcmi: 32,87 ç.v.
Sifariş: 564
Sayı: 200

Kitab "ADİLOĞLU" MMC-nin
mətbəəsində çap edilmişdir.

*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 498-68-25; faks: 498-08-14*

ŞİRMƏMMƏD HÜSEYNOV

**MƏNƏVİ İRSİMİZ VƏ GERÇƏKLİK**

*Bakı, "Adiloğlu" nəşriyyatı - 2004, 526 səh.*